Herodot

TARİX

(Doqquz kitabda)
BİRİNCİ HİSSƏ

Bakı - 1998

Tərcümə edəni:
filologiya elmləri doktoru, professor PƏNAH XƏLİLOV
Redaktoru Azər Bağırov
Rəssamı Stanislav Şatikov

"Tarixin atası" sayılan Herodotun 9 kitabdan ibarət "Tarix" əsərində Yunan-İran müharibələrindən, habelə qədim dünyanın bir sıra dövlətlərinin, o cümlədən Şərq ölkələrinin tarixindən, coğrafi mövqeyindən, yerli xalqlarından, onların adət-ənənələrindən ətraflı bəhs olunur. Əsər Azərbaycanın qədim tarixini öyrənmək baxımından da qiymətli məxəzdir. Midiya tarixi, habelə iskitlər (skiflər), onların Azərbaycana gəlmələri, Azərbaycan ərazisində yaşamış qədim qəbilə və tayfalar haqqında məlumatlar son dərəcə dəyərli elmi əhəmiyyət malikdir.

* * *

İçindəkilər

Tarixin atası bə biz
I Kitab - KLİO
II Kitab - YEVTERPA
III Kitab - TALİYA
IV Kitab - MELPOMENA
V Kitab - TERPSİXORA

* * *

TARİXİN ATASI VƏ BİZ

Herodotun "Tarix"ini açan hər kəs birinci kitabın ilk sətrində iki ad görür: "Halikarnaslı Herodot..." Sonra bütün "Tarix" boyu gah uzaq keçmişin o vaxta qədər qalan abidələrini öyrənən, keçmişlər haqqında birinci, ikinci, hətta üçüncü dildən olaylar, əsatir, əfsanə, rəvayət, dastan və müdrik sözlər eşidən; gah da zamana hadisələrinin iştirakçıları ilə görüşərək onların fikrini və xatirəsini dinləyən müəllifin hər şeyə açıq-aşkar, birbaşlı, qərəzsiz və ədalətli rəyini sanki "eşidirik". İlk sətirdə nişan verilən müəllifin və onun doğulduğu şəhərin adına qalanda bu, o vaxtın dəbindən gəlir.

Şərqdə məşhur şəxsiyyətlərin öz adından başqa təxəllüsü, künyəsi, atasının və oğlunun adı, hətta rütbəsi, fəxri adı çəkildiyi kimi, yunan mənbələri də ən hörmətli, yüksək rütbəli şəxslərin öz adı ilə yanaşı çox vaxt onların əcdadının və nəslinin də adını çəkmişlər. Ərəb dəbinə görə İlyas İbn Yusif Əbu Məhəmməd Şeyx (bəzən Həkim) Nizami Gəncəvi sadalanması İlyas adlı şairin atasının, sonra oğlunun adını, şeyxliyini, təxəllüsünü, axırda doğulduğu şəhərin adını göstərir. Yunan mənbələrində də şəxsiyyətin əsil-nəcabətini sadalamaqla yanaşı, doğulduğu yerin adını çəkmək dəb olmuşdur. "Tarix"də üç halikarnaslı Herodot adı çəkilir, bunlardan birincisi müəllifin özüdür, o, Liksin oğludur.

Bu ilk nişanvermə dəbindən sonra "Tarix"in qalan səkkiz kitabının heç birində müəllif öz adını çəkməyi lazım bilmir. Amma "mənim fikrimcə", "mənim təsəvvürümə görə", filankəsin "dediyinə", filankəslərin "mənə çatdırdıqlarına", "özümün öyrəndiklərimə", "gördüklərimə görə" deyən Herodot "Tarix"in bütün şahidləri sırasında apaydın "görünür. Allahlara səcdə edib, köylərin yerə-insanlara hökmünə, allahların iradəsindən asılı olmayan Taleyin hökmünə, ilahi ədalətin tərəzisində ölçülüb-biçilən yaxşılığın və yamanlığın itmədiyinə, hər kəsin öz əməlinə görə mükafatlandırılıb, ya da cəzalanacağına inanan, bununla belə, tarixə rasionalist düşüncə ilə yanaşan, tiranlıq dövrünü

downloaded from KitabYurdu.org

keçib o zamanın şəhər demokratiyasının ləzzətini dadan ağıllı, hikmətli, geniş məlumatlı bir insan kimi görünür. Duyma, qavrama səviyyəsindən, yaxşı adamlarla ünsiyyət qayğısının dərəcəsindən, keçmişin müdriklərinə hörmət hissinin gücündən asılı olaraq 2500 il bundan qabaqkı adamın surətini hər kəs öz xəyalında eyni böyütmə Hünəri ilə olmasa da, hər halda, əsrlərin sınağından çıxmış bir təmizlik və paklıq cilvəsində təsəvvür edə bilir. Tarixi-mədəni xidmətlərinə belə rəğbətli gözlə baxan qədirbilən nəsillər üçün Herodot "Tarix"ində tez-tez işlənən "barbar" sözü, xüsusən, ellin olmayan xalqlar və uluslar üçün heç də ağır gəlmir, çünki mətndəki bu söz azad bir ölkəni qul etmək üçün ona qarşı zor və silah işlədən işğalçı, vətən torpağını tapdayan düşmən, daha açığını desək, yadelli təcavüzkar mənasında işlənmişdir. Herodot pelasqlarla qaynayıb-qarışan, yalnız bu qarışmadan sonra möhtəşəm olub, həm də mədəniyyət aləmində böyük addımlar atan yunanların dili ilə danışanda qaynayıb-qarışmazdan qabaqkı pelasq dilini də barbar dili adlandırmışdır. "Barbar", yəni yunanlar üçün qabaqlar yad olan qəbilə, "barbar dili", yəni, bu yad tayfanın dili mənası daşımışdır. Bir-biri ilə vuruşan Ellada elləri-ulusları da bir-birinə barbar-özgə ulus, özgə tayfa gözü ilə baxırlar. Dövrünün demokratiya qurumu, xalqların azadlığına hörmət və qarşılıqlı rəğbət arzusu və idealı baxımından Herodot Assuriyanın Asiyada surən beş yüz illik əsarətinə son qoyaraq, bu regionda ilk dəfə azadlıq bayrağını qaldıran midiyalıları sevinclə alqışlamış və eyni sevinclə də öz ölkəsinin qeyrətli vətəndaşı kimi Elladanın istiladan yaxa qurtarması ilə öyünmüşdür. "Tarix"in "Dinclik şəraitində oğullar ataları, müharibə şəraitində atalar oğulları dəfn edirlər" hikməti bir xalqın, elin, ulusun deyil, bəşərin təcrübəsinə arxalanan müdrik sözdür və bu söz xalqların qəhrəmanlıq dövrünü halikarnaslı Herodot "Tarix"indən xeyli qabaq və xeyli sonralar əks etdirən dünya şöhrətli dastanlarla səsləşmişdir: Homerin "İliada"sında igid oğul Hektorun öz atası Priamı dəfn etməsi təbii qanunauyğunluq olardı, amma beli bükülmüş ağsaqqal Priam meyiti təhqir olunan oğlunun dalınca "qatilin" çadırına gəlib meyiti ləyaqətlə dəfn etmək üçün ona yalvaranda bu mənzərə oğul itirmiş dərdli atanın yazıqlığını, əlacsızlığını, alçalmaq məcburiyyətini bütün faciə ağırlığı ilə göstərən bəşəri bir müsibət kimi "qətilin" özünü-Axillesi də göz yaşlarına qərq edir, onun ovuna bilməyən sərtləşmiş ürəyini yumşaldır. Axilles Priamın timsalında öz atasını gözünün qabağına gətirib təsəllisiz qalacaq bu qocaya ağlayır, öz qismətinə ağlayır və ağladıqca dostunun ölümü üçün Hektordan aldığı amansız intiqamı dərinləşdirmək qəzəbindən uzaqlaşır, insanlaşır. Axilles qəhrəmanlıq dövrünün bütün igidliyi, şücaəti, vətənpərvərliyi ilə yanaşı, bu dövrün müsibətini, fəlakətini, əvəzsiz itkilərini dərk edir. "İliada"nın dünyada analogiyası kimi şöhrətlənən "Mahabharata" dastanı da beləbir və orada da ataların oğulları dəfn etməsi bəşərin iradəsindən sanki kənar olan amansız Tale hökmü kimi faciə dərinliyi ilə açılmışdır.

Herodot Elladanın da, Asiyanın da adlı-sanlı hökmdarlarını iki zidd görüş, iki həyat tərzi, insanın, cəmiyyətin və dövlətin taleyinə iki baxış məngənəsinə salıb onları sanki sınaqdan keçirməyə, kimin tarixdə necə iz qoyduğunu müqayisəli göstərməyə, kimin rəhmət, kimin lənət qazandırını onların əməllərində açaraq oxucularını (hər kəsdən qabaq öz ölkəsinin kübar cəmiyyətini) düşündürməyə, tarixdən ibrət götürməyə çağırmaq istəmişdir (əlbəttə, çılpaq didaktikadan uzaq olmaqla). Farslardan öz şahlarını necə qiymətləndirdiklərini soruşanda onlar fars dövlətini yaradan Kambis oğlu Kuruş şahı el atası, onun oğlu Kambisi dövlət ərbabı, I Daranı isə alverçi kimi xatırlayırlar. Farsların gözündə Kuruş farsların şöhrəti, yaxşı dolanışığı, şərəfli adı üçün qayğı göstərən bir atadırsa, Dara istila etdiyi bütün ölkələri satraplığa bölərək hər satraplıqdan vergi aldığına görə alverçidir; ələ keçirdiyi sərvət, Hədiyyə, qullar, cariyələr, nökərlər onun gözünü qamaşdırır. Fars xanədanını Kuruşla başlayan Herodotun müqtədir bir ədib kimi əsərin kompozisiya baxımından sonuncu kitabının son sözlərini də Kuruşun farslara vaxtı ilə verdiyi öyüdlə tamamlaması təsadüfi deyil. Əsərin finalındakı bu xatirədə Kuruş farsları özlərinin kiçik torpağına, bəhərsiz-bərəkətsiz olan vətəninə bağlanmağı, onu buraxıb firavanlıq üçün kənara getməməyi məsləhət görür. Belə bir məsləhəti sonralar türk hökmdarının Orxon-Yenisey abidəsindəki yazıda görürük.

Şah sarayında əsil-nəcabətli adamlardan ikisinin-Daranın qardaşı Güştəsp oğlu Artabanla Daranın kürəkəni Qobri oğlu Mərdonini üz-üzə qoyub, birincini açıq ürəkli, açıq sözlü, haqpərəst və şah Kserksi müharibədən çəkindirməyə çalışan nəcib insan kimi, ikincini cavanlığına salıb mənəmmənəmlik iddiası ilə hər şeydə farsın üstünlüyünə inamla meydana atılan və igid qəhrəman olsa da, tarixin gedişini görə bilməyən məhdud düşüncəli bir şovinist kimi ümumiləşdirəndə Herodotun onları qəsdən üzləşdirdiyi adamın ağlına gəlmir. Bu, faktların özündən çıxan hikmətdir, ibrət dərsidir.

Midiyada da beləbir. Kiaksar el atasıdırsa, onun oğlu Astiaq (Herodotun şəxsi mülahizəsinə görə) kobud, intiqamçı olub xalqı, kübarları yola verdiyinə görə taxt-tacı itirən bir hökmdar timsalıdır. Kiaksar zamanın dəbinə görə həm də ədalət məhkəməsi qurarmış, şikayətləri yazılı alıb, onlara yazılı cavab göndərərmiş. Astiaqda ədalət məhkəməsindən əsər-əlamət görünmür və atanın sayəsində qazanılmış azadlıq oğlun vecsizliyi, xüsusən sayğısızlığı nəticəsində əldən çıxır. Bu ata-oğul timsalında atalar demişkən, oddan kül törəyir.

Bu müqayisə "Tarix"in minillikləri əhatə edən doqquz kitabında cəmi dörd qadın hökmdarın ağıl, mərifət, ləyaqət, hünər, mərdlik timsalı kimi verilməsində də açıq görünür. Bu qadınların ikisi Babil, biri massaget, biri də yunan hökmdarıdır. Dördü də kişilərdən üstün tutulur, hərəsi özünə məxsus nəcibliyi ilə fərqləndirilir. Massaget hökmdarı Tomiris al dillə ona yaxınlaşan şahı rüsvay edir, onu ölkə basmaqdan çəkindirməyə çalışır, müharibə labüd olanda şahı mərdanə vuruşmağa çağırır; şah hərbi hiylələrə əl atıb dul qadını aciz sayanda o, qana susamış şahı qanla doyduracağına and içib ədalət qılıncını qından çıxarır. Müharibənin nəticəsi hər iki tərəf üçün, hər iki ölkə hökmdarı üçün ağır və ibrətli olur: Tomiris yeganə oğlunu itirir, Kuruşun meyiti düşmən torpağında qalır, hər iki tərəfdən qan su yerinə axıdılır. İstər Araz qırağında massaget hökmdarı Tomiris olsun, istər Babildə çayları ram edib, qalalar, möhtəşəm şəhərlər saldıran hökmdarlar olsun, bunlar qandan-qadadan, zorakılıqdan, kütləvi insan tələfatından uzaq olan bir cəmiyyətdə hər xalqın öz dəbi ilə azad ömür sürməsi siyasəti yeridirlər. "Tarix"in burada da didaktikası varsa, o, öz-özünə, hadisələrin gedişindən doğur. Bununla belə hər ölkənin, hər hökmdarın, hər qəhrəmanın əvvəlini-axırını göstərən süjetlər nə qədər təbii, tarixən gerçək olsalar da, istər-istəməz müəllif didaktikası tarixə onun öz münasibətini

downloaded from KitabYurdu.org

əks etdirən ədəbi-bədii nəsr nümunələri kimi qiymətlidir. Buna görə Herodot zamanəsinin qüdrətli ədibi kimi tanınır. "Tarix"ə qulaq asan Afina kübarları Herodotu mükafatlandıranda əsərdəki yeniliklərdən başqa, tarix yazan bir ədib kimi onun üslub gözəlliyini, mətnaltı fikir söyləmək qüdrətini də nəzərə almışlar. Bir şəhərdə dərin rəğbət qazanan Herodot başqa yerlərdə, əksinə, narazılıq oyatmışdır. Onu ancaq üslub gözəlliyi pərdəsi altında gizlənən yalançı, hər eşitdiyi söz-söhbəti tarix kimi qələmə verən böhtançı sayanlar az olmamışdır. Herodotun xidmətinə bu ikili münasibət Siseronun onu tarixin atası adlandırmasından sonra da qalmışdır.

Herodotun dövründə (e. ə. V əsrdə)1 dünya coğrafiyası haqqında biliklər məhdud olduğu kimi, "Tarix" müəllifi də dünya coğrafiyası haqqında tam dolğun fikir söyləyə bilməmişdir. O, Hindistanı Asiyanın şərqində məskunlaşan və əhalisi ən çox olan ucqar ölkə saymış, ondan şərqə doğru torpaqları qumsallıq və səhra hesab etmişdir. Onun qəti qənaəti belədir: "Axı, haqqında müəyyən məlumatımız olan hindlilər şərqi Asiyanın gündoğarında tanıdığımız bütün xalqlar arasında birinci xalqdır. Belə ki, Hindistandan şərqə doğru qumsallıqlar və çöllər uzanır" (III, 98). Herodot Asiyanın cənubunda Ərəbistanı (III, 107), Afrikada Efiopiyanın cənub-qərbini (III, 114) məskunlaşmış ən ucqar ölkə və bölgələr kimi tanımışdır. Avropanın şimal-qərbinə gələndə, mütəxəssislərin dediyinə görə, Herodot Po və ya Visla çayından şimaldakı bölgələri tanımamışdır. O, Avropanın qərbindəki ən aralı (ucqar) ölkələr haqqında "heç bir müəyyən məlumat verə bilməyəcəyini" (III, 115) bildirmişdir. Onun etirafı belədir: "Axı, barbarların Eridan2 adlandırdıqları və Şimal dənizinə tökülən... çayın olduğuna inanmıram. Eləcə də, bizə qalay gətirilən Kassiterida3 adalarının doğrudan da olduğu haqqında heç nə bilmirəm. Axı, Eridan sözünün özü barbarların deyil, ellinlərin sözüdür, onu hansısa bir şair uydurmuşdur. O biri tərəfdən, bütün səylərimə baxmayaraq Avropanın şimalındakı bu dənizi görənlərin heç birindən heç bir təfsilat öyrənə bilməmişəm (III, 115).

Bu coğrafi məhdudluğuna baxmayaraq, Herodot tanıdığı və öyrəndiyi üç qitənin xalqları və ulusları haqqında, ölkələrin ərazisi, təbii şəraiti, iqlimi, coğrafiyası, ticarət əlaqələri, qarşılıqlı münasibətləri, mədəniyyəti haqqında tarixşünaslığın əsaslarını təşkil edən zəngin bilgi vermişdir. Bu bilginin müəyyən qismi yazılı məxəzlərə, bir qismi şifahi rəylərə, xatirələrə əsaslanmışsa, müəyyən qismi də Herodotun özünün tarixşünaslığa gətirdiyi yenilikdir. On il səyahətə çıxıb Misirdə, Evksin Pontu (Qara dəniz) sahillərində dönüb-dolaşması, şəxsən gördüklərini, eşitdiklərini təsvir edib ümumiləşdirməsi, Elladaya qayıdanda oranı da gəzməsi, Afinada yaşaması, Furiya koloniyasının əsasını qoyub oranın vətəndaşlığını qazanması və buna görə də furiyalı kimi xatırlanması Herodotu yalnız uzaq və yaxın keçmişlərin deyil, öz dövrünün də tarixini yazan müqtədir ədib kimi şöhrətləndirmişdir. Mütəxəssislər onun öz gözləri ilə görüb canlı şahid kimi təsvir etdiyi etnoqrafik oçerklərdə faktik səhvlərin son dərəcə az olduğunu təsdiq edirlər. Mütəxəssislər Herodotun tarixə gətirdiyi bir sıra yenilikləri xüsusi fərqləndirmişlər. Bu yeniliklərdən biri Kaspinin qapalı göl olması fikridir. Yalnız eramızın II əsrində K. Ptolomey həmin fikrə gəlmişdir.

Skifiya (İskit Eli), demək olar ki, bütövlükdə Herodotun kəşfi sayılır. Herodotun xələflərindən heç kəs İskit Elini bu genişlikdə, bu problemlər dairəsində əhatə etməmiş, onun oçerklərinə mühüm yenilik artıra bilməmişdir. Arxeoloji qazıntıların Altayda üzə çıxardıqları yadigarlar Herodotun İskit Elinə dair bir çox məlumatının izlərini saxlamaqdadır. Herodotun Asiya ilə Afrika qitələrinin sınırları haqqında özünəqədərki fikirlərə iradlar tutması, Nilin dənizə tökülən yerini nə Asiya, nə Afrikaya qatmayıb müstəsna coğrafi zolaq sayması, onun Nil çayı mənbələri, Nil sularının qabarması və çəkilməsi səbəbləri haqqında mülahizələri də təzə elmi şərh sayılır. Misirlilərin allahlar panteonu baxımından Ellada mifologiyasına təsiri haqqında Herodotun gətirdiyi faktlar mübahisə doğursa da, maraqlı və xeyirlidir. Herodot, indi nümunələri qalmayan mis üstündə döyülmüş çox qədim xəritə əsasında Kiçik Asiyanın qərbindən Sus şəhərinə aparan bir yolun keçdiyi yerləri, yol boyu qurulmuş dayanacaqları konkret ölçüləri və relyefləri ilə elə təsvir etmişdir ki, buna baxanda ölkələrin sınırlarını konkret müəyyənləşdirmək olur. Ümumən yollar, keçidlər, gədiklər, cığırlar, körpülər haqqında məlumat "Tarix"də heyrətamiz dərəcədə zəngin və aydındır. "Tarix" bu baxımdan ticarət əhəmiyyətli məxəzləri kölgədə qoymuşdur. Herodot bulaqların, kiçik və böyük çayların, gölməçə və göllərin, körfəzlərin, məşhur dənizlərin, okeanların sözlə xəritəsini çəkmiş, çox vaxt çayların mənbəyini, axarını, töküldüyü sututarları, onların gəmiçiliyə yarayıb yaramadığını, bir təbii sərvət kimi ölkələrə gətirdiyi xeyri, əhalinin güzəranında əhəmiyyətini, dənizlərin enini və uzununu (müəyyən səhvlər buraxsa da) öz ölçüləri ilə tanıtmışdır. Herodot, hər ölkənin flora və faunasını da geniş, təfsilatlı şəkildə qələmə almışdır. Bunun özü də "Tarix"də xüsusi mövzu kimi fərqləndirilə bilər, "Tarix"də bəhs olunan ölkə və dövlətlərin, xalqlar, uluslar, qəbilələr, tayfalar, hökmdarlar, sənətkarlar, alimlər, filosoflar, şairlər və müdriklərin, memarlıq və incəsənət abidələrinin, allahlar, yarımallahlar, ilahələr və əsatiri obrazların; etnoqrafik terminlərin; məişət ləvazimatı, cavahirat, bərbəzək əşyaları, geyimlər, silahlar, təsərrüfat alətlərinin və s. adların ayrıca göstəricisi şərhi verilsə bunun özü də bir tanıtma üsulu kimi Herodot tədqiqatının ensiklopedik əzəmətini təsəvvürə gətirməyə kömək edər. Məhz dünyanı əhatə etmək, dünya xalqlarının tarixini o vaxtlar hələ şaxələnməmiş elmlər, biliklər baxımından ensiklopedik əzəmətlə işıqlandırmaq meyli və təşəbbüsü Herodot "Tarix"ini Fars-Ellada müharibələri çərçivəsində məhdudlaşdıranların rəyini heçə çıxarmışdır. Herodotu tarixin atası kimi indi daha dərindən tanıyan, yeni kəşflər əsasında daha əsaslı dəlillərdə onu böhtanlardan qoruyub bəraət verən mütəxəssislər "Tarix"in dünya əhəmiyyətinə xüsusi qədir-qiymət qoyurlar. Hər xalq, hər ölkə orada öz keçmişini görüb onu əzizləyir və öyrənir. Kim ona daha obyektiv yanaşıb, daha qərəzsiz şərh edə bilirsə, qədim həqiqətə bir o qədər yaxınlaşır. Bu baxımdan dünya alimləri sırasında türk xalqları, onların sırasında bizim xalqımız üçün "Tarix"in müstəsna əhəmiyyəti vardır. Türk xalqlarının mütəxəssisləri Herodot "Tarix"indən İskit Elinin, sakaların, massagetlərin haqqında verilən bütün məlumatı-onların ölkələrini, inanclarını, allahlar panteonunu, mənşəyi haqqında əfsanə və rəvayətlərini, əfsanə adı ilə qələmə alınmış tarixi qəhrəmanlıq dastanlarını, başqa xalqlarla əlaqələrini, Daranın təşkil etdiyi satraplıqlardakı yerlərini, Kserksin piyada və atlı qoşununda iştirakını və s. dəqiq müəyyənləşdirib, "Tarix"dəki məlumatı assur, fars yazılarındakı, Bibliyadakı və sonrakı Urartu (Biayn) mənbələrindəki məlumatla müqayisəli şəkildə, kompleks halında öyrənməyincə, gəldikləri nəticələri sistem halında ən etibarlı

downloaded from KitabYurdu.org

səviyyəyə qaldıra bilməyəcəklər. Herodotu incəliklə öyrənmədən, onun verdiyi məlumatı başqa məxəzlərlə əlaqələndirmədən, tutuşdurmadan türk xalqlarının qədimliyini təsdiq edən, amma son vaxtlar gözdən salınıb elmi ədəbiyyata, demək olar ki, çox az cəlb olunan mənbələri bərpa etmək də çətin olacaqdır. Keçmişdə ən yaxşı tarixçilər ən vacib olan tarixi sənədlərə üstünlük verməklə yanaşı, dilçiliyin, ədəbiyyatşünaslığın, memarlığın, etnoqrafiya və coğrafiyaşünaslığın, sənətşünaslığın nailiyyətindən istifadə etmişlər. İndi sinkretik vəhdətdən qopub müstəqilləşən və genişlənərək dərinləşən bu elm sahələri öz səylərini birləşdirməyə o qədər qəti addım atmadığından onların uğurları səpələnmiş halda qalır. Son illərdə türklərin etnogenezi mövzusunda yazılmış bəzi kompilyativ əsərlərin müəllifləri Herodot "Tarix"indəki bir sıra xalqların fars dilli, fars mənşəli olduğunu iddia edən mənbələri gen-bol nümayiş etdirib, həmin xalqların türk mənşəyini göstərən mənbələrin adına belə etinasız yanaşır və rusdilli oxucuya ünvanlanmış çoxtirajlı yazılarında yanlış, qərəzli mövqe tuturlar. Biz "Tarix"də Herodotun fars mənşəli, fars dilli xalqlar və uluslar kimi tanıtmadığı iskitləri, ümumi saka adı altında verdiyi apasaqları, ortokoribanları, massaqları, "şişpapaqlı" Amırgey sakalarını türk qəbilələri və ulusları kimi tədqiq etmiş mənbələri bərpa etməliyik. Herodot Kserks ordusunun piyada qoşunundakı xalqları və ulusları sadaladıqdan sonra atlı qoşundakı xalq və ulusları sayır. Farslar başda olmaqla onlardan sonra cəmi səkkiz xalq və ya qəbilənin adı çəkilir: midiyalılar, hindlilər, baktriyalılar, kaspilər, liviyalılar, parikanlar, ərəblər və saqarlar (II, 86)). Müəllif açıq yazır: "yalnız təkcə bu xalqlar süvari qoşunda qulluq etmişlər" (VII, 87). Doqquz etnik tərkibdən farsları qabağa çəkən Herodot əsərin bu yerində yalnız saqarların mənşəyindən və dilində" xüsusi danışmağı lazım bilir. "Bunların (süvarilərin-P. X.) arasında saqarlar adlanan bir qəbilə də var. Bu, mənşəyinə və dilinə görə fars ulusudur, ancaq geyimləri yarı fars, yarı pakti geyimidir" (VII, 85), Herodot qalan yeddi xalq və ulusun mənşəyindən və dilindən söhbət açmayıb tək bir qəbilənin fars mənşəli və fars dilli olduğunu xüsusi vurğu ilə söyləyirsə, demək, süvarilərin qalan yeddi xalqının heç biri fars dilli və fars mənşəli deyilmiş.

İkinci fakt. Tanınmış bəzi midiyaşünaslarımız I Daranın qayaüstü yazılarında və Herodot "Tarix"ində saka tayfalarından ortokoribanların adının fars sözü "tiqrahauda"dan tərcümə edildiyini iddia etmişlər. Dərhal suallar doğur: kim tərcümə etmişdir və hansı dilə tərcümə etmişdir? "Tarix" müəllifi bir tərcüməçi kimi nəzərdə tutulursa yeni sual doğur; Herodot hansı dilə çevirmişdir? Herodotun doğma yunan dilində belə söz yoxdur. Bəs, Herodot "ortokoriban sözünü hansı dildən götürə bilərdi, bu sözdən hansı xalqın etdiyi tərcümə kimi istifadəni özü üçün zəruri sayardı? Cavab öz-özünə gəlir: "ortokoriban" ancaq sakaların dilində işlənən sözdür! "Tiqrahauda"-şişpapaq (bəlkə də hulləpapaq) kimi tərcümə edilmiş söz isə fars sözüdür: "tiqrahauda" tərkibi; yəqin, "tiq"-ox sözündəndir. "Dəclə" çayının "Tiqr" adı ilə də tanınmasını "tiq"-ox kimi düz axıb gedən çay sayanlar var. "Ortok-oriban" sözbirləşməsi tərkibində Herodotun bizə çatdırdığı məna isə iki cur yozula bilər: 1. "ortası hündür" papaq. 2. Sözü bircə səsin tələffüzü ilə fərqləndirib, "ortok-ari-ban" şəklində oxunmaq səlahiyyəti doğru olsa, onu "ortası təmiz (ar) və hündür" papaq mənasında yozmaq mümkündür. Elə Herodot özü də bu sakaların papağının ortası qatlanmayan və hündür papaqlar kimi təsvir etmişdir. Kimmerilərin bizə gəlib çatmış şəkillərindəki papaqlar da belədir. Bu izahdan sonra yenə sual doğur: kim, kimdən tərcümə etməli idi? Tabe etdiyi qəbilə və xalqların adını daş üstündə yazdıran şahın mirzələri, öz adını farsların dilində eşidən sakalar, yoxsa Herodot" Herodotun tərcümədə əli olmamışdır. Onun üslubunu bilirik: bir sözün mənasını açan kimi onu hansı dildən götürdüyünü dərhal bildirir: "eoropat" yəni, "eor-ər (kişi), "pata",-öldürən (ər öldürən, kişi öldürən, yəni amazon); "eksampey" sözünün, Kserks və Artakserk adlarının Herodotun özündən gələn etimoloji izahı buna misal göstərilə bilər. Herodot ortokoribanları Daranın 10-cu satraplığında midiyalıların yanında (və ya qonşusu kimi) göstərir. Midiyaşünaslar da ortokoribanların məskunlaşdığı bu yeri fərqləndirirlər. Amma həmin tayfa "Tarix"də Baktriya sakaları ilə də bir yerdə göstərilir. Herodot onların papağının adını çəkmir, amma papaqlarını təsvir edir. Bu təsvirin rusca tərcüməsi belədir: "Saki je... nosili na qolovax vısokie ostroverxie törbanı, plotnıe, tak çto stoəli prəmo" (VII, 64). Bəzi tədqiqatçılar "tiqrahauda" sözünü "şişpapaq" kimi tərcümə etmişlər, əslində, Herodot "ortokoriban" sözünü bütün tərkib hissləri ilə "düz və möhkəm duran hündür, ucu şiş papaq" şəklində bütöv təsvir etmişdir. Belə papaq Midiyadakı 10-cu, Baktriyadakı 12-ci satraplıqdakı sakaları fərqləndirən geyimdir; Baktriyadakı sakaların əsl adı da varmış, onlara Amirgey sakaları deyilir. Bu adı "amir", "amıraq", "amraq", "amrıq", "amsaq" söz kökünə yaxınlaşdırmaq mümkündürsə, onları sakaların "əziz"i "əzizlənənləri" saymaq olar. Türkcə "sak"-həssas, ayıq-sayıq; "sakçı"-keşikçi, qoruyucu; qədim sənədlərə görə "saka"-dağ ətəyi, türkmən dili sözlüyünə görə yabanın haçalanan yeri, çayın ayrılan yeri (ayrıcı) mənası verirsə, assur, şumer, fars yazılarına düşmüş bu sözləri mənsub olduğu dildən ayırıb fars lüğətinə qatmaq zorakılıq, mənəvi təxribatdır. Sakalar çay ayrıclarında, çaylar arasında, çay qıraqlarında, dağ ətəklərində yaşadıqlarına görə özlərini belə adlandırmışlar. Qədim türk ləhcələrində "saka" tələffüzündə işlənmiş söz indiki Azərbaycan türkcəsində "yaka" (yaxa) taləffüzünə düşmüşdür. Özlərini "saka" adlandıran yakutların indiki adı "yaka" (yaxa) sözünün başqa xalqların tələffüzündə təhrifi də sayıla bilər. "Saka" adına Mahmud Kaşğari lüğətindən bu yana doğru çox məşhur lüğətçilərin, onların sırasında "Drevnetörkskiy slovarğ"ın, Tehran universitetinin lüğət şöbəsində Dehxudanın çap etdirdiyi cilid-cilid lüğətin etimoloji izah imkanlarına biganə qalıb, onları saya salmamaq öz yanlış mülahizələrindən dönmək istəməyənlərin, yumşaq desək, yersiz inadkarlığıdır. Avestanın dilində indiki dilimizdə işlənən sözlər tapıb orada dilimizin "rudumentlərini" görən tədqiqatçı "türk dili" terminini o vaxt üçün qəbul etmirsə, həmin dilə nə ad verirsə-versin, onun qədimliyi faktına qarşı dura bilməz. Herodot "Tarix"ini özündən qabaq və özündən sonrakı mənbələrlə vəhdətdə öyrənmək sağlam və qiymətli tədqiqatlara yeni istiqamət verib, onu zənginləşdirər.

* * *

"Tarix"in əsli doqquz kitaba bölünmüşdür. Hər kitabın da müəllifin öz əli ilə paraqraflara (bəndlərə) ayrılmasına şübhə yoxdur. Amma hər kitaba verilmiş adların müəllifin özünə deyil, əlyazmasını köçürən sonrakı xəttat, katib və ya tərtibatçılara aid olduğu haqqında mülahizələr var. Bununla belə Herodotun özünün seçdiyi doqquzluq bölgüsündə

downloaded from KitabYurdu.org

rəmz olmasaydı kitablara sonralar qoyulmuş incəsənət muzası (ilahəsi) adlarının rəmzləri kitabın məzmununun rəmzinə uyğun gəlməyə də bilərdi. Amma biz hər muza adının rəmzi ilə kitabın məzmunu arasında vəhdəti görürük.

Birinci kitab-Klio. Yunanlılar onu qabaqlar qəhrəmanlıq nəğməsi ilahəsi saymışlar; klassik dövrdə ona tarix ilahəsi kimi baxmışlar. Daimi əlaməti papirus və ya perqament lüləsi olmuşdur.4 Bu rəmz tarixin ilk kitabının mətləbinə, üstündə tarix yazılmış ilk papirus lüləsinə tam uyğun rəmzdir.

İkinci katib - Yevterpa (Evterpa). Lirik poeziya hamisi sayılır. İki fleytalı gənc qadın şəklində təsvir olunur. Bu ilahə həssaslıq rəmzi sayılır ("Mifoloji lüğət", səh. 267). Bu həssaslıq rəmzi ərindən incik düşüb şikayətli olan və gənc yaşında ölən Fərnasp qızı Kassandanın niskilini, eləcə də Kambisin zorla evləndiyi və hirsli vaxtında vurub öldürdüyü bacılarının nakamlığını təmsil edir.

Üçüncü kitab-Taliya (və ya Faliya). Yüngül paltar geymiş, sol əlində komik maska, o biri əlində çoban çomağı (bəzən sağ əlində dəf), başında uzun xovlu məxmərdən çələngi olan qız şəklində təsvir olunur. ("Mifoloji lüğət", səh. 228). Kambisin özü ilə birlikdə Misir yürüşünə apardığı və orada həmişə istehzalarına hədəf olduğu kiçik bacısı da Kambisin ağılsız işlərini komik kəskinliklə lağa qoyur.

Dördüncü kitab - Melpomena. Faciə ilahəsidir. Əvvəllər ümumən nəğmə, sonralar kədərli nəğmə ilahəsi sayılmışdır. Uca boylu, başı sarıqlı, üzüm tənəyi yArpaqından tacı, ayağında altıqalın başmaqları, bir əlində faciə maskası, o birində qılınc və ya toppuz tutmuş bir qız.

Dördüncü kitabda tutaşdığı düşməni tam məhv etməyincə ondan əl çəkməyən, düşmənə qarşı mübarizədə köməyinə gəlməyən qonşulardan da intiqam alan, haqsızcasına çəkişib haqq məhkəməsində məğlub olan və ölüm cəzası alan yaxın qohumunun kəsilmiş kəlləsindən şərab içmək üçün cam kimi istifadə edən; özlərinin azadlıqlarını, vətən azadlığını uca tutan döyüşkən iskitlər bu faciə mələyinə oxşayırlar. Onlar da silahlı döyüşə həmişə hazırdılar.

Beşinci kitab-Terpsixora. Yunanca mənası "rəqs xoşlayan"dır. Rəqs və bəzən xor nəğməsi ilahəsi. Əlində lira olan gənc qız şəklində təsvir olunur. ("Mifoloji lüğət", səh. 234).

Bu kitabın rəmzi mənalarından biri ilk hadisələrdəcə üzə çıxır. Hellespont şəhərlərindən olan Perinf nə Daranı sayır, nə də Strimonda yaşayan peonlarla yola gedir. Perinflilər şəhər darvazaları qarşısında qərargah qurub peonları təkbətək döyüşlərə çağırırlar. Onlar iki vuruşmada peonlara qalib gəlib, sevincdən peon (xor nəğməsi) oxuyurlar. Bu kitabın ikinci rəmzi fars qoşunlarının Fragiyaya (indiki Bolqarıstana), Makedoniya və İoniyaya girməsi ilə sözün həqiqi mənasında əhalinin rəqsə qalxması deyil, qəbilələrin ölkədən köçürülməsi, qaçqınların didərgin düşməsi-xalqın dinc həyatdan məhrum olub ayağa qalxması ilə bağlıdır.

Altıncı kitab-Erato. Yunanca mənası "əziz", "mehriban" deməkdir. Erato məhəbbət və erotik poeziya ilahəsidir. Kitabdakı hadisələr göstərir ki, fars ordusunun Elladaya münasibəti kobud, erotik, işğalçı münasibət kimi dərinləşir və belə şəraitdə Erato (ehtiras) yalnız siyasi zorakılıq mənasında qəbul oluna bilər.

yeddinci kitab-Polihimiya (və ya Polimiya). Yunanca "zəngli himnli" mənası verir. Terpsixora kimi Polihimniya da qabaqlar rəqs ilahəsi sayılsa da, sonralar pantomim mahnı rəmzi daşımışdır. Təsvirdə heç bir əlaməti yoxdur, yalnız başına örtük salır. Görünür, bu rəmz Kserksin çoxsaylı, daha mükəmməl təchiz olunmuş qoşunla Elladanı sıxışdıraraq onun başına böyük müsibət gətirməsi rəmzidir.

Səkkizinci kitab - Uraniya. Bu ad Afroditanın təmiz, ülvi məhəbbətini bildirən epitetdir. Uraniya, eyni zamanda Astronomiya ilahəsi sayılır. Əlində göy qlobusunu tutan gənc qız sifətində təsvir olunur ("Mifoloji lüğət", səh. 249)

Doqquzuncu kitab - Kalliopa. Yunanca "gözəl səsli" mənası verir. Doqquzlar sırasında Kalliopa sonuncu və hamıdan yaşlı ilahədir. Klassik dövrdə epik poeziya ilahəsi sayılmışdır. Yazı üçün qədim və mum sürtülmüş taxta onun daimi əlamətləri olmuşdur (Mifoloji lüğət, səh. 111).

"Tarix"in sonuncu iki kitabında, görünür, Ellada göylərini bürümüş buludların dağılması, Ellada səmasında ulduzların parlaması və soluğu genişlənən incəsənət ilahələrinin gözəl səslə oxunması rəmzi vardır.

"Tarix"in hər kitabının ardıcıllığından, onların vəhdətindən görünür ki, 2500 il bundan qabaq yaranmış bu misilsiz abidəni yalnız Parsa- Ellada müharibələri ilə məhdudlaşdırmaq mümkün deyil Abidə eramızdan qabaq da, sonrakı əsrlərdə də, indi də mütərəqqi və ədalətli adamların gözündə əsasən ilkin mənbə kimi, çox yerləri şəxsən görüb, çox hadisələr haqqında özünün öyrəndiyi məlumata əsaslanan, heç kəsdən heç bir məlumat ala bilməyəndə öz mühakiməsinə, özünün tədqiqatına arxalanıb aydın və real şərhlər verən bir ensiklopedik müəllifin yadigar qoyduğu qaynaq kimi etibarlı olmuşdur. Nöqsanlarına, bəzi qeyri dəqiqliyinə, faktik səhvlərinə baxmayaraq, "Tarix" yarandığı dövrdən lap yeni dövrə qədər sınaqlardan çıxmış doğruçu, obyektiv, geniş məzmunlu, möhtəşəm bir abidə kimi ucalmışdır.

Herodotun böyüklüyü yalnız onun tarix, coğrafiya və etnoqrafiya biliklərinin ensiklopedik əzəməti ilə ölçülmür. Herodotu böyük ədib kimi də qiymətləndirirlər. Zamanəsinin tarixçiləri də, coğrafiyaşünasları, etnoqrafları, filosofları da "quru", yalnız faktların dili ilə danışmağı və yazmağı zəiflik, təxəyyül kasıblığı sayırmışlar. Onlar ən yaxşı ədiblər kimi obrazlı düşünmüşlər, bədii əsərlər səpkisində konflikti sevmişlər, dialoqlar yaratmışlar, süjeti intizar doğuran yollarla aparmışlar. Bundan başqa, məşhur şairlərin dastanlarından, şerlərindən, xalq hikmətlərindən, ən çox əsatir, əfsanə, rəvayət, dastan və nağıllardan istifadə etmişlər. Herodot "Tarix"i də bu baxımdan dünya xalqları folkloru toplusu hüququnda əvəzsizdir-indi çap olunan belə toplıların kökü "Tarix"ə gedib çıxır.

"Tarix" Qafqaz ardı, Qafqaz, Qara dəniz (Evksin Pontu) sahilləri, Uralboyu. Orta Asiya (qədim Xarəzm, Parfiya-Barda) ərazisində yaşamış xalqların yeni eradan qabaqkı abidələrinə, onların müştərək xüsusiyyətlərinə də yenidən baxmağa imkan verir. Herodotun sıxıb-sıxıb yığcam "əfsanə" şəklinə saldığı "Astiaq", "Tomiris" əfsanəsi, əslində, 11-12 süjet şaxəsi olan ilk qəhrəmanlıq dastanı kimi təzədən oxunmasını və açılmasını gözləyir. Herodotun toxuna bilmədiyi qədim Part yazılarında "qusan" (sonrakı ozan) sənətinin qeydə alınması qədim dastan ifaçılığının köklərini məhz Herodot "Tarix"i işığında da axtarmaq zərurəti yaradır. Bu əvəzsiz mənbə midiyalıların şərəf və şöhrətini, dövlət

downloaded from KitabYurdu.org

quruculuğunda, ordu təşkilində nailiyyətlərini, sonralar itaət etdiyi farslardan tutmuş Asiya xalqlarına silah, geyim nümunəsi verməsini, dövlət sərbəstliyini itirəndən sonra da adının tarixi sənədlərdən, dillərdən düşmədiyini göstərir. İndi yad qəbilələr, özgə dövlət kimi gözdən salınmaqda olan Midiyanın da "Tarix"dəki şərəfini bərpa etməli, bu dövlətin mədəniyyətinin köklərini yaxşı öyrənməliyik. "Qədim türk lüğət"ini açanda yazılı türk sənədlərində bir ucdan sanskrit sözü çıxmasının səbəblərini səbrlə araşdırmalıyıq.

Tədqiqat göstərir ki, Herodot tarixən zamanımızdan uzaqlaşdıqca onun "Tarix"i Azərbaycan ədəbiyyatı və mədəniyyətinə yaxınlaşmışdır. Herodotun dünya xalqlarına uzanmış qayğıkeş əli Nizami Gəncəvi kimi bir xalq şeyxinin mərhəməti ilə çarpazlaşır. Nizami "Xəmsə"sində "İskəndərnamə"nin "İqbalnamə" hissəsi Liviya səhralarından tutmuş, Nil boyunca, Hindistanın şərq ucqarlarına, Bibliyada da adı çəkilən yəcuc və məcuclara qədər Herodot "Tarix"indən gələn coğrafi, etnik məlumat, əfsanə və rəvayətlərlə doludur. Bu da təbiidir, çünki İntibah dövrü ədəbiyyatımızın beşiyi başında duran Nizami Gəncəvi antik yadigarları ehya etməyə bilməzdi. Makedoniyalı İskəndəri Aralıq dənizinin şərq sahillərinə gətirib onu Misirə, Afrikaya və Hindistana aparan Nizami öz qəhrəmanının keçib getdiyi yerləri yalnız Herodot "Tarix"inin verdiyi imkanlar əsasında təsvir edə bilərdi. Nizaminin "Tarix"lə tanışlığı da iki yolla mümkün olardı: əsərin nüsxəsini yunan dilində, ya da xəlifə Mömünün təşkil etdiyi "elm evi"nə toplaşan məşhur alimlərin ərəb dilinə tərcüməsini oxumaqla hər iki halda bu məxəzin Gəncəyə gəlib düşməsi və Nizamiyə çatması mədəni əlaqələr tarixində böyük hadisə sayılmalıdır. Avropada Herodot irsinə maraq yeni və ən yeni dövrdə (XIX-XX əsrlərdə) güclənmişsə, bütün yunan mədəniyyəti, onun sırasında Herodot "Tarix"i Şərq İntibahı dövründə toplanmış və tərcümə olunmuşdur. Bunun səbəblərini araşdırmaq əvəzinə üstündən tələsik keçib getmək olmaz.

"İskəndərnamə"də Nizami utopiyasını müxtəlif mənbələrə bağlayırlar. Bu utopiyanın da Herodot "Tarix"indən su içdiyinə güman yeri vardır. Hakimiyyəti ələ keçirmiş mağı öldürən yeddi fars əsilzadəsi beş gündən sonra yığışıb quracaqları dövlət üsulundan danışında Herodot "Tarixi"nə görə Fərnəsp, Daranın Bisütun yazısına görə Suxra oğlu Otan "hakimiyyəti bütün fars xalqına vermək" (III, 80) fikrini irəli sürüb bir adama tam hakimiyyət ixtiyarı verilməsinin faciəsini Kuruş oğlu Kambisin timsalında sübut edərək xalq hakimiyyəti fikrini belə əsaslandırır: "Xalq hakimiyyətinə gələndə o, elə özünün daşıdığı gözəl "İsonomiya"5 adının qüvvəsinə görə bütün başqa hakimiyyətlərdən üstün görünür. Bundan başqa, hakimi-mütləqin əl atdığı hər hansı özbaşınalığa xalq hakimiyyəti yol verməz. Axı, xalq püşk atıb dövlət vəzifələrini bölüşdürmək yolu ilə dövləti idarə edir; bu vəzifələrin də məsuliyyəti var, bütün qərarlar isə xalq yığıncağından asılı olur. Beləliklə, təkhakimliyi məhv edib xalqı hakim etmək təklifini irəli sürürəm, çünki bütün xeyir-bərəkət ancaq xalq idarəçiliyindədir".

Herodot təkcə Otanın deyil, başqa əsilzadələrin də dövlət quruculuğu təklifini ellinlərin təcrübəsi ilə müqayisədə götürdüyünə görə onların bu mövzuda nitqini ellinlərin gözündə "qeyri-adi" hesab etmişdir. Nizaminin: təsvir etdiyi utopik cəmiyyət də Otanın nitqinə yaxın "qeyriadilik"lə seçilən cəmiyyətdir.

Nizami Herodotla on yeddi əsrdən sonra "görüşmüşsə, Y. V. Çəmənzəminli zamanəmizii 20-30-cu illərində görüşmüşdür. O, "Qızlar bulağı" romanının mənbələri içərisində Herodot "Tarix"inin adını çəkmişdir. Özünün sələfi Nizami kimi, Çəmənzəminli də "Tarix" əsərinə enərək ədəbiyyatımızı qədim Asiya, xüsusən Misir folkloru ilə zənginləşdirmişdir. İndi Misir- Azərbaycan ədəbi əlaqələri ilə yanaşı, tarixi əlaqələrin qədim köklərini də üzə çıxarmağa ehtiyac vardır. Herodot gəzdiyi və gördüyü Kolxidada (indiki Abxaz elində) əqli misirli olan zəncilərə rast gəlmiş, bunların əslini sübut edən faktlarla dönə-dönə maraqlanmışdır. Həmin misirlilərin kiçik bir qrupu indi də orada yaşayır. Zəngi çayı və Zəngilan Herodotun dediyi: Misir hökmdarı Sesostris ordusundan tökülüb qalma zənci qara (dərili) adamlarla bağlı olmalıdır. Zümrüd (və ya Simurq) quşu haqqında Azərbaycanda da yayılmış əfsanənin əsli, Herodota görə, Qafqaz-Ərəbistan-Misir arealına bağlanır.

* * *

Herodot "Tarix"ini dilimizə çevirərkən onun rus dilində iki tərcüməsindən, türk dilinə Perihan Kuturmanın sonuncu çevirməsindən istifadə etmişik. Rus alimi F. Q. Mişşenkonun tərcüməsi (Moskva, 1885-1888) iki hissəyə bölünür, dili axıcıdır və canlı danışığa yaxındır. Bayan Perihan Kuturmanın tərcüməsi (İstanbul, 1973) də şirin dillidir, oxunaqlıdır və bir qədər sərbəst tərcümədir. Q. A. Stratanovskinin rus dilinə tərcüməsi (Leninqrad, 1972) bir qədər mürəkkəbdir. Bunları diqqətlə müqayisə edəndə aralarında üslub fərqindən başqa ciddi fakt fərqi nadir halda görünür. Buna görə də biz Q. A. Stratanovski çevirməsini əsas götürüb o biri çevirmələrdən də yeri gəldikcə istifadə etmişik. Çətinə düşdüyümüz yerlərdə o biri tərcümələrlə tutuşdurmalar aparmışıq və bunların yerini, mətn fərqini göstərmişik. Kahinliyin bəyanı mövzusunda "Tarix"in Q. A. Stratanovski tərcüməsindəki mətnləri bizə tərcümə üçün çox ağır görünəndə həmin mətnlərin daha sadə, aydın və anlaşıqlı çevirməsini B. P. Kuturmandan götürmüşük və ya F. Q. Mişşenko tərcüməsinə də üz tutmuşuq.

Q. A. Stratanovski çevirməsinə əsaslanmağımızın səbəbi də budur: O. F. Q. Mişşenko çevirməsindən keçən uzun illərdən sonra Bizans alimlərinin XV əsrdə Avropa ölkələrinə gətirdikləri əlyazma nüsxələri ilə tanış olmuşdur. Özünün yazdığına görə həmin nüsxələr X-XV əsrlərə aid olub "Tarix"in antik mətnlərindən birinə söykənir. Q. A. Stratanovski bunların arasındakı fərqi əsasən dialekt xüsusiyyətlərindən doğan məna çalarında görür. O, tədqiqat əsərlərinə əsaslanıb bu nüsxələrin "Herodotun kiçik müasiri olan Fukididin istifadə etdiyi, nüsxədən" fərqlənmədiyinə zəmanət verir. Bütün bunlardan başqa, Q. A. Stratanovski sələfi olan F. Q. Mişşenko tərcüməsindən başqa, alman dilindəki üç tərcüməyə, üç məşhur izahata və Herodot haqqında xüsusi sözlüyə əsaslanmışdır. Buna görə, özümüzün bəzi izahlarımızı nəzərə almasaq, mütəxəssis zərifliyi və geniş məlumat tələb edən izahatlar üçün Q. A. Stratanovskinin izahatının lazım olan yerlərini tərcümə etmişik; bunun bəzilərini səhifə altına paylayanda mənbəyini nişan verməkdən keçinmişik. Bu izahatların özü də müəyyən mənbələrdən götürülmüşdür. Səhifəaltı izahların bəzisinin daha başqa mənbələrdən də götürüldüyünü oxuculara bildirməyi borc sayırıq. Bütün mətn boyu adların düzgün yazılışı üçün əsaslandığımız əsas tərcümədəki ad göstəricisi nəzərə alınmaqla, F. Q. Mişenkonun tərcüməsində yunan qrafikası ilə tərtib olunmuş adlar

downloaded from KitabYurdu.org

göstəricisinə həmişə üz tutmuşuq. Etiraf etdiyimiz kimi Q. A. Stratanovski tərcüməsinin F. Q. Mişşenko tərcüməsinə nisbətən dil, üslub ağırlığını mətnin əslinə daha çox uyğunluğu kimi başa düşdüyümüzə görə onun fikri ifadə üsulunu dəyişməyə səlahiyyətimiz çatmamışdır.

Herodot "Tarix"ində dünya xalqlarının hər birində qədim hərbi və mülki titullar bir yana qalsın, qohum olan etnoslarda belə bu titulların əslini müəyyənləşdirmək imkanımız olmadı. "Tarix"in rus və türk dilinə tərcümələrində "basilid" və "tiran" titulundan başqa heç bir titul saxlanmamışdır Mişşenko və Stratanovski bütün ölkələr və xalqlar üçün "çar" titulunu seçmiş. P. Kuturman isə bəzən "kral" titulu da işlətmişdir. Daranın zamanəmizə qədər gəlib çıxmış yazılarında "şah", "şahənşah" titulu qaldığı halda P. Kuturman bunu "kral", rus tərcüməçiləri "çar" titulu ilə əvəz etmişlər. Biz Əbu Reyhan Biruninin verdiyi şərq mülkü titullarının müxtəlifliyini nəzərə alıb konkret "çar" titulu əvəzinə qeyri-konkret və hər ölkəyə, xalqa tətbiq oluna bilən "hökmdar" titulunu işlətməyi daha məqbul saymışıq. Bununla belə, yerinə görə "şah", "şahənşah", "xaqan", hərbi titullardan "sərkərdə", "qoşun başçısı" titullarını da işlətmişik. Rus tərcümələrindəki "oblast", "rayon" sözləri inzibati bölgü mənası verdiyinə görə bunları bəzən "sahə", əksərən "bölgə", "ərazi" sözləri ilə əvəz etmişik, "çarlıq" əvəzinə "səltənət" sözü işlətmişik.

Filologiya elmləri doktoru, professor Pənah Xəlilov.

BİRİNCİ KİTAB

KLİO

Halikarnaslı Herodot (sorğu-sualla) bu məlumatı toplayıb yazıya aldı ki, ötən olaylar zaman keçdikcə unudulmasın, istər ellinlərin, istərsə barbarların böyük və heyrətamiz işləri, xüsusən onların bir-biri ilə müharibə etmələrinin səbəbləri xəbər-ətərsiz qalmasın.

1. Farsların bilgili adamlarının dediklərinə görə ellinlərlə barbarlar arasındakı ədavətə finikiyalılar bais olmuşlar. Onlar Qırmızı dəniz adlanan yerdən Bizim dənizimizə6 gəlib, indi də yaşadıqları ölkədə yerləşmişlər. Finikiyalılar burada məskunlaşan kimi uzaq dəniz səfərinə çıxmışlar. Aldıqları Misir və Assuriya mallarını bir çox ölkələrə daşıyaraq, Arğosa da gəlib çıxmışlar. İndi Ellada adlanan Arğos o vaxtlar ölkənin ən mühüm şəhəriymiş. Finikiyalılar dediyimiz bu Arğosa çatan kimi öz mallarını satmağa başlamışlar. Onların gəlişinin beşinci, ya altıncı günü, bütün mallar satılıb qurtarmaqdaykən dəniz qırağına xeyli qadın gəlir. Hökmdar qızı da onların arasındaymış. Onun adı İnax qızı İo idi; ellinlər də onu elə bu cür adlandırırlar. Qadınlar gəminin göyərtəsinə çıxıb daha artıq xoşladıqları mallardan alırmışlar. Bu vaxt finikiyalılar bir-birinə işarə verib qadınların üstünə atılmışlar. Qadınların çoxu qaçıb qurtula bilsə də, İo bir neçə qadınla birlikdə ələ keçmişdir. Finikiyalılar onları gəmiyə dartıb tələsik Misirə doğru üzmüşlər.

2. Farslar danışırlar ki, beləliklə, İo gedib Misirə düşmüşdür. Ellinlər isə bunu başqa cür söyləyirlər. Bu olay düşmənçiliyin ilk səbəbi olmuşdur. Farslar belə də danışırlar ki, (adlarını çəkə bilmədikləri) bəzi ellinlər sonralar Finikiyanın Tir şəhərinə gəlib ora hökmdarının qızı Avropanı qaçırmışlar. Əslində, bunlar yəqin ki, kritlilər olmuşlar. Onlar bununla finikiyalılardan yalnız əvəz çıxmışlar. Sonra ellinlər barbarlara bir dəfə də sataşmışlar. Onlar hərbi gəmidə Kolxidadakı Eya deyilən yerə və Fasis çayı mənsəbinə gəlib çıxmışlar. Ellinlər buraya nə məqsədlə gəliblərmişsə, onların hamısını yerinə yetirəndən sonra hökmdar qızı Medeyanı qaçırmışlar. Onda kolxların hökmdarı Elladaya qasid göndərib qızı qaçırıldığı üçün cərimə tələb etmiş və qızın özünün də qaytarılmasını istəmişdir. Amma ellinlər ona belə cavab vermişlər: özləri İonun qaçırılması üçün cərimə almadıqları kimi, Kolxida hökmdarına da heç nə verməyəcəklər.

3. Ellinlər danışırlar ki, bunun ardınca sonrakı nəsildən Priamın oğlu Aleksandr qız qaçırtma əhvalatını eşidib, özü də bu yolla Elladadan arvad ələ keçirmək istəyibmiş. O, heç bir cəza almayacağına möhkəm inanırmış, çünki o vaxt ellinlər də belə hərəkət üçün heç bir ödənc verməmişdilər. Aleksandr Yelenanı bu cür qaçırandan sonra ellinlər onu geri qaytarmaq və qadın qaçırılması üstündə cərimə tələb etmək məqsədilə qasid göndərmək qərarına gəliblərmiş. Troyalılar isə cavabında onları Medeyanı qaçırdıqları üçün töhmətləndirmiş və demişlər ki, ellinlər özləri nə qaçırdıqları Medeyanı geri qaytarmışlar, nə də cərimə vermişlər, amma indi özgələrindən cərimə istəyirlər.

4. O vaxta qədər qadın qaçırılması təkəm-seyrək olurmuş. Son vaxtlarda isə belə işlər üçün ağır təqsir, şübhəsiz, ellinlərin üstünə düşürdü, belə ki, barbarlar Avropaya hücum etməmişdən əvvəl ellinlər Asiyaya yürüşə getmişdilər. Doğrudur, qadın qaçırılması ədalətsiz işdir, amma farsların fikrincə belə işlərə görə intiqam almaq ağılsızlıqdır. Qaçırılmış qadınların qayğısını çəkməyən adam, hər halda, müdrik adamdır. Aydındır ki, qadınlar özləri istəməsəydilər onları qaçırmazdılar. Farsların dediklərinə görə asiyalılar qadın qaçırılmasına heç məhəl qoymurlar, ellinlər isə, əksinə, qadından ötəri Lakedemondan böyük ordu toplamışlar, sonra da üzüb Asiyaya keçmiş və Priamın dövlətini tar-mar etmişlər. O vaxtdan etibarən farslar ellinləri həmişə özlərinə düşmən bilmişlər. Axı, farslar Asiyanı və orada yaşayan barbar tayfaları özlərininki saymışlar. Avropa və Ellada isə onlar üçün yad ölkə olmuşdur.

5. Farslar belə danışırlar və İlionun dağıdılmasını da onların ellinlərlə düşmənçiliyinin nəticəsi sayırlar. Finikiyalılar isə İonun qaçırılmasını farslardan fərqli olaraq başqa cür danışırlar. Onların sözünə görə, İonu Misirə heç də zorla aparmamışlar, belə ki, o, hələ Arğosda ikən gəmi sahibi ilə sevdaya başlamışdır. Özünün boylu olduğunu hiss edəndə valideynlərinin qarşısına çıxmaqdan utanıb, rüsvayçılığını gizlətmək üçün könüllü olaraq finikiyalılara qoşulub getmişdir. Farslar və finikiyalılar belə danışırlar. Mənə qalanda, hadisənin məhz bu və ya başqa cür olduğunu təsdiq etməyi boynuma götürmürəm. Mən hadisənin içinə yetdiyim üçün, əvvəlcə ellinlərə qarşı düşmənçilik hərəkətinin əsasını qoyan adamın adını çəkmək istəyirəm.7 Sonra da hekayətimin davamı boyu, yeri gəldikcə, insan yaşayan kiçik və böyük şəhərləri təsvir edəcəyəm. Axı, vaxtilə böyük olan bir çox şəhərlər indi kiçiliblər, mənim zəmanəmdə qüdrətli

downloaded from KitabYurdu.org

olan şəhərlər isə keçmişdə əhəmiyyətsizmişlər. Lakin insan xoşbəxtliyinin dəyişkən olduğunu bildiyimə görə, mən keçmiş şöhrətli şəhərlərin də, indi ucalan şəhərlərin də taleyindən eyni dərəcədə söz açacağam.

6. Aliattın oğlu, əslən lidiyalı8 Krez Qalis çayının bu tərəfindəki xalqların hökmdarı olmuşdur (Qalis suriyalılarla paflaqonların torpağının arasında cənubdan şimala doğru axır və Evksin Pontu adlanan dənizə tökülür). Mənə məlum olanı budur ki, barbarlardan həmin bu Krez ellinlərin bir qismini ilk dəfə tabe edib onları vergi ödəmək məcburiyyətində qoymuş, ellinlərin qalan qismi ilə ittifaq müqavilələri bağlamışdır. İonları, soliləri və Asiya dorilərini tabe etmiş, lakedemonlularla isə ittifaqa girmişdir.9 Halbuki, Krezin hökmranlığına qədər bütün ellinlər azad idilər. Axı, hələ Krezə qədər kimmerilərin yürüşü İoniyayadək gedib çatsa da, bu uzunmüddətli işğalçılıq deyil, daha çox qənimət əldə etmək üçün adi basqın olmuşdur.

7. Əvvəllər Heraklidlər evinə məxsus hakimiyyət Krezin nəslinə keçmişdir (bu nəsl Mermnadlar adlanır). Hakimiyyətin əldən-ələ keçməsi belə olmuşdur: ellinlərin Mirsil adlandırdıqları Kandavl Sardanın tiranı olmuşdur. O, Heraklın oğlu Alkeyin nəslindən imiş. Heraklidlər evindən Sardanın ilk hakimi Ninin oğlu, Belin nəvəsi, Alkeyin nəticəsi Ağron olmuşdur. Mirsin oğlu Kandavl isə onların son hakimi imiş. Ağrona qədər bu ölkəni idarə edən hakimlər Atis oğlu Lidin nəslindən çıxmışlar, həmin o lidiyalının ki, (keçmişdə meonlar adlanan) bütün indiki xalq onun adı ilə lidiyalılar adı almışlar. Hatifin qeybdən verdiyi xəbərə görə hakimiyyəti onlardan Heraklidlər almışlar. Bu axırıncıların nəsli Herakldan və kölə İardandan başlayır. Onlar 22 insan nəsli ərzində10 505 il hakimiyyət sürmüşlər, özü də Mirsin oğlu Kandavla qədər hakimiyyət onlarda atadan oğula irsən keçmişdir.

8. Bu Kandavl öz arvadına çox məftunmuş və məftun adam kimi elə bilirmiş ki, dünyanın ən gözəl qadını onunkudur. Onun mühafizəçiləri içərisində xüsusi qiymətləndirdiyi Daskil oğlu Qiges11 deyilən birisi də varmış. Kandavl özünün ən vacib işini həmin bu Qigesə etibar edirmiş, hətta arvadının gözəlliyini də ona tərifləyibmiş. Bundan azca sonra (axı, Kandavlın aqibətinin pis olacağı qeybdən xəbər verilmişdi) o, Qigesə bu sözlərlə üz tutur: "Qiges, arvadımın gözəlliyi haqqında sənə dediklərimə yəqin ki, inanmırsan (axı, insanlar gördüklərinə eşitdiklərindən daha çox inanırlar), ona görə də çalış ki, arvadımı çılpaq görəsən". Təəccübdən bərk qışqıran Qiges cavab verir: "Hökmdar, sən nə ağılsız sözlər deyirsən! Sən çılpaq xanıma baxmağı mənə əmr edirsən? Axı, qadınlar soyunanda paltarla bərabər arını da atırlar! İnsanlar ədəb qaydalarını çoxdan öyrənmişlər və onları mənimsəmək lazımdır. Bu qaydalardan biri daha vacib sayılır: hər kəs qoy ancaq öz arvadına baxsın. Mən xanımınızın bütün qadınlardan gözəl olduğuna inanıram, amma hər halda xahiş edirəm ki, məndən adətlərə zidd heç bir şey tələb etməyəsən".

9. Bu təklifdən bəlaya düşə biləcəyindən qorxaraq hökmdarın sözünü rədd etməyə çalışan Qiges ona belə cavab veribmiş. Kandavl da ona belə etiraz edibmiş: "Qiges, rahat ol, qorxma, mən bu sözü səni sınamaq üçün deməmişəm, arvadımdan da sənə heç bir ziyan dəyməz. Mən hər şeyi əvvəlcədən elə düzəldərəm ki, arvadım sənin onu gördüyünü duymaz. Səni bizim yataq otağında örtülən qapının dalında gizlədərəm. Arvadım yatağa girmək üçün arxamca bu otağa gələcəkdir. Girəcəyə yaxın bir kürsü qoyulmuşdur, arvadım soyunanda paltarlarını bir-bir onun üstünə yığır. O vaxt sən sakitcə ona baxıb həzz ala bilərsən. Əgər o, kürsüdən yatağa doğru gedib kürəyini sənə tərəf çevirsə, onda qapıdan elə çıxmağa çalışarsan ki, səni görməsin".

10. Onda Qiges artıq belə bir təklifdən boyun qaçıra bilmədi və buna hazır olduğunu bildirdi. Kandavl yatmaq vaxtının çatdığını kəsdirəndə Qigesi yataq otağına apardı, sonra arvadı da dərhal oraya gəldi. Onun otağa daxil olması və paltarını soyunması Qigesə ləzzət verdi. Qadın arxasını Qigesə çevirən kimi o, gözə görünmədən yataq otağından çıxmağa çalışdı. Amma qadın onun otaqdan necə çıxdığını görmüşdü. O, bunu öz ərinin qurduğunu başa düşsə də, həya edib qışqırmamış, əksinə, özünü elə aparmışdı ki, guya heç nə görməmişdir, ürəyində isə Kandavldan intiqam almaq qərarına gəlmişdir. Axı, lidiyalılarda, eləcə də bütün başqa barbarlarda nəinki qadını, hətta kişini də çılpaq görmək böyük rüsvayçılıq sayılır.

11. Qadın, heç nə olmamış kimi, gecə dinməmişdir. Elə ki, səhər açılmış, onda özünün ən sadiq nökərlərinə hazır olmağı və Qigesi hüzuruna çağırmağı buyurmuşdur. Qiges də xanımın baş vermiş hadisədən xəbərsiz olduğuna inanaraq çağırılan anda dərhal gəlmişdir, axı əvvəllər də xanım onu hər dəfə hüzuruna çağıran kimi gələrdi. Qiges hüzura gələndə qadın ona belə sözlərlə üz tutub: "Qiges, indi qarşında iki yol var: onların hansı ilə getmək istədiyini sənin ixtiyarına qoyuram. Ya gərək Kandavlı öldürüb, mənə evlənərək lidiyalıların hökmdarı olasan, ya da Kandavlın sadiq dostu kimi, layiq olmadığın bir şeyi başqa bir vaxtda da görməmək üçün elə indicə ölməlisən. Beləliklə, ikinizdən biriniz ölməlidir: ya səni bu hərəkətə şirnikdirən ərim, ya da məni çılpağ görüb nəzakətsizlik etdiyin üçün sən". Xanımın sözlərindən sarsılmış Qiges əvvəlcə nə cavab verəcəyini bilməyib, onu belə bir qorxunc yol seçməyə məcbur etməməsi üçün hökmdar arvadına yalvarmağa başlamışdır. Qiges onu öz hökmündən döndərə bilməyib, iki yoldan birini-ya öz ağasını öldürməyi, ya da cəllad əlində məhv olmasını seçməkdən boyun qaçıra bilməyəcəyini görüb öz həyatını qorumaq yolunu seçmiş və xanıma belə bir sualla müraciət etmişdir: "İndi ki, sən iradəmə rəğmən məni öz ağamı öldürməyə məcbur edirsən, onda de görüm, biz onu ortadan necə götürək?". Hökmdar arvadı buna belə cavab vermişdir: "Məni sənə çılpaq halda göstərdiyi yerdəncə ona hücum edərik, sən onu yuxuda ikən öldürərsən".

12. Bu məkrli planı onlar birlikdə ölçüb-biçəndən sonra Qiges gecə düşən kimi qadının arxasınca yataq otağına girmişdir (axı, qadın Qigesi saraydan buraxmamışdı, onun çıxış yolunu kəsmişdi. Ya Qigesin özünün ölümü çatmalıydı, ya da o, Kandavlı öldürməliydi). Hökmdar arvadı ona xəncər verib, həmin qapının dalındaca gizlədir. Kandavl yuxuya gedəndə Qiges oğrun-oğrun yanaşıb onu öldürür; bu minvalla da arvadına və səltənətinə sahib olur. O vaxtlar yaşamış paroslu Arxilox da yambik trimetrində bundan danışmışdır.

13. Qiges hakimiyyətə beləcə sahib olur və Delf öz bəyanında onun taxta çıxmaq hüququnu təsdiq edir. Lidiyalılar isə Kandavlın öldürülməsindən hiddətlənərək silaha sarılırlar, lakin Qigesin tərəfdarları belə şərt kəsirlər: əgər kahin Qigesi tanıyarsa, lidiyalılar onun hökmdarlıqda qalmasına razılıq versinlər. Beləliklə, Qiges hökmdar olur. Pifiya hətta

downloaded from KitabYurdu.org

belə bir kəlam da söyləyir: Heraklidlər öz intiqamını Qigesin beşinci nəslinin dövründə alacaqlar. Fəqət, lidiyalılar da, onların hökmdarı da bu kahinin kəlamının möhləti çatana qədər heç nəyə məhəl qoymayırlar.

14. Mermnadlar Heraklidlərin əlindən aldıqları hakimiyyətə beləcə sahib olurlar. Qiges də taxta çıxıb Delfə heç də az miqdarda hədiyyə göndərmədi (Delfə daha çox gümüş şeylər nəzir verən odur). Qiges gümüşdən başqa saysız-hesabsız qızıl: da nəzir etmişdi. Müxtəlif şeylər sırasında 30 talant ağırlığında altı qızıl krater xatırlanmağa layiqdir. Bütün bunlar korinflilərin xəzinəsində saxlanılır. Əslində, bu, korinflilərin dövlət xəzinəsi olmayıb, Eyetion oğlu Kipselə məxsusdur. Mən bilən, bu Qiges barbarlar içində birinci olaraq (Frigiya hökmdarı Qordi oğlu Midasdan sonra) Delfə nəzir demişdir. Axı, Midas da hədiyyələr gətirmişdi, özü də məhz üstündə əyləşib məhkəmə qurduğu hökmdar taxtını. Bu diqqətəlayiq taxt Qigesin kraterləri qoyulan yerdəcə durur. Amma Qigesin bağışladığı bu qızıl və gümüş qabları delflilər nəzir verənin adına münasib olaraq Qiqadam adlandırırlar. Qiges hakimiyyət başına keçəndən sonra Miletin və Smirnanın üstünə yürüş edib Kolofon şəhərini alıb. Bununla belə, Qiges özünün 38 illik hökmranlığı12 ərzində heç bir böyük iş görməyib. Biz də onun haqqında çox danışdığımız üçün indi nəslinə keçə bilərik.

15. Mən bu adamdan sonra hakimiyyət sürmüş Qiges oğlu Ardisi yada salıram. Ardis Priyenanı istila edib Miletin üstünə müharibəyə getmişdir. Onun hakimiyyəti zamanı köçəri iskitlər tərəfindən özlərinin daimi məskənlərindən qovulmuş kimmerilər Asiyaya soxulub Sardanı (akropoldan başqa) tutmuşlar.13

16. Ardisin 49 illik hökmdarlığından sonra taxt irsən onun oğlu Sadiatta keçib ki, o da 12 il hökmranlıq edib. Sadiattın da varisi Aliatt olub. O, (Deyokun nəvəsi) Kiaksarla və midiyalılarla müharibəyə başlayıb. Sonra kimmeriləri Asiyadan qovub, Kolofonun müstəmləkəsi olan Smirnanı tutub və Klazomenanın üstünə yüyürüb. O, Klazomenadan qayıtmalı olub, lakin heç də istədiyi kimi yox, bəlkə böyük itki verməklə.

17. Onun hakimiyyət sürdüyü dövrdə xatırlanmağa daha çox layiq olan işlər bunlardır: hələ atasının başladığı müharibəni davam etdirərək, Miletlə döyüşə girmişdir. Miletin muhasirəsini də belə təşkil etmişdir: ordunun Miletə qarşı yürüşünü zəmilərdə taxılın dəyən vaxtına salmışdır. Tütək, pektida,14 zil və bəm ahəngli fleyta səsləri altında hərəkət edirmiş. Miletlilərin torpağına çatanda nə evləri yandırıb dağıtmış, nə qapıları sındırmışdır, əksinə, onlara heç toxunmamışdır. Yalnız ağacları kəsdirmiş, zəmidə taxılı məhv etdirib geri dönmüşdür. Şəhəri mühasirəyə almağın ona xeyri yox idi, çünki miletlilər dənizdə üstün idilər. Lidiya hökmdarının evlərə münasibətinə gəldikdə isə, evləri ona görə uçurmamışdı ki, miletlilər orada yaşamağa imkan tapıb, öz zəmilərini yenidən becərməyə başlayanda o, təzədən yürüşə çıxsın və buraları bir də viran qoysun.

18. Lidiya hökmdarı dalbadal on bir il bu cür müharibə aparmışdır. Bu illər ərzində miletlilər öz torpaqlarında iki dəfə böyük məğlubiyyətə uğramışlar: bir dəfə Limeneydə, bir dəfə də Meandr dərəsində. Bu on bir ilin altısı miletlilərlə müharibə aparan Ardis oğlu Sadiattın lidiyalılar üzərində hakimiyyəti dövrünə düşür (axı, müharibəni bu Sadiatt başlamışdır). Qalan beş ildə Sadiatt oğlu Aliatt müharibə aparmış və yuxarıda xatırlatdığım kimi, müharibəni atasından qəbul edib, canla-başla davaya girişmişdir. Bu müharibədə təkcə xioslulardan başqa heç bir İoniya şəhəri miletlilərə yardım etməmişdir. Xioslular da vaxtı ilə gördükləri köməyin əvəzini qaytarıb onlara köməyə gəlmişlər. Əvvəllər isə bütün miletlilər xioslularla birlikdə erifralılara qarşı müharibə aparmışlar.

19. Müharibənin on ikinci ilində lidiyalıların ordusu zəmiləri yenidən yandırdıqda belə bir hadisə üz verir: zəmilər yanmağa başlayan kimi külək alovu Afinanın Asses ləqəbi daşıyan məbədgahına sarı qovur. Alova bürünmüş məbəd yanır. Lidiyalılar bu hadisəyə əvvəllər heç əhəmiyyət vermirlər. Amma ordu Sardaya qayıdanda Aliatt xəstələnir. Xəstəlik getdikcə uzanır və özgəsinin məsləhətinə görəmi, yoxsa öz qərarına görəmi, hökmdar Delfə elçilər göndərir ki, gedib xəstəlik barədə kahindən sorğu-sual eləsinlər. Elçilər Delfə gələndə Pifiya cavab verir ki, onlar Afinanın Milet torpağındakı yandırılmış Asses məbədini bərpa etməyincə allah onlara heç bir bəyan verməyəcəkdir.

20. Belə bir hekayəti özüm Delfdə eşitmişəm. Delflilər isə buna belə bir əlavə də edirlər: Miletin o vaxtkı tiranı Frasibulun yaxın dostu Kipselin oğlu Periandr kahinin Aliatta verdiyi cavabı öyrənir. O, Frasibula kahin barədə xəbərçi göndərir ki, əvvəlcədən tədbirlər görsün. Miletlilər bunu belə söyləyirlər.

21. Miletlilər deyirlər ki, Aliatt isə Pifiyanın cavabını alaraq, məbədi yenidən tikib qurtarana qədər Frasibulla və miletlilərlə barışıq bağlamaq üçün dərhal carçı göndərir. Beləliklə, hökmdar elçisi Miletə gəlir. Hər şey haqqında əvvəlcədən xəbərdar edilən və Aliattın niyyətini bilən Frasibul da belə kələk işlədir. O, şəhərdəki bütün taxılı (həm özününkünü, həm də ayrı-ayrı vətəndaşlarınkını) bazar meydanına aparmağı əmr edir və miletlilərə buyurur ki, müəyyən işarə veriləndə şən kef məclisi düzəldib mahnılar oxumağa başlasınlar.

22. Frasibul bunu ona görə belə etmiş və belə əmr vermişdi ki, Sardadan gələn carçı meydançada böyük taxıl tığlarını və adamların kef-damaqla dolandıqlarını görüb Aliatta bu barədə xəbər versin. Doğrudan da, belə olur. Carçı bütün bunları görür, sonra Lidiya hökmdarının tapşırığını Frasibula çatdıraraq Sardaya qayıdır. Mən də öyrəndim ki, sülh hər hansı başqa bir səbəbə görə deyil, Frasibulun göndərdiyi xəbərə görə bağlanmışdır. Axı, Aliatt bu haqq-hesaba arxalanırdı ki, Miletdə bərk aclıqdır, buna görə də əldən düşmüş xalqın bədbəxtliyi həddini aşır. İndi isə o, Miletdən geri dönən carçıdan gözlədiyinin tamam tərsinə olan məlumat eşidir. Bundan sonra sülh bağlayır və bu müqaviləyə əsasən onlar dostluğa və bir-biri ilə ittifaqa qədəm qoyurlar. Aliatt da Assesdə Afinaya bir məbəd əvəzinə iki məbəd tikdirir, özü də xəstəlikdən qurtarıb sağalır. Aliattın miletlilərə və Frasibula qarşı apardığı müharibənin aqibəti belə olmuşdur.

23. Kahinin qeybdən verdiyi xəbəri Frasibula çatdıran Periandr Kipselin oğlu idi. Periandr Korinfin tiranı olmuşdur. Korinflilərin dediyinə görə (bu hekayəti lesboslular da təsdiq edirlər) Periandrın başına qəribə bir iş gəlir. Mefimndən olan Arion Tenar yaxınlığında bir delfinin üstündə dənizdən sahilə çıxır. O, Periandr zəmanəsinin əvəzsiz kifara çalanı olmuş, ilk difiramb15 yazıb ona ad vermiş və bunun Korinfdə xorla oxunmasını öyrətmişdir.

24. Elə bu Arion da vaxtının böyük qismini Periandrın yanında keçirib, sonra su yolu ilə İtaliya və Sikeliyaya getmək qərarına gəlir. Orada böyük sərvət qazanır və sonra Korinfə qayıtmaq istəyir. O, Tarantdan yola düşür, amma

downloaded from KitabYurdu.org

korinflilərə daha çox etibar etdiyi üçün Korinf dənizçilərinin gəmisini kirayələyir. Gəmi sürənlər isə pis fikrə düşürlər: onu açıq dənizə atıb xəzinəsini ələ keçirmək istəyirlər. Arion da onların niyyətini duyub, bütün xəzinəsini təklif edərək yalvarır ki, həyatına qıymasınlar. Lakin gəmi sürənləri yumşalda bilmir. Onlar Ariona əmr edirlər ki, ya torpaqda dəfn olunması üçün gərək özünü öldürsün, ya da dərhal dənizə atılsın. Qərarın bu cür olduğunu görən Arion belə ümidsiz bir vəziyyətdə gəmi sahiblərinə yalvarıb, hər halda onları buna razı salır ki, heç olmasa, avarçılar skamyasında dayanıb tam-dəstgah müğənni paltarında mahnı oxumasına icazə versinlər. Həm də söz verir ki, nəğməni oxuyub qurtaran kimi özünü həlak edəcəkdir. Onda gəmi sahibləri dünyanın ən yaxşı müğənnisini dinləmək sevinci ilə gəminin arxa tərəfindən ortaya keçirlər. Arion da tam-dəstgah müğənni paltarı geyinib, kifaranı götürür, gəminin arxa tərəfində dayanıb təntənəli nəğmə ifa edir. Nəğməni bitirib, paltarlı dənizə atılır. Gəmi sahibləri üzüb Korinfə gedirlər. Arionu isə, deyilənə görə, bir delfin belinə alıb Tenar sahilinə çıxarır. Arion sahilə çıxıb, əynindəki müğənni geyimində Korinfə yola düşür. Oraya çatanda bütün başına gələnləri danışır. Periandr isə bu hekayətə inanmayıb Arionu həbsə aldırır və heç yana buraxılmamasını, gəmi sahiblərinin də diqqətlə təqib olunmasını tapşırır. Elə ki, gəmi sahibləri Korinfə gəlib çatırlar, onda Periandr onları yanına çağırıb Arion barədə nə bildiklərini soruşur. Gəmi sahibləri cavab verirlər ki, Arion İtaliyanın harasındasa sağ-salamat yaşayır və onu Tarantda tam əmin-aman vəziyyətdə qoyub gəlmişlər. Bu vaxt Arion qəflətən özünü dənizə atdığı paltardaca ortalığa çıxır. Mat qalmış gəmi sahibləri öz günahlarını dana bilmirlər, çünki artıq ifşa olunmuşdular. Korinflilər və lesboslular bu haqda belə danışırlar. Tenarda isə Ariona nəzir- insanı delfinin üstündə təsvir edən kiçik mis heykəl var.

25. Lidiyalı Aliatt miletlilərlə müharibənin axırlarında vəfat etmişdir. O, 57 il hakimiyyət sürmüşdür. (Bu hökmdarlar evindən ikinci hökmdar olan) Aliatt xəstəlikdən sağalandan sonra nəzir etdiyi hədiyyələri Delfə aparmışdır. Onların içində çaxıra su qatmaq üçün düzəldilən və inkrustasiya vurulmuş dəmir altlıqlı böyük gümüş qab Delfə verilmiş hədiyyələrin ən diqqətəlayiqi sayıla bilərdi. Ona vurulmuş inkrustasiya xioslu Qlavkın əl işi idi (dəmir üzərində inkrustasiya sənətini ilk dəfə kəşf edən bu adamdır).

26. Aliattın vəfatından sonra hökmranlıq onun oğlu Krezə16 keçir. O vaxt Krezin 35 yaşı varmış. Onun hücum etdiyi ilk Ellin şəhəri Efes olmuşdur. Krez şəhəri mühasirəyə alanda efeslilər öz şəhərlərini Artemidaya nəzir demişlər və ilahə məbədindən şəhər hasarına buraz çəkmişlər. Mühasirəyə alınmış köhnə şəhərlə məbəd arasında məsafə 7 stadiya olardı. Bax beləcə, Krez əvvəlcə efeslilərin, sonra da bir-bir bütün ionların və eolilərin üstünə hərbi yürüşə çıxır. Bununla yanaşı, hökmdar hücum üçün hər dəfə yeni bəhanələr gətirir. Bunun üçün mühüm səbəb tapa bilirdisə, onda daha ciddi ittihamlar irəli sürər, başqa hallarda hətta əhəmiyyətsiz bəhanələrlə kifayətlənərmiş.

27. Asiya ellinlərini fəth edən Krez onları bac verməyə məcbur edir. Krez sonra donanma düzəldib adalılara hücuma keçmək fikrinə düşür. Gəmilər düzəltmək üçün hər şey hazır olandan sonra prienalı Biant, (başqalarının dediyinə görə miletli Pittak) Sardaya gəlir. Krez bu gəlmə adamdan soruşur: "Elladada təzə nə var?" O da bax belə cavab verir (bu cavabla da Krezi gəmilər qurdurmaqdan çəkindirir): "Ey hökmdar! Adalılar sənin əleyhinə Sardaya yürüşə hazırlaşaraq, çoxlu at alırlar". Krez Biantın doğru danışdığını düşünüb ona deyir: "Ah, kaş ki, allahlar ada camaatına Lidiya oğullarının üstünə at belində getmək fikri təlqin edəydi". Biant da onun sözünü kəsib deyir: "Hökmdar! Sən yəqin ehtirasla istərdin ki, ada camaatı öz süvariləri ilə materikdə əlinə düşəydi! Bu arzu üçün sənin əsasların var. Sən fikirləşirsən ki, əleyhinə donanma düzəltdiyin ada camaatı bunu bilsə, görəsən nə xəyala düşər? Lidiyalıları dənizdəcə yaxalayıb, materikdəki ellinlərin intiqamını onlardan almaqdan başqa heç nə! Bu sözlər Krezi çox sevindirir. Gəldiyi nəticə ona tam doğru görünür və donanma təşkilinin dayandırılmasını buyurur. Beləliklə, Krez İon (yunan) adalılarının camaatı ilə dostluğa başlayır.

28. Zaman keçdikcə Krez Qalis çayının bu tərəfinin bütün xalqlarını tabe etməyə nail olur, çünki kilikiyalılardan və likiyalılardan başqa bütün qalan xalqlar Krezə tabe idilər. Həmən xalqların adları bax belədir: lidiyalılar, frigiyalılar, misilər, mariandinlər, xaliblər, paflaqonlar, Finiya və Vifiniya frakiyalıları, karilər, ionlar (yunanlar), dorilər, eolilər və pamfiliyalılar.

29. Krez bütün bu xalqları tabe edib, onları Lidiya hökmranlığına birləşdirəndən sonra o vaxt, Elladada, yaşayan bütün fazillər (hər biri də tam müxtəlif, niyyətlə) axışıb zəngin və ehtişamlı Sardaya gəlməyə başlayırlar. O cümlədən afinalı Solon da gəlir. O, afinalıların arzusu ilə onlara qanunlar tərtib etmiş, sonra da on il müddətinə ölkədən çıxmışdı. Solon guya dünyanı görmək məqsədilə gəmi ilə yola düşmüşdü, amma, əslində, ölkədən ona görə çıxıb getmişdi ki, onu öz qanunlarını dəyişməyə məcbur etməsinlər. Axı, Solonun verdiyi qanunları on il saxlayacaqlarına təntənəli and içmiş afinalıların özləri onları dəyişə bilməzdilər.

30. Bu səbəbdən bəlkə də yad ölkələri görmək üçün Solon Misirə-Amasisin, sonra da Sardaya-Krezin17 yanına gedir. Sardada Krez Solon üçün öz sarayında mehriban bir qəbul düzəldir. Sonra qəbulun üçüncü, ya da dördüncü günü Krezin əmrinə görə xidmətçilər qonağı hökmdar xəzinələrinə aparıb, hökmdarın bütün böyük sərvətini ona göstərmişlər. Qonaq onu maraqlandıran hər şeyə baxıb həzz alandan sonra Krez Solona belə bir sualla müraciət etmişdir: "Afinadan gələn qonaq! Sənin fazilliyin və səyahətlərin haqqında biz çox şeylərdən halı olmuşuq, məhz bunu eşitmişik ki, fazilliyə olan məhəbbətin ucundan və dünyanı görmək üçün çox ölkələr gəzib-dolanmısan. İndi səndən soruşmaq istəyirəm: "Sən dünyanın ən xoşbəxt adamına rast gəlmisənmi?" Hökmdar sualı bu ümidlə vermişdi ki, yəqin qonaq ən xoşbəxt adamın onun özünün olduğunu bildirər. Solon isə Krezə qətiyyən yaltaqlanmaq istəməyib, sözün doğrusunu deyir: "Bəli, hökmdar, mən ən xoşbəxt adamı görmüşəm. Bu adam afinalı Telldir". Krez belə bir cavabdan çox təəccüblənir və səbrsizliklə soruşur: "Nə üçün sən Telli ən xoşbəxt adam sayırsan?" Solon cavab verir: "Bu Tell doğma şəhərin çiçəklənən dövründə yaşamışdır, onun çox gözəl və alicənab oğulları vardı və onların da hamısının uşaqlarının necə doğulub sağ qaldıqlarını görmək bu adama qismət olmuşdur. O, bizim anlayışımıza görə, varlı adam idi. Bundan əlavə, ömrünü şərəflə başa vurmaq da ona nəsib olmuşdur. Afinalıların qonşularla apardıqları müharibə

downloaded from KitabYurdu.org

zamanı o, yürüşə qoşulmuş və Elevsina həndəvərində düşməni qovub qaçırtmışdır, fəqət özü də şərəflə həlak olduğu yerdə dövlət hesabına dəfnini təşkil etmişlər!".

31. Tellin böyük xoşbəxtliyi haqqında Solonun hekayəti Krezdə yeni maraq oyadır və hökmdar ondan soruşur: "Bəs Telldən sonra ən xoşbəxt adam kimdir?" O, tamamilə əmin idi ki, Solon heç olmasa, ikinci xoşbəxt adam kimi onun özünü göstərəcəkdir, Lakin Solon deyir: "Telldən sonra ən xoşbəxt adamlar Kleobis və Bitondur. Əslən arğoslu olan bu adamların yaşayış üçün kifayət qədər vəsaiti vardı, üstəlik onlar özlərinin böyük fiziki gücü ilə fərqlənmişlər. Bundan başqa, onların ikisi də atletika yarışlarının qalibləri olmuşlar. Onların haqqında bir də bax bunu danışırlar: arğoslularda Arğos Herası şərəfinə bayramlar var. Onların anasını (ilahə kahinini) mütləq arabada ilahə ibadətgahına aparmaq lazım imiş. Amma onların öküzləri hələ çöldən qayıtmayıbmış. Gecikmək də olmazmış. Onda gənclərin özləri boyunduruğa qoşulub analarının getməli olduğu arabanı çəkib aparmışlar. Onlar 45 stadiya yol gedib ibadətgaha çatmışlar. Bayrama toplaşmış xalqın gözü qarşısında edilmiş bu igidlikdən sonra onların qismətinə gözəl ölüm yazılıbmış. Allah da bununla hamını aydıncasına başa salıb ki, insan üçün ölüm yaşamaqdan yaxşıdır. Arğoslular gəncləri əhatə edib onların gücünü, arvadlar isə onların anasını belə oğulları olduğuna görə təriflәmişlər. Ana oğullarının bu hünərindən və xalqın onlar haqqında rəyindən sevinərək ona bu qədər böyük hörmət göstərən oğulları-Kleobis və Biton üçün insanlara nəsib olan yüksək xoşbəxtlik bəxş etməkdən ötəri ilahənin heykəli qarşısında durub dua edirmiş. Bu duadan, nəzir-qurbandan və ziyafətdən sonra həmin gənclər ibadətgahın özündəcə yatır və bir daha durmayaraq, ömürlərini buradaca başa vururlar. Arğoslular isə göstərdikləri yüksək şərəfə görə gənclərə heykəl qoyub onu Delfə nəzir verməyi qərara alırlar".

32. Solon bu gəncləri xoşbəxtliyə görə ikinci yerə qoyanda Krez qəzəblə ona deyir: "Afinadan gələn qonaq! Bəs mənim xoşbəxtliyimi heç saya almırsan, hətta məni bu adi adamlarla bərabər tutursan?" Solon cavab verir: "Krez! Hər hansı allahın paxıl olduğunu və insanları həyəcana saldığını bilən bir adamdan-məndən insan ömrü haqqında soruşursan? Uzun ömür sayəsində çox şey görmək və çox gün keçirmək olar. Mən insan ömrünün həddini 70 il hesab edirəm. Əlavə aylar nəzərə alınmasa, bu 70 il 25.200 gün edir. Amma illərin özlərinə məxsus vaxta gəlib çatması üçün (təqvim aylarına uyğun olaraq) hər ikinci ilə daha bir ay artırılsa, onda 70 il ərzində artırma ayların sayı 35, bu aylardan toplanan günlərin sayı da 1050 olar. Bu yetmiş ilə düşən 26.250 gündən biri də o birinə oxşamaz. Hər gün bir yeni hadisə gətirir. Beləliklə, Krez, insan yalnız hadisə oyuncağıdır. Görürəm ki, böyük sərvətin var, hökmün çox adamlara çatır, amma sənin ömrünün uğurla sona yetəcəyini bilməyincə xoşbəxtliyin barədə sualına cavab verə bilmərəm. Axı, xəzinə sahibi, əgər xoşbəxtlik onunla həmrah olmasa və öz sərvətini ömrünün sonunadək qoruyub saxlaya bilməsə, o, gündəlik ruzisi olan adamlardan heç də xoşbəxt deyil. Ona görə də hətta bir çox varlı adamlar, sərvətlərinin olmasına baxmayaraq, bədbəxtdirlər və tərsinə, ortabab güzəranı olan çox adamlar xoşbəxtdirlər. Varlı, amma bədbəxt adamların ortabab güzəranı olan xoşbəxt adamdan yalnız ikicə üstünlüyü varsa, bu orta firavanlıqda yaşayan o birisini bir çox cəhətdən üstələyir: onlardan biri öz ehtiraslarını asanlıqla təmin etmək iqtidarındadır və taleyin ağır zərbələrinə daha yaxşı qatlaşır, o biri isə bəlalara əvvəlinci ilə eyni dərəcədə dözə bilməsə də, hər halda bununla üstün gəlir ki, onu məhz öz xoşbəxtliyi qoruyur, belə ki, o, cismani əyər-əksiklik və xəstəlik bilməyən, saf, uşaqları sarıdan xoşbəxt və xoşsifət adamdır. Bundan başqa, əgər tale ona hələ bir də xoşbəxt ölüm təyin, edibsə, onda bax bu, sən soruşduğun xoşbəxt adlandırılmağa layiq adamdır. Amma, nə qədər ki, adam diridir, onu xoşbəxt adlandırmaqdan çəkin, lap yaxşı olar ki, onu bəxti gətirən adlandırasan. Lakin bir adamın da bütün bu səadətə dərhal yetməsi mümkün deyil, necə ki, heç bir torpaq zəruri olan hər şeyi törədə bilmir-bir torpaq, ancaq bir şey, o biri də başqa şey yetirir; ən yaxşı torpaq, daha çox nemətlərə malik olan torpaqdır. Eləcə də, bir insan cismi özündən hər şey törətmir, çünki bizdə bir nemət varsa, başqa nemət çatışmır. Amma o kəs ki, qismən daha çox nemətlərə daimi malikdir və axırda da ömrünü şərəflə başa vurur, hökmdar, mənim aləmimdə o şəxs xoşbəxt adlanmağa haqlıdır. Burası da var ki, hər şeyin axırının nə ilə qurtaracağı nəzərə alınmalıdır. Axı, allah çoxlarına (bir anlıq) xoşbəxtlik bəxş edib, sonra da onları birdəfəlik məhv edibdir".

33. Mən belə düşünürəm ki, Solonun bu sözləri Krezin ürəyinə yatmır, hökmdar Afina fazilinin sözlərinə zərrə qədər etina etmədən onu hüzurundan mürəxxəs edir. Krez indiki xoşbəxtlik dəminə məhəl qoymayaraq, hər cür işin həmişə axırını gözləməyi məsləhət görən Solonu tamam sarsaq adam hesab edir.

34. Solon gedəndən azca sonra, görünür, özünü ölümə məhkum olan insanların ən xoşbəxti saydığına görə Krez dəhşətli allah cəzasına məruz qalır. O, yatır və dərhal oğlunun müsibətini xəbər verən yuxu görür. Krezin iki oğlu varmış: onlardan biri şikəst-kar-lalmış, Atis adlanan o birisi isə (igidlikdə) yaşıdlarını ötüb keçirmiş. Yuxuda Krezə əyan olur ki, Atis dəmir süngüdən ölümcül yaralanıb həlak olacaqdır. Krez ayılıb özünə gələndə yuxudan dəhşətə düşərək qərar verir ki, oğlunu evləndirsin və müharibələrdə adətən lidiyalıların başında dursa da, onu bir daha ova buraxmasın. Hökmdar həm də əmr edir ki, mizraqları, süngüləri və bu kimi başqa silahları kişilərin otağından çıxarıb qadınların içəri otaqlarına yığsınlar ki, (divardan) asılmış hər-hansı bir silah oğlunun üstünə düşməsin.

35. Krez oğlunun toyu ilə məşğulkən hökmdar nəslindən olan bir frigiyalı Sardaya gəlir. Ona dəhşətli bəla üz veribmiş, yəni, özünü qanlı kimi ləkələyibmiş. Bu yadelli Krezin sarayına gəlir və yerli adət üzrə günahını yumaq mərasimi ilə (günahdan) pak olunmasını xahiş edir. Krez onun günahını yuyur. Bu paklanma mərasimi ellinlərdə necədirsə, lidiyalılarda da eləcədir.18 Pak edilmədən sonra yadellinin kim və haralı olduğunu soruşub deyir: "yadelli! Sən kimsən, Frigiyanın harasından mənim oçağıma sığınacaq tapmağa gəlmisən? Kimi öldürmüsən, öldürdüyün kişidir, ya qadın?" O isə cavab verir: "Hökmdar! Mən Midas oğlu Qordinin oğluyam, adım Adrastdır. Mən təsadüfən öz qardaşımı öldürmüşəm, atam məni qovmuşdur, mən hər şeydən məhrum olaraq indi sənin yanına gəlmişəm". Krez də ona belə cavab verir: "Sən dostlarımızın nəslindənsən və öz dostlarının yanına gəlmisən. Bizdə qal, sənin heç nəyə ehtiyacın olmayacaqdır. Öz müsibətini nə qədər yüngül keçirsən sənin üçün bir o qədər yaxşı olar". Beləliklə, yadelli yaşamaq üçün Krezin sarayında qalır.

36. O vaxtlar Misiya Olimpində bir nəhəng qaban varmış. O, bu dağdan enib misiyalıların zəmilərini kor qoyurmuş. Misiyalılar elə hey vəhşi heyvanı ovlamağa çıxır, amma ona sədəmə vura bilmirlərmiş, hətta özləri ondan ziyan

downloaded from KitabYurdu.org

çəkirlərmiş. Nəhayət, misiyalılardan Krezə qasidlər gəlir və belə deyirlər: "Hökmdar! Bizim torpaqlarda nəhəng bir qaban peyda olub, zəmilərimizi dağıdır. Bütün cəhdlərimizə baxmayaraq onu tuta bilmirik. Ona görə də səndən xahiş edirik, oğlunu seçmə döyüşçü dəstəsi ilə və mərəzə vurulmuş itlərlə bizə göndərəsiniz və bizim torpağı bu bəladan qurtarasınız". Onlar belə xahiş edirlər, Krez isə gələcəkdən xəbər verən yuxunu yadına salaraq onlara belə cavab qaytarır: "Oğlumun göndərilməsi qoy heç ağlınıza da gəlməsin: mən onu sizinlə getməyə qoya bilmərəm, axı o təzəcə evlənib, indi onun evliliyinin iki ayıdır. Bununla belə, mən lidiyalılardan seçmə dəstəni və mərəzə vurulmuş ov itlərini sizinlə göndərərəm, özlərinə də əmr edərəm ki, torpaqlarınızı bu vəhşi heyvandan xilas etməyə çalışsınlar".

37. Krez belə cavab verir, misiyalılar da razı qalırlar. Bu vaxt Krezin oğlu misiyalıların xahişini eşidib gəlir. Ata oğlunu elçilərlə göndərmək haqqında xahişi rədd edəndə oğul ataya belə deyir: "Ata, ya hərbi yürüşdə, ya ovda fərqlənmək əvvəllər mənə də, sənə də yüksək və əsl həzz verirdi. Amma indi sən mənə həm onu, həm bunu qadağan edirsən, halbuki məndə nə qorxaqlıq görmüsən, nə də cəsarətsizlik. Mən xalq yığıncağına gedib oradan evə qayıdanda adamlar mənə hansı nəzərlə baxacaqlar? Mənim haqqımda həmvətənlərim nə düşünərlər, mənim gənc arvadım yaşamalı olacağı bir kişi haqqında nə fikirləşəcəkdir? Buna görə də ya ova getməyimə icazə ver, ya da heç olmasa, mənim bu cür hərəkət eləməyimin doğrudan da mənim üçün xeyirli olmayacağına dair ağlabatan bir səbəb göstər". Krez də oğluna belə cavab verdi:

38. "Oğlum! Mən ona görə belə hərəkət etmirəm ki, səndə guya qorxaqlıq, ya da hər hansı bir eyibli hərəkət görmüşəm. Mən yuxu görmüşəm və bu yuxu belə xəbər verib ki, sən çox yaşamayacaqsan, özün də dəmir süngüdən həlak olacaqsan. Bu yuxunun ucundan da sənə tələsik toy etmişəm və indi sənin bu cür tədbirlərdə iştirakını qadağan edirəm ki, heç olmasa (az müddətə olsa da) necə ki, sağam səni belə təhlükələrdən xilas edim. Axı, sən mənim yeganə oğlumsan (kar-lal olan ikinci oğlumu hesaba almıram).

39. Gənc isə cavab verir: "Ata, bu yuxunun ucbatından məni qoruduğuna görə səni qınamaq istəmirəm. Amma sən yuxunu düz başa düşməmisən, mən onu sənə izah etməliyəm. Deyirsən ki, yuxu mənim dəmir mizraqdan öləcəyimi sənə əvvəlcədən bildirmişdir. Məgər qabanın əlləri və ya dəmir mizrağı var ki, bu, səni qorxutsun? Qabaqcadan xəbər verilsəydi ki, mən qaban qılıncından, ya da buna bənzər başqa bir şeydən həlak olacağam, onda sən düz hərəkət etmiş olardın. Amma yuxu deyir ki, mizraqdan həlak olmalıyam. İndi də ki, biz insanların üzərinə getmirik, ona görə məni burax ova gedim".

40. Krez cavab verir: "Oğlum! yuxu haqqında sözlərin məni bir növ inandırdı, mən səni ova buraxıram".

41. Bundan sonra hökmdar frigiyalı Adrastı çağırmağı buyurub ona belə deyir: "Adrast! Mən səni düşdüyün ağır bəladan pak etmişəm, düşdüyün bu bəlaya görə səni qınamıram, səni evimə buraxdım və zəruri olan hər şeylə təmin etdim. Ona görə də sənə göstərdiyim yaxşılığa yaxşılıqla cavab vermək sənin borcundur. Səndən xahiş edirəm, indi ova gedən oğlumun keşikçisi olasan ki, quldurlar sizi həlak etmək üçün yolda qəflətən basqın etməyələr". Bundan başqa, özünə şərəf qazanmaq üçün gərək sən də bu ova gedəsən. Axı, səndəki şərəf qazanmaq şövqü babalardan keçmədir, özündə də gənclik qüvvəsi istədiyin qədər!".

42. Adrast cavab verir: "Hökmdar! Başqa şəraitdə olsaydı, mən belə ağır bir tədbirdə iştirak etməzdim. Axı, o cür dəhşətli bədbəxtlik keçirmiş mənim kimi bir adamın öz xoşbəxt yaşıdları ilə ünsiyyət axtarması ona yaraşmaz. Mənim buna hətta heç meylim də yoxdur və müxtəlif mülahizələrə görə mən belə bir ünsiyyətdən çəkinərdim. Amma indi ki, sən təkid edirsən, mən də səni yarıtmalı olduğum üçün (axı, sənin yaxşılığının əvəzini qaytarmaq mənə borcdur), mən bu işə hazıram. Bir halda ki, oğlunun salamatlığı onun keşikçisi kimi məndən asılıdır, demək, mənə etibar etdiyin oğlun sənin yanına sağ-salamat qayıdacaqdır".

43. Bundan sonra onlar seçmə döyüşçülər və mərəzə vurulmuş (ov) itləri götürüb ova gedirlər. Ovçular Olimp dağına çatıb ovu izləməklə məşğul olurlar. Onlar qabanı tapıb ona mizraq atmağa başlayırlar. Yenicə pak edilmiş yadelli Adrast da bu arada mizraq atır, amma düz ata bilmədiyindən mizraq Krezin oğluna dəyir. Mizraq gənci yaralayır: gələcəyi bildirən yuxunun hikməti bir növ doğru çıxır. Krezə xəbər çatdırmaq üçün dərhal Sardaya carçı göndərilir, o da Sardaya çatanda qabanla vuruşmanı və oğlunun başına gələni hökmdara danışır.

44. Krez oğlunun ölümündən dərin yasa batır. Hökmdara xüsusən bu ağır gəlirdi ki, oğlunu onun özünün qan günahından paklığa çıxartdığı bir adam öldürmüşdür. Dərddən üzülmüş hökmdar yadellinin ona gətirdiyi iztirablara şahid olmaq üçün Katarsiya Zevsini çağırır. O, eyni zamanda Efestiya Zevsini də, Eteriya Zevsini də şahid çağırır (Krez eyni allahı gah ona görə Efestiya allahı adı ilə çağırır ki, yadellini evinə qəbul edəndə oğlunun qatilinin bu adam olacağından şübhələnməmişdi, eyni allahı gah da ona görə Eteriya adı ilə çağırır ki, oğluna keşikçi qoyduğu adam onun qəddar düşməninə çevrilmişdi).

45. Sonra lidiyalılar Krezin oğlunun meyitini gətirib gəlirlər. Onların dalınca lap arxada qatil gəlir. Adrast meyitin qabağında dayanaraq özünü Krezin ixtiyarına verir. Əllərini qabağa uzadaraq, onu mərhumun meyiti üstündə qurban kimi öldürməyi tələb edir. Onun sözlərindən belə çıxırdı ki, özünün birinci müsibətindən sonra, indi də onu paklığa çıxartmış adamın oğlunu öldürdüyünə görə həyat ona dözülməz olmuşdur. Krez bunu eşidir, öz dərdi bundan ağır olsa da, Adrasta yazığı gəlir. O, Adrasta deyir: "yadelli! Mən səndən tamam razı qaldım: axı, sən özün özünü ölümə məhkum edirsən. Sən qərəzsiz qatil olduğuna görə mənim bədbəxtliyimin baisi deyilsən, bais hansısa bir allahdır ki, taleyin bu hökmünü mənə çoxdan çatdırıbdır". Sonra Krez oğlunu yerli mərasim qaydası ilə dəfn edir. Midasın nəvəsi, Qordinin oğlu, öz qardaşının qatili, sonra da onu paklığa çıxartmış adamın oğlunun qatili Adrast da mərhumun (yaxın adamları dağılışandan) və ətrafda sakitlik əmələ gələndən sonra qəbrin yerləşdiyi kurqanda özünü öldürür; o, tanıdığı; bütün insanlar içərisində özünü ən bədbəxt adam sayırdı.

46. Krez oğlunu itirdiyinə görə iki il dərin yasa batır. Bundan sonra da Kambis oğlu Kuruş Kiaksar oğlu Astiaqın hökmranlığını yıxır. Fars səltənətinin ucalması Krezin kədərinə son qoyur, onu belə həyəcanlı fikirlərə salır ki, görəsən hələ çox da qüdrətlənməmiş farsların getdikcə artan qüvvəsini bir yolla sındırmaq olarmı? Krez bundan ötəri müxtəlif

downloaded from KitabYurdu.org

yerlərə elçilər göndərib, Elladada və Liviyada kahinləri sınamağa başlayır. Elçilərin bəzisini Delfə, bəzilərini Fokidadakı Abaya, bəzilərini də Dodonaya göndərir; elçilərin bir qismi də Amfiarayın və Trofoninin məbədlərinə, nəhayət, Milet tərəflərindəki Branxidaya göndərilir. Bunlar Krezin rəmmaldan xəbər soruşmaq üçün göndərdiyi Ellin kahinləri imiş. Bununla yanaşı o, Liviyada Ammon rəmmalına da elçilər göndəribmiş. Hökmdar əvvəlcə rəmmalların gözüaçıqlığını sınamaq, əgər onların doğruçuluğu təsdiq olunarsa, bundan sonra "mən farsların üstünə müharibəyə gedimmi?" sualı ilə elçilər göndərmək istəyirmiş.

47. Beləliklə, hökmdar lidiyalıları rəmmalları sınamağa göndərib, onlara belə əmr verir: Sardadan çıxan gündən vaxtı hesaba almalı və yüzüncü gündə rəmmallardan soruşmalıdırlar: "Lidiyalıların hökmdarı Aliatt oğlu Krez indi nə edir?" Elçilər gərək hər bir rəmmalın cavabını yazalar və hökmdara çatdıralar. Başqa rəmmalların cavabları haqqında heç nə bildirilmir. Lidiyalılar isə Delfə gələn kimi buyrulan şeyləri Allahdan soruşmaq üçün müqəddəs aramgaha girirlər.

Pifiya da onlara altı bölgülü şerlə belə bəyan verir:

Sahildəki qum danələrini sayar, dənizi ölçərəm,
Dilsizlərii danışığını anlar, səsi olmayanları duyaram,
Sərt çanaqlı bir zirehli bağanın qoxusunu duyaram,
Tunc bir qazanda quzu ətiylə qaynayıb duruyor,
Altındakı qazanı tuncdan, qapağı tuncdan.19

48. Lidiyalılar Pifiyanın bu bəyanını yazırlar, sonra da qayıdıb Sardaya gəlirlər. Elə ki, başqa elçilər də rəmmalların bəyanlarını gətirib Sardaya çatırlar, onda Krez bürmələri açıb oxumağa başlayır. Lakin qeybdən verilmiş heç bir xəbər hökmdarı qane etmir, yalnız Delf rəmmalının cavabını dinləyib ona dərin hörmətlə etimad göstərir. Hökmdarın dediklərinə görə, yeganə doğruçu rəmmal Delf rəmmalı imiş, belə ki, yanında heç bir şahid olmayan Krezin o vaxt nə ilə məşğul olduğunu ancaq bu rəmmal sezmişdir. Hökmdar elçiləri rəmmalların yanına göndərib, müəyyən olunmuş günü gözləməyə başlayır və elə bir şey fikirləşir ki (onu heç cür açmaq və sezmək mümkün deyilmiş). O, tısbağanı və quzunu doğrayıb onları bir yerdə, bir tunc qazanda özü bişirir, qazanın ağzını da tunc qapaqla örtür.

49. Krezə Delfdən gələn xəbər belə idi. Lidiyalılar Amfiaray ibadətgahına çatanda və adət üzrə ona sorğu verəndə rəmmalın məhz nə cavab qaytardığına gəldikdə mən bunu bilmirəm, (axı, bu barədə heç bir məlumat verilmir). Mənə bircə o məlumdur ki, Krez bu rəmmalın da qeybdən verdiyi xəbərin doğru olduğunu etiraf etmişdir.

50. Bundan sonra Krez Delf allahını təmtəraqlı nəzirlərlə rəhmə gətirməyə başlayır. Belə ki, o, hər cinsdən seçilmiş 3000 baş heyvan qurban verilməsini, sonra da böyük tonqal qalayıb, qızıldan və gümüşdən bəzək vurulmuş taxtın, gümüş camların, al-qırmızı paltarların yandırılmasını əmr edir. Hökmdar bununla allahın daha böyük mərhəmətini qazanacağına ümid bəsləyir. Hökmdar bütün lidiyalıların da öz malından (bu tonqala) nəzir gətirməsini buyurur. Sonra Krez külli miqdarda qızıl əridib uzunu 6, eni 3, qalınlığı 1 əl içi həcmində yarımkərpic (şəklində) külçələr hazırlamaq əmri verir. Yarımkərpiclərin ümumi sayı 117 olmuşdur; onlardan dördü xalis qızıldan tökülüb, hərəsinin 21/2 talant çəkisi varmış, qalan yarımkərpiclərin çəkisi 2 talant olmaqla, qızıl-gümüş qarışığından düzəldilmişdi. Bundan sonra hökmdar xalis qızıldan, çəkisi 10 talant olan şir heykəli tökməyi əmr etmişdir. Sonralar Delfdə baş verən yanğın zamanı bu şir yarımkərpiclərdən quraşdırılmış (dayağın) üstündən düşmüşdür. Bu şir indiyə qədər də korinflilərin xəzinəsində durur, lakin indi çəkisi 61/2 talantdır, çünki əridilmə zamanı 31/2 talantı azalmışdır.

51. Bu şeylər hazırlanandan sonra Krez onları, daha başqa şeyləri, məsələn, biri qızıl, biri gümüşdən olan və içində çaxırla su qarışdırılan iki camı Delfə yollayır. Qızıl cam məbədin içində sağ tərəfə, gümüş cam isə sol tərəfə qoyulmuşdu. Yanğından sonra bu camlar da özgə yerə qoyulmuşdur. Qızıl cam indi klazomenalıların xəzinəsində saxlanır (onun çəkisi 81/2 talant, 12 minadır), gümüş cam isə pəncərə tərəfdə məbədin küncündədir. Onun 600 amfora tutumu var. Bu camları delflilər Feofani bayramlarında su qarışdırılmış çaxırla doldururlar. Delfdə təsdiq edirlər ki, bu camlar samoslu Feodorun məmulatıdır. Elə mən də belə düşünürəm, çünki görünür, bu nadircəsinə qəribə işdir. Sonra hökmdar Delfə 4 gümüş qab yollamışdır ki, bunlar (indi) korinflilərin xəzinəsindədir, 2 dənə də qızıl və gümüş suçiləyən göndərmişdir. Qızıl suçiləyənin üstündə bu məzmunda bir yazı həkk olunmuşdur: "Lakedemonluların nəzirləri". Amma bu düz deyil, axı, bu suçiləyənlər Krezin hədiyyəsidir. Yazını isə lakedemonlulara yarınmaq istəyən bir delfli həkk etmişdir. Mən bu adamın adını bilirəm, amma demək istəmirəm. Üstündə əlindən su axan oğlan həkk olunmuş suçiləyən isə lakedemonluların hədiyyəsidir. O biri iki suçiləyən lakedemonluların deyil. Krez bunlarla bərabər, üstündə yazı olmayan daha başqa çoxlu şeylər göndərmişdir. Onların içərisində şərab nəziri paylamaq ayini üçün dəyirmi camlar, eləcə də üç dirsək hündürlüyündə qızıldan qadın heykəli vardır (delflilərin dediklərinə görə, bu heykəldə hökmdara çörək bişirən qadın təsvir edilir). Krez, eləcə də, öz arvadının həmayillərini və kəmərini bağışlamışdır.

52. Krez Delfə məhz belə nəzirlər göndərmişdir. İşləri və taleyi haqqında eşitmiş olduğu Amfiaraya isə hökmdar qızıldan olan qalxan, sapı və ucluğu xalis qızıldan olan nizə nəzir etmişdir. Bu iki şey indi də binada İsmen Apollonu ibadətgahındadır.

53. Sonra Krez nəzirləri ibadətgahlara aparan lidiyalılara əmr edir ki, rəmmaldan onun farslar əleyhinə müharibəyə getməsinin və özünə müttəfiq, axtarmasının lüzumu haqqında soruşsunlar. Elçilər də ibadətgahlara çatandan və gətirdikləri nəzirləri verəndən sonra rəmmaldan bu sözlərlə sorğu diləyirlər: "Lidiyalıların və başqa xalqların hökmdarı Krez dünyada yeganə doğru xəbəri buradan eşitdiyini nəzərə alaraq, onun niyyətini sezdiyinizə görə mükafata layiq olduğunuz üçün bu hədiyyələri sizə göndərmişdir. İndi hökmdar sizdən soruşur: "O, farsların üstünə yürüş etsinmi və buna görə özünə müttəfiq tapsınmı?" Elçilər belə sual verirlər, hər iki rəmmal isə eyni cavab verib, Krezə bildirirlər:

downloaded from KitabYurdu.org

Hökmdar farslarla müharibəyə getsə, onda böyük səltənəti məhv edəcəkdir. Rəmmallar hökmdara bunu da məsləhət görürlər ki, ən qüdrətli bir ellin şəhəri axtarıb onunla ittifaq bağlasın.

54. Krez isə rəmmalların sorğuya cavabını alaraq, onların məzmunu ilə tanış olub son dərəcə sevinir. Hökmdar Kuruşun səltənətini məhz edəcəyinə tamam ümidvar olur. Sonra Krez bütün Delf xalqının sayını öyrənib elçilərlə Pifiyaya yenidən hədiyyələr göndərir, hər delfli 2 qızıl stater alır. Bu hədiyyəyə görə delflilər Krezə və lidiyalılara rəmmallardan ilk növbədə xəbər soruşmaq, gömrük haqqı və vergi verməmək ixtiyarı, (Pifiya oyunlarında) şərəfli yer verirlər, bundan başqa, hər bir lidiyalı bir də Delfdə həmişəlik vətəndaşlıq hüququ alır.

55. Krez delfliləri mükafatlandırıb rəmmala üçüncü dəfə müraciət edir (axı, hökmdar indi rəmmalın doğruculluğuna həddindən artıq inanır və ona tez-tez sorğular verirdi). Krez bu dəfə soruşur ki, onun hökmdarlığı uzunmu sürəcəkdir? Pifiya da ona bax, belə cavab verir:

Zaman gəlincə Midiya taxtında bir qatır oturacaq
İştə o zaman sən, ey zərif ayaqlı lidiyalı.
Çakıllı Hermosun sahilində durma, qaç,
Qorxaqlığın utanc verici olduğunu düşünmə.20

56. Bu sözləri Krezə bildirəndə hökmdar çox sevinir. O, belə hesab edir ki, qatır heç vaxt insan əvəzinə midiyalılara hökmranlıq edə bilməz, ona görə də hakimiyyət həmişəlik onun ocağına qismət olacaqdır. Sonra Krez ən qüdrətli ellin tayfası axtarmağa başlayır ki, onunla ittifaqa girsin. Hökmdar sorğu-sual nəticəsində öyrənir ki, ellinlərin ən görkəmliləri lakedemonlular və afinalılardır: birincilər dori tayfasının, ikincilər ion tayfalarının arasında. Bu iki tayfa o vaxt ellinlərin daha tanınmış tayfası olmuşdur. Belə ki, ionlar əvvəllər pelasq mənşəli, dorilər isə ellin mənşəli olmuşlar. İon tayfası öz torpağını heç vaxt tərk etməmişdir, Dorilər isə uzun müddət gəzərgi olmuşlar. Belə ki, hökmdar Devkalionun vaxtlarında dorilər Ftiotida torpağında, sonra Ellin oğlu Dorun vaxtlarında Ossa və Olimp ətəklərində Histieotida adlanan bölgədə yaşamışlar. Kadmeylər tərəfindən Histieotidadan qovulandan sonra dorilər Pində köçmüşlər və bu dəfə makedonlar adlanmışlar. Bu tayfa buradan yenə Driopidaya, oradan da ilk öncə Peloponnesə köçərək burada dorilər adı almışlar.

57. Pelasqların hansı dildə danışdıqlarını dəqiq deyə bilmərəm. Tirsenlərdən şimala doğru Kreston şəhərində yaşayan indiki pelasqlara görə mühakimə yürütsək, bunlar dorilər adlanan tayfanın vaxtı ilə qonşuları olmuşlar və indi Fessaliotida adlanan ölkədə yaşamışlar. Sonra da Hellespontda Plakiyanın və Skilakanın əsasını qoyub afinalıların qonşusu olmuş pelasqlara eləcə də başqa şəhərlərlə əhalisi vaxtı ilə pelasq olmuş tayfalara görə mühakimə yürütsək, onlar öz adlarını sonralar dəyişmişlər. Beləliklə, deyim ki, əgər bunlardan nəticə çıxarmaq olarsa, onda pelasqlar barbar dilində danışmışlar. Əgər belədirsə və bütün pelasq tayfası bu dildə danışırmışsa onda mənşəyinə görə pelasq olan Attika xalqı da ellinlərin bir hissəsi olandan sonra öz dilini dəyişməli idi. Axı, Krestonun və Plakiyanın sakinləri indi də qonşularının dilinə oxşamayan özgə bir dildə danışırlar. Bu sübut edir ki, onlar bu ölkələrə köçəndə gətirdikləri dilin özünəməxsus cizgilərini elə indi də saxlayırlar.

58. Ellin tayfalarına qalanda, mənim fikrimcə, onlar lap əvvəlindən eyni dildə danışmışlar. Pelasqlarla birləşənə qədər ellinlər azacıq idilər. Onlar belə kiçicik olan ilkin vəziyyətdən sayca artırlar və çoxlu tayfanı öz tərkibinə qatırlar, əsasən də ona görə çoxalırlar ki, pelasqlar və çoxluca başqa yadelli tayfalar onlarla birləşirlər. Beləliklə, mən belə düşünürəm ki, pelasqlar ellinlərlə birləşənə qədər, heç olmasa, hələ barbar olduqları müddət ərzində heç vaxt mühüm xalq olmamışlar.

59. Öyrəndiyimə görə, Attika xalqı bu iki xalqdan ayrılmış və yerli nifaq nəticəsində əzilmişdir. O vaxtlar Hippokrat oğlu Pisistrat Afinada hökmdar olmuşdur. Həmin bu Pisistrat hələ adi vətəndaş sifəti ilə Olimp oyunlarında iştirak edərkən ona bir əlamət əyan olmuşdur: qurban kəsilən zaman orada ət və su ilə doldurulmuş qazanlar odsuz-ocaqsız qaynamışlar və su daşıb tökülmüşdü. Bu hadisə zamanı orada olan və əlaməti görən lakedemonlu Xilon Hippokrata məsləhət görmüşdür ki, hər şeydən əvvəl, uşaq doğan arvad almasın. Əgər o, artıq evlidirsə, arvadını boşasın; hətta, əgər oğlu varsa, ondan da imtina eləsin. Hippokrat isə Xilonun məsləhətini rədd etmişdir. Bundan sonra onun yuxarıda xatırlatdığımız Pisistrat adlı oğlu olmuşdur. O vaxt afinalılarla sahil boyunda yaşayanlar (onların başçısı Alkmeon oğlu Meqakl olmuşdur və düzənliklərdə yaşayanlar arasında (başda Aristolaid oğlu Likurq olmaqla) çəkişmə gedirmiş. Onda artıq tiranlıq haqqında düşünən Pisistrat üçüncü dəstə yaradır. O, tərəfdarlar toplayır, aşkarcasına hiperakrilər dəstəsinin rəhbəri olub, bax belə bir hiylə fikirləşir: o, özünü və qatırlarını yaralayır, sonra da guya çöl ilə gələndə onu döymək istəyən düşmənlərdən xilas olaraq, arabada bazar meydançasına gəlib çıxır. Pisistrat xalqdan ona keşikçi verməyi xahiş edir. O, hələ meqarlarla müharibə zamanı Niseyi zəbt edib, daha böyük qəhrəmanlıqlar göstərərək bir sərkərdə kimi fərqlənibmiş. Afina xalqı isə özünün aldadılmasına imkan yaradaraq, şəhərlilərdən ona gözətçilər verir. Bunlar Pisistratın nizəçiləri deyil, qırbac vuranları olurlar və əllərində ağac; qırbaclar onu müşayiət edirlər. Bax bunlar, başda Pisistrat olmaqla, qiyam qaldırıb akropolu tuturlar. Onda Pisistrat afinalıların hökmdarı olur. Bununla belə, o, dövlət vəzifələrindəki qaydanı pozmur, qanunları dəyişmir və dövlət işlərinə ədalətlə, işgüzarcasına rəhbərlik edərək, şəhəri mövcud qanunlar əsasında idarə edir.

60. Lakin Meqakl və Likurqun tərəfdarları tezliklə birləşirlər və Pisistratı qovurlar. Pisistrat Afinanı ilk dəfə beləcə ələ keçirir və tiranlıq hələ dərin kök atmamış ondan bu şəkildə məhrum olur. Bununla belə, Pisistratı sürgün edən düşmənləri yenidən öz aralarında çəkişməyə başlayırlar. Çətin vəziyyətə düşən Meqakl Pisistratın yanına elçi göndərir. O, öz qızına evlənməyi və tiranlığı da cehiz kimi ona təklif edir. Pisistrat bu şərtlə razılaşıb təklifi qəbul edir. Onlar, Pisistratın qayıtması üçün, mənim fikrimcə, son dərəcə axmaq bir fənd işlədirlər. Ellinlər lap qədimlərdən, hələ barbarlardan ayrılandan sonra barbarlarla müqayisədə özlərinin tədbirliyi, kor-koranə mövhumatdan azad olmaları ilə daha çox seçilsələr də, bu adamlar (Meqakl və Pisistrat), hər halda ellinlər arasında ən fəndgir olan afinalılarla belə bir

downloaded from KitabYurdu.org

oyun oynamaqdan utanmamışlar: Peoniya evində boyu 4 dirsəkdən üç barmaq əskik olan Fiya adlı, ümumən, çox gözəl bir qadın yaşayırmış. Bax, bu qadını tam təchiz olunmuş vəziyyətdə arabaya qoyaraq, əxlaqlı görünməsi üçün necə görkəm almalı olacağını göstərərək şəhərə aparırlar. Ona görə də əvvəlcədən carçılar göndərirlər ki, onlar şəhərə gələndə aldıqları əmrə görə şəhərlilərə belə sözlərlə müraciət etsinlər: "Afinalılar! Afinanın özünün bütün insanlardan uca tutduğu və sürgündən öz akropoluna qaytardığı Pisistratı rəğbətlə qarşılayın!" Carçılar küçələrdən keçərək belə qışqırırlar və bütün evlərə (məhəllələrə) səs yayılır ki, Afina Pisistratı sürgündən qaytarır. Şəhərdə hamı inanır ki, bu qadın həqiqi ilahədir; əslində isə fani olan məxluqa dua oxuyur və Pisistratı qəbul edirlər.

61. Bu yolla yenidən hakimiyyət başına gələn Pisistrat şərtləşdiyi kimi, Meqaklın qızını alır. Lakin onun böyük uşaqları olduğuna və Meqaklın mənsub olduğu Alkmeonidlər nəsli isə lənətə məruz qalmış nəsl hesab edildiyinə görə Pisistrat gənc arvadından uşağı olmasını istəmir və buna görə də qeyri-təbii yolla əlaqəyə girir. Arvadı əvvəllər bu vəziyyəti gizlədir, amma sonra (ya suallara cavab verəndəmi, ya da şəxsi təşəbbüsü iləmi, nədənsə) anasına, o da öz ərinə danışır. Meqakl da onu belə rüsvay etdiyinə görə Pisistrata bərk qəzəblənir, hirsli-hirsli özünün (əvvəlki) tərəfdarları ilə yenidən birləşir. Pisistrat da onun əleyhinə qəsd təşkil olunduğunu öyrənib şəhərdən, ümumən, Attikadan uzaqlaşır və Eritriyaya gəlib öz oğulları ilə məsləhətləşir. Ali hakimiyyəti yenidən ələ keçirməyə təşəbbüs göstərmək lazım gəlməsi haqqında Hippinin fikri üstünlük qazanır. Onda onlar (Pisistrat və oğulları) müəyyən cəhətdən onlara borclu olan şəhərlərdən sədəqələr toplamağa başlayırlar. Bir çox şəhər Pisistrata böyük məbləğdə pul təqdim edir, lakin fivalılar pul hədiyyələrinə görə o biri şəhərləri ötüb keçirlər. Bir sözlə, bundan bir qədər sonra onların Afinaya qayıtması üçün hər şey hazır edilir. Doğrudan da, Peloponnesdən Arğos muzdlu qoşunu, Naksosdan da (Pisistratın) Liqdamid adlı ən çılğın tərəfdarı könüllü olaraq pul və adamlarla gəlir.

62. Pisistrat və tərəfdarları Eritriyadan beləcə hərəkət edərək, sürgünün on birinci ilində yenidən Attikaya gəlirlər. Orada tutduqları ilk yer Marafon olur. (Marafondakı) duracaq zamanı nəinki Afina şəhərinin (özündəki) tərəfdarları onlarla birləşirlər, hətta indiki azadlığa nisbətən tiranlığı bəyənən demlərdən də adamlar axışıb gəlir. (Tiran və onun tərəfdarları) öz qüvvələrini belə toplayırlar. Afinalılar isə Pisistrata nəinki vəsait toplandığı vaxtlar, hətta Marafon tutulandan sonra da məhəl qoymurlar. Pisistratın Marafondan Afinaya hərəkət etdiyini eşidəndən sonra şəhərlilər onun əleyhinə hərəkətə gəlirlər. Şəhərin bütün yığma qoşunu geri qayıdan sürgün olunmuşların əleyhinə çıxır. Pisistrat öz adamları ilə Marafondan çıxaraq Afinaya hücuma keçəndə hər iki qoşun Afinanın Pallena ibadətgahı yanında üz-üzə gəlir və orada bir-birinin qarşısındakı qərargahda yerləşir. Burada Akarnaniyadan kahin Amfilit Pisistratın qarşısına gəlir və allahın vəhyi ilə ona altı təqti ölçüsündə şerlə gələcəyi xəbər verən aşağıdakı sözləri bəyan edir:

Ağ atılmış və geniş bir alana yayılmışdır,
Mahtablı bir gecədə orkinoslar dənizdən sıçrayaraq gələcəklər.21

63. İlhamlı kahin gələcəkdən belə xəbər bəyan edir. Pisistrat da bəyanın mənasını başa düşərək rəmmalı qəbul etdiyini bildirib öz ordusunu düşmən üstünə aparır. Afina şəhərliləri isə elə bu vaxt səhər yeməyi yeyirmişlər və bundan sonra da bir qismi sümük atmaq (aşıq) oyunu ilə məşğul imiş, bir qismi də yatırmış. Bu vaxt Pisistrat öz ordusu ilə birlikdə afinalılara hücuma keçib, onları qaçırdır. Düşmən qaçmağa başlayanda Pisistrat elə bic üsula əl atır ki, qaçanların yenidən birləşməsinə mane olsun və düşmən ordusunu pərən-pərən salsın. O, öz oğullarına əmr edir ki, atlarını qabağa çapsınlar. Pisistratın oğulları qaçanlara çataraq, atalarının adından onlara heç nədən qorxmamağı və evlərinə dağılışmağı təklif edir.

64. Afinalılar elə belə də edirlər. Pisistrat bu yolla Afinanı üçüncü dəfə ələ keçirir. O, muzdla tutulmuş güclü dəstələr, eləcə də, Afinanın özündən və Strimon çayı bölgələrindən yığdığı pul vergisi vasitəsi ilə hakimiyyətini möhkəmləndirir. Sonra o, dərhal qaçmayıb müqavimət göstərən afinalıların oğlanlarını girov götürüb onları Naksosa köçürür. (Pisistrat Naksosu işğal edib Liqdamidin ixtiyarına vermişdi). Bundan başqa o, rəmmalın buyuruğu ilə Delos adasını "təmizləmişdi". Pisistrat bunu da belə həyata keçirmişdir: O, əmr etmişdir ki, ibadətgah bölgəsində göz işləyən yerlərdə dəfn olunmuş bütün meyitləri qazıb çıxartsınlar və buradan Delosun başqa tərəfinə aparsınlar. Pisistrat Afinada tiran olur: afinalılara gəldikdə, onların bəziləri (onun düşmənləri) döyüşdə həlak olurlar, qalanları da Alkmeonidlərlə birlikdə doğma torpaqlardan sürgünə getmək məcburiyyətində qalırlar.

65. O vaxt Afinanın vəziyyəti belə olmuşdur. Bunun əksinə, Krezin öyrəndiyinə görə lakedemonlular böyük müsibətlərdən yaxa qurtarmışlar və indi artıq tegeyalılara qalib gəlmişlər. Axı, Sparta hökmdarları Leonti və Hegesikl dövründə lakedemonlular bütün başqa müharibələrdə qalib gəlmiş təkcə tegeyalılarla müharibədə məğlub olmuşdular. Bütün ellinlər içərisində əvvəllər, demək olar ki, hətta ən sarsaq qanunlar lakeremonlularda olmuşdur, belə ki, onlar nə bir-biri ilə, nə də yad ölkələrin dövlətləri ilə əlaqə saxlamırdılar. Onlar özlərinin indiki gözəl dövlət quruculuğunu bax bu cür qazanmışlar: tanınmış spartalı Likurq rəmmala sorğu vermək üçün Delfə gəlir. O, ibadətgaha daxil olan kimi Pifiya ona dərhal bunu bəyan edir.

Mənim zəngin tapınağıma gələn Likurq
Zevsin və Olimpdə oturan bütün tanrılar sevgilisi,
Sənə insanmı, yoxsa tanrısal varlıqmı, deyim, bilməyirəm,
Ümidim qüvvətli Likurq, sən tanrılığını isbat edəcəksən.22

Bəzilərinin dediyinə görə, Pifiya Likurqa bu bəyandan başqa, hətta Spartada mövcud olan bütün dövlət quruculuğunu da bəyan edibmiş. Amma, lakedemonluların özlərinin təsdiq etdiklərinə görə Likurq (dövlət quruluşuna dair) bu yeniliyi Spartaya Kritdən gətirmişdir. O, özünün qardaşı oğlu, Sparta hökmdarı Leobotun qəyyumu olmuşdur.

downloaded from KitabYurdu.org

Likurq hökmdarın qəyyumu olan kimi bütün qanunları dəyişir və ciddi şəkildə gözləyir ki, onları pozmasınlar. Sonra o, ordunun enomotilərə23 bölünməsi haqqında fərmanlar verir, triakadlar24 və sissitlər25 müəyyənləşdirir. Likurq bundan başqa eforlar26 vəzifəsi təsis edir və ağsaqqallar şurası (gerontlar)27 yaradır.

66. Lakedemonlular özlərinin sarsaq qanunlarını yaxşı qanunlarla beləcə dəyişirlər, Likurqun vəfatından sonra ona məbəd tikirlər və indi də onu dərin hörmətlə yad edirlər. Onlar məhsuldar ölkədə yaşadıqlarından və əhalinin sayına görə çox olduqlarından tezliklə inkişaf etməyə və bolluq əmələ gəlməsinə nail olurlar. Doğrudan da, sülh şəraitində yaşamaq artıq onları təmin etmir, özlərinin arkadiyalılardan üstünlüklərinə əmin olaraq Delf rəmmalından soruşurlar: onlar bütün Arkadiya torpağını istila edə bilərlərmi? Pifiya da cavabında bax bunu bəyan edir:

Arkadiyamı? İstədiyiniz şey çox böyük, bunu sizə verməyəcəyəm.
Arkadiyada çox insan var, hamısı da buğda yeyir,
Və sizi bir anda geri atar. Amma mən xəsis deyiləm.
Gözəl ovalarını ölçüb-biçmək
Və təpinərək oynamaq üçün sizə Tegeyi verəcəyəm.28

Lakedemonlular rəmmaldan belə bir xəbər eşidib Arkadiyanın bütün başqa şəhərlərindən əl üzərək Tegeya üzərinə müharibəyə gedirlər. Rəmmalın ikibaşlı (cavabına) ümid bağlayaraq, özləri ilə qandallar götürürlər, çünki tegeyalıları qul edəcəklərinə möhkəm inanırmışlar. Amma, lakedemonlular döyüşdə məğlub olurlar və onlardan əsir düşənlərə özlərinin gətirdikləri qandallar vurulur: əsirlər tegeyalıların zəmilərini ölçü kəndirləri ilə ölçüb onu becərməli olurlar. (Lakedemonlulara) vurulan həmin qandallar Tegeyada indi də saxlanır və Afinanın Alsa29 ləqəbi daşıyan məbədinin divarlarından asılmışdır.

67. Tegeyalılarla əvvəlki müharibələrdə lakedemonlular həmişə bax, beləcə məğlubiyyətə uğramışlar. Lakin Krezin vaxtında Anaksandrid və Ariston30 lakedemonluların hökmdarı olanda, axır ki, spartalılar onlara üstün gəlmişlər və bu da belə olmuşdur. Lakedemonlular özlərinin daimi məğlubiyyəti üzündən tegeyalılara qələbə çalmaq üçün hansı allahı rəhmə gətirmək lazım gəldiyini (rəmmaldan) soruşmaq üçün Delfə elçilər göndərmişlər. Pifiya cavab vermişdir: onlar Ağamemnon oğlu Orestin cəsədini Spartaya köçürtməlidirlər, (onda) tegeyalılara qalib gələrlər. Amma spartalılar Orestin qəbrini tapa bilməyiblər və Orestin harada dəfn olunduğunu soruşmaq üçün yenidən Delfə elçilər göndəriblər. Pifiya elçilərin sualına belə cavab verib.

Arkadiyanın düz ovalarında Tegeya uzanır.
Və burada qüvvətli bir basqı ilə iki rüzgar nəfəs alır.
Biri öldürəsiyə çarpar, ötəki eyni şiddətlə qarşılıq verir,
kədər kədər üstünədir.
Həyat verən torpaq Ağamemnonun oğlunu saxlar,
Tegeyadan alıb yurduna gətirin, qalib gələcəksiniz.31

Bununla belə, lakedemonlular rəmmalın bu cavabından sonra, nə qədər cəhd göstərsələr də, Spartada ağatoerqlər32 adlananlardan Lix deyilən birisi tapana qədər qəbri tapa bilmirlər. Bu ağatoerqlər beş nəfər olmaqla hər il süvarilər təbəqəsindən çıxan ən qocaman vətəndaşlardılar. Süvarilər təbəqəsindən çıxdıqları həmin il ərzində onlar Spartadan ötəri müxtəlif yerlərdə daimi səfirlik vəzifəsini yerinə yetirməyə hazır olmalıdırlar.

68. Bu adamların arasında Lix deyilən birisi varmış. O, qismən təsadüfən, qismən də biclik işlədərək Tegeyada (Orestin qəbrini) tapmışdır. O vaxt lakedemonlularla Tegeyalılar arasında barışıq olmuşdur. Lix dəmirin necə döyüldüyünə baxmaq üçün dəmirçixanaya girir və (dəmirçinin) sənətinə heyran qalır. Dəmirçi onun heyrətini görərək, işi dayandırıb soruşur: "Lakonlu dost! Sən dəmir üzərində necə məharətlə işləməyimə heyrət edirsən. Əgər mənim gördüklərimi sən görmüş olsaydın, onda daha çox heyrət edərdin! Mən öz həyətimdə quyu qazmaq istədim və yeri qazanda 7 dirsək uzunluğunda bir tabuta rast gəldim. Vaxtı ilə insanların indikilərdən boyca böyük olmalarına inanmayaraq tabutu açdım və gördüm ki, ölü doğrudan da tabutla bir boydadır. Tabutu ölçüb üstünü yenidən torpaqla basdırdım". Dəmirçi gördüyünü ona beləcə danışır. Lix də bu sözləri götür-qoy eləyir. Onun ağlına gəlir ki, rəmmalın dediyi Orestin cəsədi elə budur. Bu da Lixin ağlına ona görə batır ki, o, dəmirçinin yel basan iki körüyünə baxaraq belə nəticəyə gəlir: bu körüklərdən çıxan yel rəmmalın dediyi küləkdir, zindanla çəkic isə zərbə və ona cavab zərbəsidir, üst-üstə gələn bəla da döyülən dəmirdir (bundan ona görə belə nəticə çıxardır ki, o, dəmirin insan müsibəti üçün kəşf olunduğunu fikirləşmişdi). Lix belə düşünərək Spartaya qayıdıb, başına gələnlərin hamısını danışır. Lakedemonlular isə qəsdən onu guya cinayətkarlıq etdiyinə görə şəhərdən sürgün edirlər. Onda Lix yenidən Tegeyaya gəlib müsibətini dəmirçiyə danışır. Sonra o, həyətini ona icarəyə verməsini xahiş edir, amma dəmirçi əvvəlcə razı olmur. Handan-hana Lix dəmirçini dilə tuta bilir. Sonra bu həyətə köçüb, qəbri qazır və yığdığı sümükləri Spartaya gətirir.

O vaxtdan etibarən iş gəlib iki şəhər adamlarının toqquşması ilə nəticələnəndə lakedemonlular (tegeyalılardan mütləq xeyli güclü çıxırlar. Beləliklə də, onlar artıq Peloponnesin böyük hissəsini istila etmişdilər.

69. Krez bütün bunları öyrənir və ittifaq təklifi üçün elçiləri hədiyyələrlə Spartaya göndərir. Hökmdar elçilərə nə deyəcəklərini bildirir, onlar da Spartaya gələndə bax belə deyirlər: "Bizi lidiyalıların və başqa xalqların hökmdarı Krez göndərib və o, sizə belə deyir: "Lakedemonlular, allah rəmmal vasitəsi ilə mənə qeybdən xəbər göndərib ki, ellinlərlə ittifaq bağlayım. Eşitdiyimə görə, siz də Elladada ən qüdrətli adamlarsınız. Buna görə rəmmalın buyurduğu ilə sizə müraciət edirəm, sizin məkrsiz və yalansız dostunuz və müttəfiqiniz olmaq istəyirəm". Krez öz elçilərinə bunu bildirməyi əmr edir, lakedemonlular da rəmmalın bəyanı barədə Krezin göndərdiyi xəbəri eşidib lidiyalıların gəlişindən

downloaded from KitabYurdu.org

sevinirlər, onlarla dostluq və ittifaq haqqında andla təsdiq edilmiş müqavilə bağlayırlar. Bununla yanaşı, Krez onlara əvvəllər də bəzi xidmətlər göstərmişdi. Belə ki, Lakoniyadakı Fornakda indi də duran Apollon heykəlindən ötəri qızıl və hədiyyə almaq üçün lakedemonlular Sardaya elçi göndərmişdilər.

70. Buna görə, (eləcə də, Krez müttəfiq sifəti ilə onları bütün başqa ellinlərdən üstün tutduğu üçün) lakedemonlular bu ittifaq müqaviləsini bağlayırlar. Özləri də "nəinki hökmdarın təklifini qəbul edirlər, hətta, hökmdar tələb edərsə onun hədiyyələrinin əvəzində hədiyyələr göndərmək istəyirlər. Beləliklə, lakedemonlular çaxıra su qarışdırılması üçün bayır tərəfdən qıraqlarına hər cür naxış vurulmuş 300 amfora tutumu olan iri həcmli mis cam hazırlamışlar. Bununla belə, bu cam Sardaya gedib çatmamışdır, səbəbini də iki cür söyləyirlər. Lakedemonluların dediklərinə görə Sardaya göndərilən camın yolu Samos adasına düşmüşdür. Samoslular da bunu eşidib hərbi gəmilərdə oraya getmiş və camı oğurlamışlar. Samosluların özləri isə, əksinə, iddia edirlər ki, camı aparan lakedemonlular mənzilə çox gec gedib çatmışlar və yolda öyrənmişlər ki, (farslar) Sardanı almışlar, Krez də əsir düşmüşdür. Onda onlar guya bu camı Samosda satmağı təklif "etmişlər və bir neçə (Samos) vətəndaşı onu alıb Hera məbədinə nəzir vermişdir. Mümkündür ki, camı satan adamlar doğrudan da Spartaya gələndə onu samosluların qarət etdiklərini söyləmiş olsunlar.

71. Çaxıra su qarışdırılması üçün düzəldilmiş cam məsələsi belə olmuşdur. Krez isə rəmmalı düz yoza bilməyib, Kuruşu taxtdan salmaq və fars hökmranlığını yıxmaq ümidi ilə Kappadokiyaya yürüş etmişdir. Yürüşə hazırlıq zamanı bir nəfər lidiyalı hökmdara məsləhət vermişdir (Sandanis adlanan bu lidiyalı əvvəllər də tədbirli adam kimi tanınırdı, axırıncı məsləhəti sayəsində lidiyalılar arasında daha artıq şöhrətlənmişdir). O demişdir: "Hökmdar! Sən dəridən tuman geyinən və başqa paltarları da dəridən olan, sərt bir torpaqda yaşadıqlarına görə istədikləri qədər deyil, xörəkləri çatan qədər yeyən adamların üzərinə yürüşə hazırlaşırsan. Bundan başqa, onlar su ilə ötüşərək çaxır içmirlər. Onların nə əncir ağacları var, nə də başqa xeyirli meyvələri. Sən onlara qalib gəlsən belə, hər cür nemətdən məhrum olan xalqdan nə alacaqsan? O biri tərəfdən, bir düşün ki, məğlub olsan nədən məhrum olarsan! Axı onlar bizim yaşayışımızın ləzzətini görüb bizə elə daraşarlar ki, onları (ölkəmizdən) qova bilmərik. Mən allahlara təşəkkür edirəm ki, onlar lidiyalılarla müharibə aparmaq fikrini farslara təlqin etmir!" Amma bu sözlər Krezi inandırmayıb. Mən bunu ona görə danışıram ki, farslar Lidiyanı istila edənə qədər, doğrudan da, nə zinət tanıyırdılar, nə də var-dövlət.

72. Ellinlər kappadokiyalıları suriyalılar adlandırırlar. Bu suriyalılar isə fars hökmranlığına qədər lidiyalılara tabe idilər, sonra Kuruşa tabe oldular. Midiya və Lidiya hökmdarlığının sınırı isə Ərmən (sıra) dağlarından axıb gələn və Kilikiyadan keçən Qalis çayı olmuşdur.33 Bu çay sonra sağdan matienlərin sahələri üzrə, sol tərəfdən frigiyalıların torpağından keçəndən sonra şimala burulur və sonra sağ sahildə Suriya kappadokiyalılarının sınırını təşkil edir. Beləliklə Qalis çayı az qala Asiyanın bütün aşağı hissəsini Kiprin qarşısında yerləşən Evksin Pontu deyilən dənizdən ayırır Bura bütün ölkənin ən ensiz yeridir və çevik piyada bu yolu 5 günə keçib gedə bilər.

73. Krezin Kappadokiya ilə müharibəyə başlamasının səbəbi də belə olmuşdur: hər şeydən öncə o, torpaq ələ keçirmək ehtirasına qapılaraq (bu ölkənin ərazisini də öz ölkəsinə qatmağa çalışmışdır). Amma əsas səbəb budur ki, rəmmalın bəyanına inanan Krez Kuruşdan Astiaqın intiqamını almaq istəmişdir. Kambis oğlu Kuruş Midiyanın hökmdarı və Krezin kürəkəni olan Kiaksar oğlu Astiaqı məğlub etmişdi. Astiaqın Krezə kürəkən olması səbəbi də belədir: Qiyamçı köçəri iskitlər dəstəsi Midiyaya köçmüşdü. O vaxt midiyalıların hökmdarı Deyokun nəvəsi, Frəörtənin oğlu Kiaksar olmuşdur. Hökmdar bu iskitləri əvvəlcə dostcasına qəbul etmişdi, çünki onlar sığınacaq xahiş etməyə gəlmişdilər; Kiaksar kamandan ox atmaq məharətini öyrənmək üçün öz oğullarını onlara vermişdi.34 Amma bir müddətdən sonra, iskitlərin həmişə ovla məşğul olub, daim ov ovlamalarına baxmayaraq, iş belə düşür ki, heç bir ov vura bilmirlər. Onlar əliboş geri qayıdanda Kiaksar (görünür, acıqlı adam olduğundan) onlarla çox sərt və təhqiramiz rəftar edir. İskitlər Kiaksardan layiq olmadıqları belə təhqiri görəndə təlim verdikləri oğlanlardan birini tikə-tikə doğramaq fikrinə düşürlər. Sonra, adətən, quşun içalatını necə çıxararlarsa, oğlanın da içalatını eləcə təmizləyib ov xörəyi kimi Kiaksarın süfrəsinə təqdim edirlər. İskitlər bundan sonra dərhal Sardaya, Sadiatt oğlu Aliattın yanına qaçmaq istəyirlər. Elə belə də edirlər; Kiaksar və qonaqları bu ətdən dadır, iskitlər də Aliattın himayəsinə keçirlər.

74. Kiaksarın tələb etməsinə baxmayan Aliatt iskitləri təslim etmək istəmədiyinə görə lidiyalılarla midiyalılar arasında müharibə başlayır. Bu müharibə beş il sürür, özü də gah midiyalılar üstünlük qazanırlar, gah lidiyalılar qələbə çalırlar və hətta bir dəfə gecə vuruşmasında da qalib gəlirlər. Bu uzun sürən müharibə tərəflərdən gah birinin, gah da digərinin qələbəsi ilə davam edir və altıncı ildə bir döyüş vaxtı birdən-birə gündüz gecəyə dönür. Miletli Fales bu güntutulmasını yunanlılara əvvəlcədən xəbər vermişdi, hətta baş verəcəyi ili də əvvəlcədən dəqiq müəyyənləşdirmişdi. Elə ki, lidiyalılarla midiyalılar gündüzün gecəyə döndüyünü görürlər, onda döyüşü dayandırırlar və tələsik sülh bağlayırlar. (Bu işdə) kilikiyalı Siennesi və babilli Labinet vasitəçi olurlar. Məhz onlar buna nail olurlar ki, lidiyalılarla midiyalılar barışıq andı içsinlər və bunu kəbin kəsdirməklə möhkəmləndirsinlər. Onlar Aliattı inandırırlar ki, o, öz qızı Arienisi Kiaksarın oğlu Astiaqa ərə versin. Axı, belə qohumluq əlaqəsi olmayan sülh müqavilələri adətən möhkəm deyil. Andla möhkəmlənmiş müqavilələri isə bu xalqlar da ellinlərdəki kimi bağlayırlar, bundan başqa, onlar əllərinin dərisini yüngülcə cızıb bir-birinin (üzə çıxmış) qanını yalayırlar.

75. Kuruş həmin bu Astiaqı-ana tərəfdən öz babasını hakimiyyətdən salmışdı. Bunun səbəbini mən sonrakı hekayətdə danışacağam. Krez də buna görə Kuruşu təqsirləndirərək, elçi göndərib rəmmaldan soruşmuşdu ki, o, farslarla müharibəyə getsinmi? Hətta Krez ikimənalı cavab alıb, onu öz xeyrinə yozmuş və fars torpaqlarına müharibəyə getmişdi. Mən ən azı belə düşünürəm ki, Krez Qalis çayına çataraq, öz qoşununu indiki körpüdən keçirmişdir. Ellinlər də danışırlar ki, Krezin qoşununu çaydan miletli Fales keçirmişdir. (Ellinlər belə xəbər verirlər ki,) hökmdar qoşunu çaydan keçirməkdə çətinliyə düşübmüş, çünki indiki körpü o vaxt olmamışdır. Deyildiyi kimi, Krezin qərargahında olan Fales isə elə edə bilib ki, çay nəinki qoşunun sol tərəfindən, həm də sağ tərəfindən axsın. Fales çay axarını bu cür etmək üçün əmr edib ki, çay məcrasından yuxarıda aypara şəklində dərin kanal qazılsın, çay bu kanal vasitəsilə ordu qərargahının arxasından axsın. Beləliklə, kanal vasitəsilə əvvəlki məcradan ayrılan çay sonra qərargahın

downloaded from KitabYurdu.org

yanından keçir, daha sonra yenə köhnə məcrasına qayıdırmış. Beləliklə, çay iki qola ayrılandan sonra bu qolların ikisi də dayazlaşıb keçilməli olmuşdur. Bəziləri hətta təsdiq edirlər ki,o vaxt köhnə məcra tamam soğulmuşdur; mən buna inanmıram. Bəs o vaxt onlar geri dönəndə çayı təzədən necə keçə bilərdilər?

76. Krez, bax beləcə, qoşunla birlikdə Qalisi keçib Kappadokiyada Pteriya adlanan yerə gəlir (Pteriya bu ölkədə çox möhkəmləndirilmiş yer olub, Evksin Pontunun şəhərlərindən sayılan Sinopa yaxınlığında yerləşir). Hökmdar orada qərargah salıb suriyalıların zəmilərini dağıtmağa başlayır. Pteriyalıların şəhərini işğal edib, əhalisini qul kimi satır. O, eləcə də bütün ətrafdakı şəhərləri alır, heç bir günahı olmayan Suriya əhalisini sürgün eləyir. Kuruş da öz qoşununu toplayır, ölkəsindən keçib getdiyi bütün xalqlardan yığdığı döyüşçüləri də özününkünə qoşur və Krezin üstünə yürüyür. Kuruş hələ hərəkətə başlamazdan öncə ionları Krezdən qopmağa təhrik etmək üçün oraya carçılar göndərir. Lakin yunanlılar bunu rədd edirlər. Kuruş ordusu ilə bərabər gəlib Krezə çatanda öz qərargahını Krezin (qərargahı) qarşısında salır. Farslar və lidiyalılar bu Pteriya torpağında öz qüvvələrini sınayırlar. Döyüş amansız olur, hər iki tərəfdən çoxlu döyüşçü qırılır, nə o tərəf, nə bu tərəf qələbə çala bilmir və axırda qaranlıq düşdüyünə görə düşmənlər aralanırlar.

77. Hər iki qoşun bir-biri ilə beləcə vuruşur. Krez az qoşununu son dərəcə az hesab edir (doğrudan da, o, sayca Kuruşun ordusundan xeyli geri qalırdı). Ertəsi gün Kuruş müharibəni davam etdirmir, Krez də ordusu ilə birlikdə Sardaya çəkilir. O, özünün misirli müttəfiqlərini köməyə çağırmaq istəyir (Krez Misir hökmdarı Amasislə ittifaq müqaviləsi bağlamışdı). Krez ittifaqda olduğu babillilərə də elçilər göndərməyə hazırlaşır (Labinet o vaxt Babil hökmdarı idi). Nəhayət, Krez şərtləşdirilmiş vaxtda lakedemonluların köməyə gəlməsi üçün onlara xəbər verilməsini əmr edir. Krez bütün bu köməkçi qüvvələri toplayıb, onları öz qoşunu ilə birləşdirərək qışın axırı, yazın əvvəlində farsların üzərinə hərəkət etmək qərarına gəlir. Axı, Krez heç gözləmirdi ki, Kuruş bu qədər qətiyyətsiz vuruşmalardan sonra (birbaşa) Sardanın üstünə gələ.

78. Krez bu planlarını götür-qoy edənə kimi şəhərin bütün həndəvəri gözlənilmədən ilanla dolur. Atlar otlaqları buraxıb ilanları yeməyə başlayırlar. Krez bu hadisəni ilahi əlamət sayır və həqiqətən də belə idi. Hökmdar dərhal Telmessin əlamət yozucularına elçilər göndərir. Elçilər telmesslilərin yanına gəlib bu qəribə əlamətin mənasını öyrənirlər. Lakin onlar cavabı Krezə yetirə bilmirlər, çünki hələ Sardaya gəlib çatmağa macal tapmamış Krez artıq əsir alınmışdı. Telmesslilər isə əlaməti belə yozmuşdular: Krez öz ölkəsinə yadelli qoşunların hücumunu gözləməlidir. Bu qoşun gəlib yerli əhalini qıracaqdır. Onlar deyirdilər: axı, ilan-doğma torpağın balasıdır, at isə-bu torpağa düşmən və yad olan bir şeydir. Telmesslilər Sarda haqqında, eləcə də o vaxt əsir düşmüş Krezin taleyi haqqında heç nə bilmədən (Krez elçilərinə) belə cavab vermişdilər.

79. Kuruş isə Pteriyadakı vuruşmadan sonra Krezin geri çəkilməsi və öz qoşununu buraxmaq fikrinə düşməsi haqqında xəbər tutan kimi lidiyalıların yenidən qoşun toplamağa macal tapmaması üçün mümkün qədər tezliklə Sardaya getmək qərarına gəlir. Kuruş bu niyyətini tezliklə həyata keçirir. O, ordu ilə birlikdə Lidiyaya soxulur və özü Krez üçün xəbərçi olur. Krez son dərəcə çətin vəziyyətə düşür, çünki hadisələrin gedişi onun təsəvvür etdiyindən tamam başqa şəkil alır. Bununla belə, hökmdar öz lidiyalılarını döyüşə aparır. O vaxt Asiyada lidiyalılardan güclü və cəsur xalq yox idi. Onlar nizələrlə silahlanaraq at belində vuruşurdular, özləri də gözəl at sürən idilər.

80. Bax, beləcə hər iki qoşun Sarda şəhəri qarşısındakı otsuz-ələfsiz böyük bir düzənlikdə qarşılaşır. Bu düzənlikdən çoxlu çay axır, onlardan biri də ən böyük çay olan Germ adlı çaya tökülən Billdir. Germ mənbəyini müqəddəs Dindimenanın Anası dağından alıb Fokeya şəhərində dənizə tökülür. Burada Kuruş lidiyalıların döyüşə hazır hərbi vəziyyətdə dayandıqlarını görüb, onların süvarisi qarşısında qorxuya düşərək midiyalı Arpaqın məsləhəti ilə bax belə hərəkət edir: Kuruş qoşunun dalınca gələn bütün yük dəvələrini və ərzaq yüklənmiş dəvələri qovub gətirməyi, yüklərini boşaltmağı, süvari paltarı geymiş döyüşçüləri bu dəvələrə mindirməyi əmr edir. Sonra o, dəvələri qabağa keçirtdirib Krezin atlıları qarşısında düzdürür, piyadalara isə dəvələrin ardınca getməyi əmr edir, piyadaların arxasınca da bütün başqa ordunu yerləşdirir. Hamı öz yerini tutandan sonra Kuruş ələ keçən bütün lidiyalıların amansızcasına öldürülməsi, yalnız Krezin özünü, hətta əsir alınacağını görüb müdafiə olunsa belə, öldürməmək əmri verir. Kuruşun əmri belə idi. Dəvələri də ona görə düşmən süvariləri qarşısında qoymağı buyurmuşdu ki, atlar dəvələrdən qorxurlar, onları görəndə və iyini hiss edəndə dözmürlər. Bu hiylə Lidiya hökmdarının hünəri ilə öyünmək istədiyi süvariləri əhəmiyyətsizləşdirmək üçün düşünülmüşdü. Döyüş başlananda və atlar dəvələrin iyini alıb, özlərini görəndə dönüb dala qaçmış və Krezin ümidləri puça çıxmışdır. Bununla belə, lidiyalılar bu şəraitdə də igidliklərini itirməmişlər. Onlar baş verən hadisəni görəndə atlardan düşərək, farslarla piyada kimi vuruşmağa başlamışlar. Hər iki tərəfdən böyük tələfatdan sonra, nəhayət, lidiyalılar qaçmağa üz qoymuşlar. Farslar onları akropola sıxışdıraraq (Sardanı) mühasirəyə salmağa başlamışlar.

81. Lidiyalılar beləcə mühasirəyə düşürlər. Krez mühasirənin uzun sürəcəyini düşünüb, şəhərdən öz müttəfiqlərinə yeni elçilər göndərir. Əvvəlcə yola düşən elçilər müttəfiqlərin beşinci ayda Sardaya toplaşması əmri ilə göndərilmişdilərsə, bu dəfəki elçilər müttəfiqlərdən təcili yardım xahiş etmişlər, çünki Krez mühasirədə qalmışdı.

82. Krez özünün başqa müttəfiqləri sırasında lakedemonlulara da elçilər göndərmişdi. Bu vaxt Fireya adlanan yer üstündə spartalıların özləri arğoslularla müharibədə idilər. Bu Fireya əslində Arqolidanın bir hissəsi idi, amma onu lakedemonlular ələ keçirmişdilər. Qərbdə materikdən Maleyaya qədər sahələr, sonra Kifera adası və başqa adalar da arğoslulara məxsus idi. Arğoslular (spartalılar) tərəfindən tutulmuş torpaqları müdafiə etməyə gəldilər. Onlar burada spartalılarla danışıqlara başladılar və belə razılaşdılar ki, hər tərəfdən döyüşə 300 döyüşçü çıxmalıdır. Mübahisəli sahə isə qalibin tərəfində qalmalıdır. Hər iki tərəfin qalan döyüşçüləri vuruşmada iştirak etməyərək evlərinə qayıtmalıdırlar, çünki öz tərəflərinə məğlubiyyət üz verərsə, onlar döyüşə girişməməlidirlər. Hər iki qoşun bu cür şərtləşərək çəkilib gedir, orada qalan seçmə döyüşçülər isə vuruşmağa başlayırlar. Lakin qüvvələr tənasübü o qədər bərabər olur ki, vuruşmadan sonra bütün 600 döyüşçüdən yalnız üçü salamat qalır: arğoslulardan-Alkenor və Xromi, lakedemonlulardan-Ofriad; gecə düşəndə yalnız bunlar sağ qalıbmışlar. O vaxt özlərini qalib sayan iki arğoslu Arğosa

downloaded from KitabYurdu.org

dönməyə tələsir, lakedemonlu Ofriad isə həlak olmuş arğosluların yaraq-əsləhələrini soyundurub spartalıların qərargahına aparır, sonra da (hərbi cərgədə) öz yerini tuturmuş kimi döyüş meydanında qalır. Ertəsi gün hər iki ordu vuruşmanın nəticəsini bilmək üçün döyüş meydanına gəlir. Hər iki tərəf əvvəlcə qələbəni öz adına çıxır: bunlardan biri öz tərəflərindən daha çox adamın sağ qaldığını deyir, o biri isə düşməni qaçqın hesab eləyir; bu tərəf (iqrar edir ki,) onların döyüşçüsü döyüş meydanını tərk etməmiş, hətta həlak olmuş düşmənlərin yaraq-əsləhələrini soyundurmuşdur. Çox mübahisələrdən sonra onlar, nəhayət, yenidən əlbəyaxa döyüşə girişirlər, hər iki tərəfdən böyük itkiyə baxmayaraq, hər halda, lakedemonlular qalib çıxırlar. Bu vaxtdan etibarən arğoslular saçlarını kəsib gödəldirlər (əvvəllər, adətə görə, onlar uzun saç saxlayırdılar). Onlar hətta belə bir qanun da çıxardırlar və lənət bəyan edirlər ki, Fokeya geri alınana qədər heç bir arğoslu saç uzatmağa cəsarət göstərməsin, heç bir qadın qızıl bəzək gəzdirməsin. Lakedemonlular isə, əksinə, qanun qoyurlar ki, bundan sonra uzun saç saxlasınlar (bu hadisəyə qədər onlar saçlarını gödək kəsdirirdilər). Xəbər verirlər ki, 300 lakedemonludan yeganə sağ qalan Ofriad isə özünün bütün silahdaşlarının həlak olmasından utanaraq Spartaya qayıtmağa xəcalət, çəkib və öz həyatına qəsd eləyib.

83. Krezə kömək göstərmək xahişi ilə Sardadan elçilər gələn vaxt spartalıların işləri belə olmuşdur. Lakedemonlular elçiləri dinləyərək, hər halda, hökmdara kömək göndərmək qərarına gəlmişlər. Lakin hər şey hazır edilib, gəmilərin yola salınmaq vaxtı çatanda lidiyalıların şəhərinin alınması, Krezin özünün də əsir götürülməsi haqqında başqa bir xəbər gəlir. Bu böyük bədbəxtlik lakedemonluları yürüşü dayandırmağa məcbur edir.

84. Sardanı isə farslar bax belə almışlar. Mühasirənin on dördüncü günündə Kuruş öz qoşununa atlılar göndərib elan etdiribmiş ki, şəhər hasarının üstünə birinci çıxan adamı səxavətlə mükafatlandıracaqdır. Bütün başqa döyüşçülər birinci müvəffəqiyyətsiz hücumdan sonra artıq geri çəkiləndə, Hiread adlı bir nəfər mard qalanın qorunmayan yeganə yerindən hasarın üstünə çıxmağa cəhd göstərir. Burada qalanın söykəndiyi qayanın ətəyinə doğru eniş sıldırım olduğundan ora tamam əlçatmazmış və bu yerdən heç bir vaxt hücum gözləmək olmazmış (hərçənd, telmesslilər qala hasarı ətrafına şirlər düzülərsə, Sardanın basılmaz olacağını əvvəlcədən xəbər vermişdilər), lakin Sardanın qədim, hökmdarı Meles girov (zamin) saxlanan qadından "doğulmuş" şirləri35 hasarın yalnız bircə yerinə düzdürməmişdi və onları hasarın qalan divarlarının hücum üçün daha asan olan zəif yerlərinə düzülməsini əmr etmişdi. Bu yeri isə o, müdafiəsiz qoymuşdu, çünki ora (təbii olaraq) uçurum idi və əlçatmazdı. Şəhərin bu hissəsi Tmola tərəf baxır. Hiread deyilən həmin mard hücum ərəfəsində bir nəfər lidiyalının bayıra düşmüş dəbilqəsini götürmək üçün qaladan necə endiyini və onu götürüb yuxarıya necə qalxdığını görübmüş, Hiread bu yeri nişanlayıb, sonra hasarın üstünə çıxır, onun arxasınca da başqa farslar hasara qalxırlar. Böyük döyüşçü dəstəsi hasarın üstünə çıxandan sonra Sarda alınır və bütün (aşağı) şəhər dağıdılır.

85. Krezin özünün taleyi isə belə olmuşdur: əvvəlcə xatırlatdığım kimi, onun çox istedadlı, amma kar-lal bir oğlu varmış. Krez əvvəllər, özünün xoşbəxt vaxtlarında uşağın müalicəsi üçün mümkün olan hər şeyi etmişdi. Belə ki, hökmdar oğluna kömək etməyə çalışaraq, onun haqqında rəmmala sorğu vermək üçün Delfə elçilər göndərmişdi. Pifiya ona bax belə cavab vermişdi:

Ey, bir çox ulusun ağası olan ağılsız Krez,
Uzun illər sarayında özlədiyin səsi duymağı arzulama.
Oğlunun səsi belə olsa bu, kaş ki, onu heç duymayasan,
Danışacağı ilk sözcüyü ən qiymətli gündə söyləyəcək.36

Qala alınanda bir fars Krezi tanımayaraq hökmdarın üstünə atılıb onu öldürmək istəyir. Krez hücum edəni görsə də, dərdin ağırlığı onu ölümə qarşı biganə eləmişdi. Krezin lal-kar oğlu isə atasının üstünə cuman farsı görəndə qorxudan və dərddən dili qəflətən açılır və deyir: "Ey adam, Krezi öldürmə!". Bu, gəncin dilindən çıxan ilk sözlər idi. O, bundan sonra ömrünün axırına kimi bir daha danışa bilməmişdir.

86. Farslar Sardanı beləcə ələ keçirmiş, Krezi də əsir almışlar.37 Krez 14 il hökmdarlıq eləmiş, (paytaxtın) mühasirəsi isə 14 gün çəkmiş və o, rəmmalın dediyi kimi, özünün böyük səltənətini tar-mar qoymuşdur. Farslar əsir alınmış Krezi Kuruşun yanına aparırlar. Kuruş da böyük tonqal qalanmasını, qandallanmış Krezi və onunla birlikdə "iki yeddi" Lidiya oğlunu tonqalın üstünə qaldırmağı əmr edir.38 Kuruş onları qələbə hədiyyəsi kimi allahlardan birinə qurban vermək, ya da allaha verdiyi vədi yerinə yetirmək istəyirmiş. Ola bilər ki, Krezin möminliyini bildiyinə görə bu Lidiya hökmdarını, tonqalın üstünə qaldırtdırıb, hər hansı bir allahın onu diri-diri yanmaqdan qurtara bilib-bilməyəcəyini yoxlamaq istəyirmiş. (Lidiyalıların dediklərinə görə) Kuruş belə hərəkət eləyir, Krez isə tonqalın üstündə dayanıb, özünün bu ağır vəziyyətində Solonu yada salır. Axı, Solon ona demişdi ki, heç kəs sağlığında özünün xoşbəxt adam olduğunu təsdiq edə bilməz. İnsanın xoşbəxtliyi haqqında söz yalnız allah vəhyi ola bilər. Bu fikir Krezin ağlına batanda o, dərindən ah çəkir, zarıyır, sonra xeyli susub üç dəfə Solonun adını çəkir. Kuruş bunu eşidib tərcüməçilərə buyurur ki, Krezin kimi köməyə çağırdığını ondan öyrənsinlər, onlar da Krezə yaxınlaşıb bunu soruşurlar. Krez bir müddət dinmir, amma sonra onu (danışmağa) məcbur edəndə deyir: "Hökmdarlardan hər kəs adını çəkdiyim adamla; söhbət edə bilsəydi, mən bütün sərvətimi ona verərdim". Krezin cavabı anlaşılmaz olduğu üçün tərcüməçilər yenidən təkid edirlər (ki, əsir öz sözlərini izah etsin). Nəhayət, Krez təkidlə edilən belə xahişlərə cavab verərək bir dəfə afinalı Solonun onun ölkəsinə necə gəlib çıxdığını, xəzinələrinə baxıb bu zənginliyə nifrət etdiyini söylədiyini deyir. Sonra Krez Solonun dediklərinin indi həqiqətə döndüyünü Kuruşa çatdırır. Axı, Solon o sözləri Krezin özündən daha çox, ümumən, insan həyatı haqqında, məhz özlərini xoşbəxt sayan adamlar haqqında söyləmişdi. Krez beləcə danışdıqca tonqal alışıb daha da alovlanır. Kuruş isə Krezin danışdığını tərcüməçilərdən eşidib öz qərarını dəyişir. Şah fikirləşir ki, axı hər halda, o, özü də bir insan ola-ola, tale tərəfindən heç də onun özündən az əzizlənməmiş başqa bir adamı diri-diri odda yaxmaq istəyir. Kuruş həm bundan ötəri qisas çıxılacağından qorxaraq, həm də insan

downloaded from KitabYurdu.org

ömründə heç şeyin daimi olmadığını düşünərək əmr eləyir ki, tonqalı dərhal söndürsünlər, Krezi və yanındakıları tonqalın üstündən endirsinlər. Lakin tonqalı söndürmək cəhdi nəticə vermir.

87. (Lidiyalıların danışdıqlarına görə) elə ki, Krez Kuruşun peşman olduğunu duyur və hamının alovlanan tonqalı söndürmək üçün havayı yerə cəhd etdiyini görür, onda uca səslə Apollona üz tutur. Krez allaha yalvarır: əgər allaha (Krezin) qurban verilməsi lazımdırsa, qoy onda allah köməyə gəlib, onu həqiqi müsibətdən qurtarsın. Krez göz yaşı tökərək Apollona beləcə müraciət edir. Bax, elə həmin vaxt, heç bir külək əsmədən birdən birə açıq göyün ortasındaca buludlar sıxlaşır və güclü yağışla bərabər tufan qopub tonqalı söndürür. Ancaq bu vaxt Kuruş başa düşür ki, Krez allahlara əziz olan mömin bəndədir. O, Krezin tonqalın üstündən düşürülməsini buyurur və bu əsirə belə sözlərlə üz tutur: "Krez! Mənim torpağıma müharibəyə gəlməyə və mənə dost olmaq əvəzinə düşmən kəsilməyə səni kim inandırdı?" Krez isə cavab verir: "Şah, mən sənin xeyrin, özümün müsibətim üçün belə hərəkət etmişəm. Bunun baisi də məni müharibəyə sövq edən Ellin allahıdır. Axı (dünyada) elə ağılsız adam yoxdur ki, müharibəni sülhdən üstün tutsun. Əmin-amanlıq zamanı oğullar atalarını dəfn edirlər, müharibədə isə atalar oğullarını. Hər halda, allahın iradəsincə belə olmalı imiş.

88. Krez belə demiş, Kuruş da onun qandallarının açılmasını buyurub (əsirə) son dərəcə böyük hörmət göstərərək öz yanında oturtmuşdur. Bununla belə, Kuruşun özü də, onun bütün məiyyəti də Krezə təəccüblə baxmışlar. Krez isə fikrə gedib susmuşdur. Sonra o, boylanıb farsların şəhəri necə qarət etdiklərini görərək soruşmuşdur: "Şah, öz fikirlərimi sənə söyləməliyəm, yoxsa, bundan belə susmalıyam?" Kuruş, istədiyin cəsarətlə deməyi əsirə əmr etmişdir. Onda Krez şahdan soruşmuşdur: "Bu (döyüşçü) dəstəsi belə bir qəzəblə nə edir?" Kuruş cavab vermişdir: "Onlar şəhəri qarət edib, sənin xəzinələrini talayırlar". Krez də buna etiraz edib: "Xeyr! Onlar nə mənim şəhərimi, nə mənim xəzinəmi qarət edirlər,-demişdir.-Mənim daha heç nəyim yoxdur, onlar sənin var-dövlətini talayırlar".

89. Krezin sözləri Kuruşu narahat etmişdir. Şah məiyyətinin kənara çəkilməsini əmr edib, əsirə sual vermişdir: Baş verən bu hadisələrdə o, Kuruş üçün nə kimi təhlükə görür? Krez cavab vermişdir: "Allahlar məni sənə kölə ediblər, mən də sənə elə şeyləri deməyi özümə borc bilirəm ki, onu başqaları görmürlər. Farslar təbiətləri etibarilə məğrur olsalar da, kasıbdırlar. Sən onların qarətlə məşğul olmalarına və böyük xəzinələr ələ keçirmələrinə icazə versən, bunun nəticəsi bax belə olar: onlardan kim daha çox qarət edərsə (sən gözləyə bilərsən ki,) o, sənin əleyhinə üsyan qaldırar. Əgər mənə qulaq asmaq istəyirsənsə, onda belə elə: bütün şəhər darvazalarında öz şəxsi keşikçilərindən bir neçəsini gözətçi qoy: onlar qarətçilərin götürüb apardıqları qəniməti əllərindən alsınlar və desinlər ki, qənimətin onda bir hissəsini Zevsə nəzir etmək lazımdır. Onda qəniməti zorla əllərindən aldırdığın döyüşçülərin səndən nəinki zəhlələri getməz, bəlkə tutduğun işin ədalətinə inanıb, hətta qəniməti könüllü verirlər".

90. Bunu eşidən Kuruş son dərəcə sevinir, çünki məsləhət ona çox xoş gəlir. Krezə təriflər yağdıran şah bu məsləhəti yerinə yetirmək üçün gözətçilərə əmr verir, sonra da əsirə bu sözlərlə üz tutur: "Krez, sən hökmdarlığa layiq bir ər kimi danışmağı və iş görməyi bacarırsan. Məndən nə mərhəmət umursansa söylə, dərhal yerinə yetirim". Krez cavab verir: "Hökmdar! Əgər bax, bu qandalları bütün allahlardan daha uca tutduğum Ellin allahına göndərməyə və onun məgər öz dostlarını aldatmağa vərdişlimi olduğunu soruşmağa icazə versən mənə ən böyük iltifat etmiş olarsan". Kuruş Krezdən soruşur ki, ona bu xahişlə müraciət etməklə allahı nədə məzəmmətləyir? Onda Krez (farslarla müharibə haqqında) özünün bütün fikirlərini və rəmmalın cavabını yenidən danışaraq, allaha göndərdiyi hədiyyələri xüsusi yada salır. Sonra rəmmalın təhrikinə görə farsların üzərinə müharibəyə getdiyini bildirir. Krez öz hekayətini bitirəndən sonra yenə də sözünü allahı məzəmmət etmək üçün ona imkan verilməsi haqqında xahişlə qurtarır. Kuruş isə gülərək cavab verir: "Krez, mən sənin bu xahişini də, məndən hər nə istəyin olsa, onları da yerinə yetirərəm". Krez bu sözləri eşidib, elçilərini Delfə göndərir və onlara tapşırır ki, onun qandallarını aparıb ibadətgahın qapısı ağzında qoyaraq soruşsunlar:- Kuruşun hakimiyyətini devirmək üçün Krezə bəyan verib onu farsların üzərinə müharibəyə qaldıran allah indi utanmırmı ki, həmin müharibənin "qələbə hədiyyələri" bax, bundan ibarət olmuşdur? Krez bu sözləri deyib qandalları allaha göstərməyi elçilərə əmr etmişdir. Elçilər gedib allahdan bu haqda, eləcə də ümumən, Ellin allahlarında nankorluğun bir adətmi olduğunu soruşmalı idilər.

91. Lidiyalılar Delfə gəlib tapşırığı yerinə yetirmişlər. Deyilənə görə, Pifiya da bax belə cavab vermişdir: "Fələyin39 hökmündən hətta allah da qaça bilməz... Axı Krez öz əcdadının günahını beşinci nəsildə yudu. Heraklidlərin şəxsi gözətçisi olan bu əcdad qadın məkrinə uyaraq öz ağasını öldürmüşdü və heç layiq olmadığı halda onun (hökmranlıq) taxtına yiyə çıxmışdı. Loksi isə istəyirdi ki, Sardanın məğlubiyyəti heç olmasa Krezin sağlığında deyil, onun xələfləri dövründə baş versin. Lakin allah Fələyin hökmünü qaytara bilmədi. Bununla belə, Tale ilahəsinə nə icazə verilmişdisə, Apollon onu etdi və Krezə xidmət göstərdi: axı, allah Sardanın zəbt olunmasını üç il dala saldı; qoy Krez bilsin ki, o, (Taleyin) müəyyən etdiyi vaxtdan üç il sonra əsir düşmüşdür. Allah Krezə ikinci dəfə (tonqalda yanan vaxt) kömək etmişdir. Krez allahın vəhyinə görə verilmiş xəbərdən şikayətlənməklə ədalətsizlik edir. Axı, Loksi əvvəlcədən xəbər vermişdi ki, Krez farsların üstünə müharibəyə gedərsə, onda böyük bir səltənəti dağıdacaqdır. Ona görə də Krez düzgün qərar çıxarmaq istəyirdisə, onda elçilər göndərib rəmmaldan yenidən soruşmalı idi:-Allah məhz hansı səltənəti nəzərdə tutur-Krezinmi, yoxsa Kuruşunmu səltənətini. Lakin Krez rəmmalın bəyanını düz başa düşmədiyinə və ikinci dəfə ona sorğu vermədiyinə görə qoy özünü təqsirləndirsin. Loksinin qatır haqqında axırıncı bəyanını da Krez başa düşməmişdir. Axı, bu qatır məhz Kuruş özü idi, belə ki, o, iki müxtəlif xalqdan-ana tərəfi ata tərəfindən daha məşhur olan xalqdan törəmişdir. Onun anası midiyalı-Midiya hökmdarı Astiaqın qızı, atası isə ana tərəfə görə hər cəhətdən alçaqda duran və midiyalıların tabeliyində yaşayan bir fars olub, öz xanımına evlənmişdir". Pifiyanın lidiyalılara cavabı belə olmuşdur, onlar da bu cavabı Sardaya aparıb Krezə çatdırmışlar. Krez rəmmalın bu bəyanını eşidərək başa düşüb ki, təqsir allahda deyil, onun özündədir.

92. Krez səltənətinin və İoniyanın ilk istilasının tarixi belədir. Krezin Elladada (xatırladılanlardan başqa da) çoxlu nəzir-hədiyyəsi vardır. Belə ki, Fivada və Beotiyada Krezin İsmen Apollonuna nəzir verdiyi qızıl üçayaq vardır;

downloaded from KitabYurdu.org

Efesdəki qızıl inəklər və (ibadətgahda) sütunların çoxu da onun hədiyyəsidir. Delfdəki Proniya ibadətgahında olan böyük qızıl qalxan Krezdəndir. Bu hədiyyələr bu günə qədər də saxlanır, qalanları isə itmişdir. Krezin Milet bölgəsində olan Branxidadakı hədiyyələrinə gələndə, eşitdiyimə görə, onlar eyni çəkidə olub, Delfdəki hədiyyələrə onun şəxsi var-dövləti olub hökmdarın ata xəzinəsinin ən yaxşı hissəsini təşkil etmişdir. Qalan hədiyyələr Krez hələ taxta çıxmazdan əvvəl əleyhinə mübarizə apardığı düşməninin əmlakına məxsus idi, Krez bu düşmən əleyhinə ona görə mübarizə aparmışdı ki, o, lidiyalılar üzərində hakimiyyəti ələ keçirmək üçün Pantaleonta səylə kömək etmişdi. Bu Pantaleont da Aliattın oğlu, Krezin ata bir, ana ayrı qardaşı olmuşdur. Axı, Krez Aliattın kariyalılardan olan arvadından doğulmuşdu, Pantaleont isə ionlu arvaddan. Krez atasının iradəsi ilə hakimiyyətə keçən kimi öz rəqibini "yun darağı" dişində əzabla öldürmək əmri vermişdi. Onun əmlakını hələ əvvəllər allaha nəzir deyən Krez taxta çıxandan sonra, yuxarıda göstərildiyi kimi, adları çəkilən məbədgahlara göndərmişdi. Göndərilmiş hədiyyələr barədə kifayət qədər danışıldı.

93. Lidiya Tmol çayının (axarı boyu) gətirdiyi qızıl qumdan başqa özgə ölkələrdə olan diqqətəlayiq təbii sərvətlərə malik deyil. Doğrudur, Lidiyada öz böyüklüyünə görə (misirlilərin və babillilərin tikintilərindən savayı) başqalarını ötüb keçən bir tikinti var. Bu, Krezin atası Aliattın türbəsidir. Abidənin özülü nəhəng sal daşlardan, qalan hissələri isə torpaq kurqandan ibarətdir. Bu abidəni bazar alverçiləri, sənətkarlar, "evdə öz peşələri ilə məşğul olan" qızlar tikmişlər. Abidənin yuxarısında indiyə qədər qalan beş sal daş var ki, üstündə işin hansı hissəsinin hansı zümrəyə mənsub adamlar tərəfindən görüldüyünü bildirən yazılar həkk olunmuşdur. Ölçü işi aparanda məlum olmuşdur ki, işin böyük hissəsini qızlar yerinə yetirmişlər. Lidiyalılarda qızların hamısı əxlaq pozğunluğu edib özlərinə cehiz qazanırlar. Onlar bunu ərə gedənə qədər edirlər, eyni zamanda, əri özləri seçirlər. Türbənin həcmi 6 stadiya və 2 plefr təşkil edir, diametri isə 13 plefrdir. Türbəyə böyük bir göl bitişir. Lidiyalıların dediyinə görə, bu göl heç vaxt qurumur. O, Qiges gölü adlanır. Həmin əcaib tikinti bu cürdür.

94. Lidiyalılarla ellinlərin adətləri birdir, fərqli cəhət budur ki, lidiyalılar gənc qızların əxlaq pozğunluğu etmələrinə icazə verirlər. Bizim bildiyimizə görə, insanlar içərisində birinci olaraq onlar qızıl və gümüş sikkələr kəsmiş və bunlardan istifadə etməyə başlamış, ilk dəfə xırda; alverlə məşğul olmuşlar. Lidiyalıların özləri təsdiq edirlər ki, indi onlarda və ellinlərdə olan oyunlar da onların kəşfidir. Dediklərinə görə, lidiyalılar bu oyunları məhz Tirseniyaya köçürülən zaman icad etmişlər. Onlar özləri haqqında belə danışırlar: Manes oğlu Atisin vaxtında (məhsul gəlmədiyinə görə) bütün Lidiyada bərk aclıq başlanıb. Lidiyalılar əvvəllər ehtiyaca səbrlə dözürmüşlər, amma sonra aclıq get-gedə güclənəndə onlar müxtəlif vasitələr fikirləşərək qurtuluş, axtarıblar. Aclıq əzabını yüngülləşdirmək üçün belə ediblər: yemək haqqında fikirləşməmək üçün bir gün daim oyunlarla məşğul olar, o biri gün isə oyunları kəsib yemək yeyərmişlər. Lidiyadılar 18 il bu cür yaşayıblar. Halbuki bəla azalmayıb, daha da güclənirmiş. Buna görə də, hökmdar bütün xalqı iki yerə bölərək kimin vətəndə qalması, kimin vətəndən çıxıb getməsi üçün püşk atılmasını buyurub. Hökmdarın özü vətəndə qalanlara qoşulub, Tirsen adlı oğlunu isə köçürülənlərə başçı qoyubdur. Püşkə görə vətəndən çıxıb getməli olanlar dənizə doğru yola düşüb Smirnaya getmişlər. Orada gəmilər qayırıb, özlərinin bütün vacib avadanlığını gəmilərə yükləyərək dolanışıq və təzə vətən axtarmaq üçün dənizə çıxmışlar. Xeyli ölkənin yanından keçib ombriklər torpağına gəlmişlər və burada şəhər salmışlar. İndiyə qədər də orada yaşayırlar. Adlarını dəyişmiş, onları dəniz arxasına aparıb çıxaran hökmdar oğlunun (Tirsen) adını götürərək, özlərinə tirsenlər demişlər. Vətəndə qalan lidiyalıları isə farslar istila etmişlər.

95. Bundan sonra Kuruşdan söhbət gedəcək, Krezin hakimiyyətini yıxan bu adamın kim olmasından, farsların Asiyaya necə sahib çıxmalarından bəhs ediləcəkdir. Mən Kuruşun işlərini, şəxsən onu çox tərifləməyə mail olmayıb, ancaq həqiqəti söyləyən bəzi farsların mənə çatdırdıqları məlumat əsasında hadisələri necə deyiblərsə, eləcə də təsvir edəcəyəm. Yeri gəlmişkən deyim ki, mən Kuruş və onun işləri haqqında başqa hekayətlər, məhz üç hekayət olduğunu bilirəm. Yuxarı Asiya üzərində Assuriya hökmdarlığı 520 il sürmüşdür. Assuriyalılardan ilk dəfə midiyalılar qopub ayrılmışlar. Mənə elə gəlir ki, onlar azadlıq mübarizəsində igidlik göstərmişlər və köləliyi yıxıb, azadlıq əldə etmişlər. Sonra midiyalılar başqa xalqlara da örnək olmuşlar.

96. Lakin bu materikin bütün xalqları təzəcə azadlıq əldə edən kimi, yenidən əsarət altına salınmışlar. Bu da bax belə baş vermişdir: Midiyada Fraörtənin oğlu Deyok40 deyilən müdrik adam yaşayırmış. Həmin bu Deyok hökmdar olmaq həvəsinə düşür və öz arzusunu bax belə həyata keçirir: O vaxt lidiyalılar kəndlərdə yaşayırlarmış. Deyok özünün (doğma) kəndində hələ əvvəllər də hörmət qazanıbmış, sonra isə məhkəmə işlərinə baxaraq daha səylə haqq-ədalət gözləyirmiş. Bütün Midiyada böyük qanunsuzluq hökm sürsə belə, Deyok əyriliyin düzlüyə həmişə düşmən olduğunu bilə-bilə yenə ədalətli hərəkət edirmiş. Həmkəndliləri onun bu qabiliyyətini görüb onu özlərinə məhkəmə hakimi seçmişlər. Deyok isə hökmdarlığa çatmaq niyyəti ilə məhz bu cür təmiz və haqpərəst hakim olmuşdur. Bununla da öz həmkəndlilərinin kifayət qədər təqdirini qazanmış, hətta (əvvəllər ədalətsizlik qurbanı olmuş) başqa kənd sakinləri də Deyokun yeganə ədalətli hakim olduğunu eşidib, öz çəkişmələrini həll etmək üçün onun yanına gəlirmişlər və belə-belə, axırda ancaq ona etibar göstərməyə başlamışlar.

97. Beləliklə, Deyokun yanına gələn adamların (sayı) getdikcə çoxalırmış, çünki onlar Deyokun ədalətli hökmlər çıxardığını eşidirmişlər. Onda Deyok qərara gəlir ki, (indi) hər şey onun əlindədir və əvvəllər camaata məhkəmə qurduğu (kürsüdə) əyləşməkdən imtina eləyir. O bildirir ki, daha bundan sonra məhkəmə qurmayacaqdır. Belə ki, öz işlərinə biganə qalaraq, günlərlə özgələrin çəkişmələrini həll etmək onun üçün əlverişli deyil. Bu vaxt kəndlərdəki qanunsuzluq əvvəlkindən də betərləşir. Onda midiyalılar vəziyyəti müzakirə etmək üçün bir yerə toplaşırlar. Bu zaman, mənim düşündüyümə görə, Deyokun tərəfdarları təxminən bax belə deyirlər: "Bundan sonra biz əvvəllər yaşadığımız kimi yaşaya bilmərik. Gəlin özümüzə hökmdar seçək. Onda torpağımızda qanun və qayda hökm sürər, özümüz də adi işlərimizə qayıda bilərik və qanunsuzluq vətənimizi buraxıb getməyə bizi məcbur edə bilməz". Onlar bu cür sözlərlə, ümumən, bir-birini inandırırlar və hökmdar seçmək qərarına gəlirlər.

downloaded from KitabYurdu.org

98. Elə ki, midiyalılar kimi hökmdar seçmək haqqında məsləhətləşməyə başlayırlar, onda hamı Deyoku tərifləyib onu təklif edir, axırda onu bir səslə hökmdar seçirlər. Onda Deyok da öz hökmdarlığına layiq bir saray tikdirməyi, ona gözətçilər verməyi əmr edir. Midiyalılar isə itaət edərək onun özünün göstərdiyi yerdə böyük və alınmaz bir saray (qəsr) tikdirirlər hökmdara bütün Midiyadan şəxsi keşikçilər toplamasına icazə verirlər. Deyok taxta çıxandan sonra (təzə) bir şəhər tikdirib onu qorumağı, qalan başqa şəhərləri taleyin ümidinə buraxmağı midiyalılara buyurdu. Midiyalılar onun bu buyruğunu da yerinə yetirirlər və Deyok möhkəmləndirilmiş böyük bir şəhər-indiki Akbatananı saldırır. Onun hasarları halqalama olub biri o birini əhatə edirmiş. Qala divarları elə tikilibmiş ki, sanki bir divar dairəsi qalanın hündürlüyünə görə o biri divar halqasının üstündə dayanırmış. Şəhərin təpələr üstündə salınması bu vəziyyət üçün əlverişli olmaqla bərabər, yerin özü də süni şəkildə bir qədər dəyişdirilibmiş. Bütün hasar dairəsi yeddidir, axırıncı dairənin içində hökmdarın sarayı və xəzinəsi yerləşir. Ən böyük hasar dairəsinin uzunluğu təxminən Afinanın hasar dairələri qədərdir. Birinci hasar dairəsinin bürcü-ağ, ikincisinki-qara, üçüncününkü-çəhrayı, dördüncününkü-tünd göy, beşincininki-səndəl rəngindədir. Beləliklə, bütün bu beş dairənin bürcü əlvan rənglənmişdir. Axırıncı iki dairəyə gələndə, onun bir bürcü-gümüşə, o biri -qızıla tutulmuşdur.

99. Deyok öz sarayının ətrafına belə hasarlar çəkdirmişdir. Başqa xaqlara isə bu hasar ətrafında yerləşməyi buyurmuşdur. Tikinti (saray) qurtaranda Deyok hər şeydən əvvəl bax belə bir qayda (saray təşrifatı) qoymuşdur: heç kəs birbaşa hökmdar hüzuruna getməməli, amma bütün işlər üçün nökərlər (müjdəçilər) vasitəsi ilə gediş-gəliş yaranmalıdır, Hökmdarın üzünə baxmağa isə heç kəsə icazə verilməməlidir. Bundan başqa, hökmdarın hüzurunda gülmək, ya da tüpürmək istisnasız olaraq, hamı üçün ədəbsizlik sayılmalıdır. Deyok özünə ona görə belə bir cəlal düzəldir ki, kübar ailələrdən çıxıb, igidlikdə ondan geri qalmayan gənclik dostlarından və yaşıdlarından özünü qorusun. Bunlar onu görə bilməsələr, nə ona həsəd apararlar, nə də həyatına qəsd edərlər, əksinə, Deyokun təsəvvürünə görə, onu yüksək məxluq sayarlar.

100. Deyok belə qaydalar qoyaraq öz hakimiyyətini möhkəmləndirdikdən sonra qanunçuluğa ciddi əməl eləyir. Şikayətlər hökmdara yazılı şəkildə verilir. O, bunlara baxıb geri qaytarır. Deyok şikayətlərə belə münasibət bəsləyir. Bəzi hallarda isə hökmdar bax belə qayda qoyur: Deyok hər hansı bir cinayət haqqında eşidib, müqəssirləri öz yanına çağırır və onları tutduqları işə görə cəzalandırır. Onun bütün ölkədə xəfiyyələri və xəbərçiləri varmış.

101. Nə isə, Deyok Midiya xalqını birləşdirir və bütün Midiyada hökmdarlıq edir. Midiyalıların tayfaları bunlardır buslar,41 paretakenlər, struxatlar, arizantlar, budilər və mağlar. Midiya tayfaları42 bax, bu qədərdir.

102. Deyokun Frəörtə adlı oğlu vardı. Deyok 53 illik hökmranlıqdan sonra vəfat edir, hökmdarlıq irsən Frəörtəyə keçir. Frəörtə hakimiyyəti ələ alıb midiyalılara hökmdarlıq etməklə kifayətlənməyərək, farsların üstünə müharibəyə gedir. Onun ilk hücumuna farslar məruz qalırlar və midiyalılara ilk dəfə onlar tabe olurlar. Frəörtə bu iki, özü də qüdrətli xalqa hakim kəsilərək, sonra Asiya xalqlarını dalbadal özünə tabe etməyə başlayır. Nəhayət, o, assurların üzərinə yürüş edir. (Məhz həmin assurlara ki, onlar Ninə sahib olub, əvvəllər bütün Asiyaya ağalıq edirdilər, indi isə müttəfiqlərinin qopub ayrılmasından sonra tək qalmışdılar, amma bununla belə, öz evlərində hələ də kifayət qədər güclü idilər). Frəörtə özü 22 illik hökmranlıqdan sonra bu yürüşdə həlak olur və ordusunun da böyük hissəsi məhv edilir.

103. Frəörtənin ölümündən sonra hökmranlıq onun oğluna, Deyokun nəvəsi Kiaksara keçir. Danışılanlara görə bu Kiaksar öz sələflərindən daha hərbçi olmuşdur. Asiya ordusunu ilk dəfə silah növlərinə görə əsgəri hissələrə o bölmüş, hər hissəyə-nizəçilərə, kamançılara və süvarilərə sərbəst hərəkət etmək əmri vermişdir. O vaxta qədər bütün ordu intizamsızcasına qarışıq olmuşdur. Bu həmin Kiaksardır ki, lidiyalılarla vuruşanda gündüz qəflətən gecəyə dönmüşdü. Kiaksar Qalisin o tərəfi boyu bütün Asiyanı öz hakimiyyətinə birləşdirir. O, atasının intiqamını almaq və Nin şəhərini dağıtmaq üçün tabeliyində olan bütün xalqlarla birlikdə Ninə qarşı yürüş edir. Kiaksar assurları yenib Nini mühasirəyə almağa başlayan zaman başda Protofieyin oğlu hökmdar Madies olmaqla iskitlərin böyük qoşunu onun hökmdarlığının sərhədlərinə soxulur. İskitlər kimmeriləri Avropadan sıxışdıraraq onları Asiyada izləyirdilər, indi də Midiya torpağına soxulmuşdular.

104. Meotida43 gölündən Fasis çayına və kolxlar ölkəsinə qədər ayaqla 30 günə asanlıqla getmək olar. Kolxidadan44 Midiyaya da məsafə uzaq deyil-bu ölkələr arasında saspirlər deyilən bircə xalq yaşayır. Onlardan ötüb Midiyaya çatmaq olar. İskitlər isə Midiyaya, hər halda, bu yolla yürüş eləməmişlər, bəlkə, düz yoldan burulub, Qafqaz dağlarını sağ tərəfdə qoyaraq daha uzaq olan yuxarıkı yolla getmişlər. Midiyalıların iskitlərlə vuruşması da elə burada başlamışdır. Bu vuruşmada midiyalılar basılmış və onların qüdrəti sarsıdılmışdır.45 İskitlər isə bütün Asiya üzərində hakim olmuşlar.

105. İskitlər sonra Misirə getmişlər. Oraya aparan yol üstündəki Fələstin Suriyasında Misir hökmdarı Psammetix iskitlərin qarşısına çıxıb, hədiyyələr və xahişlər vasitəsi ilə işğalçıları buradan o yana getməkdən çəkindirmişdir46. İskitlər geri dönərək Suriya şəhəri Askalona gəlmişlər. İskit qoşununun böyük qismi şəhərin yanından keçib ona ziyan vurmamış, yalnız geridə qalan bir qədər döyüşçü Uraniya Afroditası məbədini qarət etmişlər. Mən sorğu-sualdan öyrəndim ki, ilahənin bütün məbədləri içərisində bu məbəd ən qədimidir. Axı, kiprlilər özləri təsdiq edirlər ki, Kiprdəki məbədin əsasını elə buranın öz adamları qoymuşlar. Kiferadakı məbədi isə Fələstin Suriyasının əhalisi ucaltmışdır. İlahə Askalondakı məbədin qarətçilərini cəzalandıraraq, onların özlərinə və bütün nəsillərinə əbədi olaraq "qadın" azarı vermişdir. Bunu nəinki iskitlərin özləri təsdiq edirlər, eləcə də, İskit Elinə gedib-gələnlərin hamısı enareylər adlananların çəkdikləri iztirabları görə bilərlər.

106. İskitlər Asiyada 28 il hakimiyyət sürüb özlərinin sırtıqlığı və azğınlığı nəticəsində orada hər şeyi xarablayırlar. Axı, onlar hər xalqdan müəyyən olunmuş vergi toplamaqla yanaşı, ölkənin hər yerini gəzib dolaşaraq əllərinə keçəni qarət edirdilər. Onda Kiaksar və midiyalılar bir dəfə çoxlu iskiti qonaq çağırıb keflənənəcən içirtdirir, sonra onları qırırlar. Midiyalılar öz hökmdarlarının əvvəlki əzəmətini belə bərpa edirlər, üstəlik Nin şəhərini də ələ keçirirlər (şəhəri

downloaded from KitabYurdu.org

necə aldıqlarını əsərimin başqa hissəsində danışacağam) və Babil bölgəsi istisna olmaqla bütün assuriyalıları tabe edirlər. Bundan sonra Kiaksar vəfat edir. O, 40 il hakimiyyət sürür (iskitlərin hakimiyyəti də bu hesaba daxildir).

107. Kiaksar oğlu Astiaq varis kimi atasını əvəz edir. Asqiaqın Mandana adlı qızı varmış. Astiaq bir dəfə yuxuda görür ki, qızı həddindən çox işədiyinə görə sidik onun baş şəhərini və bütün Asiyanı basıbdır. Hökmdar yozucu mağlardan yuxunun mənasını soruşur. Mağlar yuxunun mənasını dəqiq izah edəndə hökmdar mağları anlayıb qorxuya düşür. Sonra Madananın ərə getmək vaxtı gəlib çatanda. Astiaq onu mənşəcə bərabər bərabər olan midiyalılardan heç kəsə vermək istəmir. Gördüyü yuxudan qorxan hökmdar qızını ad-sana görə orta səviyyəli midiyalıdan aşağı saydığı, amma nücəba nəslindən olub sakit xasiyyətinə görə seçdiyi Kambis adlı farsa ərə verir.

108. Kambisin Mandanaya evlənməsindən bir il sonra Astiaq yenə yuxu görür. Onun bu dəfəki yuxusuna girən əhvalata görə qızının bətnindən göyərən üzüm tənəki sonra bütün Asiya boyu uzanır. Hökmdar gördüyü bu yuxunu da yozuculara bildirir və sonra hamilə olub tezliklə uşaq gözləyən qızının dalınca Parsaya adam göndərilməsini buyurur. Qızı gəlib çıxanda Astiaq onu nəzarət altında saxlamağı əmr edir və körpəni məhv etmək istəyir. Yuxu yozan mağlar yuxunu ona belə yozurlar: qızının oğlu Astiaqın yerində hökmdar olmalıdır. Bundan yaxa qurtarmaq istəyən Astiaq nəvəsi (Kuruş) doğulandan sonra qohumunu, midiyalılar içərisində ona ən sadiq olan adamı, Midiyada təsərrüfatı idarə edən Arpaqı yanına çağırıb ona belə sözlərlə müraciət edir: "Arpaq! Mən sənə mühüm tapşırıq verirəm. Onu dəqiq yerinə yetir. Amma başqasının mənafeyini mənim mənafeyimdən üstün tutaraq məni aldatma ki, sonra öz təqsirin üzündən məhv olmayasan. Mandananın doğduğu körpəni götürüb öz evinə apar və öldür. Sonra da onu lazım bildiyin kimi basdır". Arpaq isə cavab verir: "Hökmdar! Əvvəllər məndən narazı qalmağına heç bir əsas olmamışdır, bundan sonra da çalışaram ki, heç nəyə görə günahkar olmayım. Sənin buyuruğun beləsə, mən onu səylə yerinə yetirərəm".

109. Arpaq hökmdara belə cavab verir. Artıq dəfn libası geydirilmiş körpəni ona verəndə o, evə ağlaya-ağlaya qayıdır. Astiaqın bütün sözlərini arvadına danışır. Arvadı soruşur: "İndi sən nə edəcəksən?" Arpaq cavab verir: "Hökmdar indikindən də düşüncəsiz və ağlını itirmiş vəziyyətə düşsə belə, əlbəttə, mən onun tapşırığını, hər halda, yerinə yetirməyəcəyəm və bu qədər dəhşətli ölümün iştirakçısı olmayacağam. Mən bu uşağı müxtəlif səbəblərə görə öldürmək istəmirəm. Hər şeydən əvvəl ona görə ki, körpə mənə qohumdur, sonra da axı, Astiaq qocadır, onun kişi nəsli yoxdur. Hökmdarın ölümündən sonra onun taxtı qızına keçərsə, onun oğlunun öldürülməsi məhz mənə tapşırıldığı üçün məgər bizi də ölümcül təhlükə gözləməzmi? Əgər təhlükəsizliyim üçün bu körpəni öldürmək lazımdırsa, qoy onu mənim adamlarım deyil, Astiaqın adamlarından biri öldürsün.

110. Arpaq arvadına beləcə deyib, çoxlu vəhşi heyvanlar olan dağ çəmənliklərində Astiaqın inək otaran bir naxırçısının dalınca carçı göndərir. Naxırçının adı Mitradat idi. O, arvadı ilə birlikdə bu yerlərdə yaşayırdı, arvadı da Astiaqın köləsi idi. Onun adı ellinlərin dilində Kino, amma midiyalıların dilində İspak (Spako) idi. (Midiya dilində "ispak" sözü, "it" deməkdir). Bu naxırçının mal otardığı otlaq isə Akbatanadan şimalda Evksin Pontu istiqamətində yerləşirdi. Midiya torpağını ancaq bircə yerdə, məhz saspirlərin torpaqlarının yaxınlığında uca dağlar və sıx meşələr bürümüşdür. Midiyanın bütün qalan sahəsi isə yastı düzənlikdir. Naxırçı çağırışa görə tələm-tələsik gələndə Arpaq ona bax belə deyir: "Astiaq sənə əmr edib ki, bu körpəni götürüb gedəsən və lap tezcə ölməsi üçün aparıb dağların fısıllıq bir yerinə atasan. Bununla bərabər, hökmdar buyurub ki, sənə, bax, bu sözləri də deyim: "Əgər sən uşağı öldürməyib onu bir yolla xilas eləsən, onda, səni amansız ölüm cəzası gözləyəcəkdir. Körpənin doğrudan, da atılmağına baxmaq isə mənə tapşırılmışdır".

111. Naxırçı əmri dinləyib, uşağı qucağına götürür və gəldiyi yolla öz daxmasına qayıdır. Bu vaxt onun bu, günsabah hamiləlikdən qurtaracağını gözləyən arvadı təsadüfün hökmü ilə məhz əri şəhərə gedəndə doğur. Onların ikisi də bir-birindən nigaran qalır. Kişi arvadının doğmasının (gedişindən), arvad isə Arpaqın ərinin ardınca nə üçün adam göndərməsindən (əvvəllər heç vaxt belə iş olmadığına görə) qayğılı idi. Kişi geri qayıdıb arvadına yanaşdıqda ərini qəflətən görən arvadın birinci sualı bu olur: Arpaq onu niyə tələsik öz yanına çağırıb? Əri isə cavab verir: "Arvad! Şəhərə gedib çatanda elə şey gördüm, elə şey eşitdim ki, bunu gərək heç vaxt görməyəydim, bizim ağalarımızın başına da gərək heç vaxt belə işlər gəlməyəydi. Ağlaşma Arpaqın bütün evini başına götürmüşdü. Mən qorxa-qorxa axır ki, evə girdim. Elə ki, evə ayaq basdım, onda titrəyən və qışqıran bir körpə gördüm. Uşağın qızıl bər-bəzəyi vardı, özünə də rəngbərəng naxışlarla bəzənmiş paltar geydirilmişdi. Arpaq məni görən kimi, uşağı dərhal götürüb özümlə aparmağı və çoxlu vəhşi heyvan olan dağlara atmağımı əmr etdi. Arpaq bunu da dedi ki, Astiaqın buyruğu belədir, üstəlik əgər hökmdarın əmrini yerinə yetirməsəm, mənə qorxunc hədələr gəldi. Mən uşağı nökərlərdən birinin uşağı sayıb, qucağıma götürüb gəldim. Axı, mən uşağın doğrudan da kimin olduğunu heç başa düşməzdim, bircə onun qızıl bər-bəzəyinə və dəbdəbəli geyiminə heyran qalmışdım. Arpaqın evindəki ağlaşma həşiri, ah-fəryad da məni mat qoydu. Amma məni şəhərdən ötürən, uşağı mənə verən nökərdən yoldaca işin əslini öyrəndim. Nökər mənə danışdı ki, bu körpə Astiaqın qızı Mandananın uşağıdır, adı Kuruşdur, atası da Kambisdir, Astiaq da körpənin öldürülməsini buyurub. Bax, uşaq budur!".

112. Naxırçı bu sözləri deyib, uşağın qundağını açır, onu arvadına göstərir. Arvadı onun necə iri və xoşsifət uşaq olduğunu görüb göz yaşları tökərək ərinin ayaqlarına döşənir, uşağı atmaması üçün and-aman eləyir. Kişi cavab verir ki, başqa cür eləyə bilməz, axı Arpaqın casusları yoxlamağa gələcəklər, hökmdarın əmrinə əməl etməmək üstündə onu əzab verə-verə öldürərlər. Ərini inandıra bilməyən arvad əlacsız qalıb bu sözlərlə ona bir də üz tutur: "Uşağı atmamaq üçün mən səni dilə tuta bilmirəm, indi ki uşağın atıldığını adamlar hökmən; görməlidirlər, onda belə elə: axı, mən də doğmuşam, amma ölü uşaq doğmuşam. Sən ocığazıca apar vəhşi heyvanlara yem elə, Astiaqın qızının körpəciyəzini də gəl özümüzün doğma oğlumuz kimi böyüdək. Beləliklə, səni də əmrə qulaq asmamaq üstündə tutmazlar, bizə də pis olmaz. Axı, bizim ölü doğulmuş körpəmiz şahzadə kimi dəfn olunar, salamat qalan da sağ olar".

113. Naxırçı fikirləşir ki, arvadı bu işdə tam haqlıdır və dərhal onun dediyi kimi edir. O, özü ilə gətirdiyi və ölümə məhkum olunmuş uşağı arvadına verir, özünün ölü doğulmuş uşağını isə hökmdar uşağını gətirdiyi səbətə qoyur. Sonra

downloaded from KitabYurdu.org

da hökmdar uşağının paltarını ölü uşağa geyindirir, onu dağlarda ən uzaq yerə aparır və orada qoyub qayıdır. Üç gün keçəndən sonra naxırçı bala çobanlarından birini naxıra baxmaq üçün öz yerində qoyub şəhərə gedir. Arpaqın evinə gəlib deyir ki, uşağın meyitini göstərə bilər. Arpaq da körpənin meyitinə baxmaq üçün özünün şəxsi keşikçilərindən ən sədaqətlisini oraya göndərir və sonra naxırçı uşağını basdırmağı tapşırır. Ölü uşağı basdırırlar, sonralar Kuruş adlanan o biri uşağı da naxırçı arvadı himayəsinə götürüb ona Kuruş deyil, başqa bir ad qoyur.

114. Uşağın 10 yaşı tamam olanda onun əsl mənşəyi bax belə ortalığa çıxır: uşaq, buğaların pəyələrə salındığı kənddəcə, yol qırağında öz yaşıdları ilə oynayırmış. Uşaqlar naxırçının bu kənardan tutma oğlunu özlərinə hökmdar seçirlər. O da, bəzilərini ev tikmək işinə, bəzilərini isə özünə şəxsi keşikçi təyin edir, birinə "hökmdar gözü" olmağı, o birinə yenilikləri hökmdara xəbər verməyi buyurur. Hər kəsə xüsusi vəzifə tapşırır. Oyunda iştirak edən uşaqlardan biri (zadəgan Artembarın oğlu) əmri yerinə yetirmir. Onda Kuruş o birilərinə əmr edir ki, onu tutsunlar. Uşaqlar əmri yerinə yetirirlər və Kuruş günahkarı qamçılayaraq onunla çox sərt rəftar edir. Müqəssiri buraxan kimi, onun təsəvvürünə görə layiq olmadığı rəftardan bərk qəzəblənərək Kuruşun onu döyməsindən şikayət üçün şəhərə, atasının yanına qaçır. (Əlbəttə o, Kuruş adı çəkmir, çünki uşaq hələ bu adı daşımırdı, ona "Astiaq naxırçısının oğlu" deyirdilər). Əsəbiləşmiş Artembar oğlu ilə eşidilməmiş rəftardan şikayət etmək üçün Astiaqın yanına gedir. O deyir: "Hökmdar, sənin kölən, naxırçı oğlu bununla belə rəftar eləmişdir!" Bunu deyib oğlunun (zərbələrin izi qalmış) çiyinlərini göstərir.

115. Astiaq bunu eşidib və (zərbələrin izini) görüb naxırçının və onun oğlunun ardınca adam göndərməyi əmr edir. (Hökmdar Artembara hörmət etdiyi üçün oğlunu razı salmaq istəyir). Elə ki, onların ikisi də gəlir, onda Astiaq Kuruşa baxıb deyir: "Adi bir naxırçı oğlu ola-ola çox hörmətli Artembarın oğlunu sənmi belə ağır təhqir etməyə cəsarət göstərmisən?" Oğlan da belə cavab verir: "Ağa! Mən onunla ədalətli rəftar etmişəm. Axı, bizim kəndin uşaqları (onların içində də bax, bu oğlan) oyun zamanı məni özlərinə hökmdar qoydular, onlar elə qərara gəldilər ki, bu rütbəyə hamıdan artıq mən layiqəm. Başqa oğlanlar mənə tabe oldular, bu isə ta cəzalandırılana qədər mənə itaət eləmədi, (əmrlərimə) məhəl qoymadı. Buna görə cəzaya layiqəmsə, buyur, mən sənin ixtiyarındayam!".

116. Bu sözlərdən sonra Astiaq dərhal oğlanı tanıyır. Uşağın üzünün cizgiləri özününkünə oxşayırdı, cavabı da qul (oğlu) üçün həddindən artıq məğrur və açıq-açığına cavab idi. Görünür, onun nəvəsinin (vəhşi heyvanlara yem olması üçün) atıldığı vaxt da bu uşağın yaşına uyğun gəlirdi. Astiaq dəhşətdən bir müddət səssiz-səmirsiz qalır. Nəhayət, hökmdar özünə gələr-gəlməz naxırçını üzbəüz dindirmək istədiyini bildirir və ona görə də Artembarı yola salır. "Artembar,-dedi,-mən səni və oğlunu tamam razı salmağa çalışaram". Hökmdar Artembarı mürəxxəs edir. Kuruşu da onun əmrinə görə sarayın içəri otaqlarına aparırlar. Astiaq naxırçı ilə tək qalıb, bu oğlanın onun evinə necə düşdüyünü, kimin verdiyini soruşur. Çoban deyir ki, uşaq onun özününküdür, anası da hələ onun evində sağdır. Astiaq naxırçıya cavab verir ki, onun özünü dəhşətli işgəncələrə salması ağılsızlıq olar və dərhal öz keşikçilərinə naxırçını tutmağı əmr edir. İşgəncə nəticəsində naxırçı hər şeyi etiraf etməli olur. O, əvvəlcə bunun neçə olduğunu doğrucasına danışır və axırda sözünü mərhəmət və bağışlanmaq haqqında yalvarışla qurtarır.

117. Naxırçının etirafından sonra Astiaq ona məhəl qoymayıb, öz qəzəbini Arpaqın üstünə tökmək üçün keşikçilərinə onu gətirməyi buyurur. Arpaq onun hüzurunda dayananda hökmdar deyir: "Arpaq! O vaxt qızımın sənə verdiyim körpəsini necə öldürdün?" Arpaq isə naxırçının sarayda olduğunu görür (ona görə) də ifşa olunacağı üçün (qorxudan) yalana əl atmır, amma belə deyir: "Hökmdar! Mən uşağı götürəndə sənin qarşında günahkar qalmamaq və qızının, eləcə də sənin özünün gözündə qatil olmamaq üçün əmrini necə yerinə yetirmək haqqında fikirləşməyə başladım. Ona görə də belə elədim: bu naxırçını buraya çağırıb uşağı ona verdim, dedim ki, sən uşağı öldürməyi ona əmr etmisən. Mənim bu sözlərim də, əlbəttə, tam həqiqət idi. Axı sənin öz buyruğun belə olmuşdu. Bunu deyərək, belə bir əmrlə uşağı ona verdim ki, aparıb əl-ayaqdan uzaq bir dağa qoysun və ölənə qədər keşiyini çəksin. Mən naxırçını, itaətsizlik göstərərsə, dəhşətli cəzalarla təhdid etdim. Naxırçı itaət elədi; uşaq öləndən sonra ən sadiq nökərlərimi-xacələrimi (əmrin icrasını) yoxlamağa göndərdim, sonra da onların köməyi ilə uşağı dəfn etdim. Hökmdar, işin gedişi və uşağın ölümü belə olmuşdur".

118. Arpaq beləcə açıq etiraf etməli olur. Astiaq isə qəzəbini gizlədərək, əvvəlcə naxırçıdan eşitdiklərinin hamısını ona danışır və axırda əlavə edir ki, uşaq sağ qalmışdır, buna görə də o şaddır ki, hər şey uğurla qurtarmışdır. "Mən bu oğlana elədiklərimdən çox əzab çəkmişəm,-hökmdar yeri gəlmişkən dedi,-və öz qızımın nifrətinə dözmək mənim üçün asan deyildi. İndi, hər şey yaxşılıqla qurtardığı üçün get öz oğlunu göndər bizim bu "təzə qədəm" nəvəmizlə oynasın. Uşağın xilas edilməsi şərəfinə görə allahlara minnətdarlıq qurbanı kəsmək istəyirəm, sən özün də mənim ziyafətimə gələrsən".

119. Arpaq bu sözləri eşidib hökmdarın ayaqlarına düşür. O, özünün günahkar olmasına baxmayaraq, hər şey uğurla ötüşdüyü, belə şad hadisəyə görə hətta ziyafətə dəvət edildiyi üçün yüksək xoşbəxtlik qanadında uçur. Arpaq sonra tələsik evə gedir və oğlunu dərhal Astiaqın sarayına göndərir (yeganə oğlunun 13-ə yaxın yaşı olardı). Ona buyurur ki, hökmdarın bütün əmrlərini yerinə yetirsin. Özü də bütün baş vermiş hadisəni böyük sevinclə arvadına danışır. Bu arada Arpaqın oğlu (saraya) Astiaqın hüzuruna gələn kimi o, oğlanı öldürməyi, bədənini tikə-tikə doğramağı əmr edir. Hökmdar uşağın ətinin bir qismini qızartmağı, bir qismini də bişirməyi və bu yaxşı hazırlanmış xörəyi dəmdə saxlamağı əmr edir. Ziyafət başlananda dəvət olunmuş adamlar sırasında Arpaq da gəlir. Astiaqın və qonaqların süfrəsinə qoyun əti, Arpaqın qabağına isə öz oğlunun bütün ətini qoyurlar (uşağın başı, əlləri və ayaqları qapağı örtülü səbətə qoyulmuşdu). Görünür, Arpaqın doyduğunu hiss edən Astiaq ondan xörəyi xoşlayıb-xoşlamadığını soruşur. Arpaq cavab verir ki, xörək ona böyük ləzzət verdi. Onda xüsusi tapşırıq almış xidmətçilər uşağın başı, əlləri və ayaqları qoyulmuş ağzı örtülü səbəti gətirib Arpaqa əmr edirlər ki, səbəti açsın və içindəkilərdən nə istəsə götürsün. Arpaq əmrə boyun, əyir və səbətin qapağını qaldıranda oğlunun cənazəsinin qalıqlarını görür. Amma gördükləri Arpaqı çaşdırmır; o, özünü itirmir. Bu vaxt Astiaq ondan soruşur ki, hansı quş ətindən, yediyini bilirmi? Arpaq cavab verir ki,

downloaded from KitabYurdu.org

bəli, bilir, həm də hökmdar hər nə iş görsə, onun üçün yaxşı olmalıdır. Bu sözləri deyir, oğlunun ətindən qalan tikələri də yığıb evə qayıdır. Bəlkə də, oğlunun cəsədindən nə qalıbsa, onları toplayıb torpağa tapşırmaq istəyirmiş.

120. Astiaq Arpaqı belə cəzalandırır. Sonra hökmdar Kuruşun taleyi ilə bağlı yuxunu əvvəllər yozmuş mağları məsləhətə çağırır. Mağlar gəlirlər və Astiaq yuxunun mənasını onlardan yenidən soruşur. Onlar isə əvvəlcə dediklərini bir də təkrar edib söyləyirlər ki, əgər uşaq vaxtından əvvəl ölməsəydi, yəqin hökmdar olardı. Astiaq isə onlara etiraz edir: "Uşaq ölməmişdir, o sağdır. O kənddə yaşayanda kənd uşaqları onu hökmdar seçiblər, o da hökmdara layiq şəkildə öz ətrafına gözətçilər, qapıçılar, xəbərçilər və başqa xidmətçilər qoyaraq, özünü əsl, hökmdar kimi aparmışdır. Sizin fikrinizcə, bu nədən xəbər? verir? Mağlar cavab verirlər: "Uşaq sağdırsa, hətta qarşısına məqsəd qoymadan hökmdar olubsa (çünki bu heç kəsin zənninə belə gəlməmişdir), onda qorxma və narahat olma: axı, o artıq ikinci dəfə hökmdar olmayacaqdır. Hətta, rəmmalların belə bəzi buyruğu boş-bekar şey olur, bir sıra yuxuların da heç bir mənası olmur". Astiaq belə cavab verir: "Mağlar, mən də elə bu fikirdəyəm. İndi ki, uşaq (bir dəfə), özü də (ancaq sözdə) hökmdar olmuşdur, deməli, yuxu doğru çıxmışdır və mən heç nədən ehtiyat etməməliyəm. Amma, hər halda, sizdən xahiş edirəm ki, mənim və sizin evinizin təhlükəsizliyi üçün necə hərəkət etmək lazım olduğunu yaxşı fikirləşəsiniz". Mağlar buna belə, cavab verirlər: "Hökmdar! Taxtın sənin əlində qalmağının bizim üçün də əhəmiyyəti var. Əgər hökmranlıq bu fars oğluna keçsə, onda özgə əlinə düşər, biz midiyalılar qul olarıq, farslar da yadellilər kimi bizə həqarətlə baxarlar. Amma hələ ki, hökmdarımız sənsən, öz tayfamızdansan, idarə işində biz də iştirak edirik, sənin yanında böyük şərəf sahibiyik. Ona görə də sənin arxanda durub, hakimiyyətini qorumağa tam əsasımız var. Əgər səni təhdid edən təhlükəni görmüş olsaydıq, hamımız fikrimizi açıqcasına sənə söyləyərdik. Amma yuxu boş-bekar çıxdığına görə nə biz özümüz qorxuruq, nə də sənin qorxmağını məsləhət görürük. Bu uşağı gözündən iraq elə, göndər Parsaya, valideynlərinin yanına".

121. Mağlardan belə məsləhət eşidib sevinən Astiaq Kuruşu çağırır və ona belə deyir: "Oğlum! Mən səni yanlış çıxan (yuxu nəticəsində) incitmişəm, amma Fələyin buyruğuna görə sağ qalmısan. İndi sağ-salamat Parsaya yola düş, mən sənə müşayiətçilər verərəm. Orada heç də naxırçı Mitradata və onun arvadına oxşamayan ata-ananı taparsan".

122. Astiaq bu sözləri deyib Kuruşu buraxır. Kuruş isə Kambisin evinə gələndə valideynləri onu qəbul edir və (kim olduğunu, haradan gəldiyini) biləndə öpüşə qərq eləyirlər (axı, onlar elə bilirdilər ki, o, elə həmin vaxt öldürülmüşdür). Sonra necə salamat qaldığını öyrənmək üçün oğullarını sorğu-suala tuturlar. O da cavab verir ki, (özünün əsil-nəsəbi haqqında) əvvəllər heç nə bilmirmiş, bu barədə hətta yanlış təsəvvürü varmış. Buraya gələndə yol boyu özünün acı qismətini öyrənmişdir: o, özünü Astiaqın naxırçısının oğlu bilirmiş, amma yol yoldaşları ona hər şeyi danışmışlar. Özünün dediyinə görə, onu naxırçı arvadı tərbiyə etmişdir. Kuruş öz macərasını danışa-danışa bu qadını hey tərifləyirmiş, elə hey Kinodan danışırmış. Valideynləri isə bu addan yapışıb, "oğullarının xilas olmasının farslara daha möcüzəli görünməsi üçün söz yayıblar ki, çölə atılmış Kuruşu qancıq əmizdirib saxlamışdır.

123. Kuruş tədricən böyüyərək öz yaşıdları arasında ən rəşadətli bir oğlan olur. Hamı onu sevirdi. Astiaqdan intiqam arzusu ilə alışıb yanan Arpaq da Kuruşun etibarını qazanmağa çalışır. O, hədiyyə dalınca hədiyyə göndərərək Kuruşu intiqama təhrik edir. Arpaq başa düşür ki, adi vətəndaş olmaq etibarilə təklikdə Astiaqdan intiqam ala bilməz. Ona görə də Kuruşun böyüdüyünü görərək onu özünə müttəfiq seçir, axı, Kuruş da elə Arpaq kimi eyni bədbəxtliyi çəkmişdi. Arpaq əvvəlcə belə eləyir: o, bütün midiyalı əyanlarla əlaqə yaradıb onları hökmdarı yıxmağa, Kuruşu hökmdar qoymağa həvəsləndirir (axı, Astiaq midiyalıların sərt hökmdarı idi). Arpaq (əyanları) öz tərəfinə çəkməyə nail olandan, hər şey düzələndən sonra öz niyyətini Kuruşa bildirmək qərarına gəlir. Kuruş isə Parsada olduğundan, bütün yollar qorunduğundan onunla əlaqə üçün başqa vasitə qalmadığına görə Arpaq bax belə bir kələk işlədir. O, bir dovşanın dərisini korlamadan məharətlə qarnını yarıb içinə öz niyyətini izah edən bir fərman qoyur, sonra dovşanın qarnını tikir və özünün ən sədaqətli nökərlərindən birinə ovçu kimi ov toru verib, heyvanı Parsaya göndərir. Dil cavabı da Kuruşa bunu çatdırmağı tapşırır ki, dovşanın qarnını o özü yarsın və yanında heç kəs olmasın.

124. Nökər Arpaqın bu əmrini yerinə yetirir, Kuruş dovşanı alıb qarnını yarır. Oradakı məktubu görüb onu götürür və oxumağa başlayır. Məktubda isə belə yazılıbmış: "Kambisin oğlu! Səni allahlar saxlayırlar. Əks halda, onlar sənə belə bir xoşbəxt qismət hazırlamazdılar. Sən gərək öz qatilin Astiaqdan intiqam alasan! Axı, onun qəsdi ilə ölümə məhkum olunmuşdun, ancaq allahların iradəsi, bir də mənim sayəmdə sağ qaldın. Güman edirəm ki, öz bədbəxtliyin haqqında, Astiaqın nəinki sənə, eləcə də səni öldürməyib naxırçıya verdiyimə görə mənə elədiklərini yəqin çoxdan eşitmisən. İndi mənə qulaq assan, Astiaqın; bütün hakimiyyəti sənin olar. Farsları ayağa qalxmağa inandır və onları midiyalıların üstünə müharibəyə apar. Əgər Astiaq sənə qarşı müharibədə ya məni, ya da Midiya əyanlarından hər hansı birini qoşun başçısı qoysa, onda sən istədiyin məqsədə yetərsən. Axı, onlar elə birinci olaraq sənin tərəfin keçəcəklər və Astiaqın yıxılmasına çalışacaqlar. Beləliklə, burada hər şey hazırdır, ona görə də məsləhətimi eşit, tezliklə işə başla.

125. Kuruş bu məktubu ucadan oxuyub farsları Astiaqa xəyanətə yönəltmək üçün daha bic fənd fikirləşməyə başlayır. Fikirləşib də qərara gəlir ki, belə eləmək daha yaxşıdır: düşündüklərini məktub şəklində yazaraq, farsların xalq yığıncağını çağırır. Sonra məktubu açıb onlara oxuyur, farslara bildirir ki, Astiaq onu orduya sərkərdə təyin etmişdir. Kuruş öz çıxışında, yeri gəlmişkən deyir: "Farslar, indi, hamınızın oraqla silahlanıb gəlmənizi əmr edirəm". Kuruş belə əmr verir. Fars qəbilələri çoxdur. Kuruş onların bir qismini toplayıb midiyalılardan qopub ayrılmağın mümkünlüyünə inandırır. Bütün başqa qəbilələr, bax, bu qəbilələrdən asılıdırlar: farslar, pasarqadlar, marafilər, maspilər. Bunların da ən əsilzadəsi pasarqadlardır ki, Ağamənlər nəsli bunlara mənsubdur (fars şahları bu nəsildən çıxmışlar). Başqa fars qəbilələri də bunlardır: panfialeylər, derusieylər, gərmanlar. Göstərilən bütün qəbilələr əkinçiliklə məşğul olurlar, daylar, mardlar, dropiklər və başqa qəbilələr isə köçəridirlər.

126. Elə ki, hamı oraqla silahlanıb gəlir, onda Kuruş torpağın müəyyən bir sahəsini gün ərzində təmizləməyi onlara əmr edir (fars torpağının məlum sahəsinin təxminən 18 ya 20 stadiyası tikanlı kollarla örtülmüşdür). Bu ağır iş

downloaded from KitabYurdu.org

qurtaranda: Kuruş əmr edir ki, əvvəlcədən yuyunaraq sabah yenə gəlsinlər. Bu dəmdə Kuruş öz atasının bütün keçi, qoyun və inəklərini bir yerə yığıb kəsərək fars qoşunu üçün qonaqlıq hazırlamağı buyurmuşdu. Bundan başqa, o, çoxlu çaxır və çörək tədarükü görmüşdü. O biri gün farslar gələndə Kuruş onlara çəmənlikdə əyləşib qonaq olmağı təklif edir. Qonaqlıqdan sonra Kuruş farslardan soruşur: hansı gün onlara daha xoş gəlib-dünənki, yoxsa bugünkü? "Bu günlər arasında, əlbəttə, böyük fərq vardır,-deyib cavab verirlər,-axı dünənki gün bizə ancaq iztirab vermişdi, bu gün isə hər şey gözəldir". Kuruş bu sözlərdən yapışıb, bütün niyyətini farslara açaraq deyir: "Fars döyüşçüləri! İş, bax, belədir: əgər siz mənim arxamca getsəniz, onda sizin bu nemətləriniz də olacaq, hələ bundan on qat artığı da. Yox, əgər arxamca getmək istəməsəniz onda dünənki günün ağır zəhməti həmişəlik qabağınıza çıxacaqdır. Ona görə də arxamca gəlib azadlıq əldə edin. Mənə elə gəlir ki, mən allahların iradəsi ilə sizin azadlıq işinizi öz öhdəmə götürmək üçün doğulmuşam. Elə bilirəm ki, siz heç nədə, xüsusən döyüşçülükdə midiyalılardan heç də geri qalmırsınız. Ona görə də siz gərək tezliklə Astiaqdan qopub ayrılasınız".

127. O gündən farslar özlərinə rəhbər tapırlar və Midiya əsarətindən xilas olacaqlarına sevinirlər. Axı, Midiya hökmranlığına çoxdan nifrət edirdilər. Astiaq isə Kuruşun belə bir hazırlıq apardığını eşidib, carçı göndərərək hüzuruna gəlməsini əmr edir. Kuruş da carçıların gedib şaha ərz eləməsini buyurur ki, o, şahın hüzuruna şaha lazım olan vaxtdan tez gələcəkdir. Astiaq bunu eşidib bütün Midiya xalqını silaha sarılmağa çağırır və Arpaqı sərkərdə təyin edir (axı, allah hökmdarın ağlına rəxnə salmışdı, o da Arpaqa elədiyi pisliyi unutmuşdu). Midiyalılar yürüşə çıxıb farslarla vuruşmağa başlayanda qoşunun qəsddə əli olmayan bir hissəsi döyüşür, bir hissəsi könüllü olaraq farsların tərəfinə keçir, qoşunun çoxu özlərinin əsgərlik borcuna xəyanət edərək qorxaqcasına qaçmağa üz qoyur.

128. Beləliklə, Midiya ordusu rüsvaycasına pərən-pərən düşür. Astiaq məğlubiyyəti eşidib, qəzəblə qışqırır: "Fərqi yoxdur, Kuruş canını qurtara bilməyəcəkdir!" Bunun ardınca hökmdar əvvəlcə onu Kuruşu bağışlamağa inandırmış yuxuyozan mağları payaya keçirməyi, sonra da qocadan tutmuş kiçiyə qədər şəhərdə qalmış (bütün midiyalıların) silaha sarılmasını əmr edir. Astiaq bu ordu ilə özü farslara qarşı döyüşə çıxır, amma vuruşmada məğlubiyyətə uğrayır. Bu döyüşdə hökmdar əsir alınır. Midiya ordusu isə məhv edilir.

129. Onda Arpaq əsir alınmış Astiaqa yanaşıb, bədbəxtliyindən kam alaraq onu ələ salmağa başlayır. Əsirə tikanlı sözlərlə müraciət edərək, yeri gəlmişkən, ondan soruşur: "Vaxtı ilə ziyafət verib, Arpaqı da dəvət edərək onu öz oğlunun ətinə qonaq elədiyin ziyafətlə müqayisədə hökmdarlığı itirmək Astiaq üçün nə deməkdir?" O vaxtkı cinayəti ucundan Astiaq indi hökmdardan dönüb qul olmuşdu. Astiaq isə Arpaqa baxıb öz növbəsində deyir: yoxsa, Arpaq Kuruşun işini özünə çıxır? Arpaq da etiraz edib deyir ki, bu barədə Kuruşa özü məktub yazaraq, onu üsyana təhrik etmişdir, ona görə də ədalətlə baxılsa, bu iş onun xidmətidir. Onda Astiaq Arpaqın dünyada ən axmaq və yaramaz adam olduğunu sübut üçün dəlillər gətirməyə başlayır. Arpaq ona görə ən axmaq adamdır ki, (özünün inandırdığı kimi, doğrudan da çevriliş onun əli ilə edilmişsə), özü hökmdar ola biləcəyi halda hökmdar tacını özgəsinin başına qoymuşdur. Arpaq ona görə ən yaramaz adamdır ki, o, "özünün qonaqlıq əhvalatına" görə midiyalıları qul etmişdir. Əgər Astiaqın yerinə başqa bir adama hökmən hökmdarlığı ələ keçirmək lazım gəlmişdisə, onda bu şərəfə heç olmasa farsı deyil, midiyalını çatdırmaq daha ədalətli olardı. Heç bir günahı olmayan midiyalılar hakim olduqları halda, bundan belə qul, əvvəlki qullar-farslar isə hakim oldular.

130. Beləliklə, Astiaq 35 illik hökmdarlıqdan sonra hakimiyyətdən məhrum olur. Onun sərtliyi ucundan midiyalılar farslara tabeçilik etməli olurlar. Qalisin o tayı boyunca midiyalıların Asiya üzərində hakimiyyəti, iskitlərin hakimiyyətini istina etməklə, 128 il sürmüşdür. Sonralar midiyalılar farslara təslim olmalarından peşman olur və Dara əleyhinə üsyan eləyirlər. Lakin vuruşmada məğlubiyyətə uğrayıb, yenidən tabe olmağa məcbur qalırlar. Astiaq zamanında midiyalılardan qopub ayrılan farslar isə həmin vaxtdan etibarən Kuruşun başçılığı ilə Asiyaya hakim kəsilirlər. Bundan sonra Kuruş Astiaqa heç bir pislik etməyib, ölənə qədər onu öz yanında saxlayır. Kuruşun anadan olması, uşaqlığı və taxta çıxması tarixi belədir. Sonra Kuruş, artıq dediyim kimi, onun üstünə yürüşə getmiş Krezə də qalib gəlir. Krezə çaldığı qələbədən sonra Kuruş Asiyanın hakimi olur.

131. Farsların adətinə gələndə bu barədə mən bunu deyə bilərəm. Farslarda (allahlara) heykəllər, məbədlər və səcdəgahlar ucaltmaq adət deyil. Bu cür iş görənləri onlar axmaq sayırlar, çünki mənim fikrimcə, ellinlər allahları insan şəklində təsəvvür etdikləri halda, farslar onları insaniləşdirmirlər. Belə ki, onlar dağ zirvəsində Zevsə qurban kəsib bütün göyü Zevs adlandırırlar. Onlar, eyni zamanda, günəşə, aya, oda, suya və küləklərə qurban verirlər. Əvvəllər ancaq bu allahlara qurban verirmişlərsə, sonra Uraniya Afroditasına səcdə eləməyi assurlardan və ərəblərdən öyrənmişlər (assurlar Afroditaya Militta, ərəblər-Alilat, farslar isə-Mitra deyirlər).

132. Farslar bu allahlara qurban gətirəndə bax belə edirlər. Farslar ibadətgahlar tikmirlər və tonqal qalamırlar. Onların qurban mərasimində nə şərab içmək adəti var, nə tütək çalmaq. Nə əklilləri olur, nə də qurbanlıq arpaları. Əgər bir nəfər göstərilən allahlara qurban vermək istəyirsə, qurbanlıq heyvanı "pak" bir yerə gətirib, hər şeydən əvvəl özünün tacını mərsin budaqları ilə bəzəyib allahın adını tutur. Qurban gətirən adamın tək özünə səadət arzulamasına icazə verilmir, o bütün farslar və hökmdar üçün dua edir, çünki onun özü də farslara mənsubdur. Bunun ardınca qurbanlıq heyvanı kəsib əti bişirir, sonra da yerə təzə ot, (daha çox üçyarpaqlı yonca) döşəyir və əti onun üstünə qoyur. Bu vaxt mağ gəlib onların ovsunlama mənasında işlətdikləri dini mahnı oxuyur. Axı, onlarda mağsız qurban kəsmək adət deyil. Qurban gətirən adam bir müddətdən sonra əti götürüb evə aparır və ondan istədiyi məqsəd üçün istifadə edir.

133. Farslarda hər kəsin anadan olduğu gün ən böyük bayram sayılır. Onlar başqa günlərə nisbətən həmin gün daha bol süfrə açırlar. Varlı adamlar süfrəyə sobada qızardılmış bütöv buğa, at, dəvə, hətta qulan cəmdəyi düzürlər, kasıb adamlar isə süfrəyə ancaq kiçik buynuzlu heyvan başı qoyurlar. Onların nahar təamları çox deyil, amma dalbadal gen-bol çərəz verirlər. Buna görə də farslar inanırlar ki, ellinlər süfrədən ac qalxırlar, çünki onlar nahardan sonra bir dənə də dəyərli yemək vermirlər. Əgər ellinlərdə süfrəyə çərəz verilsəydi, onda onlar elə hey yeyərdilər... Farslar şərabın böyük həvəskarıdırlar. Başqa adamların yanında sifraq eləmək və işəmək farslarda adət deyil. Farslar bu adətlərə ciddi riayət

downloaded from KitabYurdu.org

edirlər. Onlar ən mühüm işləri, adətən, şərab içən zaman müzakirə edirlər. Belə bir yığıncaqda qəbul olunmuş qərarı ertəsi gün yığışdıqları evin sahibi (təsdiq üçün) qonaqlara ayıq vəziyyətdə yenidən təklif edir. Əgər onlar ayıq vəziyyətdə də bu qərarı bəyənirlərsə, onda onu həyata keçirirlər və əksinə, onlar ayıq halda çıxarılmış qərarı bir də xumar vəziyyətdə müzakirə edirlər.

134. Küçədə iki farsa rast gələndə onların eyni ictimai mövqedə olub olmadıqlarını salamlaşmalarından başa düşmək olar. Onların ictimai mövqeyi eynidirsə, salamlaşmaq əvəzinə dodaq-dodağa öpüşərlər. Biri o birindən azacıq aşağı mövqedədirsə, onda bir-birinin yanağından öpərlər. Əgər biri o birindən xeyli aşağı mövqedədirsə, onda aşağı mövqe tutan yüksək mövqelinin qarşısında diz çöküb, baş əyər. Farslarda, (şübhəsiz ki, özlərindən sonra) ən yaxın qonşu xalqlar, ondan sonra qismən uzaq qonşular daha çox şərəfli sayılırlar. Sonra da daha uzaq qonşu xalqlar uzaqlığından asılı olaraq hörmətlə qarşılanırlar. Farslarda, onlardan çox uzaq olan xalqlara az hörmət edilir. Özlərinin fikrincə, onlar dünyanın bütün adamlarından hər cəhətdən xeyli üstündürlər. Onlar qalan adamları farslara yaxın-uzaqlığına görə şərəfli hesab edirlər: farslar başqalarına nisbətən daha uzaqda yaşayanları yaramaz adamlar sayırlar. Midiyalıların hakimiyyəti zamanı da bir xalq o birinin üstündə hakim idi, midiyalılar isə bütün xalqların, eləcə də, özlərinin ən yaxın qonşularının üstündə hakim idilər; bu axırıncılar da öz qonşularının hakimi sayılırdılar və s. Farslar da xalqları (indi) belə qiymətləndirirlər. Axı, bu xalq öz təsirini əvvəlcə bilavasitə, sonra başqa xalqların vasitəsi ilə yaymışdır.

135. Farslar əcnəbi adətlərini götürməyə hamıdan daha çox meyllidirlər. Axı, onlar hətta midiyalıların geyimini geyərək, onu öz paltarlarından daha yaxşı hesab edirlər, müharibədə isə Misir əsləhələri geyinirlər. Farslar hər cür nəşə və ləzzət gördükcə ona suyulurlar. Belə ki, onlar oğlanlarla aşiqanə əlaqəni ellinlərdən götürmüşlər. Hər farsın çoxlu qanuni arvadı var, hələ bundan başqa çoxlu kənizlər də saxlayırlar.

136. Farslarda əsas şərəf igidlikdir. Hərbi rəşadətdən sonra mümkün qədər çox oğlu olmaq şərəf sayılır. Kimin çox oğlu olursa, şah ona hər il hədiyyələr göndərir. Axı, onlar say çoxluğuna mühüm əhəmiyyət verirlər. Beş yaşlı uşaqlardan başlamış 20 yaşa qədər onlara üçcə şey öyrədirlər: at sürmək, kamandan ox atmaq və doğruçuluq. Beş yaşına çatana qədər uşağı atasına göstərmirlər - uşaq qadınlar arasında olur. Ona görə belə edirlər ki, uşaq kiçik yaşlarında ölsə, ata kədərlənməsin.

137. Mən bu adəti bəyənirəm və həmçinin bunu da tərifləyirəm ki, onlarda hətta hökmdarın özü belə adamı müəyyən bir günahına görə edam etmək hüququna malik deyil, ümumən, farslarda heç kəs öz nökərini tək-tək cinayətinə görə öldürə bilməz. Əgər ağa dərindən düşünüb, nökərin göstərdiyi xidmətə nisbətən daha ağır cinayət törətdiyini müəyyən edərsə, onda öz qəzəbini onun üstünə tökə bilər. Farsların iqrarına görə onlarda doğma ata və ya ananı öldürmək hadisəsi olmamışdır. Onların dediyinə görə, hər belə hadisəyə diqqətlə baxılanda bu işin qanunsuz doğulmuş, yaxud atılmış uşaqların əlindən çıxdığı müəyyənləşmişdir. Onlar deyirlər ki, atanı yalnız bic oğul öldürə bilər.

138. Farslar onlara qadağan olunmuş şeyləri heç dillərinə belə gətirmirlər. Onlarda yalan danışmaqdan və borc almaqdan da rüsvayçı şey yoxdur. Onların fikrincə borc almaq bir çox səbəbə görə, xüsusən də ona görə rüsvayçılıqdır ki, borclu istər-istəməz yalan danışmalıdır. Şəhərlilərdən kim cüzam xəstəliyi və ya ağ dəmrov tutubsa o, şəhərə çıxmır və başqa farslarla əlaqəyə girmir. Farslar bu xəstəliyi insanın Günəşə münasibətdə bu və ya başqa günahı ilə bağlayırlar. Bu xəstəliyə tutulmuş hər hansı əcnəbini onlar öz ölkələrindən qovurlar. Bu səbəbdən çoxları ağ göyərçinləri qırırlar. Farslar axar suya (çaya) işəmir və tüpürmürlər, nə özləri əllərini çayda yuyurlar, nə də özgələrinə icazə verirlər. Farslar, ümumən, çaylara dərin sitayiş edirlər.

139. Farslarda özlərinin hiss etmədikləri, amma bizim üçün, şübhəsiz ki, aydın olan bax belə bir özünəməxsus xüsusiyyətlə qarşılaşırıq: Mənasına görə fiziki qüvvəyə və əzəmətə uyğun gələn xüsusi adların hamısı eyni hərflə qurtarır ki, dorilər buna san, ionlar isə siqma deyirlər. Nəinki bəzi adlar, bəlkə istinasız olaraq bütün adlar bu hərflə qurtarır ki, yaxından gözdən keçiriləndə bunu üzə çıxartmaq olar.

140. Mən farslar haqqındakı bu məlumatı, şəksiz, doğru məlumat kimi xəbər verə bilərəm. Əksinə, farslar dəfn mərasimləri və adətləri barədə məlumatı bir sirr kimi danışırlar. Ancaq üstüörtülü deyilir ki, farsın cəsədini yırtıcı quşlar və itlər didib-parçalayandan sonra dəfn edirlər. Bununla belə, mən bilirəm ki, bu adəti, həqiqətən, mağlar yerinə yetirirlər. Axı, onlar bunu aşkar edirlər. Hər halda, farslar ölünün cənazəsini muma tutub torpağa basdırırlar. Mağlar (tək özlərinin adətlərinə görə) başqa adamlardan, xüsusən, Misir kahinlərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Misir kahinləri özlərinin mərasim paklığını onda görürlər ki, onlar qurban heyvanlarından başqa bir dənə də canlı varlıq öldürmürlər. Mağlar isə insandan və itdən başqa bütün heyvanları şəxsən özləri öldürürlər. Onlar hətta qarışqaları, ilanları, (zərərli) sürünənləri və uçan heyvanları öldürməyi böyük xidmət sayırlar. Bununla belə, qoy bu adət əzəldən necə varsa, eləcə də qalsın, mən də özümün əvvəlki hekayətimə qayıdım.

141. Farslar Midiyanı istila edən kimi ionlar və eolilər Sardaya, Kuruşun hüzuruna elçilər göndərdilər. Onlar elçilərə tapşırdılar ki, Krezlə bağlanmış əvvəlki şərtlər əsasında Kuruşa tabe olmaq istədiklərini bildirsinlər. Kuruş onların təklifinə qulaq asıb belə bir təmsil danışır: "Bir fleytaçalan dənizdə balıq görüb, onun quruya çıxacağı ümidi ilə fleyta çalmağa başlayır. Amma ümidində yanıldığını görüb tor atır və çoxlu balıq tutub sahilə çıxarır. Balıqların torda çabaladıqlarını görüb deyir: "Daha dayandırın rəqsinizi! Axı, siz heç mənim fleytamın səsinə çıxıb sahildə rəqs etmək istəmirdiniz!" Bu təmsili ionlara və eolilərə, əlbəttə, ona görə danışıb ki, onlar Krezdən ayrılmaq barədə Kuruşun təklifini əvvəllər rədd etmişdilər, amma indi hər şey bitəndən sonra Kuruşa tabe olmağa hazır olduqlarını bildirirdilər. Qəzəblənmiş Kuruşun cavabı belə imiş. Bu xəbər İoniya şəhərlərinə çatanda ionlar hər şəhərə hasar çəkmişlər və miletlilərdən başqa hamı Panioniyə toplaşmışdı (axı, Kuruş təkcə miletlilərlə Midiya hökmdarı dövründəki şərtlər əsasında ittifaq bağlamışdı). Qalan ionlar Spartadan kömək xahiş etmək üçün elçilər göndərmək haqqında yekdilliklə qərara gəlmişdilər.

downloaded from KitabYurdu.org

142. Panioniyanın da sakinləri olan həmin bu ionlar, mənim bildiyimə görə, gözəl göylər altında və iqliminə görə dünyanın ən bərəkətli ölkəsində özlərinə şəhərlər salmışlar. Nə materikin daxilindəki sahələr, nə də sahil torpaqları (şərq və qərb tərəfdə) İoniya ilə müqayisəyə gələ bilməz. Materikin daxilindəki sahələr soyuqdan və rütubətdən, sahilboyu yerlər isə istidən və quraqlıqdan əzab çəkirlər. İonlar bir dildə deyil, dörd müxtəlif ləhcədə danışırlar. Daha çox cənub istiqamətində yerləşən Milletdir, sonra Miunt və Priena gəlir. Bu şəhərlər Kariyadadırlar, onların əhalisi bir dildə danışır. O biri şəhərlər, əksinə, Lidiyada yerləşir: bunlar Efos, Kolofon, Lebed, Teos, Klazomena, Fokeyadan ibarətdir. (Bu şəhərlərdə) də ümumi ləhcədə, amma yuxarıda adları çəkilən şəhərlərin ləhcəsindən fərqli bir ləhcədə danışırlar. Bunlardan başqa, daha üç İoniya şəhəri vardır: onlardan ikisi-Samos və Xios ada şəhəridir, biri isə - Erifra - materikdədir. Xioslular və erifralılar bir ləhcədə, samoslular isə özlərinin xüsusi ləhcəsində danışırlar. Dörd ion ləhcəsi bunlardır.

143. Beləliklə, miletlilərin bu İoniya şəhərlərindən heç bir qorxusu yox idi, çünki onlar Kuruşla ittifaq bağlamışdılar. Lakin adalarda yaşayanları da (birbaşa) təhlükə təhdid etmirdi: axı, farslar hələ finikiyalıları təslim etməmişdilər, özləri isə dənizçi deyildilər. Bu (Asiya) ionları qalan ionlardan ayrılmışdılar, çünki ion tayfaları, ümumən, o vaxt hələ zəif olan ellin xalqı içərisində ən zəif, əhəmiyyətsiz tayfalar idi. Afinadan başqa, ümumən, bir dənə də mühüm İoniya şəhəri mövcud deyildi. Ona görə də digər ionlar kimi, afinalılar da "ionlar" adlanmaq istəməyib bu addan çəkinirdilər. Belə düşünürəm ki, hətta indi də bu addan utanırlar. Amma o biri on iki (Asiya) şəhəri isə, əksinə, öz adları ilə fəxr edirlər. Onlar ümumi ibadətgah tikib, onu Panioni adlandırmışlar və başqa ionları oraya buraxmamağa qərar vermişlər. (Smirnalılardan başqa bu barədə, əlbəttə, heç kəs xahiş etməyib də).

144. İndiki beş şəhərli (əvvəllər altı şəhərli adlanırdı) bölgədəki dorilər də eyni cür hərəkət edərək, nəinki qonşu doriləri, hətta öz vətəndaşları içərisində məbədə ehtiramsızlıq edənləri də Triopi ibadətgahında (dini mərasimlərdə) iştirak etməyə qoymurdular. Onlar Triopi Apollonu şərəfinə yarışlarda lap qədimdən misdən qayrılmış üçayaq mükafatı verirdilər. Lakin qaliblər bu üçayaqları aparmayaraq ibadətgah allahına nəzir verməli idilər. Necə olursa, bir dəfə qələbə qazanan Aqasikl adında bir halikarnaslı bu adətə məhəl qoymayaraq üçayağı evinə aparıb divara çalınmış mıxdan asmışdır. Onda beş şəhər: Lind, İalis, Kamir, Kos və Klid, altıncı şəhəri- halikarnası cəzalandıraraq (dini mərasimlərdə) iştirak etməkdən uzaqlaşdırmışdır. Onlar bu şəhəri belə cəzalandırmışlar.

145. Beləliklə, ionlar on iki şəhərin əsasını qoyub, mənim düşündüyümə görə, göstərdiyim səbəb üzündən də heç kəsi öz ittifaqlarına daxil etmək istəməmişlər. Axeylər tərəfindən qovulmamışdan əvvəl, hələ Peloponnesdə yaşayanda ionların da axeylər kimi on iki şəhəri vardı. Axeylər isə indi də (Peloponnesdəki) bu on iki şəhər sahəsini əllərində saxlayırlar. Bunlardan birincisi Sikion yaxınlığında yerləşən Pellena, bunun ardınca (İtaliyadakı bir çayın da adını daşıyan və azalmaq bilməyən Krafis çayının axarında yerləşən) Egira və Egi, sonra (axeylərlə uğursuz vuruşma nəticəsində ionların qaçıb getdikləri) Bura və Helika, daha sonra (böyük Pir çayının axarındakı) Egi, Ripa, Patra, Fara və Olen, nəhayət, bütün bu şəhərlər arasında yeganə olaraq ölkənin içərilərində yerləşən Dima və Tritey. Bu on iki şəhər sahəsi axeylərə məxsusdur, amma əvvəllər ionların şəhərləri olmuşlar.

146. Elə bu səbəbə görə ionlar on iki şəhər saldılar. Bu asiyalı ionların qalan ionlardan hətta daha təmizqanlı və alicənab olduqlarını söyləmək çox ağılsızlıq olardı. Onların mühüm hissəsini Yevbeyadan köçüb gələn, amma hətta ad cəhətdən də ionlarla heç bir əlaqəsi olmayan abantlar təşkil edir. Bundan başqa, ionlar Orxomen miniləri ilə, kadmeylərlə, drioplarla, öz xalqından qopub ayrılmış fokeyalılarla, moloslarla, pelasq arkadiyalıları ilə, spidavrlı dorilərlə və daha başqa tayfalarla qarışmışlar. Özlərini ən alicənab sayan və bir başqa Afina pritaneyindən çıxıb gələn ionlar vətənə özləri ilə arvad gətirmədilər, bəlkə, valideynlərini öldürdükləri kari qadınlarına evləndilər. (Valideynlərinin) qırılması üzündən də bu kari qadınları bir adət qoyub and içdilər və bu adəti öz qızlarına ötürdülər ki, onlar da öz ərləri ilə heç vaxt bir yerdə xörək yeməsinlər və ərlərini öz adı ilə çağırmasınlar, çünki bu kişilər onların atalarını, ərlərini, uşaqlarını öldürüb, sonra özlərinə evlənmişlər. Bütün bunlar Miletdə baş vermişdir.

147. Bu İoniya şəhərlərinin bəziləri Hippolox oğlu Qlavkın törəmələri olan likiyalıları, başqaları Melanf oğlu Kodrun nəslindən olan piloslu kavkonları, nəhayət, bəziləri da həm bu, həm də o biri nəsildən özlərinə hökmdar seçmişlər. Əlbəttə, bu axırıncılar qalan ionlara nisbətən özlərinin adını daha çox saxlamışlar və məhz bunları təmizqanlı ionlar adlandırmaq olar. Hər halda, onların hamısı ionlardırlar, belə ki, mənşələri Afinadandır, özləri də Apatur47 bayramı keçirirlər. Bu bayramı efeslilərdən və kolofonlulardan başqa bütün ionlar keçirirlər. Bu axırıncılar yeganə ion şəhərləridirlər ki, orada hansı bir qətl hadisəsinə görəsə Apatur bayramı keçirilmir.

148. Panioni - ion ittifaqının Mikaledəki Helikoni Poseydonuna nəzir etdiyi müqəddəs ibadətgahdır (dağ silsiləsinin şimal tərəfində yerləşir). Mikale isə (Kiçik Asiya) materikinin qərbində, Samosun qarşısında bir burundur. İoniya şəhərlərinin camaatı Panioni adlandırdıqları bayrama yığışarlar. Bu qayda yalnız ion bayramlarına məxsus deyil. Bir də ki, bütün ellin bayramları farsların adında olan kimi bu hərflə qurtarır.

149. Bu saydıqlarım ionların şəhərləridir. Eolilərin şəhərləri isə bax, bunlardır. Kima (buna, eyni zamanda, Frikonida deyilir), Larisa, Neon Tixos, Temnos, Killa, Noti, Egiroessa (Pitana), Egei, Mirina, Hriniya. Bu on bir şəhər qədim eoli şəhərləridir. Onlardan birini-Smirnanı ionlar eolilərin əlindən almışlar. Axı, ilk vaxtlar (Asiya) materikində (ionlardakı kimi) on iki eoli şəhəri var idi. Bu eolilər İoniya ərazisindən məhsuldar, lakin eyni dərəcədə əlverişli iqlimə malik olmayan bölgələrdə yerləşmişlər.

150. Smirnaya gəldikdə, eolilər onu bax belə itirməli olmuşlar. Smirna əhalisi Kolofondakı üsyan zamanı məğlub olub ölkədən qovulmuş qaçqınlara sığınacaq vermişdi. Sonralar, şəhər əhalisi Dionisin şərəfinə şəhər hasarının bayırında bayram keçirəndə bu Kolofon qaçqınları fürsətdən istifadə edərək darvazaları bağlayıb şəhəri ələ keçirmişlər. Şəhərə köməyə gəlmiş qalan eolilər (Kolofon qaçqınları ilə) belə müqavilə bağlamalı olmuşlar ki, eolilər özlərinin ev əşyalarını ionlardan alandan sonra şəhəri buraxıb getsinlər. Sonra on bir İoniya şəhəri smirnalıları öz aralarında bölüşdürüb onlara vətəndaşlıq hüquqları vermişlər.

downloaded from KitabYurdu.org

151. İdada məskunlaşan və xüsusi qrup təşkil edən əhalidən başqa (Asiya) materikindəki eoli şəhərləri bu saydıqlarımdan ibarət olmuşdur. Adanın şəhərlərindən beşi Lesbosda yerləşir (Lesbosdakı altıncı şəhəri-Arisbanı mefimnalılar istila etmişlər. Halbuki, həmin şəhərlərin əhalisi qan qohumu olmuşlar). Şəhərlərdən biri Tenedosda, biri də "yüz adalı" deyilən yerdədir. Beləliklə, lesboslular və tenedoslular üçün (eləcə də adalardakı ionlar üçün) hələlik (farslardan) ehtiyat etməyə dəyməzdi. Qalan eoli şəhərləri birləşərək hər cəhətdən ionların arxasınca getmək qərarına gəlmişlər.

152. İon və eoli elçiləri (onlar çox tələsirdilər) Spartaya gələndə Piferm adlı Fokeya elçisini özlərinə nümayəndə seçmişlər. Piferm əyninə al qırmızı paltar geyinib ki, spartalılar onun gəldiyini eşitsələr, mümkün qədər daha çox toplaşsınlar. Sonra o, (lakedemonluların yığıncağında) uzun bir nitqlə çıxış edib kömək istəmişdir. Lakedemonlular isə ona heç qulaq asmayıb, ionlara kömək göstərməkdən imtina etmək qərarına gəlmişlər. Elçilər öz evlərinə qayıtmışlar. Lakedemonlular isə ionlara rədd cavabı vermələrinə baxmayaraq, hər halda 50 avarlı bir gəmini, mən bilən, Kuruşun ionlarla müharibəsini müşahidə etmək üçün göndərmişlər. Lakedemon gəmisi Fokeyaya çatanda spartalılar Lakrin adlı ən hörmətli adamı Sardaya göndərib, lakedemonlular adından bunu Kuruşa bildirməyi tapşırmışlar ki, onlar bir dənə də Ellin şəhərinin Kuruş tərəfindən qarət olunmasına imkan verməyəcəklər.

153. Carçının bu sözlərindən sonra, deyilənə görə, Kuruş öz məiyyətindəki ellinlərdən soruşmuşdur ki, bu lakedemonlular kimlərdir və onlar nə qədər çoxdurlar ki, belə sözlər deməyə cəsarət edirlər? Kuruş onlardan cavab alıb Sparta carçısına deyir: "Şəhərlərinin ortasında camaatın yığışması üçün müəyyən yer olan və orada bir-birini aldadıb, yalan andlar içən adamlardan qorxmuram. Əgər sağ qalaramsa, onlar ionların deyil, şəxsən öz işlərini müzakirə etməli olarlar". Kuruş bu həqarətli sözləri ona görə bütün ellinlərin üzünə çırpmışdı ki, onlar hər şeyi bazarlarda alır və satırlar (axı, farslarda bazar alveri, hətta bazar yoxdur). Bundan sonra Kuruş Sardanın idarəsini Təbəl adlı farsa, Krezin və başqa lidiyalıların qızılını saxlamağı da lidiyalı Paktiyə tapşırmışdır. Özü isə hələlik ionlara heç bir əhəmiyyət verməyərək Krezlə birlikdə Akbatanaya qayıtmışdır. Axı, Babil, Baktriya xalqı, sakalar və misirlilər Kuruşa əngəl törədirdilər. Kuruş məhz özü bu xalqlara qarşı yürüşə getmək, ionlara qarşı da başqa bir sərkərdə göndərmək fikrində idi.

154. Kuruş Sardadan gedəndən sonra Pakti Təbələ və Kuruşa qarşı üsyan qaldırıb, Sardadakı bütün qızılı götürərək dənizə tərəf hərəkət etmişdir. O, öz ətrafına muzdlu əsgərlər toplamağa və dəniz sahili boyu (şəhərləri) yürüşə qoşulmağa inandıra bilib. Sonra Pakti Sardaya hərəkət edib, qalaya sığınmış Təbəli mühasirəyə salıbdır.

155. Bu xəbəri yolda eşidən Kuruş Krezə bax, belə deyib: "Krez! Bütün bunlar nə ilə qurtaracaqdır? Görünür lidiyalılar özlərinə və özgələrinə başağrısı verməkdən əl çəkməyəcəklər. Düşünürəm ki, onları qul kimi satmaq daha yaxşı olmazmı? Atanı öldürüb, onun ömrünü uşaqlarına bağışlayan bir nəfər kimi, deyəsən, mən də ağılsız iş görmüşəm. Bax, indi mən də, lidiyalılar üçün atadan da artıq olan səni əsir apardığım halda, paytaxtı lidiyalıların özlərinin ixtiyarına qoyub gedirəm, hələ bir mənə qarşı üsyan qaldırdıqlarına görə təəccüb də edirəm!". Kuruş ürəyindəkiləri belə izhar edir. Krez də fars hökmdarının Sardanı dağıdacağından qorxuya düşərək ona belə cavab verir: "Şah! Sən tam haqlısan, amma hər halda, hər hansı səbəbdən hirslənərək nə keçmiş, nə də indiki hadisələrə görə heç bir günahı olmayan qədim şəhəri dağıtmaq da lazım deyil. Axı, keçmişin günahı mənim boynuma düşür, buna görə mən öz başımla cavab verərəm. İndiki üsyanın müqəssiri isə Paktidirki, sən özün Sardanı onun ixtiyarına vermisən, özün də indi onu cəzalandır! Lidiyalılara isə mərhəmət göstər. Onların bir də qiyam qaldırmamaları, sənin də onlardan ehtiyat etməməyin üçün belə elə: carçı göndərib onların döyüş silahı gəzdirmələrini yasaq elə və əmr ver ki, plaşın altından xiton, ayaqlarına da hündür çəkmə geyinsinlər. Bundan sonra da buyur ki, onlar uşaqlarına kifara və lira çalmağı öyrətsinlər və xırda alverlə məşğul olsunlar. Şah, onda sən görərsən ki, onlar lap tezliklə ərlikdən düşüb necə arvada dönürlər! Beləliklə də, sən heç vaxt üsyandan qorxuya düşməli olmayacaqsan".

156. Krez ona görə Kuruşa belə məsləhət vermişdi ki, o, lidiyalılar üçün bu cür qisməti qul kimi satılmaqdan üstün tutmuşdur. Krez inanırdı ki, qəti səbəb olmadan Kuruşu öz qərarından döndərmək olmaz. O, bundan da ehtiyat edirdi ki, lidiyalılar bu dəfə sərt təhlükədən qurtara bilsələr də, farslara qarşı yenidən üsyan qaldırsalar, onda məhvə məhkum edilərlər. Bununla belə, Kuruş Krezin sözlərindən çox sevindi qəzəbini cilovladı və onun məsləhətincə hərəkət edəcəyini söylədi. Bundan sonra şah midiyalı Mazaresi hüzuruna çağırmağı buyurur və Krezin məsləhətini lidiyalılara çatdırmağı ona əmr edir. Bundan başqa, Kuruş buyurur ki, lidiyalılarla birlikdə Sardanın üstünə gedənlərin hamısı qul edilsin, Paktinin özü də hökmən diri tutulub gətirilsin.

157. Kuruş bu əmrləri yol üstündəcə verib, sonra fars sərhədlərinə doğru hərəkət eləyir. Pakti də əleyhinə göndərilmiş fars qoşununun yaxınlaşdığını eşidib qorxudan Kimaya qaçır. Bu arada midiyalı Mazares fars qoşununun başında olmaqla Sardaya gedir, amma Pakti tərəfdarlarını artıq orada tapmır. O, hər şeydən əvvəl lidiyalıları Kuruşun əmrlərinə tabe olmağa məcbur edir, bunun da nəticəsində lidiyalılar özlərinin bütün həyat tərzini dəyişməli olurlar. Bundan sonra Mazares Paktini təslim etmək tələbi ilə Kima şəhərinə carçı göndərir. Kima camaatı Branxida (ibadətgahında) məsləhət üçün allaha müraciət etmək qərarına gəlirlər. Orada qədimdən qeybdən buyruq gətirən rəmmal vardı, bütün ionlar və eolilər, adətən, ona sorğular verirdilər. Bu yer də Milet bölgəsindəki Panorma limanından yuxarıda yerləşir.

158. Beləliklə, kimalılar allaha sorğu vermək üçün Branxidaya elçilər göndərirlər ki, allahı mərhəmətə gətirmək üçün Pakti ilə necə rəftar edəcəkləri haqqında buyruq eşitsinlər. Elçilər allaha sorğu verib cavab alırlar: Paktini farslara təslim etmək! Kimalılar allahın bu bəyanını eşidib, Paktini təslim etməyi qərara alırlar. Lakin, xalq bunu yerinə yetirməyə hazırlaşanda hörmətli vətəndaşlardan olan Heraklid oğlu Aristodik onları bu işdən dayandıra bildi. O, elçilərin yalan danışdığını güman edərək, bəyanın doğruluğundan şübhələndi. Nəhayət, kimalılar Pakti haqqında allaha sorğu vermək üçün başqa elçilər göndərdilər (Aristodik də onların arasında idi).

downloaded from KitabYurdu.org

159. Təzə elçilər Branxidaya gələndə Aristodik hamının adından allaha belə sualla müraciət edir: Ey tanrı! Lidiyalı Pakti farsların amansız ölüm hökmündən qurtarmaq üçün kömək xahiş etməkdən ötəri bizim üstümüzə gəlibdir. Biz isə farsların qüdrətindən qorxsaq da, onunla necə rəftar etmək haqqında, səndən aydın cavab eşitməyincə müdafiə olunmasını xahiş edən bu adamı təslim etməyə cəsarət göstərməyəcəyik". Aristodik belə sorğu verir, allah da Paktini farslara təslim etməyi buyuraraq, eyni cavabı ona bəyan edir. Onda Aristodik öz işlərini əvvəlcədən ölçüb-biçərək belə hərəkət edir: o, ibadətgahın ətrafına dolanaraq, məbəddə özlərinə sığınacaq tapan göyərçinlərin və başqa quşların yuvasını uçurmağa başlayır. Bu vaxt, deyilənə görə ibadətgahdan Aristodiki çağıran belə bir səs eşidilir: "Ey ölümlü adamların ən bədbəxti! Sən belə işə niyə can atırsan? Qurtuluş axtaranları mənim məbədimdən niyə qovursan?" Aristodik isə karıxmadan allaha etiraz edərək belə cavab verir: "Allahımız! Özün qurtuluş üçün sənə sığınanlara kömək edirsən, amma kimalılara əmr verirsən ki, onlar qurtuluş üçün yalvaranı təslim etsinlər". Allah isə belə sözlərlə ona yenə etiraz edir: "Bəli, mən belə buyururam ki, siz özünüzün mürtədliyinizə görə tezliklə qırılasınız və bundan sonra qurtuluş diləyəni təslim etmək barədə mənə bir də sorğu verməyə gəlməyəsiniz".

160. Belə bir cavabdan sonra kimalılar Paktini təslim etsələr məhv olmaq, öz yanında saxlasalar, mühasirəyə məruz qalmaq qorxusu keçirərək, onu təslim etmək istəmirlər. Buna görə də Paktini Mitilenaya göndərirlər. Mitilenalılar da Mazaresə carçı göndərib bildirirlər ki, o, Paktini təslim etmək əmri göndərsə, onda onlar ancaq müəyyən muzd almaqla onu verməyə hazır olacaqlar. Mən muzdun miqdarını dəqiq bilmirəm, çünki bu sövda baş tutmamışdır, belə ki, kimalılar mitilenalıların qəsdindən xəbər tutaraq, Lesbosa gəmi göndərib Paktini oradan Xiosa aparmışlar. Orada xioslular Paktini Afina Poliuxosun ibadətgahından zorla çıxarıb farslara təslim etmişlər. Xioslular onu Atarneylə dəyişdiklərinə görə təslim etmişlər (bu Atarney Misiyada Lesbosla qarşı-qarşıya yerləşir). Farslar Paktini ələ keçirib zindanda saxlayıblar ki, sonra Kuruşun hüzuruna aparsınlar. Lakin bundan xeyli sonra heç bircə nəfər də xioslu Atarney məhsulundan allaha nə arpa nəziri göndərmiş, nə də nəzir kökəsi bişirmişdir. Ümumən, bu torpağın yetirdiyi məhsuldan nəzir üçün daha istifadə olunmur.

161. Xioslular Paktini beləcə təslim edirlər. Mazares də bundan sonra Təbəlin mühasirəyə alınmasında iştirak edən bütün şəhərlərə qarşı yürüşə çıxır. Əvvəlcə prienalıları tabe edib, sonra bütün Meandr vadisini keçərək oranı, eləcə də Maqnesiya şəhərini bütün qoşunun qarətinə verir. Bundan sonra Mazares xəstələnir və ölür.

162. Mazaresin vəfatından sonra sərkərdə vəzifəsində onun varisi yenə də midiyalı Arpaq olur. Bu həmin Arpaqdır ki, Midiya hökmdarı Astiaq ona mürtədcəsinə ziyafət düzəltmişdi və o da Kuruşun taxta çıxmasını qurmuşdu. Kuruşun sərkərdə təyin etdiyi bu adam İoniyaya gəlir və şəhərləri torpaq bəndlərlə əhatə edərək, işğal eləməyə başlayır. O, əhalini şəhər hasarının yanına yığaraq, hasar ətrafına torpaq tökdürür və sonra hücum çəkib şəhəri alırdı. Onun hücumuna məruz qalan ilk ion şəhəri Fokeya olur.

163. Bu Fokeyanın əhalisi ellinlər arasında ilk dəfə uzaq dəniz səfərlərinə çıxmışdılar. Adriatik dənizini, Tirseniya, İberiya və Tartesi onlar kəşf etmişlər. Onlar "girdə" ticarət "gəmilərində deyil, 50 avarlı gəmilərdə üzmüşlər. Onlar Tartesdə buranın Arqanfoni adlı hökmdarı ilə dostluq əlaqəsinə girmişdilər. Bu hökmdar Tartesdə 80 il hakimiyyət sürmüş, cəmisi 120 il yaşamışdır. Bu adam fokeyalılara elə isinişibmiş ki, əvvəlcə, hətta onların İoniyadan köçüb onun ölkəsinin istədikləri yerində yerləşmələrini təklif etmişdir. Sonra da fokeyalılar bu təkliflə razılaşmayanda o, Lidiya hökmranlığının qüdrətinin gücləndiyini eşidərək, fokeyalılara pul vermişdir ki, onlar öz şəhərlərinin ətrafına hasar çəksinlər. O, pul verməkdə xəsislik göstərməyib, çünki, (Fokeyanın) ətrafındakı hasar heç də azacıq stadiya təşkil etmir, həm də bütün hasar səliqə ilə düzülmüş sal daşlardan hörülmüşdür.

164. Fokeyalılar öz şəhərlərinin ətrafına bu yolla hasar çəkmişlər. Arpaq isə öz qoşununu gətirib, şəhəri mühasirəyə almağa başlayanda fokeyalılara bunu deməyi buyurmuş ki, şəhərlilər (şaha itaət əlaməti olaraq) hasarın bircə bürcünü uçurub, bircə evi "nəzir" desələr o, təkcə bununla razı qalacaqdır. Qul həyatına nifrət edən fokeyalılar isə bildiriblər ki, məsləhətləşməyə bircə gün vaxt istəyirlər, məsləhətləşənə qədər də qoy Arpaq öz ordusunu şəhərdən kənara çəksin. Arpaq isə cavab verib ki, onların niyyətini gözəl başa düşür, bununla belə, fikirləşmək üçün onlara vaxt verir. Lakin Arpaq ordunu çəkən kimi fokeyalılar 50 avarlı gəmilərini suya salıb arvad-uşağı və bütün ev şeylərini, eləcə də allahların əkslərini, mərmər və mis heykəllərdən və şəkillərdən başqa, məbədlərdəki bütün nəzirləri gəmilərə yükləyirlər. Sonra da qalan başqa əmlakı yükləyir, özləri də göyərtəyə qalxıb Xios istiqamətini tutaraq üzüb gedirlər. Farslar Fokeyanı burada qalan əhali ilə birlikdə götürürlər.

165. Xioslular isə Enus adalarını fokeyalılara satmaq istəmirlər, çünki bu adaların ticarət mərkəzinə çevriləcəyindən, öz adalarının isə ticarət mənafeyindən məhrum ola biləcəyindən ehtiyat edirlər. Ona görə də, fokeyalılar Kirnə yola düşürlər. Axı, bu hadisələrdən iyirmi il əvvəl onlar allahın buyruğu ilə Kirndə Alaliya adında bir şəhər salmışdılar. (Arqanfoni onda artıq vəfat etmişdi). Kirnə yola düşən fokeyalılar əvvəlcə Fokeyaya dönüb, Arpaqın şəhərdə qoyduğu fars keşikçilərini qırırlar. Bundan sonra hər kəs yürüşdən qalarsa, ona dəhşətli qarğış bəyan edirlər. Sonra da bir dəmir parçasını dənizə batırıb and içirlər ki, bu dəmir dənizin üzünə qalxmamışdan əvvəl Fokeyaya qayıtmayacaqlar. Kirnə yola düşməyə hazırlıq görülən zaman vətəndaşların yarıdan çoxunu doğma şəhərin və çoxdan məskən saldıqları yerin həsrəti bürüyür. Beləliklə, onlar içdikləri andı pozaraq Fokeyaya qayıdırlar. Anda sadiq qalanlar isə Enusu tərk edib (Kirnə) gedirlər.

166. Fokeyalılar Kirnə gəlib orada əvvəlki əhali ilə birlikdə beş il yaşayırlar və allahlara ibadətgahlar ucaldırlar. (Sonralar) ətrafı qarət edib, əhalini soyduqlarına görə tirsenlilərlə karfagenlilər ittifaq bağlayıb hər biri 60 gəmidə onların üstünə müharibəyə gedirlər. Fokeyalılar da öz adamlarını 60 gəmiyə mindirib Sardon adlanan dənizdə düşmənin qabağına çıxırlar. Dəniz döyüşündə fokeyalılar bir növ Kadmey qələbəsi48 qazanırlar: 40 gəmiləri məhv olur, qalan 20 gəmi isə burunları əzildiyi üçün döyüş bacarığını itirir. Bundan sonra fokeyalılar Alaliyaya qayıdırlar. Burada onlar arvad-uşağı gəmilərə mindirir, sonra da gəmilərin tuta biləcəyi qədər əmlak yükləyərək. Kirni tərk edib Regiyə üzüb gedirlər.

downloaded from KitabYurdu.org

167. Məhv olmuş gəmilərdəki adamlara gəldikdə, onların böyük qismini karfagenlilər və tirsenlilər əsir alaraq sahilə çıxardıb daşqalaq eləyirlər. O vaxtdan etibarən agillayların bütün canlıları-istər qoyunları, iş heyvanları, istərsə adamları daşqalaq edilmiş fokeyalıların cəsədi olan yerdən keçəndə topal, şikəst, ya da iflic olur. Onda agillaylar günahlarını yumaq istəyərək, Delfə elçilər göndərirlər. Pifiya onlara elə şey buyurur ki, agillaylar onu indi də icra edirlər: onlar fokeyalılara bir qəhrəman kimi zəngin qurbanlar gətirirlər, onların şərəfinə gimnastika yarışları və at cıdırları təşkil edirlər. Bu fokeyalıların qisməti, bax, belə olmuşdur. Regiyada sığınacaq tapan o biri fokeyalılar isə oradan hərəkət edərək, Enotriya deyilən yerdə bir şəhər tuturlar ki, indi o Hiela adlanır. Onlar bu şəhərdə ona görə məskən salırlar ki, Poseydoniyadan olan bir adam onlara belə izah edibmiş: Pifiya öz bəyanında Kirn adasının məskunlaşmasını deyil, qəhrəman Kirnin buraya gəlməsini nəzərdə tutubmuş.

168. İoniyadakı Fokeyanın taleyi belə olmuşdur. Teos əhalisi də təxminən fokeyalılar kimi hərəkət etmişlər. Arpaq hasar ətrafına torpaq töküb (şəhəri) alandan sonra, bütün teoslular gəmilərə minib Frakiyaya gedirlər. Onlar oradakı Adbera şəhərində məskən salırlar. Bu şəhərin əsasını əvvəl klazomenalı Timesi qoymuşdu: o, şəhərin əsasını qoysa da, öz zəhmətinin bəhrəsindən istifadə edə bilməmişdi, çünki fokeyalılar tərəfindən qovulmuşdu. İndi, bunun əvəzinə, Abderaya teoslular keçərək Timesiyə qəhrəman kimi hörmət edirlər.

169. Bu iki İoniya şəhəri yeganə şəhərlərdir ki, qul olmağa dözməkdənsə, öz vətənini tərk etməyi üstün tutmuşlar. Miletlilərdən başqa, qalan ionlar vətənlərini tərk etmiş digər ionlar kimi, Arpaqla döyüşə girmiş və hər kəs özünün doğma şəhəri uğrunda rəşadətlə vuruşmuşdur. Lakin onlar məğlubiyyətə uğrayıb tabe olublar, onların hamısı öz yerlərində qalıb qoyulmuş xəracı ödəyiblər. Miletlilər isə, yuxarıda dediyim kimi, Kuruşun özü ilə ittifaq bağlayıb sülhü və (dincliyi) qoruyublar. Beləliklə, İoniya ikinci dəfə öz azadlığını itirmişdir. Arpaq materikdəki ionları istila etdikdən sonra adadakı ionlar da eyni qismətə düçar olmaqdan qorxaraq Kuruşa könüllü tabe olmuşlar.

170. Uğradıqları məğlubiyyətə baxmayaraq, ionlar, hər halda, Panioniyə toplaşırlar. Eşitdiyimə görə, orada prienalı Biant onlara çox xeyirli məsləhət vermişdir. İonlar bu məsləhətə əməl etmiş olsaydılar, onlar ellinlər arasında ən xoşbəxt və ən varlı olardılar. Biant onlara məsləhət görüb ki hamılıqla üzüb Sardona getsinlər, orada hamı üçün bir ümumi: şəhər salsınlar. Belə olanda onlar əsarətdən yaxa qurtarar, dünyanın ən böyük adasında yaşayaraq tərəqqiyə çatar, hətta özgə tayfaları da özlərinə tabe edə bilərdilər. Biantın sözlərinə görə onlar İoniyada qalsalar, nə vaxtsa azadlıq əldə etmək ümidini itirəcəklər. İonlara bu məsləhəti onlar artıq farslara tabe olandan sonra prienalı Biant vermişdir. Lakin əvvəllər, İoniya hələ azad olan vaxtlar, miletli Fales (mənşəcə finikiyalıdır) onlara bax, belə xeyirli məsləhət vermişdir. O, ionlara təklif etmişdir ki, məhz Teosda məşvərət üçün bir ümumi ev tiksinlər, çünki Teos İoniyanın ortasında yerləşir. Ayrı-ayrı şəhərlər isə, eyni zamanda, öz müstəqilliklərini saxlamalı idilər, amma yalnız yerli icmalar kimi. Bu iki adam ionlulara belə məsləhətlər vermişlər.

171. Arpaq İoniyanı istila edərək, ionları da özü ilə aparıb kariyalıların, kavnilərin və likiyalıların üzərinə müharibəyə gedir. Kariyalılar materikə adalardan gəlmişdilər. Onlar çox qədimlərdə Minosun hakimiyyəti altında olmuş, leleqlər adlanmış və adalarda yaşamışlar. Bununla belə, əfsanələrə görə əsrlərin dərinliklərində leleqlər Minosa heç bir xərac verməmişlər. Leleqlər, tələb olunanda, onun gəmiləri üçün yalnız avarçılar verməyə borclu idilər. Minoslular çoxlu torpaq istila edərək qalibiyyətli müharibələr apardıqları kimi, kariyalılar da o vaxtlar onlarla birlikdə dünyada ən güclü xalq olmuşlar. Kariyalılar üç şey icad eləmişlər ki, ellinlər bunları sonra onlardan götürmüşlər. Belə ki, onlar ellinlərə dəbilqəyə sultan bərkitməyi, qalxanların üstündə emblem çəkməyi öyrətmişlər və ilk dəfə olaraq, qalxana dəstə (tutacaq) düzəltmişlər (o vaxta qədər bütün xalqlar dəstəsiz qalxan gəzdirmişlər və onlardan istifadə edəndə gön sarğı vasitəsi ilə boyunlarına, sol çiyinlərinə keçirmişlər). Uzun müddətdən sonra kariyalıları yerləşdikləri adalardan dorilər və ionlar qovmuşlar və onlar müəyyən bir vasitə ilə materikə köçmüşlər. Kariyalılar haqqında kritlilər belə danışırlar. Kariyalıların özləri isə bu məlumatla razılaşmırlar, onlar özlərini materikin qədim sakinləri sayaraq, təsdiq edirlər ki, indiki adlarını lap əvvəllərdən daşımışlar. Onlar (bunu sübut etmək üçün) misiyalılara və lidiyalılara məxsus olan Milasadakı Kariya Zevsinin ibadətgahını göstərirlər, çünki bunlar da kariyalılarla qohum tayfalardılar. Axı, onların əfsanəsinə görə Lid və Mis Karın qardaşları olmuşdur. Göstərilən ibadətgah, əlbəttə, hətta kariyalılarla bir dildə danışan başqa mənşəli tayfalara yox, məhz onlara (lidiyalılarla misiyalılara) məxsus olmuşdur.

172. Kavnilərə gəldikdə, mən belə fikirləşirəm ki, onlar (materikin) qədim sakinləridirlər; bununla belə, onlar özlərini Kritdən gəlmə hesab edirlər. Bunlarınmı dili kari dilinə oxşayır, yoxsa tərsinə, kari dili kavni dilinə oxşayır, - mən bunu dəqiq həll edə bilmərəm. Adətləri cəhətdən onlar nəinki kariyalılardan, bütün başqa xalqlardan da güclü şəkildə fərqlənirlər. Belə ki, yaşıdların və yoldaşların çox nəfərlik qonaqlığa - məhz kişilərin, qadınların, uşaqların (yaşıd və dost kimi) qonaqlığa yığışması kavnilər üçün ən böyük həzzdir. Onlar öz ölkələrində yadelli allahlara məbədlər ucaltmışlar, sonra bundan peşman olub, yalnız yerli allahlara səcdə etmək qərarına gəlmişlər. O vaxtlar silah götürməyə qabil olan bütün kavnilər bu cür silahlanmışlar: nizələrini havaya (nəyəsə) sanca-sanca Kalind sərhədlərinə qədər gedərək, nizə vurduqca elə qışqırırmışlar ki, sanki yadelli allahları qovurlar.

173. Kavnilərin (qəribə) adətləri belə olmuşdur. Likiyalılar isə əvvəlcə Kritdən çıxıb gəlmişlər (qədimlərdə bütün Kriti barbarlar tutmuşdular). Kritdə Avropanın oğulları Sarpedon və Minos ali hakimiyyət üstündə küsüşdükdə Minos mübarizədə qalib gəlib, Sarpedonu tərəfdarları ilə birlikdə sürgün eləmişdir. Sürgünlər Asiyada Miliad torpağına gəlmişlər. Likiyalıların indi yaşadıqları ölkə qədimlərdə Miliad, oranın əhalisi də solimlər adlanmışdır. Nə qədər ki, onların hakimi Sarpedon idi, özlərinin Kritdən gətirdikləri termillər adını saxlayırdılar; qonşuları likiyalıları indi də o cür adlandırırlar. Qardaşı Egey tərəfindən sürgün edilmiş Pandion oğlu Lik Afinadan termillər ölkəsinə, Sarpedonun yanına gələndən sonra zaman keçdikcə onlar özlərini bunun adına görə likiyalılar adlandırmağa başlayırlar. Bununla yanaşı, onların elə bir adəti var ki, özgə heç yerdə rast gəlmək olmaz: onlar özlərini ata nəslindən gələn adla yox, ana nəslindən gələn adla fərqləndirirlər. Bir adam likiyalıdan onun əsl-nəsəbini soruşsa, o anasının adını çəkib bu ana nəsil üzrə əcdadlarını saymağa başlayar. Vətəndaşlıq hüququ olan bir qadın bir qulla yaşayarsa, onun uşaqları azad

downloaded from KitabYurdu.org

doğulmuşlar kimi qəbul olunurlar. Əksinə, ən mötəbər sayılan bir vətəndaş yadelli və ya cariyə qadın alarsa, doğulan uşaqların vətəndaşlıq hüququna ixtiyarı çatmaz.

174. Beləliklə, kariyalılar özlərinə heç bir şöhrət qazanmadan Arpaqa tabe oldular: bu vaxt nə kariyalılar, nə də onların ölkəsində yaşayan ellinlər heç bir şücaət göstərməyiblər. Orada başqa ellinlər arasında Lakedemondan köçmüş knidiyalılar da yaşayırlar. Knidiyalıların torpaq sahələri dənizə qədər uzanır və Triopi adlanır. Knidiya qismən Bibass şəhəri tərəflərdəki Xersonesdən başlayıb, əhəmiyyətsiz bir yeri nəzərə alınmazsa, tamamilə dənizlə əhatə olunmuşdur. Beləliklə, o şimalda Keramik (körfəzi), cənubda Sima və Rodos adaları yaxınlığında dənizlə həmsərhəddir. Arpaq İoniyanı işğal edəndə knidiyalılar öz torpaqlarını adaya çevirmək üçün yuxarıda xatırlanan (eni təqribən beş stadiya olan) dar torpaq zolağını qazmağa başlayıblar. Axı, knidiyalıların bütün ərazisi yarımadanın bu tərəfində yerləşir, onların qazmağa başladıqları kiçicik boğaz isə Knidiya torpağının qurtaracağındadır. Knidiyalılar burada işə başlayanda məlum olur ki, qayanı yardıqca işçilər (qopan qamqalaqlardan) yaralanırlar, xüsusən gözləri zədələnir. (Bu yaralar) birbaşa allahların fövqəladə təsirini göstərir. Knidiyalılar onlara nəyin mane olduğunu allahdan soruşmaq üçün Delfə elçilər göndərirlər. Özlərinin dediyinə görə, Pifiya da onlara üç təqtili şerlə belə bəyan verir:

Qaya parçasını zorlamayın, qazmayın
Zevs istəsəydi oranı ada edərdi.49

Belə cavab alan knidiyalılar işi dayandırırlar və Arpaq qoşun çəkib (şəhərə) yaxınlaşanda onunla döyüşməyib təslim olurlar.

175. Halikarnasın o tərəfində, ölkənin içərilərində pedasilər yaşayırlar. Onları və ya qonşularını hər dəfə bir bədbəxtlik təhdid edən kimi Afina rəmmalının (rahibənin) üzündə uzun saqqal çıxırdı. Bu, onlarda üç dəfə baş vermişdi. Həmin bu pedasilər həmin o kariyalılardan qalma yeganə adamlardılar ki, bir müddət Arpaqa müqavimət göstərib, onu xeyli əziyyətə salmışdılar. Onlar Lida adlı dağda qorunmaq üçün bir yer möhkəmlətmişdilər.

176. Bununla belə, vaxt gəldi ki, pedasilər də tabe oldular. Arpaq Ksanf çayı vadisinə girəndə likiyalılar onun qarşısına çıxıb, kiçik bölmələr şəklində böyük orduya qarşı rəşadətlə vuruşdular. Onlar məğlubiyyətə uğrayıb Ksanf şəhərinə sıxışdırıldılar. Onda likiyalılar arvadları, uşaqları, əmlakı və qulları akropola yığıb onu yandırdılar və hamını oda qurban verdilər. Bundan sonra ksanflılar dəhşətli lənətlər yağdıraraq özlərini ölümə məhkum etdilər: onlar düşmənin üzərinə atılıb, sonuncu nəfərinə qədər hamısı həlak oldu. Axı, 80 ailə istisna edilərsə, özlərini likiyalılar kimi göstərən indiki Ksanf əhalisinin əksəriyyəti gəlmələrdir. Bu 80 ailə o vaxt təsadüfən yad ölkədə olduqlarından həmin dəhşətli qismətdən yaxa qurtarmışdılar. Arpaq Ksanfı belə ələ keçirmişdir. O, Kavn şəhərini də eyni şəkildə işğal etmişdir, çünki kavnlıların əksəriyyəti də likiyalılar kimi hərəkət etmişdilər.

177. Arpaq Qabaq Asiyanın dənizkənarı torpaqlarını (şəhərlərini) talan etdiyi bir vaxtda Kuruş özü də ölkənin daxilində heç kəsin yanından ötməyərək xalqları bir-bir tabe etmişdir. Bu yürüşlərin böyük əksəriyyətinin üstündən keçib, ona daha çox başağrısı verən və xatırlanmağa layiq olan olaylar haqqında danışacağam.

178. Bütün (Asiya) materiki istila olunandan sonra Kuruş assurların üstünə gedir. Assuriyada böyük şəhərlər çoxdur, lakin hökmdar sarayı yerləşən Nin şəhəri dağıdılandan sonra ən məşhur və daha möhtəşəmi Babil olmuşdur. Babil bax belə tikilmişdir. O, dördkünc olub geniş bir düzənlikdə yerləşir, hasarının hər tərəfi 120 stadiya uzunluğundadır. Şəhərin bütün dörd tərəfinin dairəsi 480 stadiyadır. Babil çox böyük şəhər olmaqdan başqa, həm də mənim tanıdığım şəhərlər içərisində ən gözəlidir. Şəhər, hər şeydən öncə dərin, geniş və su ilə dolu xəndəklə dövrəyə alınmışdır. Sonra eni 50, hündürlüyü də 200 hökmdar dirsəyi həcmində hasar gəlir. Hökmdar dirsəyi isə adi dirsəkdən üç barmaq artıqdır.

179. Burada mən xəndəkdən çıxarılmış torpağın haraya işlədildiyini və hasarın necə tikildiyini danışmalıyam. Əvvəlcə xəndəyi qazıb qurtarmış, sonra buradan çıxan torpaqdan kərpic kəsməyə başlamışlar. İstənilən qədər çiy kərpic kəsəndən sonra da onu fırnlarda50 bişirmişlər. Tikintidə gəc əvəzinə isti ziftdən (asfaltdan) istifadə olunmuşdur. Hər otuz cərgə kərpicdən sonra araya qamışdan hörmə çəpər qoymuşlar. Bu yolla öncə xəndəyin qıraqlarını bərkidib sonra hasarı hörmüşlər. "Divarın üstündə hər iki ucda olmaq üzrə, iç tərəfə baxan və aralarından dördatlı bir arabanın rahatca dönə biləcəyi məsafə qoyub sıra halında birər oda tikmişlər. Divarın çevrəsində qapıları tuncdan düzəldilmiş yüz keçid vardır"51. Babildən səkkiz günlük yolda yerləşən İs adlı bir şəhər var. Oradan heç də böyük olmayan eyniadlı bir çay axır. O, Fərat (Yevfrat) çayına tökülür. İs çayı öz axarı boyu zift parçaları gətirir. Babil hasarının tikintisi üçün zift buradan aparılmışdır.

180. Babil hasarı bu yolla çəkilmişdir. Şəhərin özü iki hissədən ibarətdir. Başlanğıcını Ərməndən alan Fərat adlı çay onun içindən keçir. Bu böyük, dərin və sürətlə axan çay Qırmızı dənizə tökülür. Divarlar hər iki tərəfdən əyilərək çay sahilinə qədər enir. Bunlardan bir az irəlidə, bütün şəhəri dövrəyə alan və bişmiş kərpiclə tikilən bir hasar da var. Şəhər tamam uç və dörd mərtəbəli evlərdən ibarət olub, bir qismi çayın axarı boyu, bir qismi də çaya köndələn vəziyyətdə uzanan küçələrlə kəsişirlər. Köndələn küçələrin çaya çatan yerində kiçik darvazalar qoyulmuşdur. Bu qapılar da misdən qayrılıblar və çaya açılırlar.

181. Bu (daxili) divar bir növ şəhərin zirehi hesab olunur. İkinci divar birincinin içindədir; amma ondan azca alçaq, həm də xeyli dardır. Şəhərin hər iki hissəsinin ortasında binalar ucalmışdır. Hissələrin birində böyük və möhkəm divarla dövrələnmiş hökmdar sarayı, o birisində Bel Zevsinin52 mis qapılı ibadətgahı yerləşir ki, bu, zəmanəmizə qədər qalmışdır. Müqəddəs məbəd sahəsi dördkünc olub, hər tərəfinin uzunluğu 2 stadiya qədərdir. Bu müqəddəs məbəd sahəsinin ortasında uzunu və eni bir stadiya olan nəhəng qüllə ucaldılmışdır. Bu qüllənin üstündə ikinci qüllə, onun da üstündə daha bir qüllə, ümumən səkkiz qüllə üst-üstə tikilmişdir. Xaricdən qurulmuş pilləkən bütün bu qüllələrin ətrafı ilə yuxarıya qalxır. Pilləkənin ortasında, görünür, istirahət üçün kətillər qoyulmuşdur. Axırıncı qüllədə böyük məbəd ucalır. Bu məbəddə böyük, zəngin bəzədilmiş yataq, onun da yanında qızıl miz qoyulmuşdur. Lakin, orada heç bir allah

downloaded from KitabYurdu.org

şəkli yoxdur. Bu xaldey allahı kahinlərinin dediyinə görə, allahın bütün yerli qadınlar içərisindən özü üçün seçdiyi bircə qadından başqa burada heç kəs gecələmir.

182. Bu kahinlər iqrar edirlər ki, allah özü hərdən məbədə gəlib həmin yataqda gecələyir (amma mən buna inanmıram). Misirlilərin danışdıqlarına görə, guya həmin hadisə Misirdəki Fivada da olur. Oradakı Fiva Zevsi məbədində bir qadın yatır. Bu iki qadın, deyilənə görə, ölümlü kişilərlə əlaqəyə girmirlər. Bununla yanaşı, rəmmal Likiyadakı Patarada allahın gəldiyini bəyan edəndə (bu da həmişə yox, hərdən bir olur) allahın qeybdən xəbər verən kahinəsi də eyni ilə məbəddə yatır. Lakin allah gələndə kahinəni gecələr onun yanında qoyub məbədi bağlayırlar.

183. Babilin müqəddəs məbəd sahəsinin aşağısında Zevsin oturmuş vəziyyətdə qızıl heykəli qoyulmuş bir ibadətgah da var. Onun da yanında böyük qızıl miz, qızıldan tac və üstündə ayaq qoyulması üçün kətil mövcuddur. Xaldeylərin dediyinə görə, bütün bu şeylərin qayrılmasına 800 talant qızıl işlənmişdir. Bu məbədin qarşısında qızıl mehrab tikilmişdir. Orada böyük bir mehrab da var. Bu mehraba yaşlı heyvanlardan qurban gətirirlər; qızıl mehraba isə yalnız südəmər heyvanı qurban gətirmək olar. Xaldeylər bayramlar zamanı böyük mehrabda bu allahın şərəfinə hər il 1000 talant buxur yandırırlar. Haqqında söhbət gedən qədim vaxtlarda müqəddəs sahədə allahın 12 dirsək hündürlüyündə başdan-ayağa qızıldan olan heykəli varmış. Onu görmək mənə qismət olmamışdır, mən yalnız xaldeylərin danışdıqlarını xəbər verirəm. Güştəsp oğlu Dara bu heykəli ələ keçirməyi çox arzu etsə də, onu zəbt etməyə cəsarət göstərməmişdir. Lakin Daranın oğlu Kserks heykəli oğurlamışdır. O, heykəli yerindən tərpətmək üçün (divara əl vurmağa) icazə verməyən kahinəni öldürməyi əmr etmişdir. Ayrı-ayrı adamlardan da çoxlu nəzirlər gələn bu məbəd və müqəddəs sahə belə zəngin bəzənmişdir.

184. Babildə çoxlu hökmdar hakimiyyət sürmüşdür. Mən onların haqqında "Assuriya tarixi" əsərimdə danışacağam. Həmin hökmdarlar şəhər hasarını daha da möhkəmlədib, ibadətgahı da xeyli bəzəmişlər. Assur tarixində biri o birindən beş nəsil fərqlə yaşamış iki qadın hökmdar olmuşdur. Bunların birincisi olan Semiramida əvvəllər daşqın zamanı vadini ağzına götürən çayın qarşısını almaq üçün diqqətəlayiq bir bənd tikdirmişdir.

185. Nitokris adlanan ikinci qadın hökmdar öz sələfindən daha müdrik olmuş və abidələr qoyub getmişdir ki, mən bu barədə danışacağam. Bundan başqa, bu hökmdar midiyalıların gücünün böyüklüyünü, bu qüvvənin xalqı necə qorxuya saldığını, onların artıq bir çox şəhəri, (hətta Nini) istila etdiklərini görmüşdür. Ona görə də əvvəlcədən bütün ehtiyat tədbirlərini həyata keçirmək qərarına gəlmişdir. Birinci növbədə şəhərin düz ortasından keçən Fərat çayının axarını dəyişmişdir. Nitokris bunun üçün şəhərin üst tərəfində kanal qazılmasını əmr etmişdir: bunun da nəticəsində çay elə dolanbac axmışdır ki, məsələn, Assuriyanın bir kəndinin yanından üç dəfə qıvrılıb keçməli olurmuş. (Fəratın üç dəfə qıvrılıb yanından axdığı kənd Arderikka adlanır). Hələ indi də Bizim dənizimizdən Fərat boyu aşağılara, Babilə səyahət edəndə bu kəndin yanından: üç gün ərzində üç dəfə keçib getmək lazım gəlir. Nitokrisin bir xidməti budur. Bunun ardınca, onun əmrinə görə, çayın hər iki qırağınca uzunu və hündürlüyü heyrət doğuran torpaq bənd tökülmüşdür. Sonra o, Babildən xeyli yuxarıda, çayın yaxınlığında göl üçün elə dərin hövzə qazılmasına əmr vermişdir ki, bütün yeraltı sular axıb oraya dolsun. Bu hövzənin eni 420 stadiyaya çatır. Hökmdar qazılmış torpaqdan çayın bəndi üçün istifadə edilməsini buyurmuşdur. Hövzə hazır olanda hökmdar daş gətirib hövzənin qırağına daşdan üz çəkilməsini əmr etmişdir. Hökmdar bu iki işi görməklə çayı döngəli etmiş və bütün qazılan hövzəni bataqlığa çevirmişdir. O, çoxlu dirsəklər vasitəsi ilə nəinki çayın axımını yavaşıtmış, həm də Babilə gedən su yolunu daha dolanbac eləyibmiş. Bununla da çayla üzüb gələn səyyahları sonra bir də göl ətrafında quru yolla böyük bir məsafəni dolandırmaq istəmişdir. Bu işlər ölkənin Midiya tərəfdən ən kəsə keçidləri və yolları olan səmtində görülmüşdür. Bu tədbirlərdən məqsəd ticarət əlaqələri zamanı midiyalıların ölkəyə daxil olmasını gecikdirmək və onların ölkənin vəziyyətini dəqiq öyrənməsinə mane olmaqmış.

186. Hökmdar midiyalıların əleyhinə bütün bu qurğuları su hövzəsi qazılarkən yığılan torpaqla tikdirmişdir. Bundan başqa, o həmin işlərdən daha bir məqsədlə istifadə etmişdir. Ortadan axan çay şəhəri iki yerə böldüyündən əvvəlki hökmdarın vaxtında onun bir hissəsindən o birinə getmək üçün çayı qayıqla keçmək lazım gəlirdi, mən bilən, bu da əlverişli deyildi. Nitokris bunun da qayğısına qalmışdır. Göl üçün hövzə qazılanda həmin işlərdən belə bir xatirə qalmışdır. O, böyük daşların yonulmasını əmr etmişdir. Bu daşlar hazırlanıb, hövzə də qazılandan sonra Nitokris çayın bütün axarını bu hövzəyə yönəltdirmiş və hövzə dolduqca çayın əvvəlki məcrası da qurumağa başlamışdır. Bunun arxasınca Nitokris şəhər hasarının uzunluğu boyu sahilləri və çaydan hasar qapılarına gedən enişi bərkidib, şəhər divarları tikintisində üzlük çəkildiyi kimi, buralara da bişmiş kərpicdən üzlük çəkməyi əmr etmişdir. Sonra da təxminən şəhərin ortasında yonulmuş daşlardan körpü salmağı buyurmuşdur (daşlar dəmir və qurğuşun vasitəsi ilə bir-birinə bərkidilmişdir). Gündüzlər körpünün üstünə taxta sallayırlarmış ki, (babillilər çaydan keçə bilsinlər, gecələr bu taxtalar götürülürmüş ki, adamlar bu sahildən o sahilə veyllənməsinlər və bir-birini qarət etməsinlər. Körpü tikiləndən sonra hökmdar Fəratın axarını göldən ayırıb əvvəlki məcrasına döndərməyi buyurmuşdur. Beləliklə, göl, əvvəlcədən nəzərdə tutulduğu kimi bataqlığa çevrilmiş və bundan əlavə şəhərlilər üçün körpü salınmışdır.

187. Bu hökmdar qadın bir kələk işlədərək öz xələflərini bax belə aldatmışdır.O, şəhərin ən tünlük yerindəki darvazalar üstündə özünə türbə tikməyi, onun da üstündə bu məzmunda yazı həkk etməyi əmr etmişdir: "Məndən sonrakı hər hansı Babil hökmdarı pula ehtiyac duysa, qoy bu türbəni açsın və istədiyi qədər pul götürsün, amma ehtiyac olmadan qoy onu açmasın. Daha yaxşı olar ki, (türbə) heç açılmasın". Babildə hökmranlıq Daraya keçənə qədər bu türbəyə toxunulmamışdır. (Darvazalar üstündəki) bu türbədə xəzinələr yerləşdiyi, hələ üstəlik, xəzinəni ələ keçirmək üçün babillilərin özləri şahı dəvət etdikləri halda Dara onu indiyə qədər niyə ələ keçirmədiyinə təəccüblənmişdir. Bununla belə, şah bu darvazadan ona görə keçib, xəzinəyə girmək istəməmişdi ki, o, gərək türbədəki meyitin altından keçib gedəydi. Amma elə ki, şah türbəni açmalı olur, onda orada meyitdən və belə bir yazıdan başqa heç bir xəzinə tapmır: "Əgər sən bu qədər tamahkar olmasaydın, ölülər türbəsini qarət etməzdin". Bu türbə haqqında bax, belə şeylər danışırlar.

downloaded from KitabYurdu.org

188. Kuruş bu qadının oğlunun əleyhinə müharibəyə gedir (atası kimi, o da Labinet adlanırdı və Assuriyanın hökmdarı olmuşdur). Şahənşah hər dəfə hərbi yürüşə çıxmağa hazırlaşanda bol taxıl və xırda heyvan ehtiyatı tutar, bundan əlavə, Susdan axan Xoasp çayının suyundan da özü ilə götürərmiş (o, yalnız bu çayın suyundan içərmiş). Şah haraya yürüş eləsə, Xoasp çayının qaynadılmış suyu ilə dolu gümüş qablar da qatır qoşulmuş dördtəkərli arabalarda həmişə onun arxasınca aparılarmış.

189. Kuruş Babilə hərəkət edib Gind (sonrakı Diyala) çayına çatır. Bu çay mənbəyini Matyeena dağlarından alıb, dardanlar torpağından axaraq başqa bir çaya-Dəcləyə (Tiqrə) tökülür.

Dəclə çayı isə Opida şəhərinin yanından keçib Qırmızı dənizə tökülür. Kuruş gəmi yolu olan bu Gind çayına keçmək istəyəndə onun müqəddəs ağ atlarından biri harınlığı üzündən çaya atılır. At çayda batır və axıb gedir. Kuruş çaya o qədər qəzəblənir ki, onu bu kəcliyinə görə arvadların belə dizlərini islatmadan keçə biləcəkləri xırda hissələrə böldürür. Belə təhlükədən sonra Kuruş Babilə yürüşü hələlik təxirə salır. Şah qoşunu iki hissəyə bölərək hər iki sahil boyu çaya doğru gedən ox kimi düz arx üçün cızıq çəkdirir. Sonra, əsgərləri cərgəyə düzüb arx qazmaq əmri verir. İşçilərin çoxluğu sayəsində arxlar tez başa gəlir, amma, hər halda, bütün yay ayları buna sərf olunur.

190. Kuruş Gindi 360 kanala bölərək çayı beləcə ram edir. Yaz yenidən gələndə şah Babilə yürüş eləyir. Babillilər şəhərdən çıxıb Kuruşu gözləyirlər. Şah şəhərə yaxınlaşanda babillilər döyüşə atılırlar. Lakin məğlubiyyətə uğrayıb şəhərə sıxışdırılırlar. Babillilər əvvəlcədən bilirdilər ki, Kuruş indi farağat durmayacaq: axı bir-birinin ardınca neçə xalqa hücum etdiyini görmüşdülər. Buna görə də bir çox illər üçün ehtiyat gördüklərindən mühasirəyə qəti əhəmiyyət vermirlər. Bu vaxt Kuruşun özü çətin vəziyyətə düşür, çünki xeyli vaxt keçməsinə baxmayaraq mühasirədə heç bir irəliləyiş görünmür.

191. Nəhayət, çətinlikdən çıxmaq üçün ona özgəsimi məsləhət verir, yoxsa necə hərəkət etmək lazım olduğunu özümü başa düşür, nədənsə, belə bir iş görür: O, qoşunun bir hissəsini çayın şəhərə girən yerində, bir hissəsini də şəhərdən çıxan yerində qoyur. Bundan sonra döyüşçülərə əmr edir ki, çayın keçilə biləcək qədər dayazlaşdığını görən kimi məcra boyu şəhərə doğru hərəkət etsinlər. Sonra da özü qoşunun qeyri-nizami hissəsi ilə birlikdə geri çəkilir. Kuruş yuxarıda xatırladılan gölə çatanda vaxtı ilə Babil hökmdarı çayla əlaqədar nə iş görmüşdüsə, o da təxminən buna oxşar bir iş tutur. Fars şahı çayı kanal vasitəsi ilə əslində bataqlıqdan ibarət olan gölə döndərir. Beləliklə də köhnə məcra dayazlaşıb keçilməli olur. Çayın suyu təxminən dizə qədər azalanda farslar köhnə məcra ilə Babilə girirlər. Əgər babillilər Kuruşun niyyətini əvvəlcədən bilsəydilər, ya da onun hərəkətini vaxtında görsəydilər, onda, əlbəttə, farsların nəinki şəhərə soxulmasına imkan verməzdilər, hətta düşməni tamam məhv edərdilər. Axı, onlar sadəcə olaraq, çaya açılan bütün darvazaları bağlayar, hər iki sahil hasarının üstünə çıxıb farsları tələyə düşmüş adamlar kimi tutardılar. Halbuki farslar Babilə qəflətən hücum etmişdilər. Babil isə elə böyük şəhərdir ki, oranın adamlarının danışığına görə, mərkəzdə yaşayan şəhərlilər farsların kənarları tutmalarından xəbərsiz qalmışlarmış. Bu vaxt onlar (özlərinin dəhşətli vəziyyətini əməlli-başlı bilənə qədər) bayram münasibəti ilə oynayıb şadlıq keçirirlərmiş. Babil o vaxt ilk dəfə belə alınmışdır.

192. Babilin nə qədər böyük sərvəti olduğunu mən bir çox nümunələr əsasında göstərə bilərəm, lakin aşağıdakılarla kifayətlənirəm. Şahənşaha tabe olan bütün ölkə adi vergidən başqa, şahı və onun ordusunu saxlamağa borclu idi. Beləliklə, ilin on iki ayının dörd ayında Babil torpağı, qalan səkkiz ayda isə bütün Asiya şaha ərzaq tədarükü görür. Bu ölkədə farsların satraplıq adlandırdıqları sərdarlıq, şübhəsiz, bütün canişinliklərdən daha gəlirli olmuşdur. Şahın bu bölgəni idarə işinə təyin etdiyi Artabaz oğlu Tritəntəhm oradan hər gün bütün bir artaba gümüş toplamışdır (fars ölçüsü olan artaba I Attika medimni və 3 Attika xeniki qədərdir). Tritəntəhmin özünün döyüş atlarından başqa 800 ayğırı, 16000 madyanı vardı (hər ayğır 20 madyanla cütləşirdi). O, həm də hind cinsindən o qədər it saxlayıb ki, düzənlikdə yerləşmiş dörd böyük kənd bu itlərə yem gətirməli olmuşdular və buna görə də onlar başqa vergilərdən azad edilmişdilər. Babil hökmdarı belə varlı olmuşdur.

193. Assuriya torpağına az yağış yağır, lakin elə bu azacıq yağış da dənli bitkilərin cücərməsi və böyüməsi üçün onların kökünə bəs edir. Əkinlər həm də, çay suyu ilə suvarılır, dənli bitkilər göyərir və böyüyür. Lakin Misirdə olduğu kimi, burada da çay qalxıb zəmiləri basmır, suvarma işi su götürən qurğular (mancanaqlar) sayəsində əllə görülür. Bütün Babil torpağı da Misir kimi kanallarla qazıq-qazıq edilmişdir. Bu kanalların ən böyüyü gəmi hərəkəti üçün əlverişlidir: bu kanal Fəratdan cənub-şərq istiqamətində sahilində Nin şəhəri yerləşən o biri çaya-Dəcləyə (Tiqrə) tökülür. Dünyanın tanıdığım bütün ölkələrinə nisbətən bu torpaq, şübhəsiz, ən yaxşı Demetra nemətləri yetirir. Bunun əksinə, orada meyvə ağacları-nə əncir, nə üzüm meynəsi, nə də zeytun bitmir. Demetra meyvəsinə gəldikdə, torpaq bu meyvədən o qədər bol yetirir ki, burada məhsul, ümumən, iki yüz qat (yaxşı gələn illərdə), hətta, üç yüz qat olur. Buğda və arpa saçaqları tam dörd barmaq eninə gəlib çatır. Darı və küncüt orada ağac hündürlüyündə olur. Bunu mən yaxşı bilirəm, amma bu barədə danışmayacağam. Müxtəlif taxıl bitkilərinin məhsuldarlığı barədə söyləyəcəklərimin Babildə olmayan adamlarda necə inamsızlıq doğuracağını bilirəm. Babillilər əlif yağını heç işlətmirlər, ancaq küncüt yağından istifadə edirlər. Oranın bütün düzənliklərində bol məhsul verən xurma ağacları bitir. Xurma ağacı meyvəsindən çörək, çaxır və bal hazırlayırlar. Babillilər xurma ağacını da eyni ilə əncir ağaclarının bəslənildiyi üsulla bəsləyirlər. Onlar ellinlərin "erkək" adlandırdıqları xurma ağacı çiliyini bar verən ağaca calayırlar ki, onun yetişməsinə və vaxtından əvvəl tökülməməsinə kömək etsin. Axı, qış əncirlərindəki kimi tumtörədənlər "erkək" xurma toxumunun üstündə olur.

194. İndi mən (Babil şəhərinin özündən başqa) bu ölkədə olan ən heyrətamiz şeylərdən söhbət açacağam. Çayla aşağıya, Babilə üzüb gələn yük gəmiləri girdə olub tamam göndən qayrılır. Assuriyadan yuxarıda yerləşən Ərməndə babillilər gəminin gövdəsi üçün söyüd çubuqları kəsirlər. Gəminin (girdə) dibinə ona oxşar şəkildə girdə gön çəkdikləri kimi, gəmi (gövdəsinin) bayırına da tarım gön çəkirlər. Onlar gəminin nə göyərtə hissəsini genişləndirirlər, nə də burnunu iti edirlər, bəlkə qalxan sayağı dəyirmi gəmi qayırırlar. Sonra (yükü bürümək üçün) gəmini küləşlə doldururlar və yükləyib suyun axarı ilə aşağılara üzüb getmək üçün onu çaya salırlar. Çay vasitəsi ilə aşağıya, əsasən, gil qablarda

downloaded from KitabYurdu.org

Finikiya çaxırı daşıyırlar. Gəmini ayaq üstə durmuş iki adam iki avar çəkməklə idarə edir. Onlardan biri gəmini avarla özünə tərəf çəkir, o birisi avara dirənərək gəmini qabağa itələyir. Belə gəmiləri çox böyük həcmdə də qayırırlar, kiçik həcmdə də. Ən böyük gəmilər 5000 talanta qədər yük götürür. Hər yük gəmisində diri eşşək, daha iri gəmilərdə bir neçə eşşək olur. Tacirlər Babilə çataraq öz mallarını sathasata başlayırlar. Açıq satışdan sonra (hörülmüş) gəmi gövdəsini də, bütün kövşəni də boşaldırlar. Sonra da dəriləri eşşəklərə yükləyib Ərmənə qayıdırlar. Axı, suyun sürətli axımına görə çay yuxarı üzmək qətiyyən mümkün olmur. Ona görə də, gəmiləri ağacdan deyil, dəridən qayırırlar. Tacirlər öz eşşəklərinə minib Ərmənə çatandan sonra, dediyimiz tərzdə təzə gəmilər düzəldirlər. Onların çay gəmiləri belə olur.

195. Babillilərin geyimləri isə bax belədir. Babillilər (əyinlərinə) ayağa qədər uzanan kətan xiton, onun da üstündən yun xiton geyinirlər. Bunların üstündən bir də nazik ağ xlanida salırlar. Ayaqqabıları (bu ölkədə) hamının qəbul etdiyi və Beotiya çəkmələrinə oxşar ayaqqabılardır, Babillilər saçlarını uzadaraq, başlarına çalma dolayırlar və bütün bədənlərinə ətirli qətran sürtürlər. Hər bir babillinin möhürlü üzüyü və məharətlə işlənmiş əsası var. Hər əsada alma, qızıl gül, zanbaq, qartal və ya başqa bir şey oyulmuşdur. Belə şəkilli oyması olmayan əsa gəzdirmək onlarda dəb deyil. Babillilərin zahiri siması belədir. Onların adətləri barədə mən bax bunları deməliyəm.

196. Bildiyimə görə, eyni zamanda, İlliriya enetlərində də olan və mənim fikrimcə, ən ağıllı sayılan adətləri bax bunlardan ibarətdir. İldə bir dəfə hər kənddə adətən belə edirlər: ərgən yaşına çatmış bütün qızları dəvət edib bir yerə yığarlar. Onları gənc oğlanlar əhatə edər, carçı isə hər qızı bir-bir qabağa durmağa məcbur edər, sonra gəlin satışı başlanar. Əvvəlcə hamıdan gözəl qızı satışa qoyarlar. Onu böyük məbləğə satandan sonra, (qızlar rəsmi ər üçün satılarlar), carçı yerdə qalan qızlardan yenə də ən gözəlini çağırar. Çox varlı olan Babil oğlanları bir-birinin sözünü kəsərək qiyməti artırar və daha gözəl qızlar alarlar. Sadə camaat içindən çıxıb, gözəlliyə o qədər də qiymət qoymayan oğlanlar isə gözəl olmayan qızları, üstəlik də pul alarlar. Ən gözəl qızlar satılandan sonra carçı ən kifir, ya da şikəst qızın ayağa durmasını buyurar və onu üstündə ən az pul verilmək şərti ilə özünə arvad etməyi oğlanlara təklif edər və buna qane olan adam ortalığa çıxana qədər təklifi davam etdirər. Belə qızların üstündə verilən əlavə pul gözəl qızların satışından yığılan puldan ödənilərdi, beləliklə də gözəl qızlar çirkin və şikəst qızları ərə verərdilər. Hər kəsin öz qızını istədiyi adama ərə verməsi qadağan idi və eləcə də satın alınmış qızı onu təhvil verən adamsız evə aparmaq olmazdı. Təhvil verən adam qız almış oğlanın onunla həqiqətən yaşamaq istədiyini müəyyənləşdirəndən sonra qızı evə aparmaq olardı. Əgər kim aldığı qızla uyğunlaşmasaymış qanuna görə pulu geri qaytarmaq tələb olunarmış. Eyni zamanda, qonşu kəndlərdən də nişanlı oğlanların gəlməsinə və qız almasına icazə verilərdi. Bu çox gözəl adət onlarda indi yaşamır. Bunun əvəzində onlar qızları haqsızlıqdan qorumaq və onları qürbətə aparmağın qarşısını almaq üçün başqa vasitə tapmışlar. Ölkə farslar tərəfindən işğal olunub, sərvəti talan ediləndən sonra əhali öz əmlakından məhrum olur, xalqın qalan bütün sadə adamları isə yoxsuluq üzündən öz qızlarını pozğunluqla məşğul olmağa məcbur etməyə başlayırlar.

197. Babillilərdə çox ağıllı bir adət də var. Hər hansı bir xəstəlikdən əzab çəkən adamı onlar bazara çıxarırlar (axı, onlarda həkim yoxdur). Bazardan keçib gedənlərdən (hər kəs özü bu xəstəliyi keçiribsə, ya da onu başqalarında görübsə, xəstəlik barədə) ona məsləhətlər verirlər. Sonra bu adamlar özlərinin həmin xəstəlikdən necə sağaldıqlarını, yaxud gördükləri xəstələrin necə sağaldıqlarını izah edirlər. Onlarda xəstənin yanından səssiz-səmirsiz ötüb getmək qadağan olunmuşdur: hər kəs onun xəstəliyini soruşmalıdır.

198. Babillilər ölülərini bala batırıb dəfn edirlər; onların dəfn mərasimi misirlilərin mərasiminin eynidir. Hər babilli öz arvadı ilə əlaqədə olandan sonra (tanrıya) mədh duası oxuyaraq nəzir qabının qarşısında oturur, onun arvadı da belə edir. Səhər onlar dəstəmaz alırlar. Dəstəmazdan əvvəl heç bir qaba toxunmamalıdırlar. Belə bir adət ərəblərdə də vardır.

199. Babillilərin ən rüsvayçı adəti bax belədir. Hər bir babilli qadın ömründə bir dəfə gərək Afrodita ibadətgahında otursun və (pul üçün) yadelli kişiyə təslim olsun. Sərvətləri ilə məğrur olan bir çox qadınlar başqa qadınlar kütləsinə qarışmağı ləyaqətsizlik sayırlar. Onlar çoxlu nökərin müşayiəti ilə üstüörtülü arabalarda gəlib ibadətgahın yanında dayanırlar. Qadınların əksəriyyəti bax belə edir: başlarında kəndirdən burma qaytan olan çoxlu qadın Afroditanın müqəddəs sahəsində oturur. Onların bəziləri gələndə, o biriləri gedir. Bütün sahədə dəstə-dəstə düzülmüş qadınların arasından müxtəlif istiqamətdə yollar ayrılır. Yadelli kişilər bu yollarla gedərək özlərinə qadın seçirlər. Yadelli kişi burada oturan qadının ətəyinə pul atıb onunla müqəddəs sahədən kənar bir yerdə cütləşməyincə o qadın evə qayıda bilməz. Qadının ətəyinə pul atan kişi ancaq bunu deməlidir ki, "Səni Militta allahına xidmət göstərməyə çağırıram!" Assurlar Afroditaya Militta deyirlər. Haqq istənilən qədər azacıq ola bilər. Qadına puldan imtina etmək ixtiyarı verilmir, çünki bu pullar müqəddəsdirlər. Qadın onun ətəyinə pul atan ilk kişi ilə mütləq getməlidir. O, əlaqəyə girəndən sonra ilahəyə müqəddəs borcunu yerinə yetirib evinə gedir və bundan sonra onu pulla heç cür ələ gətirmək olmur. Gözəllər və əndamlı qızlar evə tez gedirlər, çirkinlər isə adəti yerinə yetirənə qədər çox gözləməli olurlar. Hətta bəziləri üç-dörd il ibadətgahda qalmağa məcbur olurlar. Belə bir adət Kiprin bəzi yerlərində də vardır.

200. Babillilərin adətləri bu cürdür. Onların içərisində ancaq balıq yeyən üç tayfa var. Onlar balığı tutub gün altında qurudaraq yemək üçün belə hazırlayırlar: balığı həvəngdəstəyə salıb döyürlər, sonra onu kiseyadan toxunmuş ələkdən (narın ələkdən) keçirirlər. Bundan da sonra onu hər kəsin istəyincə ya xəmirə qatırlar, ya da ondan çörək bişirirlər.

201. Kuruş bu xalqı istila edəndən sonra massagetləri tabe etmək fikrinə düşür. Deyilənə görə, bu massagetlər çoxsaylı və igid tayfadır. Onlar gündoğan istiqamətdə, Aras çayının o tərəfində, issedonların qarşısında yaşayırlar. Bəziləri onları da iskit qəbiləsi hesab edir.

202. Bəzilərinin danışdığına görə, Aras İstrdən böyükdür; bəziləri isə əksinə, bunu o birindən kiçik hesab edirlər. Verilən məlumata görə Aras boyunca Lesbos böyüklüyündə çoxlu ada var. Bu adalarda yay vaxtı yerdən çıxartdıqları müxtəlif köklərlə dolanan adamlar yaşayırlar. Onlar yay aylarında ağaclardan dəymiş meyvələr yığıb ehtiyat üçün

downloaded from KitabYurdu.org

saxlayırlar. Orada guya xüsusi növ meyvələr gətirən başqa ağaclar da var. Massagetlər dəstə ilə bir yerə toplaşıb tonqal qalayır, sonra onun ətrafında oturaraq həmin meyvələri oda atırlar. Ellinlər çaxırdan necə sərxoş olurlarsa, bunlar da yanan meyvələrin iyindən sərxoş vəziyyətə düşürlər. Ocağa çox meyvə atdıqca özləri də o qədər artıq sərxoş olurlar ki, axırda ayağa qalxıb oynamağa və mahnı oxumağa başlayırlar. Bu tayfanın həyat tərzi haqqında belə danışırlar. Aras çayı başlanğıcını Matiyena dağlarından götürür. Kuruşun 360 kanala böldüyü Gind çayının da öz başlanğıcını eyni dağdan aldığını xatırlatmışdıq. Aras qıvrılaraq 40 qola ayrılır ki, onun bircə qolundan başqa hamısı bataqlıqlarda itib batır. Deyilənlərə görə, bu bataqlıqlarda çiy balıq yeyib, adətən, porsuq dərisindən paltar geyən adamlar da yaşayırlar. Arasın tək bircə qolu açıq yerlərdən keçərək Kaspi dənizinə tökülür. Kaspi dənizi isə heç bir başqa dənizlə əlaqəsi olmayan qapalı göldür. Axı, ellinlərin üzüb getdikləri Herakl Sütunlarının arxasındakı Atlantik və Qırmızı dəniz adlanan dənizlər ancaq bircə dənizdir.

203. Bunun əksinə, Kaspi dənizi tamam başqa cürdür. Onun uzunluğu avarlı gəmilər üçün on beş günlük, eni isə ən geniş yerində səkkiz günlük yol qədərdir. Onun qərb hüdudu-sıra dağların ən genişi və hündürü olan Qafqaza çatır. Qafqazda müxtəlif tayfalar yaşayır və onların çoxu cır ağac meyvələri ilə dolanır. Belə deyirlər ki, bu ölkədə qəribə yarpaqları olan ağaclar var. Bu yarpaqlardan rənglər düzəldərək, onu toz halına salır, su ilə qarışdırır, sonra da paltarlarının üstündə naxışlar salırlar. Bu naxışları su yuyub apara bilmir, onlar guya parçanın özünə əvvəlcədən hopdurulmuş kimi yun parça ilə birlikdə sürtülüb didilir. Bu tayfalar, heyvanlarda olduğu kimi tam açıq-aşkar cinsi əlaqəyə girirlər.

204. Beləliklə, Qafqaz Kaspi adı daşıyan dənizin qərb həddini təşkil edir, şərq tərəfdən isə, gündoğana doğru ona sonu görünməz ucsuz-bucaqsız düzənlik birləşir. Bu böyük düzənliyin mühüm hissəsini Kuruşun müharibə etmək fikrinə düşdüyü həmin massagetlər tutmuşlar. Kuruşu bu yürüşə qaldıran çox mühüm səbəblər olmuşdur. İlk səbəb şahın anadan olmasının qəribəliyidir-belə ki, o, özünü fövqəlbəşər hesab edirmiş, ikinci səbəb də bütün müharibələrdə ona uğur nəsib olması idi. Axı, üstünə qoşun çəkdiyi xalqlardan heç biri acı qismətdən qaça bilməmişdi.

205. Massagetlərin məlaikəsi mərhum hökmdarın arvadı olmuşdur. Onun adı Tomiris idi. Kuruş guya evlənmək təklifi ilə ona elçilər göndərmişdi. Lakin Tomiris Kuruşun heç də ona evlənmək üçün elçi göndərməyib, bəlkə massagetlərin hakimiyyətini ələ keçirməyə çalışdığını başa düşərək onu rədd eləyir. Onda hiylə ilə məqsədinə çata bilməyən Kuruş açıqcasına massagetlərin üzərinə müharibəyə gedir. Şah ordunun Arasdan keçməsi üçün ponton körpülər düzəldilməsini, körpüləri təşkil edən gəmilər üzərində isə qüllələr ucaltmağı əmr edir.

206. Kuruşun qoşunu həmin işlərlə məşğul olarkən Tomiris Kuruşa bu sözləri çatdırmağı buyurur: "Midiyalıların şahı! Öz niyyətindən əl çək. Axı düzəltdiyin bu körpülərin sənə xeyri dəyib-dəyməyəcəyini əvvəlcədən bilə bilməzsən. Burax bunları, öz səltənətində şahlıq elə, bizim də öz taxtımızda hakimiyyət sürməyimizin paxıllığını çəkmə. Amma sən, yəqin ki, bu məsləhətə qulaq asmayıb, sülhü pozaraq istədiyini etməyi üstün tutacaqsan. Sən massagetlərin üstünə hücuma keçməyi çox istəyirsənsə, onda çayın üstündə körpü saldırmağı dayandır. Biz üç günlük yol məsafəsində geri çəkilək, sən rahatca keç bizim torpağa. Yox, sən bizi öz torpağına buraxmağı üstün tutsan, onda sən də bizim kimi hərəkət edib, geri çəkil". Bundan sonra Kuruş fars nücəbalarını müşavirəyə çağırıb, işi onlara izhar eləyir və necə hərəkət etmək üçün onlardan məsləhət istəyir. Hamı bir səslə bu fikrə gəlir ki, Tomirisi ordusu ilə birlikdə burada, bu torpaqda gözləmək lazımdır.

207. Lakin müşavirədə iştirak edən lidiyalı Krez bu qərarı bəyənmir. O, öz etirazını bu sözlərlə bəyan edir: "Şah! (Zevs məni sənin əlinə verəndə) mən boyun olmuşam ki, sənin evini hədələyən hər cür bəlanın mümkün qədər qarşısını alım. Çəkdiyim ağır iztirablar mənim üçün biliyə dönmüşdür. Ölməz ordu başında sən özünü ölməz sayırsansa, onda mənim fikrim, əlbəttə, sənin üçün lüzumsuzdur. Yox, sən özünün ancaq bir insan olduğunu və özün kimi ölümlü insanlar üzərində hökmdarlıq etdiyini boynuna alırsansa, onda hər şeydən əvvəl bunu başa düş, insanın gördüyü işlərin belə bir gərdişi var ki, eyni adamların həmişə xoşbəxt olmalarına yol vermir. Belə ki, indiki işinizdə mən sizin nücəbalarınızın rəyinin əksinə olan bir fikrin üstündə dururam. Axı, sən düşməni bizim torpağımıza buraxsan, onda bizi belə bir təhlükə gözləyər: məğlubiyyətə uğrasan özünün bütün hökmranlığını məhv edərsən. Axı, tamam aydındır ki, massagetlər sənə qalib gələndən sonra qaçıb öz tərəflərinə getməyəcəklər, bəlkə sənin mülklərinə soxulacaqlar. Əgər sən qələbə çalsan, sənin düşmən üzərindəki müvəffəqiyyətin, onları öz ölkəsində məğlub edərək, sonra da qaçanları izləməyə başlayacağın qədər böyük olmayacaqdır. Mən istəyirəm sənin və onların üstünlüklərini müqayisə edəm: axı, düşməni sındırmaqla sən birbaşa Tomirisin mülklərinə daxil ola bilərsən. Hələ bundan başqa, bir qadına tabe olmaq və ona öz ölkəsinə soxulmağa imkan vermək Kambis oğlu Kuruş üçün ayıb olar. Beləliklə, mənə elə gəlir ki, biz çayı keçib, sonra düşmən geri çəkildikcə ölkənin dərinliklərinə girməliyik, daha sonra da onlara qalib gəlmək üçün belə hərəkət etməliyik: öyrəndiyimə görə massagetlər farsların bol həyat tərzindən tamam xəbərsizdirlər və bu həyat tərzinin böyük ləzzətləri onlar üçün əl çatmazdır. Buna görə, belə fikirləşirəm ki, çoxlu qoyun kəsib, ondan əlavə saysız-hesabsız xalis çaxır tuluqları hazırlamaq, çaxırla birlikdə hər cür xörəklər qoyub öz qərargahımızda bu adamlar üçün bol bir qonaqlıq düzəltməliyik. Bütün bunları hazırlayıb döyüşçülərin ən əhəmiyyətsiz hissəsindən başqa qoşunun qalanı ilə birlikdə çaya doğru geri çəkilməliyik. Əgər mən (bütün düşüncələrimdə) yanılmıramsa, onda düşmənlər bu qədər bol yeməyi görüb oradakı qoşunumuzun üstünə tökülüşərlər və bizim böyük şücaət göstərməyimiz üçün imkan yaranar".

208. Məsləhətçilərin fikirləri belə haçalanır. Kuruş da birinci mülahizəni rədd edib, Krezin məsləhətini bəyənir. Şah əmr verir ki, Tomirisin geri çəkilməli olacağı ona xəbər verilsin, çünki şah özü onun torpağına keçmək fikrindədir. Məlakə sözünün üstündə durub (qoşunu ilə birlikdə) geri çəkilir. Kuruş Krezi özünün vəliəhd elan etdiyi oğlu Kambisə tapşırır. Şah bununla yanaşı oğluna təkidlə tələqin edir ki, (massaget torpağına keçmək və yürüşə başlamaq uğursuz olarsa), Krezə hörmət göstərib onu himayə etsin. Kuruş belə tapşırıqlar verib, Kambislə Krezi mürəxxəs edir və onları Parsaya göndərir, özü isə qoşunla birlikdə çayı keçməyə başlayır.

downloaded from KitabYurdu.org

209. Aras çayını keçəndən sonra Kuruş massaget torpağında bax belə bir yuxu görür. Şaha belə gəlir ki, deyəsən o, Güştəspin böyük oğlunu görüb. Bu oğlanın da çiyinlərində qanadlar bitib, bir qanadı Asiyaya, o biri Avropaya kölgə salır. Arsam oğlu Güştəspin də ən böyük övladı Ağamənlər nəslindən Dara idi ki, o vaxt iyirmi yaşlarında bir gənc idi (və bu gənc hələ yeniyetməliyindən hərbi xidmətə yaramadığı üçün Parsada qalmışdı). Kuruş ayılıb gördüyü yuxunun mənasını düşünməyə başlayır. Şah belə hesab eləyir ki, yuxunun mühüm mənası var. Sonra o Güştəspi gətirməyi buyurur və təkidlə ona deyir: "Güştəsp! Sənin oğlun mənim və hökmranlığımın əleyhinə fitnə-fəsad üstündə ifşa olunmuşdur. Mən bunu dəqiq bilirəm və haradan törədiyini sənə deyəcəyəm. Allahlar məni himayə edirlər və məni təhdid edən bəlanı əvvəlcədən mənə açırlar. Bax, dünən gecə mən sənin böyük oğlunu yuxuda gördüm və gördüm ki, çiyinlərindən bitmiş qanadların biri Asiyanın, o biri Avropanın üstünə kölgə salır. Mənim yuxumdan, hər halda tamamilə aydın olur ki, oğlun mənə sui-qəsd hazırlayır. Ona görə də mümkün qədər tezliklə Parsaya qayıt və mən düşmən ölkəsini tabe edib geri, evə qayıdana qədər onu mənim qarşımda cavab verməyə hazırla".

210. Kuruş Daranın onun əleyhinə xəyanət fikrinə düşdüyünü güman edərək belə deyirdi. Amma allahlar bu yuxu vasitəsi ilə hökmdarın özünün massaget torpağında öldürüləcəyini və şahlığın Daraya keçəcəyini açmaq istəyirdilər. Güştəsp isə şaha belə cavab verir: "Şah! Sənin ömrünə qəsd edən fars kaş ki, heç doğulmasın! Belə bir fars varsa, o, tezliklə məhv olacaqdır! Axı, farsları qul vəziyyətindən azadlığa sən çıxartmısan, özgə xalqlara bac verənləri hamının ağası eləmisən. Oğlumun iğtişaş fikrinə düşdüyünü yuxuda görmüsənsə, onda mən onu sənin ixtiyarına verərəm: onunla istədiyin kimi rəftar elə!" Güştəsp şaha belə cavab verir. Sonra o, Aras çayını keçərək Parsaya qayıdır ki, (Kuruşu yarıtmaq üçün öz oğlunu keşikçilərin nəzarətində saxlasın).

211. Kuruş da bu dəmdə qoşunla birlikdə bir günlük məsafə qədər Arasın o tayına irəliləyib, sonra Krezin məsləhət gördüyü kimi hərəkət eləyir. Şah həmin yerdə ancaq zəif döyüşçülər qoyub, qoşunun ən yaxşı hissələri ilə yenə Arasa doğru çəkilir. Onda massaget qoşununun üçdə bir hissəsi Kuruşun qoyub getdiyi döyüşçülərə hücum edib, cəsurcasına müqavimət göstərmələrin" baxmayaraq onları qırır. (Qələbədən sonra) massagetlər farsların qərargahında qalmış yeməkləri görüb kef etməyə başlayırlar. Doyunca yeyib çaxır içir, sonra yıxılıb yatırlar. Bu vaxt farslar gəlib düşmənin böyük hissəsini qırır, xeyli də əsir alırlar. Əsirlər içərisində Tomirisin oğlu, massagetlərin sərkərdəsi Sparqapis də vardı.

212. Hökmdar Tomiris öz qoşununun və oğlunun taleyindən xəbər tutub Kuruşun hüzuruna belə sözlərlə xəbər aparmaq üçün adam göndərməyi buyurur: "Ey qana susamış Kuruş! Bu qələbənlə öyünmə. Sən mənim oğluma şərəfli döyüş zamanı silah gücünə deyil, dəmi başınıza vuranda sizin özünüzü də ağılsızlaşdıran, (içdikcə) farsların nalayiq nitqlər seli püskürməyə başladığı üzüm tənəkinin meyvəsi sayəsində - bax bu acı vasitəsi ilə, hiyləgərliklə qalib gəldin. Bu belə! İndi də mənim xeyirxah məsləhətimə qulaq as: oğlumu mənə ver və massaget qoşununun üçdə bir hissəsini həyasızlıqla məhv etməyə nail olsan da, mənim torpağımdan sağ-salamat çıxıb get. Belə eləməsən, massagetlərin tanrısı Günəşə and içirəm ki, nə qədər acgöz olsan da, səni, həqiqətən, qanla doyduracağam".

213. Lakin Kuruş carçının sözlərinə heç məhəl qoymur. Çaxırın dəmi hökmdar Tomirisin oğlu Sparqapisin başından çıxandan sonra, o özünün müsibətli vəziyyətini anlayıb buxovdan azad olunmasını Kuruşdan xahiş edir. Azad olunan və əlləri açılan şahzadə dərhal özünü öldürür. O, məhz belə həlak olur.

214. Tomiris isə Kuruşun onun məsləhətinə qulaq asmadığını görərək bütün ordusu ilə farslara hücuma keçir. Mən belə hesab edirəm ki, barbarların öz aralarındakı vuruşmaların ən kəskini bu döyüş olmuşdur. Yeri gəlmişkən deyim ki, o döyüşün gedişi haqqında öyrəndiklərim bunlardır. Deyilənə görə, əvvəlcə rəqiblər qarşı-qarşıya durub uzaqdan ox atırmışlar. Ox ehtiyatı qurtarandan sonra xəncər və nizə çəkərək əlbəyaxa döyüşə atılmışlar. Düşmənlər uzun müddət vuruşmuş və heç bir tərəf geri çəkilmək istəməmişdir. Nəhayət, massagetlər qalib gəlmişlər. Demək olar ki, bütün fars qoşunu döyüş meydanında qırılmış, Kuruşun özü də həlak olmuşdur. O, tam 29 il şahlıq etmişdir, Tomiris də çaxır tuluğunu insan qanı ilə doldurtdurub, öldürülmüş farslar arasında Kuruşun meyitini tapmağı buyurmuşdur. Kuruşun meyiti tapılanda hökmdar onun başını tuluğa soxmağı əmr etmişdir. Bundan sonra o, ölünü təhqir edərək belə danışmağa başlamışdır: "Mən sağ qalıb, döyüşdə səni məğlub etsəm də, sən oğlumu hiyləgərcəsinə əsir almaqla, hər halda, məni məhv etmisən. Buna görə də əvvəlcədən hədələdiyim kimi bax, indi səni qanla doydururam". Kuruşun ölümü haqqında çoxlu hekayətlər içərisində bu, mənə daha gerçək göründü.

215. Massagetlər də iskitlər kimi geyinirlər və iskitlərə oxşar həyat sürürlər. Onlar süvari və piyada qoşun dəstələrində vuruşurlar (həm atlı, həm piyada). Onların da, adətən, yayları, nizələri və döyüş baltaları var. Onlarvqn hər şeyi qızıl və misdəndir. Amma onlar bütün nizələrin, oxların və döyüş baltalarının metal hissələrini misdən hazırlayıb, baş geyimlərini, kəmərlərini və aşırmalarını qızılla bəzəyirlər. Atlara da yaxalıq sayağı mis zireh taxırlar. Üzəngilərə, yüyən ağızcıqlarına və üzlüklərə qızıldan bəzək vururlar. Onlarda dəmir və gümüş heç işlədilmir, çünki bu ölkədə həmin metallara qətiyyən rast gəlinməz. Bunun əvəzinə orada mis və qızıl boldur.

216. Massagetlərin adətləri barədə bunları demək lazımdır: onlarda hər kişi ancaq bir arvad alır, amma bu arvadlarla hamılıqla yaşayırlar. Axı, ellinlərin iskitlərdəki bu adət haqqında hekayətləri daha çox massagetlərə aiddir. Belə ki, bir massaget hər hansı bir arvada meyl salanda özünün sadağını onun alaçığından asıb həmin qadınla arxayıncasına əlaqəyə girir. Massagetlər insan ömrü üçün heç bir həddqoymurlar. Lakin onlarda kimsə lap qocalana qədər ömür sürərsə, onda bütün qohumları yığılıb qocanı qurban kəsirlər, ətini də başqa qurbanlıq heyvan əti ilə birlikdə bişirib yeyirlər. Belə ölüm onlarda böyük xoşbəxtlik sayılır. Hər hansı xəstəlikdən ölmüş adamı isə yeməyib torpağa tapşırırlar. Bununla yanaşı, yaşlı olub xəstəlikdən ölənləri qurban kəsmək mümkün olmadığı üçün bu bədbəxtlik sayılır. Massagetlər taxıl əkmirlər, maldarlıqla və balıq ovlamaqla (Aras çayında isə balıq son dərəcə boldur) dolanırlar, bir də süd içirlər. Onların səcdə etdikləri bircə allah var ki, o da Günəşdir. Onlar Günəşə at qurbanı kəsirlər və bunun da mənasını belə yozurlar ki, ən sürətli allaha dünyada ən iti yerişli heyvanı qurban vermək lazımdır.

downloaded from KitabYurdu.org

İzahlar

1 Herodotun e. ə. 484-cü ildə doğulduğunu təsdiq edən fakt var. Roma imperatoru Neronun vaxtında yaşamış bir yazıçı qadının dediyinə görə Peloponnes (Dardanel) müharibəsi başlananda (431) Herodotun 53 yaşı varmış. Ölümünün e. ə. 424-cü ili keçmədiyini də bir neçə fakt əsasında təxmin edirlər: I. Herodot eginalıların 431-ci ildə sürgün edildiklərini göstərdiyi halda, onların 424-cü ildə məhv edildikləri haqda məlumat verdiyinə görə tarixçinin bu hadisəyə qədər yaşamadığı güman olunur. 2. Herodot Kserksin oğlu II Daranın hakimiyyət başına keçməsini göstərməmişdir. Bu, e. ə. 425-ci ilə düşdüyündən Herodotun həmin vaxta qədər yaşamadığını düşünürlər. 3. F. Q. Mişşenkonun fikrincə, tamaşası 425-ci ildə olmuş "Axarnyanlar" komediyasının müəllifi Aristofan Herodot "Tarix"inə parodiya yazmışsa, onda "Tarix" bu ilə qədər yazılıb tamamlanmış olmalıydı. Bu faktlar Herodotun 431-424-cü illər arasında öldüyünü təxmin etməyə imkan verir.

2 Eridan-Q. A. Stratanovskinin izahına görə Po çayı nəzərdə tutulur.

3 Kassiteridaya Lehim Dağları da deyilir, Q. A. Stratanovski indiki Britaniya adalarının nəzərdə tutulduğunu təxmin edir.

4 Mifoloji lüğət. Leninqrad, 1961, səh. 119 (rus dilində).

5 B. P. Kuturman bu adı "izonomi" şəklində yazıb "yasalar önündə eşitmək", yəni "qanunlara əməl etmək" mənasında izah etmişdir.

6 Qırmızı dəniz və Bizim dənizimiz - burada İran körfəzi və Aralıq dənizi.

7 yunanların barbarlarla müharibəsinə onların qarşılıqlı incikliyi səbəb olmuşdur... Herodot tarixi hadisələri tez-tez şəxsi pislik və onun intiqamı ilə izah edir.

8 Lidiyalıların dili Hett - Liviya qrupuna, ya da Hett - Lidiya yarım-qrupuna aid edilir. Lidiyalılar e. ə. 1234-1225-ci illərə yaxın olan Misir yazılarında Misirə hücum etmiş "dəniz" xalqları içərisində "turşa" adı ilə xatırlanırlar.

9 Herodot Kiçik Asiyanın qərb sahillərində yerləşən yunan qəbilələrinin yalnız bir hissəsini xatırladır. yunan qəbilələri Hett qəbilələrinin süquta uğramasından sonra (e. ə. 1170-ci ilə yaxın) Kiçik Asiyada yerləşmişlər, Qabaqca eolilər, sonra yunanlar, axırda dorilər gəlmişlər.

10 Herodot şəcərə göstərəndə öz sələflərinə-özündən əvvəlki müəlliflərə arxalanır: üç nəsil, yüz ilə bərabərdir.

11 Bu cümlənin əsli Herodotda belədir. "Qadın öz xələtini soyunan anda layiq olduğu hörməti itirir".

12 Qiges e. ə. təxminən 654-cü ildə kimmerilərlə vuruşda həlak olmuşdur.

13 İskitlər e. ə. təxminən 720-ci ildə indiki qərbi Türkmənistandan Qara dəniz sahillərindəki çöllərə gəlmiş, sonra 623-cü ilə yaxın Midiya hökmdarı Kiaksarın torpaqlarının çoxunu istila etmişlər.

14 Pektida - 20 simlik çalğı aləti.

15 Difiramb - Dionisin təxəllüsü, sonralar allahın və ya qəhrəmanın şərəfinə oxunan nəğmənin adı olmuşdur.

16 Krez yunanların gözündə ellinfildirsə, lidiyalıların gözündə Krezin hökmdarlığı Lidiya dövlətinin çiçəklənməsi və parlaması dövrüdür, delflilərin gözündə isə o, kahinlik nüfuzunun pərəstişkarıdır.

17 Bu, Herodotun səhvidir. Solonun səyahəti 594-584-cü illərə düşür. Krez isə 560-cı ildən hakimiyyət sürməyə başlamışdır. Ona görə də Solon Krezlə görüşə bilməzdi. Solonun 569-cu ildən 526-cı ilə qədər hakimiyyət sürmüş Amasisin (misircə Ab-mose) görüşünə getməsi də xronologiyaya zidd gəlir.

18 yunanlarda günahı yuma mərasimi belə olmuşdur: qatilin əllərinə heyvan (çoşqa) qanı töküb, sonra qanlının günahdan təmizlənmə timsalı kimi əlindəki (çoşqa) qanını silərlərmiş. Bundan sonra da allahların rəhmə gəlməsi üçün qurban verib dua oxuyarlarmış. Qatilin üstünə düşən günah qabaqca qohumlara cəza gətirir, sonra bütün şəhərə yayılıb hamıya bəla verirmiş.

19 Herodotun "Tarix"indəki şer parçalarının bu və bundan sonrakı bəzi mətnləri "Tarix"i türkcəyə çevirmiş Perihan Kuturmanın kitabından götürülmüşdür: "Herodot tarixi", birinci basqı, İstanbul, 1973, səh. 28 P. X.

20 "Herodot tarixi", İstanbul, 1973, səh. 29.

21 "Herodot tarixi". İstanbul, 1973, səh. 32.

22 "Herodot tarixi", İstanbul, 1973, səh. 32.

23 E n o m a t i-Sparta qoşununda 25-36 adamın bir-birinə andı ilə təşkil edilən hissə.

24 T r i a k a d-30 nəfərlik bölük.

25 Sissitiya-spartalılarda bir süfrədə xörək yemək.

26 Eforlar - Bir il möhlətinə 5 adamdan ibarət seçilmiş heyət. Görünür, qabaqlar məhkəmə hakimi vəzifəsini yerinə yetirmişlər, sonralar nəzarət və yoxlayıcı vəzifəsi daşımışlar.

27 Gerontlar - Ağsaqqallar şurası (və ya məsləhəti). 28 adamdan ibarət olmuşdur. Bu şura iki hökmdarla birlikdə Spartanın ali hakimiyyət orqanı olmuşdur.

28 "Herodot tarixi", İstanbul, 1973, səh. 33.

29 "Afinanın Alsa ləqəbi daşıyan" sözləri Herodot "Tarix"inin rus didinə F. Q. Mişşenko tərcüməsinin II cildindəki izahdan götürülmüş, Q. A. Stratanovskinin tərcüməsində "ləqəb" sözü atılmış, "Afinanın Aleya məbədi" şəklində getmişdir. P. X.

30 Dorilərin-hilleylər və dimanlar adlı iki qəbiləyə bölünməsinə uyğun olaraq iki də rəhbəri (hökmdarı) olmuşdur; onlar qoşunun iki hissəsinin başında durmuşlar.

downloaded from KitabYurdu.org

31 "Herodot tarixi", İstanbul, 1973, səh. 33.

32 Aqatoerqlər-Spartanın 300 atlı qoşun birləşməsini sıralarından hər il çıxarılıb xaricə səfir göndərilən beş nəfər.

33 Bu çayın adı Alis şəklində də yazılır.

34 Q. A. Stratanovskinin tərcüməsində bu cümlə belədir: " Üarğ... daje otdal im svoix sınovey v obuçenie iskustvu strelğbı iz luka". F. Q. Mişşenkonun tərcüməsindəki mətnin bundan iki fakt fərqi var: "Kiaksar... poruçil im malğçikov dlə obuçeniə əzıku ix i strelğbe iz luka". Demək, Mişşenko tərcüməsini yaxşı qavrayan və onun təcrübəsindən gen-bol istifadə edən Stratanovski "Tarix"in istifadə etdiyi nüsxəsinin mətnindəki bu parçada "dil öyrənmək" sözü görmədiyi üçün onu öz tərcüməsinə salmamış, qeyri-müəyyən "oğlanlar" anlayışını müəyyənləşdirərək onları Kiaksarın öz oğlanları, anlayışına keçirmişdir. Mətnin məzmunu bu dəyişikliyin şüurlu və doğru olduğunu təsdiq edir. Belə ki, Kiaksar öz oğullarını iskitlərə tapşırmışdı, iskitlər də hökmdardan təhqir gördükləri üçün oğlanların birini kəsərək, ətini ov quşlarının ətinə qataraq bişirib süfrəyə qoydurmuş və qaçıb Lidiya hökmdarına sığınmışlar. Kiaksar bu şəxsi intiqama intiqamla əvəz qaytarmaq üçün qaçqın iskitləri tələb edib onları geri ala bilməyəndə Lidiya ilə müharibəyə qalxmışdır. Uzanan müharibə axırda barışıqla qurtardığından belə barışıqlar çox vaxt qohumluqla möhkəmləndirildiyinə görə Lidiya hökmdarı öz qızını Kiaksarın salamat qalmış tək oğlu Astiaqa ərə vermişdir. Demək, nə Kiaksardan təhqir görən ovçu iskitlər bu təhqirin intiqamını almaq üçün Midiya cavanlarından hər hansı zadəgan oğlunu kəsərdilər, nə də Kiaksar hər hansı bir kübarın oğlunun intiqamı üçün Lidiya dövləti ilə müharibəyə girərdi. Stratanovski mətnin bu hissəsinə daha həssas yanaşmışdır. Nüsxə fərqləri midiyaşünaslığımızda etnos, dil fərqləri kimi şişirdilmiş və ondan siyasi məqsədlə istifadə edilmişdir.

35 Meles şiri haqqında Lidiya əfsanəsidir. Sardanın heraldik heyvanı (bəlkə də qədim totem) olmuşdur. Belə şirlər Lidiya sikkələrinin üstünə basılarmış.

36 "Herodot tarixi", İstanbul, 1973, səh. 39.

37 Krez e. ə. 546-cı ildə əsir alınmışdır.

38 Yeddi sayının lidiyalılarda müqəddəs sayıldığı təxmin edilir. "Kitabi-Dədə Qorqud" dastanında oğuzluq sayı (iki otuz-60, üç otuz-90, üç otuz, bir on-100 və s) olduğu kimi lidiyalıların da iki yeddi anlayışını müqəddəs yeddilik sayının təkrarı kimi başa düşmək olar. Tonqal üstündə oturub qurban verən Krezin güldan üstündə şəkli vardır.

39 Fələk - Tale.

40 F. Q. Mişşenko bu adı yunan əlifbası ilə belə yazır: Deiokes. Rus tərcümələrində "Deiok", "Deioka" şəklində yazılır. P. X.

41 F. Q. Mişşenkonun izahatında "buslar" yunan əlifbası transkripsiyasına görə bousilər" şəklində yazılır. P. X.

42 Herodotun midiyalıları qəbilələrə bölməsi özünü doğrultmur. Onun qəbilə kimi sadaladığı adlar peşə-sənət növünə görə mümkün olan bölgüdür. Herodot Misir əhalisi haqqında yazanda, oranı daha yaxşı öyrəndiyinə görə, əhalisini sənət-peşə mənsubiyyəti əsasında yeddi silkə (təbəqəyə) bölmüşdür: kahinlər, döyüşçülər, sığır otaran naxırçılar, donuzabaxanlar, xırda alverçilər, tərcüməçilər və meyxanaçılar. "...Bu təbəqə adları sənət növündən götürülmüşdür" (II, 164). Hərbçilərdən heç kəs hərbi işdən başqa "heç bir sənətlə məşğul olmur" (II, 165). Bu təbəqədə sənəti oğul atadan öyrənir.

Midiyada cəmiyyətin məhz təbəqələrə bölünməsi "Mahabharata" dastanı ilə müqayisədə daha aydın görünür; onun da ictimai fonunda dörd təbəqə görünür: 1. Brəhmənlər-müqəddəs ocaqların xidmətçiləri; 2. Kşatriya-hərbçilər (şad bəylər); 3. Vayşilər. Buraya üç təbəqə daxildir: tacirlər (alverçilər), sənətkarlar və əkinçilər; 4. Şudra-muzdurlar və qullar (bax: "Maxabxarata", "Ramayana", M., 1974, səh. 7).

Herodotun Midiyada saydığı altı qəbilə də altı sənət-peşə növünə görə təbəqə bölgüsüdür, Misirdəki kahinlərdən "hər hansı biri ölərsə, oğlu onun varisi olur" (II, 37) deyən Herodot Misirdə kahinlik peşəsinin irsi olduğunu təsdiq etmişdir. Midiyadakı baş kahinlər də öz sənətlərini irsən oğullarına vermişlər. Misirdə heç bir qadının kahin olmasına icazə verilmədiyi kimi Midiyada da kahin atanı kahin oğul əvəz etmişdir.

43 Meotida - indiki Azov dənizi.

44 Kolxida - indiki Abxaziya; F a s i s - indiki Rion çayı.

45 Bu məlumat Midiyaya dair bəzi mənbələrdə Midiya dövlətinin məhv edilməsi kimi izah edilmişdir. Bu, yanlış fikirdir.

46 Herodot Misir hökmdarı Sesostritin də Frakiyaya qoşun çəkdiyini və geri qayıdanda qoşun tör-töküntülərini Kolxidada qaldığını göstərir (bax-II, 103, 104).

47 Apatur - api (apa) sözündəndir, iskitlərdə Babayın (Zevsin) arvadı da belə adlanır. Herodot onu Heya ilə eyniləşdirir. P. X.

48 Kadmey qələbəsi. Təkbətək döyüşdə Eteokl ilə Polinikin ikisinin də ölümü nəzərdə tutulur və "Kadmey qələbəsi" hər iki tərəfin məhv olması mənasını verən rəmzi ifadəyə çevrilir.

49 "Herodot tarixi", İstanbul, 1973, səh. 63.

50 Fırn terminini P. Kuturman işlətmişdir. Borçalı bölgəsində buna fırnı deyilir; indi kərpicdən tikilmiş, üstü tağ şəkilli çörəkbişirən sobadır. P. X.

51 Mətnin dırnağa alınmış cümlələri P. Kuturmanın tərcüməsindən götürülmüşdür. Həmin cümlələr Q. A. Stranovskinin tərcüməsində bir qədər dolaşıqdır. P. X.

52 Bel Zevsi-Burada Mərduk allahın adı əvəzinə yunan allahı Zevsin adı çəkilmişdir.

downloaded from KitabYurdu.org

İKİNCİ KİTAB1

YEVTERPA

1. Kuruşun vəfatından sonra hökmdarlıq irsən onun vaxtsız vəfat etmiş Fərnasp qızı Kassandanadan olan oğlu Kambisə keçmişdir. Kuruş mərhum arvadı üçün nəinki özü dərin kədərə batmış, bütün təbəələrinə də yas saxlamağı əmr etmişdi. Kambis Kuruşun bu arvaddan doğulan oğlu idi. O, ionları və eoliləri irsən özünün təbəələri saymışdır. Ona görə də Misir yürüşünə hazırlaşaraq, başqa xalqlarla birlikdə bu ellinləri də özü ilə aparmışdır.

2. Misirlilər isə hələ Psammetixin hökmranlığına qədər özlərini dünyanın ən qədim xalqı hesab etmişlər. Psammetix taxta çıxanda, hansı xalqın daha qədim olması barədə məlumat toplamağa başlayır. O vaxtdan misirlilər frigiyalıları özlərindən də qədim, özlərini isə bütün başqa xalqlardan qədim hesab edirlər. Psammetix məlumat toplasa da, hər halda, hansı xalqın dünyada daha qədim olduğunu həll etmək üçün bir yol tapa bilmir. Buna görə də o belə bir şey düşünür. (Adi mənşəli analardan) təzəcə doğulmuş iki körpənin (keçi) sürüsündə saxlanılması üçün onları çobanın tərbiyəsinə verməyi əmr edir. Hökmdarın əmrinə görə heç kəs körpələrin yanında bir kəlmə də söz deməməliymiş. Körpələri xüsusi boş daxmada yerləşdirmişlər və çoban da keçiləri müəyyən vaxtda buraya gətirərək uşaqları südlə doyurar və lazım olan bütün başqa qayğılar göstərərmiş. Psammetix ona görə belə hərəkət edib, bu cür əmrlər vermişdir ki, uşaqlar kəkələməyə başlayanda ilk anlaşılmaz sözlərinin nədən ibarət olacağını eşitsin. Hökmdarın buyruğu yerinə yetirilir. Çoban hökmdar əmrinə görə, iki il ərzində göstəriş verildiyi kimi hərəkət edir. Bir dəfə qapını açıb daxmaya girəndə körpələrin ikisi də çobanın ayaqlarına qapanıb, əllərini ona uzadır və ikisinin də dilindən "bekos"2 sözü qopur. Çoban

downloaded from KitabYurdu.org

əvvəlcə susub, bu sözə qulaq asır. Sonra hər dəfə uşaqlara qulluq etməyə gələndə yenə də həmin sözü eşidib bunu hökmdara bildirir, o da körpələri öz gözü ilə görmək üçün onları gətirməyi əmr edir. Psammetixin özü bu sözü eşidəndə buyurur ki, "bekos" sözünü hansı xalqın məhz hansı mənada işlətdiyi öyrənilsin. Sorğu yolu ilə öyrənilir ki, frigiyalılar çörəyə belə deyirlər. Buradan da misirlilər belə nəticəyə gəlirlər ki, frigiyalılar onların özündən də qədimdirlər. Mən bunu Memfisdə Hefestin kahinlərindən eşitdim. Ellinlər isə bu haqda daha uydurma hekayətlər danışırlar və söz gəlişi deyirlər ki, Psammetix guya iki qadının dilini kəsdirəndən sonra körpələrə baxmağı onlara tapşırıbmış.

3. İki uşağın tərbiyəsi haqqında mənə o qədər hekayət danışmışlar ki! Memfisdə Hefest kahinlərindən daha başqa hekayətlər də eşitmişəm. Sonra mən Fiva şəhərinə və Heliopola yola düşdüm ki, oradakı hekayətlərin Memfisdə eşitdiklərimə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirim. Axı, belə deyirlər ki, Misirin bütün qalan hissələrinə nisbətən Heliopolda bu barədə daha çox şeylər bilirlər. Bununla belə, allahlar haqqında mənə nə danışıblarsa, mən allah adlarından başqa heç bir məlumat vermək fikrində deyiləm, belə ki, mənim fikrimcə allahlar haqqında bütün adamların məlumatı eyni dərəcədə azdır. Əgər mən bu haqda danışmalı olsam, yalnız təhkiyəmlə əlaqədar şəkildə danışacağam.

4. İnsanın gördüyü işlərə gəldikdə, (kahinlər) bu barədə mənə bir səslə bax belə şeylər çatdırmışlar. Misirlilər dünyada ilk adamlardırlar ki, ili fəsillər əsasında on iki hissəyə bölərək, onun müddətini müəyyənləşdirmişlər. Kahinlərin dediklərinə görə misirlilər bunu göy səyyarələrini müşahidə sayəsində kəşf edə bilmişlər. Mənə elə gəlir ki, onların ayları hesablama üsulu ellinlərin hesablamalarından daha dəqiqdir, axı, ellinlər (təbii ilin)3 zaman tənasübünü saxlamaq üçün hər üç ilə bir ay artırırlar. Misirlilər isə 12 ayın hərəsini 30 gün hesab edirlər və hər ilin (axırında) bu saydan əlavə 5 gün artırırlar, özü də onlarda ilin dolanma müddəti (həmişə) eyni vaxta düşür. Onlar iqrar edirlər ki, on iki allah adını misirlilər vermişlər, ellinlər də onlardan götürmüşlər. Eləcə də, ilk dəfə misirlilər allahlara mehrablar tikib, heykəllər və məbədlər ucaldaraq, onların şəkillərini daşlara həkk etmişlər. Bunun belə olduğunu

downloaded from KitabYurdu.org

mən çox vaxt gözümlə görüb inanmışam. Misirdə ən qədim hökmdar olmuş adamlardan biri Mindir. Onun dövründə Fiva bölgəsindən başqa bütün (aşağı) Misir bataqlıq olmuşdur və indi Merida gölündən aşağıda yerləşən torpaqları su basmışdır. Dənizdən çay boyu yuxarıya - gölə doğru indiki vaxtla yeddi günlük yoldur.

5. Ölkə haqqındakı bu hekayətlər mənə tamamilə doğru görünür. Doğrudan da, hər hansı sağlam düşüncəli adam (hətta bu haqda əvvəllər heç nə eşitməmiş olsa belə), ilk baxışdaca ellinlərin gəmilərlə üzüb getdikləri (Aşağı) Misirin (Nilin) töhfəsi olub, son zamanlarda nəşət etdiyinə inanır. Ölkənin göldən yuxarılara doğru üç günlük yoldan sonrakı hissəsi barədə bu məlumata bənzər heç nə danışılmasa da, oranın özü də elə (Aşağı) Misir kimidir. Axı, Misir torpağının xüsusiyyəti belədir: gəmi ilə Misirə gedərək, sahildən hətta bir gün uzaqlığı məsafədə lot salınsa 11 orgiya dərinlikdə lil çıxarıla bilər. Bu, (çay) çöküntülərinin nə qədər dərinə getdiyini göstərir.

6. Misirin özünün dəniz sahilinin uzunluğu 60 sxendir. Mən Plinfin körfəzindən tutmuş Kasi dağının birləşdiyi Serbonida gölünə qədər bütün sahil boyunu Misir sayıram, 60 sxeni buradan saymaq lazımdır. Axı, torpağı az olan xalqlar öz torpaqlarını orgiyalarla, torpağı xeyli çox olanlar stadiyalarla, daha çox torpaqlılar - parasanqlarla (fərsənglərlə), ən çox torpağı olanlar isə sxenlərlə ölçürlər. Parasanq 30 stadiyaya, (Misir ölçüsü) olan sxen isə 60 stadiyaya bərabərdir. Buna görə də Misir sahillərinin uzunluğu 3600 stadiyaya bərabərdir.

7. Sahildən ölkənin içərilərinə, yəni Heliopola qədər Misir genişdir, tamam düzənlikdir, sudan boldur və lilli çöküntülərlə örtülmüşdür. Yuxarılarda dənizdən Heliopola qədər olan yol Afinadakı on iki allah mehrabından Pisaya, məhz Olimp Zevsinin məbədinə qədər olan yol uzunluğundadır. Hər iki yol ölçülərsə, onda fərq azacıq, məsələn, 15 stadiyadan artıq olmaz. Axı, Afinadan Pisaya qədər yolun 1500 stadiyaya çatması üçün 15 stadiya əskik gəlir. Halbuki dənizdən Helipola qədər olan yol tam 1500 stadiyadır.

downloaded from KitabYurdu.org

8. Misir Heliopoldan başlamış ölkənin içərilərinə doğru daralır. O, burada bir tərəfdən şimaldan cənuba dalbadal Qırmızı dənizə doğru uzanan Ərəbistan dağları ilə həmsərhəddir. Bu dağlarda daş karxanası var ki, Memfis piramidaları üçün oradan yarıb aparmışlar. Orada dağlar qurtarır və deyildiyi kimi, Qırmızı dənizə burulur. Eşitdiyimə görə bu dağları ən geniş yerindən qərbə doğru aşıb getmək üçün iki ay lazımdır. Deyirlər ki, dağların şərq sərhədlərində buxur bitir. Həmin dağlar bu cürdür. O biri, Liviya tərəfində qayalı və "möhkəm olmayan qumlara basdırılmış" dağlar uzanır. Bu dağlarda piramidalar ucalır. Bu dağlar da Ərəbistan dağları kimi şimaldan cənuba doğru uzanırlar. Beləliklə, (bu yerlər Misirə məxsus olduğundan) Misir Heliopoldan başlamış daha geniş deyil, amma, (Nilin) axarı boyu on dörd günlük yoldan sonra Misir dar bir ölkədir. Xatırladılan dağların arasındakı torpaq düzənlikdir və mənim ölçümə görə, ən dar yerdə Ərəbistan dağları ilə Liviya dağları arasındakı məsafə 200 stadiyadan artıq deyil. Misir buradan başlayaraq yenə genişlənir. Bu ölkənin təbii xüsusiyyətləri dediyim kimidir.

9. Heliopoldan Fivaya qədər çay yuxarı doqquz günlük gəmi yoludur və onun uzunluğu 4860 stadiya, yaxud 81 sxendir. Misir ərazisini göstərən stadiyaların ümumi sayı belədir: Misirin dəniz sahilinin uzunluğu yuxarıda dediyim kimi 3600 stadiyadır. İndi də mən dənizdən Fivaya qədər ölkənin dərinliklərindəki məsafənin necə böyük olduğunu göstərəcəyəm, bu, 6120 stadiya təşkil edir. Fivadan Elefantina adlanan şəhərə qədər də 1800 stadiyadır.

10. Beləliklə, kahinlərin məni inandırdıqları, özümün də düşündüyüm kimi, adı çəkilən bu ərazinin böyük hissəsi ancaq (yaxın vaxtlarda əmələ gəlməlidir) və axıdılıb gətirilmiş torpaqdan ibarətdir. Doğrudan da, məndə belə təsəvvür əmələ gəldi ki, Memfisdən cənuba doğru adları çəkilən dağların arxasında yerləşən düzənlik vaxtı ilə dəniz körfəzi olmuşdur. (Nəhəng Misir düzənliyini indi adını çəkəcəyim xırdaca dərələrlə müqayisə etmək mümkünsə), İlion bölgəsindəki vadilər, Efes yaxınlığındakı Tevfraniya və İeandr dərəsi kimi Memfisdən cənuba doğru xatırlatdığım dağlar arasında yerləşən düzənlik də vaxtı ilə eynən dəniz körfəzi olmuşdur. Axı, gətirdiyi torpaqla özünə vadi açan bu çayların heç birini eninə görə

downloaded from KitabYurdu.org

Nil mənsəbinin tək bircə qolu ilə müqayisə etmək olmaz (amma onun beş belə qolu vardır). Bununla belə, (Nil böyüklüyündə olmasa da), başqa yerlərdə çaylar vardır ki, oralarda da böyük işlər görmüşlər. Mən bunların arasında Akarnaniyadan axıb dənizə töküləndə artıq Exina adalarının yarısını materiklə birləşdirmiş Axeloy çayının adını xüsusi çəkə bilərdim.

11. Misirin yaxınlığındakı Ərəbistanda isə bir dəniz körfəzi var ki, Qırmızı dəniz deyilən dənizdən (Suriyaya qədər) uzanır. Onun son dərəcə uzun və ensiz olduğunu mən elə indicə izah edim: körfəzin ən uzaq yerindən onun uzunluğu boyu açıq dənizə avarlı gəmi ilə 40 gün getmək lazım gəlir, halbuki körfəzin eninə gəmilə getmək üçün yarım gün lazımdır. Körfəzdə hər gün qabarma və çəkilmə olur. Mən fikirləşirəm ki, Misir də bir vaxt məhz bu cür körfəz olmuşdur: o (körfəz) Şimal dənizindən Efiopiyaya doğru uzanmışdır, halbuki, bir də deyirəm, Ərəbistan körfəzi Cənub dənizindən Suriyaya doğru uzanırmış. Əgər onlar dar torpaq sahəsi ilə bir-birindən ayrılmasaydılar, bu körfəzlər baş-başa gəlib bir-birinə, demək olar ki, qovuşardılar. Nil öz axarını dəyişərək bu Ərəbistan körfəzinə doğru axsaydı, onda çayın buranı 20 000 il ərzində lillə doldurmasına nə mane ola bilərdi? Mənim fikrimcə, bundan ötəri cəmi 10 000 il lazım gələrdi. Bəs mənim anadan olduğum vaxtdan əvvəllər keçib gedən dövr ərzində, hətta bundan daha böyük olan bir körfəz bu qədər böyük və durmadan (çöküntülər gətirən) bir çay sayəsində niyə lillə örtülməmişdir?

12. Beləliklə, mən kahinlərin Misir haqqında danışdıqlarına inanıram və onların fikrinə şərik oluram. Axı, mən görürəm ki, Misir sahilləri qonşu bölgələrin sahillərinə nisbətən dənizə daha çox çıxır. Bundan başqa, dağlarda balıqqulağı tapırlar, torpaqdan da piramidaları belə uçuran duzlu sular çıxır. Sonra, orada, Memfisdən yuxarıdakı yeganə dağ qumla örtülmüşdür. Nəhayət, nə sərhəd boyu Ərəbistanın, nə Liviyanın, nə də Suriyanın (Ərəbistanın dəniz sahili zolağında suriyalılar məskən salmışlar) torpaqları Misir torpağına oxşayır. Misir torpağı qaradır, yumşaqdır, məhz ona görə belədir ki, o, Nilin Efiopiyadan gətirdiyi lildən

downloaded from KitabYurdu.org

ibarətdir. Liviya torpağı isə, məlum olduğu kimi, daşlı və kifayət qədər qumludur. Halbuki Ərəbistan və Suriya torpaqları daha çox gilli və bir qədər daşlıdır.

13. Kahinlər, bunlardan əlavə, bax belə sübutlar da gətirirlər: hökmdar Meridin vaxtında çayın suyu hər dəfə ən azı 8 dirsək qalxanda Memfisdən aşağıda Misiri su basırmış. Meridin4 ölümündən hələ 900 il keçməyib, amma mən bunu kahinlərdən eşitmişəm. İndi isə suyun səthi ən azı 15, ya da 16 dirsək qalxan hallarda çay ölkəni basır. Buna görə də, mən belə hesab edirəm ki, bu ölkə həmin qaydada böyüyərək daha da hündürləşərsə, onda vaxt gələr ki, Nil onu basa bilməz. Merida gölündən aşağıdakı bölgələrin, xüsusən Delta deyilən yerin əhalisinin əvvəllər ellinlərə bəyan etdikləri isə bundan sonra həmişə onların gələcəkdə də öz başlarına gələcəkdir. Axı, onlar bütün Ellin torpaqlarının (öz torpaqları kimi çaylar vasitəsi ilə deyil), yağış sayəsində sulandığını eşidəndə demişlər: bir vaxt gələr ki, ellinlər (göylərin köməyinə) qəti inam bəsləməkdə aldandıqlarını görərlər və dəhşətli aclıq çəkərlər. Onlar bununla demək istəmişlər ki, allah ellinlərə bundan sonra yağış göndərməyib, uzun müddətli quraqlıq törətsə, onda aclıq onları "məğlub" edəcəkdir: axı, ellinlərə görə nəmişlik ancaq Zevsdən gəlir.

14. Misirlilərin ellinlər haqqında dedikləri doğrudur. İndi mən misirlilərdə işin nə yerdə olduğunu danışacağam. Memfisdən aşağıdakı sahə (məhz gətirilmə torpaq sayəsində böyüyüb), gələcəkdə də axıb gələn torpaqla örtülərsə, onda məgər oranın əhalisi aclıq keçirməzmi? Axı, onların ölkəsində yağış yağmır, çay isə bu gedişlə zəmiləri daha basmayacaqdır. İndi, əlbəttə, dünyada, (eləcə də, Misirin qalan, bölgələrində) elə bir xalq yoxdur ki, öz torpağından buradakı qədər asanlıqla məhsul əldə edə bilsin. Axı, onlarda başqaları üçün çox yorucu olan kotanla yer şumlamağa, (kətmənlə) torpağı yumşaltmağa, zəmidə daha başqa işlərlə məşğul olmağa ehtiyac qalmır. Çay hər təbii daşqından sonra zəmiləri sulayıb yenidən sahilə çəkiləndə hər bir misirli öz zəmisinə toxum səpib donuzları oraya salır. Donuzlar toxumu tapdalayıb torpağa batırandan sonra biçin vaxtının gəlib çatmasını gözləyirlər, daha sonra elə bu donuzların köməyi ilə taxılı döyürlər və nəhayət, onu anbarlara daşıyırlar.

downloaded from KitabYurdu.org

15. Beləliklə, yalnız Deltanı Misir hesab edib, Persey deyilən qüllədən başlamış balıq qurudan və balıq duzlanan Pelusi emalatxanalarına, dənizdən (ölkənin içərilərinə doğru) ancaq Kerkasor şəhərinə (yəni Nilin qollara ayrıldığı və bu qollardan birinin Pelusiyə, o birinin Kanoba axdığı yerə) qədər olan ancaq 40 sxenlik sahəni Misirin dəniz sahili adlandıran ionların fikri ilə razılaşsaq, Misir torpaqlarının qalan hissələri qismən Liviyaya, qismən də Ərəbistana məxsus olur; təkrar edirəm: bu mülahizəni qəbul etsək, onda düşünmək olar ki, əvvəllər misirlilərin heç torpağı olmamışdır. Axı, əlbəttə, bunu elə misirlilərin özləri də iqrar edirlər ki, (mən bununla da razıyam). Delta axıntı nəticəsində gətirilmiş torpaqdır və necə deyərlər, son vaxtlar (dənizdən) törəmədir. Misirlilərin doğrudan da (vaxtı ilə) heç bir torpağı olmayıbsa, onda onlar nahaq yerə özlərini dünyada ən qədim xalq saymışlar. İki uşağın ilk dəfə hansı dildə danışacağını sınamağa onların heç bir ehtiyacı qalmır. Bununla yanaşı, mən belə düşünürəm ki, Misir xalqı nəinki ionların Delta adlandırdıqları yerin əmələ gəlməsi ilə bir vaxtda meydana çıxmışdır, bəlkə, dünyada insanların yaşamağa başladığı vaxtdan mövcud olmuşdur. Onların ölkəsinin böyüməsindən asılı olaraq, əhalinin bir çoxu köhnə yerlərində qalıb, bir çoxu da yavaş-yavaş (çayın axarı boyu) aşağılara enməyə başlamışlar. Qədimdə isə ancaq Fiva ərazisi Misir adlanmışdır. Bu sahə isə əhatə dairəsinə görə 6120 stadiya uzunluğundadır.

16. Beləliklə, əgər fikrimiz düzgündürsə, ionların Misirə dair təsəvvürləri yanlışdır. İonlar haqlıdırlarsa, onda mən deyə bilərəm ki, ellinlər və ionların özləri hesab aparmağı bacarmırlar; onlar iqrar edirlər ki, dünya üç hissədən: Avropa, Asiya və Liviyadan ibarətdir. Amma bunlara hələ dünyanın dördüncü hissəsini - Misir Deltasını da əlavə etmək lazım gələcəkdir, çünki o, nə Asiyaya, nə də Liviyaya məxsusdur. Axı, bu fikrə əsasən Nil Asiya ilə Liviya arasında sərhəd təşkil etməyib, Deltanın başında qollara bölünür, demək, Delta Asiya ilə Liviyanın arasında qalır.

17. Bununla belə, qoy ionlar (necə istəyirlərsə) eləcə də düşünsünlər. Mən isə bu barədə belə fikrin tərəfdarıyam: necə ki, Kilikiya və Assuriyanın bütün sahəsində kilikiyalıların və assurların məskən saydıqlarını (etiraf edirəm), eləcə də misirlilərin

downloaded from KitabYurdu.org

yaşadıqları bütün ölkəni Misir sayıram. Əslində, mən Asiya ilə Liviya arasında məhz Misir torpaqlarından başqa sərhəd tanımıram. (Sərhəd haqqında) ellinlərin adi təsəvvürünü qəbul etmiş olsaq, onda (Katadupadan) və Elefatina şəhərindən başlamış (çayın aşağı axarı boyu) Misiri bütövlükdə iki adı olan iki yerə bölünmüş hesab etmək lazım gələr. Axı, Misirin bir hissəsi Liviyaya, o biri hissəsi Asiyaya məxsusdur. Katadupadan başlayaraq, Nil özünün dənizə axarı boyu Misiri iki yerə bölür. Düz Karkasor şəhərinə qədər Nil bir məcrada axıb gedir. Bu şəhərdə isə o, üç qola ayrılır və onlardan (Pelusi mənsəbi deyilən) qol şərqə, o biri də qərbə burulur (bu Kanob qolu adlanır). Üçüncü qol isə düz dənizə, bax, bu cür axıb gedir: o, Deltanın əvvəlindən başlayıb, dənizə doğru axarında Deltanı iki bərabər hissəyə bölür. Bu çay mənsəbindən dənizə bolluca su axır. O, ən əhəmiyyətli mənsəbdir, özü də Sebennis mənsəbi adlanır. Bu Sebennisdən ayrılıb dənizə tökülən daha iki göl də var ki, adları belədir: Sais və Mendes. Bolbit və Bukol təbii olmayıb (insan əli ilə qazılmış) süni qollardır.

18. Misirin burada göstərdiyim böyüklüyü haqqında mülahizəmin xeyrinə olaraq, Ammon kahininin bəyanına da əsaslana bilərəm (mən bu bəyanı Misir haqqında fikrimi yazıb qurtarandan sonra öyrənmişəm. (Liviya sərhəddində olan) Mareya və Apis adlı Misir şəhərlərinin özlərini misirli deyil, liviyalı hesab edən əhalisi (Misirin) dini adət və ayinlərinə meyl göstərirlər. Belə ki, onlar inək əti (yeməkdən) çəkinmək istəmədikləri üçün Ammon rəmmalına (carçı) göndərib misirlilərlə müştərək heç nələri olmadığını bildirmək istəmişlər. Öz sözlərinə görə, onlar nəinki Deltadan qıraqda yaşayırlar, həm də özgə dildə danışırlar və (ona görə) bütün heyvanların ətindən yeməyə icazə verilməsini xahiş edirlər. Allah da onların xahişini rədd edib, deyir ki, Nilin basdığı və suvardığı bütün torpaq Misirə məxsusdur, Elefantinadan aşağıda yaşayıb Nil suyu içənlərin hamısı misirlidir. Onlar rəmmaldan belə cavab almışlar.

19. Nil sahillərindən çıxanda nəinki Deltanı, hətta Liviya və Ərəbistan bölgələrinin də müəyyən hissələrini (məhz bölgələrin hissələrini) hər iki tərəfdən (bəzən çox, bəzən az olmaqla) iki günlük yol məsafəsincə basır. Bu (qəribə) çayın təbii

downloaded from KitabYurdu.org

xüsusiyyətləri haqqında nə yerli əhalidən, nə də başqa adamlardan heç nə öyrənə bilmədim. Mən, məhz bunu öyrənib başa düşmək istəyirdim ki, Nil nə üçün yay gün dönümündə sahillərini aşır və (onun suyu) təxminən 100 gün ərzində qalxır; bu müddət keçəndən sonra suyun səviyyəsi yenidən aşağı düşür, çay əvvəlki məcrasına qayıdır və gələn yaza qədər bütün qış boyu su bu aşağı səviyyədə qalır. Bu hadisənin (səbəbi) haqqında bircə nəfər də misirli mənə heç nə deyə bilmədi, heç kəs belə bir suala cavab vermək imkanına malik deyildi ki, Nilin təbiəti niyə bütün başqa çayların təbiətinin tərsinədir? Mən, sorğular vasitəsi ilə bu göstərdiyim hadisənin səbəbini və (dünyanın) bütün çayları arasında bu çaydan nə üçün (soyuq) küləklərin əsmədiyini öyrənmək istəyirdim.

20. Amma, əlbəttə, öz bilikləri və fərasəti ilə şöhrətlənmək istəyən bəzi ellinlər (Nilin) daşması səbəbi haqqında üç müxtəlif izah söylədilər. Əslinə qalsa, onların ikisi (heç ötəri halda da) müzakirəyə dəyməz, amma onları mən heç olmasa xatırlatmaq istəyirəm. Bu şərhlərdən birinə görə Nil daşqınlarının səbəbi çayın dənizə axmasına maneçilik törədən etesi küləkləridir. Amma bəzi illərdə bu küləklər heç əsmir, Nilin suyu isə qalxmaqda davam edir. Bununla yanaşı, səbəb küləklər olsaydı, onda dənizə axan bütün başqa çaylar da gərək Nil kimi daşaydı.

21. İkinci şərh birincidən də ağılsız və necə deyərlər, təəccüblüdür. Bu şərhdə deyilir: (Nil sularının) qabarması və çəkilməsi onun öz başlanğıcını okeandan alması ilə bağlıdır, okean da bütün yer ətrafınca axır.

22. Nəhayət, üçüncü izah o birilərinə görə daha doğru görünsə də, eyni zamanda, ən yanlış izahdır. Doğrudan da, Nilin öz sahillərini aşmasını guya qarların əriməsi5 ilə bağlayan bu mülahizə də, heç bir qəti izah vermir. Halbuki, Nil Liviyadan axıb, sonra Efiopiya torpağından keçərək Misir dənizinə tökülür. Doğrudan da, bu çay ən isti ölkələrdən onlara nisbətən sərin ölkəyə axırsa, necə ola bilər ki, o, qarların əriməsi sayəsində daşsın? Belə şeylərdən başı çıxan hər kəs üçün Nilin (daşmasının) qarın (əriməsi ilə) bağlı olması fikri, ən azı ağlasığmaz görünür. (Bunun əleyhinə) ilk və qəti nəticə-bu ölkələrdən əsən isti küləklər ola bilər. İkincisi, bu torpaqda qətiyyən

downloaded from KitabYurdu.org

yağış yağmır və o, heç vaxt buz bağlamır. Qar yağandan sonra beş gün ərzində hökmən yağış yağmalıdır. Ona görə, (bu ölkələrdə) qar yağmış olsaydı, onda yağış da yağmalıydı. Üçüncüsü də budur ki, (bərk) istilər nəticəsində oradakı insanlar qara olurlar. Çalağanlar və qaranquşlar bütün qışı orada qalırlar, durnalar isə İskit soyuqlarından qaçıb bu yerlərdə qışlamağa gəlirlər. Beləliklə, Nilin öz başlanğıcını aldığı və axıb getdiyi bu ölkəyə azacıq da olsa qar yağsaydı, onda misal gətirdiyimiz faktların heç biri mümkün olmazdı və bu, məntiqi cəhətdən də mümkün deyil.

23. Öz izahlarını Okean haqqında mülahizəyə bağlayan şəxs isə dumanlı və naməlum sahəyə gedib çıxmışdır və (ona görə də) heç nə sübut edə bilmir. Şəxsən mənə Okean çayı barədə heç nə məlum deyil. Mən bilən "Okean" adını Homer, ya da başqa bir qədim şair uydurmuş və öz poeziyasına salmışdır.

24. Misal gətirilmiş mülahizələri inkar edib, indi mən bu dumanlı hadisəyə dair öz baxışımı bildirərək Nilin yayda daşmasının, mənim fikrimcə, nədən törədiyini deməliyəm. Qış vaxtı şimal küləklərinin qovub apardığı Günəş özünün adi yay yolundan çıxıb yuxarı Liviyaya gedir. Hər şey də bununla izah olunur. Axı, bu allahın (Günəşin) daha yaxın olduğu ölkə, Günəşin dönüb-dolaşdığı yer, təbii ki, susuz olur və çaylar orada quruyurlar.

25. Bunun təfsilatına varsaq, onda məsələ belə görünər: Günəşin Yuxarı Liviyadan keçib getdiyi yolda bax belə hadisə üz verir: səmanın həmişə açıq olduğu şəraitdə yer isindiyinə və soyuq küləklər əsmədiyinə görə Günəş göyün ortası ilə keçəndə orada da günün təsiri (bizdə) yay vaxtı günün göstərdiyi təsir qədər olur. Axı, Günəş suyu özünə çəkib sonra yenidən yuxarıya ötürür və orada da küləklər onu alıb parçalayaraq buxarlanmağa məcbur edir. Ona görə də tamamilə təbiidir ki, bu ölkədən əsən küləklər (məhz cənub və cənub-qərb külәkləri) başqa küləklərdən daha çox yağış gətirirlər. Günəş isə, mənim düşündüyümə görə, il ərzində çəkdiyi suyun hamısını Nilə qaytarmır, bəlkə onun müəyyən qismini (qida kimi) özündə saxlayır. Qış sona yetəndə, Günəş yenidən göyün ortasına qayıdır və bu vaxtdan etibarən bütün çaylardan bərabər dərəcədə su sorur. O vaxta qədər (qışda) yağışdan törəmiş

downloaded from KitabYurdu.org

bol sellər nəticəsində çaylar su ilə dolur, çünki ölkəyə bol yağış yağır və (su ilə dolu) yarğanlar əmələ gəlir. Yağışın çəkildiyi yay aylarında isə, Günəş suyu özünə çox çəkdiyi üçün çaylar dayazlaşır. Nil isə yağış suyundan qidalanmayan bir çay kimi, əksinə, məhz elə bu vaxt, Günəş onun suyunu özünə çəkmədiyi vaxt (yəni qışda) bütün çaylar içərisində yeganə çaydır ki, (yaydakı normal səviyyəsinə nisbətən) qışda suyu daha az olur. Axı, yayda Günəş bütün çaylardan nə qədər su çəkirsə, Nildən də o qədər çəkir, halbuki, qışda gün şüalarının təsirinə təkcə Nil məruz qalır. Beləliklə, mən bu fikrin tərəfini saxlayıram ki, Nilin (yay daşqınlarının) və qışda dayazlaşmasının səbəbi Günəşdir.

26. Mən eləcə də fikirləşirəm ki, bu ölkədə havanın quruluğu Günəşdən asılıdır, belə ki, o, özünün hərəkət yolunda (yeri) qızdırır. Beləliklə, Yuxarı Liviyada həmişə yaydır. İlin fəsilləri növbəsini və (dünya ölkələri yerlərini) dəyişmiş olsaydı, onda göyün indi şimal küləyi əsən və qış olan hissəsində cənub küləyi əsərdi və orada günorta olardı, indi cənub küləkləri əsən ölkələrdə isə şimal küləyi əsərdi; bu, belə olsaydı, onda Günəş indiki kimi Yuxarı Liviyaya getmək əvəzinə Yuxarı Avropaya gedərdi və mənim fikirləşdiyimə görə, Günəş indi Nilə göstərdiyi təsiri Avropadan keçdiyi bütün yol boyu İstrə göstərərdi. (Günəşi isə göyün ortasından yalnız qış və şimal küləyi qovub aparır).

27. Nildən soyuq küləyin əsməməsi, mənim fikrimcə, bax, bununla izah olunur: ümumən, ən bürkülü ölkələrdən küləklər əsmir, külək yalnız hər hansı soyuq ölkədən əsir.

28. Amma bu, əzəldən necə olubsa, qoy eləcə də qalsın! Nilin mənbəyinə gəldikdə Misirin Sais şəhərindəki Afina məbədinin mirzəsindən və məbəd əmlakını idarə edən adamdan savayı əlaqə saxladığım misirlilərdən, liviyalılardan və ellinlərdən heç kəs mənə heç bir məlumat verə bilmədi. Amma mənə elə gəlir ki, məbəd mirzəsi də guya bunu öyrənməyin mümkün olduğunu iqrar edəndə, deyəsən, bunu zarafatla dedi. Onun danışdığı da, bax belədir: Fiva ərazisindəki Siena və Elafantina şəhərləri arasında ucalan şiş zirvəli iki dağ var. Bu dağlar Krofi və Mofi adlanır. Həmin bu

downloaded from KitabYurdu.org

dağların arasından da Nilin dibi olmayan mənbəyi üzə çıxır, özü də iki yerə bölünüb yarısı şimala-Misirə, o biri yarısı cənuba-Efiopiyaya axır. Mirzənin dediyinə görə, bu mənbəyin dibsiz olduğunu Misir hökmdarı Psammetix tədqiqat aparıb müəyyənləşdirmişdir. Hökmdar bir neçə min orgiya uzunluğunda buraz hörməyi və onu uçuruma sallamağı əmr etmiş, lakin buraz uçurumun dibinə çatmamışdır. Mirzə doğrudan da düz danışırsa, mənə elə gəlir ki, onun danışığı burada qovuşan cərəyanların və suların güclü burulğanı olduğunu, (ona görə də) orada qayalara çarpıldığını, bu səbəbdən də burazın gedib uçurumun dibinə çatmadığını sübut edir.

29. Bax, göründüyü kimi, mən bu haqda heç kəsdən, heç nə öyrənə bilmədim. Bununla belə, öz axtarışlarımı mümkün qədər genişləndirdim və elə oldu ki, özüm Elefantina şəhərinə qədər gedib çıxdım; oradan başlayaraq, əlbəttə, ancaq söz-söhbət və sorğular əsasında məlumat topladım. Çayın axarı boyu Elefantina şəhərinə doğru yuxarıya gəmi ilə gedilsə, onda bu yerlərdə sərt yoxuş əmələ gəldiyi görünər. Ona görə də burada barkanın hər iki tərəfindən buraz bağlayıb onu buğa kimi qabağa çəkmək lazım gəlir. Əgər buraz qırılsa, onda çayın axımı barkanı aşağı aparacaqdır. Elefantinadan Taxompso adasına qədər çay axarının məsafəsi gəmi ilə dörd günlük yoldur. Burada Nil də Meandr kimi döngəli-dirsəklidir. 12 sxenlik bu məsafəni bir təhər keçmək lazımdır. Bundan sonra Nilin Taxompso deyilən ada əmələ gətirdiyi düzənliyə çıxırıq. Elefantimadan yuxarıda artıq efioplar yaşayırlar. Bu ada əhalisinin də yarısını efioplar, yarısını misirlilər təşkil edir. Adaya böyük bir göl birləşir, onun da ətrafında efiop köçəriləri yaşayırlar. Bu gölü üzüb keçəndən sonra həmin gölə tökülən Nilə çıxırıq. Bundan sonra barkadan düşüb çay boyu quru yolla 40 gün gedilir. Axı, burada Nilə (sulardan baş qaldıran) iti uclu, şiş qayalar səpələndiyinə görə gəmi ilə hərəkət etmək mümkün deyil. Bu ölkəni 40 günə keçib özgə bir gəmiyə minirsən və 12 gündən sonra Meroye adlı şəhərə gəlib çıxırsan. Deyirlər ki, bu şəhər bütün Efiopiyanın paytaxtıdır. Onun əhalisi allahlardan ancaq ikisini-Zevsi və Dionisi tanıyır və onlara tam ürəklə səcdə edirlər. Zevs kahininin ocağı da buradadır. Allah öz bəyanında haranı göstərsə, onlar da oraya hərbi yürüş: edirlər.

downloaded from KitabYurdu.org

30. Bu şəhərdən də uzaqlara gəmi sürüb gedəsi olsan, onda Elefantinadan efiopların paytaxtına gəldiyin yola sərf olunmuş vaxt qədər gedib "fərarilər" adlanan ölkəyə çatarsan. Bu "fərarilər"ə misircə "asmax"6 deyilir, Ellin dilindəki "hökmdarın sol tərəfində dayanan adamlar" mənası daşıyır. Misirlilərin döyüşçülər zümrəsindən olan 240.000 nəfərlik həmin dəstə, bax, məhz bu səbəbə görə efiopların içərisinə getmişlər Misirlilər hökmdar Psammetixin vaxtında efioplara qarşı Elefantina şəhərində, ərəblərə və suriyalılara qarşı Pelusi ərazisindəki Dəfnədə, liviyalılara qarşı Mareyada sərhəd gözətçiləri qoymuşdular. Psammetix dövründə olduğu kimi, zəmanəmizdə də həmin yerlərdə fars keşikçiləri dururlar. Doğrudan da Elefantinada və Dəfnədə fars sərhəd keşikçiləri vardır. Bax, beləliklə, həmin misirlilər orada üç il keşik çəkib, özlərini əvəz edən keşikçilərin gəlmədiyini görəndə əlbir olub Psammetixdən qoparaq, Efiopiyaya köçmək qərarına gəlmişlər. Psammetix də bunu eşidib onların dalınca yürüşə başlamışdır. Gəlib çatanda geri qayıtmaq, vətən allahlarını, arvad-uşağı tərk edərək (taleyin ümidinə qoymamaq) üçün onları dilə tutmuşdur. Verilən məlumata görə, onda qaçqınlardan biri özünün ayıbına işarə edərək hökmdara belə cavab vermişdir: "təki bu, salamat olsun, arvad-uşaq tapılar". Qaçqınlar Efiopiyaya gəlib bu ölkə hökmdarının hakimiyyətinə tabe olmuşlar. O da belə bir işə görə onları bax, belə mükafatlandırmışdır.. Bəzi efiop tayfaları öz hökmdarlarına qarşı üsyan qaldırıblarmış. Hökmdar həmin tayfaları qovmağı və onların yerlərində məskunlaşmağı misirlilərə əmr etmişdir. Bu misirlilər efiopların arasına keçəndən bəri efioplar Misir adətlərini: götürmüşlər və daha mədəni olmuşlar.

31. Beləliklə, Nilin axarı (Misirdən keçib getdiyi sahəni nəzərə almadan) su yolu və quru yol ilə dörd aylıq məsafədir. Elefantinadan bu qaçqınlar ölkəsinə qədər yolu keçib getmək müddətini hesablasaq, dörd aya bərabər olur. Nil burada qərbdən şərqə doğru axır. Onun sonrakı axarı haqqında heç kəs heç nə deyə bilmir. Axı bərk istilər nəticəsində bu ölkə insandan xalidir.

32. Bununla belə, mən kirenalılardan bax bunu öyrənməyə nail olmuşam: onların söylədiyinə görə Ammon kahinliyinə gedəndə ammonluların hökmdarı Etearxla

downloaded from KitabYurdu.org

söhbət etmişlər. Belə ki, yeri gələndə onların söhbəti Nildən, məhz onun mənbəyinin heç kəsə məlum olmadığından düşmüşdür. Etearx demişdir: bir dəfə naməlum nasamonlar onun yanına gəlmişlər (bunlar Sirtdə və ondan xeyli şərqə doğru olan ərazidə yaşayan Liviya camaatıdır). Nasamonlar gələndə hökmdar onlardan soruşub ki, Liviya səhrası haqqında daha dəqiq məlumat verə bilərlərmi? Onlar da cavab vermişlər: "Onların başçılarının cəsur və gənc oğulları varmış. Bu yeniyetmələr igidlik yaşına çatanda hər cür dəliqanlılıq etmiş, hətta Liviya səhrasına səyahətə çıxmaq və özlərindən əvvəlki səyyahlardan daha artıq sahələrdə olub, daha iraq yerləri görmək məqsədilə püşk ataraq öz ətrafındakılardan da beş nəfəri seçmişlər. Misirdən Soloent burnuna qədər Şimal dənizinin7 Liviya sahillərində (ellinlərin və finikiyalıların tutduqları yerlərdən başqa) liviyalılar, məhz çoxsaylı Liviya qəbilələri yaşayır. Bu qəbilələrin yerləşdiyi ərazidən cənuba doğru Liviyanın dənizdən yuxarıkı (içəri hissəsi) vəhşi heyvanlarla doludur. Bu vəhşi heyvanların olduğu ölkədən daha cənuba doğru yer qumsaldır, susuzdur və insandan tamam xalidir. Beləliklə, yaşıdları tərəfindən göndərilən gənclər çoxlu su və yemək ehtiyatı götürüb yola çıxmışlar. Əvvəlcə yaşayış məntəqələri olan yerlərdən keçib getmişlər, bu yerləri ötüb vəhşi heyvanlar ölkəsinə çatmış, oradan da axırda həmişə qərbə doğru istiqamət tutaraq səhraya getmişlər. Onlar xeyli günlər ərzində geniş səhra boyu səyahət edərək, bir dərədə ağacların bitdiyini görmüşlər. Gənclər ağaclara yaxınlaşıb budaqlardan sallanan meyvələri dərməyə başlamışlar. Bu vaxt kiçik (orta boydan balaca olan) adamlar hücum edib onları tutmuş və özləri ilə aparmışlar. Nə nasamonlar bu adamların dillərini, nə də onları özləri ilə aparanlar nasamonların dillərini başa düşmüşlər. Gəncləri geniş bir bataqlıqdan keçirib aparmışlar və nəhayət, əhalisinin hamısı balaca boy, (həm də), qara rəngli olan bir şəhərə gətirmişlər. Bu şəhərin yanından qərbdən şərqə doğru böyük çay axırmış, içində də timsahlar görünürmüş".

33. Kirenalıların ammonlu Etearxla söhbətləri haqqında mənə çatdırdıqları bu məlumat barədə mən elə bunu bildirmək istəyirdim və bunu da əlavə edirəm: Kirenalıların dediyinə görə Etearx onlara bildirib ki, nasamonlar uğurla geri qayıtmışlar və onların gedib aralarına düşdükləri adamların hamısı sehrbazlar imiş.

downloaded from KitabYurdu.org

(Şəhərin) yanından axan çaya gəldikdə, Etearx onu Nil hesab edirmiş, özü də müəyyən əsasa görə: axı, Nil Liviyadan axıb keçir və onu ortadan iki yerə bölür. Beləliklə, mən məlum olanın əsasında məlum olmayan haqqında mühakimə yürüdərək belə nəticə çıxarıram ki, Nil də İstr kimi başlanğıcını eyni dərəcədə uzaq olan ölkələrdən alır. Axı, İstr çayı keltlər ölkəsində Priena şəhərinin yanından axmağa başlayıb Avropanın ortasından keçir. Keltlər isə Herakl sütunlarının arxasında, Avropanın lap qərbində yaşayan kinetlərin qonşuluğunda yerləşmişlər. İstr Evksin Pontuna tökülərək, Milet köçkünlərinin bina etdikləri İstriya şəhərinin yerləşdiyi bütün Avropadan keçib gedir.

34. Bax, beləliklə, öz sularını bütün məskunlaşmış yerlərə daşıyıb aparan İstr çayının axarı çoxlarına məlumdur. Nilin mənbəyi haqqında isə heç kəs müəyyən bir söz deyə bilmir. Axı, Nilin keçdiyi Liviya məskunlaşmamış səhradır. Onun yuxarı axarından mən ancaq söylənilənlər əsasında mümkün olan hər şeyi dedim. Sonra Nil Misirə axır. Misir də təxminən dağlıq Kilikiya ərazisi ilə üzbəüz yerləşir, Buradan da Evksin Pontundakı Sinopaya8 qədər yaxşı yol gedən piyada üçün beş günlük yoldur. Sinopa isə İstrin mənsəbinin əks tərəfindədir. Buna görə, mən belə fikirləşirəm ki, bütün Liviyanı yarıb keçən Nilin axarı da İstr çayının axarı kimidir.

35. Nil haqqında kifayət qədər deyildi. İndi mən Misirdən ətraflı danışmaq istəyirəm, çünki bütün başqa ölkələrə nisbətən bu ölkənin əcaib və diqqətəlayiq şeyləri daha çoxdur. Buna görə mən onları daha dəqiq təsvir etməliyəm. Misirin göyü hər hansı başqa ölkələrin göylərinə nisbətən başqa cür olduğu, oranın çayı da özgə ölkə çaylarından bir qisim təbii xüsusiyyətləri ilə seçildiyi kimi, misirlilərin adət və mərasimləri də başqa xalqların adət və mərasimlərinin hər cəhətdən tam əksinədir. Belə ki, misal üçün, onlarda arvadlar bazara gedib alver edirlər, kişilər isə evdə qalıb toxuculuqla məşğul olurlar. Başqa xalqlar toxuma zamanı arğacı yuxarı itələdikləri halda, misirlilər aşağı itələyirlər. (Onlarda) kişilər yükü başlarında aparırlar, arvadlar-çiyinlərində. Qadınlar ayaq üstə işləyirlər, kişilər çömələmiş vəziyyətdə. Təbii ifrazlarını öz evlərində edirlər, amma yeməyi küçədə yeyirlər, səbəbi də budur ki, ifraz ədəbsizlik olduğu üçün onu gizlin yerdə etmək, o şey ki, ədəbsizlik deyil, onu

downloaded from KitabYurdu.org

da aşkarda görmək lazımdır. (Onlarda) heç bir qadın nə allahların, nə də ilahələrin kahini ola bilməz, kişilər isə bütün allah və ilahələrin (kahini ola bilərlər). Onların oğulları qocalmış ata-ananı saxlamağa məcbur deyillər, qızları isə bunu istəməsələr də yerinə yetirməlidirlər.

36. Başqa ölkələrdə allahların kahinləri saç uzadırlar, Misirdə isə onlar saçlarını vurdururlar. Başqa xalqlarda ən yaxın qohumlar yas əlaməti olaraq saçlarını kəsdirirlər, misirlilər isə əksinə, qohumlarından biri öləndə saç və saqqal uzadırlar, halbuki, adətən saç kəsilməlidir. Başqa xalqlar heyvanlardan ayrı yerdə yaşayırlar, misirlilər isə heyvanlarla birlikdə, bir damın altında olurlar; başqaları buğda və arpa ilə dolanırlar, Misirdə isə bu taxılı yem kimi istifadə etmək ən böyük eyib sayılır. Orada çörəyi pərincdən bişirirlər ki, bəziləri ona zeyə deyir. Onlarda xəmiri ayaqla, gili isə əllə yoğurmaq dəbdir. Onlar peyini də yığırlar. Başqa xalqlar tənasül orqanını doğuluşdan necə varsa, eləcə də saxlayırlar, bircə misirlilər, bir də bu adəti onlardan götürən xalqlar, sünnət edirlər. Onlarda hər kişi iki paltar geyinir, arvadlar isə bircə paltar. Yelkənli halqaları və kəndirləri başqa xalqlar gəminin divarına bayır tərəfdən bağlayırlar, misirlilər isə içəri. Ellinlər öz əlifbalarını soldan sağa doğru yazırlar və hesablamanı da bu istiqamətdə aparırlar, misirlilər isə hərfləri də, sayları da sağdan sola yazırlar. Buna baxmayaraq, misirlilər deyirlər ki, onlar sağa, ellinlər isə sola doğru yazırlar. Burası da var ki, onlar iki növ yazıdan istifadə edirlər: bunların birini müqəddəs (kahin yazısı), o birini demotik (ümumxalq yazısı) adlandırırlar.

37. Misirlilər bütün xalqlar içərisində allahdan daha çox qorxan xalqdır və adətləri də bax belədir: onlar tunc piyalələrdə içirlər və onu hər gün yuyurlar, özü də tək-tək adamlar deyil, hamı belə edir. Onlar həmişə təzə yuyulmuş kətan paltar geyirlər və bu geyimə xüsusi qayğı göstərirlər. Onlar səliqəni göyçəklikdən üstün tutaraq, tənasül orqanının təmizliyi üçün sünnət "edirirlər. Kahinlər hər üç gündən bir bədənlərinin tükünü qırxırlar ki, allaha xidmət zamanı bit və başqa həşərat əmələ gəlməsin. Kahinlər yalnız kətan paltar, (papirus) lığından ayaqqabı geyinirlər. Onlara başqa paltar və ayaqqabı geyinməyə icazə verilmir. İki dəfə gündüz, iki dəfə də gecə soyuq suda yuyunurlar, bir sözlə, daha başqa, çoxluca adətlərə riayət edirlər.

downloaded from KitabYurdu.org

Kahinlər, əlbəttə, çoxluca da gəlir əldə edirlər. Onlar öz vəsaitlərindən heç nə xərcləməli olmurlar, çünki "müqəddəs" çörəyin (bir hissəsini) onlar alırlar, onlara, eləcə də, hər gün çoxlu cöngə, ördək əti və üzüm çaxırı düşür. Əksinə, balıq yemək onlara qadağan olunmuşdur. Paxlanı isə misirlilər öz ölkələrində heç əkmirlər, hətta yabanı bitkiləri nə bişirilmiş, nə də çiy yeməzlər. Kahinlər paxlanı görmək belə istəmirlər. Çünki onu natəmiz hesab edirlər. Orada hər allahın, eyni zamanda, bir neçə kahini var. Onlardan biri baş kahin sayılır. Kahinlərdən biri öləndə yeri irsən oğluna keçir.

38. Buğalar Apisə (Epafa) qurban hesab edilirlər, buna görə də onları bax bu yolla çox diqqətlə yoxlayırlar. Əgər bədənində tək bircə dənə qara tük tapılsa onda buğa natəmiz sayılır. Yoxlamanı qəsdən bu iş üçün ayrılmış xüsusi kahin aparar, özü də heyvan kahinin qarşısında əvvəlcə düz dayanır, sonra onu arxası üstə çevirirlər. Ona görə də buğanın dilini dartırlar ki, xüsusi əlamətlərdən təmiz olduğunu görsünlər; bunu mən başqa yerdə təsvir edəcəyəm. Kahin buğanın quyruğundakı tükləri də nəzərdən keçirir ki, görsün bu tüklər təbii olaraq öz sığalına görə düzmü bitmişdir. Buğa bütün lazım olan tələblərə görə təmiz çıxarsa, onda kahin onu qeydə alıb buynuzlarına papirus dolayır, sonra üstündən möhür kili yaxır, özünün möhürlü üzüyünü gilə basır, bütün bunlardan sonra buğanı aparırlar. Möhür vurulmamış buğanı qurban gətirmək üstündə adama ölüm cəzası düşür.

39. Heyvanlar bax beləcə, göstərilən yolla yoxlanılır. Qurban mərasimi isə belə həyata keçirilir: nişan vurulmuş heyvanı mehraba, qurban kəsilən yerə gətirib ocaq qalayırlar. Qurbanlıq heyvanın dayandığı mehrabın üstünə nəzir çaxırı çilənəndən sonra allaha dua oxunur və heyvanı öldürüb sonra başını bədənindən üzürlər. Heyvanın cəmdəyindən dərisini soyub aparır və onun başına dəhşətli lənətlər yağdırırlar. Orada ellinlərin alver elədikləri bazar varsa, onda başı oraya aparıb satırlar, ellinli yoxdursa, onda başı Nilə atırlar. Başı da bax belə lənətləyirlər: qurban gətirən hər kəsin və ya bütün Misirin başında bir bəla varsa, bu bəla qoy bu başa gəlsin. Qurban kəsilmiş heyvanların başına çaxır çilənməsinə dair adət bütün

downloaded from KitabYurdu.org

misirlilərdə eynidir və hər qurban kəsiləndə buna riayət olunur, adət hökmünə görə heç bir misirli hər hansı bir heyvanın başından xörək üçün istifadə etmir.

40. Qurbanın içalatının çıxarılması və qurbanlığın yandırılması müxtəlif heyvanlar üçün müxtəlif şəkildə olur. Mən burada ən böyük allah sayılan və şərəfinə ən əsas bayramlar keçirilən (İsidaya pərəstişi) nəzərdə tuturam. Onlar İsidaya qurban gətirəndə buğanın dərisini cəmdəyindən soyub dua oxuyurlar, sonra qarnını bütövlükdə çıxarırlar, amma içalatı və piyi cəmdəkdə saxlayırlar. Daha sonra budları, budun yuxarı hissələrini, kürəyini və boynunu kəsirlər. Bundan da sonra cəmdəyin qalan hissəsinə təmiz çörək, bal, üzüm, çaxırlıq meyvələr, büxur, ətirli qətran və başqa çoxlu şeylər doldururlar. Bütün bu şeylərlə doldurulmuş cəmdəyə bol yağ tökərək yandırırlar. Onlar qurbandan əvvəl oruc tuturlar, qurbanı yandıranda nəzirin bütün iştirakçıları yas saxlayırlar. Sonra ağlaşmanı dayandırıb, qurban cəmdəyinin (yandırılmamış) hissəsindən ziyafət düzəldirlər.

41. Misirlilər hər yerdə "təmiz" (xüsusi əlamətləri olmayan) buğa və danaları qurban gətirirlər. Bunun əksinə, onlara inəkləri qurban gətirməyə icazə verilmir: inəklər İsidaya nəzir deyilmişlər. Axı İsida buynuzlu inək şəklində rəsm olunur (Ellinlərdə İo da belə rəsm edilir) və bütün misirlilər də eyni ilə ellinlərdəki kimi bütün başqa heyvanlara nisbətən inəyə daha çox pərəstiş edirlər. Bax, buna görə də bir nəfər də misirli kişi və qadın ellinlərlə dodaq-dodağa öpüşməz, ellin bıçağından, şişindən və ya qazanından istifadə etməz. Hətta "pak" buğa ellin bıçağı ilə doğranıbsa, misirlilər bu əti yeməzlər. Onlar ölmüş (buğa və inəkləri) bax bu üsulla dəfn edirlər: ölmüş inəkləri çaya atırlar, buğanı isə hər kəs öz şəhərinin qarşısında torpağa basdırır, özü də onun bir və ya iki buynuzu başdaşı kimi bayırda qalır. Elə ki, cəmdək çürüyür, müəyyən bir vaxtda Prostolitada adlanan adadan hər bir şəhərə yük gəmisi gəlir. Bu ada Deltada yerləşir, ətrafı 9 sxenə bərabərdir. Adada çoxlu başqa şəhərlər də var, lakin basdırılmış heyvan sümüyü yığmaq üçün gəminin yola düşdüyü şəhərə Atərbexis9 deyilir və orada Afroditanın şərəfinə ibadətgah ucaldılmışdır. Bu şəhərdən sümükləri qazıb çıxartmaq və sonra hamısını bir yerdə dəfn etmək üçün müxtəlif şəhərlərə çoxlu gəmi gedir. Misirlilər başqa ölmüş heyvanları da buğalar

downloaded from KitabYurdu.org

kimi dəfn edirlər. Axı, bu, orada ümumi adətdir, belə ki, orada ev heyvanlarını öldürmürlər.

42. Fivada Zevs məbədi ərazisinə mənsub olan, ya da Fiva bölgəsində yaşayan misirlilər qoyun əti yemirlər, amma keçini qurban kəsirlər. Axı, onlar hər yerdə eyni allaha səcdə etmirlər. Ancaq İsidaya və (özlərinin dediklərinə görə, bizim Dionisimiz olan) Osirisə hamı eyni dərəcədə səcdə edir. Bunun əksinə, Mendes məbədi bölgəsinə mənsub olan misirlilər keçi ətindən xörək üçün istifadə etmirlər, amma qurbanlıq üçün qoyun gətirirlər. Fivalıların və onların təsiri altında qoyun əti yeməkdən imtina edənlərin dediklərinə görə, bu adət bax buna görə müəyyənləşmişdir: Bir dəfə Herakl Zevsi hökmən görmək istəyir, o isə heç də istəmir ki, Herakl onu görsün. Herakl (görüş üçün) təkid edəndə Zevs bir kələk işlədir: o, qoyunun dərisini soyub başını bədəndən üzür, sonra yunlu dərini əyninə keçirib, qoyunun başını da üzünə tutub Heraklın gözünə görünür. Buna görə də misirlilər Zevsi qoyun şəklində təsvir edirlər, bunu da misirlilərdən ammonlar götürmüşlər (onlar misirlilərdən və efioplardan törəmişlər, dilləri isə bu xalqların dillərinin qarışığından ibarətdir). Buna görə ammonlar öz adlarını Zevsdən götürmüşlər; axı, Misirdə Zevsi Ammon adlandırırlar. Bax, beləliklə, fivalılar qoyundan qurban kəsmirlər; yuxarıda xatırladılmış səbəbə görə, qoyunu müqəddəs sayırlar, yalnız ilin ancaq Zevs bayramı günündə onlar bircə qoyun kəsib, dərisini soyurlar və bir vaxt allahın özünün etdiyi kimi bu dərini Zevsin heykəlinə geyindirirlər. Sonra onlar Heraklın başqa heykəlini bunun yanına gətirirlər. Bundan sonra məbəd sahəsinin bütün əhalisi qoyuna yas tutub ağlaşır və onu müqəddəs türbədə dəfn edirlər.10

43. Herakl haqqında belə eşitmişəm ki, on iki allah dəstəsinə mənsubdur. Əksinə, Elladada məlum olan Herakl haqqında mən Misirdə heç nə öyrənə bilmədim. Bununla belə, misirlilərin Heraklın adını ellinlərdən deyil, əksinə, ellinlərin bu adı misirlilərdən götürdükləri haqqında məndə çoxlu sübut vardır. Amma bu iki Heraklın ata-anası eynidir - Amfitrion və Alkmena mənşəcə misirdəndirlər. Misirlilər bunu da təsdiq edirlər ki, Poseydon və Dioskur adı onlara bəlli deyil və bu allahlar o biri

downloaded from KitabYurdu.org

allahlar dəstəsinə daxil edilmirlər. (Misirlilərin lap qədim dövrlərdən dənizçiliklə məşğul olduqlarını, eləcə də ellinlər içərisində də dənizçilər olduğunu mülahizə edərək və buna tamamilə əmin olaraq mən belə düşünürəm ki, doğrudan da onlar ümumən hər hansı bir allah adını ellinlərdən götürmüş olsaydılar, onda gərək məhz bu allahların adına öncə götürəydilər. Məhz buna görə misirlilər Heraklın adından əvvəl bu allahların adını bilməli idilər. Amma Herakl Misirin qədim allahıdır və özlərinin təsdiq etdiyi kimi (ilk nəsil olan) səkkiz allah dəstəsindən on iki allahın, onlardan da biri sayılan Heraklın törəməsi üçün Amasisin hökmranlığına qədər 1700 il gəlib keçmişdir.

44. Bax, beləliklə, bu məsələni mümkün qədər çox aydınlaşdırmaq üçün mən Heraklın Finikiya Tirində ibadətgahı olduğunu öyrənərək su yolu ilə oraya getdim. Mən nəzirlərlə zəngincəsinə bəzənmiş bu ibadətgahı gördüm. Müxtəlif nəzirlər içərisində iki sütun da vardı: biri xalis qızıldan, o biri gecə parlaq işıq saçan zümrüddən. Mən allahın kahini ilə söhbət etməli oldum və ondan soruşdum ki, bu ibadətgah çoxdanmı tikilmişdir? Məlum oldu ki, bu məsələdə onlar ellinlərin fikrinə şərik olmurlar. Onların sözündən belə çıxır ki, allahın ibadətgahı Tir şəhərinin əsası qoyulanda tikilmişdir, onların Tirdə yaşamağa başladıqları vaxtdan da 2300 il gəlib keçir. Mən Tirdə əhalinin Fasos Heraklı adlandırdığı başqa bir məbəd də gördüm. Fasosa da getdim, orada finikiyalıların Avropanı axtarmağa gedəndə yolları üstündə tikdikləri Herakl ibadətgahını tapdım. Bu da Elladada Amfitrion oğlu Heraklın doğulmasından ən azı beş nəsil əvvəl olmuşdur. Bizim bu axtarışlarımız aydın göstərir ki, Herakl qədim allahdır. Buna görə də, mən belə düşünürəm ki, bəzi ellin şəhərləri iki Herakla məbəd tikməklə düzgün hərəkət edirlər. Məbədlərin birində ona Olimp ölməzi, o birində isə bir qəhrəman kimi ehsan qurban kəsirlər.

45. Elladada daha başqa cür çoxluca cəfəng rəvayətlər gəzir. Məsələn, Herakl Misirə gələndə misirlilərin onun başına çələng qoyması, sonra da təntənəli mərasimlə onu Zevsə qurban kəsməyə aparmaları haqqında rəvayət uydurmadır. Herakl əvvəl müqavimət göstərmirmiş, amma misirlilər mehrabda onu kəsmək, istəyəndə, o, var qüvvəsini toplayıb bütün misirliləri qırmışdır. Mənim fikrimcə, ellinlər bu cür

downloaded from KitabYurdu.org

hekayətlərlə misirlilərin adət mərasimləri haqqında özlərinin tam xəbərsiz olduqlarını sübut edirlər. Amma işin həqiqətinə qalanda, donuzlardan, buğa və danalardan (bunlar da "pakdırlarsa"), bir də ördəklərdən başqa bir ev heyvanını öldürməyə icazəsi olmayan adamların insanları qurban kəsməsi mümkündürmü? Bununla birlikdə, Herakl oraya tək-tənha gəlmişdisə, onların öz sözlərinə görə ölümlü olmuşdursa, onda bu qədər çoxlu adamı necə öldürə bilmişdir? Biz ki, allah işlərindən bu qədər danışmışıq, qoy allahlar və qəhrəmanlar bizə rəhm eləsinlər!

46. Beləliklə, xatırladılan bölgələrdə misirlilər keçiləri və inəkləri qurban kəsməyə bu səbəbə görə gətirmirlər. Mendeslilər səkkiz allah dəstəsinə Panı da qatırlar və təsdiq edirlər ki, bu səkkiz allah on iki allahdan daha qədimdir. Rəssamlar və heykəltəraşlar isə, ellinlərin etdiyi kimi, Panın keçi başlı, keçi ayaqlı şəklini çəkir, surətini həkk edirlər. Əlbəttə, belə şəkli doğru hesab etmirlər, çünki onların təsəvvürünə görə bu allah da başqa allahların görkəmindədir. Amma onların həmin allahı nə üçün bu cür çəkib və həkk etdiklərini söyləməyə çətinlik çəkirəm. Mendeslilər bütün keçiləri müqəddəs, təkələri isə daha müqəddəs sayırlar, erkək keçi çobanı onlarda daha hörmətlidir. Amma onlar erkək keçiyə daha çox səcdə edirlər və onun ölümü bütün Mendes tərəflərdə böyük kədərə səbəb olur. Bu keçi isə hər iki dildə eyni məna daşıyaraq ellincə Pan, misircə Mendes adlanır. Mən bu tərəflərdə olanda heyrətamiz hadisə baş verdi: erkək keçi açıqcasına qadınla əlaqəyə girdi. Bunu da hamı bildi.

47. Misirlilər donuzu murdar heyvan sayırlar. Əgər donuzun yanından keçən bir kəs ona toxunarsa, dərhal çaya gedir və əynindəki paltarla birlikdə suya girir. Eləcə də bütün misirlilər içərisində mənşəcə misirli olmasına baxmayaraq, donuz otaranların hər hansı Misir məbədinə ayaq basması qadağan olunmuşdur. Heç kəs öz qızını onlara ərə vermək, və ya onlardan qız almaq istəmir, beləliklə, onlar yalnız öz aralarında evlənirlər və ya ərə gedirlər. Misirlilər Selena və Dionis allahından başqa allahların heç birinə donuzdan qurbanlıq gətirmirlər, bu allahların özünə də ancaq müəyyən vaxtda, məhz mahtab zamanı donuz qurbanı kəsirlər. Qurban kəsəndən sonra donuz əti yeyirlər. Nə üçün başqa bayramlarda donuz qurbanına etina etməyib,

downloaded from KitabYurdu.org

amma bu bayramda donuz qurbanı kəsirlər sualı ilə bağlı olaraq misirlilərdə rəvayət vardır. Mən bu rəvayəti bilirəm, amma danışmağı ədəbdən kənar sayıram. Donuzun Selenaya qurbanlıq gətirilməsi isə bax, belə icra olunur. Donuz kəsiləndən sonra kahin quyruğun ucunu, dalağı və piyliyi yanbayan qoyub onların üstünü heyvanın iç yağı ilə örtür. Sonra bütün bunlar odda yandırılır. Ətin qalanını bir də mahtab günü qurban kəsəndə yeyirlər. Başqa günlərdə heç kəs donuz əti yeməz. Kasıblar isə (yaşayış) vasitələrinin kasadlığından buğda xəmirindən donuz fiquru düzəldib onu bişirirlər və qurban gətirirlər.

48. Hər bir misirli Dionisin şərəfinə bayram axşamı öz evinin qapısında çoşqa kəsir və bu qurbanı ona satmış olan çobana verir. Misirlilər Dionisin şərəfinə keçirilən bayramların qalan cəhətlərini (xor istisna edilməklə) eyni ilə ellinlərdəki kimi icra edirlər. Fərq təkcə bundadır ki, onlar fallos əvəzinə başqa bir rəmz-bir dirsək boyda olub qaytanlarla hərəkətə gətirilən kukla-kiçicik heykəl gəzdirməyi düşünüb tapıblar. Açılıb-yumulan qadın tənasüllü bu kuklaları kəndbəkənd gəzdirirlər, həm də bu tənasül elə kuklanın özü boyda olur. Qabaqda fleytaçı addımlayır, onun arxasınca da Dionisi tərənnüm edən qadınlar gedirlər. Kuklanın tənasülünün nə üçün bu qədər böyük olması və kukla bədənində yalnız bu tənasülün açılıb-yumulması haqqında müqəddəs əfsanə vardır.

49. Mənə elə gəlir ki, Amifeonun oğlu Melampod bu bayramı bilməmiş deyildi, bəlkə əksinə, onu yaxşıca bilirmiş. Axı, Dionisin adını ellinlərə tanıdan, onları bu allahın şərəfinə keçirilən bayramla və fallik yürüşlə məhz Melampodun özü tanış etmişdir. Əlbəttə, o, bayramı Dionisə sitayiş üçün keçirəndə onu bütün təfsilatı ilə icra etməmişdir, sonralar gələn fazillər (sitayişin mənasını) ellinlərə daha geniş izah etmişlər. Amma, Dionis şərəfinə keçirilən bayramdakı yürüşdə fallos gəzdirməyi Melampod dəbə salmışdır, bu adət ellinlərə ondan qalmışdır. Mən isə bu fikirdəyəm ki, Melampod-bu müdrik adam, özünün peyğəmbər hünərini heç də (allahlardan) almamışdır və bunun üçün bəlkə özünə borcludur. O, bu Misir adətini eşidib ellinlər arasında olan başqa adətlərlə yanaşı, Dionisə xidməti də cüzi dəyişikliklə dəbə salmışdır. Buna görə mənə elə gəlir ki, bu allaha Misirdə və ellinlərdə xidmət

downloaded from KitabYurdu.org

adətinin oxşarlığı heç də təsadüfi deyil. Əgər belə olsaydı, bu adətlər ellin mərasimlərinə daha uyğun gələrdi və bu qədər sonralar meydana çıxmazdı. Eləcə də təsəvvür edə bilmirəm ki, misirlilər bu və ya hər hansı başqa bir adəti ellinlərdən götürmüş olsunlar. Mən belə düşünürəm ki, Melampod misirlilərin Dionisə xidməti ilə hər şeydən əvvəl, tirli Kadm və onunla birlikdə Finikiyaya-indi Beotiya adlanan ölkəyə gəlmiş dostlarının vasitəsi ilə tanış olmuşdur.

50. Ümumiyyətlə, bütün ellin allahlarının adı öz mənşəyinə görə Misirdən gəlir. İndi ki, bu adlar barbar mənşəlidir, onda, hər şeydən əvvəl, belə hesab edirəm ki, onlara Misirdən keçmədir. Bunu mən sorğular nəticəsində dəqiq müəyyənləşdirmişəm. Axı, Poseydondan və Dioskurlardan başqa (bu haqda mən yuxarıda qeyd etmişəm), Heralar, Hestiyalar, Femidalar, Xaritlər və Nereidlər, bütün başqa ellin allahlarının adları çox qədimlərdə misirlilərə bəlli idi. Mən yalnız misirlilərin təsdiq etdiklərini təkrar edirəm. Misirlilərin dediklərinə görə adlarını bilmədikləri başqa allahlara gələndə, mən belə fikirləşirəm ki, Liviyadan törəmiş Poseydondan başqa həmin allahların adları pelasqlardandır. Axı, əvvəllər Poseydonun adını bu allaha çox qədimdən bəri səcdə edən liviyalılardan başqa heç bir xalq bilmirdi. Bununla belə, misirlilərdə qəhrəmanlara səcdə etmək adəti yoxdur.

51. Bu adətləri, xatırladacağım çoxluca başqa adətləri ellinlər misirlilərdən götürmüşlər. Əksinə, Hermesi tənasülünü dadızdırmış vəziyyətdə əks etdirmək adətini ellinlər misirlilərdən deyil, pelasqlardan mənimsəmişlər. Bu adəti ilk dəfə götürən ellin tayfası afinalılardır, onlardan da bütün başqa tayfalar qəbul etmişlər. Axı, o vaxt afinalılar artıq ellinlərdən sayılırdılar, pelasqlar Attika torpağına köçdükləri üçün o vaxtdan Attika əhalisi də ellinli hesab edilməyə başlamışdır. Pelasqlardan götürülüb Samofrakiyada icra olunan məxfi Kabir qulluğundan kimin xəbəri varsa o, məni başa düşər. Axı, əvvəllər Samofrakiyada həmin o pelasqlar yerləşmişdilər ki, sonralar afinalıların arasına köçmüşlər və samofrakiyalılar da bu dini ayinləri pelasqlardan götürmüşlər. Beləliklə, ilk dəfə afinalılar Hermesi aləti durmuş vəziyyətdə təsvir etməyə başlamışlar və onlar bunu pelasqlardan

downloaded from KitabYurdu.org

öyrənmişlər. Pelasqlarda isə bu barədə müqəddəs əfsanələr vardır ki, onlar Samofrakiya misteriyalarında özünü göstərir.

52. Dodonada öyrəndiyimə görə pelasqlar əvvəllər allahlara qurban kəsərmişlər, amma ayrı-ayrı allahların adını çəkib ona müraciət etməzlərmiş, axı onlar hələ allahların adlarını bilmirlərmiş. Pelasqlar onlara ona görə "allahlar" adı vermişlər ki, allahlar dünya nizamı yaradıb, bütün nemətləri özləri bölüşdürürmüşlər. Bundan uzun müddət keçəndən sonra pelasqlar, (çox sonralar tanış olduqları Dionisin adından başqa) bütün allahların adını Misirdən öyrənmişlər. Sonra da Dodonada bu adlar haqqında rəmmala sorğular vermişlər (axı, bu rəmmallıq Elladada ən qədim peşə hesab edilmiş, həm də yeganə olmuşdur). Bax, beləliklə, pelasqlar Dodonada rəmmala allah adlarını barbarlardan qəbul etmək olarmı sorğusu verəndə rəmmal təsdiqedici cavab vermişdir. Bu vaxtdan da pelasqlar qurban mərasimində allah adlarını çəkməyə başlamışlar, Ellinlər bu adları daha sonralar pelasqlardan götürmüşlər.

53. Ellinlər ayrı-ayrı allahların şəcərəsi, onların siması, hansı əsrlərdən məlum olması haqqında biliyi yalnız dünəndən-srağagündən öyrənməyə başlamışlar. Mənim fikrimcə, axı, Hesiod və Homer məndən ancaq 400 il əvvəl yaşamışlar. Ellinlər üçün allahların şəcərəsini ilk dəfə onlar müəyyənləşdirmiş, onlara ad və ayama vermiş, şərəf və fəaliyyət dairəsini aralarında bölüşdürüb, surətlərini təsvir etmişlər. Onlardan da yaşca böyük hesab edilən şairlər, mənim fikrimcə, əslində, onlardan sonra doğulmuşlar. Mən bundan əvvəlki fəsillərdə bildirdiyim şeyləri Dodonadakı kahinlərdən eşitmişəm, Hesiod və Homer haqqında son sözüm isə şəxsi qənaətimdir.

54. Ellada kahinliyi və Liviya rəmmallığı haqqında Misirdə bax, belə danışırlar. Fivadakı Zevs kahinləri mənə danışdılar ki, iki qadını, iki Fiva kahinini finikiyalılar aparmışlar və öyrənildiyinə görə onlardan biri Liviyaya, o, biri Elladaya satılmışdır. Elə həmin qadınlar da xatırladılan xalqlarda ilk rəmmallığın əsasını qoymuşlar. Mən soruşanda ki, onlar belə dəqiq məlumatı haradan almışlar, kahinlərə mənə cavab verdilər ki, doğrudur, onlar qadınları tapa bilməsələr də, çox canfəşanlıqla

downloaded from KitabYurdu.org

axtarmışlar və mənə danışdıqlarını da sonralar öyrənmişlər. Fiva kahinləri mənə belə məlumat vermişlər.

55. Dodonada kahinlər mənə bax bunu çatdırdılar. Bir dəfə Misir Fivasından iki dişi qara göyərçin uçub getdi-biri Liviyaya, o biri onlara, yəni Dodonaya. Göyərçin palıd ağacına qonub insan dili ilə buyurdu ki, burada Zevsə bir kahinlik tikilsin. Dodonalılar bunu allah buyruğu kimi başa düşüb onu yerinə yetirdilər. Liviyaya uçub gələn göyərçinsə, deyilənə görə, buyurdu ki, orada Ammon kahinliyinin binası qoyulsun. Elə bu da Zevsin kahinidir. Bunu mənə Dodona kahinləri danışdılar. Onların böyüyünün adı Promeniya, ortancılının adı Timareta, kiçiyinin də adı Nikandra idi. Dodonada, məbəd xidmətçiləri olan başqa adamlar da onların danışdıqları hekayətləri mənə iqrar etdilər.

56. Bu barədə mənim şəxsi fikrim bax belədir: finikiyalılar, doğrudan da, bu qadınları məbəddən oğurlayıb birini Liviyaya, o birini Elladaya satmışlarsa, onda, mənim fikrimcə, bu axırıncı qadın Elladada Fesprotiyaya gəlibdir (o vaxt Ellada hələ Pelasqiya adlanırdı). Burada, əsir kimi əzəmətli bir palıdın altında Zevsə ibadətgahın əsasını qoymuşdur, belə ki, əvvəllər Fivada Zevs məbədinin xidmətçisi olmaq etibarı ilə gəlib düşdüyü qürbət eldə də, təbii olaraq, Zevsi xatırlamışdır. Ellin dilini öyrəndikdən sonra isə kahinlik təşkil edib, bacısının da onun özünü satmış olan finikiyalılar tərəfindən oğurlandığını və Liviyaya satıldığını danışır.

57. Mən belə düşünürəm ki, dodonalılar bu qadınları yad ölkədən gəldiklərinə və onların danışığını quş civildəməsinə bənzətdiklərinə görə göyərçin adlandırmışlar. Sonra bu göyərçinin insan dilində danışmağa başlaması da o deməkdir ki, dodonalılar artıq bu qadının danışığını başa düşmüşlər. Amma o, yad dildə danışdığından bu, dodonalılara quş civildəməsi kimi gəlirmiş. Doğrudan da, göyərçin insan kimi necə danışa bilərmiş? Onlar qadını qara göyərçin adlandırmaqla onun misirli olduğuna işarə edirlər.

downloaded from KitabYurdu.org

58. Misir Fivasında və Dodonada rəmmallıq üsulu demək olar ki, eynidir. Qurbanlıq heyvanlara görə qeybdən xəbər vermək məharəti də Elladaya Misirdən gəlmədir. Daha sonra, misirlilər öz aralarında ümumxalq bayramları və təntənəli yürüşlər keçirməyi bütün xalqlardan əvvəl başlamışlar. Ellinlər (bütün bunları) onlardan götürmüşlər. Sübutu da bundan ibarətdir ki, bu Misir bayramları, görünür, çoxdan qəbul olunmuşdur, ellinlərin bayramları isə yaxın zamanlarda müəyyənləşmişdir.

59. Misirlilər ümumxalq bayramlarını yalnız ildə bir dəfə deyil, çox tez-tez keçirirlər. Onlar daha çox və daha böyük həvəslə Artemidanın şərəfinə keçirilən bayramlarda Bubəstis şəhərinə, sonra da İsida şərəfinə bayramlarda Busiris şəhərinə toplaşırlar. Axı, İsidanın ən böyük məbədi bu şəhərdədir. Şəhər özü Misir Deltasının ortasında yerləşir. (İsida-Demetranın misircə adıdır). Üçüncü bayram şənlikləri Afinanın şərəfinə Sais şəhərində, dördüncü bayram Heliosun şərəfinə Heliopol şəhərində, beşinci bayram Latona şərəfinə Buto şəhərində, altıncı bayram da Aresin şərəfinə Papremisdə olur.

60. Misirlilər Bubastis şəhərinə gedəndə belə edirlər: arvadlar və kişilər gəmilərə minib bir yerdə yola düşürlər, hər gəmidə həm çoxlu kişi olur, həm də çoxlu arvad. Bəzi qadınların əlində şax-şaxlar olur ki, bunları şaqqıldatıb hay-küy salırlar. Bəzi kişilər də bütün yol boyu fleyta çalırlar. Qalan kişilər və qadınlar isə oxuyub çəpik vururlar. Onlar hər hansı bir şəhərə çatanda sahilə yan alıb belə edirlər: bəzi arvadlar şax-şaxları dediyim kimi şaqqıldadır, başqaları da bu şəhərin arvadlarını çağıraraq onları ələ salır, bir qismi oynayır, daha bir qismi də ayaq üstə durub tumanının ətəyini qaldırırlar. Onlar hər bir çayqırağı şəhərdə bu cür hərəkət edirlər. Nəhayət, onlar Bubəstisə çatıb bolluca qurban kəsərək, bayram şənliyi keçirirlər: bu bayramda ilin qalan dövründəkindən daha çox üzüm çaxırı içirlər. Yerli camaatın dediyinə görə buraya uşaqlardan başqa, hər iki cinsdən 700.000 adam toplaşır.

61. Bubəstisdəki şənliklər bu cür olur. Busirisdə İsida bayramı haqqında mən artıq yuxarıda danışmışam. Şənlik iştirakçısı olmuş on minlərlə kişi və qadın qurban

downloaded from KitabYurdu.org

kəsiləndən sonra yas əlaməti olaraq sinə döyürlər. Onların kimə yas tutub ağladıqlarını söyləməyə mənə ixtiyar verilməmişdir. Misirdə yaşayan karilər isə bu ayində daha qatı hərəkət edirlər: onlar bıçaqla alınlarını yarırlar, bununla da aydın olur ki, onlar misirli deyil, yadellidirlər.

62. Misirlilər Saisdəki bayrama toplaşanda qurban kəsiləndən sonra çoxluca çıraq (məşəl) yandırır və evlərin ətrafına qoyurlar. Bu çıraqlar isə duz və yağla doldurulmuş kiçik metal qablardır ki, piltənin ucu onun üstündə alışıb yanır. Çıraqlar bütün gecəni yanırlar, bu bayram çıraq yandırılma bayramı adlanır. Hətta, Sais təntənələrində iştirak etməyən misirlilər də bu bayramı icra edirlər; qurban kəsiləndən sonra hamı çıraq yandırır, beləliklə də çıraq yandırma mərasimi yalnız Saisdə deyil, bütün Misirdə icra olunur. Həmin gecə nə üçün çıraq yandırılması və bu qədər təntənəli (bayram) keçirilməsi haqda müqəddəs əfsanələrdə bəhs edilir.

63. Misirlilər Heliopola və Butoya yalnız qurban kəsmək üçün yığışırlar. Papremisə isə qurban da gətirirlər, başqa yerlərdə olduğu kimi bayram təntənəsi də keçirirlər. Hər dəfə gün qərbə doğru əyiləndə kahinlərin çox az qismi allahın heykəlinə qulluq göstərir, onların çoxu əllərinə ağac dəyənək alıb ibadətgahın girəcəyində dayanırlar. Onların qarşısında niyyətlərini yerinə yetirən mindən artıq zəvvar dayanır (onların da əlində ağac dəyənək olur). Allahın heykəlini isə bayram ərəfəsi gecədə məbəd şəklində olan qızıla tutulmuş taxta mücrüdə təzə müqəddəs aramgaha aparırlar. Allahın heykəli yanında qalmış bir neçə kahin heykəlin qoyulduğu mücrünü dörd təkər üstündə çəkib aparır. Darvazanın və astananın qabağında dayanmış kahinlər isə bu kahinləri buraxmırlar. Onda niyyət etmiş zəvvarlar allahı müdafiə etməyə başlayıb kahinləri vururlar, onlar da (öz növbəsində) bunlara müqavimət göstərirlər. Dəhşətli dəyənək davası başlayır, vurub bir-birinin başını yarırlar və belə düşünürəm ki, çoxları aldıqları yaradan ölür. Doğrudur, misirlilər iqrar edirlər ki, bu davada ölən olmur. Yerli əhalinin dediyinə görə, bu bayram bax buna görə əmələ gəlmişdir: Bu məbəddə Aresin anası yaşayırmış. Ares də ata-anadan uzaqlarda tərbiyə olunurdu. O, igidlik yaşına dolub anasının görüşünə gələndə, anasının onu heç vaxt görməyən nökərləri Aresi anasının yanına

downloaded from KitabYurdu.org

buraxmamışlar. Onda Ares özgə şəhərdən adamlar gətirib nökərlərə amansız divan tutub anasının hüzuruna getmişdir. Deyirlər ki, Aresin şərəfinə keçirilən bayramdakı bu dalaşma mərasimi həmin hadisədən gələn bir adətə dönmüşdür.

64. Məbədlərdə arvadlarla əlaqəyə girməmək və qadınla əlaqədən sonra dəstəmaz almayınca məbədə girməmək adətini ilk dəfə misirlilər dəb salmışlar. Axı, misirlilərdən və ellinlərdən başqa bütün digər xalqlar qadınlarla məbəddə əlaqəyə girirlər və əlaqədən sonra yuyunmadan ibadətgaha qədəm qoyurlar. Onlar belə hesab edirlər ki, insanlar da bir növ heyvan kimidirlər. Axı, onlar heyvanların və quşların məbədlərdə və allahların müqəddəs ormanlarında cütləşdiyini görürlər. Bu allahlara xoş getməsəydi, onda bunu, əlbəttə heç heyvanlar da etməzdi. Həmin adamlar da məhz bu səbəbə belə hərəkət edirlər. Amma bu dəlil mənim xoşuma gəlmir.

65. Misirlilər dini mərasimlərə, xüsusən indi sayacağım mərasimlərə çox ciddi riayət edirlər. Misir Liviya ilə həmsərhəd olsa da, orada vəhşi heyvan o qədər də çox deyil. Amma burada olan istər ev heyvanlarının, istərsə də vəhşi heyvanların hamısı müqəddəs sayılır. Əgər onların nə üçün müqəddəs sayılması haqqında danışmaq istəsəm, onda mən (misirlilərin) dini təsəvvürlərinə toxunmalı olacağam, halbuki mən bundan mümkün qədər qaçmağa çalışıram. Bu barədə ötəri xatırlatdımsa da, məcburən elədim. Heyvanlara (sitayiş) adətləri isə bax bunlardan ibarətdir. Hər bir heyvan növünə qulluq eləmək üçün misirli kişi və qadınlardan xüsusi xidmətçilər təyin edilmişdir və bu xidməti vəzifə irsi olaraq atadan oğula keçir. Şəhərin hər bir sakini müqəddəs heyvanlara ixlaskarlığını bax, belə göstərir. Müəyyən növ heyvanın nəzir deyildiyi allaha duadan sonra onlar öz uşaqlarının başını ya tamam, ya da üçdə bir hissəsini qırxdırıb, sonra qırxılmış tükü gümüşlə çəkiyə qoyurlar. Tərəzidə tükün ağırlığı nə qədər gümüş aparırsa, onlar xidmətçilərə bir o qədər gümüş verirlər, xidmətçilər də heyvanın yemi üçün gümüşün həmin dəyərincə balıq doğrayırlar. Bu heyvanların yemlənməsi üsulu belədir. Əgər bir nəfər bu heyvanlardan birini qəsdən öldürsə, ona ölüm cəzası kəsilir; yox, bilmədən öldürsə, onda kahinlərin müəyyənləşdirdiyi məbləğdə cərimə verir. Hər kəs qara leylək və ya qırğı öldürsə, hər halda, ölümə məhkum edilməlidir.

downloaded from KitabYurdu.org

66. Misirlilərdə ev heyvanları çox olsa da, pişiklərin başına belə bir qəribə iş gəlməsəydi, onların sayı daha çox ola bilərdi. Dişi pişiklər hər dəfə balalayandan sonra bir də erkək pişiklərin yanına getmirlər, onlar da cütləşmək üçün pişik tapa bilmirlər. Buna görə də erkək pişiklər belə kələk işlədirlər: onlar balaları zorla ana pişiklərdən qaçırdıb öldürür, amma onları yemirlər. Balalarından məhrum olan pişiklər isə, təzə bala istəyərək erkəklərin yanına gedirlər. Axı, bu heyvan bala sevir. Yanğın zamanı dişi pişiklərə qəribə bir şey üz verir. Misirlilər yanğını söndürmək qayğısına qalmırlar, ancaq yanğın sahəsini dövrəyə alıb pişikləri qoruyurlar, onlar isə adamların arasından keçib və üstündən hoppanıb özlərini alova atırlar. Bu, misirliləri dərindən kədərləndirir. Pişik öləndə ev sakinlərinin hamısı ancaq qaşlarını qırxdırır. İt öləndə isə hamı bədəninin tükünü və saçını qırxdırır.

67. Dişi pişiklərin cəmdəyini Bubəstisə aparıb, mumiyaladırlar və oradakı müqəddəs aramgahlarda dəfn edirlər. İtləri isə hər kəs öz şəhərindəki müqəddəs türbələrdə dəfn edir. İxnevmonları da itlər kimi dəfn edirlər; yereşənləri və qırğıları Buto şəhərinə, qara leyləkləri isə Hermopola aparırlar. Misirdə təkəmseyrək olan ayıların və tülkülərə nisbətən bir qədər çox olan canavarların cəmdəyini harada tapsalar, orada da dəfn edirlər.

68. Timsahlar haqqında bax, bunu demək lazımdır. Timsah dörd qış ayında heç nə yemir. O, dördayaqlı və quruda-suda yaşayan heyvan olsa da, torpağa yumurta salıb, onun üstündə qırt yatır, bala çıxarır. Timsah günün əksəriyyətini quruda keçirib, gecəni suda qalır. Axı, su gecələr havadan və şehdən isti olur. Tanıdığımız bütün heyvanlar içərisində bircə bu heyvan ən kiçicik haldan ən böyük hala düşür. Axı, timsah yumurtası qaz yumurtasından azacıq böyük olur, onun balası da yumurta boyda olub, yumurtadan çıxanda cınqılı olur. Böyüyəndə 17 dirsəyə, hətta daha artıq uzunluğa çatır. Timsah gözü donuz gözü sayağındadır, dişləri iridir və bədəninə uyğun olaraq qılınc kimi kənara çıxır. Bu-yeganə heyvandır ki, təbiətən dilsizdir. Onun alt çənəsi hərəkətsizdir. Timsah yalnız üst çənəsini alt çənəsinin üstündə hərəkət etdirir, bununla da başqa heyvanlardan fərqlənir. Onun caynaqları iti, belinin dərisi bərk və pulludur. Suda kor olan timsah, quruda lap yaxşıca görür. Suda

downloaded from KitabYurdu.org

yaşadığından ağzının içi həmişə zəli ilə dolu olur. Bütün başqa vəhşilər və quşlar timsahdan çəkindikləri halda, troxil deyilən quş onun dostudur, çünki ona qulluq göstərir. Belə ki, timsah sudan çıxıb cəhəngini açanda (bu da, adətən, ancaq qərb küləyi əsəndə olur), bu quş onun cəhənginə düşüb zəliləri dimdikləyir. Bu qulluq timsaha xoş gəlir və o, troxilə ziyan vermir.

69. Bax, beləliklə, Misirin bəzi yerlərində timsahlar müqəddəs sayılır, bəzi yerlərdə isə müqəddəs hesab edilmir, hətta onlara düşmən münasibəti göstərilir. Fivanın və Merida gölünün əhalisi timsahları müqəddəs tuturlar. Orada hərə bir əl timsahı saxlayır. Bu timsahların qulaqlarına qızıla tutulmuş şüşədən sırğa taxırlar, qabaq pəncələrinə də üzük keçirirlər. Ona xüsusi təyin olunmuş müqəddəs yemək verir, nə qədər yaşasa, ona son dərəcə qayğıkeşliklə qulluq göstərir və öləndən sonra mumiyalatdırıb müqəddəs aramgahlarda dəfn edirlər. Elefantina şəhərinin əhalisi isə əksinə, timsahları müqəddəs saymır, hətta onlardan xörək üçün istifadə edirlər. Orada bu heyvanı timsah deyil "xampsa" adlandırırlar. Onu ionlar timsah adlandırmışlar, çünki onlar bu heyvanı özlərinin bostanında yaşayan kərtənkələ kimi təsəvvür etmişlər.

70. Timsahı müxtəlif üsullarla tuturlar. Mən, təsəvvür etdiyimə görə daha artıq xatırlanmağa layiq olan belə bir üsulu təsvir edəcəyəm. Donuz onurğasını tələ yemi kimi qarmağa taxıb çayın ortasına atırlar. Ovçu da sahildə dayanıb saxladığı çoşqanı döyməyə başlayır. Çoşqanın cığ-vığına cəlb olunan timsah onurğanı tapıb udur. Ovçular da bu heyvanı dartırlar. Elə ki, çəkib sahilə çıxardırlar, onda əvvəlcə gözünə palçıq atırlar. Bundan sonra heyvanın öhdəsindən gəlmək asan olur, yoxsa öhdəsindən gəlmək çox çətin olar.

71. Hoppopotamlar Papremis əyalətində müqəddəs sayılırlar, Misirin qalan yerlərində isə yox. Onların zahiri görünüşü bax belədir: dördayaqlı, cütdırnaqlı, yastısifət, at yalmanlı, qabağa çıxmış qılıncdişli, at quyruqlu, səsi də at səsini xatırladan bu heyvan nəhəng buğa boydadır. Hippopotamın gönü elə qalındır ki, quruyanda ondan nizələrə sap qayrılır.

downloaded from KitabYurdu.org

72. Çayda (Nildə) su samuru da olur ki, onlar da müqəddəs ayılır. Misirdə balıqlar içərisində lepidot deyilən balıq və sızanaq müqəddəs hesab edilir. Deyilənə görə, bu balıqlar Nilə nəzir olunmuşlar. Misirlilər quşlardan boynu-başı yoluq qazları müqəddəs tuturlar.

73. Simurğ adlanan bir quş da orada müqəddəsdir. Mən canlı simurğu deyil, ancaq onun şəklini gördüm, belə ki, o, Misirə nadir halda uçub gəlir. Heliopolda deyirlər ki, 500 ildən bir dəfə, özü də ancaq atası öləndə gəlir. Əgər şəkli əslinə uyğundursa, onda bu quşun görkəmi və boyu bax belədir: onun lələkləri qismən qızılı, qismən də qırmızıdır. Görkəminə və boyuna görə daha çox qartalı xatırladır. Onun haqqında bax belə şeylər danışırlar (bu hekayət mənə həqiqətə uyğun görünmür). Simurğ guya Ərəbistandan uçub gəlir və atasının ətirli qətran yaxılmış cəsədini Helios məbədinə gətirərək burada dəfn edir. Cəsədi isə bax bu cür gətirir: əvvəlcə ətirli qətrandan qaldırıb apara biləcəyi boyda bir yumurta hazırlayır, sonra onu qaldırmaq üçün özünü sınayır, belə sınaqdan sonra simurğ yumurtanı deşir və atasının cəsədini onun içinə qoyur. Bundan sonra yumurtanın deşilmiş yerini təzədən ətirli qətranla bitişdirir. Bu vaxt yumurta cəsədlə birlikdə yumurtanın əvvəlki ağırlığı qədər olur. Onda simurğ yumurtanı (özü ilə) Misirin Helios məbədinə aparır. Danışılanlara görə, bu quş bax belə bir iş görür.

74. Fiva əyalətində zəhəri insanlar üçün heç də "öldürücü" olmayan müqəddəs ilanlar var. Başında iki buynuzu olan bu ilanlar balacadırlar. Ölmüş ilanları Zevs məbədində dəfn edirlər, belə ki, misirlilərin dediklərinə görə, ilanlar bu allaha nəzir deyilmişlər.

75. Ərəbistanda təxminən Buto şəhərinin yaxınlığında bir yer var. Mən qanadlı ilanlar haqqında bir şey öyrənmək üçün oraya getdim. Oraya gəlib çatanda saysız-hesabsız sümük və onurğa gördüm. Böyük, kiçik, lap balaca (ilan) onurğa sümüyü orada təpə kimi qalaqlanmışdı; belə təpələr çox idi. Sümük yığınları olan bu yerin bax, belə görkəmi var: bura dağ dərələrindən geniş düzənliyə aparan dar bir keçiddir. Bu düzənlik isə Misir düzənliyinə birləşir. Belə bir əfsanə var ki, yaz; gələndə

downloaded from KitabYurdu.org

qanadlı ilanlar Ərəbistandan Misirə uçurlar. Qaraleyləklər bu keçidə qədər uçub onların qarşısına çıxırlar və ilanları Misirə buraxmayıb, onları tələf edirlər. Ərəblərik dediyinə görə, bu səbəbdən də misirlilər qaraleyləklərə bu qədər böyük ehtiram bəsləyirlər. Həmin quşlara məhz buna görə hörmət etdikləri ilə misirlilərin özləri də razılaşırlar.

76. Qaraleyləyin görkəmi də bax belədir: tamam qaradır, ayaqları durna ayağı kimidir, xeyli əyri dimdiyi var, boyu krek quşu boydadır. İlanlarla vuruşan qara leylək belədir. (Leyləyin iki növü vardır) ki, bunların bir növü dəstə-dəstə insanların ətrafına yığılırlar. Onların başı və boğazı lüt olur, (peysərinin, qanadlarının və quyruğunun ucu qara, qalan tükləri ağdır), ayaqları və dimdikləri isə qaraleyləyinki kimidir. Qanadlı ilanlar isə su ilanlarına oxşayırlar. Onların qanadları lələkdən deyil, yarasa qanadı kimi pərdədəndir. Müqəddəs heyvanlar haqqında kifayət qədər danışıldı.

77. Misirlilərin özünə gəldikdə ölkənin əkinçiliyə yararlı hissəsinin əhalisi hər şeydən çox (öz torpaqlarının keçmişi haqqında) xatirələri yaşadırlar, ona görə da onlar başqalarına nisbətən öz ölkələrinin tarixindən daha yaxşı baş çıxarırlar. Mən də bütün səyahətlərim zamanı onlarla əlaqə saxlamalı oldum. Misirlilərin həyat tərzi bax, belədir. Onlar işlətmə vasitələrindən istifadə edərək, hər ayda üç gün dalbadal öz mədələrini təmizləyirlər, qusma və imalə vasitəsi ilə öz sağlamlıqlarını qoruyurlar. Axı, onların təsəvvürünə görə insanların bütün xəstəlikləri yeməkdən törəyir. Liviyalılar istisna olmaqla, misirlilər dünyanın ən sağlam xalqıdır, bu da, mən bilən iqlimdən asılıdır (axı, orada ilin fəsil dəyişikliyi yoxdur). Doğrudan da, insanlara üz verən xəstəliklərin çoxunu iqlim dəyişikliyi, xüsusən ilin fəsil dəyişikliyi gətirir. Onların yedikləri çörək misircə "killestis" adlanan pərincdən hazırlanır. İçdikləri çaxır arpadan alınır, çünki bu ölkədə üzüm tənəki yoxdur. Misirlilər balığı qismən gün altında qaxac, edilmiş, qismən də duza qoyulmuş halda yeyirlər. Quşlardan da duza qoyulmuş ördək və başqa xırda quşlar yeyirlər. Müqəddəs sayılan quşlardan və balıqlardan savayı, qalan quş və balıq növlərini ya qızartıb, ya da soyutma bişirib yeyirlər.

downloaded from KitabYurdu.org

78. Varlı adamların verdiyi qonaqlıqdan sonra bir nəfərə tabutda uzadılmış ölünün taxta üstündəki şəklini süfrə ətrafında dolandırır. Şəkil ölünün cizgilərini canlandıran bir və ya iki dirsək uzunluğunda naxışlı fiqurdan ibarətdir. Həmin fiquru süfrə başındakıların hamısına göstərib bu sözləri deyirlər: "Buna bax, iç və həyatdan həzz al. Axı, öləndən sonra sən də belə olacaqsan!" Misirlilərin qonaqlıq adətləri belədir.

79. Misirlilər öz ölkələrinin yerli mahnılarını qoruyub saxlayaraq, yad ölkə mahnılarını qəbul etmirlər. Diqqətəlayiq adətlərindən biri Finikiyada, Kiprdə və başqa yerlərdə də oxunan Lin nəğməsini oxumaq adətidir. Bu nəğmə müxtəlif xalqlarda müxtəlif ad daşısa da, bunların hamısı, eyni zamanda, Elladada oxunan və Lin adlanan eyni nəğmədir. Ona görə də, Misirdə heyrət doğuran çoxlu şeylər içərisində bu, məni xüsusilə təəccübləndirir: həmin Lin mahnısı onlara haradan gəlib çıxmışdır? Belə görünür ki, onlar bu mahnını çox qədimlərdən, oxuyurlar. Misir dilində Linə Maneros deyilir. Misirlilərin danışdıqlarına görə o, ilk Misir hökmdarının yeganə oğlu olmuşdur. Onun vaxtsız ölümünü misirlilər qəmgin nəğmələrdə (mədh edərək) şərəfləndirirlər, bu nəğmə lap qədimdən onların ilk və yeganə qəmgin nəğməsidir.

80. Misirlilərin ellinlərlə, məhz lakedemonlularla uyğun gələn bir adətləri də var ki, bu belədir: gənclər qocalarla üz-üzə gələndə, bir yana çəkilərək qocalara yol verirlər, yaxud qocalar yaxınlaşanda gənclər oturduqları yerdən ayağa qalxırlar. Başqa bir Misir adəti isə, əksinə, ellin tayfalarının adətinə oxşamır. Misirlilər küçədə sözlə salamlaşmaq əvəzinə, salam əlaməti olaraq əllərini dizlərinə qədər sallayırlar.

81. Misirlilər əyinlərinə "kalasiris" adlanan ətəyi saçaqlı kətan köynək geyinirlər. Bu köynəyin üstündən ağ yun ləbbadə salırlar. Lakin onlar yun paltarda nə məbədə girirlər, nə də ölünü bu paltarda dəfn edirlər. Bu günah sayılır. Bu sahədə ellinlərin orfik deyilən təlimi ilə Misirdən nəşət etmiş vakxik dini mərasimi və pifaqorçular təlimi arasında oxşarlıq vardır. Axı, özünü bu mərasimə həsr edənləri yun paltarda dəfn etmək qadağandır. Onların bu barədə də müqəddəs əfsanələri vardır.

downloaded from KitabYurdu.org

82. Bundan başqa, misirlilər belə bir şey fikirləşib tapmışlar. Onlarda (ilin) hər ayı və ayın hər günü hər hansı bir allaha həsr olunmuşdur. Hər kəs əvvəlcədən müəyyən edə bilər ki, bu və ya başqa bir gündə doğulan uşağın taleyi, aqibəti və xasiyyəti necə olacaqdır. Ellin şairləri bunu da misirlilərdən götürmüşlər. Əlamətlərə və möcüzələrə onlar bütün başqa xalqlara nisbətən daha çox əhəmiyyət verirlər. Belə ki, hər hansı bir möcüzə baş verərsə, misirlilər onun nəticələrini izləyər və qeyd edərlər. Onların fikrincə, oxşar hadisələrin nəticəsi gəldikcə eyni olmalıdır.

83. Qeybdən xəbər vermək məharəti onlarda belədir. Onların fikrincə, peyğəmbərlik vergisi ölümlülərin qismətinə düşməmişdir, bu hünərə yalnız bəzi allahlar qadirdilər. Belə ki, onlarda Heraklın, Apollonun, Afinanın, Artemidanın, Aresin və Zevsin kahinlikləri var. Lakin Buto şəhərindəki Latona kahinliyi daha böyük hörmətə malikdir. Yeri gəlmişkən qeybdən xəbər vermək üsulu hər yerdə eyni cür olmayıb, müxtəlifdir.

84. Həkimlik sənəti isə onlarda ayrılmışdır. Hər bir həkim, bir neçə xəstəliyi deyil, ancaq müəyyən bir xəstəliyi müalicə edir və bütün Misir ölkəsi həkimlə doludur. Belə ki, göz xəstəlikləri, baş xəstəlikləri, diş, qarın və daxili xəstəliklər üzrə həkimlər vardır.

85. Ölüyə ağlaşma qurmaq və onun dəfni bax, belə icra edilir. Əgər, evdə müəyyən hörməti olan bir kişi ölürsə, onda evin bütün qadınları başlarına və ya üzlərinə palçıq yaxırlar. Sonra, ölünü evdə qoyub şəhəri dolaşaraq, çox yuxarıdan qurşaq bağlayırlar və açıq sinələrini göstərib sinə döyürlər. Bütün qadın qohumlar da onlara qoşulur. Digər tərəfdən, kişilər də çox yuxarıdan qurşaq bağlayıb sinə vururlar. Bundan sonra cəsədi mumiyalamağa aparırlar.

86. Bundan ötəri mumiyalamaq sənəti ilə məşğul olan xüsusi adamlar qoyulmuşdur. Onların yanına meyit gətirəndə, bu adamlar ölü sahiblərinə taxtada ölülərin rəngli şəkillərini göstərirlər. Ustalar, bununla yanaşı, ən yaxşı mumiyalama üsulunu tətbiq etdikləri mərhumun adını çəkirlər ki, indiki halda həmin adı tutmaq

downloaded from KitabYurdu.org

mənim üçün münasib deyil. Sonra onlar daha sadə və ucuz üsulu, nəhayət, ən ucuz olan üçüncü üsulu təklif edirlər. Bundan sonra da (qohumlardan) ölünü hansı qiymətə (və hansı üsulla) mumiyalatmaq istədiklərini soruşurlar. Əgər qiymətdə razılaşırlarsa, onda qohumlar evə qayıdır, ustalar da dərhal çox ciddiyyətlə işə başlayırlar. Əvvəlcə dəmir barmaqla beyini burun pərələrindən çölə çıxardırlar. Bu üsulla beyinin yalnız müəyyən hissəsi bayıra tökülür, qalan hissəsi isə (əridici) dərmanlar çiləmək üsulu ilə çıxarılır. Bunun ardınca iti efiop daşı ilə qasıqda yarıq açırlar və bütün qarın boşluğunu içalatdan təmizləyirlər. Ustalar qarın boşluğunu təmizləyib, onu palma çaxırı ilə yuyurlar, sonra narın ovxalanmış ətirli şeylərlə bir də təmizləyirlər. Axırda qarını ovxalanmış təmiz ətirli qətran bitkisi, darçın və (buxurdan başqa) dikər ətirli şeylərlə doldurub yarığı yenidən tikirlər. Bundan sonra meyiti 70 gün ərzində qələvi tortasına qoyurlar. Amma qələvi tortasında 70 gündən artıq saxlamaq olmaz. Bu möhlət qurtarandan sonra meyiti yuyaraq, kəsilib lentlərə bölünmüş visson kətanı ilə sarıyır və üstündən kitrə yaxırlar (bundan yapışqan əvəzinə istifadə edirlər). Bundan sonra qohumları meyiti alıb geri aparır, insan fiquru şəklində taxta sarkofaq hazırlayır və ölünü oraya yerləşdirirlər. Meyiti tabuta qoyub ailəvi türbənin divarı boyu dikinə dayanmış vəziyyətdə saxlayırlar.

87. Varlılar ölülərini bu üsulla mumiyaladırlar. (Birinci) mumiyalama üsulu qohumlara baha görünürsə və onlar ikinci mumiya üsulunu seçirlərsə, onda (ustalar) belə edirlər: ölünün nə qasığını yarır, nə də içalatını çıxarırlar Çiləyici truba vasitəsi ilə qarın boşluğunu sidr yağı ilə yuyurlar. Yağı dal büzdümdən çiləyib, sonra onun geri axmaması üçün büzdümü tıxayır və müəyyən gün ərzində qələvi tortasına qoyurlar. Axırıncı gün əvvəlcədən bağırsağa tökülmüş yağ boşaldılır. Yağ elə güclü təsir göstərir ki, mədəni və içalatı çürüdür və bunlar yağla birlikdə bayıra tökülür. Qələvi tortası isə əti çürüdür, beləliklə də, ölünün bir dərisi, bir də sümüyü qalır. Bundan sonra ölüyə əl vurmadan (qohumlarına) qaytarırlar.

88. Kasıbların mumiyalanması ilə bağlı olan üçüncü mumiya üsulu bax belədir: qarın boşluğuna qırmızı turp şirəsi töküb, meyiti 70 gün ərzində qələvi tortasına qoyurlar. Bu möhlətdən sonra meyiti qohumlarına qaytarırlar.

downloaded from KitabYurdu.org

89. Gözəl və ümumən hörmətli qadınlarla yanaşı, kübar adamların arvadlarını da vəfat edən kimi mumiyalamağa vermirlər. Onları yalnız üç-dörd gündən sonra mumiyaçıya verirlər. Ona görə belə edirlər ki, mumiyaçılar onlarla əlaqəyə girməsinlər. Doğrudan da, deyilənə görə, mumiyaçılardan birinin təzə meyitlə əlaqəyə girməsi hadisəsi olmuşdur və o, öz peşə yoldaşlarının çuğulluğu nəticəsində tutulmuşdur.

90. Əgər hər hansı bir misirlini, ya (hər hansı) bir əcnəbini timsah dartıb aparsa, ya da o, çayda batsa, onda meyitin üzə çıxdığı sahildə şəhər əhalisi onu mütləq mumiyalatmalı, mümkün qədər zəngin bəzəyib müqəddəs qəbristanlıqda dəfn etməlidirdər. Qohumların və dostların bu meyitə toxunması qadağandır. Nil (çayı) allahının kahinləri ölünü insandan da uca olan bir varlıq kimi özləri dəfn edirlər.

91. Misirlilər ellin adətlərini götürməkdən çəkinirlər. Ümumiyyətlə desək, onlar heç bir xalqın adətini götürmək istəmirlər. Bu cəhətdən Neapol yaxınlığındakı Fiva əyalətindəki böyük Xemmis şəhəri istisna təşkil edir. Bu şəhərdə Danayık oğlu Perseyə məxsus dördkünc müqəddəs sahə var. Bu sahənin ətrafında palma ormanlığı əmələ gəlmişdir. Sahənin böyük astanası daşdan tikilmiş və girişdə iki dənə də daş heykəl ucaldılmışdır. Müqəddəs sahədə məbəd vardır, orada Perseyin heykəli qoyulmuşdur. Xemmisin əhalisi danışır ki, Persey onların ölkəsinə təkəmseyrək gəlir, kah burada, kah orada, əsasən, özünün ibadətgahında olur. Hətta onun 2 dirsək boyda olan başmağını tapmışlar. Başmaqların tapılması ilə hər dəfə bütün Misirdə firavanlıq başlayır. Onlar belə danışırlar və Perseyin şərəfinə ellin sayağı hər cür mədhiyyə yarışı düzəldərək (qaliblərə) heyvan başı, xələt və vəhşi heyvan dərisi mükafatı təyin edirlər. Persey nə üçün ancaq onların yaşadıqları yerə gəlir və onlar niyə başqa misirlilərdən fərqli olaraq mədhiyyə yarışları düzəldirlər,-deyə verdiyim suala belə cavab qaytardılar: "Persey bizim şəhərdən törəmişdir". Axı, Danay və Linkey xemmisdəndirlər və Elladaya da gəmilərlə oradan getmişlər. Xemmislilər onların Perseyə qədər olan şəcərəsini mənə sadaladılar. Onların danışığına görə, ellinlərin də xatırladıqları Persey Misirə məhz Qorqonanın başı üçün gəlibmiş. Bunu da deyirlər ki, Persey Misirə, onların içərisinə gəlib özünün bütün qohumlarını

downloaded from KitabYurdu.org

tanımışdır. O, Xemmis şəhərinin adını əvvəllər atasından eşitmiş və bu şəhərə gələndə onun haqqında məlumat öyrənmişdir. Onun buyruğuna görə də misirlilər mədhiyyə yarışları düzəltmişlər.

92. Yuxarı Misirdə bataqlıqların üst tərəfində yaşayan misirlilərin bütün adətləri bunlardan ibarətdir. Ancaq bataqlıq sahillər boyu əhalinin adətləri də bütün başqa misirlilərin adəti kimidir. Belə ki, orada da ellinlərdəki kimi, hər kişi bircə qadınla yaşayır. Amma onlar xörəklərin daha ucuzlaşması üçün belə bir şey də fikirləşmişlər. Çayın suyu artmağa və məhsuldar zəmiləri basmağa başlayanda torpaqda misirlilərin şanagülü adlandırdıqları çoxlu zanbaq bitir; misirlilər onları kəsib gündə qurudurlar, sonra çiçək kisəsindəki xaşxaşa oxşayan toxumları döyüb ondan çörək bişirirlər. Bu bitkinin alma boyda olan girdə kökü də yeməlidir və xoş təmi vardır. Orada yenə çayda bitən və qızıl gülə oxşayan başqa zanbaqlar da vardır. Onların toxumu çiçək qapaqcıqlarında olmayıb, ağcaqovaq şanı kimi xüsusi (əlavə) qapaqcıqlar şəklində kökün özündən çıxır. Bu qapaqcıqlarda zeytun çəyirdəyi boyda yeməli dənələr olur. Onlardan çiy və qurudulmuş halda xörəkdə istifadə edirlər. Bataqlıqdan birillik papirus zoğu çıxardırlar. Onun yuxarı hissəsini kəsib başqa məqsədlər üçün istifadə edirlər, bir dirsək enində olan aşağı hissəsi isə xörəyə tökülür və ya satılır. Bəzi adamlar papirusa xüsusi tam vermək üçün onu közərdilmiş plitədə pörtlədib bu halda da yeyirlər. Bəzi misirlilər ancaq balıqla qidalanırlar. Onlar balıq tutub içini təmizləyir, gündə qaxac edib quru-quru yeyirlər.

93. Sürü ilə gəzişən balıqlar Nilin qollarına nadir halda gedib çıxırlar. Onlar daha çox göllərə toplaşıb özlərini bax, belə aparırlar: kürü tökmə vaxtı çatanda balıqlar sürü ilə dənizə axışırlar. Qabaqda erkəklər gedir, onların buraxdıqları toxumları arxalarınca üzüb gələn mayalar udurlar və bununla mayalanırlar. Balıqlar mayalanandan sonra çay boyu yuxarıya hərəkət edərək əvvəlki yerlərinə qayıdırlar. Amma, bu dəfə erkəklər deyil, mayalar qabaqda gedirlər. Onlar sürülərlə qabağa gedib əvvəllər erkəklərin etdiyi kimi edirlər, onlar darı dənələri boyda kürücüklər tökürlər, arxadan üzüb gələn erkəklər bu kürücükləri udurlar. Bu dənəciklər məhz balıqlardan ibarətdir. Udulmayıb qalan kürücüklərdən balaca balıqlar doğulur.

downloaded from KitabYurdu.org

Dənizdə üzən bir neçə balıq tutulsa, onların başının sol tərəfinin cızıldığı müəyyən olar, onlar geri qayıdanda isə cızıq başlarının sağ tərəfində olur. Bu da bax, ondan irəli gəlir ki, balıq dənizə doğru üzəndə sol sahil boyu gedir, geriyə isə sağ sahil boyu qayıdır və sahilə sürtünə-sürtünə gedir ki, çayın axarı onu yoldan ayırmasın. Nil daşmağa başlayanda su əvvəlcə sahillərdəki xəndəkləri və çaylaqları doldurur, özü də su oralara çaydan sızıb gedib. Bu yerləri su basar-basmaz, oralarda kiçik balıqlar lığ verir. Mən bilən, bu balıqların haradan törədiyini başa düşmək olar. Elə ki, əvvəlki ildə Nildə suyun səviyyəsi düşməyə başlayır, onda balıqlar lilə kürü töküb son sularla birlikdə üzüb çaya gedirlər. Bir müddətdən sonra su bu yerlərə yenidən qayıdanda həmin lillərdən dərhal balıqlar əmələ gəlir. Bax, balıqların başına belə işlər gəlir.

94. Ölkənin bataqlıq yerlərində yaşayan misirlilər yağı "kiki" adlandırdıqları gənəgərçək meyvəsindən alırlar. Misirlilər yağı bax bu yolla hasil edirlər: gənəgərçək Elladada yabanı bitki olduğu halda misirlilər onu göllərin və çayların qıraqlarına əkirlər. O, Misirdə bol, amma zəhlətökən iyli məhsul verir. Məhsulu yığandan sonra onu döyürlər və sıxıb yağını çıxarırlar, ya da qurudub pörtlədir və axıb tökülən mayeni qablara yığırlar. Bu-hopmuş yağdır ki, çıraqları yandırmaq üçün bizim zeytun yağından heç də az əlverişli deyildir, amma yananda ağır dəm verir.

95. Misirlilər saysız-hesabsız ağcaqanad əleyhinə bax, belə tədbirlər görmüşlər: bataqlıqlardan yuxarılarda olan (hündür yerlərdə) yaşayan əhali özlərinə qülləyə oxşar yataq otaqları tikirlər və çıxıb orada yatırlar. Axı, ağcaqanad küləyə görə hündürə uça bilmir. Bataqlıq yerlərin əhalisi isə qüllələr əvəzinə başqa qurğulara əl atırlar. Orada hamının balıq toru var ki, gündüzlər bununla balıq tuturlar, gecələr ondan bax belə istifadə edirlər: bu toru miçətkən kimi yataq taxtının ətrafına çəkirlər. Sonra miçətkənin altına girib orada yatırlar. Əgər xələtə və ya kisəyi mələfəyə bürünüb yatsan, ağcaqanad bu örtüyün üstündən sanca bilər, halbuki torun arasından heç sanca bilmirlər.

96. Misirlilər yük gəmilərini görkəmcə Kirena şanagülləsinə çox oxşayan ayıpəncəsindən hazırlayırlar. Akanf şirəsi-kitrədir. Bu akanfdan iki dirsək boyda

downloaded from KitabYurdu.org

tirlər hazırlayıb, kərpic kimi üst-üstə yığırlar. Sonra bu iki dirsək boyda tirləri ağac mıxlar vasitəsilə bir-birinə bərkidirlər. Bu yolla gəmiyə gövdə düzəldəndən sonra üstündən köndələninə tirlər qoyurlar. Böyürlərinə heç barmaqlıq düzəltmirlər, bəlkə yarıqlara papirus kəpitkələri tıxayırlar. Gəmidə bircə sükan düzəldilir ki, bu da gildən keçib gedir. Dor (ağacını) da ayıpəncəsindən, yelkənləri isə xatırladılan papirusdan qayırırlar. Belə gəmilər Nil yuxarı yalnız güclü külək sayəsində hərəkət edə bilər, onları sahil boyu yedəklə çəkirlər. Gəmilər suyun axarı üzrə aşağıya doğru bax belə hərəkət edirlər: yulğun taxtasından bir növ qapıya bənzər sal düzəldib, üstünə hörülmüş qamış çətəni çəkirlər, sonra 2 talant ağırlığında ortası deşilmiş daş götürürlər. Burazla gəmiyə bağlanan bu salı üzü çayın axarına doğru suya salırlar, daşı da başqa bir burazla gəminin ardına bağlayırlar. Axarın təzyiqi sayəsində sal sürətlə hərəkət edərək "baris" (adlanan bu gəmini) də özü ilə aparır; çayın dibi ilə sürünən daş isə gəminin istiqamətini düzəldir. Misirlilərdə belə gəmilər son dərəcə çoxdur, bəzilərinin də minlərlə talant yük tutumu vardır.

97. Nil daşıb ölkəni basanda, Misirin yalnız şəhərləri, demək olar ki, bizim Egey dənizindəki adalar kimi suyun üstündə ucalırlar. Axı, şəhərlərdən başqa, bütün Misir ölkəsi dənizə çevrilir. O vaxt gəmilər nəinki çay məcrasında, bəlkə bütün düzənlik boyu üzürlər. Misal üçün, Navkratisdən Memfisə gedənlər düz piramidaların yanından keçirlər, halbuki bu, çay yolu cəhətdən qeyri-adi yoldur, (həmişəki çay yolu) Deltanın başından və Kerkasor şəhərinin yanından keçir. Düzənlikdən Kanob sahili boyu Navkratisə gedəndə Anfilla şəhərinə və Arxandr adlanan şəhərə gəlib çıxırsan.

98. Anfilla deyilən bu mühüm şəhər Misir hökmdarının arvadını ayaqqabılarla təmin etmək üçün bina olunmuşdur (bu adət Misirdə fars hakimiyyəti zamanından qoyulmuşdur). O biri şəhər isə görünür, Danayın kürəkəni, Axeyin nəvəsi, Ftiyin, oğlu Arxandrın şərəfinə adlandırılmışdır. Doğrudan da, bu şəhərin adı Arxandrdır. Bununla belə mümkündür ki, başqa bir Arxandr da varmış, amma bu ad, hər halda Misir adı deyil.

downloaded from KitabYurdu.org

99. Mən, buraya qədər gözlərimlə gördüklərimə, öz mühakimələrimə və şəxsən topladığım məlumata əsasən söhbət açmışam. İndi də Misir tarixinə dair eşitdiyim söhbətlər əsasında məlumat vermək istəyirəm. Bununla belə, (Misir kahinlərinin) söylədiklərinə özümün də bəzi müşahidələrimi əlavə etməli olacağam. Kahinlərin dediklərinə görə, Misirin birinci hökmdarı Min Memfisin müdafiə bəndini çəkdirmişdir. Axı, əvvəllər bütün çay qumlu dağların ətəyi ilə Liviya tərəfə axırdı. Min isə Nil döngəsində bənd qurub, onu Memfisdən təxminən 100 stadiya yüksəltməyi əmr etmişdir. O, köhnə məcranı qurutmuş, çayı dağlar arasından (düzənliyin) ortasına keçirtdirmişdir. Farslar indi də Nilin bu dirsəyinin bəndinə qayğı göstərərək, oranı hər il möhkəmlədirlər. Çay bu bəndi yarıb daşarsa, onda Memfisin tamam su altında qalmaq təhlükəsi gözlənər. Misirin birinci hökmdarı Min bənd sayəsində qurudulmuş torpaqda: indi Memfis adlanan şəhərin əsasını qoymuşdur. Memfis də (Yuxarı) Misirin dar hissəsində yerləşir. Hökmdar şəhərin ətrafında göl üçün xəndək qazıb şimal-qərb tərəfdən oraya çay, suyu aparmağı əmr etmişdir, çünki Nil özü şəhərin şərqindən axır. Hökmdar şəhərdə Hefestin böyük və son dərəcə diqqətəlayiq ibadətgahını ucaltdırmışdır.

100. Minin ardınca 330 hökmdar gəlir ki, kahinlər onların adlarını mənə öz kitablarına əsasən sadaladılar. Bu qədər insan nəsilinin hakimiyyəti zamanı həmin hökmdarlar arasında efiopiyalı hökmdarlar və bir Misir qadın hökmdarı da olmuşdur. Qadınların hamısı kişilər və misirlilər olmuşlar. Bu qadın hökmdarın adı da Babil hökmdarının adı kimi Nitokris olmuşdur. Kahinlərin dediyinə görə o, özünə qədər Misirin Hökmdarı olub, misirlilər tərəfindən öldürülmüş qardaşının intiqamını almışdır. Qardaşını öldürəndən sonra misirlilər hakimiyyəti ona vermişlər, o da qardaşının qisasını almaq üçün çoxluca misirlini məkrlə belə məhv etmişdir. Hökmdar qadın geniş yeraltı aramgah tikməyi əmr etmişdir. Tikinti qurtarandan sonra o, aramgahın açılışı təntənəsi bəhanəsi ilə, əslində isə tamam başqa bir məqsədlə qardaşının öldürülməsinin əsas günahkarlarından (tanıdıqlarını) bu təntənəyə dəvət etmişdir. Qonaqlar ziyafətlə məşğulkən hökmdar gizli olan böyük bir kanal vasitəsi ilə çayın suyunu aramgaha buraxmağı əmr etmişdir. Kahinlərin bu

downloaded from KitabYurdu.org

qadın haqqında bütün danışdıqları bax, bundan ibarətdir. Amma kahinlər bunu da deyirlər ki, bu hərəkətə görə onu gözləyən intiqamdan qurtarmaq üçün hökmdar özünü küllə dolu olan bir aramgaha atmışdır.

101. Kahinlərin dediyinə görə, sonuncu hökmdar Meriddən başqa qalan Misir hökmdarlarının heç biri özünə şöhrət qazandıra bilən heç bir (diqqətəlayiq) iş görməmişdir. Hökmdar Merid isə Hefestin şimala baxan astanasını tikdirib, göl üçün xəndək qazılmasını buyurub (onun dairəsinin neçə stadiya olduğunu mən aşağıda danışacağam), bu göldə piramida uçaltdıraraq özündən yadigar qoymuşdur ki, bu piramidanın hündürlüyü haqqında gölü təsvir edəndə danışacağam. Bu hökmdarın belə işləri olmuşdur. Qalan hökmdarlar heç nə etməmişlər.

102. Buna görə də mən həmin hökmdarlar haqqında susub, onların varisi olan Sesostris adlı hökmdara keçirəm. Kahinlər belə deyirlər ki, Sesostris hərbi gəmilərdə Ərəbistan körfəzindən keçib müharibəyə getmiş və Qırmızı dənizdə yaşayan xalqları tabe etmişdir. O, suyun dayazlaşması nəticəsində gəmilərin keçməsi mümkün olmayan yerlərə çatana qədər irəliləmişdir. Kahinlərin dediyinə görə, o, Misirə qayıdanda quru yolda qarşısına çıxan bütün xalqları tabe etmişdir. Həmin xalqlardan hansı cəsur olub, öz azadlığı uğrunda çarpışmışsa, Sesostris onların torpağında hökmdardan, onun vətənindən, özünün bu xalqları silah gücünə necə tabe etməsindən bəhs edən üstü kitabəli xatirə dirəkləri qoymuşdur. Hər hansı bir şəhəri asanlıqla, müqavimətsiz almaq mümkün olubsa, Sesostris orada da həmin üstü kitabəli xatirə dirəkləri qoydurmuş, amma, yazıdan əlavə dirəyə qadın tənasülünün şəklini çəkdirmiş, bununla da həmin xalqın qorxaqlığını göstərmək istəmişdir.

103. Sesostris Asiyadan Avropaya addayıb, iskitləri və frakiyalıları tabe edənə qədər materikdən bu cür keçib getmişdir. Mən bilən, Misir qoşunu bundan o yana deyil, elə bu yerlərə qədər gedib çıxmışdır, çünki bu ölkələrdə həmin dirəklərdən indi də vardır, daha uzaq ölkələrdə isə belə dirəklər yoxdur. Sesostris buradan geriyə, cənuba dönmüş və Fasis çayına çatanda qoşunun bir hissəsini orada qoyub getmişdir. Mən məhz Sesostrisin özününmü qoşun hissələrini burada qoyduğunu, yoxsa uzun

downloaded from KitabYurdu.org

sürən hərbi yürüşlərdən yorulmuş olan hərbçilərin özlərinin könüllü olaraq Fasis çayı ətrafında məskunlaşdıqlarını dəqiq söyləyə bilmərəm.

104. Axı, belə görünür ki, kolxlar misirlidirlər: mən bunu başqalarından eşitməzdən əvvəl başa düşdüm. Mən, bununla maraqlanaraq (bu qohumluq barədə) Kolxida və Misirdə də soruşmağa başladım. Kolxların misirlilər haqqında xatirələri daha aydın idi, nəinki misirlilərin kolxlara dair xatirələri. Bununla belə, misirlilər mənə dedilər ki, onların fikrincə, kolxlar öz mənşələrini Sesostris ordusunun döyüşçülərindən götürürlər. Mən özüm də ona görə bu nəticəyə gəldim ki, onların dərisi qara, saçları qıvrımdır. Amma bu hələ heç nəyi sübut etmir. Axı, görkəmi belə olan başqa xalqlar da var. Eyni zamanda, daha əsaslı görünən sübutlar var və o sübutlar bunlardır: dünyada cəmi üç xalq əzəldən özlərinə sünnət edirlər: kolxlar, misirlilər və efioplar. Fələstindəki finikiyalılar və suriyalılar isə özləri etiraf edirlər ki, bu adəti misirlilərdən götürmüşlər. Fermodont və Parfeni çayları üstündə yaşayan suriyalılar və onların qonşuları olan makronlar deyirlər ki, sünnəti misirlilərdən bu yaxınlarda götürmüşlər. Axı, bunlar sünnət icra edən yeganə xalqlardırlar və görünür onların hamısı bu adətdə misirliləri təqlid edirlər. Misirlilərin və efiopların özünə gəldikdə mən bu adəti kimin kimdən götürdüyünü deyə bilmərəm. Axı, bu adət, görünür, çox qədimdir. (Finikiyalılar və suriyalılar) isə bu adəti Misirlə ticarət əlaqələri nəticəsində götürmüşlər, buna da bax belə bir sübut var. Ellada ilə ünsiyyətdə olan bütün finikiyalılar artıq nə misirliləri təqlid edirlər, nə də öz uşaqlarını sünnət etdirirlər.

105. Kolxların misirlilərə oxşayan bir cəhətini də deməliyəm. Yalnız onlar və misirlilər kətanı eyni üsulla toxuyurlar. Eləcə də, onların bütün həyat tərzi və dili bir-birinə oxşayır. Doğrudur, ellinlərdə Kolxida kətanı Sardon kətanı adlanır, Misirdən gətirilənə isə Misir kətanı deyilir.

106. Sesostrisin (istila etdiyi) ölkələrdə ucaltdığı dirəklərə gəldikdə, onların böyük qismi indi qalmır. Amma üstündə xatırladılan kitabə və qadın tənasülü şəkli olan bu cür dirəklərdən bir neçəsini Fələstin Suriyasında mən özüm görmüşəm. İoniyada da

downloaded from KitabYurdu.org

bu hökmdarın qayaya həkk etdirdiyi iki qabarıq əks vardır: biri Efesdən Fokeyaya, o biri Sardadan Smirnaya gedən yolun üstündədir. Hər iki yerdəki qabarıq şəkil 41/2 dirsək hündürlüyündə olan hərbçi kişi şəklidir; o, sağ əlində nizə, sol əlində yay tutmuşdur. Qalan silahları da, müvafiq olaraq, Misir və Efiopiya silahlarıdır. Onun sinəsində, bir çiynindən o biri çiyninə qədər müqəddəs Misir yazısı ilə bu məzmunda bir kitabə həkk olunmuşdur: "Mən bu torpağı öz çiyinlərimlə almışam". Doğrudur, bu hərbi adam, özünün kim və haralı olduğunu burada izah etmir, bununla belə, o, başqa yerdə öz adını çəkir. Amma bu qabartma şəkilləri görən bəzi adamlar bunları Memnonun şəkilləri hesab edirlər. Lakin onlar burada həqiqətdən çox uzaqdırlar.

107. Kahinlərin danışdığına görə, bu Misir hökmdarı Sesostris istila olunmuş yerlərdən aldığı əsirlərlə birlikdə geri qayıdıb Pelusi yaxınlığında Dəfnəyə çatanda, Misirin idarə olunmasını həvalə etdiyi qardaşı onu oğulları ilə bərabər ziyafətə dəvət etmiş, ziyafət verilən evin də bayırına odun yığdırmış və yandırtdırmışdır. Sesostris alov görən kimi məsləhət üçün arvadına müraciət etmişdir (axı o, hökmdarı hərbi yürüşdə müşayiət edirdi). O da məsləhət görmüşdür ki, hökmdar altı oğlundan ikisini bir növ körpü kimi alovun üstünə qoysun, özləri isə bu körpüdən keçib xilas olsunlar. Sesostris belə də etmişdir, onun iki oğlu yanmış, qalanları ataları ilə birlikdə xilas ola bilmişlər.

108. Sesostris Misirə qayıdıb qardaşından intiqam almış və özü ilə gətirdiyi çoxlu əsiri bax belə işlər görməyə məcbur etmişdir. Əsirlər bu hökmdarın vaxtında Hefest ibadətgahının (tikintisindən) ötəri hazırlanmış böyük daşları daşımalı və Misirdə indi də qalmaqda olan bütün kanalları qazmalı idilər. Beləliklə, onlar ağıllarına belə gətirmədən Misiri atla və arabalarla gediş-gəliş üçün əlverişsiz vəziyyətə salmışlar. Misir düzənlikdən ibarət olsa da, o vaxtdan etibarən ölkəni nə araba, nə də atla keçib getmək olur. Səbəbi də ölkəni müxtəlif istiqamətdə kəsən kanallardır. Bu hökmdar da öz ölkəsini bax bu səbəbə görə kanallarla bölük-bölük etmişdir: şəhərlər çaylar qırağında deyil, ölkənin içərilərində yerləşdiyindən çay öz hüdudlarına çəkiləndə bütün Misir əhalisi susuzluqdan əzab çəkir və quyulardan çıxarılan şor su içməyə məcbur olurmuşlar. Buna görə də Sesostris Misiri kanallara böldürmüşdür.11

downloaded from KitabYurdu.org

109. Bu hökmdar torpağı da əhali arasında bölüşdürərək, hərəyə bərabər həcmdə kvadrat şəklində sahələr vermişdir. Hökmdar bunun əvəzində illik vergi toplamağı əmr edərək gəlir əldə etmişdir. Çay torpağın bir sahəsini yuyub apararsa, sahənin yiyəsi gəlib bunu hökmdara xəbər verə bilərdi. Hökmdar da yoxlamaq üçün adam göndərər və sahənin nə qədər azaldığını ölçdürərdi ki, sahə yiyəsi ixtiyarında qalan torpağa müvafiq vergi versin. Mənə elə gəlir ki, məhz bu məqsədlə yer ölçmək sənəti kəşf edilmiş və o, sonra Elladaya keçmişdir.

110. Həmin bu hökmdar Misirdə yeganə hökmdardır ki, Efiopiya üzərində də hakimiyyət sürmüşdür. O da hərəsinin hündürlüyü 30 dirsək olan iki daş abidə yadigar qoymuşdur. Bunlar Hefest məbədinin qarşısındadırlar. Uzun müddət keçəndən sonra, fars şahı Dara bu qədim heykəllər qarşısında öz heykəlini qoydurmaq istəyəndə, Hefestin kahini Daranın misirli Sesostris qədər böyük igidliklər göstərmədiyini söyləyərək ona öz heykəlini qoymağa icazə verməmişdir. Kahinin sözlərinə görə, Sesostris nəinki Daranın tabe etdiyi bütün xalqları, hətta Daranın qalib gələ bilmədiyi iskitləri də özünə tabe etmişdir. Ona görə də, Dara öz igidlikləri ilə Sesostrisi ötə bilmədiyi halda Sesostrisin qoydurduğu heykəllər qarşısında dayanmaq ona yaraşmaz. Necə deyərlər, Dara gərək bütün bunlarla razılaşsın.

111. Kahinlər danışırlar ki, Sesostrisin vəfatından sonra hökmdar taxtına onun oğlu Feron irsən sahib olmuşdur. Bu hökmdar heç bir müharibə etməmiş, özü də bir səbəb üzündən kor olmuşdur. O vaxtlar çayda su qalxıb 80 dirsək hündürlüyə çatır və zəmiləri basır. Sonra fırtına qopur, çay coşur. Deyirlər ki, hökmdar da cinayətkarcasına günah edərək nizəni qapıb burulğanın lap girdabına atır. O, dərhal göz xəstəliyinə tutulur, hökmdar kor olur. On il gözü görmür, on birinci ildə ona Buto şəhərindən rəmmal bayanı gəlir ki, cəza müddəti qurtarıb və hökmdar özgə kişi üzü görməyib ancaq öz əri ilə yaşayan arvadın sidiyi ilə gözlərini yusa gözləri açılar. Hökmdar gözlərini əvvəlcə öz arvadının sidiyi ilə yuyur, amma gözləri açılmır, sonra dalbadal bütün başqa qadınların sidiyini sınaqdan keçirir. Nəhayət, elə ki, hökmdar (müalicə olunub) gözləri açılır, onda sidiyi ilə sağaldığı qadından başqa sınaqdan

downloaded from KitabYurdu.org

keçirdiyi bütün qadınları Erifrabolos adlı bir şəhərə yığdırır. Qadınları buraya toplayandan sonra hökmdar onların hamısını şəhərlə birlikdə yandırır. Sidiyi ilə gözlərini sağaldan qadını isə özünə arvad edir. O, göz xəstəliyindən müalicə olunub sağalandan sonra sitayiş edilən bütün məbədlərə nəzir gətirir. Bunların içərisində hündürlüyü 100, eni 8 dirsək olan bütöv daşdan yonulmuş iki daş sütun xüsusən diqqətəlayiqdir.

112. Kahinlərin danışdıqları kimi, bu hökmdarın varisi ellinlərin Protey adlandırdıqları Memfis hökmdarı olmuşdur. Onun gözəlcəsinə tikilib Hefest ibadətgahından cənuba doğru yerləşən müqəddəs sahəsi (və məbədin özü) indi də Memfisdə durur. Bu müqəddəs sahənin ətrafında Tir finikiyalıları yaşayır. Bu yerlər bütövlükdə Tir Düşərgəsi adlanır. Proteyin bu müqəddəs sahəsində "əcnəbi Afrodita" adlanan bir məbəd vardır. Mən belə təxmin edirəm ki, bu Tindareyin qızı Yelenanın məbədidir. Birinci ona görə ki, mənə çatdırılmış əfsanəyə görə, Yelena Proteyin sarayında yaşamışdır, ikinci də ona görə ki, bu, "əcnəbi Afrodita" məbədi adlanır. Axı, Misirdəki məbədlərin heç biri belə adlanmır.

113. Yelena haqqında mənim sorğularıma cavab olaraq kahinlər bax belə bir şey danışdılar. Yelenanı Spartadan qaçırdandan sonra Aleksandr onunla birlikdə öz vətəninə yola düşür. Egey dənizinə çatanda əks küləklər onu Misir dənizinə aparır. Küləklər kəsmədiyinə görə, o, buradan Misir sahillərinə, məhz Nilin mənsəbinə, indi Tarixeydəki Kanob adlanan yerə gəlir. Sahildə sahiblərindən qaçmış bütün qulların sığınacağı olan (elə indi də qalan) Herakl məbədi varmış. Hər hansı bir şəxsin qulu buraya qaçaraq, müqəddəs nişanlar taxıb özünü allaha həsr edərsə, o, toxunulmaz sayılır. Bu adət lap qədimlərdən zəmanəmizə qədər davam edir. Belə ki, Aleksandrın da bir neçə qulu bu məbəddəki adəti eşidib oraya qaçmışlar. Məbəddə müdafiə olunmaları üçün allaha yalvaran bu qullar Aleksandrı təqsirləndirməyə başlamışlar. Aleksandrı məhv etmək üçün onlar Yelenanın qaçırılması əhvalatını və Menelaya edilən təhqiri danışmışlar. Onlar Aleksandrı kahinlər qarşısında və Nilin bu mənsəbinin Fonis adlanan gözətçisi qarşısında ittiham etmişlər.

downloaded from KitabYurdu.org

114. Bunu eşidən Fonis Memfisdə Proteyə tələsik belə bir xəbər göndərir: "Əsli tevkr olub, Elladada şərəfsiz iş tutmuş bir əcnəbi buraya gəlmişdir. O, qonağı olduğu adamın arvadını yoldan çıxarmış, həmin qadınla və zəngin xəzinələrlə birlikdə buradadır, çünki tufan onu bizim torpağa gətirib çıxarmışdır. Onu cəzasız buraxaq getsin, yoxsa gətirdiyi bütün sərvəti əlindən alaq?" Protey buna bax belə cavab göndərir: "Qonağı olduğu şəxsə belə şərəfsizlik göstərmiş bu adamı tutun və mənim hüzuruma gətirin; qulaq asıb görüm ki, o nə deyir".

115. Bunu eşidən Fonis Aleksandrı tutub, gəmilərini saxlamağı əmr edir. O, Yelena və xəzinə ilə birlikdə Aleksandrı, eləcə də müdafiə edilmələri üçün yalvaran nökərlərini (çayla) yuxarıya-Memfisə göndərir. Onların hamısı hökmdarın hüzuruna təqdim olunanda, Protey Aleksandrın kimliyini, haradan gəldiyini soruşur. O da özünün ulu babalarını sadalayıb doğma ölkəsinin adını deyir, eləcə də indi haradan gəldiyini danışır. Onda Protey onun Yelenanı haradan aldığını soruşur. Aleksandr cavabı yayındırmaq istədiyi üçün açıq-aşkar yalan danışmağa başlayanda müdafiə olunmalarını xahiş edən (nökərlər) onu ifşa edərək, tutduğu biabırçı iş haqqında ətraflı danışmağa başlayırlar. Nəhayət, Protey qərara gəlir: "Mən gəlib çıxmış əcnəbilərin cəzalandırılmaması haqqında həmişəlik qərar qoymuş olmasaydım, ellinin intiqamını səndən alardım! Sən onun qonağı olmusan, özün də onu ən alçaq hərəkətlə təhqir etmisən: sən ev sahibinin arvadının qılığına girmisən, hələ bunu da az hesab edərək, arvadı sənə qoşulub qaçmağa şirnikdirmisən və onu qaçırtmısan. Sən hələ bununla da kifayətlənməyib qonağı olduğun adamın evini qarət etmisən. Amma mən əcnəbini qəti surətdə cəzalandırmaq istəmədiyimə görə, sən çıxıb gedə bilərsən. Bu qadını və xəzinəni isə aparmağına icazə vermirəm, onları evində qonaq qaldığın ellin üçün saxlayacağam: o özü mənim yanıma gəlib bunları aparmaq istəsə, ona verərəm. Sənə və yol yoldaşlarına əmr edirəm ki, üç gün ərzində mənim ölkəmi tərk edib, hara istəsəniz gedəsiniz. Əks halda, mən sizinlə düşmən kimi rəftar edəcəyəm".

116. Kahinlərin mənə danışdıqlarına görə Yelena Proteyin hüzuruna belə gəlib çıxmışdır. Görünür, bu əhvalatı Homer də yaxşı bilirmiş. Amma bu hadisə onun

downloaded from KitabYurdu.org

Yelena haqqında qəbul etdiyi başqa əfsanəyə görə onun eposu üçün o qədər də əlverişli olmadığından, Homer bu əhvalatı atmışdır. Bu da ondan aydın görünür ki, şair "İliada"da Aleksandrın sərgərdan düşməsindən danışır (və heç yerdə bu əfsanəyə zidd getmir), məhz Aleksandrın Yelena ilə birlikdə küləyə düşüb yol azmasını, müxtəlif yerlərdə dolaşaraq, eləcə də, Finikiya Sidonuna gəlib çıxdığını söyləyir. Homer Diomedin igidlikləri haqqındakı nəğmədə bu haqda xatırladır. Bu şerlərdə belə deyilir.

Çoxdur orda məharətlə naxışlanmış incə peplos,

Allah sifət gözəl Paris zərif, gözəl Yelenanı

Qaçırtmaqçın dənizləri aşıb səfər edən zaman

Həmin gözəl peplosları düz Sidondan gətirmişdi.12

Homer "Odisseya"nın bu misralarında da o barədə xatırladır:

Bir vaxt Misr torpağında təsiri xoş bu dərmanı

Foon arvadı Polidamna bəxş etmişdi Yelenaya.

Uzaq Misrin bərəkətli torpağında bitən otdan

Çoxdur şəfa verəni də, təhlükəli olanı da.13

Başqa bir yerdə Menelay Telemaxa belə deyir:

Elə yaman tələsirdim, allahlarsa Misr elindən

Buraxmırdı məni, çünki yüz baş qurban kəsməmişdim.14

downloaded from KitabYurdu.org

Bu sözlərdən aydın görünür ki, Homer Aleksandrın Misirdə sərgərdan olmasını bilirmiş. Axı Suriya Misirlə həmsərhəddir, Sidonun sahibləri olan finikiyalılarsa Suriyada yaşayırlar.

117. Bu şerlərdən aydın görünür ki, "Kipriya" eposu Homerə deyil, başqa bir şairə məxsusdur. Axı, "Kipriya"da Aleksandran üç gündən sonra Yelena ilə birlikdə "səmt küləyinin nəfəsi ilə sakit dənizin hamar qoynunda" Spartadan İliona gəlməsindən danışılır.

Halbuki, Homer onun Yelena ilə birlikdə Misirdəki sərgərdanlığından danışır. Bununla belə, Homer və "Kipriya" barədə bəsdir.

118. Mən kahinlərdən ellinlərin İlionu mühasirə etməsi haqqında əfsanənin doğruluğunu soruşanda onlar mənə cavab verdilər ki, bunu Menelaya verdikləri sorğu-sualdan bilirlər. Yelena qaçırılandan sonra Menelaya kömək üçün tevkrlər torpağına böyük ellin qoşunu gəlmişdir. Ellinlər sahilə çıxıb düşərgə salmış, sonra da Menelay özü aralarında olmaqla İliona elçilər göndərmişlər. Elçilər şəhərə gəlib Aleksandrın gizlicə qaçırtdığı Yelenanı və xəzinəni qaytarmağı, üstəlik təhqirə görə razı salınmalarını tələb etmişlər. Amma tevkrlər o vaxt da, sonralar da andlı, andsız iqrar etmişlər ki, Yelena da, tələb olunan xəzinə də burada deyil, Misirdədir. Ona görə də Misir hökmdarı Proteyin sahib olduğu şeylər üçün onların cəza çəkməsi ədalətsizlik olardı. Ellinlərsə ələ salındıqlarını fikirləşərək şəhəri mühasirə edib, axırda onu almışlar. Şəhəri alandan və Yelenanın doğrudan da orada olmadığını görəndən, Yelenanın (olduğu yer) barədə tevkrlər əvvəlcə dediklərini bir də deyəndən sonra, ellinlər axırdan-axıra inanıblar ki, tevkrlər əvvəldən doğru danışırlarmış. Onda onlar Menelayı Misirə, Proteyin hüzuruna göndərmişlər.

119. Menelay Misirə gəlib çay boyu yuxarılara, Memfisə qalxmışdır. O, öz işləri haqda həqiqəti danışıb və (hökmdar) tərəfindən xoş üzlə qarşılanıb. Sonra o, nəinki

downloaded from KitabYurdu.org

sağ-salamat və toxunulmamış Yelenanı, eləcə də bütün xəzinəsini geri almışdır. Bununla belə, misirlilərin ona etdikləri yaxşılıqlara baxmayaraq, buna nalayiq bir hərəkətlə əvəz qaytarmışdır. Əks səmtli küləklər onun gəmisinin yola çıxmasını gecikdirmiş və bu gecikmə çox uzandığına görə Menelay rüsvayçı bir iş görmüşdür. O, (küləyi) rəhmə gətirmək üçün iki misirli uşağı tutub onları qurban vermişdir. Bu cinayət üzə çıxanda həyəcanlanmış misirlilər onun arxasınca düşmüşlər, o da öz gəmiləri ilə Liviyaya üzüb getmişdir. Onun sonra haraya getdiyini misirlilər mənə deyə bilmədilər. Bununla belə, təsdiq edirlər ki, bu barədə qismən danışıqlara əsasən bilirlər, qismən də doğruluğuna özləri zəmanət verə bilərlər, çünki hadisələr onların ölkəsində baş vermişdir.

120. Bunu mənə Misir kahinləri danışdılar, mən özüm də onların Yelena haqda rəvayətini doğru hesab edirəm, çünki işin gedişini mən də belə təsəvvür edirəm. Yelena İlionda olsaydı, onu ya Aleksandrın razılığı ilə, ya da icazəsiz ellinlərə qaytarardılar. Əlbəttə, nə Priam, nə də onun başqa qohumları elə ağılsız deyildilər ki, Aleksandrın Yelena ilə yaşaması xatirinə özlərinin, arvad-uşaqlarının həyatını, doğma şəhəri təhlükə qarşısında qoyaydılar. Onlar müharibənin əvvəlində Yelenanı qaytarmamaq qərarına gəlmiş olsalar da, ellinlərlə döyüşdə çoxlu troyalının, epik şairlərə inansaq, hər döyüşdə Priamın özünün ya bir, ya da bir neçə oğlunun həlak olduğu bir şəraitdə, hətta hadisələrdən sonra Priamın özü Yelena ilə yaşamış olsaydı belə, mən əminəm ki, bu qədər ağır itkilərdən xilas olmaq üçün o özü Yelenanı axeylərə qaytarardı. Hələ bununla yanaşı, hökmdarlıq ixtiyarı Aleksandra keçməməli idi (ona görə də o, qoca Priamın əvəzinə hakimiyyət sürə bilməzdi). Priamın vəfatından sonra böyük, həm də daha igid oğul kimi Hektor taxta çıxmalı idi. Şübhəsiz ki, o, həm özünə, həm də bütün başqa troyalılara bu qədər dəhşətli müsibətlər gətirmiş cinayətkar qardaşına göz yummazdı. Amma, troyalılar Yelenanı doğrudan da ona görə geri qaytara bilməzdilər ki, Yelena Troyada deyildi və troyalılar həqiqəti desələr də, ellinlər onlara inanmamışlar. Mənə elə gəlir ki, bunların hamısı allahlar tərəfindən ona görə əvvəlcədən hazırlanmışdır ki, onların

downloaded from KitabYurdu.org

tamamilə məhv olması insanların böyük günahlarına görə allahların böyük də cəzalar kəsdiyini göstərsinlər. Bu haqda mən şəxsən belə düşünürəm.

121. Kahinlər danışırlar ki, Proteydən sonra hökmdarlıq ixtiyarı Rampsinitə keçdi. O, Hefest məbədinin qərbində yerləşən abidəni-astananı yadigar qoydu. Bu astana qarşısında hündürlüyü 25 dirsək olan iki heykəl qoymağı əmr etdi. Bunlardan şimal tərəfdə yerləşən heykəli misirlilər "yay", cənub tərəfdəki o biri heykəli isə "qış" adlandırırlar. Onlar birinci heykələ səcdəyə gəlirlər, o biri heykəllə, əksinə, başqa cür rəftar edirlər. Kahinlərin danışdığına görə bu hökmdar çox dövlətli olmuşdur, əvvəlki hökmdarlardan heç kəs var-dövlətdə onu nəinki ötə bilməzmiş, onunla heç müqayisəyə gəlməzmiş. O, öz xəzinələrini təhlükəsiz yerdə saxlamaq üçün daşdan elə bina tikilməsini əmr eləyibmiş ki, onun bir divarı hökmdar sarayına bitişsin. Memar isə onu hiyləgərcəsinə aldadaraq fikirləşib, belə bir iş açıb: daşlardan birini elə qoyub ki, onu iki, hətta bircə adam asanlıqla çıxarda bilsin. Bəli, bina hazır olanda hökmdar xəzinəni oraya daşımağa əmr etmişdir.

Xeyli keçəndən sonra memar ölüm ayağında olduğunu duyub oğullarını yanına çağırmışdır (onun iki oğlu varmış) və onları varlandırmaq xatirinə hökmdar xəzinəsini tikəndə fikirləşdiyi kələyin üstünü açmışdır. O, eyni zamanda, boş qoyduğu daşın (hasarın qırağından) nə qədər aralı və hansı hündürlükdə olduğunu göstərərək, onu neçə çıxarmağın üsulunu oğullarına başa salmışdır. Usta üstəlik bunu da deyib ki, onlar atanın sözlərini unutmasalar, onda hökmdarın xəzinədarları olacaqlar. Bundan sonra memar vəfat etmiş, oğulları isə dərhal işə başlamışlar. Onlar gecə gizlicə saraya gəlib (xəzinə saxlanan) binada həmin daşı tapmış və asanlıqla yerindən çıxardaraq çoxlu pul aparmışlar. Hökmdar xəzinəyə girməli olanda qablardakı qızılın çatışmadığını görüb təəccüblənmiş, amma heç kəsi təqsirləndirə bilməmişdir, çünki möhürlər salamatmış, xəzinə də qıfıllı. Hökmdar xəzinəni iki-üç dəfə açmış, hər dəfə də qızılın azaldığını görmüşdür (axı, memarın oğulları qızılı bir ucdan elə hey aparırmışlar). Onda hökmdar bax, belə bir iş görür: tələlər düzəltdirib onları qızıl dolu qabların yanına qoymağı əmr edir. Oğrular həmişə gəldikləri vaxtda yenə gəlirlər. Onların biri xəzinəyə girib qaba yaxınlaşan kimi tələyə düşür. O, necə

downloaded from KitabYurdu.org

bəlaya düçar olduğunu anlayıb, qardaşını səsləyir, baş verən hadisəni ona; danışır və əmr edir ki, tez xəzinəyə girib onun başını kəssin ki, tutulanda tanınmasın və beləliklə, o biri qardaş məhv olmasın. O da qardaşının haqlı söz dediyini görüb, onun məsləhətinə əməl edir. Bundan sonra daşı (əvvəlki yerinə) qoyur qardaşının başını da götürüb evə gedir. Səhərisi gün hökmdar xəzinəyə girib heç nəyə toxunulmadığını, xəzinədə nə girməyə, nə çıxmağa heç bir yer olmadığını, tələyə düşmüş bədənin də başsız qaldığını görüb heyrətlənir. Təəccüblənmiş hökmdar belə edir: başsız bədəni şəhər divarından15 asmağa əmr verir; bundan sonra bədənin yanında keşikçi qoyub, ölünü ağlamaq, onun üstündə ah-zar etmək fikrinə düşən hər kəsi, kim olursa-olsun, dərhal tutub hüzuruna gətirməyi əmr edir. Oğrunun bədəni divardan asılanda onun anası bunu görüb hiddətlənir və salamat qalmış oğluna üz tutub hər hansı bir yolla olur-olsun, başsız bədəni düşürüb evə gətirməyi tapşırır. Ana bildirir ki, oğlu onun sözünə baxmasa, onda hökmdarın hüzuruna gedib xəzinəsinin kimdə olduğunu deyəcəkdir. Ana sağ qalmış oğlunu amansızcasına qarğamağa başlayır. Oğlu da onu sakitləşdirə bilməyib belə bir kələyə al atır: özünün uzunqulaqlarını qoşub ağzınacan doldurulmuş çaxır tuluqları ilə yükləyir və sürüb şəhərə gedir. Başsız bədəni qoruyan gözətçilərin yanına çatanda iki, ya üç tuluğun ağzındakı ilgəyin ucunu dartır. Çaxır axıb tökülür" və o guya hansı eşşəyin üstündəki tuluğa yaxınlaşmağı kəsdirə bilmədiyi üçün bərkdən qışqıraraq təpəsinə döyməyə başlayır. Gözətçilər də çaxırın (çay) kimi axdığını görüb, bəxtlərinin gətirdiyini düşünərək əllərinə qab alıb küçəyə yüyürüşürlər ki, (tuluqdan) axan çaxırdan götürsünlər. Özünü qəsdən qəzəblənmiş kimi göstərən oğru isə onların hər birinə söyüş yağdırmağa başlayır. Gözətçilər onu ovutmağa çalışırlar, o da bir qədər keçəndən sonra özünü elə aparır ki, guya deyəsən bir az yumşalıb və qəzəbi soyuyubdur. Axırda eşşəklərini küçədən sürüb aparır və onları yenidən (tuluqlarla) yükləyir. Bundan sonra o gözətçilərlə söhbətə başlayır. Gözətçilərdən biri zarafat edib onu güldürəndə o, gözətçilərə bir tuluq da verir. Gözətçilər elə oradaca əyləşib içməyə başlayırlar, hətta onun özünün də burada qalmasını və onlarla birlikdə çaxır içməsini təklif edirlər. O da dilə tutulmaq imkanı verərək onların yanında qalır. İçki zamanı gözətçilər fövqəladə iltifatla, onun sağlığına içirlər, o da bunlara daha bir tuluq verir. Gözətçilər bu xoş içkidən tezliklə

downloaded from KitabYurdu.org

keflənirlər. Onları yuxu basanda və elə oturduqları yerdəcə yıxılıb yatanda artıq gecə yarı olur. Onda oğru qardaşının bədənini divardan düşürür və gözətçiləri ələ salaraq, onların hamısının sağ üzünü tərtəmiz qırxır. Sonra da qardaşının bədənini eşşəklərə yükləyib evə aparır. O, anasının tapşırığını belə yerinə yetirir. Meyitin oğurlandığını hökmdara xəbər verəndə hökmdar qəzəb alovuna, bürünür və necə olursa-olsun belə fəndgirlik edən hərifin kim olduğunu bilmək istəyir. Bundan ötəri də belə bir iş görür. (Amma mən buna inanmıram). Guya o, öz qızını fahişəxanaya qoyub, yanına gələnlərin hamısını sonulamadan qəbul etməsini buyurur. Amma, atasının şərtinə görə, təslim olmazdan əvvəl hər bir (kişini) ömründə etmiş olduğu ən nalayiq və ən bic hərəkət haqqında danışdırmalıymış. Şərtə görə hər kim başı: kəsilmiş oğru ilə bağlı olan əhvalatı danışsaymış qız onu tutmalı və buraxmamalıymış. Ata necə buyurmuşdusa, qız da o cür eləyir. Oğru isə hökmdarın nə üçün belə buyurduğunu başa düşür. O, hiylədə hökmdarı ötüb keçmək fikrinə düşür və belə edir: təzəcə ölmüş adamın qolunu çiynindən kəsib xələtinin altında gizlədərək hökmdar qızının yanına gedir. Qızın hüzuruna gələndə, qız başqalarına verdiyi sualı buna da verir. Oğru da danışır ki, hökmdar xəzinəsində tələyə düşmüş qardaşının başını kəsib aparması onun ən nalayiq işi olmuşdur, ən mahir kələyi isə gözətçiləri kefləndirənə qədər içirdərək qardaşının divardan asılmış bədənini düşürüb aparması hadisəsidir. Şahzadə qız bunu eşidəndə oğrunu tutmaq istəyir. Oğru isə qaranlıqda öz qolu əvəzinə ölünün qolunu qıza uzadır. Qız da oğrunu tutduğunu güman edərək ölünün qolundan yapışır. Oğru ölünün kəsik qolunu şahzadə qızın əlində qoyub özü qapıdan çıxıb qaçır. Bu (təzə) kələyi hökmdara danışanda o, həmin adamın cəldlik və ötkəmliyinə heyrət edir. Axırda hökmdar bütün şəhərlərə carçı göndərib, belə car çəkmələrini buyurur ki, əgər oğru hökmdarın hüzuruna gəlsə, ona tam əmin-amanlıq, hətta böyük mükafat vəd edir. Oğru da buna inanıb hökmdarın hüzuruna gəlir. Rampsinit (onu görüb) valeh olur, dünyanın on ağıllı adamı sayaraq qızını ona ərə verir. Axı, hökmdarın gözündə misirlilər başqa xalqlar içərisində ən ağıllı olduğu halda, sen demə, bu oğru misirlilərdən də ağıllıymış.

downloaded from KitabYurdu.org

122. Kahinlərin danışdığına görə, sonra bu hökmdar diri halda ellinlərin Aid adlandırdıqları yeraltı dünyaya enmişdir. Deyilənlərə görə, orada o Demetra ilə aşıq oyunu oynamışdır, həm də gah udmuş, gah uduzmuşdur. Bundan sonra o, ilahinin verdiyi qızıl dəsmalı da gətirib yenidən yer üzünə qayıtmışdır. Kahinlərin dediyinə görə Rampsinit yer üzünə qayıdandan sonra misirlilər onun yeraltı dünyaya enməsi şərəfinə "bayram günü müəyyənləşdirmişlər, mən bilirəm ki, bu bayram indiyə qədər icra edilir (amma bayramın məhz bu münasibətləmi, yoxsa başqa münasibətlə icra edildiyini söyləyə bilmərəm). Bu bayramda kahinlər (xüsusi) paltar toxuyurlar. Kahinlərdən birinin gözünü bağlayıb, həmin paltarı onun çiyninə salırlar və Demetra ibadətgahına aparan yola çıxardırlar. Özləri geri dönürlər, deyilənə görə, gözü bağlı kahini də iki qurd bu şəhərdən 20 stadiya uzaqlıqda olan Demetra ibadətgahına ötürüb, sonra ibadətgahdan yenə əvvəlki yerinə gətirirlər.

123. Misirlilərin bu əfsanəsinə hər kəs inanarsa, onun öz işidir. Mən isə, öz təhkiyəm boyu ancaq eşitdiklərimi əks etdirməklə kifayətlənməli olacağam. Misirlilər Demetranı və Dionisi yeraltı dünyanın hökmdarı sayırlar. Misirlilər də insan ruhunun ölməzliyi haqqında ilk dəfə təlim yaratmışlar. Bədən öləndə onun ruhu həmin anda doğulan başqa bir canlıya keçir. Bu ruh bütün quru və dəniz heyvanlarının, quşlarının (bədənindən) keçərək, yeni doğulan uşağın bədəninə girir. Bu dövretmə üç min il çəkir. Bəzi ellinlər həmin təlimi qədim zamanlarda da, elə bu yaxınlarda da qəbul etmişlər. Mən onların adlarını bilirəm amma çəkmirəm.

124. Kahinlər, bax, bunu da danışırlar ki, hökmdar Rampsinitin vaxtındakı yaxşı qanunlar əsasında Misir böyük inkişaf mərhələsinə çatmışdı. Amma onun varisi Xeops ölkəni bəlalar girdabına salmışdır. O, əvvəlcə bütün ibadətgahların bağlanmasına əmr verib, qurban kəsilməsinə qadağan qoymuşdur. Sonra bütün misirliləri onun özünə işləməyə məcbur etmişdir. Belə ki, bəziləri Ərəbistan dağlarından Nilə nəhəng qayalar gətirməyə (daşları çay vasitəsilə gəmilərdə daşıyırdılar), başqaları isə bu daşları Liviya dağları deyilən yerlərə qədər daşıyıb aparmağa məhkum olunmuşdur. Bu işi üç aydan bir dəyişdirilən yüz min adam aramsız olaraq yerinə yetirmişdir. Əldən düşən xalq bu qayaların daşınıb aparıldığı

downloaded from KitabYurdu.org

yerə on il ərzində yol çəkməli olmuşdur. (Mənə elə gəlir ki, bu iş piramidanın özünün tikintisində görülən işdən heç də kiçik deyil). Axı yolun ən yüksək yeri 8 orgiya hündürlüyündə olmaqla, uzunluğu 5 stadiya, eni 10 orgiya həcmində yonulmuş daşlardan düzülüb, üstünə fiqurlar həkk edilmişdir. Piramidaların yerləşdiyi yerə qədər gedən yolun çəkilməsi və təpələrdəki yeraltı aramgahların tikintisi on il sürmüşdür. Hökmdar Xeops içərisində özünə türbə tikdirdiyi aramgahın yerləşdiyi dağa Nildən kanal çəkdirib onu adaya çevirmişdir. Piramidanın özünün tikilməsi isə 20 il çəkmişdir. O, dördküncdür, hər tərəfinin eni və uzunu 8 plefradır, yonulub, çox diqqətlə bir-birinə bitişdirilmiş daşlardan hörülmüşdür. Hər daşın uzunluğu təxminən 30 futdur.

125. Bu piramida bax, belə tikilmişdir: o, əvvəlcə bəzilərinin meydança və ya pillə adlandırdığı çıxıntılı pilləkənlərdən başlayır. (Özülün) ilk daşlarını qoyandan sonra (meydançanı doldurmaq üçün) qalan daşları gödək tirlərdən quraşdırılmış körpülər vasitəsi ilə qaldırmışlar. Daşları torpaqdan birinci pilləyə belə qaldırmışlar. Orada daşı başqa körpüyə qoymuşlar; daşı birinci pillədən ikinci körpüyə çəkib, onu bu körpü vasitəsi ilə ikinci pilləyə qaldırmışlar. Pilləkən neçə cərgə olmuşsa, o qədər də qaldırıcı vasitələr olmuşdur. Amma, belə də ola bilərdi ki, bircə qaldırıcı vasitə varmış və daşı bunun üstünə qaldırandan sonra növbəti pilləyə asanlıqla aparmaq mümkünmüş. Axı, mənə bu üsulun ikisini də danışıblar, ona görə mən də hər iki üsulu göstərirəm. Beləliklə, piramidanın əvvəlcə yuxarı hissəsi hazırlanmış, sonra orta hissəsini, axırda torpaqdakı lap aşağı pillələrini düzmüşlər. Piramidanın üstündə Misir yazısı ilə işçilərin nə qədər turp, soğan, sarımsaq yediyi qeyd olunmuşdur. Çox yaxşı yadımdadır, yazını mənə oxuyan tərcüməçi izah etdi ki, bütün bu şeylərə 1600 talant gümüş xərclənmişdir. Bu doğrudursa, onda dəmir alətlərə, çörəyə, işçilərin paltarına da yəqin ki, elə bu qədər xərclənmiş olar, belə ki, bütün bu qurğuların tikintisi 20 il sürmüşdür. Hələ üstəlik daşların qırılmasına və daşınmasına, (türbə üçün) yeraltı aramgahların tikilməsinə xeyli vaxt lazım gəlmişdir.

126. Amma Xeops axırda elə nalayiq vəziyyətə düşmüşdür ki, kahinlərin danışdığına görə, pula möhtac olaraq qızını fahişəxanaya göndərib bir qədər pul

downloaded from KitabYurdu.org

qazanmağı əmr etmişdir, bununla belə, kahinlər pulun miqdarı haqda danışmadılar. Qız da ata buyruğunu yerinə yetirmiş, amma özünə də bir abidə qoymaq barədə fikirləşmişdir: o, yanına gələn hər kəsdən türbə tikdirmək üçün heç olmasa bir daş hədiyyə verməsini xahiş etmişdir. Kahinlərin dediklərinə görə, bu daşlardan böyük piramidanın qarşısında yerləşən üç piramidadan ortadakı tikilmişdir. (Onun hər tərəfi bir yarım plefra həcmindədir).

127. Bu Xeops, misirlilərin dediklərinə görə, 50 il hökmranlıq sürmüşdür, onun vəfatından sonra qardaşı Xefren varislik etmişdir. O da hər işdə böyük qardaşı kimi hərəkət etmiş, eləcə də piramida tikdirmiş, amma böyüklükdə Xeopsunkuna çatmamışdır. Axı, onu mən özüm ölçmüşəm. Onun altında yeraltı aramgahlar yoxdur; deyilənə görə, Xeopsun dəfn edildiyi və süni məcra vasitəsi ilə əmələ gələn adadakı o biri piramidada olduğu kimi, bu piramidaya Nildən kanal çəkilməmişdir. Xefren pillələrin ən aşağıdakı cərgələri üçün rəngarəng Efiopiya daşından gətirməyi əmr etmiş və piramidanı birincidən 40 fut alçaq, amma elə onun ölçüsündə tikdirmişdir. Hər iki piramida hündürlüyü 100 futa yaxın olan eyni təpədədir. Kahinlərin sözünə görə Xefren 56 il hakimiyyət sürmüşdür.

128. İbadətgahların bağlandığı bu 106 il Misir üçün böyük bəlalar dövrü hesab olunur. Misirlilərin bu hökmdarlardan elə zəhlələri gedir ki, onların adlarını çox könülsüz çəkirlər. Hətta bu piramidaları da o vaxtlar sürülərini o tərəflərdə otaran çoban Filitisin adı ilə adlandırırlar.

129. Kahinlərin sözlərinə görə, sonra Misirin hökmdarı Xeopsun oğlu Mikerin olmuşdur. Atasının işləri onun ürəyindən deyilmiş. O, məbədləri açdırıb, ağır işlərdən üzülmüş adamları azad edərək hər kəsi (öz zəmisində) işləmək və qurban gətirmək üçün buraxmışdır. O, bütün hökmdarlar içərisində ən ədalətli hakim olmuşdur. Buna görə də misirlilər bu vaxtadək üzərlərində hakimiyyət sürmüş hökmdarlar içərisində onu xüsusilə tərifləyirlər. Axı, o, nəinki ədalətli hökmdar olmuşdur, hətta onun hökmlərindən narazı qalanlara öz varidatından pul vermişdir ki, onları razı sala bilsin. Tabeliyində olanlarla: bu qədər yumşaq olub, onların qayğısını

downloaded from KitabYurdu.org

çəkən bu Mikerini də taleyin ağır zərbələri mat qoymuşdur. Onun birinci bədbəxtliyi evində yeganə övlad olan qızının vəfatıdır. Bu müsibətdən ağır yasa batan hökmdar onu adətən qəbul olunmuş dəfn təntənəsindən daha təntənəli şəkildə dəfn etdirmək istəmişdir. O, taxtadan içiboş bir inək (heykəli) düzəldib onu qızıla tutmağı və sonra mərhum qızını onun içinə qoymağı əmr etmişdir.

130. Amma bu inək torpağa basdırılmayıbdır, onu bu günə qədər Sais şəhərində, hökmdarın sarayında təntənəli şəkildə bəzədilmiş aramgahda görmək olar. Hər gün onun ətrafında hər cür ətirləri tüstülədib, bütün gecəni çıraq yandırırlar. Sais kahinlərinin mənə danışdıqlarına görə bu inəyin yaxınlığındakı başqa bir aramgahda Mikerinin məşuqələrinin heykəlləri qoyulmuşdur. Ağacdan düzəldilmiş belə əzəmətli çılpaq qadın heykəli var. Lakin onların şəxsiyyəti haqda ancaq mənə danışılanları təkrar edə bilərəm.

131. Bu inək və möhtəşəm qadın heykəlləri haqda başqaları belə əfsanə söyləyirlər: guya Mikerin ehtirasdan qızışıb, öz qızını onun iradəsinin əleyhinə olaraq zorlamışdır. Deyirlər ki, qız bundan sonra dərdə və abırsızlığa dözməyərək özünü asmışdır. Atası onu bu inəyin içərisində dəfn etdirmiş, anası isə qızı atanın əlinə verən qulluqçuların əllərini kəsdirmişdir. Onların indiyə qədər əlsiz olan heykəlləri göstərir ki, bu qulluqçular sağlıqlarında cəza çəkmişlər. Amma, mən bütün bunların cəfəngiyat olduğunu düşünürəm, xüsusən də heykəllərin əlləri ilə bağlı olan əhvalatı. Axı, mən özüm gördüm ki, heykəllərin əlləri zaman keçdikcə qoldan üzülüblər, bu qollar elə indi də heykəllərin ayaqlarının yanındaca durur.

132. İnəyinsə başı və boynu qalın qızıl təbəqəsinə tutularaq bütünlükdə al-qırmızı paltara bürünmüşdür. Buynuzlarının arasında Günəş çevrəsinin yenə də qızıla tutulmuş əksi qoyulmuşdur. İnək ayaq üstə düzünə dayanmır, o daşların üstündə uzanmış vəziyyətdədir, boyu isə təbii inəkdən azca böyükdür. Misirlilər, hər il mənim ixlaskarlıq qorxusu ilə adını çəkmək istəmədiyim allahın şərəfinə sinə döyməyə başladıqları gün bu inəyi aramgahdan çıxarırlar. Danışırlar ki, qız ildə bir dəfə Günəşi görmək üçün atasından icazə istəyibmiş.

downloaded from KitabYurdu.org

133. Qızının vəfatından sonra bu hökmdara ikinci bədbəxtlik üz vermişdir. O da belədir: Buto şəhərindəki kahinliyin rəmmalından buyuruq gəlir ki, hökmdarın ömrünün sonuna yalnız altı il qalmışdır, yeddinci ilə keçəndə o, öləcəkdir. Hökmdar çox qəmgin olur və allahı qınamaq üçün Buto rəmmalının hüzuruna adam göndərir. Hökmdar rəmmalın qeybdən verdiyi xəbərə cavab göndərərək, atasının və əmisinin məbədləri bağlatdırıb, allahları unudaraq xalqa əzab verdikləri halda çox yaşadıqlarından, özünün isə möminliyinə baxmayaraq tezliklə öləcəyindən şikayətlənir. Rəmmaldan ona gələn başqa bir buyruqda isə deyilirmiş ki, ilahə məhz elə buna görə də onun ömrünü gödəldir. Axı, o, yerinə yetirməli olduğu işi görməmişdir: Misirin qismətinə 150 il bəlalar keçirmək düşübmüş. Mikerinin sələfi olan iki hökmdar bunu başa düşsə də, o özü başa düşməmişdir. Mikerin belə bir cavab eşidib anlayır ki, taleyin qarşısını almaq olmaz və çoxluca çıraq hazırlamağı əmr edir. Hökmdar gecələr çıraqları yandırmağı buyurub gecə-gündüz, ara vermədən çaxır içib şadlıq etməyə başlayır. O, harada kef üçün əlverişli yer tapırsa, orada çəmənlikləri, ormanları dolaşmağa başlayır. O, gecələri gündüzlərə qataraq ona görə belə edirmiş ki, rəmmalı yalançılıqda ifşa edib, altı ili on iki ilə döndərsin.

134. Bu hökmdar da piramida yadigar qoymuşdur; amma atasının piramidasından kiçiyini. Bu piramidanın hər tərəfi atasının piramidasından 20 fut 3 plefr gödəkdir. O da dördküncdür və yarısı efion daşından tikilmişdir. Bəzi ellinlər düşünürlər ki, bu piramida getera Rodopisindir, amma bu, doğru deyil. Görünür, onlar Rodopisin kim olduğunu bilmədən belə iqrar edirlər. Axı, əks təqdirdə, tikilməsi üçün minlərlə və on minlərlə talant tələb olunan belə bir piramidanı onun adına çıxa bilməzdilər. Bundan başqa, Rodopis Mikerinin vaxtında deyil, hökmdar Amasisin dövründə, yəni bu piramidanı tikdirənlərdən çox-çox nəsillər sonra yaşamışdır. Rodopis nəsilən Frakiyadan çıxıb Hefestopol oğlu İadmon deyilən bir samoslunun cariyəsi (qulu) olmuşdur. Onunla birlikdə təmsilçi Esop da qul olmuşdur. Axı, o da İadmona məxsus qul idi. Bunu xüsusən belə bir hadisə aydın göstərir: Delflilər allahların buyruğuna görə carçı vasitəsi ilə kimin Esopu öldürüb haqq almaq istədiyini soruşanda

downloaded from KitabYurdu.org

İadmonun elə onun adını daşıyan nəvəsi İadmondan başqa heç kəs üzə çıxmamışdır. O da haqq almışdır. Demək, Esop həmin İadmona məxsus olmuşdur.

135. Rodopis isə Misirə gəlib çıxmışdır. Onu buraya samoslu Ksanf gətirmişdir. Rodopis "peşəsi" ilə məşğul olmaq üçün buraya gələndə mitilenalı Skamondronimin oğlu, Sapfonun qardaşı Xaraks tərəfindən böyük məbləğə azad etdirilmişdir. Rodopis bu cür azad olub, Misirdə qalmışdır. O, son dərəcə füsunkar olduğuna görə böyük sərvət əldə etmişdir, amma bu sərvət Rodopis kimi adam üçün piramida tikdirməkdən ötəri heç də kifayət deyil. Arzu edən hər kəs onun sərvətinin onda bir hissəsini bu gün də görə bilər (buna görə də düşünmək olar ki, bu sərvət çox da böyük deyilmiş). Axı Rodopis özü haqqında Elladada bir yadigar qoymaq istəmiş və Delfə belə bir nəzir göndərmək fikrinə düşmüşdür ki, elə nəziri hələ indiyə qədər heç kəs, heç bir məbədə nəzir deməmiş olsun. O, öz pulunun onda bir hissəsinə dəmir şişlər düzəltdirib onları Delfə göndərmişdir, elə böyük şişlər ki, cöngələri ona taxıb bütövlükdə qızartmaq mümkün olsun. Bu şişlər xiosluların elə məbədin qarşısında ucaltdıqları mehrabın altında topa halda indi də qalmaqdadır. Navkratisdəki geteralar isə ümumən, xüsusi gözəllikləri ilə seçilmişlər. Burada haqqında söhbət gedən getera elə şöhrətlənmişdir ki, hər bir ellin Rodopis adını bilir. Rodopisdən sonra Arxidika deyilən biri də varmış ki, onu da bütün Elladada vəsf etmişlər, hərçənd onun haqqında gedən söz-söhbət Rodopis haqqındakından az olmuşdur. Xaraks Rodopisi satın alıb azad edərək Mitilenaya dönəndə Sapfo nəğmələrinin birində ona çox kəskin rişxənd eləmişdi. Amma Rodopis haqqında bəsdir.

136. Kahinlər danışırlar ki, Mikerindən sonra Misirin hökmdarı Asixis olmuşdur. O, Hefestə gündoğan istiqamətdə yerləşən elə astana tikdirmiş ki, öz gözəlliyi ilə bütün əvvəlkiləri ötüb keçmişdir. Əvvəlki astanalar da qabartmalar və minlərcə başqa memarlıq naxışları ilə bəzədilmişdir, amma Asixisin tikdirdiyi astana hər halda daha zəngindir. Kahinlərin dediklərinə görə, bu hökmdarın hakimiyyəti zamanı pul tədavüldən tamamilə çıxanda Misirdə bir qanun çıxmış ki, (bu qanuna) görə doğma atanın mumiyasını girov qoyub borc pul götürməyə icazə verilirmiş. Bu qanuna bax, bir beləsi də əlavə edilmişdir: borc verən borclunun bütün ailə aramgahına sahib

downloaded from KitabYurdu.org

olurmuş, borc ödənilmədikdə borclunu belə bir cəza gözləyirmiş: onun özü də, nəsili də vəfat edəndən sonra ailə sərdabəsində və ya hər hansı bir sərdabədə basdırılmaq hüququndan məhrum olurmuş. Asixis Misirin əvvəlki hökmdarlarını ötüb keçmək üçün özündən yadigar qoymaq məqsədi ilə gildən piramida ucaltdırıb daş üstündə belə bir kitabə həkk etdirmişdir: "Məni daş piramidalardan alçaq tutma, Zevs başqa allahlardan uca olduğu kimi, mən də o biri piramidaların fövqündəyəm. Şüvülü lehməli gölə salmışlar və ona bulaşan lehmədən kərpic kəsmişlər. Beləliklə, məni ucaltmışlar". Bu hökmdar bax belə iş görmüşdür.

137. Kahinlər danışırlar ki, bundan sonra Anisis şəhərindən çıxıb adı da Anisis olan bir kor hökmdarlıq etmişdir. Onun hakimiyyəti zamanı efioplar güclü qoşun çəkib öz hökmdarları Sabakın başçılığı ilə Misirə soxulmuşlar. Kor Anisis sahil düzənliklərinə qaçmış, efiopiyalı isə Misirin hökmdarı olub 50 il hökmranlıq sürmüşdür. Bu vaxt ərzində o, bax belə işlər görmüşdür: bir misirli hər hansı bir cinayət törətsəydi, hökmdar onu edam etməzdi. O, hər cinayətkarı günahının ağırlığına uyğun olaraq öz şəhərində torpaq işinə məhkum edərmiş. Bu yolla şəhərlər (öz özülündən) daha hündürə qalxmışlar. Axı əvvəllər, hökmdar Sesostrisin vaxtında torpaqatma işi kanal qazan işçilərin vasitəsi ilə görülürdü, amma sonra efiopiyalı hökmdarın vaxtında şəhər torpaqlarını daha hündürə qaldırmışlar. Misirin başqa şəhərləri də hündürdə yerləşsələr belə, mənə elə gəlir ki, Bubəstis şəhərini daha çox torpaq töküb ucaltmışlar. Bubəstis (ilahəsinin) məşhur məbədi bu şəhərdədir. Doğrudur, daha geniş və əzəmətli olan başqa ibadətgahları da var, amma onların heç biri bu məbəd qədər göz oxşamır. Bubəstis isə ellincə Artemida deməkdir.

138. Bubəstis ibadətgahı bax belədir: O, yalnız girəcəyindən başqa, tamamilə adada yerləşir. Axı Nildən ibadətgahın girəcəyinə qədər iki kanal aparmışlar. Onlar məbədin hər iki tərəfindən axırlar. Hər kanalın eni 100 fut olub ağacların kölgəsində qalmışdır. Astana isə 10 orgiya hündürlüyündə olub 6 dirsək boyda çox qəşəng heykəllərlə bəzədilmişdir. İbadətgah isə şəhərin mərkəzində yerləşib hər tərəfdən görünür. Şəhər torpaq tökmək sayəsində hündürləşdiyi halda, ibadətgah elə əvvəlki yerində qalmışdır və ona görə də (şəhərdən baxanda) hər tərəfdən gözə çarpır. O,

downloaded from KitabYurdu.org

qabartmalarla bəzədilmiş bir hasara alınmışdır, hasarın içərisində isə ilahənin heykəli olan uca məbəd binasının ətrafında salınmış möhtəşəm ağaclı orman vardır. Müqəddəs sahənin hər tərəfinin eni və uzunu bir stadiyadır. Girişdən başlanan daş döşəməli 3 stadiyaya yaxın olan yol şəhər bazarının meydanından şərqə doğru keçir. Onun eni 4 plefrdir. Yolun hər tərəfində göylərə yüksələn uca ağaclar vardır.

139. Kahinlərin danışdığına görə, misirlilər efiopiyalı hökmdarın hakimiyyətindən bax, belə xilas olmuşlar. Efiop hökmdarı gördüyü yuxuya görə ölkədən qaçmışdır. O, yuxuda görüb ki, bir adam hüzuruna gəlib, ona bütün Misir kahinlərini bir yerə yığaraq hərəsini iki yerə şaqqalatmağı təklif edir. Hökmdar belə yuxu görüb demişdir ki, görünür, allahlar bu cür məsləhət verməklə onu müqəddəsləri təhqir etməyə təhrik edirlər və bununla da onu allahların və insanların intiqamı qarşısında qoyurlar. Amma o, belə məsləhətə əməl etməyəcəkdir, əksinə, ölkəni buraxıb gedəcəkdir, çünki rəmmal buyruğuna görə onun (Misir üzərində) bərqərar olan hakimiyyətinin vaxtı tamam olur. Axı hələ o, Efiopiyada ikən, efiopların sorğu verdikləri rəmmal ona Misirdə əlli illik hakimiyyət bəyan eləmişdi. Beləliklə, Sabak bu möhlət başa yetdiyinə (həm də qorxunc yuxu gördüyünə görə) könüllü olaraq Misiri tərk edir.

140. Efiop hökmdarı Misirdən çıxıb gedən kimi kor Anisis sahil boyu düzənliklərdən qayıdıb yenidən hökmdarlığa keçir. O, 50 il həmin yerlərdə qalır və adaya torpaqla kül tökməyi əmr edir. Axı o, misirlilərə efiop hökmdarından gizli olaraq özünə azuqə gətirməyi əmr etməkdən başqa, misirlilər bu kor hökmdara hədiyyə olaraq kül də gətirməli idilər. Bu adanı isə hökmdar Amirteyə qədər heç kəs axtarıb tapa bilməmişdir. Amirteyin sələfləri olan hökmdarlar 700 ildən artıq bir müddət ərzində bu adanı tapmaq üçün havayı yerə cəhd göstərmişlər. Ada Elbo adlanır, eni və uzunu isə 10 stadiyadır.

141. Anisisdən sonra Hefestin Setos adlı kahini hökmdarlıq etmişdir. Bu hökmdar Misir hərbçiləri kastasına guya heç ehtiyac görməyərək, onlara ağılsızcasına etinasızlıq göstərmişdir. O, hətta bu kastanı incitərək, əvvəlki hökmdarlar tərəfindən bəxş olunmuş torpaqları da onların əllərindən almışdır (hərəsinə 12 seçmə bölgə

downloaded from KitabYurdu.org

verilmişdi). Bundan sonra ərəblərin və assurların hökmdarı Sanaxərib güclü qoşunla Misirin üzərinə müharibəyə getmişdir. Misir hərbçiləri də yürüşə getməkdən boyun qaçırmışlar. Ümidsiz vəziyyətə düşmüş hökmdar-kahin isə ibadətgaha gələrək pərəstişgah qarşısında hönkürərək özünün ağır qismətindən şikayətlənməyə başlamışdır. Hökmdarı belə ağlar vəziyyətdə ikən yuxu basmış, allah yuxusuna girib onu ruhlandıraraq demişdir: "Qoy, hökmdar heç nədən qorxmadan ərəb qoşununun qabağına çıxsın; allah özü ona kömək göndərəcəkdir". Bundan ruhlanan hökmdar onunla getməyə hazır olan misirliləri götürüb Pelusidə qərargah saldırmışdır (axı, Misirin "qapıları" oradadır). Amma, hərbçilərdən heç kəs hökmdarla getməmişdir, gedənlər ancaq xırda alverçilər, sənətkarlar və bazarın müxtəlif tör-töküntüləri imiş. Onlar Pelusiyə gələn gecə çöl siçanları düşmən düşərgəsinə doluşub onların ox qabını, yaylarını, qalxanlarının tutacaqlarını gəmirdiklərindən səhər silahsız düşmən baş götürüb qaçmağa başlamış və onların çoxu qırılmışdır. Bu hökmdarın daş heykəli indi də Hefest məbədinin qarşısında durur. O, əlində siçan tutubdur, həkk olunmuş kitabədə isə belə deyilir: "Mənə bax və allahdan qorx!"

142. Misirlilər və onların kahinləri bu yerə qədər mənə qədim zamanlar haqqında əfsanələr danışmışlar. Onlar mənə izah etmişlər ki, Misirin birinci hökmdarının vaxtından bu axırıncı Hefest kahininə qədər 341 insan nəsili gəlib keçmişdir və bu vaxt ərzində göstərilən qədər də ali kahinlər və hökmdarlar olmuşdur. Bir əsrdə üç nəsil hesabı ilə götürsək, onda 300 nəsilin dövrü 10 000 il edir. Yerdə qalan 41 nəsili də hesablayanda bu, 1340 il edir. Beləliklə, kahinlərin dediklərinə görə 11340 il ərzində Misirdə insan şəklində olan allahlar deyil, ancaq ölümlü adamlar hökmranlıq sürmüşlər. Eləcə də, onların "fikrincə, bu vaxtdan əvvəl, ya sonra Misirdə hakimiyyət sürən hökmdarlar içərisində də insan şəklində allah olmamışdır. Kahinlər danışırlar ki, bu müddət ərzində Günəş dörd dəfə həmişə doğduğu yerdən doğmamışdır. Məhz iki dəfə indi batdığı yerdən doğmuşdur, iki dəfə də indi doğduğu yerdə batmışdır. Bundan da torpağın və bitkilərin məhsuldarlığı, çayların şəraiti, insanların xəstəliyi, ya ölümü mənasında Misirdə heç bir dəyişiklik baş verməmişdir.

downloaded from KitabYurdu.org

143. Tarixçi Hekatey bir vaxt Fivaya gələrkən öz nəsil şəcərəsini kahinlərə sadalayanda əcdadı-on altıncı ulu babası, onun fikrincə, allah olmuşdur) Fiva Zevsinin kahinləri onunla da indi mənimlə rəftar elədikləri kimi rəftar eləmişlər. Halbuki mən hələ özümün nəsil şəcərəmi onlara danışmamışdım. Onlar məni (Zevsin) böyük ibadətgahına gətirib cərgə ilə düzülmüş əzəmətli taxta heykəllər göstərdilər. Hər bir ali kahin hələ öz sağlığında orada özünə heykəl qoymuşdur. Kahinlər böyük heykəlləri bir-birinin ardınca sadalayıb mənə göstərdilər: hər dəfə oğul atadan sonra gəlirdi. Onlar sonuncu ölən kahinin heykəlindən başlayıb sıra ilə bütün heykəllərin yanından keçə-keçə onların hamısını mənə göstərdilər. Bax, Hekatey özünün nəsil şəcərəsinə əsaslanaraq, on altıncı arxasını aparıb allaha bağlayanda, onlar özlərinin nəsil şəcərəsi hesablamasını buna qarşı qoyaraq insanın allahdan törədiyini inkar etmişlər. Onlar öz hesablamalarını bax, bu şəkildə Hekateyin əleyhinə qoymuşlar: Onlar 345 möhtəşəm heykəli bir-bir ona göstərərək, hər bir heykəldən danışanda demişlər "bu piromisdir" bu da piromisin oğludur. (Heykəlləri cərgə ilə sadaladıqca həmişə piromisin piromisdən törədiyini demiş), amma onların əcdadını nə allaha, nə də qəhrəmana aparıb çıxarmamışlar. "Piromis" sözü isə ellincə "gözəl və nəcib adam" deməkdir.

144. Bax, orada heykəli saxlananların hamısı heç də allah deyil, beləcə insan olmuşlar. Doğrudur, bu insanlara qədər Misirdə allahlar hökmranlıq sürmüşlər ki, onlar da insanlarla bir yerdə yaşamışlar və onlardan biri həmişə daha qüdrətli olmuşdur. Bu hökmdarlardan sonuncusu Osirisin oğlu Or olmuşdur ki, ellinlər onu Apollon adlandırırlar. O, Tifonu devirərək Misirdə həqiqi hökmdar olmuşdur. Osiris isə ellincə Dionis deməkdir.

145. Ellinlərdə Herakl, Dionis və Pan allahların ən kiçiyi hesab olunurlar. Misirlilərdə isə əksinə, Pan-ən qədim allahdır, səkkizlər dəstəsi adlanan allahların birincisidir. Herakl, ikincilər adlanan on iki allah dəstəsinə, Dionis isə bu on iki allahdan törəyib, üçüncülər dəstəsinə mənsubdur. Misirlilərin sözlərinə görə, Herakldan sonuncu hökmdar Amasisə qədər keçən müddəti mən yuxarıda artıq xatırlatmışam. Onların hesablamasına görə Pandan bu yana daha çox vaxt, Dionisdən

downloaded from KitabYurdu.org

bu tərəfə isə daha az vaxt keçir, buna baxmayaraq, hər halda Amasisə qədər 15000 il keçibdir. Misirlilər iqrar edirlər ki, bu tarixi dəqiq bilirlər, çünki (hökmdarın və baş kahinlərin) başçılıq elədiyi illəri həmişə hesablayırlar və qeydə alırlar. Kadm qızı Semelanın oğlu hesab elədikləri Dionisdən bu yana keçən illər, əksinə, ən çoxu 1600 il olar, Alkmenanın oğlu Heraklдan isə 900 ilə yaxın vaxt keçmişdir. Penelopanın oğlu Panın doğuluşundan bu günə qədər keçən illər Troya müharibəsindən sonra keçən illərdən də azdır - cəmi 800 ildir (ellinlər Panı Penelopa ilə Hermesin oğlu sayırlar).

146. Beləliklə, (Dionisə və Pana gələndə) onların haqqında söylənmiş iki əfsanədən kimin hansını daha ağlabatan sayıb qəbul etməsi onun özündən asılıdır. Ellin allahlarının mənşəyi haqqında mənim şəxsi fikrimə qalanda, mən onu artıq söyləmişəm. Doğrudan da, Semelanın oğlu Dionis və Penelopanın oğlu Pan, eləcə də Amfitrion oğlu Herakl əgər məşhur qəhrəman olub Elladada yaşamışlarsa, onda Herakl haqqında deyildiyi kimi, elə bunların da adi ölümlü adamlar olduğunu və yalnız daha qədim allah adları daşıdıqlarını demək lazım gəlir. Amma ellinlər danışırlar ki, Dionis ana bətnindən çıxarılan kimi Zevs onu öz buduna tikib Misirdən yuxarıda olan Efiopiyadakı Nisaya aparmışdır; Panın haqqında isə anadan olduqdan sonra hara düşməsi barədə heç nə deyə bilmirlər. Buna görə də mən əminəm ki, bu allahlar ellinlərə o biri allahlara nisbətən gec məlum olmuşdur, ellinlər onları qəbul etdikləri vaxtı isə həmin allahların anadan olması vaxtı saymışlar.

147. Bütün bunları mənə misirlilər özləri bildirdilər. İndi də mən oranın başqa əhalisinin (misirlilərdən savayı) verdiyi və misirlilərin də onlarla razılaşdıqları məlumata əsasən bu ölkənin tarixini davam etdirəcəyəm. Öz gözümlə gördüklərimi də buraya əlavə edəcəyəm. Misirin (Efiopiyadan) azad edilməsindən və Hefest kahininin hakimiyyətindən sonra misirlilər bütün Misiri on iki hissəyə ayırıb, oraya on iki də hökmdar qoymuşlar (axı, misirlilər hökmdarsız yaşaya bilmirlər). Bu hökmdarlar bir-biri ilə kəbinlə qohum olurlar və (belə bir) müqavilə bağlayırlar ki, nə bir-birini devirsinlər, nə bir-birinin torpağını əlindən alsınlar, bəlkə daim dostcasına yaşasınlar. Onların çox möhkəm qoruduqları bu müqavilənin səbəbi də bax, budur.

downloaded from KitabYurdu.org

Onlar hakimiyyətə çatan kimi belə bir rəmmal bəyanı gəlmişdir: onlardan hər kəs Hefest ibadətgahında mis camda çaxır içsə, o, bütün Misirin hakimi olacaqdır. Ona görə də hökmdarlar (qurban kəsmək niyyəti ilə) bütün ibadətgahlara, adətən, birgə toplaşırdılar.

148. Bax, buna görə də onlar bir ümumi abidə yadigar qoymaq fikrinə gəlmişlər və bunu qərarlaşdırıb Timsahlar şəhəri adlanan yerin yaxınlığındakı Merida gölündən bir az yuxarıda labirint tikdirmişlər. Mən bu labirinti görmüşəm: o, hər cür təsvirin fövqündədir. Əgər ellinlərin çəkdirdikləri bütün hasarları və bütün tikintiləri bir yerə yığsaq, onların hamısına sərf olunan əmək və çəkilən xərcin təkcə bu labirintə sərf olunan əmək və xərcdən az olduğu müəyyənləşər. Bununla belə, Efes və Samosdakı məbədlər çox gözəldir. Əlbəttə, piramidalar nəhəng tikintilərdir, (ellin tikinti sənətinin) yaratdıqları özü-özlüyündə böyük olsalar da, onları üst-üstə götürəndə piramidaların hər biri özünün böyüklüyünə görə onların çoxuna dəyər. Amma labirint (həcminə) görə bu piramidaları da ötür. (Orada darvazası bir-birinin qarşısında olan on iki saray vardır ki, bir-birinə söykənərək altısı şimala, altısı da cənuba baxır. Onların bayırından yeganə hasar çəkilmişdir. Bu hasarın içəri tərəfində iki növ aramgahlar yerləşir: bəziləri yerin altında, bəziləri yerin üstündə olmaqla sayı 3000-dir; məhz hərəsindən 1500. Yer üstündəki aramgahlardan özüm keçib onlara baxmışam və bu barədə bir şahid kimi danışıram. Yer-altı aramgahlar barədə ancaq deyilənlərə əsasən məlumatım var: Misir inşaatçıları bu aramgahları heç vəchlə göstərmək istəmirlər, deyirlər ki, orada bu labirinti tikdirmiş hökmdarların türbələri, eləcə də müqəddəs timsahların sərdabələri yerləşir. Ona görə də mən aşağıdakı aramgahlar haqqında ancaq eşitdiklərim əsasında danışıram. Mənim gördüyüm yuxarıdakı aramgahlar isə insan əlinin yaratdıqlarının (hamısını) ötüb keçir. Aramgahdan aramgaha keçidlər, həyətdən həyətə girintili-çıxıntılı yollar həddindən çox dolanbac olub son dərəcə böyük heyrət doğurur: həyətlərdən aramgahlara keçirsən, oradan yenə həyətlərə çıxırsan. Hara baxırsansa, daş divarlarla yanaşı, daş damlar görürsən, bu divarlar isə çoxluca qabartma təsvirlərlə örtülmüşdür. Hər həyət ağ daş parçalarından səliqə ilə quraşdırılmış sütunlarla əhatə olunmuşdur. Labirintin

downloaded from KitabYurdu.org

qurtaracağındakı küncdə 40 orgiya hündürlüyündə, üstündə böyük fiqurlar həkk edilmiş piramida ucaldılmışdır. Piramidaya yeraltı yol gedir.

149. Bu labirint özünün möhtəşəmliyi ilə nə qədər heyrətli olsa belə, sahilində yerləşdiyi Merida adlanan göl daha çox təəccüb doğurur. Bu Merida gölünün dövrəsi 3600 stadiya, 60 sxendir, yəni bütün Misirin sahil xəttinə bərabərdir. Göl şimaldan cənuba doğru uzanır, onun ən dərin yeri 50 orgiyadır. Onu insan əlinin yaratdığı, süni şəkildə qazıldığı aydın görünür. Demək olar ki, gölün ortasında suyun səthindən 50 orgiya hündürlüyə ucalan iki piramida yerləşir, onların su altında qalan hissələri də bir o qədər dərinlikdədir. Hər piramidanın yanında taxtda əyləşmiş iki möhtəşəm heykəl qoyulmuşdur. Beləliklə, bu piramidaların hündürlüyü 100 orgiyadır, hər orgiya isə düz 1 stadiya, 6 plefr edir, çünki orgiya 6 fut, ya da 4 dirsəkdir; fut isə 4 qarışa, hər dirsək-6 qarışa bərabərdir. Gölün suyu isə çeşmə suyu olmayıb (bu yer tamam susuzdur), kanal vasitəsi ilə Nildən gətirilir, altı ay gölə tökülür, altı ay da tərsinə, göldən Nilə axıb gedir. Çəkilmə dövründə göldən balıq ovu hökmdar xəzinəsinə hər gün 1 talant gümüş, qabarma vaxtı isə ancaq 20 mina çəkisində gəlir verir.

150. Yerli əhali danışırdı ki, gölün Liviya Sirtinə yeraltı çıxarı var: o, Memfisdən yuxarıda olan dağ silsiləsi boyu, ölkənin içəriləri ilə qərbə doğru axır. Mən heç yerdə göldən çıxarılmış torpaq (tullantısı) görmədiyimdən maraqlanıb ətrafdakı əhalidən qazılmış torpağın haraya atıldığını soruşdum. Onlar da mənə torpağın haraya daşındığını danışdılar, onların məlumatı mənə ağlabatan göründü. Axı, mən eşitmişdim ki, Assuriyanın Nin şəhərində də torpaqdan buradakı kimi istifadə etmişlər. Orada quldurlar hökmdar Nin oğlu Sardanapalın yeraltı xəzinələrdə saxlanan böyük xəzinəsinin xəyalına düşmüşlər. Belə ki, quldurlar öz evlərindən hökmdar sarayına yeraltı lağım atmışlar. Qazılmış torpağı isə ta məqsədlərinə yetənə qədər gecə ikən Nin şəhərindən axan Dəclə çayına tökmüşlər. Eşitdiyimə görə, Misirdəki gölü də beləcə qazmışlar, amma iş gecələr deyil, gündüz görülmüşdür: qazılmış torpağı da daşıyıb Nilə aparmışlar, təbiidir ki, o da torpağı öz axarı boyu götürüb aparmışdır. Deyilənlərə görə, bu gölü də bax, beləcə qazmışlar.

downloaded from KitabYurdu.org

151. On iki hökmdar isə öz aralarındakı müqaviləni sədaqətlə qorumuşdur; amma bir dəfə onlar Hefest məbədinə qurban gətirib, bayramın axırıncı günündə şərab nəziri vermək istəyəndə baş kahin onlara, adətən, şərab içmək üçün təqdim olunan on iki qızıl nəzir camı əvəzinə, səhvən on bir cam vermişdir. Axırıncı hökmdar Psammetix camsız qaldığına görə, başındakı mis dəbilqəni çıxarıb nəzir şərabı üçün kahinə sarı uzatmışdır. O vaxtlar hökmdarların hamısı mis dəbilqə qoyurdular və həmin gün onların başında dəbilqə vardı. Psammetix dəbilqəni kahinə sarı uzadanda heç bir məkrli niyyət güdməmişdir, amma o biri hökmdarlar onun bu hərəkətini görüb, mis camda nəzir şərabı içən hökmdarın bütün Misirin hökmdarı olacağı haqqında rəmmalın buyruğunu yada salmışlar. Onlar bunu xatırlasalar da, hər halda, qərara gəlmişlər ki, Psammetixin həyatına qəsd etməsinlər, çünki sorğu-sual nəticəsində onun bu hərəkəti qəsdən eləmədiyini müəyyənləşdirmişlər. Bununla belə, onlar Psammetixi mülklərinin çoxundan məhrum edib, özünü ölkənin sahil boyu düzənliklərinə sürgün etmək və Misirin qalan hissələri ilə əlaqə saxlamasını qadağan etmək qərarına gəlmişlər.

152. Həmin bu Psammetix əvvəllər bir dəfə onun atası Nekonu öldürmüş efiop hökmdarı Sabakın əlindən qaçmalı olmuşdu. O zaman Psammetix Suriyaya qaçmaqla canını qurtarmışdı. Sonra efiop hökmdarı gördüyü yuxu nəticəsində (Misirdən) çıxıb gedəndə, Sais nahiyəsinin misirli əhalisi Psammetixi geri gətirmişdir. Bu dəfə hökmdar olan Psammetix ikinci dəfə dəbilqə əhvalatına görə on bir hökmdarın əlindən sahil boyu düzənliklərə qaçmalı olmuşdur. Özünü ağır təhqir olunmuş hesab edən Psammetix onu qovanlardan intiqam almaq fikrinə düşür. O, Buto şəhərindəki Latona rəmmalından ən ədalətli kahinliyin Misirin harasında olduğunu soruşur və belə cavab alır: "Mis adamlar köməyə gələndə qisas yolu dənizdən açılacaqdır". Psammetix mis adamların gəlib onu xilas edəcəklərinə heç cür inana bilmir. Amma, bir müddətdən sonra küləklər dəniz quldurluğu ilə məşğul olan ionları və kariləri qovub Misirə gətirir. Əyinlərində mis əsləhələr olan bu adamlar sahilə çıxırlar. Heç vaxt mis əsləhəli adamlar görməyən bir misirli sahil boyu düzənliklərdə Psammetixin hüzuruna gəlib dənizdən mis əsləhəli adamların sahilə çıxdıqlarını və zəmiləri qarət

downloaded from KitabYurdu.org

etdiklərini ona xəbər verir. Hökmdar rəmmal bəyanının çin olduğunu başa düşərək ionlarla və karilərlə dostlaşır, böyük vədlər sayəsində onları özünün yanında muzdlu xidmətə girməyə razı sala bilir. Onları razı salandan sonra özünün misirli tərəfdarlarının və bu muzdlu döyüşçülərin köməyi ilə o biri hökmdarları devirir.

153. Psammetix bütün Misirin hakimi olanda Memfisdə Hefest ibadətgahının cənub astanalarını tikdirir Apisdən ötəri də astanalar qarşısında ağıl tikdirir (Apis müqəddəs heyvandır) və hər dəfə gələndə onu burada saxlayırlar. Bu ağıl hər tərəfdən üstündə qabartma fiqurlar olan sütunlarla əhatə edilmişdir. Ağılın dirəklərini 12 dirsək hündürlüyündə möhtəşəm sütunlar əvəz edir. Apis ellincə Epaf adlanır.

154. Psammetix (taxta çıxmaqda ona kömək etmiş) ionlara və karilərə Nilin hər iki sahilində qarşı-qarşıya yaşamaq üçün torpaq sahəsi bağışlamışdır. Bu yaşayış məntəqələri qərargah adlanır. Hökmdar onlara bu torpaqlarla yanaşı, bütün vəd etdiklərini də vermişdir. O, hətta ellin dilini öyrətmək üçün onlara Misir uşaqları da tapşırmışdır. Həmin misirlilər indi Misirdə olan dilmancların babalarıdır. İonlar və karilər bu ərazidə uzun müddət yaşamışlar. Bu torpaqlar Bubəstis şəhərindən dənizə doğru Nilin Pelusi deyilən mənsəbində yerləşir. Sonralar hökmdar Amasis bu torpaqları tərk etmək əmri verib, onları Memfisə aparmış və öz misirlilərindən qorumaq üçün onları şəxsi keşikçiliyinə götürmüşdür. Ellinlər, təbii ki, bu köçkünlərlə əlaqə saxlamışlar, ona görə də biz Psammetixin və sonrakı hökmdarların dövründən etibarən bütün Misir hadisələri haqda xəbər tutmuşuq. Onlar Misirdə məskunlaşmış ilk əcnəbilər olmuşlar. Amasisin onları köçürdüyü əvvəlki yerlərdə hələ mənim vaxtımda da gəmi tərsanələrinin və yaşayış yurdlarının qalıqları görünür. Psammetix, beləcə, Misirin hökmdarı olmuşdur.

155. Mən Misirin (Buto şəhərindəki) kahinliyini artıq bir neçə dəfə xatırlatmışam, indi də bu diqqətəlayiq yer haqqında ətraflı danışmaq istəyirəm. Bu Misir kahinliyi dənizdən ölkənin içərilərinə doğru gedəndə Nilin Sabennis adlanan mənsəbində böyük bir şəhərdəki Latona məbədində yerləşir. Rəmmalın olduğu bu şəhərin adı, elə indicə dediyim kimi, Butodur. Buto şəhərində bu məbəddən savayı Apollonun və

downloaded from KitabYurdu.org

Artemidanın da ibadətgahı var. Rəmmalın oturduğu Latona məbədinin özü isə çox böyükdür, onun astanaları 10 orgiya hündürlüyündədir. Bu ibadətgahda gördüklərimin içərisində məni daha çox heyrətə salan şeylərdən də danışmalıyam. Latonanın bu müqəddəs sahəsində bütöv bir daşdan yonulmuş məbəd binası ucaldılmışdır. Onun divarlarının hündürlüyü və eni bərabərdir, yəni 40 dirsəkdir. Qıraqları 4 dirsək uzunluğunda kənara çıxan bir daş da dam əvəzi onun üstünə qoyulmuşdur.

156. Beləliklə, bu ibadətgahda gözə dəyən ən heyrətli şey bu məbəd binasıdır. Xemmis adlanan ada da eyni dərəcədə gözəldir. Ada Buto ibadətgahı ilə yanbayan böyük və dərin bir göldə yerləşir. Misirlilər isə bunun guya üzən ada olduğunu iqrar edirlər. Bununla belə, mən özüm onun üzdüyünü və ya tərpəndiyini görməmişəm və doğrudan da üzən adaların ola biləcəyini eşidib təəccüblənmişəm. Bu adada Apollonun böyük məbədi yerləşir və daha üç mehrab ucaldılmışdır. Bundan başqa, orada çoxlu palmalar, meyvə gətirən və meyvəsiz cır ağaclar bitmişdir. Əvvəllər üzməyən bu adanın üzməyi barədə misirlilər bax, belə əfsanə danışırlar. Əvvəlki səkkiz allah dəstəsinə mənsub olan Latona Butoda yaşayırmış, indi burada onun ibadətgahı yerləşir. İsida Apollonu onun himayəsinə vermişdir. Hər yeri ələk-vələk edən Tifon Osirisin oğlunu götürüb aparmağa gələndə Latona Apollonu indiki üzən adada qoruyub xilas etmişdir. Misirlilərin dediklərinə görə, Apollonla Artemida Dionislə İsidanın uşaqlarıdırlar. Latona isə onların dayəsi və xilaskarı olmuşdur. Misirlilərdə Apollonu-Or, Demetranı-İsida, Artemidanı-Bubəstis adlandırırlar. Yevforion oğlu Esxil hər hansı başqa bir əfsanədən deyil, məhz bu əfsanədən elə şey götürmüşdür ki, mən indi onu danışacağam və belə bir şey ondan əvvəlki şairlərin heç birində yoxdur. O, məhz faciələrinin birində Demetranın qızı Artemidanı əks etdirmişdir. Misirlilərin danışdıqlarına görə bu ada bax, buna görə üzən ada olmuşdur.

157. Psammetix isə Misirdə 50 il hökmdarlıq etmişdir. Bunun 29 ilini Suriyanın Azot şəhərinin mühasirəsində keçirmiş və nəhayət, onu almışdır. Bizə məlum olan başqa xalqlardan heç biri bu qədər uzun sürən mühasirəyə tab gətirməmişdir.

downloaded from KitabYurdu.org

158. Psammetixin Neko adlı oğlu varmış ki, atasının vəfatından sonra Misirin hökmdarı olmuşdur. Qırmızı dənizə axan kanalı ilk dəfə o çəkdirmiş, sonra bu işi fars şahı Dara davam etdirmişdir. Bu kanalın uzunluğu dörd günlük yol qədərdir, özü də elə gen qazılmışdır ki, orada iki triyer yanaşı üzə bilər. Su buraya Nildən, Bubəstis şəhərinin bir az yuxarısından qoşulmuşdur. Kanal sonra ərəb şəhəri Fatimənin yanından keçib Qırmızı dənizə tökülür. Kanal əvvəlcə Ərəbistana birləşən Misir düzənliklərinin bir hissəsini keçib gedir. Bu düzənlik zolağından cənuba doğru Memfisə qədər uzanan və daş karxanası olan dağ ucalır. Bu dağın ətəyində kanal qərbdən şərqə doğru xeyli yol gedir, sonra cənubda şəhərdən keçib gedən bir dərəyə burulur, nəhayət, Ərəbistan körfəzinə tökülür. Şimal dənizindən Qırmızı dəniz adlanan Cənub dənizinə, yəni (Misirlə Suriyanın sərhəddindəki) Kasi dağından Ərəbistan körfəzinə qədər olan yol ən düz və ən gödək yoldur, özü də düz 1000 stadiya (təşkil edir). Bu, ən kəsə yoldur, kanal isə girintili-çıxıntılı olduğundan çox uzundur. Hökmdar Nekonun vaxtında kanalın tikintisində 120 000 misirli qırılmışdır. Amma Neko rəmmalın bəduğur bəyanına görə işi dayandırmağı əmr etmişdir. Rəmmal bəyanında deyilirmiş ki, hökmdar kanalı barbarların xeyrinə çəkdirir. Misirlilər isə onların dilində danışmayanların hamısına barbar deyirlər.

159. Beləliklə, Neko kanalın tikintisini başa çatdırmayıb, hərbi yürüşə çıxmışdır. O, həm Şimal dənizində, həm də Ərəbistan körfəzində Qırmızı dəniz üçün triyerlər hazırlanmasını əmr etmişdir. Onların tərsanələrini orada indi də görmək olar. Lazım olanda hökmdar həmişə bu gəmilərdən istifadə etmişdir. Neko (bu donanma ilə) Suriyaya hücum edib Maqdol şəhərində qələbə çalmışdır. Döyüşdən sonra da Suriyanın böyük şəhəri Kaditisi almışdır. Bu şücaətləri göstərdiyi əsləhələri Apollona nəzir verərək, Miletdə olan branxidlər ibadətgahına göndərmişdir. Neko, 16 illik hakimiyyətdən sonra vəfat etmiş və hökmdarlıq oğlu Psammisə qalmışdır.

160. Bu Psammisin vaxtında Misirə eleyalıların elçiləri gəlib dünyada ən ədalətli və gözəl qanunlar əsasında Olimp oyunları təşkil etmələri ilə öyünməyə başlamışlar. Bundan başqa, onların sözlərindən belə çıxırmış ki, dünyanın ən müdrik xalqı olan misirlilərin özləri də bu qanunlardan daha yaxşısını və (ədalətlisini)

downloaded from KitabYurdu.org

düşünə bilməzmişlər. Belə ki, eleyalılar Misirə çataraq nə üçün gəldiklərini hökmdara bildirəndə bu hökmdar böyük müdrikliyi ilə şöhrətlənmiş bütün misirlilərin dəvət olunmasını buyurmuşdur. Müdriklər yığılıb eleyalılardan Olimp yarışlarında hansı qayda-qanun qoyduqlarını soruşmağa başlamışlar. Eleyalılar hər şeyi danışıb, axırda buraya misirlilərin bu yarışlar barədə daha qərəzsiz qayda-qanunlar fikirləşə bilib-bilməyəcəklərini öyrənmək məqsədi ilə gəldiklərini söyləmişlər. Müdriklər isə məsləhətləşərək Eleya vətəndaşlarının da yarışlarda iştirak edib-etməyəcəklərini soruşmuşlar. Onlar cavab vermişlər ki, bütün başqa ellinlər kimi onların özləri də iştirak edə bilərlər. Misirlilər buna etiraz edib bildirmişlər ki, eleyalılar bu qayda ilə yarışların qərəzsizliyini tamamilə pozurlar: axı, hakimlər onlardan olarsa, öz vətəndaşlarından olan pəhləvanlara qərəzsiz yanaşmaya bilməzlər və yadelli pəhləvanları incidərlər. Onlar yarışları doğrudan da ədalətlə keçirmək istəyirlərsə və bu məqsədlə də Misirə gəliblərsə, onda bütün eleyalıları təcrid edib, ancaq yadelliləri yarışa buraxmalıdırlar. Misirlilər eleyalılara belə cavab vermişlər.

161. Psammis Misirdə cəmi altı il hökmranlıq etmişdir. O, Efiopiyaya yürüş edib, sonra da çox çəkmədən ölmüşdür. Oğlu Apri onun varisi olmuşdur. O, qədim Misir hökmdarları içərisində özünün ulu babası Psammetixdən sonra ən xoşbəxti olmuşdur. Apri 25 il hökmranlıq etmişdir. Bu müddət ərzində o, Sidonun üzərinə müharibəyə getmiş, dənizdə Tir hökmdarı ilə vuruşmuşdur. Apriyə bir bədbəxtlik üz vermişdir ki, bu haqda Liviyanı təsvir edəndə daha ətraflı danışmalı olacağım üçün burada onu yalnız ötəri olaraq xatırladıram. Apri Kirenanın üstünə qoşun göndərmiş, lakin ağır məğlubiyyətə uğramışdır. Bunun üstündə misirlilər hökmdara qəzəblənmiş və hökmdarın onları tələf etmək üçün qəsdən açıq-aşkar ölümə göndərib, qalan misirlilər üzərində daha arxayınlıqla hökmdarlıq etmək istədiyini düşünərək üsyan qaldırmışlar. Beləliklə, məhv olmaqdan qurtarıb salamat qalmış misirlilər və onların dostları bundan qəzəblənib açıq qiyam etmişlər.

162. Qiyam xəbərini eşidən Apri qiyamçıları vədlərlə sakitləşdirmək üçün Amasisi onların yanına göndərmişdir. Amasis gəlib onları dilə tutmağa başladığı vaxt bir nəfər misirli arxadan onun başına dəbilqə qoyaraq bildirmişdir ki, bununla ona

downloaded from KitabYurdu.org

tacqoyma mərasimi keçirir. Bu, heç də Amasisin istəyinin əleyhinə deyilmiş və o, bunu tezliklə sübuta yetirmişdir. Qiyamçılar onu hökmdar elan edən kimi Amasis Aprinin əleyhinə mübarizəyə hazırlaşmağa başlamışdır. Bunu eşidən Apri də öz məiyyətindən Patarbemis adlı bir nəcabətli misirlini Amasisin yanına göndərib, onu diri-diri hüzuruna gətirməsini əmr etmişdir. Bu Patarbemis Amasisin yanına gəlib onu hökmdarın hüzuruna dəvət edəndə (elə yenicə at belinə qalxmış olan) Amasis yəhərin üstündə dikəlib yel buraxmış və Patarbemisə demişdir ki, onu Apriyə aparsın. Patarbemis isə təkid etmişdir ki, əgər hökmdar onu Amasisi aparmaq üçün göndəribsə o, gərək hökmən hökmdarın hüzuruna getsin. Amasis də cavab verib ki, o, çoxdan buna hazırlaşır və Arpinin ona qəzəblənməsinə ehtiyac qalmayacaqdır: o, tezliklə özü hökmdarın hüzuruna gedəcək və başqalarını da özü ilə aparacaqdır. Patarbemis bu sözlərin mənasını çox yaxşı başa düşür. O, müharibəyə hazırlıq getdiyini görür, vəziyyəti hökmdara bildirmək üçün buradan tələsik çıxıb gedir. Patarbemis Aprinin hüzuruna gəlib çıxanda, qəzəblənmiş hökmdar ona heç bir söz demək imkanı verməyərək qulaqlarını və burnunu kəsməyi əmr edir. Bu vaxta qədər hökmdara sadiq qalan misirlilər öz içərilərindən çıxmış belə nəcabətli adamın bu cür çirkincəsinə təhqir edildiyini görərək, dərhal qiyamçıların tərəfinə keçib Amasisə satılırlar.

163. Bunu eşidən Apri muzdlu qoşunu silahlandırıb qiyam etmiş misirlilərin üstünə gedir. Onun karilərdən və ionlardan ibarət 30 000 muzdlu qoşunu vardı. Hökmdarın, eləcə də, Sais şəhərində böyük və gözəl sarayı vardı. Bəli, Apri öz misirlilərinin üstünə gedir, Amasis də yadelli muzdurların üstünə qoşun çəkir. Hər iki qoşun Momemfis şəhərində qarşılaşır və vuruşma başlayır.

164. Misirdə yeddi müxtəlif kasta vardır: kahinlər, hərbçilər, sağırçılar, donuzotaranlar, xırda alverçilər, dilmanclar və gəmi sükançıları. Misirdəki kastalar bu qədərdir, onların adı isə (üzvlərinin) məşğuliyyət növündən götürülmüşdür. Hərbçilər kastası kalasirilər və hermotibilər adlanan hissəyə bölünürlər və aşağıdakı mahallarda yaşayırlar (axı, bütün Misir mahallara bölünmüşdür).

downloaded from KitabYurdu.org

165. Hermotibilər Busiris, Sais, Xemmis, Papremis mahallarında, Prosopitida adlanan adada və Nafoda yaşayırlar. Bunlar, sayı ən çox olanda 160000 nəfərə çatan hermotibilərin mahallarıdır. Bunlardan heç kəs hərbi işdən savayı özgə bir işlə məşğul olmur.

166. Kalasirilər isə Fiva, Bubəstis, Aftis, Tanis, Mendes, Sebennis, Atribis, Farbais, Fmuis, Onufis, Anisis, Miekforis mahallarında yaşayırlar. Bu mahallardan axırıncısı adada, Bubəstis şəhəri ilə üzbəüz yerləşir. Sayı ən çox olanda 250000 nəfərə çatan kalasirlərin mahalları bunlardan ibarətdir. Onların da heç birinə hərbi işdən başqa işlə məşğul olmağa icazə verilmir və hər oğul hərbi işi atasından öyrənir.

167. Ellinlərin bunu misirlilərdənmi öyrəndiklərini müəyyən edə bilmirəm. Mən bircə bunu görürəm ki, frakiyalılarda, iskitlərdə, farslarda, lidiyalılarda və demək olar ki, bütün başqa barbar xalqlarda digər vətəndaşlara nisbətən sənətkarlara az hörmət göstərirlər. Fiziki əməklə məşğul olmayan adamlar, xüsusən də özünü hərbi işə həsr edənlər əsilzadə sayılırlar. Bax, bu dəbi ellinlərin hamısı, birinci növbədə lakedemonlular götürmüşlər. Korinfdə isə sənətkarlara hər yerdəkindən az nifrət edirlər.

168. Misirdə kahinlərdən başqa ancaq hərbçilər xüsusi üstünlüklərə malikdirlər: onların hər birinə (ailəsi ilə birlikdə) vergi qoyulmamış 12 arura seçmə torpaq bağışlanmışdır. Arura isə 100 kvadrat Misir dirsəyi qədərdir, Misir dirsəyi isə ölçüsünə görə Samos dirsəyinə bərabərdir. Bax, hər bir (hərbçinin) ixtiyarına bu qədər torpaq verilmişdir. Bundan əlavə onlar hərdənbir və vaxtaşırı hələ aşağıdakı gəlirlərə də malik olurdular: min kalasiri və bir o qədər də hermotibi hər il hökmdarın şəxsi keşikçisi kimi xidmət edirdi. Onlar torpaq payının gəlirindən əlavə hər gün adam başına 5 mina çörək, 2 mina mal əti, 4 aristera şərab alırdılar. Şəxsi gözətçilərinin daimi donluğu bu qədər idi.

169. Bəli, elə ki, Apri muzdlu qoşun başında, Amasis isə bütün misirlilərlə birlikdə Momemfis şəhərinə gəlib çıxırlar, onda vuruşma başlayır. Muzdlu qoşun cəsurcasına

downloaded from KitabYurdu.org

vuruşmasına baxmayaraq, sayca düşmənlərindən az olduğuna görə məğlubiyyətə uğrayır. Danışılanlara görə, Apriyə elə gəlirmiş ki, heç allah da onu hökmdarlıqdan məhrum edə bilməzmiş. Elə bilirmiş ki, taxtda çox möhkəm oturmuşdur. Amma, hər halda, həmin döyüşdə məğlub olmuş, əsir alınıb, keçmişdə onun olub, indi Amasisin ixtiyarına keçən Sais şəhərindəki saraya aparılmışdır. Aprini əvvəlcə bir müddət hökmdar sarayında saxlasirlilər deyinməyə başlamışlar (onlar Amasisin özünün və mışlar və Amasis onunla yaxşı rəftar etmişdir. Axırda, mionların qəddar düşmənini sağ saxlamasını ədalətsizlik sayırmışlar) və Amasis Aprini onlara təslim etməli olmuşdur. Misirlilər isə onu boğmuşlar, sonra babalarının türbəsində dəfn etmişlər. Bu türbə baş ibadətgaha girəndə, sol əldəki Afina məbədinin lap yaxınlığındadır. Saislilər özlərinin Sais sülaləsindən olan bütün hökmdarlarını bu türbədə dəfn etmişlər. Amasisin özünün türbəsi də, Aprinin və onun babalarının türbəsinə nisbətən baş ibadətgahdan uzaq olsa da, elə həmin məbədin həyətindədir. Bu məbəd palmaları xatırladan sütunlu və bəzəkli geniş daş qalereyadan ibarətdir. Bu qalereyada iki (ikitaylı) tağ var, onun arxasında (taxçada) sarkofaq qoyulmuşdur.

170. Saisin həmin Afina ibadətgahında bir sərdabə də var ki, onun adını burada çəkməyə özümü ixtiyarlı saymıram. O, Afina məbədinin bütün divarı boyu məbədin arxa tərəfində yerləşir. Sonra, bu müqəddəs hasarın içərisində yüksək daş sütundan ibarət abidələr və ətrafı daşla gözəlcəsinə düzülmüş bir göl var ki, mən bilən, bu, Delosdakı Dəyirmi göl adlanan göl boydadır.

171. Misirlilər gecə keşikləri zamanı bu göldə allahların ehtirasını (canlandıran) tamaşalar verirlər. Onlar bu tamaşanı şəbih adlandırırlar. Mən bu şəbihlərdə nələr baş verdiyini ətraflı danışa bilsəm də, bu barədə susacağam. Eləcə də ellinlərin Fesmoforiya adlandırdıqları Demetra bayramlarındakı mərasimlər haqda susmaq istəyirəm, çünki bunu bilməyənə bu barədə məlumat vermək qadağandır. Danayın qızları bu (Demetra) bayramını və adətlərini Misirdən gətirib onları pelasq qadınlarına öyrətmişlər. Sonralar dorilər Peloponnesdən oranın bütün keçmiş əhalisini qovanda bu mistik bayramlar dayandırılmışdır. Ancaq arkadiyalılar -

downloaded from KitabYurdu.org

Peloponnesdən qovulmayıb, orada qalan yeganə qədim əhali - bu bayramı və mərasimləri saxlamışdır.

172. Bəli, Apri devriləndən sonra əsli Sais mahalının Siuf adlı şəhərindən olan Amasis hökmdarlığa keçmişdir. Amasis adi vətəndaş olub nücəba nəsilindən çıxmadığına görə misirlilər əvvəlcə ona o qədər də hörmət göstərməyib, hökmdar kimi heç saymamışlar. Amma, sonra Amasis incə bir hiylə işlədib onların rəğbətini qazana bilmişdir. Onun tükənməz sərvəti içərisində özünün və qonaqlarının həmişə ayaqlarını yuduqları bir ləyən də varmış. Amasis bu ləyəni əridib ondan allahın heykəlini tökməyi və onu şəhərin ən qələbəlik yerində qoymağı buyurur. Misirlilər isə allahın yanından keçərək ixlasla ona səcdə edirlər. Bunu eşidən Amasis misirliləri öz hüzuruna çağırmağı buyurur və onlara bildirir ki, (allah) heykəli həmin o ləyəndən qayrılmışdır ki, əvvəllər onun içinə tüpürər, siyiyər və ayaq yuyardılar, indi isə ona ixlasla səcdə edirlər. Hökmdar bunu da əlavə edir ki, bax, onun da başına təxminən ləyənin başına gətirilənlər gəlibdir. Amasis, qoy əvvəllər haçansa ancaq adicə vətəndaş olmuşdur, amma indi onların hökmdarıdır. Buna görə də onlar hökmdarı sayıb ona hörmət etməlidirlər. Amasis misirliləri beləcə öz tərəfinə çəkir və onlar da ona xidmət göstərməyə razılaşırlar.

173. Amasis belə bir (gündəlik) iş qaydası qoyur: səhər tezdən, camaat bazara yığılana qədər ona verilən məlumata səylə baxmağa başlayırdı. Sonra o ziyafət verir və ziyafətdə özünün bütün süfrə dostları ilə abırsızcasına və şadyanalıqla zarafatlaşırdı. Hökmdarın rəftarı da onun dostlarını pərt edir və onlar hökmdarı belə məzəmmətləyirdilər: "Hökmdar! Sən belə yüngül və boş-mənasız əyləncələrə uyaraq, özünün hökmdar ləyaqətini alçaldırsan. Sən gərək zəngin taxtda əyləşib bütün günü işlə məşğul olasan. Onda misirlilər başa düşərlər ki, onların üstündə doğrudan da böyük bir ər hakimiyyət sürur, onda sənin şöhrətin haqda yaxşı xəbər yayılar. Amma indi sən hökmdara yaraşmayan bir həyat keçirirsən". Hökmdar da onlara etiraz edib: "Atıcı öz yayını ancaq lazım olanda dartır və lazım olmayanda kirişi boşaldır. Yay həmişə dartılmış vəziyyətdə olsaydı, qırılardı və lazım gələndə oxu hədəfə atmaq olmazdı. İnsan təbiəti də belədir: insan həmişə ciddi işlərlə məşğul olmaq fikrinə

downloaded from KitabYurdu.org

düşüb, heç bir əyləncəyə və zarafata yol verməzsə, onda ya hiss olunmadan ağıl çaşğınlığına uğrayar, ya da iflic olar. Ona görə də mən hər şeyi öz vaxtında edirəm". O, öz dostlarına belə cavab vermişdir.

174. Belə deyirlər ki, Amasis hələ adi vətəndaş olanda içməyi və zarafat etməyi sevirmiş, amma ciddi işlərə heç meyli yoxmuş. Öz varını içkiyə və kefə sərf edib qurtaranda, guya qonşulardan oğurluq etməyə başlayır. Onlar da bunu oğurluqda təqsirləndirirmişlər və tutulanda onu kahinliyə aparıb oğurladığı şeylərin yerini soruşurmuşlar. Rəmmal bəzən onu ifşa edirmiş, amma çox vaxt ona bəraət verirmiş. Amasis hökmdar olanda bax belə hərəkət etmişdir: oğurluq üstündə ona baraət verən allahların məbədlərinə heç bir qayğı göstərməmiş və onların bəzəyinə pul bağışlamamışdır. O, bu məbədlərə nə gəlmiş, nə də qurban gətirmişdir. O, deyirmiş ki, axı bu allahlar onlara qurban kəsilməsinə layiq deyillər, onların bəyanları da yalandır. Əksinə, onu oğurluq üstündə ifşa edən allahlara doğru bəyanlar verən həqiqi allahlar kimi dərindən səcdə edirmiş.

175. O, hər şeydən əvvəl, Saisdə Afinaya özünün hündürlüyü və genişliyi, eləcə də quraşdırıldığı daşların böyüklüyü və gözəlliyi ilə bütün başqa astanaları tamam ötüb keçən heyrətamiz astanalar ucaltdırmışdır. Sonra o, daha böyük heykəllər və kişi başlı nəhəng sfinkslər qoyub, başqa işlər üçün də iri qayalar gətirilməsini əmr etmişdir. Bəzi qayalar Memfis karxanalarından, daha böyük qayalar çay boyu yuxarı gedəndə Saisdən ən azı iyirmi günlük su yolu qədər aralıda qalan Elefantina şəhərindən gətirilmişdir. Amma bu tikintidə bir şey məni hər şeydən çox təəccübləndirir. Hökmdar Elefantinadan bir binanın bütöv daşdan yonulub gətirilməsini əmr etmişdir. Onu üç il ərzində gətirmişlər, bu işdən ötəri 2000 adam təyin edilmiş, onların hamısı da sükançı olmuşdur. Bu məbəd binasının uzunluğu bayır tərəfdən 21, eni 14, hündürlüyü 8 dirsəkdir. Bu, həmin monolit binanın bayır ölçüsüdür. İçəridən isə uzunu 18 dirsək və 20 qarış, eni 12 dirsək, hündürlüyü 5 dirsəkdir. Bina müqəddəs sahənin girəcəyindədir. Deyirlər ki, onu (müqəddəs sahənin) içərisinə bax, buna görə çəkib aparmamışlar. Belə danışırlar ki, memar bu binanı çəkib aparanda dərindən ah çəkmişdir, çünki sonsuz iş onu təngə gətiribmiş.

downloaded from KitabYurdu.org

Amasis isə bunu bəd əlamət sayaraq binanı daha çəkib aparmağa icazə verməmişdir. Amma bəziləri deyirlər ki, binanı linglə tərpədib aparan işçilərdən biri əzilmiş, buna görə də binanı ibadətgaha çəkməmişlər.

176. Amasis bütün başqa məşhur ibadətgahlara da öz böyüklüyü ilə heyrətamiz olan memarlıq tikintisi həsr etmişdir. Belə ki, Memfisdə ibadətgah qarşısında uzunu 75 fut olan bir nəhəng heykəl böyrü üstə torpağa uzadılmışdır. Yenə həmin kürsülükdə həmin nəhəng heykəlin hər iki tərəfində Efiopiya daşından 20 fut hündürlüyü olan iki heykəl də ayaqüstü durur. Eləcə də, Saisdə həmin ölçüdə Memfisdəki kimi yerdə uzanmış nəhəng heykəl vardır. Amasis Memfisdə İsidaya da böyük, heyrətamiz məbəd ucaltdırmışdır.

177. Danışırlar ki, hökmdar Amasisin vaxtında Misir çox böyük tərəqqiyə çatmışdır. Çay torpağa, torpaq isə insanlara (bərəkət) bəxş etmişdir: deyirlər ki, o vaxt Misirdə 20000 məskunlaşmış şəhər olmuşdur, Amasis də misirlilərə bax belə bir qanun vermişdir: hər bir misirli hər il öz gəlirini mahal hakiminə bildirməli imiş. Hər kəs bunu etməsə və heç bir qanuni gəlir göstərə bilməsə, onu ölüm cəzası təhlükəsi gözləyirmiş. Afinalı Solon bu qanunu misirlilərdən götürüb Afinaya keçirmişdir. O, indiyə qədər də orada ən yaxşı qanun kimi saxlanmaqdadır.

178. Amasis ellinlərin dostu olmuşdur. O, nəinki bunların bəzilərinə rəğbət göstərmiş, bəlkə Navkratis şəhərini yaşamaq üçün ellin köçkünlərinə vermişdir. Oraya köçmək istəməyib, (alver üçün) müvəqqəti gələnlərə isə elə sahə ayırmışdır ki, onlar orada mehrab və allahlara məbəd tikə bilsinlər. Bu ibadətgahlardan ən böyüyü, məşhuru və zəvvarları çox olanı Elleniy, adlanır. Onu aşağıdakı şəhərlər əlbir olub bina etmişlər: İoniyadan - Xios, Teos, Fokeya və Klazomena; dori şəhərlərindən - Rodos, Knid, Halikarnas və Faselida; eoli şəhərlərindən - təkcə Mitilena. Bu şəhərlər ibadətgahın birgə sahibidirlər, limanda gedən alverə nəzarət edən rəisləri onlar təyin edirlər. İbadətgaha başqa şəhərdən gələnlərsə, orada ancaq qonaqdırlar. Egina şəhəri Zevsə, samoslular Heraya, miletlilər Apollona ayrıca ibadətgah ucaltmışlar.

downloaded from KitabYurdu.org

179. Navkratis əvvəllər (əcnəbilər) üçün yeganə ticarət limanı olmuşdur; başqa ticarət limanı olmamışdır. Əgər gəmi Nilin başqa bir mənsəbinə gedib çıxarsa, onda bunun qəsdən edilmədiyinə and içmək lazım gəlirmiş. Bundan sonra gəmi geri, Nilin Kanob mənsəbinə üzüb getməli imiş. Yuxarılara doğru, küləyin əksinə getmək mümkün olmayanda, malları Nildəki yük gəmilərində Deltanı dolanıb Navkratisə qədər aparmalı olurlarmış. Navkratisin belə üstünlükləri və hüquqları varmış.

180. Amfiktionlar Delfin yeni məbədinin tikintisini (köhnə məbəd təsadüfi yanğından məhv olmuşdu) 300 talanta icarəyə götürəndə icarə pulunun dörddə bir hissəsini delflilər ödəməli olmuşdular. Onda delflilər şəhərləri gəzərək nəzir yığmağa başlamışlar və Misirdən heç də əli boş qayıtmamışdılar. Belə ki, Amasis onlara 1000 talant kvasts, Misirdə yaşayan ellinlər isə 20 mina gümüş nəzir vermişdilər.

181. Amasis kirenalılarla müdafiə və hücum ittifaqı bağlayıb, hətta ya ellinli arvad istədiyinə, ya da sadəcə olaraq kirenalılarla ittifaq xatirinə oradan arvad almaq barədə tərəddüd belə göstərməmişdir. Belə ki, o, Ladika adında arvad almış ki, bəzilərinin dediyinə görə o, Battın qızı olmuşdur, bəziləri onu Arkesilayın, ya da əsilzadə vətəndaş olan Kritobulun qızı hesab edir. Amma, Amasis başqa qadınlarla da əlaqəyə girməsinə baxmayaraq zifaf gecəsi Ladika ilə əlaqəyə girə bilməmişdir. Bu hal dönə-dönə təkrar olunduğundan Amasis Ladikaya demişdir: "Ey qadın! Sən məni tamam tilsimləmisən! Səni: nə vaxtsa qadınların başına gəlmiş ən amansız cəzadan artıq heç nə xilas edə bilməyəcəkdir!". Ladika özünün günahkar olmadığını söyləsə də, Amasis rəhmə gəlməmişdir. Onda Ladika Afroditaya əhd etmişdir, ki, əgər Amasis onunla bu gecə əlaqəyə girərsə, (onun xilası ancaq bundan asılı idi), Kirenada ilahəyə heykəl qoyduracaqdır. Doğrudan da, bundan sonra Amasis onunla dərhal əlaqəyə girmiş və bundan sonra da hər dəfə gələndə onunla yaşamış və sonra onu çox sevmişdir. Ladika da ilahəyə əhdini yerinə yetirmişdir. O, heykəl tökülməsini buyurmuş və onu Kirenaya göndərmişdir. Mən orada olanda heykəl Kirena şəhərinin arxasında (məbəddə) salamat qalırdı. Kambis Misiri istila edəndən sonra bu Ladikanın kim olduğunu özündən soruşub, incitmədən Kirenaya geri qaytarmışdır.

downloaded from KitabYurdu.org

182. Amasis isə hətta Elladaya da nəzirlər göndərmişdir. Kirenaya Afinanın qızıla tutulmuş heykəlini, özünün rəngli əksini nəzir vermişdir; sonra Linddə Afinaya iki daş heykəl, gözəl kətan zireh, nəhayət, Samosda Hera məbədinə özünün ağacdan iki portret heykəlini nəzir etmişdir. Həmin heykəllər hələ mənim vaxtımda böyük məbəddə baştağın arxasında dururdu. Hökmdar bunları Samosa özünün Eak oğlu Polikratla dostluğu və qonaqpərvərliyi xatirinə nəzir vermişdir. Amasisin Linddəki nəzirlərinə gələndə bunları heç də hər hansı bir şəxslə dostluq və qonaqpərvərlik xatirinə deyil, bəlkə, əfsanədə deyildiyinə görə, Danayın qızları Yegipetin oğullarından qaçarkən orada dayanıb Linddə Afinaya ibadətgah ucaltdıqlarına görə nəzir gətirmişdir. O, eləcə də, Kipr adasını ilk dəfə zəbt edib, adanı bac verməyə məcbur etmişdir.

downloaded from KitabYurdu.org

İzahlar

1 Herodot II kitabda kobud səhvlərə yol vermədən VII əsrdən (I Psammetixin hakimiyyətinin başlanğıcından). Misirin hərbi tarixini əks etdirir (e. ə. VII-VI əsrlər). Herodotun məlumatının Sais dövrü üçün misilsiz qiyməti vardır.

2 Bekos - bu, doğrudan da Frigiya yazılarında rast gələn Frigiya sözüdür.

3 Misirin vətəndaşlıq ili iyulun 19-da Sirus (misirlilərdə Sodpet, Sotis) ulduzu doğanda Nilin daşması ilə başlayıb, onun növbəti daşması vaxtına qədər davam etmişdir. İl üç dövrə-daşma, səpin və biçin möhlətinə bölünmüşdür.

4 Herodot Nilin daşmasını hökmdar IV Amenofis dövrünə (e.ə. 1377 - 1358-ci illər) aparan kahinlərin yazılarına əsaslanmışdır. Bu hökmdar burada Meridlə (hakimiyyəti e. ə. 1840-1792-ci illərə düşən III Amenemxetlə) dolaşıq salınmışdır.

5 Herodotun burada miletli Hekateyi nəzərdə tutduğu güman olunur.

6 Asmax (misircə "sxm"-sağ əldə)-yəqin, sonralar cənuba köçmüş şərq qəbilələrinə işarədir.

7 Aralıq dənizinin.

8 Sinopa - Taharaka adının ellinləşdirilmiş şəkli (F. Q. Mişşenko, səh. 75).

9 Bəlkə də "Atərbehişt" olmalıdır (tərcüməçi).

10 Günəş allahı Amon bayramı və ona qurban kəsilən müqəddəs qoç nəzərdə tutulur.

11 Misirdə kanallar içməli su üçün deyil, zəmiləri suvarmaq üçün çəkilmişdir.

downloaded from KitabYurdu.org

12 Homer. İliada (tərcümə edəni M. Rzaquluzadə), Bakı, Azərnəşr, 1978, VI nəğmə, səh. 40.

13 Homer. Odisseya (tərcümə edəni Ələkbər Ziyatay). Bakı, Azərnəşr, 1977, IV nəğmə, səh. 48.

14 Yenə orada, səh. 51.

15 Misirdə edam edilmiş adamların meyiti, adətən, hasarın bürclərindən asılarmış.

* * *

downloaded from KitabYurdu.org

ÜÇÜNCÜ KİTAB

TALİYA

1. Kuruş oğlu Kambis və onunla birlikdə istila etdiyi bütün xalqlar, eləcə də ionlar və eolilər həmin bu Amasisin üstünə müharibəyə getmişlər. Yürüşün səbəbi bax, belə olub: Amasisin qızına evlənmək istəyən Kambis Misirə elçi göndərmişdi. Kambis bu xahişi bir misirlinin təklifi ilə etmişdi. Həmin misirli də Amasisə olan nifrətinə görə Kambisə belə məsləhət görmüşdü. Misirlinin Amasisə nifrətinin səbəbi isə o imiş ki, Kuruş Misirin ən yaxşı göz həkimini istəmək üçün Amasisin yanına adam göndərəndə Amasis Misir həkimləri içərisində məhz bu həkimi arvadından və uşaqlarından ayırıb farslara vermişdi. Buna görə öz hökmdarına nifrət edən misirli həkimin buna gümanı gəlir ki, Kambis Amasisdən onun qızını istəyəndə Misir hökmdarı qızını versə, özü dilxor olacaq, elçini rədd cavabı ilə qaytarsa, Kambisi hirsləndirəcəkdir. Amasisin isə qüdrətli farsları görməyə gözü yoxmuş, bununla yanaşı, həm də onlardan çəkinirmiş. Amasis çaş-baş qalır: bilmir qızını versin, yoxsa, xahişi rədd eləsin. Axı, hökmdar tamam əmin idi ki, Kambis onun qızına qanuni arvad kimi evlənmir, bəlkə onu kəniz kimi alır. Beləliklə, Amasis öz vəziyyətini götür-qoy edərək belə çıxış yolu tapır. Əvvəlki hökmdar Aprinin bir yapışıqlı və gözəl qızı varmış. Bütün ailədən ancaq o sağ qalıbmış. Adı Nitetis imiş. Amasis həmin bu qıza dəbdəbəli, qızılla bəzənmiş paltar geyindirib, onu özünün qızı əvəzinə, Parsaya göndərməyi buyurur. Bir müddətdən sonra Kambis Amasisin qızı kimi onu salamlayır, qız isə ona belə cavab verir: "Şah, Amasisin səni aldatdığını bilmirsən. O, mənə bu dəbdəbəli paltarı geydirtdirib öz qızı əvəzinə sənə göndərmişdir. Mən əslində onun keçmiş ağası, sonra misirlilərlə birlikdə əleyhinə üsyan qaldırıb öldürdüyü Aprinin qızıyam". Bu sözlər və bu hadisə amansızcasına qəzəblənmiş

downloaded from KitabYurdu.org

Kuruş oğlu Kambisi Misirə qarşı müharibəyə təhrik etmişdir. Hər halda, fars rəvayəti belə deyir.

2. Bunun əksinə, misirlilər Kambisi misirli, özü də Aprinin bu qızının oğlu hesab edirlər. Axı, onların dediklərinə görə Amasisin qızına heç də Kambis deyil, Kuruş elçi göndərib Amma bu, doğru deyil. Əvvəla, (fars adətlərinə misirlilər hamıdan yaxşı bələd olduqlarına görə) onlar çox gözəl bilirlər ki, qanuni varis ola-ola qeyri-qanuni oğulu hökmdar qoymaq farslarda adət deyil, ikincisi, Kambis heç də misirli qadından doğulmayıb, Ağamənlərdən Fərnasbın qızı Kassandananın oğludur. Misirlilər isə özlərini Kuruş ocağının qohumları kimi tanıdaraq, tarixi həqiqəti təhrif edirlər. İşin əsli belədir.

3. Bununla yanaşı, başqa əfsanə də vardır. (Amma, doğrusu, bu, mənim ağlıma batmır). Guya bir fars qadını Kuruş sarayının qadınlar yaşayan hissəsinə gəlir. O, Kassandananı yanında dayanmış gözəl və qamətli uşaqları ilə bir yerdə görərək uşaqları bərk tərifləyib, onlara məftunluqla baxmağa başlayır. Kuruşun arvadı Kassandana isə buna cavab olaraq deyir: "Mən Kuruşa belə oğullar doğsam da, o, mənə nifrət edir, Misirdən adaxlanmış bu qadını isə əllərində gəzdirir". O, Nitetisin dalınca acığından belə deyir. Onun böyük oğlu Kambis isə bu vaxt dillənir. "Ana! Mən həddi-büluğa çatanda Misirin altını üstünə çevirəcəyəm". Kambis hələ on yaşlı uşaq ikən belə demiş, arvadlar da (onun sözlərinə) heyran qalmışlar. Bax, bunu xatırlayan Kambis həddi-büluğa çatıb taxta çıxanda Misirin üstünə müharibəyə gedib.

4. Bu yürüşdə bax, belə bir hadisə baş verir. Amasisin muzdlu qoşunları içərisində Fanes adında ağıllı və cəsur hərbçi olan bir halikarnaslı varmış. Bu Fanes Amasislə sözə gəlib Misirdən gəmi ilə qaçır ki, gedib göstərəcəyi xidmətləri Kambisə təklif etsin. Fanes muzdlu qoşun arasında böyük nüfuz sahibi olduğuna və Misirdəki bütün işləri bildiyinə görə Amasis onu tutdurmaq üçün təcili çapar göndərir. Amasis özünün ən sadiq xacəsini çapar kimi triyerlə göndərir. O, Fanesi Likiyada tutur, amma Fanes tərəfindən aldadıldığından onu Misirə apara bilmir. Fanes öz

downloaded from KitabYurdu.org

gözətçilərini içirdib kefləndirir və Parsaya qaçır.1 Kambis də elə bu vaxt müharibəyə hazırlaşır, amma susuz səhralardan necə keçəcəyini bilmir. Bu vaxt Fanes gəlib çıxır, Amasisin vəziyyətini Kambisə bildirir və səhradan keçib gedən yolu ona göstərir. Yəni, Kambisə məsləhət görür ki, o, ərəblərin hökmdarına elçi göndərib onun torpağından təhlükəsiz şəkildə keçib getmək üçün imkan yaradılmasını xahiş etsin.

5. Misirə ancaq bu yolla getmək mümkün olmuşdur. Axı, Finikiyadan Kaditis şəhəri bölgəsinə qədər Fələstin suriyalıları2 adlananların torpaqları uzanıb gedir. (Mənim fikrimcə, Sardadan heç də kiçik olmayan) Kaditis şəhərindən İanis şəhərinə qədər ticarət limanları ərəb hökmdarlığına məxsusdur. İanisdən başlayıb, dənizin sahili boyu Kasi dağının dənizə doğru meyilləndiyi Serbonida gölünə qədər yenə də suriyalıların torpaqları gəlir. Əfsanəyə görə Tifonun dəfn olunduğu Serbonida gölündən etibarən artıq Misirin öz torpaqları başlayır. İanis şəhəri ilə Kasi dağı və Serbonida gölü arasındakı torpaq-üç günlük yol məsafəsində olan bu uzun zolaq isə tamamilə susuz səhradır.

6. Mən indi o şeylərdən danışmaq istəyirəm ki, onu Misirdə olmuş tək-tək adamlar görə bilərlər. Bütün Elladadan, bundan başqa bir də Finikiyadan Misirə ildə iki dəfə gil qablarda çaxır gətirirlər, bununla belə, demək olar ki, orada bir dənə də boş qab görməzsən. Soruşulur ki, bunlar necə olur? Mən buna belə cavab verərəm: hər icma ağsaqqalı öz şəhərindəki (boşalmış) qabları yığıb Memfisə göndərməlidir. Memfisdə də onlara su doldurub həmin susuz Suriya səhrasına keçirirlər. Beləliklə, Misirə aparılan saxsı çaxır qablarını orada boşaldır, əvvəlkilərə qatıb Suriyaya göndərirlər.

7. Farslar da Misiri istila edəndən sonra Misirə gedən bu yolu indi su ilə elə həmin üsulla təmin etmişlər. Amma o vaxtlar orada hələ su ehtiyatı görülməmişdi. Bunu Halikarnas muzdlusundan öyrənən Kambis keçidin təhlükəsizliyini xahiş etmək üçün ərəb hökmdarının3 hüzuruna elçilər göndərmişdir. Ərəblərin hökmdarı razılaşmış və onların arasında müqavilə bağlanmışdır.

downloaded from KitabYurdu.org

8. Ərəblər dostluq haqqında belə müqavilələri daha müqəddəs hesab edirlər. Müqaviləni isə bax, belə bağlayırlar. İki nəfər dostluq haqqında müqavilə bağlamaq istəyəndə üçüncü adam onların arasında dayanıb iti daşla müqavilənin hər iki iştirakçısının əlinin baş barmağını cızır. Sonra onların əbasının ucundan bir parça qoparıb onu qana bulaşdırır və bunu gələcək müttəfiqlərin arasında qoyulmuş yeddi daşa yaxır. Bunu icra edəndə Dionisi və Uraniyanı köməyə çağırır. Bu mərasimdən sonra müqavilə bağlayan yadellini, ya da (müqavilə onun qohumu ilə bağlanıbsa), qohumunu öz dostlarına təqdim edir, onlar da müqaviləyə eyni ilə müqəddəscəsinə riayət edirlər. Ərəblər allahlardan bircə Dionisə və Uraniyaya səcdə edirlər və saçlarını da Dionisin saçı biçimində vurdurduqlarını iqrar edirlər. Onlar gicgahlarındakı4 tükləri də kəsdirməklə saçlarını dairəvi vurdururlar. Ərəblər öz dillərində Dionisə Orotalt, Uraniyaya isə Alilat deyirlər.

9. Bəli, ərəblərin hökmdarı Kambisin elçisi ilə müqavilə bağlayıb belə bir şey fikirləşir. O, dəvə dərisindən qayrılmış tuluqlara su doldurub onları bütün dəvələrə yükləməyi əmr edir. Sonra bu karvanla səhraya çıxıb orada Kambisin ordusunu gözləməyə başlayır. Daha etibarlı olan rəvayət hər halda belə xəbər verir. Amma az inandırıcı olan bir rəvayət var ki, onun haqqında da susmaq lazım deyil. Ərəbistanda Qırmızı dəniz5 adlanan dənizə tökülən Koris adlı bir çay var. Rəvayətə görə, ərəblərin hökmdarı bax, bu çaydan (cöngə və başqa heyvanların xam dərisindən tikilmiş qollar vasitəsilə) səhraya su çəkdirmişdir. Səhrada isə suyu yığıb saxlamaq üçün böyük anbar tikməyi əmr etmişdir. Çaydan bu səhraya qədər on iki günlük yoldur. Belə deyirlər ki, hökmdar üç müxtəlif yerdən üç cür qol çəkdirmişdir.

10. Amasinin oğlu Psammenit Nilin Pelusi deyilən mənsəbində düşərgə saldırıb Kambisi gözləmişdir. Kambisin Misirə yürüşü zamanı Amasisin özü artıq sağ deyildi. Amasis 44 illik hakimiyyətdən sonra vəfat etmişdir. Bu vaxt ərzində ona heç bir xüsusi ağır bəla üz verməmişdir. Vəfatından sonra hökmdarın cəsədi mumyalanaraq özünün ucaltdığı6 ibadətgahın türbəsinə qoyulmuşdur. Amasisin oğlu Psammenitin vaxtında misirlilərə bir əlamət əyan olmuşdur, yəni Misir Fivasında yağış yağmışdır. Fivalıların özlərinin dediklərinə görə, bizim günlərimizə qədər nə

downloaded from KitabYurdu.org

əvvəllər, nə də son vaxtlar yağış yağmamışdır. Axı, Yuxarı Misirdə, ümumən, yağış heç yağmır, Fivanın özünə də onda bir neçə damcı düşmüşdür.

11. Farslar da susuz səhranı keçib misirlilərlə vuruşmaq üçün onların düşərgəsinin yaxınlığında yerləşirlər. Onda Misirin muzdlu qoşunları - ellinlər və karilər Fanesin düşmən qoşununu Misirə gətirib çıxarmasından qəzəblənərək, ondan bax bu cür intiqam almaq fikrinə düşürlər. Fanesin Misirdə qoyub getdiyi oğulları vardı. Muzdlular bunları düşərgəyə gətirib, iki qoşun arasında çaxıra su qatmaq üçün cam qoyurlar, sonra atanın gözü qabağında oğullarını bir-birinin dalınca camların üstündə kəsirlər. Muzdlular bu işi qurtarıb cama çaxırla su tökür, sonra isə acgözlüklə qandan içərək döyüşə cumurlar. Qızğın vuruşmada, hər iki tərəfdən çoxlu döyüşçü qırılanda misirlilər qaçmağa üz qoyurlar.

12. Mən orada, döyüş yerində qəribə bir şey gördüm (bunu mənə yerli əhali göstərdi). Bu vuruşmada həlak olmuş döyüşçülərin sümükləri ayrı-ayrı yerlərdə təpə kimi qalanmışdı. Bir tərəfdə bu cür "dəfn" olunmuş farsların, o biri tərəfdə isə misirlilərin sümükləri tökülmüşdü. Farsların kəllə sümüyü elə kövrək idi ki, onları balaca bir daşla vurub sındırmaq olurdu. Əksinə, misirlilərin kəllə sümüyü o qədər möhkəm idi ki, böyük daşlarla vuranda da sınmırdı. Məni başa saldılar və mən də buna asanlıqla inandım ki, bunun səbəbi misirlilərin lap uşaqlıqdan başlarını qırxdırmaları və ya saçlarını vurdurmalarıdır, çünki kəllə sümüyü günün təsiri altında bərkiyir-misirlilərin dazlaşmamalarının da səbəbi budur. Doğrudan da, heç yerdə Misirdəki qədər az dazlaşmış adama rast gəlməzsən. Onların kəllə sümüyü bax, buna görə möhkəmdir. Farslar gənclikdən başlarına keçə tac qoyduqlarından başlarını zəifləşdirirlər. Bu kəllələr də belədir. Mən Papremisdə, öz rəhbərləri, Dara oğlu Ağamənin başçılığı ilə liviyalı İnara qarşı döyüşdə həlak olmuş farslarda da belə kəllə sümükləri görmüşəm.

13. Bu vuruşmada məğlub olmuş misirlilər nizamsızcasına qaçmağa üz qoymuşlar. Onları Memfisə doğru sıxışdırmışlar və Kambis onların təslim olmalarını təklif etmək üçün fars carçısını Mitilena gəmisində çay boyu yuxarıya, onların yanına

downloaded from KitabYurdu.org

göndərmişdir. Misirlilər isə Memfisə yaxınlaşan gəmini görüb, şəhərdən dəstə-dəstə tökülüşərək gəmini batırmış, adamları tikə-tikə doğramış və cəsədlərini çəkib şəhərə aparmışlar. Bundan sonra (farslar) şəhəri mühasirəyə almış, misirlilər də uzun sürən müharibədən sonra təslim olmaq məcburiyyətində qalmışlar. Misirlilərlə qonşu olan liviyalılar isə Misirin başına gələnlərin onlara da üz verəcəyindən qorxaraq müqavimət göstərmədən farslara tabe olmuşlar; onların özləri özlərinə xərac qoymuş və şaha hədiyyələr göndərmişlər. Liviyalılar kimi qorxuya düşən kirenalılar və barkeyalılar da bu cür həkət etmişlər. Kambis liviyalıların hədiyyələrini iltifatla qəbul etmiş, kirenalıların hədiyyələrindən isə razı qalmamışdır, bu hədiyyələr çox azmış, (axı, kirenalılar şaha cəmi 500 mina gümüş göndərmişlər). Hökmdar pulları alıb öz əli ilə qoşununa paylamışdır.

14. Memfis alınandan on gün sonra Kambis cəmi altı ay hökmdarlıq etmiş olan Misir hökmdarı Psammenitə şəhər kənarındakı rüsvayçılıq meydanında oturmağı əmr etmişdir. Onu başqa əsilzadə misirlilərlə birlikdə oturdub hökmdarın mərdliyini və dözümlüyünü bax belə rüsvayçı sınaqlardan keçirməyə başlamışdır. Kambis şahzadəyə, Psammenitin qızına qul paltarı geyinməyi əmr edib, onu su gətirməyə göndərmiş, ən adlı-sanlı misirlilərin qızlarını da eynilə şahzadə kimi geyindirib onunla birlikdə göndərmişdir. Qızlar hönkürüb ağlaşa-ağlaşa atalarının yanından keçəndə onlar da təhqir olunmuş qızlarına baxaraq hönkürüb ağlamışlar. Təkcə Psammenit uzaqdan qızları görüb (onların içində öz qızını tanıyaraq) gözlərini ətəyinə tikmişdir. Qızlar su gətirib keçəndən sonra Kambis Psammenitin oğlunu, onun 2000 yoldaşı ilə bərabər, boyunlarına ilgək salınmış, ağızları yüyən dəhnəsi ilə qapadılmış halda7 (edam olunmağa) göndərmişdir. Onları Memfisdə gəmilərdə həlak olmuş mitilenalıların intiqamını almaq üçün edam etməyə aparmışlar. Şahın hakimləri belə hökm çıxarmışlar: hər mitilenalının əvəzinə on nəfər ən kübar misirlini edam etmək. Psammenit onların gəlib yanından keçdiklərini görərək, oğlunun edam olunmağa aparıldığını başa düşəndə yenə gözlərini aşağı tikmişdir, halbuki, onun yanında əyləşən misirlilər ağlaşıb (özlərinin acı qismətlərindən) şikayətlənirmişlər. Bu gənclər də ötüb gedəndən sonra Amasis oğlu Psammenitin

downloaded from KitabYurdu.org

süfrə dostlarından ixtiyar bir adam təsadüfən keçib gedəndə dostuna və darvaza qarşısında oturmuş misirlilərə yanaşmışdır. O, bütün varidatından məhrum olaraq, indi dilənçi kimi döyüşçülərdən sədəqə istəyirmiş. Psammenit dostunu görüb bərkdən zarıyır, dostunun adını çəkir və öz başına döyməyə başlayır. Psammenitin yanında, əlbəttə, gözətçilər durmuşdular, onun hər addımını Kambisə çatdırırdılar. Kambis Psammenitin hərəkətindən təəccüblənərək bunu soruşmaq üçün xəbərçi göndərir: "Psammenit! Ağan Kambis soruşur: nə üçün sən qızının təhqir olunduğunu, oğlunun edam edilməyə aparıldığını görəndə hönkürmədin və onlar üçün ağlamadın, amma heç qohumun olmayan bu dilənçini görəndə (göstərdiyin hüzn əlaməti ilə) onu şərəfləndirdin?" Xəbərçi beləcə soruşmuş, Psammenit də ona bu sözlərlə cavab vermişdir: "Kuruşun oğlu! Mənim evimin bədbəxtliyi elə böyükdür ki, ona yas saxlanılmaz. Bir ayağı burada, bir ayağı gorda olub, zənginlikdən, dövlətlilikdən dilənçiliyə düşmüş dostun bədbəxtliyi isə göz yaşlarına layiqdir". Xəbərçi bu sözləri Kambisə çatdıranda onlar şaha ədalətli görünmüşdür. Misirlilərin danışdıqlarına görə, bu vaxt Kambisi Misir səfərində müşayiət edən Krez də, habelə hökmdar məiyyətindən olan farslar da ağlayırlar. Hətta, Kambisin özü tutulur və dərhal hökmdar oğlunun əfv edilməsini, Psammenitin özünün meydanda oturduğu yerdən (darvazaların ağzından) öz yanına gətirilməsini əmr edir.

15. Kambisin göndərdiyi adamlar Psammenitin oğlunu sağ tapmırlar - birinci olaraq onu edam edibmişlər. Psammenitin özünə isə ayağa durmağı əmr edib, Kambisin hüzuruna aparırlar. Psammenit Kambisin sarayında yaşayaraq, sonralar da heç bir təhqir görmür. O, fitnə-fəsadlardan kənara çəkilsəydi, Misiri idarə etməyə icazə ala bilərdi. Axı, farslarda, adətən, hökmdar övladlarına hörmət olunur. Hər hansı bir hökmdar onların əleyhinə üsyan qaldırsa da, farslar hər halda taxt-tacı qaytarıb yerli hökmdarın oğluna vermişlər. Bu cür hadisələrdən çox göstərmək olar. Belə ki, onlar liviyalı İnarın oğlu Fannirlə belə rəftar edərək, atasının taxtını ona qaytarmışlar, eləcə də Amirteyin oğlu Pavsirislə də beləcə rəftar edilib. Halbuki farslara İnardan və Amirteydən çox ziyan vuran olmamışdır. İndi Psammenit "özgəyə quyu qazıb" özü layiqli əvəz almışdı: o, misirliləri qiyama təhrik etməkdə ifşa

downloaded from KitabYurdu.org

olunmuşdu. Bunu eşidən Kambis Psammenitə cöngə qanı içməyi əmr etmiş, Misir hökmdarı da bundan dərhal ölmüşdür. Psammenitin aqibəti belə olmuşdur.

16. Kambis də bəzi işlər görmək məqsədi ilə Memfisdən Saisə gəlmiş və doğrudan da bu işləri yerinə yetirmişdir. Məhz Amasisin sarayına daxil olaraq, hökmdarın cəsədini türbədən çıxarıb atmaq əmri vermişdir. Bu əmr yerinə yetiriləndə cəsədi qamçılamaq, saçlarını yolmaq, dəlmə-deşik etmək, bir sözlə, hər vəchlə murdarlamaq əmri də vermişdir. Axırda, şahdan əmr almış adamlar əldən düşmüşlər, amma onların səyinə baxmayaraq mumyalanmış cəsəd pozulmamışdır. Onda Kambis mumiyanı oda atmağı əmr etmişdir. Bu, nalayiq, allahsız bir buyruq idi. Axı, farslar odu allah sayırlar. Meyiti yandırmaq bu iki xalqın heç birində adət deyil. Farslarda ona görə adət deyil ki, onlarda yuxarıda göstərilən səbəbə görə insan cəsədini hər hansı allaha təslim etmək günah sayılır. Misirlilər isə odu canlı kimi qəbul edirlər, guya o, əlinə nə keçsə hamısını aşırır ki, doyandan sonra öz qurbanı ilə birlikdə ölsün. Ona görə ölünü vəhşi heyvanlara yedirtmək Misir adətinə ziddir. Bu səbəbdən də misirlilər ölünü mumyaladırlar ki, o, torpaqda qurdlara yem olmasın. Beləliklə, Kambisin buyruğu bu iki xalqın adətinə zidd idi. Misirlilər, əlbəttə, danışırlar ki, yandırılan Amasisin deyil, onunla eyni boy-buxunlu başqa bir misirlinin meyitidir. Farslar (bu adamın) mumiyasını murdarlamaqla elə biliblər ki, Amasisi murdarlayırlar. Onların dediyinə görə, Amasis vəfatından əvvəl meyitinin aqibətinin necə olacağını rəmmaldan öyrənibmiş. Bəd aqibətdən qaçmaq üçün Amasis indi cəsədi qamçıya tutulan bu adamı öləndən sonra öz türbəsinin astanasında basdırmağı buyurmuşdur. Özünün meyitini isə türbənin ən uzaq küncünə qoymağı oğluna əmr etmişdir. Amma, mənim fikrimcə, Amasisin öz türbəsi və həmin adam haqqındakı göstərişlərinə dair bütün bu əhvalat heç ağlabatan deyil, işi bəzəmək üçün misirlilər tərəfindən uydurulmuşdur.

17. Bundan sonra Kambis üç yürüş fikrinə düşmüşdür: karfagenlərin, ammonluların və Liviyadakı Cənub dənizi sahillərində yaşayan uzunömürlü efiopların üstünə. Şah bu yürüşləri düşünərək donanmasını karfagenlilərin, quru qoşununun bir hissəsini isə ammonluların üstünə göndərmək qərarına gəlmişdir. O,

downloaded from KitabYurdu.org

efiopların içərisinə əvvəlcə casuslar göndərib, onlarda doğrudanmı Günəş süfrəsi deyilən bir şey olduğunu öyrənmək, bundan başqa onların hökmdarına hədiyyələr göndərmək bəhanəsi ilə hər şey haqqında kəşfiyyat apartdırmaq istəmişdir.

18. Danışılanlara görə, bu "Günəş süfrəsi" deyilən bax, budur. Şəhər darvazaları qarşısında hər növ heyvan cəmdəyindən soyutma ətlə dolu olan bir çəmənlik vardır. Şəhərlilərin başçıları hər gecə hiss etdirməməyə çalışaraq buraya ət parçaları qoyurlar, səhər də istəyən hər kəs bu əti yeməyə gəlir. Əlbəttə, camaat inanır ki, bu əti torpaq yetirir. Deyilənə görə, Gunəş süfrəsi bundan ibarətdir.

19. (Efioplara) casus göndərmək istəyən Kambis Elefantina şəhərindən efiop dilini bilən bir neçə ixtiofaq çağırmağı buyurmuşdur. Onlar hələ yolda ikən şah öz gəmilərinin Karfagenə yola düşməsini əmr etmişdir. Amma finikiyalılar şahın əmrinə tabe olmaqdan boyun qaçırmışlar. Onlar bildirmişlər ki, qorxunc andlarla bağlıdırlar və öz nəsillərinin üstünə yürüşə getmək onlar üçün böyük bədbəxtlikdir. Amma (şahın tabeliyindəki şəhərlərin) qalan gəmiləri finikiyalılarsız Karfagenə hərəkət edə bilməzdi. Karfagenlilər fars əsarətindən belə yaxa qurtarmışlar. Axı, Kambis finikiyalıları zorla (yürüşə çıxmağa) məcbur etmək istəmirmiş, çünki onlar farslara könüllü təslim olmuşlar, fars dövlətinin bütün hərbi donanmasının gücü onlardan asılı olub, onlara söykənmişdir. Kipr əhalisi də farslara könüllü tabe olmuşlar və Misir yürüşündə iştirak etmişlər.

20. Elefantinalı ixtiofaqlar Kambisin hüzuruna gələndə şah onları Efiopiyaya göndərib, öz tapşırığını onlara başa salmış, efiop hökmdarına da belə hədiyyələr vermişdir: al-qırmızı geyim, qızıl boyunbağı, qızıl bilərziklər, ətirli qətranla dolu gəc qablar və Finikiya çaxırı doldurulmuş bardaq. Kambisin elçi göndərdiyi bu efioplar haqqında danışırlar ki, onlar dünyada ən uca boylu və gözəl adamlardırlar. Onların adətləri də bütün başqa xalqların adətlərindən fərqlidir. Məsələn, hökmdar seçmək adəti: belə deyirlər ki, onlar vətəndaşların içərisindən ən uca boylusunu seçib onu hökmdar qoyurlar.

downloaded from KitabYurdu.org

21. Bax, ixtiofaqlar bu camaata elçi gəlib, onların hökmdarına hədiyyələr təqdim edərək bu sözləri demişlər: "Farsların şahı Kambis sənin dostun və müttəfiqin olmaq istəyir, bizi də danışığa göndərmişdir. Bax, o, özünün ən çox həzz aldığı bu hədiyyələri sənə təqdim edir". Efiopların hökmdarı isə onların casusluğa gəldiklərini başa düşüb belə cavab vermişdir: "Fars şahı sizi hədiyyələrlə mənim yanıma dostluğumu yüksək qiymətləndirdiyinə görə göndərməyib, o doğru demir. Axı, siz mənim torpağıma casus kimi gəlmisiniz, şahınız heç də mömin adam deyil. O, mömin adam olsaydı, özgə torpaq iştahasına düşməzdi və ona heç bir ziyan vurmayan xalqları əsarət altına almazdı. Ona görə, bax, bu yayı ona verib deyin: "Efiop hökmdarı fars şahına belə məsləhət görür: əgər bu qədər böyük yayı farslar da mənim dartdığım qədər darta bilsələr, onda qoy saysız-hesabsız qüvvələrlə uzunömürlü efiopların üstünə müharibəyə gəlsinlər. Yox, yayı darta bilməsələr, qoy onda fars şahı allahlara şükür etsin ki, onlar efiopları özgə torpaqlarını öz ölkələrinə qatmaq fikrinə salmayıblar".

22. O, belə demiş və yayın kirişini boşaldıb onu elçilərə vermişdir. Sonra, hökmdar al-qırmızı geyimi götürüb soruşmuşdur: "Bu nədir və necə hazırlanmışdır?" İxtiofaqlar al-qırmızı geyimin nə olduğunu, onun necə boyandığını olduğu kimi danışanda hökmdar onlara söz atmış ki, adamlarınız da saxtadır, geyiminiz də saxta". Sonra, hökmdar boyunbağılar və bilərziklər barədə soruşmuşdur. İxtiofaqlar onların boyuna və biləyə necə taxıldığını göstərəndə hökmdar gülərək etiraz edib və deyib ki, (o, bu bəzəkləri buxov hesab edir), efiopların buxovları bunlardan möhkəmdir. Bundan sonra da hökmdar ətirli qətran haqqında soruşmuş və elçilər bu xoş ətrin necə hazırlandığını, onun bədənə necə yaxıldığını izah edəndə hökmdar geyim haqqındakı sözünü burada da təkrar demişdir. Nəhayət növbə şəraba gələndə, onun necə hazırlandığını öyrənib, bu içkiyə görə çox şad olmuşdur. Sonra efiop hökmdarı fars şahının nə yediyini, farsların ömür həddinin nə qədər olduğunu soruşmuşdur. Onlar da cavab vermişlər ki, şahın yediyi çörəkdir, onu buğdadan hazırlayırlar. Elçilər buğdanın nə olduğunu izah eləmişlər. Onlar bunu da əlavə etmişlər ki, ölümlü farsların ən uzun ömrü 80 ildir. Efiop hökmdarı buna cavab olaraq demiş ki, o,

downloaded from KitabYurdu.org

farsların gödəkömürlü olmalarına heç də təəccüb etmir, çünki onlar peyin yeyirlər. Onlar bax, bu içkidən (hökmdar bu sözü deyəndə şərabı ixtiofaqlara göstərir) qüvvət almasaydılar heç qırx il də yaşamazdılar; farsların efioplardan yeganə üstünlüyü ancaq şərab içmələridir.

23. İxtiofaqlar da öz növbəsində efioplarda ömrün möhləti və həyat tərzi haqqında suallar vermişlər. Hökmdar cavab vermiş ki, efiopların çoxusunun ömrü 120 yaşa çatır, bəziləri isə hətta daha uzun ömür sürürlər. Onlar soyutma ət yeyib süd içirlər. Casuslar ömrün bu qədər uzun olmasına heyrətlənmişlər, onda hökmdar onları çeşməyə aparmağı buyurmuşdur. Burada yuyunanda onların dərisinə parıltı gəlmiş, elə bil bu çeşmə zeytun yağı çeşməsiymiş. Çeşmədən bənövşə ətri yayılırdı. Casusların danışdığına görə bu çeşmənin suyu elə yüngülmüş ki, orada heç nə üzə bilməz-nə ağac, nə də ağacdan yüngül şeylər. Hər şey çeşmənin dibinə batırmış. Bu su doğrudan da deyildiyi kimidirsə, onda efioplar yəqin ki, bu sudan içdiklərinə görə uzun ömür sürürlər. Hökmdar ixtiofaqları çeşmədən sonra zindana aparmışdır. Oradakı dustaqların hamısı qızıl zəncirlərlə qandallanıblarmış. Axı, bu efioplarda mis ən nadir və qiymətli metaldır. İxtiofaqlar zindanda olandan sonra Günəş süfrəsi deyilən yerə də baxmışlar.

24. Lap axırda casuslar efiopların sərdabələrində olmuşlar. Deyirlər ki, bu sərdabələr şəffaf daşdan bax belə düzəldilmişdir: əvvəlcə ölünün cəsədini Misir üsulu ilə, ya başqa bir üsulla qurudurlar. Sonra onu gipsə tutub, gipsin hər tərəfini rənglə elə naxışlayırlar ki, mumiya ölən adamın cizgilərini mümkün qədər düzgün əks etdirir. Axırda, mumiyanı şəffaf daşdan içi oyuq bir sütuna yerləşdirirlər (bu daş onlarda çox istehsal olunur və asanlıqla yonulur). Mumiya sütunun içində aydın görünür, amma heç bir pis iy vermir, ümumən, ikrah hissi də doğurmur. Bununla belə (rənglənmiş) mumiya tamamilə mərhumun özünə oxşayır. Mərhumun qohumları bu sütunu bütün il ərzində öz evlərində saxlayırlar, hər qonaqlıqda onun payını özünə təklif edirlər və qurban kəsirlər. Bundan sonra sütunu mumiya ilə birlikdə aparıb şəhərin kənarına qoyurlar.

downloaded from KitabYurdu.org

25. Casuslar bütün bunlara baxıb (Misirə) qayıtmışlar. Onlar bu xəbəri Kambisə çatdıranda şah elə qəzəblənmişdir ki, qoşun üçün yem ehtiyatı qayğısına qalmadan, dünyanın o biri başına getdiyini düşünməyib dərhal efiopların üstünə yürüşə çıxmışdır. İxtiofaqların gətirdiyi xəbərdən qəzəblənərək, sanki ağlını itirən şah yürüşə hazırlaşmış və onu müşayiət edən ellinlərin Misirdə qalmasını əmr etmişdir. Qoşunun bütün qalan hissəsini isə özü ilə aparmışdır. Kambis Fivaya gəlib çatanda qoşunu iki yerə bölmüşdür. 50. 000 döyüşçü ammonluları tabe edib qul kimi satmalı və Zevs kahinliyini yandırmalı idi. Şahın özü isə qoşunun qalan hissəsi ilə efiopların üstünə getmişdir. Amma, qoşun yolun heç beşdə bir hissəsini keçib getməmiş, özləri ilə götürdükləri yem ehtiyatı qurtarmış, yük heyvanları isə kəsilmiş və yeyilmişdir. Kambis bunu nəzərə alaraq, fikrindən daşınıb geri dönsəydi, onda özünün birinci səhvinə baxmayaraq, hər halda ağıllı adam kimi hərəkət etmiş olardı. Amma, şah heç nə haqqında fikirləşmədən, elə hey irəliyə getmişdir. Qoşun yeməli otlar və köklər tapanda bunlarla dolanırmış, Qumlu səhraya gəlib çıxanda isə bəzi döyüşçülər dəhşətli işlər görmüşlər: onlar püşk ataraq hər onuncu adamı öldürüb yeyirmişlər. Kambis bundan xəbər tutanda döyüşçülərin bir-birini yeməsindən qorxub yürüşü dayandırmış və geri qayıtmağa əmr vermişdir. Şah Fivaya çatanda qoşunun böyük hissəsini itirmişdi. O, Fivadan da çay boyu Memfisə enib, ellinləri gəmilərdə evlərinə göndərmişdir.

26. Efiopiyaya yürüş belə qurtarmışdır. Ammonlulara qarşı göndərilmiş qoşun hissəsi də bələdçilərlə birlikdə Fivadan yola düşmüşdür. Qoşun guya Esxrioniya filasından olan samosluların məskən saldıqları Oasis şəhərinə, şübhəsiz ki; gəlib çatmışdır. Bu şəhər Fivadan yeddi günlük məsafədəki qumlu səhrada yerləşir. Bu yer də ellin dilinə tərcümədə Müqəddəslər Adası adlanır. Deyirlər ki, fars qoşunu bax, bu yerə qədər gəlib çatmışdır. Sonra onların başına gələnləri, yəqin ki, ammonlulardan, bir də onların danışdıqlarını eşidənlərdən başqa heç kəs bilmir. Onlar hər halda Ammona gedib çatmamışlar və geriyə qayıtmamışlar. Ammonluların özləri isə bu haqda bax, görün nə danışırlar. Farslar Oasisdən çıxıb qumlu səhranı keçərək, onların üstünə getmişlər. Təxminən Oasislə Ammon arasındakı yolun yarısında səhər yeməyi

downloaded from KitabYurdu.org

zamanı cənubdan dəhşətli (qumlu) fırtına qopmuş və qoşunu qum təpələrinin altında basdırmışdır. Farslar belə həlak olmuşlar. Fars ordusunun aqibəti haqda ammonluların danışdıqları belədir.

27. Kambis yenidən Memfisə gəlib çıxanda ellinlərin Epaf adlandırdıqları Apis misirlilərə "zühur" etmişdir. Onun "zühuru" ilə əlaqədar olaraq misirlilər dərhal bayram paltarı geyinib şadyanalıqla kef eləmişlər. Kambis bunu görüb misirlilərin məhz onun uğursuz yürüşü münasibəti ilə bayram edib şadlanmalarından şübhələnərək Memfisin şəhər hakimlərinin hüzuruna gəlməsini əmr etmişdir. Onlar şahın gözləri önünə gələndə Kambis soruşmuşdur ki, o, indi öz qoşununun böyük hissəsini itirdiyi bir vaxtda misirlilər bu qədər şadlandıqları halda, bəs Memfisə birinci dəfə gələndə niyə bu qədər şadlanmırdılar? Onlar da cavab vermişlər ki, uzun müddət keçəndən sonra qayıdıb gələn allah bu gün onlara zühur eləmişdir. Bu allahın zühuru ilə əlaqədar olaraq bütün Misirdə bayram şənlikləri keçirirlər. Bunu eşidən Kambis onları yalançı adlandırmış və yalançılıq üstündə edam olunmalarını əmr etmişdir.

28. Kambis onları edam etdirib kahinləri hüzuruna çağırmağı əmr etmişdir. Kahinlər də eyni cavabı vermişlər. Onda şah deyib ki, allahın doğrudan da ev heyvanı görkəmində zühurunu özü görüb inanmaq istəyir. Belə deyib, kahinlərə Apisi gətirməyi buyurmuşdur. Onlar gedib Apisi gətirmişlər. Bu Apis, ya da Epaf həmin o inəkdən doğulmuşdur ki, birinci buzovdan sonra bir də doğa bilməz. Misirlilərin dediklərinə görə bu inəyin bətninə işıq şüası göydən düşür, həmin şüadan da Apis doğulur. Apis adlanan bu buzov isə bax, belə xüsusiyyətlərə malikdir: rəngi qaradır, alnında dördkünc ağ təpəl, belində qartal şəkli, quyruğunda qoşa tüklər, dilinin altında isə böcək şəkli vardır.

29. Kahinlər Apisi gətirəndə Kambis dəli kimi xəncərini çəkib heyvanın qarnına soxmaq istəmiş, ancaq budunu yarmışdır. Bu yerdə o gülüb kahinlərə demişdir: "Siz yazıq adamcıqlarsınız! Məgər allahın da buğanınkı kimi qanı və bədəni olur, məgər dəmir ona bata bilir? Misirlilər, əlbəttə, belə allaha tamamilə layiqdirlər. Amma

downloaded from KitabYurdu.org

bundan sonra məni ələ salanda cəzasız qalmayacaqsınız!" Bu sözləri deyib kahinləri qamçılamağı və bayram edən hər hansı misirlini tutub öldürməyi əmr edir. Misirlilərin bu bayram şənliyi belə qurtarmışdır. Kahinləri şallaqlamışlar. Apis də budundan yaralanaraq məbəddə yatdığı yerdə ölmüşdür. O, yaradan öləndən sonra kahinlər Kambisin xəbər tutmaması üçün Apisi gizlicə dəfn etmişlər.

30. Misirlilərin danışdığına görə Kambis də bu təhqirdən sonra ağlını itirmişdir (doğrudur, elə əvvəllər də ağlı başında deyildi). O, ilk ağılsız hərəkətini ata bir-ana bir doğma qardaşı Smerdisə münasibətində göstərmişdi. Şah paxıllıq edərək Smerdisi Misirdən Parsaya yollamışdır (çünki o, farslar içərisində yeganə adam idi ki, ixtiofaqların epiof hökmdarından gətirdiyi yayın kirişini iki barmaq darta bilmişdi). Bax, Smerdis Parsaya yola salınandan sonra Kambis yuxuda görür ki, Parsadan bir elçi onun hüzuruna gəlib Smerdisin şah taxtına çıxdığını, onun başının göylərə dəydiyini xəbər verir. Onda Kambis qardaşının onu öldürüb, özünün hökmdar ola biləcəyindən qorxaraq ən sadiq adamı olan Preksaspı Smerdisi öldürməyə göndərir. O da Susa yola düşüb Smerdisi öldürür. Bəziləri deyirlər ki, Preksasp onu aldadaraq ova aparıb ovda öldürmüş, bəziləri də deyirlər ki, Qırmızı dənizə gətirib suda boğmuşdur.

31. Deyilənə görə, Kambisin ilk cinayəti bu olmuşdur. Sonra o, öz bacısını öldürmüşdür. Bacısı Kambisi Misirdə müşayiət edirmiş. Kambis də bir atadan-anadan olmalarına baxmayaraq, onunla yaşayırmış. Onunla evlənməyi də bax, belə olmuşdur. Axı, əvvəllər farslarda bacı ilə kəbin kəsdirmək adəti əsla olmamışdı. Kambis öz bacılarından birinə qarşı ehtiras alovuna düşərək, lap adətin əleyhinə də olsa, ona evlənmək fikrinə düşür. Bundan ötrü də hökmdar öz hakimlərini yığıb onlardan soruşur: "arzuya görə qardaşın öz bacısı ilə kəbin kəsdirməsinə icazə verən qanun varmı?" Hökmdarın hakimləri əsil-nəcabətli farslardan olub, (tutduqları vəzifəyə) ömürlük, ya da hər hansı qanunsuzluğa görə ifşa edilənə qədər seçilirdilər. Onlar farslar arasındakı çəkişmələrə baxır, qanunları və ulu babaların qanunlarını şərh edir, bütün mürəkkəb məsələləri həll edirlər. Bax, onlar Kambisin sualını qanuna uyğunlaşdıraraq və özlərinin də təhlükəsizliyini gözləyərək belə cavab

downloaded from KitabYurdu.org

vermişlər: qardaşın bacı ilə nikahına icazə verən bir qanun yoxdur, amma başqa bir qanun da var ki, o, şahın istədiyi kimi hərəkət etməsinə icazə verir. Beləliklə, hakimlər Kambisdən qorxaraq qanunu pozmurlar, amma (ölkənin) qanunlarını qorumaqla, özlərinin də məhv olmamaları üçün başqa bir qanun - şahın öz bacısına evlənmək arzusu üçün daha əlverişli olan qanun tapırlar. Bax, Kambis sevimli bacısı ilə belə kəbin kəsdirir, amma bir qədər keçəndən sonra ikinci bacısını da alır. Onunla birlikdə Misirə getmiş kiçik bacısını isə öldürür.

32. Kiçik bacısının, eləcə də Smerdisin öldürülməsi haqda iki müxtəlif əfsanə vardır. Ellinlər danışırlar ki, Kambis şir balası ilə küçüyü boğuşdurmağı buyurur. Onun arvadı da bu boğuşmaya tamaşa edir. Küçük zəifləməyə başlayanda, onun qardaşı zənciri qırıb köməyə cumur və beləliklə, ikisi şir balasını üstələyir. Kambis bu boğuşmaya ləzzətlə tamaşa etdiyi halda, onun yanında oturan bacısı göz yaşları tökür. Bunu görən şah bacısının nə üçün ağladığını soruşur. O da cavab verir ki, küçüyün necə öz qardaşının köməyinə gəldiyini görüb ağlayır: bu vaxt o, Smerdisin qisasını artıq heç kəsin almayacağını nəzərdə tutaraq onu xatırlayır. Ellinlər deyirlər ki, bu sözlərə görə də Kambis bacısının öldürülməsini əmr edibmiş. Misirlilər isə belə söyləyirlər ki, mələikə şahla süfrə başında oturanda bir baş kələm götürüb soyur və ərindən hansı baş kələmin - soyulub təmizlənmişin, yoxsa yarpaqlının daha gözəl olduğunu soruşur. Şah cavab verəndə ki, yarpaqlı daha gözəldir, mələikə deyir: "Mən bu baş kələmlə necə rəftar etdimsə, sən də Kuruş evi ilə o cür rəftar elədin, sən onu boş qoydun". Bu vaxt qəzəbdən alışan Kambis onun üstünə atılır. O da boylu olduğuna görə vaxtından əvvəl doğub, ölür.

33. Kambisin öz qohumları ilə belə azğın rəftarı Apisə görəmi, ya başqa bir səbəbdən törədiyi aydın deyil, çünki, axı, insanlar çoxlu bəlalara düçar olur. Amma, deyirlər ki, Kambis anadangəlmə farslarda "müqəddəs" adı ilə tanınan ağır xəstəliyə mübtəla olmuşdur. Buna görə də onun ağır cismani azarla yanaşı ruhi azara tutulması tamamilə təbiidir.

downloaded from KitabYurdu.org

34. Kambis digər farsların da başına bax, belə dəlicəsinə işlər açmışdır. Deyirlər, şah, onun yanında böyük hörmət sahibi olan, görülən işləri ona ərz edən, (oğlu da Kambisin saqisi olmaq kimi böyük şərəfə çatan) Preksaspa deyib: "Preksasp! Farslar məni nə hesab edirlər? Mənim haqqımda nə deyirlər?" O da cavab verib: "Hökmdar! Onlar səni hər cəhətdən çox tərifləyirlər, amma deyirlər ki, şəraba çox şövq göstərir". Bu sözləri o, farsların mülahizəsi kimi söyləyir. Kambis isə qəzəblə qışqırır: "Belə çıxır ki, farslar məni içki düşkünü və dəli hesab edirlər? Ona görə də əvvəllər nə deyiblərsə, hamısı yalandır". Doğrudan da, özünün məsləhətçilərindən (Krez də onların içərisində olmuşdur) bir dəfə soruşub ki, onlar Kambisi öz atası Kuruşla müqayisədə necə təsəvvür edirlər? Onlar da cavab veriblər ki, o, Kuruşdan xeyli böyükdür, çünki o, Kuruşun bütün dövlətinə, bir də üstəlik Misirə sahib olmuşdur və dənizdə də hökmranlıq edir. Farslar belə demişlər, amma orada olan Krez onlarla razılaşmayıb Kambisə etiraz etmişdir: "Kuruşun oğlu! Mən düşünürəm ki, sən Kuruşla müqayisə oluna bilməzsən: axı, onun qoyub getdiyi oğullar kimi oğlun yoxdur". Kambis bu sözləri ləzzətlə dinləyib Krezi tərifləmişdir.

35. Bax, Kambis indi bunu xatırlayaraq əsəbiləşmiş vəziyyətdə Preksaspa deyir: "Bax, gör farslar doğrumu deyirlər, yoxsa özləri ağıllarını itirmişlər! Mən bu oxla sənin orada, qapının ağzında dayanan oğlunun düz ürəyindən vura bilsəm, onda aydın olacaqdır ki, farsların danışığı uydurmadır. Oxum yan keçərsə, onda aydın olar ki, farslar doğru deyirlər və mənim ağlım başımda deyil. Şah bu sözləri deyib öz yayını dartır və oxu uşağa atır. Uşaq yıxılanda şah əmr edir ki, onun sinəsini yarıb yarasına baxsınlar. Oxun ürəyə sancıldığını görürlər, Kambis də gülüb sevinclə uşağın atasına üz tutur: "Preksasp! indi sənə aydın oldumu ki, mən dəli deyiləm, amma farsların ağlı başında deyil. Bir de görüm, sən dünyada mənim kimi gözəl atıcı görübsənmi?" Preksasp, qarşısındakının dəli olduğunu görüb, öz aqibətindən də qorxaraq deyir: "Hökmdar! Mən fikirləşirəm ki, heç allah özü də sənin kimi gözəl ox ata bilməz!". Bax, Kambis o vaxt belə edir. Bir dəfə də ciddi bir səbəb olmadan on iki nəfər adlı-sanlı farsı tutub diri-diri torpağa basdırmağı əmr edir.

downloaded from KitabYurdu.org

36. Lidiya hökmdarı Krez, onun belə cinayətkarlığını görüb nəsihət üçün Kambisə belə sözlərlə müraciət etmək qərarına gəlir: "Şah! Özünü tamamilə gənc kimi dəliqanlı aparma, çəkin və özünü ələ al. İnsanın tədbirli olması faydalıdır, ehtiyatlı olması - müdriklik nişanəsidir. Sən isə öz vətəndaşlarını heç bir ciddi səbəb olmadan tutdurub öldürtdürürsən, hətta uşaqları da tələf edirsən. Sonralar da belə eləsən, onda gözlə ki, farslar sənin əleyhinə üsyan qaldırmasınlar. Sənin atan Kuruş mənə qəti tapşırıb ki, sənə öyüd-nəsihət edib, xeyirli saydığım məsləhətlər verim". Krez şaha rəğbət bəslədiyindən belə məsləhət verir. Kambis də ona belə sözlərlə etiraz edir: "Sən mənə hələ məsləhət verməyə də cəsarət edirsən? Sənsən öz ölkəsini "yaxşı" idarə edən? Massagetlər özləri Aras çayını keçmək istədikləri halda, atama "uğurlu" məsləhət verib Arası keçməyə və massagetlərə hücuma keçməyə təhrik edən sənsən. Sən öz ölkəni axmaqcasına idarə edərək özünü də, sənin məsləhətlərinə qulaq asan Kuruşu da məhv etdin. Amma heç də sevinmə: mən sənin yaxanı ələ keçirmək üçün çoxdan fürsət axtarırdım". Kambis bu sözləri deyib Krezi vurmaq üçün yayını götürür, amma Krez (otaqdan) çıxıb qaçmağa macal tapır. Kambis Krezi oxla vura bilmədiyindən onun tutulub edam olunmasını əmr edir. Amma nökərlər şahın xasiyyətini bildiklərinə görə Krezi gizlədirlər. Onlar ümid edirlər ki, Kambis peşman olub Krezi axtarmağa başlayar və onda Lidiya hökmdarını sağ saxladıqlarına görə bunlara mükafat düşər. Əgər şah öz hərəkətinə təəssüf etməyib Krezi soruşmazsa, onda onu öldürməyə macal taparlar. Doğrudan da, bir müddət keçəndən sonra Kambis Krezi öz yanına gətirməyi tələb edir, nökərlər bunu eşidib Lidiya hökmdarının hələ salamat olduğunu bildirirlər. Onda Kambis deyir ki, buna çox şaddır, amma onu xilas edənləri cəzasız qoymayıb edam etdirəcəkdir. Şah elə belə də edir.

37. Kambis farslara və müttəfiqlərinə qarşı çox belə cinayət və azğınlıq etmişdir. O, Memfisə gələndə hökmdar sərdabələrini açdırıb ölülərin mumiyalarına baxmışdır. O, Hefest ibadətgahında da belə hərəkət edib, allahın bütünü lağa qoymuşdur. Hefestin bu bütü Finikiya triyerlərinin burnundakı Ptaların sifətinə çox oxşayır. Bu surətləri görməyənlər üçün izahat məqsədi ilə bunu əlavə edim ki, onlar cırtdan

downloaded from KitabYurdu.org

görkəmindədirlər. Kambis kahinlərdən başqa heç kəsə içəri girmək ixtiyarı verilməyən Kabirlər ibadətgahına da daxil olmuşdur. Bu allahların da bütlərini təhqir edəndən sonra onları yandırmağı əmr etmişdir. Bu bütlər Hefestin surətinə oxşayırlar. Deyilənə görə onlar Hefestin oğullarıdırlar.

38. Beləliklə, Kambisin ağıldan zay olduğu mənə tamamilə aydındır. Yoxsa, o, yadellilərin müqəddəslərini və adətlərini təhqir etməzdi. Bütün xalqlara dünyadakı bütün adət və xasiyyətlərin ən yaxşısını seçmək imkanı verilsəydi, onda hər xalq həmin adətləri diqqətlə öyrənib özününkünü seçərdi. Belə ki, hər xalq öz adətlərinin və həyat tərzinin müəyyən qədər daha yaxşı olduğuna inanır. Buna görə də sağlam düşüncəli adam belə şeyləri necə lağa qoya bilər? İnsanların öz həyat tərzi və adətləri haqqında doğrudan da bu fikirdə olduqlarına çoxlu nümunələr əsasında inanmaq olar. Bax, bunlardan biri: şah Dara öz hakimiyyəti zamanı onunla bir yerdə olmuş ellinləri yanına çağırmağı buyurub soruşur ki, onlar hansı qiymətə özlərinin ölmüş ata-analarını yeməyə razıdırlar. Onlar da cavab vermişlər ki dünyada heç nəyin bahasına belə bir iş görməzlər. Onda Dara mərhum ata-analarının bədənini yeyən kallatilər adlanan hindliləri çağırtdırıb dilmanclar vasitəsi ilə soruşur ki, onlar hansı qiymətə özlərinin mərhum ata-analarını tonqalda yandırmağa razı olarlar. Onlar isə bərk qışqırıb şahın hörmətsizlik etməməsini xahiş etmişlər. Xalqların adətləri belədir və mənə elə gəlir ki, adət hər şeydən başdır deyən Pindar haqlıdır.

39. Kambisin başı Misirdə müharibəyə qatışanda lakedemonlular xalqı üsyana qaldırıb, adaya sahib olmuş Eak oğlu Polikrata qarşı çıxaraq Samosa yürüş eləmişlər. Polikrat əvvəlcə şəhəri üç yerə bölüb qardaşları Pantaqnot və Silosontla birlikdə idarə edirmiş. Sonra qardaşlarından birini öldürmüş, kiçik qardaşı Silosontu isə qovmuşdur. Polikrat o vaxtdan bütün Samosun hakimi olmuşdur. O, Misir hökmdarı Amasislə dostluq müqaviləsi bağlayıb ona hədiyyələr göndərmiş və ondan töhfələr almışdır. Bundan sonra Polikratın gücü tezliklə artmış, şöhrəti bütün İoniyaya və Elladaya yayılmışdır. Axı, bütün yürüşlərdə onun bəxti həmişə gətirirmiş. Onun 50 avarlı 100 gəmidən ibarət donanması və 1000 nəfər atıcıdan ibarət qoşunu varmış. Polikrat bu hərbi qüvvə ilə fərq qoymadan dostlarının da, düşmənlərinin də

downloaded from KitabYurdu.org

torpaqlarını talan edirmiş. Axı, o deyirmiş ki, dostun əlindən heç nə almamaqdansa, onun torpağını işğal edərək sonra özünə qaytarıb minnətdarlığını eşitmək daha yaxşıdır. Beləliklə, Polikrat materikdə çoxlu adalar və şəhərlər işğal etməyə müvəffəq olmuşdur. O, eyni zamanda, öz donanmaları ilə Miletin köməyinə gəlmiş lesboslularla dəniz vuruşmasında onlara qələbə çalmışdır. Tiran əsirləri buxovlanmış vəziyyətdə Samos hasarının ətrafında xəndək qazmağa məcbur etmişdir.

40. Polikratın qazandığı böyük uğurlar haqqında şayiələr Amasisə də çatır və hökmdarı çox narahat edir. Polikrat daha çox uğur qazanmağa başlayanda, Amasis tirana belə bir məktub yazıb Samosa göndərir: "Amasis Polikrata belə deyir: "Bizim dostumuz və mehmannavazımızın xoşbəxt olduğunu bilmək xoşdur. Bununla belə, sənin böyük uğurların mənim xoşuma gəlmir, çünki mən allahların (insan xoşbəxtliyinə) necə qısqanc olduqlarını bilirəm. Ona görə istərdim ki, özümün də, dostlarımın: da bir işi sarısın, o biri yox, ömrümdə həmişə xoşbəxt olmaqdansa, uğurlarımla uğursuzluqlarım bir-birini əvəz etsin. Axı, mən hələ eşitməmişəm ki, hər şeyə nail olan bir adamın işləri axırdan-axıra pis olmasın. Ona görə, indi mənim məsləhətimə qulaq as və öz xoşbəxtliyin üçün belə elə: fikirləş, gör, dünyada səndən ötəri ən qiymətli şey nədir və nəyin itkisi səni, daha çox pərt edər. Sənin üçün qiymətli olan şeyi elə at ki, o bir də heç kəsin əlinə düşməsin. Bu halda da uğurların uğursuzluqlarla əvəz olunmasa, sonralar da mənim məsləhət gördüyüm vasitəni tətbiq elə".

41. Polikrat məktubu oxuyub Amasisin yaxşı məsləhət verdiyini başa düşür. O, hansı qiymətli şeyin itkisindən daha çox pərt olacağı haqda düşünməyə başlayır. Düşünə-düşünə gəlir, yadına belə bir şey düşür. O, (barmağına) samoslu Telekl oğlu Feodorun qayırdığı və üstündə möhür olan zümrüd qaşlı üzük, taxardı. Polikrat elə bu üzüyücə tullamaq qərarına gəlir və belə də edir. Adamları 50 avarlı gəmiyə mindirib özü də göyərtəyə qalxaraq dənizə çıxmağı əmr edir. Gəmi adadan çox uzaqlaşanda Polikrat üzüyü barmağından çıxarıb özünün bütün yol yoldaşlarının gözü qabağında dənizə tullayır. Bundan sonra geri dönüb kədərli halda saraya qayıdır.

downloaded from KitabYurdu.org

42. Bundan beş, ya altı gün keçəndən sonra belə bir hadisə olur. Bir balıqçı böyük və gözəl balıq tutub onu Polikrat üçün layiqli bəxşiş sayır. Balıqçı balığı saray darvazalarının qabağına gətirib onu Polikrata göstərmək istədiyini bildirir. Balıqçının arzusu yerinə yetiriləndə o, balığı Polikrata verib ona belə deyir: "Hökmdar! Mən öz əlimin əməyi ilə dolansam da, bu balığı tutanda onu bazara aparmadım. Mən bu fikrə gəldim ki, o, sənə və sənin hökmranlığına layiqdir. Buna görə də mən onu sənə hədiyyə gətirmişəm". Polikrat da bu sözlərdən sevinib cavab verir: "Sən çox yaxşı eləmisən. Mən də sənə ikiqat təşəkkür edirəm-bir sözlərinə, bir də hədiyyənə görə. Səni nahara dəvət edirəm". Sevinən balıqçı evinə gedir, nökərlər də balığı yarıb onun qarnından Polikratın həmin üzüyünü tapırlar. Nökərlər onu Polikrata verib, necə tapdıqlarını danışırlar. Polikrat da bunun ilahi əlamət olduğunu başa düşüb, Amasisə onun məsləhəti ilə nə etdiyini, bunun nə ilə nəticələndiyini bütün təfsilatı ilə yazır, məktubu qurtarandan sonra onu Misirə göndərməyi buyurur.

43. Amasis də Polikratın məktubunu oxuyub, inanır ki, heç kəs başqasını alnına yazılmış qismətdən qoruya bilməz, Polikrat hər şeyə nail olduğuna, hətta özünün atdığı şeyi tapdığına görə ömrünü uğurla başa vura bilməz. Beləliklə, Amasis Samosa elçi göndərir ki, gedib onun Polikratla müttəfiqlik və dostluq əhdini sındırdığını bildirsin. Amasis ona görə belə edir ki, Polikrata dəhşətli bəla üz verəndə bundan sarsılmasın.

44. Bax, xoşbəxtliyin bu ərköyünlüyünə görə də lakedemonlular Polikrata qarşı yürüşə çıxmışlar. Onları sonralar Krit adasındakı Kidoniyanın əsasını qoymuş Samos (qaçqınları) köməyə çağırmışdılar. Polikrat da o vaxt Misirə qarşı qoşun hazırlayan Kuruş oğlu Kambisin hüzuruna elçi göndərərək ondan xahiş edir ki, Samosa elçi göndərsin və kömək üçün özündən, yəni Polikratdan qoşun tələb eləsin. Kambis də bunu eşidib, Samosa həvəslə elçilər yollayaraq, Misirə hərbi gəmilər göndərilməsini xahiş etmişdir. Onda Polikrat iğtişaş törətmək fikrinə düşə biləcəklərindən xüsusi şübhələndiyi vətəndaşları seçərək, onları 40 triyerdə (Misirə) göndərmiş, Kambisdən də xahiş etmişdir ki, göndərdiyi adamları Samosa qaytarmasın.

downloaded from KitabYurdu.org

45. Bəziləri deyirlər ki, Polikratın göndərdiyi bu samoslular Misirə heç gedib çıxmamış, Karpaf adasına qədər üzmüş, məsləhətləşib buradan o yana getməmək qərarına gəlmişlər. Başqa məlumatlara görə, onlar Misirə gedib çatmışlar, amma güdülmələrinə baxmayaraq oradan qaçmışlar. Hər halda onlar Samosa qayıtmışlar, Polikrat da öz gəmiləri ilə onların qarşısına çıxıb dəniz döyüşünə girmişdir. Sürgünlər qələbə çalıb adaya çıxmışlar. Amma quruda məğlub olaraq Lakedemona üzüb getmişlər. Bununla yanaşı, bəziləri təsdiq edirlər ki, Misirdən qayıdan samoslular Polikrata qalib gəlmişlər, amma mənim fikrimcə, bu doğru deyil. Axı, onların özləri Polikrata qalib gələ bilsəydilər, onda lakedemonluları köməyə çağırmaq lazım olmazdı. Həm də, çoxlu yadelli muzdlusu və yerli atıcıları olan Polikratın bir dəstə samoslu sürgününə basıla biləcəyinə inanmaq mümkün deyil. Polikrat tabeliyində olan vətəndaşların arvad-uşağını doklara yığıb saxlamışdır ki, ərləri (və ataları) sürgünlərin tərəfinə keçsələr, onları doklarla birlikdə yandırsın.

46. Polikratın qovduğu samoslular Spartaya gələndə arxontların hüzuruna gedib, uzun-uzadı nitqdən sonra onlardan təkidlə kömək istəmişlər. Arxontlar isə bu ilk qəbuldaca belə cavab vermişlər: onların dediklərinin əvvəlini unutdular, ona görə axırını da başa düşə bilmədilər. Bundan sonra, arxontların yanına ikinci dəfə gələn samoslular onlara heç nə demədən, üstündə "bu heybələr çörək istəyir"8 sözləri yazılmış çörək heybələri gətirmişlər. Arxontlar da cavab vermişlər ki, samoslular heybələrlə çox canfəşanlıq göstərmişlər. Buna baxmayıb, Onlar samoslulara hər halda kömək etmək qərarına gəlmişlər.

47. Bundan sonra lakedemonlular qoşun hazırlayıb, samosluların dedikləri kimi, onlara minnətdar olduqları üçün Samosa yürüş etmişlər; axı, bundan əvvəl samoslular onların messeniyalılarla vuruşuna kömək göstərmək üçün gəmilər göndərmişlər. Bunun əksinə, lakedemonlular da iqrar edirlər ki, onlar heç də samosluların kömək istəmələrinə görə deyil, hər şeydən əvvəl, samoslular onların Krezə göndərdikləri çaxıra su qatışdırmaq üçün camı, ondan bir il əvvəl isə Misir hökmdarı Amasisin onlara bağışladığı zirehi oğurladıqlarına görə intiqam almaq üçün yürüşə çıxmışlar. Saçaqları iplikdən olan bu kətan zirehin üstündəki toxunma

downloaded from KitabYurdu.org

şəkillər qızılla bəzədilmişdi. Ən təəccüblü xüsusiyyəti də bu idi ki, 360 sapdan hörülməsinə, sapların çox nazik olmasına baxmayaraq ilgəklərin hamısı görünürdü. Amasis başqa belə bir zirehi Linddə Afina ibadətgahına bağışlamışdır.

48. Samosa olan bu yürüşə korinflilər də könüllü qoşulmuşlar. Axı, bu yürüşdən bir nəsil əvvəl, çaxıra su qatılan cam oğurlanan vaxt samoslular korinflilərin də əleyhinə cinayət işlətmişdilər. Kipselin oğlu Periandr 300 nücəba oğlunu axtalatmaq üçün Kerkira adasından Sardaya, Aliattın hüzuruna göndərmişdir. Korinflilər gəmi göyərtəsində olan uşaqlarda Samosa yan alanda samoslular uşaqların nə məqsədlə Sardaya aparıldıqlarını bilib, əvvəlcə onlara Artemida ibadətgahına qaçıb sığınacaq axtarmaq yolunu öyrətmiş, sonra da "müdafiə olunmalarını xahiş edən" uşaqları oradan zorla çıxarmağa icazə verməmişdilər. Bu vaxt korinflilər uşaqlara yemək vermək istəməyəndə, samoslular bir bayram şənliyi düzəltmişlər ki, bu bayramı indi də icra edirlər. Uşaqlar müdafiə olunmalarını xahiş edərək ibadətgahda qaldıqları hər axşam gənc samoslu oğlan və qızlar yallı və rəqs təşkil edib, rəqs zamanı bad qatılmış sesam kökələri gətirməyi dəb salmışlar ki, kerkiralı uşaqlar onları aparıb yesinlər. Bu, Korinf gözətçiləri uşaqları tərk edərək adadan çıxıb gedənə qədər davam etmişdir. Sonra samoslular uşaqları geriyə, Kerkiraya aparmışlar.

49. Belə ki, Periandr vəfat edəndən sonra korinflilər kerkiralılarla dost olmuş olsaydılar, əlbəttə, bu səbəbdən onlar Samosa yürüşdə iştirak etməzdilər. Amma, korinflilər Kerkira adasında məskən salandan bəri onlarla tayfa qohumluqlarına baxmayaraq daim düşmənçilik etmişlər. Korinflilərin samoslulara qarşı qəzəbinin səbəbi də budur: Periandr ada camaatından intiqam almaq üçün ən şöhrətli kerkiralıların uşaqlarını yığıb axtalatdırmaq üçün Sardaya göndərmişdi. Axı, əvvəlcə kerkiralılar ona pislik etmişdilər.

50. Periandr öz arvadı Melissanı öldürəndə bu bəladan savayı ona başqa bir müsibət də üz vermişdir. Melissadan onun on yeddi və on səkkiz yaşlı iki oğlu varmış. Onların ana babası odan Epidavr tiranı Prokl uşaqları yanına çağırıb onları; əzizləmişdir (bu təbiidir, axı, onlar öz qızının uşaqları idi). Baba onları yola salıb

downloaded from KitabYurdu.org

ayrılanda demişdir: "Uşaqlar ananızı öldürənin kim olduğunu bilirsinizmi?" Böyük oğlan bu sözlərə əsla məhəl qoymamış, Likofron adlı kiçik oğlan isə həmin bu sözləri ürəyinə salaraq Korinfə qayıdanda, anasının qatili olan atası ilə danışmamış, onun suallarına cavab verməmişdir. Axırda Periandr dəhşətli şəkildə qəzəblənərək onu evdən qovmuşdur.

51. Periandr (kiçik) oğlunu qovub, böyük oğlundan babasının onlarla nə söhbət etdiyini soruşmuşdur. O da babasının onları necə mehribanlıqla qarşıladığını danışıb, ayrılanda Proklun söylədiyi sözləri deməmişdir, çünki sözlərin mənasını başa düşməmişdi. Periandr da buna etiraz etmişdir: ola bilməz ki, babası onlara müəyyən bir eyham etməmiş olsun və təkidlə oğlunu sorğu-suala tutmağa başlamışdır. Axırda gənc babasının sözlərini yadına salıb onları atasına çatdırmışdır. Periandr bu sözlərin mənasını başa düşüb oğlu ilə çox sərt rəftar etmək istəmişdir. O, qovduğu kiçik oğlunun yaşadığı evə adam göndərib, ev sahiblərinin uşağı orada saxlamalarını qadağan etmişdir. Bundan sonra Likofron hara getmişsə, onu hər yerdən qovmuşlar, çünki Periandr öz oğluna sığınacaq verənləri (cəza) ilə təhdid edərək, gənci qovmağı əmr edirmiş. Daim qovulan oğlan axırda dostlarının evinə getmiş, onlar isə qorxa-qorxa da olsa, hər halda Periandrın oğlu kimi ona sığınacaq vermişlər.

52. Axırda Periandr carçı vasitəsi ilə bildirmişdir ki, hər kəs onun oğlunu (öz evinə) buraxsa, ya onunla danışsa, Appollon ibadətgahına (müəyyən məbləğ həcmində) müqəddəs cərimə verməlidir. Ona görə heç kəs onunla danışmaq və ya onu evində saxlamaq istəməmişdir. Likofron özü də artıq heç kəsi atasının əmrini pozmağa sövq etməyə səy göstərməyib, öz qismətinə səbirlə dözərək Korinf limancıqlarının altında girlənməyə başlamışdır. (Bundan) dörd gün sonra Periandr əl-üzünü yumamış ac oğlunu görüb ona yazığı gəlmişdir. Tiran qəzəbini boğaraq Likofrona yanaşıb demişdir: "Oğlum! Sənə daha əziz olan nədir? İndiki vəziyyətin, yoxsa indi mənim olub, amma ata iradəsinə tabe olarsansa, sənə qalacaq hakimiyyət və sərvət? Oğlum, sən "xoşbəxt" Korinfin irsən hakimisən, amma sənin qəzəbinə ən az layiq olan adama asi çıxaraq, özünə zavallı dilənçi həyatı seçmisən. Doğrudan da, bizə üz vermiş müsibətə görə məndən şübhələnirsənsə, onda bil ki, bu müsibət, eyni

downloaded from KitabYurdu.org

zamanda, mənim özümün müsibətimdir, o daha çox mənə aiddir, çünki onun baisi mənəm. İndi ki, sən mərhəmət oyatmaqdansa həsəd oyatmağın daha yaxşı olduğunun, valideynə və hökmdara qəzəb bəsləməyin dadını gördün, qayıt gəl evə!" Likofron da atasına ancaq belə cavab vermişdir: "Atası onunla danışdığına görə allaha (Apollona) müqəddəs cərimə verməlidir". Periandr onda başa düşür ki, pisliyi geri götürmək mümkün deyil və pisliyin oğluna vurduğu ziyanın qarşısı alınmazdır; o, Likofronu gözündən uzaqlaşdırmaq üçün gəmi ilə o vaxtlar özünün hakimiyyəti altında olan Kerkiraya göndərir. Periandr oğlunu buraya göndərib, öz bədbəxtliyinin əsas baisi olan qayınatası Proklun üstünə yürüşə gedir. O, Epidavrı işğal edib, Proklu da əsir alır.

53. Zaman keçdikcə yaşa dolan Periandr şəhəri artıq idarə etməyə gücü çatmadığına əmin olaraq, Likofronun arxasınca Kerkiyaya adam göndərib hakimiyyəti ona vermək istəyir. Axı, Periandr özünün böyük oğlunu ağılkəmliyi ucundan (ölkəni idarə etməyə) qabil saymırdı. Likofron isə atasının elçisinə cavab verməyi belə layiq görmür. Oğlunu səmimi qəlbdən sevən Periandr, ikinci dəfə öz qızını, onun dalınca göndərib düşünür ki, bu gənc bəlkə bacısına qulaq asdı. Bacısı da onun yanına gəlib deyir: "Qardaş! Doğrudanmı qayıdıb ata malına sahib olmaq və hakimiyyət başına keçmək əvəzinə, sən hakimiyyətin özgə əlinə düşməsini və ata malının dağılmasını üstün tutursan? Qayıt evə, özünə əzab vermə. (Saxta) qürur pis keyfiyyətdir. Müsibətə müsibətlə əvəz qaytarma. Axı, çoxları qanunun hərfinə deyil, onun (bəşəri) mənasına üstünlük verirlər, amma bir çoxları da ana (vərəsəsini) alıb, ata payını itirirlər. Hökmdar hakimiyyəti təhlükədədir; axı, çoxları ona göz tikib, atamız isə əldən düşmüş qocadır. Sən öz qismətini özgələrinə vermə". Bacı atasının təlqin etdiyi çox tutarlı dəlillər gətirir. Qardaş da cavab verir ki, atasının hələ sağ olduğunu bildikcə Korinfə getməyəcəkdir. Qız Likofronun bu cavabını atasına çatdıranda Periandr özünün Kerkirada yaşamağa hazır olduğunu, Likofronun isə Korinfə gəlib hökmdar hakimiyyətinə irsən sahib durmalı olduğunu elan etmək üçün üçüncü dəfə elçi göndərir. Oğlu buna razı olur. Onda Periandr Kerkiraya, oğlu da Korinfə yola düşməyə hazırlaşmağa başlayır. Lakin kerkiralılar bu niyyətdən xəbər

downloaded from KitabYurdu.org

tutub, Periandrın onların adasına ayaq basmaması üçün gənci öldürürlər. Buna görə də Periandr kerkiralılardan intiqam almaq istəyirdi.

54. Lakedemonlularsa güclü qoşunla gəmilərdən Samosa çıxıb şəhəri mühasirəyə alırlar. Onlar şəhər hasarına qədər irəliləyib artıq (şəhərin həndəvərindəki) qülləyə qalxırlar. Bu vaxt Polikrat güclü dəstə ilə köməyə çatıb onları geriyə sıxışdırır. Muzdlular və Samos vətəndaşları dəstəsi isə dağın zirvəsindəki başqa bir qüllədən hücuma keçirlər, amma qısa vuruşmadan sonra onlar lakedemonlular tərəfindən geri oturdulur və qaçmağa üz qoyurlar. Lakedemonlular da onları təqib edərək qırmağa başlayırlar.

55. Əkər həmin gün lakedemonlular hamısı Arxi və Likop kimi şücaətlə vuruşsaydı onda Samos alınardı. Bu iki döyüşçü Arxi və Likop yalnız özləri qaçan samosluları daban-dabana qovaraq şəhərə girmiş, amma geriyə yol kəsildiyinə görə orada həlak olmuşlar. Mən həmin bu Arxinin adını daşıyan nəvəsi, Saminin oğlu ilə Pitanada, onun anadan olduğu Sparta mahalında tanış oldum. O, bütün başqa yadellilər içərisində samoslular haqda böyük hörmətlə danışırdı. Onun atası ona görə Sami adı götürmüşdü ki, babası Samosda igidcəsinə həlak olmuşdu. Onun dediyinə görə, babasını dəfn edib, ona şəhərin xərci hesabına abidə qoyduqları üçün o, samoslulara hörmət edir.

56. Lakedemonlular 40 günlük uğursuz mühasirədən sonra Samos şəhərini tərk edib Peloponnesə qayıtmışlar. Əlbəttə, etibarlı olmayan bir məlumata görə, Polikrat guya qızıl suyuna çəkilmiş qurğuşundan sikkə kəsilməsini əmr edib lakedemonluları Samos pulu ilə ələ almış, onlar da bu pulu götürüb evlərinə qayıtmışlar. Lakedemon dorilərinin Asiyaya birinci yürüşü belə qurtarmışdır.

57. Lakedemonlular tərəfindən taleyin ümidinə buraxılan Polikrata düşmən kəsilmiş Samos (sürgünləri) oradan Sifnos adasına getmişlər. Axı, onlar pula möhtac idilər. Sifnos da o vaxt çiçəklənirdi və bütün adaların ən varlısı idi. Şəhərdə elə zəngin qızıl və gümüş mədənləri vardı ki, sifnoslular buradan götürülən gəlirin onda

downloaded from KitabYurdu.org

bir hissəsinə Delfdə ən dəbdəbəli xəzinələrdən birini ucaltmışdılar. (Adanın) vətəndaşları gəliri hər il öz aralarında bölüşürdülər. Onlar bu xəzinəni ucaldanda rəmmaldan soruşublar ki, onların bu ağ günləri uzunmu sürəcəkdir? Pifiya da onlara belə cavab verib:

Sifnosun şəhər məclisi bəmbəyaz parladığı

Bazar yerinin önü bəyaz olduğu zaman,

Uzaqgörən bir adamın ağlını başına toplaması gərəkdir.

Təhlükə taxtalı bir orduyla, qırmızılı xəbərçidən gələcək.9

Doğrudan da, o vaxt sifnosluların bazar meydançası da, şəhər məclisi də Paros mərməri ilə bəzədilmişdi.

58. Amma onlar o vaxt, hətta samoslular artıq darvazalara qədər gəlib çatanda da bu bəyanın mənasını başa düşə bilməmişdilər. Axı, samoslular Sifnosda lövbər salar-salmaz gəmilərin birində şəhərə elçilər göndərmişdilər. Keçmişlərdə gəmiləri qırmızı rənglə (sülügənlə) rəngləyərdilər. Pifiya "taxta mühasirədən çəkinməyi", "al-qırmızı geymiş carçıdan" qorxmağı sifnoslulara məsləhət görəndə bunu nəzərdə tutmuşdu elə ki, elçilər gəlib sifnoslulardan 10 talant borc verələrini tələb etmişlər. Sifnoslular bunu rədd edəndə samoslular onların zəmilərini viran etməyə başlamışlar. Bundan xəbər tutan sifnoslular köməyə getsələr də, məğlub olmuşlar və onların çoxunun şəhərə yolu kəsilmişdir. Bundan sonra sifnoslular 100 talant verib azad olmuşlar.

59. Samoslular bu pula Peloponnesdəki Hidreya adasını hermionalılardan alıb, onu qorumağı trezenlilərə həvalə etmişlər. Sonra onlar Kritdə Kidoniya şəhərinin əsasını

downloaded from KitabYurdu.org

qoymuşlar; doğrudur, onlar buraya həmin məqsədlə yox, zakinfliləri adadan qovmaq üçün getmişdilər. Samoslular Kidoniyada qalıb beş il xoş günlər keçirmişlər. Ona görə Kidoniyada indi də qalan ibadətgahı, (eyni zamanda, Diktinna məbədini də) samoslular ucaltmışlar. Altıncı il onlar eginalılar və kritlilərlə dəniz vuruşmasında məğlubiyyətə uğrayıb qul kimi satılmışlar. Eginalılar, onların gəmilərinin burnundakı qaban qabartmasını kəsib Eginadakı Afina məbədinə nəzir vermişdilər. Samosluların əlindən qəzəbli olan eginalılar ona görə belə eləmişlər ki, samoslular hələ hökmdar Amfikratın vaxtında birinci olaraq Eginaya basqın edərək əhaliyə çox ziyan vurmuşdular, əlbəttə, özləri də itkiyə məruz qalmışdılar. Onların Kritdə samoslulara qarşı indiki yürüşünün səbəbi bundan ibarət olmuşdur.

60. Mən ona görə Samos hadisələri üzərində bir qədər ətraflı dayandım ki, samoslular yaşadıqları adada bütün Elladadakı tikintilərin ən böyüyü olan üç abidə inşa etmişlər. Əvvəla, onlar 150 orgiya hündürlüyündə dağın ətəyindən başlanıb dağın o biri üzünə çıxan bir lağım atmışlar. Lağımın uzunu 7 stadiya, hündürlüyü və eni 8 futdur. Onlar lağım boyu 20 dirsək dərinliyi, 3 fut eni olan bir kanal qazıb bol bir çeşmədən su kəməri çəkmişlər. Bu su kəməri qurğusunu tikdirən meqaralı Navstrof oğlu Yevpalidir. Üç tikintidən biri budur. İkinci tikinti dəniz dambasıdır ki, liman ətrafında salınmışdır. Bu dambanın hündürlüyü 20 orgiya, uzunluğu da 2 stadiyadan artıqdır. Üçüncü tikinti də bizə məlum olan məbədlərin ən böyüyüdür. Bu məbədin ilk tikintisi ilə samoslu Fileyin oğlu Rek məşğul olmuşdur. Bu tikintilərə görə mən Samos hadisələrindən bu qədər ətraflı danışdım.

61. Kuruşun oğlu Kambis hələ Misirdə qalıb ağılsız işlər tutduğu zaman mağlar tayfasından iki qardaş qiyam qaldırmışdır. Kambis onlardan birini Parsada öz mülkünü idarə etməyə qoymuşdu. Smerdisin öldürülməsinin sirr kimi saxlanıldığını, bunu Parsada az adamın bildiyini, çoxlarınınsa Smerdisi sağ-salamat hesab etdiklərini yaxşıca bilən həmin bu adam qiyam etmişdir. O, hökmdarlıq ixtiyarını ələ keçirmək niyyətini elə bu Smerdis əhvalatı üzərində qurmuşdur. Dediyim kimi, bu adamın onunla bir yerdə qiyam etmiş bir qardaşı varmış ki, o, Kambisin öz əmri ilə öldürülmüş Smerdisə oxşayırmış, hətta adı da Smerdismiş. Mağ Patizif özü qardaşı

downloaded from KitabYurdu.org

olan həmin bu adamı lazım olacaq bütün işləri görəcəyinə inandırıb onu "taxta çıxmağa dəvət edibmiş". Patizif (qardaşını) taxta oturdub, (Parsa dövlətinin) hər mahalına, eləcə də, Misirdəki qoşuna (belə bir xəbərlə) carçı göndəribmiş ki, indən belə Kambisə deyil, Kuruş oğlu Smerdisə itaət etmək lazımdır.

62. Beləliklə, carçılar bu xəbəri hər yerdə yaymışlar; eyni zamanda, Misirə də göndərilmiş carçı hökmdarı qoşunu ilə birlikdə Suriyadakı Akbatanada tapmışdır. Carçı (şah) qərargahının mərkəzində çıxış edib mağın buyruğunu elan eləmişdir. Kambis isə bu xəbəri eşidib carçının dediyinin doğru olduğunu və Preksaspın Smerdisi öldürmək haqqında əmri yerinə yetirməyərək ona xəyanət etdiyini fikirləşmişdir. Şah Preksaspa baxıb demişdir: "Preksasp, sən mənim əmrimi belə yerinə yetirmisən?" O da cavab verib: "Hökmdar! Qardaşın Smerdisin sənin əleyhinə üsyan qaldırması doğru deyil. Sənin Smerdislə heç vaxt nə kiçik, nə böyük davan düşə bilməz. Axı, sənin əmrini şəxsən özüm yerinə yetirib, onun meyitini əlimlə basdırmışam. İndi ölülər dirilirsə, onda Midiya hökmdarı Astiaqın da sənin əleyhinə üsyan qaldıracağını gözləmək olar. Yox, dünyada hər şey əvvəllərdə olduğu kimi qalırsa, onda, əlbəttə, Smerdisdən sənə heç bir sədəmə toxuna bilməz. Bax, mən belə düşünürəm ki, carçını geri gətirdib şah Smerdisə tabe olmağı tələb etməyi ona kimin tapşırdığını soruşmaq lazımdır".

63. Preksaspın bu məsləhəti Kambisin ağlına batır. Dərhal carçının arxasınca gedib onu geri qaytarırlar. O, hüzura gələndə Preksasp ona belə deyir: "Ey adam! Sən deyirsən ki, Kuruş oğlu Smerdisdən xəbər gətirmisən. Onda bizə sözün doğrusunu de və sağ-salamat çıxıb get: bu göstərişi sənə şəxsən Smerdisin özü verib, yoxsa onun nökərlərindən biri?" O da cavab verir: "Şah Kambis Misirə yola düşəndən bu yana mən Kuruş oğlu Smerdisi bir dəfə də görməmişəm. Amma Kambisin öz mülkünü idarə etməyə qoyduğu mağ mənə bu tapşırığı verdi və dedi ki, Kuruş oğlu Smerdis sizə bu cür xəbər çatdırmağımı əmr etmişdir". Carçı beləcə cavab verir və əsl həqiqəti deyir. Onda Kambis də Preksaspa belə deyib: "Preksasp! Sən əmrimi şərəflə yerinə yetirmisən, qarşımda günahkar deyilsən. Amma bəs yalandan Smerdisin adını götürüb Parsada mənə qarşı üsyan edən kim olar?" Preksasp cavab verib: "Şah, mənə

downloaded from KitabYurdu.org

elə gəlir ki, mən onu tanıyıram. Sənin əleyhinə mağlar üsyan ediblər: mülkünü idarə etməyi tapşırdığın Patizif və bir də onun qardaşı Smerdis".

64. Kambis Smerdisin adını eşidən kimi başa düşüb ki, Preksasp haqlıdır və gördüyü yuxu çin olmuşdur. O, yuxuda görmüşdü ki, bir nəfər ona Smerdisin şah taxtına çıxdığını və başının göylərə dəydiyini xəbər gətirmişdir. Şah qardaşını nahaq məhv etdiyini başa düşüb ona ağlamağa başlamışdır. Qardaşına ağlayıb, bütün bu bədbəxtliklərdən sarsılan Kambis at belinə sıçrayıb, dərhal mağın əleyhinə Susa yürüş etmək qərarına gəlmişdir. Şah at belinə qalxanda qılınc qınının ucluğu şah Misir allahı Apisin budunun harasını yarmışdısa, qılınc indi onun öz budunun həmin yerini yaralamışdı. Kambis yaranın ölümcül olduğunu kəsdirib qaldığı şəhərin adını soruşanda, ona buranın Akbatana (şəhəri) adlandığını söyləmişlər. Kambisə əvvəllər, hələ Misirin Buto şəhərində rəmmal bəyan etmişdi ki, onun ömrü Akbatanada sona yetəcəkdir. Kambis (çox qoca) yaşlarına çatanda Midiyanın əsas şəhəri olan Akbatanada öləcəyini düşünmüşdü. Rəmmal isə, görünür, Suriya Akbatanasını nəzərdə tutubmuş. Doğrudan da, Kambisin sorğusuna cavab olaraq şəhərin adı çəkiləndə şahın dəliliyi birdən-birə çəkilib getmişdir. Mağın üsyanı və aldığı yara onu belə sarsıtmışdır. Şah rəmmal bəyanını başa düşüb demişdir: "Kuruş oğlu Kambisin öz ömrünü burada başa vurması onun taleyinə yazılmışdır".

65. Şah bu sözdən sonra daha heç nə deməmişdir. Amma təxminən iyirmi gündən sonra öz məiyətindəki ən əsil-nəcabətli adamları hüzuruna çağırmağı buyurub, onlara bax belə demişdir: "Farslar! Mənə bir bədbəxtlik üz vermişdir ki, onu indiyə qədər dərin sirr olaraq gizlədirdim, bu sirri indi sizə açıram. Misirdə bir yuxu görmüşdüm - ah, kaş ki, o yuxunu heç görməyəydim! (Yuxuda qarşıma) evimdən gəlmiş bir carçı çıxıb xəbər verdi ki, Smerdis başı göylərə dəyə-dəyə taxta çıxır. Qardaşımın məni taxtdan məhrum edəcəyindən qorxaraq, ağıllı rəftar etmək əvəzinə tələsik iş gördüm. Axı, görünür taleyin hökmünü pozmaq insan ixtiyarından kənardır. Mən ağılsız da Smerdisi öldürmək üçün Preksaspı Susa göndərdim! Bu cinayət yerinə yetiriləndə mən Smerdisin ortadan götürülməsindən sonra kiminsə mənə qarşı üsyan qaldıracağını ağlıma gətirməyərək qorxusuz yaşayırdım. Taleyin nələr

downloaded from KitabYurdu.org

göstərəcəyindən: tamam xəbərsiz qalaraq qardaş qatili oldum və bununla belə indi taxtdan məhrum edildim! Axı, allahın mənə əvvəlcədən bəyan etdiyi üsyan mağ Smerdisin üsyanı imiş. İnanın ki, bu cinayəti edən mən özüməm, Kuruş oğlu Smerdis də artıq sağ deyil. Mənim mülkümə baxan mağ və onun qardaşı Smerdis indi sizin səltənətinizi öz əlinə almışdır. Bu mağların mənə gətirdiyi rüsvayçılığa görə onlardan intiqam almalı olan birinci adam isə özünün ən yaxın qohumunun əli ilə cinayətkarcasına öldürülmüşdür. İndi ki, o adam sağ deyil, farslar, onda mən ürəyimdə daş olub qalmış son istəyimi ölüm qabığı sizə söyləməliyəm. Bax, sizin hamınızı, xüsusən buradakı Ağamən nəslini şahlıq allahlarına and verib əmr edirəm: qoymayın hakimiyyət təzədə midiyalılara keçsin! Amma onlar hakimiyyəti məkrlə ələ keçiriblərsə, siz də hakimiyyəti onlardan məkrlə almalısınız; yox hakimiyyəti güclə alıblarsa, siz də onlardan silah gücünə almalısınız. Siz bu əmri yerinə yetirsəniz, qoy zəmiləriniz bol, arvadlarınız övladlı olsun, heyvanlarınız döl versin, onda siz həmişəlik azad olarsınız. Siz hakimiyyəti onların əlindən almasanız, hətta buna cəhd də göstərməsəniz, onda verdiyim xeyir-duanın əksinə, sizə (quraqlıq və qıtlıq) üz verməsini arzu edirəm. Hələ üstəlik, onda qoy hər bir farsın aqibəti, mənim aqibətim kimi miskin olsun". Kambis beləcə deyib, özünün bədbəxt qismətinə acı-acı ağlamışdır.

66. Farslar da öz şahlarını ağlar görüb əyinlərindəki paltarları cıraraq bərkdən hönkürməyə başlamışlar. Bundan sonra Kuruş oğlu Kambis (iltihab) nəticəsində budu quruyanda quru sümük qanqrenasından vəfat edir. Kambis cəmi yeddi il, beş ay, şahlıq sürür. Onun heç bir övladı yox idi - nə oğlu, nə qızı. Mağların guya hakimiyyəti ələ keçirməsi haqda Kambisin son sözlərini eşidən farsları dərin bir inamsızlıq bürüyür. Farslar bundan şübhələnirlər ki, Kambis Smerdisin ölümü haqqında danışmaqla onları aldatmaq və bütün Parsanı Smerdis əleyhinə qaldırmaq istəmişdir.

67. Beləliklə, onlar Kuruş oğlu Smerdisin doğrudan da taxta çıxdığına inanırlar. Axı, Preksasp indi Smerdisi öldürdüyünü qətiyyətlə danırdı. Kambisin vəfatından sonra Kuruşuş oğlunu öz əli ilə öldürdüyünü boynuna alması Preksasp üçün təhlükəli

downloaded from KitabYurdu.org

idi. Kuruş oğlu Smerdisin adını saxtakarcasına özünə çıxan mağ isə Kambisin ölümündən sonra onun şahlığının düz səkkiz ilinin tamam olması üçün çatışmayan yeddi ay ərzində rahatca hökmdarlıq edirdi. Mağ bu vaxt ərzində tabeliyində olan adamların hamısına böyük mərhəmətlər göstərməyə imkan tapdığına görə, ölümündən sonra, təkcə farslardan başqa, qalan bütün Asiya xalqları ona yas saxlamışlar. Axı, o, itaətində olan bütün xalqlara carçılar göndərib onları üç il müddətinə vergilərdən və hərbi qulluqdan azad etdiyini xəbər verdirmişdi.

68. Mağ bu şəfqətləri taxta çıxan kimi elan etmişdi. Amma səkkizinci aya keçəndə yalanın üstü bax belə açılmışdır. Fərnasp oğlu Otan Parsanın ən əsil-nəcabətli və dövlətli adamlarından olmuşdur. Həmin bu Otan mağın Kuruş oğlu Smerdis olmadığına hamıdan əvvəl şübhələnmişdi. Otan ona görə şübhələnmişdi ki, mağ heç vaxt şah sarayından çıxmır və fars kübarlarından heç kəsi hüzuruna çağırmırdı. O, mağdan şübhələnərək belə eləmişdir: Onun Fədimə adlı qızı Kambisin arvadı idi, indi o, Kambisin bütün başqa arvadları ilə birlikdə Smerdisə arvad olmuşdu. Otan bu qızının özünə ər sayıb yatağına girdiyi adamın Kuruş oğlu Smerdis və ya başqası olduğunu öyrənməsi üçün onun yanına adam göndərir. Qızı da atasına çatdırmağı buyurur ki, o, heç nə bilmir, axı, əvvəllər Kuruş oğlu Smerdisi bir dəfə də görməyib və indiki ərinin kim olduğu ona məlum deyil. Onda Otan ikinci dəfə adam göndərir ki, qızına bu sözləri çatdırsın: "Sən özün Kuruş oğlu Smerdisi tanımırsansa, onda sənin və onun ərinin kimliyini Atossadan soruş. Axı o, özünün doğma qardaşını hökmən tanımalıdır". Qız da cavab olaraq atasına bunu bildirməyi buyurmuşdur: "Mən Atossadan heç nə soruşa bilmərəm, ümumən, şah arvadlarından heç kəsi görmürəm. Axı, bu adam hər kəsdirsə, taxta çıxan kimi bizi bir-birimizdən ayırmışdır".

69. Bu cavabı eşidəndə Otanın şübhələri daha da artır. Onda qızına üçüncü tapşırıq göndərir. Tapşırıq da belə olmuşdur: "Qızım! Sən nəcabətli ailədənsən, ona görə də indi atanın tapşırdığı təhlükəli işə girişməlisən. Axı, bu, Kuruş oğlu Smerdis olmayıb, mənim güman elədiyim adamdırsa, onda sənlə bir yastığa baş qoyub, farsların üstündə hakimiyyət sürməsi ona baha başa gələcəkdir. O, cəzasız

downloaded from KitabYurdu.org

qalmamalıdır. Ona görə də belə elə: elə ki, o, sənlə bir yatağa girdi və onun yuxuya getdiyini gördün, onda əlinlə onun qulaqlarını yoxla. Qulaqları yerindədirsə, bil ki, Kuruş oğlu Smerdislə bir yastığa baş qoymusan; yox, qulaqsızdırsa - onda mağ Smerdislə yatağa girmisən". Cavabında Fədimə atasına bunu çatdırmağı buyurur ki, o, belə edərsə, böyük təhlükə qarşısında qalar. Əri doğrudan da qulaqsızdırsa və o, qulağı əlləşdirəndə tutularsa, onda əri, yəqin, onu edam etdirər. Bununla belə, o, hər halda bu işi görməlidir. Beləliklə, o, atasının tapşırığına əməl edəcəyinə söz verir. Kuruş oğlu Kambis isə hansısa böyük günahına görə bu mağ Smerdisin qulaqlarını kəsməyi əmr etmişdi. Beləliklə, Otanın qızı Fədimə atasına vəd etdiyi tapşırığı yerinə yetirir. Mağın yanına getmək növbəsi ona çatanda (axa farsların arvadları ərlərinin yanına növbə ilə gedirlər) Fədimə əri ilə bir yatağa girməyə gedir. Mağ ağır yuxuya dalanda Fədimə əli ilə onun qulaqlarını yoxlayır. Onda asanlıqla inanır ki, əri qulaqsızdır və səhər açılan kimi bu haqda atasına xəbər göndərir.

70. Otan da əsil-nəcabəti və ən sadiq dostları olan farsları-Aspafinlə Qobrini dəvət edib, hər şeyi onlara açır. Onlar özləri də bu işdən şübhəli idilər, Otanın verdiyi məlumatdan sonra onun dediklərinə tamamilə inanırlar. Onlar belə qərara gəlirlər ki, hər kəs özünün daha çox inandığı bir farsı da bu ittifaqa cəlb etsin. Belə ki, Otan-İntəfrəni, Qobri-Mehabizi, Aspafin-Hidərni cəlb edir. Bunlar altı nəfər olanda Güştəsp oğlu Dara Parsadan Susa10 gəlir, (axı onun atası Parsanın hakimi idi). Beləliklə, Dara gələndə altı fars onu da özlərinə qoşmağı qərara alırlar.

71. Toplaşan bu yeddilik and içib dostluq əhdi bağlamış və məsləhətləşmişlər. Fikir söyləmək üçün növbə Daraya çatanda o, yoldaşlarına bax belə demişdir: "Mən elə fikirləşirdim ki, Kuruş oğlu Smerdisin öldüyünü, indi bizə mağın şahlıq etdiyini məndən başqa heç kəs bilmir. Mən sizi mağla mübarizəyə çağırmaq üçün belə təcili Susa gəlmişəm. Amma, indi yalanın yalnız mənə deyil, sizə də məlum olduğunu görüb, dərhal işə başlamağı təklif edirəm. Gecikmək ölüm deməkdir!" Otan buna belə cavab vermişdir: "Güştəsp oğlu! Sənin atan rəşadətli ərdir! Sən özün də rəşadətdə ondan heç geri qalmazsan. Amma bizim işimiz haqda bu cür düşünülməmiş təklif etməyə tələsmə, bəlkə ona daha uzaqgörənliklə yanaş. Biz gərək

downloaded from KitabYurdu.org

əvvəlcə sayca çoxalaq, sonra işə başlayaq". Dara buna etiraz etmişdir: "Burada iştirak edən ağalar! Siz Otanın məsləhətinə baxsanız, bilin ki, məhv olacaqsınız. Axı, kimsə bir adam öz xeyri üçün sizdən mağa hökmən çuğulluq edəcəkdir. Əlbəttə, daha yaxşı olar ki, siz qorxu bilmədən dərhal cəsarətlə işə başlayasınız. Bir Halda ki, siz əlavə həmfikir yığmaq qərarına gəlibsinnz və mənə etibar etmisiniz, onda gəlin işi elə bu gün görək. Yoxsa, bilin: biz bu günü əldən versək, onda özüm sizi mağa çuğullamağa gedəcəyəm ki, heç kəs məni qabaqlaya bilməsin".

72. Otan Daranın belə qızışdığını görüb ona cavab verir: "San düşünməyə vaxt qoymadan bizi tələsdirirsənsə, onda de gərək biz saraya necə girməli və mağa necə hücum etməliyik? Sən, əlbəttə, orada keşikçilər qoyulduğunu bilirsən, onu özün görməyibsənsə, heç olmasa eşitmisən. Biz keşikçilərin yanından necə keçə bilərik?" Dara da ona belə cavab verir: "Otan! Çox şeyə sözlə yox, işlə cavab vermək olar. Bəzi şeylər haqda mülahizə yürütmək mümkündür, amma sözlə heç bir şərəfli iş görülmür. Keşikçilərdən yayınmağın heç də çətin olmadığını gözəl bilirsiniz. Əlbəttə, bu qədər adlı-sanlı adamları ya hörmətlərinə görə, ya da qorxudan heç kəs tutub saxlamaz. Sonra mənim ən əlverişli bəhanəm var, biz məhz ona əsasən keçib gedə bilərik: mən deyərəm ki, Parsadan elə indicə gəlmişəm, atamdan gətirdiyim bir xəbəri hökmdara çatdırmaq istəyirəm. Yalan labüd olduqda cəsarətlə yalan satmaq lazımdır. Axı, biz yalan da satsaq, doğru da danışsaq, eyni məqsəd (mənfəət) güdürük. Doğrudur, bəziləri yalan deyirlər ki, bu vasitə ilə inandırıb (sonra) özü üçün mənfəət əldə eləsinlər, eləcə də bəziləri doğru danışır ki, şəxsi mənfəət əldə edib daha çox etibar qazansınlar. Beləliklə, biz (hər iki halda) müxtəlif üsulla eyni məqsəd izləyirik. Biz mənfəət güdməsəydik onda, əlbəttə, yalançı özünü necə doğruçu kimi göstərirsə, doğruçu adam da asanlıqla yalançılıq edə bilər. Beləliklə, bizi könüllü buraxan keşikçilər tezliklə öz mükafatını alacaqdır. Kim bizə müqavimət göstərsə, onunla da düşmən kimi hesablaşarıq. Onda biz saraya girərik və bununla da iş bitər!"

73. Bundan sonra Qobri bax belə deyir: "Dostlar! Hakimiyyəti ələ keçirmək, ya da onun uğrunda bihudə mübarizədə məhv olmaq kimi əlverişli bir fürsət bu gün deyilsə, nə vaxt qismət ola bilər. İndi biz farsların başı üstündə midiyalı mağ, özü də

downloaded from KitabYurdu.org

qulağı kəsik mağ ağadır. Sizlərdən Kambisin ölüm yatağı qarşısında duranlar hakimiyyəti yad əllərdən almaq istəməyənlərə şahın necə lənət yağdırdığını şübhəsiz ki, xatırlayırlar. Onda, əlbəttə, Kambisin bizi aldatmaq məqsədi ilə danışdığını düşünərək ona inanmadıq. Buna görə mən Daranın məsləhətinə-dağılışmayıb, yığıncağımızdan bir baş mağlara qarşı getməyə tərəfdaram". Qobri beləcə deyir və hamı onunla razılaşır.

74. Hələ bu (yeddi fars) məsləhətləşəndə bax, belə bir hadisə baş vermişdir. Preksasp Kambisdən qəddarlıq gördüyü üçün (axı, şah onun oğlunu oxla vurub öldürmüşdü) mağlar onu öz tərəfinə çəkmək istəmişdilər; bundan başqa, onu bir də ona görə öz tərəflərinə çəkmək istəmişlər ki, Smerdisin ölümünü bilən yeganə adam onu öz əli ilə öldürən Preksasp olmuşdur, nəhayət, bir də ona görə ki, Preksaspın farslar arasında böyük nüfuzu vardı. Bu səbəblərə görə də mağlar onun dalınca adam göndərib, onu özlərinin "dostu" adlandırırlar və sirri möhkəm saxlamağa, farsları yalanla ələ saldıqlarını heç kəsə açmayacağına and içdirirlər. Onlar bunun əvəzində Preksaspa bol vədlər verirlər. Preksaspın razılığını alan mağlar ona ikinci tapşırıq verirlər. Onlar bildirirlər ki, bütün farsları şah sarayının hasarları ətrafına çağıracaqlar və Preksasp da qüllədən danışaraq, xalqı onlara başqa bir adamın deyil, həqiqətən, Kuruşun oğlunun şahlıq etdiyinə inandırmalıdır. Mağlar bu iş üçün məhz Preksaspı, əlbəttə, ona görə seçmişdilər ki, farslar Preksaspa hamıdan çox inanırdılar və o, dəfələrlə Kuruş oğlu Smerdisin öldürüldüyünü qətiyyətlə inkar edərək onun sağ olduğunu bildirmişdi.

75. Preksasp hazır olduğunu bildirmiş, mağlar da xalqı yığıb Preksaspın qülləyə qalxaraq (oradan) camaata müraciət etməsini buyurmuşlar. Preksasp isə onların əmrlərini qəsdən unutmuşdur. O, öz nitqini (Kuruşun) ulu babası Ağamənlərdən başlayıb, Kuruşun bütün şəcərəsini sadalamışdır. Axırda gəlib Kuruşun özünə çatanda, onun fars xalqına xidmətlərini tərifləmişdir. Preksasp bu xidmətləri sayaraq, nəhayət, bütün; sirri açmışdır. Onun dediyi sözlərə görə, Preksasp indiyə qədər həqiqəti açmaq təhlükəli olduğundan hər şey haqqında susmuşdur. İndi isə bütün həqiqəti açmaq zərurəti üçün vaxt çatmışdır. Bax, Preksasp Kambisin əmri ilə özü,

downloaded from KitabYurdu.org

öz əli ilə Kuruşun oğlunu necə öldürdüyünü, indi də (farsların üstündə) mağların hökmranlıq etdiklərini danışmışdır. Sonra o, farsların başçılarına hakimiyyəti mağlardan geri qaytarmasalar və intiqam almasalar, onlara qorxunc lənətlər yağdıraraq özünü qüllədən ox kimi yerə atmışdır. Bütün ömrü boyu ləyaqətli insan kimi yaşamış Preksaspın şərəfli ölümü belə olmuşdur.

76. Yeddi fars isə bu vaxt mağlara hücuma keçmək qərarına gəlmişlər. Onlar allaha dua edib, hələ Preksaspın taleyindən xəbərsiz halda (saraya) getmişlər. Yoldan dönüb, bir də məsləhətləşmişlər. Otan və onun tərəfdarları xalq həyəcanları yatanadək işi təxirə salmağı təkidlə məsləhət görmüşlər. Dara da öz tərəfdarları ilə hər hansı möhlətin əleyhinə çıxaraq, niyyətin dərhal yerinə yetirilməsi lehinə olmuşdur. Onlar hələ mübahisə edərkən yeddi cüt qırğı görünmüş və bunlar iki cüt çalağanı qovaraq didib parçalamağa başlamışlar. Bu əlaməti görən farsların hamısı Daranın təklifini qəbul edərək, gələcəyi göstərən quşların peyda olmasından ruhlanıb, saraya getmişlər.

77. Yeddi (qəsdçi) (saray) qapılarına yaxınlaşanda məhz Daranın gözlədiyi şey olmuşdur. Keşikçilər nəcabətli farsları görəndə onların niyyətindən şübhələnməyərək hörmətlə içəriyə buraxmışlar. Onları allahlar özü aparmış və (gözətçilərdən) heç kim onlardan heç nə soruşmamışdır. Beləliklə, onlar həyətə girəndə şaha ərzlər çatdıran xacələr gələnləri görmüşlər. Xacələr qəsdçilərin nə istədiklərini soruşmağa başlamış və soruşa-soruşa onları içəri buraxan (qapı gözətçilərinə) söyüşlər yağdırmışlar. Xacələr buradan o yana getməyi onlara yasaq etmişlər. Qəsdçilər də bir-birinə işarə verərək xəncərlərini çəkib kim mane olursa, onu elə yerindəcə dəlmə-deşik edib, cəldliklə özlərini kişi otaqları tərəfə salmışlar.

78. Elə bu vaxt hər iki mağ sarayda oturub Preksaspın hərəkəti haqqında məşvərət edirmiş. Xacələrin hay-küyünü və qışqırığını eşidəndə geriyə sıçrayıb, işin nə yerdə olduğunu başa düşən kimi silaha əl atmışlar. Onların biri tələsik yayı ələ almış, o biri nizəni qapmış və əlbəyaxa çarpışma başlanmışdır. Əlində yay olan mağ oxu atmağa

downloaded from KitabYurdu.org

macal tapmamışdır, çünki qəsdçilər lap yaxınlaşıb onu sıxışdırmışlar. O biri mağ da nizə ilə müdafiə olunaraq Aspafini budundan, İntəfrəni gözündən yaralamışdır. İntəfrən gözünü itirsə də, bu yaradan ölməmişdir. O biri mağ isə götürdüyü yayın gərəksiz olduğunu görəndə kişi yataq otağına sığınıb qapını arxadan bağlamaya alışsa da, yeddi (qəsdçidən) ikisi-Dara ilə Qobri onun dalınca otağa soxulmuşdur. Qobri mağla tutaşmış, Dara da Qobriyə sədəmə toxundura biləcəyindən qorxaraq kənarda durub nə ödəcəyini kəsdirə bilməmişdir. Daranın bir iş görmədiyini sezən Qobri qışqırıb ki, o niyə zərbə vurmur. Dara da cavab verib: "Sənə sədəmə toxundurmaqdan qorxuram". Qobri buna etiraz edir: "İkimizi də xəncərlə vur!" Dara itaət edərək, xəncəri işə salmış və xoşbəxtlikdən mağı çapmışdır.

79. Qəsdçilər mağları öldürüb, başlarını kəsmişlər. Yaralanmış (yoldaşlarını) elə oradaca qoymuşlar, çünki bunlar həm çox zəifləmişdilər, həm də sarayı qorumaq üçün burada qalmaları lazım gəlirmiş. Qalan beş nəfər mağların başını götürüb, qışqıra-qışqıra və hay-küylə saraydan çıxmışlar. Sonra onlar başqa farsları da çağırıb, kəsilmiş başları göstərərək nələr baş verdiyini danışmışlar. Sonra da yol boyu əllərinə keçən mağları öldürməyə başlamışlar. Farslar yeddi nəfərin igidliyini və mağların yalanını eşidəndən sonra onlar da (qəsdçilərdən) geri qalmaq istəməmişlər: qılınclarını sıyırıb harda mağ tapılarsa, öldürməyə getmişlər; beləliklə, gecə düşməsəymiş, bir nəfər də mağ sağ qalmayacaqmış. Bütün farslar bu günü böyük bayram hesab edir və onu son dərəcə təntənəli keçirirlər. Bu bayram farslarda "mağlar qırğını" adlanır. O gün heç bir mağ küçəyə çıxa bilməz və onların hamısı öz evlərində oturur.

80. Həyəcan keçib gedəndən beş gün sonra qəsdçilər (gələcək) dövlət quruculuğu haqda məsləhətləşməyə başlamışlar. Doğrudur, onların söylədikləri nitqlər bəzi ellinlərə inanılmaz görünsə də, hər halda doğrudan da belə nitqlər söylənmişdir. Belə ki, Otan hakimiyyətin bütünlükdə fars xalqına verilməsi fikrini irəli sürmüşdür. O demişdir: "Mənim fikrimcə, ixtiyarı yenə də bir mütləq hakimin əlinə vermək lazım deyil. Bu, nə xoşa gələndir, nə də yaxşıdır. Siz Kambisin özbaşınalığının nə yerə çatdığını bilirsiniz, mağların təkəbbürünü də özünüz görmüsünüz. Hakimi-mütləq

downloaded from KitabYurdu.org

istədiyini edə bilərsə, səhmanlı bir dövləti necə yaratmaq olar? Doğrudan da, ən nəcib adamın özü belə bir hakimiyyətə çatarsa, çətin ki, o, əvvəlki qənaətlərinə sadiq qala bilsin. Onu bürüyən var-dövlət və dəbdəbədən hökmdarda bir təkəbbür əmələ gəlir. Mən hələ onsuz da insan təbiətinə xas olan həsəddən danışmıram. Hər kəsdə bu iki nöqsan (təkəbbür və həsəd) varsa, elə bunlar ona bəsdir. Bunlardan da çox-çox cinayətkarlıq törəyir: biri hədsiz özbaşınalıqdan, o biri yenə həsəddən. Əlbəttə, hökmdar gərək həsəddən uzaq olsun, belə ki, bir hökmdar kimi hər şey ona məxsusdur. Di gəl, mütləq hakim az təbiətinə görə itaətində olanlarla tamam əks (görüşlər) baxımından rəftar edir. Axı o, "daha yaxşı" adamlara yalnız sağ və salamat olduqları üçün həsəd aparır, axmaq vətəndaşları isə sevir. O, hər şeydən artıq böhtana qulaq asmağa meyl göstərir. Belə adamla yola getmək dünyada hər şeydən çətindir. (Onun) hərəkətlərini təmkinlə təqdir edən adamdan bərk qızır və onda özünə kifayət qədər hörmət görmür; yüksək dərəcədə hörmət gördüyü adamı da yaltaq hesab edib ondan narazı qalır. Mən indi mütləq hakimin ən pis işlərinə keçirəm. O, el adətləri və qanunlarını pozur, qadınları zorlayır, insanları məhkəməsiz edam etdirir. Xalq hakimiyyətinə gələndə isə o, elə özünün daşıdığı gözəl "isonomiya"11 adına görə bütün başqa hakimiyyətlərdən üstünlüyə malikdir. Bundan başqa, hakimi-mütləqin əl atdığı hər hansı özbaşınalığa xalq hakimiyyəti yol verməz. Axı xalq dövləti püşk atıb dövlət vəzifələrini bölüşdürmək yolu ilə idarə edir, bu vəzifələrin də məsuliyyəti var, bütün qərarlar isə xalq yığıncağından asılı olur. Beləliklə, mən təkhakimiyyətliyi məhv edib xalqı hakim etmək təklifi irəli sürürəm, çünki bütün xeyir-bərəkət ancaq xalq idarəçiliyindədir".

81. Otanın fikri belə idi. Mehabiz isə hakimiyyəti oliqarxiyaya verməyi təklif edib belə deyir: Otanın təkhakimiyyətliyi ləğv etmək haqqında dediklərini mən də təkrar edirəm. Amma onun ali hakimiyyəti xalqa vermək haqqında ikinci təklifinə gələndə, bu, heç də ən yaxşı məsləhət deyil. Doğrudan da, qara camaatın düşüncəsizliyindən və özbaşınalığından da yaramaz bir şey yoxdur. Ona görə də tiranın təkəbbüründən qurtarıb, cilovlanmamış qara camaatın hakimiyyəti altına düşməyə biz yol verə bilmərik. Axı, tiran heç olmasa, nə etdiyini bilir, xalq isə nə etdiyini də heç bilmir.

downloaded from KitabYurdu.org

Doğrudan da, xalq bilgili deyilsə, anadangəlmə heç bir rəşadəti yoxdursa, o vaxt onda ağıl haradan olsun? Xalq düşünmədən, (coşğun) yaz seli kimi mənasız və, ağılsızcasına hakimiyyətə can atır. Kim farslara pislik istəyirsə, xalq hakimiyyətini qoy o qiymətləndirsin! Biz isə ali hakimiyyəti yüksək əyanların sıx əhatəsinə alacayıq (özümüz də onların sıralarında olacayıq). Axı (dövlət işlərində,)12 daha yaxşı qərarlar "daha yaxşı" adamlardan törəyir.

82. Mehabizin mülahizəsi də belə idi. Öz fikrini bildirən üçüncü adam Dara olur və o da belə deyir: "Mənə elə gəlir ki, Mehabiz xalq haqqında doğru fikir söylədi; oliqarxiya haqda mənim görüşüm başqadır. Əgər seçmək üçün bizə hər biri kamil hesab edilən üç idarə forması, yəni kamil demokratiya, kamil oliqarxiya, kamil mütləqiyyət təklif olunursa, onda mənə elə gəlir ki, axırıncı daha artıq üstünlük qazanır. Axı, deyəsən, ən yaxşı hökmdarın tək hakimiyyətindən yaxşısı yoxdur. O, ən yaxşı niyyətlərə arxalanaraq xalqı qüsursuz idarə edər və belə idarə üsulu şəraitində düşmənə qarşı (çevrilən) qərarları da sirr, kimi saxlamaq daha asan olar. Əksinə, oliqarxiyada, hətta azlıq təşkil edən daha (yaxşı) adamlar cəmiyyətə xeyir gətirməyə çalışsalar da, adətən ayrı-ayrı adamlar arasında kəskin çəkişmələr başlayır. Axı, hər kəs birincilik qazanıb öz niyyətlərini (həyata) keçirməyə çalışır. Onların arasındakı qızğın düşmənçilikdən də hərc-mərclik əmələ gəlir, hərc-mərclik isə qan tökülməsinə bais olur. Qan tökmə mütləqiyyət hakimiyyətinə doğru aparır. Bundan da tamam aydın görünür ki, bu sonuncu idarə üsulu ən yaxşısıdır. Demokratiya üsulu zamanı, hər halda, nöqsanlardan qaçmaq mümkün deyil, bəlkə əksinə, alçaqlıq və rəzalət ictimai işlərə yol tapır ki, bu da rəzil adamlar arasında düşmənçiliyə deyil, tərsinə, onların möhkəm dostluq əlaqələrinin yaranmasına səbəb olur. Axı, bu cəmiyyət ziyankarları (qəsdlər düzəldərək) əlbir hərəkət edirlər. Bir xalq rəhbəri onları sıradan çıxardana qədər iş beləcə davam edir. Tutduğu belə işə görə xalq bu adama həyan çıxır, sonra da şöhrət qazanan belə (rəhbər) tezliklə hakimi-mütləq olur. Buradan da bir daha aydın görünür ki, təkhakimiyyətlik ən yaxşı idarədir. Nəhayət, bir sözlə: biz farsların azadlığı haradandır? Bu azadlığı bizə kim bəxş etmişdir? Xalq, yaxşı adamlar, yoxsa hakimi-mütləq? Mənim fikrimcə, bizə azadlıq bəxş edən hakimi-

downloaded from KitabYurdu.org

mütləq olmuşsa, onda gərək bu (idarə şəklindən) möhkəm yapışaq və ümumən əcdadımızın yaxşı adətlərini pozmayaq, çünki burada yaxşı bir şey yoxdur".13

83. Bu üç mülahizə belə olmuşdur. Yeddi nəfərin qalan dördü Daranın mülahizəsinə tərəfdar çıxır. Farslara demokratiya gətirməyə çalışan Otan özünün mülahizəsinin rədd edildiyini başa düşüb, yığıncağa toplaşanlara belə deyir: "Dostlar! Demək, birimizin hökmdar olması qərarlaşdırıldı. O, fars xalqının püşk atması əsasındamı seçiləcək, yoxsa başqa bir yolla - hər halda, mən sizinlə rəqabət aparmayacağam. Nə özümün hakimiyyət başına keçməyimi, nə özgəsinin tabeliyində olmağımı istəyirəm, mən taxta çıxmaqdan bu şərtlə imtina edirəm ki, nə özüm, nə də mənim nəsillərim heç vaxt sizin heç birinizə tabe olmasın". Belə sözlərdən sonra altı nəfər onun xahişi ilə razılaşır. Otan şahlıqdan boyun qaçırır və hakimiyyət uğrunda mübarizədən kənara çəkilir. Onun evi indi də Parsada şahdan asılı olmayan yeganə evdir (amma o, öz istəyi ilə şah hakimiyyətinə tabeçilik göstərir), ancaq gərək fars qanunlarını pozmasın.

84. Qalan altı nəfər (fars) daha ədalətli yolla şah qoyulması üçün necə hərəkət etmək barədə məsləhətləşməyə başlayırlar. Hər şeydən əvvəl, belə qərara gəlirlər: onlardan biri şah seçilsə, o, hər il Otana və onun bütün nəslinə ən yaxşı Midiya paltarı ənam verməli və Parsada dəbdə olan ən layiqli başqa hədiyyələr (göndərməlidir). Otana bu hədiyyələri ənam verməyi ona görə qərarlaşdırırlar ki, üsyan fikrinə ilk dəfə düşən və onların (hamısını) qəsdə cəlb edən Otan olmuşdu. Otana verilən xüsusi üstünlüklər bundan ibarət idi. Yeddi nəfərin hamısı üçün belə qərar da müəyyənləşdirilir ki, şah arvadı ilə yatdığı vaxtdan başqa, bunlar nə vaxt istəsələr icazə almadan şah sarayına gedib-gəlsinlər. Sonra, şah ancaq bu qəsdçilərin ailəsindən evlənsin. Şahlığa keçmək haqda da belə şərtləşirlər: gün yenicə doğarkən onlar şəhər darvazalarından çıxanda kimin atı birinci kişnəsə, o, şah olsun.

85. Daranın Ebar adında fərasətli gənc mehtəri varmış. Dara yığıncaqdan sonra bu oğlana belə deyir: "Ebar, bax, şahlığa keçmək haqqında belə şərtləşmişik. Gün doğarkən biz yola düşəndə kimin atı birinci kişnəsə, o adam şah olacaqdır. Əlindən

downloaded from KitabYurdu.org

bir iş gəlirsə elə et ki, (fars taxtını) özgəsi yox, mən özüm ələ keçirim. Ebar belə cavab verir: "Ağa! Sənin şah olub-olmamağın bundan asılıdırsa, onda kefini pozma və narahat olma, bil ki, səndən qabaq heç kəs şah olmayacağ. Bunun çarəsi məndədir". Dara da ona deyir: "Yaxşı, doğrudan da bir kələk bilirsənsə onda tələs, vaxt itirmə; axı, sabah (ertədən) bizim işimiz həll olunmalıdır". Bunu eşidən Ebar gör nə edir: gecə düşəndə Daranın ayğırının daha çox istədiyi madyanlardan birini darvazanın arxasına keçirib, orada bərk bağlayır, sonra ayğırı onun yanına gətirir. Ayğırı madyanın yanında xeyli dolandırıb sonra madyanı sürdürür.

86. Altı ər, şərtləşdikləri kimi, dan yeri söküləndə atlanır. Onlar darvazadan çıxıb ötən gecə madyanın bağlandığı yerə yaxınlaşanda Daranın atı qabağa sıçrayıb kişnəyir. Həmin anda açıq səmada şimşək çaxıb, ildırım gurultusu qopur. Bu gözlənilməz əlamət, sanki əvvəlcədən şərtləşdirilmiş kimi Daranın şahlığı üçün xəbərdarlıq olur. Onda o biri atlılar atdan enib Daranın ayaqlarına düşür və bir şah kimi ona baş əyirlər.

87. Bax, bir məlumata görə (Daranın şah seçilməsini) Ebar qurmuşdur. Lakin başqa məlumat da vardır (axı, farslar bu hadisə haqda iki cür danışırlar). Guya həmin Ebar əlini madyanın ətənəsinə salıb sonra əlini şalvarının cibinə dürtübmüş. Dan sökülən zaman atlar yerindən tərpənəndə Ebar əlini çibindən çıxarıb Daranın atının burnuna tutmuş, o da madyanın iyini alıb fınxıraraq kişnəmişdir.

88. Güştəspin oğlu Dara beləcə şah elan olunur.14 Ərəblər istisna olmaqla, əvvəlcə Kuruşun, sonra ikinci dəfə Kambisin istila etdiyi bütün Asiya xalqları onun tabeliyində qalır. Ərəblər heç vaxt farsların əsarəti altına düşməmişlər. Onlar, Kambisi öz ölkələrindən Misirə keçirəndən sonra farslarla dost olmuşdular. Dara ən əsil-nəcabətli fars qızlarına evlənmişdir. Əvvəlcə Kuruşun iki qızını - Atossa və Artistonanı almışdır. (Atossa əvvəllər öz qardaşı Kambisin, sonra da mağın arvadı olmuşdu. Artistona isə hələ qız imiş). Sonra Kuruş oğlu Smerdisin Pərmis adlı qızına, nəhayət, Otanın mağ yalanını açan qızına evlənmişdir. Daranın qüdrətinin hüdudu yoxmuş. O, hər şeydən əvvəl, daş üstündə bir atlının qabartma əksini

downloaded from KitabYurdu.org

yonmağı və altında bu sözləri yazmağı buyurur: "Güştəsp oğlu Dara fars şahlığını öz atının (atın adı çəkilir) rəşadəti və mehtəri Ebar sayəsində əldə etmişdir".

89. Bunu etdikdən sonra Dara fars dövlətini əyalətə (mahala) bölür ki, farslarda buna satraplıq deyilir. Bu mahalları təsis edib, oralara hakimlər qoyan şah qəbilələr üzrə vergi müəyyənləşdirir. Bir çox qonşu xalqlar bir satraplıqda birləşdirilmiş, bəzən yaxın qonşulardan əlavə, onlardan daha uzaq olan başqa satraplığın xalqları da həmin satraplıqda birləşdirilirdi. Satraplığın bölgüsü və vergilərin toplanması bu cür aparılmışdır: vergiləri gümüşlə ödəyənlər üçün şah Babil talantı çəkisi ilə, vergiləri qızılla ödəyənlər üçün Yevbeya çəkisi ilə ödəməyi müəyyənləşdirmişdir. Babil talantının çəkisi 78 Yevbeya minasına bərabərdir. Kuruşun və Kambisin şahlığı dövründə heç bir müəyyən vergi qoyulmamışdır, ancaq könüllü hədiyyələr verilirdi. Bu vergilərin qoyulmasına və buna bənzər başqa tədbirlərə görə Parsada Daraya alverçi Kambisə - hökmdar, Kuruşa - ata deyiblər, çünki Dara özünün bütün hökmdarlığını alverçilik üzərində qurub; Kambisə ona görə hökmdar deyiblər ki, o, qəddar və təkəbbürlü olmuşdur, Kuruşa da ona görə ata deyiblər ki, mərhəmətli olmuşdur. Farslar əldə etdikləri bütün nemətlərə görə ona borcludurlar.

90. Asiya maqnetlərindən, eolilərdən, kariyalılardan, likiyalılardan, mililərdən və pamfiliyalılardan ibarət olan ionların (hamısı üçün vahid vergi qoyulduğu üçün) onlardan 400 talant gümüş gəlirdi. Bura şahın müəyyənləşdirdiyi birinci bölgədir. Misiyalılardan, lidiyalılardan, lasonilərdən, kabalilərdən və hitennalılardan 500 talant (gəlirdi). Bura ikinci dairədir. Dəniz girəcəyinin sağ tərəfindəki hellespontlulardan, sonra frigiyalılardan, Asiya frakiyalılarından, paflaqonlulardan, mariandinlərdən və suriyalılardan daxil olan vergi və xərac 360 talant təşkil edirdi. Bura üçüncü dairədir. Kilikiyadan (ilin hər günü üçün bir at hesabı ilə) 360 ağ at gətirilmiş, 500 talant gümüş ödənilmişdir. Bu talantların 140-ı Kilikiyanı qoruyan süvarilərin saxlanmasına xərclənmiş 360-ı da Daraya çatmışdır. Bura dördüncü dairədir.

91. Amfiaray oğlu Amfiloxun Kilikiya ilə Suriya arasında binasını qoyduğu Posidey şəhərindən Misirə qədər, vergidən azad edilmiş Ərəbistan torpağı istisna

downloaded from KitabYurdu.org

olmaqla, bütün qalan bölgələr 350 talant vergi verməli idi. Bu dairəyə Fələstin Suriyası deyilən bütün Finikiya və Kipr daxildir. Bura beşinci dairədir. Misirdən və bir hissəsi Misir dairəsinə qatılmış Liviyadan, Kirenadan və Bərkadan 700 talant alınırdı, Merid gölündən tutmuş balıqdan əldə edilən gəlir bu hesaba daxil edilmirdi. Belə ki, bu pullardan başqa həmin dairədən gələn taxıl vergisi hesabına 700 talant alınırdı. Axı, Memfisdəki Ağ qalanı tutmuş olan farslar və muzdlu qoşunlar üçün 120 000 medimn taxıl gətirilirdi. Bura altıncı dairədir. Sattagidlərlə qandarilər, dadiklər və aparitlər birlikdə 170 talant ödəyirdilər. Bura yeddinci dairədir. Susdan və qalan Kissiyadan 300 talant gəlirdi. Bura səkkizinci dairədir.

92. Babil və Assuriyanın qalan hissəsi 1000 talant gümüş verir, 500 axtalanmış uşaq göndərirdi. Bura doqquzuncu dairədir. Akbatana və Midiyanın qalan hissəsi, parikanlar, ortokoribanlar 450 talant ödəyirdilər. Bura onuncu dairədir. Kaspilər, pavsiklər, pantimaflar və daritlər birlikdə 200 talant verirdilər. Bura on birinci dairədir. Baktriyalılardan eqllərə qədər olan xalqlar 300 talant vergi verirdilər. Bura on ikinci dairədir.

93. Paktikadan, Ərməndən və Evksin Pontuna qədər olan qonşu sahələrdən 400 talant gəlirdi. Bura on üçüncü dairədir Saqartilər, saranqlar, famaneylər, utilər, miklər, Qırmızı dəniz adalarının sakinləri və şahın orada yerləşdirdiyi köçkünlər adlanan xalqların hamısı birlikdə 600 talant verirdilər. Bura on dördüncü dairədir. Sakalar və kaspilər 250 talant ödəyirdilər. Bura on beşinci dairədir. Parfiyalılar, xarəzmilər, soğdilər və arilər 300 talant verirdilər. Bura on altıncı dairədir.

94. Parikanlar və Asiya efiopları 400 talant verirdilər. Bura on yeddinci dairədir. Matienlərə, saspirlərə və alarodlara 200 talant vergi qoyulmuşdu. Bura on səkkizinci dairədir. Mosxlara, tibarenlərə, makronlara, mossiniklərə və marlara əmr olunmuşdu ki, 300 talant vergi ödəsinlər. Bura on doqquzuncu dairədir. Hindlilərə gələndə, onlar tanıdığımız bütün xalqlardan daha çox olduqlarına görə, başqaları ilə müqayisədə daha artıq vergi, məhz 360 talant qızıl qumu verməli idilər. Bura iyirminci dairədir.

downloaded from KitabYurdu.org

95. Babilin gümüş talantını Yevbeya talantına çevirəndə onun çəkisi 9880 talant edir; qızılın gümüşə tənasübü 1-in 3-ə nisbəti kimi qəbul edilsə, onda qızıl qumunun qiyməti 4680 Yevbeya talantına bərabər olur. Beləliklə, Daranın illik vergi gəliri 14560 Yevbeya talantı təşkil edir. Bununla belə, mən daha xırda gəlirləri hesaba almıram.

96. Bu vergi Daraya Asiyadan və Liviya (ölkələrinin) kiçik hissəsindən gəlirdi. Sonralar ellin adalarından və fessaliyalılara qədər Avropa xalqlarından da vergi gətirməyə başladılar. Şah özünün bu xəzinələrini isə bax belə saxlayırmış. O, metalı əridib gil qablara tökməyi əmr edibmiş. Qab dolanda onu sındırırmışlar. Hər dəfə lazım olanda şah istənilən qədər qızıl kəsib götürməyi buyururmuş.

97. Bu dairələr və yığılan vergilərin həcmi belə olmuşdur. Mən vergi qoyulmuş torpaqlar içərisində bircə Parsa torpağının adını çəkmədim, çünki farslar vergilərdən azad ölkədə yaşayırlar. Amma elə xalqlar da var ki, onlar vergi ödəməsələr də hədiyyələr göndərirlər. Bunlardan biri Misirlə həmsərhəd olan efioplardır (Kambis onları uzunömürlü efiopların üstünə yürüşə gedəndə istila etmişdi); biri də müqəddəs Nisa sahəsində yaşayıb, Dionisin şərəfinə məlum bayram keçirənlərdir. Bu efioplar və onlarla qonşu olan xalqlar Hindistandakı kallatilərlə bir mənşədəndirlər; onlar yeraltı daxmalarda yaşayırlar. Bu iki efiop tayfası üç ildən bir şaha hədiyyə gətirib 2 xenik xalis qızıl, 200 abnos ağacı gövdəsi, 5 efiop oğlan uşağı və 20 dənə böyük fil dişi gətirirlər (və bunu zəmanəmizə qədər davam etdirirlər). Hətta, kolxlar və onların Qafqaz silsiləsinə qədər olan qonşuları da öz üzərlərinə könüllü hədiyyələr şəklində vergilər (xərac) götürürlər (axı, fars səltənəti bu yerlərə qədər gəlib çatır, Qafqazdan şimala doğru ərazi daha farslara tabe deyildir). Bax, bu xalqlar hələ indi də şaha 100 oğlan və 100 qız uşağı göndərirlər. Nəhayət, ərəblər ildə 1000 talant buxur göndərirlər. Onlar bu hədiyyəni şaha vergidən əlavə göndərirlər.

98. Bir hissəsini hindlilərin xatırlatdığımız qızıl qumu halında şaha göndərdikləri bu böyük miqdarda da qızılı belə bir üsulla əldə edirlər: Hind torpağının şərqində qumlu səhra var. Axı, gündoğanda bizə məlum olan bütün Asiya xalqları içərisində

downloaded from KitabYurdu.org

hindlilər haqqında bizim az-çox müəyyən məlumatımız olan ilk xalqdır. Hindistandan şərqə doğru qumluqlar və səhra uzanıb getdiyi üçün oralar haqda heç bir məlumat yoxdur, Hindistanda ayrı-ayrı dillərdə danışan çoxlu müxtəlif tayfalar var. Onların bir qismi köçəri, bir qismi isə oturaqdır. Bəziləri hind çayının bataqlıq deltasında yaşayıb, özlərinin bambuq qayıqları ilə tutduqları çiy balıqla dolanırlar. (Qayıq bütünlükdə bambuqun bircə buğumundan qayrılır). Bu hind tayfaları qamış (lifindən) paltar geyirlər. Çaydan qamış kəsib onu zolaq zolaq edir, sonra həsirsayağı hörür və onu zireh kimi əyinlərinə geyirlər.

99. Bunlardan şərqə doğru çiy ətlə dolanan köçəri hind tayfaları yaşayırlar. Onlar pardeyalar adlanırlar. Deyilənlərə görə onların adətləri belədir: hər hansı bir kişi və ya arvad xəstələnəndə, kişidirsə, onu yaxın dostları olan kişilər öldürürlər. Axı, onların dediyinə görə, xəstəyə əzab verən azar onun dostlarına qismət olacaq ətini xarab edir. Azarlı xəstəlikdən əzab çəkmədiyinə inandırmağa çalışır. Dostları isə xəstənin sözünə məhəl qoymayıb onu öldürür və sonra cəmdəyini yeyirlər. Qadın xəstələnəndə isə onun yaxın qadın qohumları kişilərin gördüyü işi yerinə yetirirlər. Qocalara gələndə, onları təntənəli şəkildə kəsib (allaha) qurban (gətirirlər) və sonra yeyirlər. Bununla belə, tək-tək adam qoca yaşlarına qədər yaşaya bilir, çünki hər hansı bir azardan əzab çəkəni qocalmamış öldürürlər.

100. Elə hind tayfaları da var ki, onlar başqa adətlərə riayət edirlər, məhz belə adətlərə: onlar heç bir canlını öldürmürlər, zəmilərdə işləmirlər; onların mənzilləri də yoxdur, ancaq otla dolanırlar. Onların ölkəsində bir cır bitki göyərir, onun çınqılları darı dənələri boyda olur. Onlar bu dənələri qabıqlı-qabıqlı dərib bişirir və yeyirlər. Onlardan biri xəstəliyə tutulduqda, çölə çəkilib orada uzanır. Bundan sonra heç kəs nə ölənə, nə əzab çəkənə qayğı göstərmir.

101. Adı çəkilən bütün hind tayfalarında cinsi əlaqələr heyvanlarda olduğu kimi açıq-aşkardır. Onların hamısının dərisinin rəngi eynidir, yəni efioplarda olduğu kimidir. Eləcə də, qadını mayalandırdıqları nütfə (toxum) başqa xalqlarda olduğu kimi ağ deyil, dərilərinin rənginə uyğun olaraq qaradır. Efiopların da nüftəsi bu cür

downloaded from KitabYurdu.org

(qaradır). Bu hind tayfaları farslardan daha cənub tərəflərdə yaşayırlar və heç vaxt Daraya tabe olmamışlar.

102. Bunun əksinə, başqa hind tayfaları Paktika bölgələrinin yaxınlığında və onun baş şəhəri Kaspatirdə, digər hindlilərdən daha şimalda yaşayırlar. Həyat tərzlərinə görə onlar baktriyalılara yaxındırlar. Onlar ən cəngavər hind tayfalarıdır, özləri də qızıl çıxara bilirlər. Onların torpağında qumlu səhra var ki, orada təxminən it boyda, amma tülküdən balaca qarışqalar olur. Ov zamanı tutulmuş belə qarışqalardan bir neçəsi fars şahında vardır. Bu qarışqalar yerdə özlərinə yuva oyurlar və qumu bayıra atırlar. Elladadakı qarışqalar da belə edirlər və bunların ikisi də görkəminə görə bir-birinə oxşayır. Amma hind qarışqalarının qazdıqları qum qızıllı qumdur, bundan ötəri də hindlilər səhraya gedirlər. Hər bir hindli bu məqsədlə uç dəvə qoşur, ortada dişi dəvə, qıraqlarda nərlər çapırlar. Hindlilər, təzəcə doğmuş sakit dəvə seçərək ona minirlər. Onların dəvələri sürətdə atdan geri qalmırlar, bundan başqa, daha ağır yük götürə bilirlər.

103. Mən dəvənin görkəmini təsvir etməyəcəyəm, çünki dəvə Elladada məlumdur. Ancaq onların dəvə haqqında bilmədiklərini deyəcəyəm. Dəvənin dal ayaqlarının dörd bud əzələsi və dörd oynaqı olur, dal budlarının arasındakı tənasül orqanı quyruğa doğru çevrilmişdir.

104. Hindlilər belə dəvə qoşqusu ilə qızıl dalınca gedəndə, səhraya ən isti vaxtda gedib çatmağı nəzərdə tuturlar ki, qızılı oğurlaya bilsinlər. Axı, qarışqalar ən isti vaxt Günəşdən daldalanmaq üçün yerin altına çəkilirlər, Gün başqa ölkələrdə günorta çağı isti olduğu halda, bu ölkələrdə səhərlər daha isti olur. Bizdə günortaya yaxın, bazar sovuşanda, onlarda gün artıq göyə yüksəlmiş olur. Məhz elə bu vaxt orada gün daha yandırıcıdır, nəinki Elladada günorta çağı; bu səbəbdən də deyilənlərə görə, adamlar bu vaxt çimməklə sərinlənməlidirlər. Hindistanda gün günorta yerinə gələndə elə başqa ölkələrdəki qədər bərk yandırır, günortadan sonrakı günəş bizdə səhər çağındakı kimi parlaq şəfəq saçır. Sonra getdikcə soyuyur və gün batan zaman tamam soyuq olur.

downloaded from KitabYurdu.org

105. Hindlilər getdikləri yerə çatar-çatmaz dərhal götürdükləri kisələri (qızıl qumla) doldurub mümkün qədər tez-tələsik geri qayıdırlar. Farsların dediklərinə görə qarışqalar onların iyini alan kimi dərhal dallarınca düşürlər. Axı, qaçanda heç bir heyvan bunlara çata bilməz. Hindlilər (qarışqalar bir yerə yığılana qədər) onlardan uzaqlaşmasalar, heç kəs onlardan salamat qurtara bilməz. Bəli, hindlilər (dişi dəvəyə nisbətən yavaş qaçıb tez yorulan) nərlərdən (əvvəlcə birini, sonra da o birini) açıb qarışqalara yem olmaq üçün yolda qoyurlar. Dişi dəvələr isə qoyub gəldikləri köşəklərini yada salıb yorulmaq bilmədən çapırlar. Farsların dediklərinə görə, hindlilər qızılın bir hissəsini bu yolla əldə edir, bundan xeyli az hissəsini də qazıb yerdən çıxarırlar.

106. Taleyin hökmünə görə, bu yaşayış bölgələrinin ətrafına təbiətin ən nadir və ən qiymətli nemətləri bəxş olunmuşdur. Elladada isə bunun əvəzində ən mülayim (bərəkətli) iqlimə malikdir. Dediyim kimi, şərqdə ən uzaq ölkə Hindistandır. Hindistanda təkcə dörd ayaqlı heyvanlar deyil, quşlar da başqa ölkələrdəkinə nisbətən xeyli böyükdürlər: burada təkcə atlar balacadırlar (onlar Nisey atları deyilən Midiya atlarından kiçikdirlər). Amma orada yerdən qazılıb çıxarılan, qismən çayların gətirdiyi, ya da təsvir etdiyim üsulla əldə edilən tükənməz miqdarda qızıl da var. Burada yabanı ağacların meyvələri elə yun verir ki, öz gözəlliyinə və davamlılığına görə qoyun yunundan yüksək olur. Hindlilərin paltarı bu ağac yunundan hazırlanır.

107. Cənubda isə məskunlaşmış ölkələr içərisində ən qıraq ölkə Ərəbistandır. Buxur, ətirli qətran, səna və darçın Ərəbistandan başqa heç bir torpaqda bitmir. Ərəblər qətran ətirindən başqa, qalan bütün ətirləri çətinliklə əldə edirlər. Belə ki, onlar finikiyalıların Elladaya apardıqları buxuru stirak yandırmaqla əldə edirlər. Axı, buxur hasil edilən ağacları qanadlı ilanlar qoruyurlar. Bu ilanlar balaca və alabəzək olub, çoxlu sayda ağacların dibinə sığınırlar. Həmin bu ilanlar Misirə də hücum edirlər. Stirak yandırmayınca onları ağacların yanından heç vəchlə qovmaq mümkün deyil.

downloaded from KitabYurdu.org

108. Ərəblər hətta itrar edirlər ki, gürzələrin başına gələnlər bu qanadlı ilanlara da üz verməsəydi, dünya həmin ilanlarla dolardı. Allahın işinə bir bax, öz müdrikliyi ilə təbii olaraq, qorxaq və yeməyə yararlı heyvanların çoxbalalı növlərini yaratmışdır ki, biz yemək sarıdan qıtlıq çəkməyək; yırtıcı və ziyanverici heyvanları isə az balalayan yaratmışdır. Bax, dovşanı hamı- insanlar da, heyvanlar da, quşlar da ovlayır, buna görə dovşan çox balalayandır. Bu, yeganə heyvandır ki, bir döl tutandan sonra (dərhal) ikinci döl tutur. Buna görə onun bir balası ana bətnində tüklənəndə o biri hələ tüksüz olur, üçüncü döl yenicə əmələ gəlir, ana dovşan isə dördüncü dölü tutmağa başlayır. Bu, belə heyvandır. Əksinə, ən güclü və azğın yırtıcı olan dişi aslan ömründə bircə bala doğur. Axı, doğum zamanı o, balası ilə bərabər balalığını da salır. Onun səbəbi də budur: bala balalıqda tərpənməyə başlayanda, başqa heyvanların hamısının caynağına nisbətən daha iti olan caynaqları ilə balalığı didməyə başlayır, böyüdükcə balalığı daha çox didir. Doğum başlayanda balalıq tam pozulur.

109. Eyni ilə gürzələr də, Ərəbistanın qanadlı ilanları da özlərinin ilan təbiətinə xas olan tərzdə doğulsaydılar, onda insan dünyada yaşaya bilməzdi. Amma, elə ki, gürzələr cütləşirlər və erkək toxum salmaq üzrə olur, onda dişi ilan erkəyin boynundan yapışıb gəmirməyincə buraxmır. Beləliklə, erkək ölür, dişi ilan da bu hərəkətinin əzabını çəkməli olur, belə ki, balaları hələ bətndə ikən atalarının intiqamını alırlar: azadlığa çıxmaq üçün analarının bətnini gəmirib özlərinə yol açırlar. İnsan üçün təhlükəli olmayan başqa ilanlar isə yumurtlayır və çoxlu bala çıxarırlar. Gürzələr yer üzünün hər tərəfində olur, halbuki qanadlı ilanlara çoxlu halda Ərəbistandan başqa heç yerdə təsadüf edilmir, ona görə də ərəblər elə fikirləşirlər ki, bu ilanlar son dərəcə çoxdur.

110. Ərəblər buxuru bax, bu cür əldə edirlər. Səna ətirini isə belə əldə edirlər: onlar gözlərindən başqa bütün bədənlərini cöngə gönü ilə və müxtəlif dərilərlə örtüb sonra bu vəziyyətdə səna yığmağa gedirlər. Doğrudur, bitki dayaz göldə və onun qırağında bitir, amma həmin göldə yarasaya oxşayan qanadlı həşərat olur. Onlar bərk səs çıxarıb cəsarətlə adamlara hücum edirlər. Ərəblər bunları qovaraq gözlərini qorumalı olurlar və bu yolla səna dərirlər.

downloaded from KitabYurdu.org

111. Ərəblər darçını daha qəribə bir üsulla yığırlar. Onun harada bitdiyini, hansı ölkədə əmələ gəldiyini onlar özləri də bilmirlər. Bəziləri təsdiq edirlər (görünür, onlar haqlıdırlar) ki, darçın Dionisin tərbiyə edildiyi diyarda bitir. Onların söylədiyinə görə, bizdə Finikiya adı ilə "kinamomon" adlanan bu quru qabıq parçalarını böyük quşlar gətirirlər. Bax, ərəblər bu qabıqları əldə etmək üçün belə vasitə fikirləşmişlər. Ölmüş öküzlərin, eşşəklərin və başqa yük heyvanlarının cəmdəyini iri-iri parçalayaraq həmin dağ uçurumları tərəfə gətirirlər. Əti yuvalara yaxın yerlərə töküb çəkilirlər. Quşlar uçub ət parçalarını yuvalarına aparırlar. Yuvalar da ağırlığa tab gətirməyərək uçub dağılır və yerə tökülür. Onda ərəblər buraya qayıdıb qabıqları yığırlar. Sonra həmin yolla yığılmış darçını bu ərəb ölkəsindən başqa ölkələrə aparırlar.

112. Ərəblər buxur adlanan ladanı daha qəribə bir üsulla əldə edirlər. O ən üfunətli bir yerdən törəsə də, ən ətir saçan maddədir. Buxur təkələrin saqqalında olub ağaclardakı qətran kimi əmələ gəlir. Onu bir çox xoşətirli sürtkü yağları, ərəblər isə, əsasən, ətirli tüstü almaq üçün işlədirlər.

113. Ətirlər haqda kifayət qədər deyildi: bütün Ərəbistan torpağı ilahi ətir saçır. Orada elə heyrətamiz qoyun cinsi var ki, ona özgə heç yerdə rast gəlməzsən. Bu cinslərdən birinin quyruğunun uzunluğu 3 dirsəkdən az deyil. Bu qoyunların quyruğunun yerlə sürünməsinə imkan verilsə, onda quyruq sürtünmədən didik-didik olar. Amma oradakı çobanların hamısının əlindən dülkərlik gəldiyinə görə kiçik arabacıqlar düzəldib onları: qoyunun quyruğunun altına bağlayırlar. Beləliklə, hər qoyunun quyruğunun altına belə bir arabacıq bağlanır. Başqa bir qoyun cinsinin quyruğunun eni hətta bir dirsəyə çatır.

114. Cənub-qərbdə Efiopiya yer üzündə məskunlaşmış ən qıraq ölkədir. Bura qızılla ən zəngin olan diyardır. Orada böyük fillər, hər cür cır meyvə ağacları, eləcə də abnos ağacı var. Orada adamlar çox ucaboylu, gözəl və uzunömürlüdürlər.

downloaded from KitabYurdu.org

115. Bəli, bunlar Asiya və Liviyanın ən uzaq ölkələridir. Avropanın ən uzaq ölkələrinə, məhz qərbdəki ölkələrə gələndə mən onların haqqında heç bir müəyyən məlumat verə bilmirəm. Axı, mən barbarlarda Eridan adlanıb Şimal dənizinə tökülən bir çayın (deyilənə görə oradan kəhrəba gətirilir) olduğuna inanmıram. Mən, eləcə bizə qalay gətirildiyi Kassiterida deyilən adaların doğrudan da mövcud olması haqda heç nə bilmirəm. Axı, məlum olur ki, Eridan sözünün özü barbar sözü deyil, ellin sözüdür və hansısa bir şair tərəfindən uydurulmuşdur O biri tərəfdən, bütün cəhdlərimə baxmayaraq, bunları öz gözü ilə görmüş bir adam tapmadım ki, Avropanın şimalında olan bu dəniz haqda ondan bir şey öyrənim. Bununla belə, bu doğrudur ki, qalayı və kəhrabanı ən uzaq ölkələrdən gətirirlər.

116. Avropanın şimalında, görünür, çoxlu qızıl vardır. Amma onun necə əldə edildiyini də yəqinliklə deyə bilmərəm. Əfsanəyə görə onu Arimasp adlanan taygöz adamlar qriflərdən oğurlayırlar. Amma, mən ümumən bütün digər təbii əlamətləri başqa insanlardakı kimi olan anadangəlmə taygöz adamların mövcudluğuna inanmıram. Hər halda, başqa torpaqları da əhatə edən bu ucqar ölkələr, bizdə çox qiymətli və nadir sayılan məhsul sarıdan güman ki, boldur.

117. Asiyada hər tərəfi dağ silsiləsi ilə əhatə olunmuş bir düzənlik, silsilənin də beş dərəsi var.15 Həmin düzənlik vaxtı ilə xorasmilərə məxsus olmuşdur. O, xorasmilərin, girkanların, parfiyalıların, saranqların və famaneylərin torpaqları sərhəddində yerləşir. Bunlar fars hökmranlığı dövründən fars şahına tabedirlər. Düzənliyi əhatə edən dağlardan Akes deyilən böyük bir çay axır. Beş qola ayrılan bu çaydan əvvəllər adları çəkilən xalqların torpaqları suvarılırmış, belə ki, çayın hər qolu bir vadidən axıb gedirmiş. Amma farslara tabe olan vaxtdan etibarən bu xalqlar belə bir vəziyyətə düşmüşlər; şah dağ dərəsini bağlayıb hərəsinə bir bənd qoymağı əmr etmişdir. Ona görə də su (dərədən) axıb keçə bilməmiş və dağlarla əhatə olunan düzənlik gölə çevrilmişdir, çünki düzənliyə axan çayın başqa bir yerdən çıxarı olmamışdır. Beləliklə, bu sudan əvvəllər suvarma üçün istifadə edən qəbilələr dəhşətli məhrumiyyətlərə dözməli olmuşlar. Qışda, əlbəttə, allah başqa yerlərdə olduğu kimi orada da yağış yağdırır, yay gələndə isə onların əkdikləri darı və küncüd

downloaded from KitabYurdu.org

daim suya möhtac olur. Elə ki, su tamam quruyur, onda qəbilə kişiləri arvadları ilə birlikdə Parsaya gedərək şah sarayının darvazası qabağında dayanıb ucadan və yanıqlı fəryad qoparırlar. Şah da iltimasa gələnlərin hədsiz ehtiyaclarını görüb onların ölkəsinə axan çayın: bəndini açmağı əmr edir. Torpaq doyunca su içəndən sonra şah bəndi yenidən bağlayıb bu qəbilələrdən sonra suya daha çox ehtiyacı olan başqa xalqların torpağına su buraxmağı əmr edir. Bununla belə, mən öyrəndim ki, şah bəndlərin açılması üçün (vergilərdən əlavə) böyük məbləğdə pul alır. Bu işlər bax, belədir.

118. Mağı taxtdan salan həmin farsların içərisində İntəfrən deyilən bir nəfər də varmış ki, üsyandan sonra işlədiyi cinayətə görə dərhal edam edilmişdir. O, şah sarayına daxil olub onunla nə barədəsə danışmaq istəyirmiş. Doğrudan da, şah əndərunda arvadı ilə yatmırsa, qəsdçilərin onun yanına icazəsiz getməsi haqqında qərarları olmuşdu. Ona görə də, İntəfrən bir nəfəri icazə üçün göndərməyi lazım bilməyib, yeddilərdən; biri kimi birbaşa şahın hüzuruna getmək istəmişdir. Qapı gözətçiləri və xəbər gətirən şahın əndərunda olduğunu deyib onu buraxmaq istəməmişlər. İntəfrən onların yalan danışdıqlarını düşünüb belə etmişdir: O, qılıncını sıyırıb onların qulaqlarını və burnunu kəsib atın cilovuna taxmış, sonra da cilovu onların boynuna dolayaraq bu görkəmdə buraxmışdır.

119. Şikəst olmuş xidmətçilər şahın hüzuruna gəlib məruz qaldıqları təcavüzün səbəbini ona danışmışlar. Dara bu işin altı nəfərin razılığı ilə görülə biləcəyindən şübhələnərək buyurub ki, onların hər birini ayrılıqda hüzuruna çağırsınlar. O, əsilzadələrin belə bir işi bəyənib-bəyənmədiklərini soruşub öyrənmək istəmişdir. Dara İntəfrənin bu altı nəfərin razılığı olmadan, özbaşına belə hərəkət etdiyini başa düşəndə, İntəfrənin öz qohumları ilə birlikdə ona qarşı qiyam fikrinə düşdüyünə möhkəm inanaraq, onu oğulları və bütün qohumları ilə birlikdə tutmağı əmr etmişdir. Tutdurandan sonra isə onların edama məhkum olunmuş adamların saxlandığı zindana atılmasını buyurmuşdur. İntəfrənin arvadı saray qapısına gəlib ağlamağa və şikayətlənməyə başlayır. O, ağlamağa ara vermədiyinə görə axırda Daranın ona yazığı gəlir və bu sözləri ona çatdırmaq üçün adam göndərir: "Ey qadın! Şah Dara

downloaded from KitabYurdu.org

qohumlarından birini sənə bağışlayır. Kimi istəyirsənsə, seç!" O da fikirləşib belə cavab verir. "Şah, qohumlarımdan birinin ömrünü mənə bağışlayırsansa, onda mən qardaşımı seçirəm". Şah bunu eşidib təəccüblənir və əmr edir ki, bir də soruşsunlar: "Ey qadın! Şah soruşur ki, sən nə məqsədlə ərini və oğullarını qoyub, sənə heç də uşaqların qədər yaxın və ərin qədər əziz olmayan qardaşını seçirsən?". Qadın buna belə cavab verir: "Şah! (Allah istəsə) məndən ötəri başqa ər bəlkə də tapılar, digər uşaqlarımı itirsəm, onda başqa uşaqlarım da doğular. Qardaşımı itirsəm, mənim bir də qardaşım olmaz, çünki nə atam sağdır, nə anam. Sizin sualınıza cavab verəndə ağlıma gələn bunlar oldu". Qadının bu cavabı Daraya xoş gəlmişdir. O, qadının xahişinə görə onun qardaşını da, qadına rəğbət bəslədiyinə görə onun böyük oğlunu da azad etməyi buyurmuşdur. Qalanlarının hamısını edam etdirmişdir. Beləliklə, yeddi farsdan biri təsvir etdiyimiz kimi məhv olmuşdur.

120. Xəstəlik Kambisi yaxalayan vaxtlarda bax belə olaylar baş vermişdir. Kuruş fars Oreti Sardaya satrap qoymuşdu. Bu adam eybəcər fikrə düşübmüş, O, samoslu Polikratı tutub məhv etmək istəyirmiş. Halbuki, Polikrat nə əməldə, nə sözdə onu incitməmişdi, bundan qabaq heç onun gözünə də görünməmişdi. Satrapın bu fikrə düşməsinin səbəbi haqqında adətən belə danışırlar: Bir dəfə Oret Daskiley bölgəsinin satrapı olan Mitrobat adlı başqa bir farsla birlikdə şah sarayının darvazası qarşısında oturubmuş. Onlar (bir-biri ilə) dinc söhbətdən mübahisəyə keçməyə başlayıblar. Özlərindən kimin daha cəsur olduğu haqqında mübahisə edəndə Mitrobat Oreti belə məzəmmət edibmiş: "Öz satraplığının qənşərində yerləşən Samosu zəbt edə bilmədiyin bəs deyilmiş, hələ bir özünü kişi sayırsan. Bu adanı ələ keçirmək o qədər asan idi ki, bircə samoslu on beş qoplitlə gözlənilməz hücuma keçib oranı tutdu və o, indi oranın hökmdarıdır". Bəzilərinin təsdiq etdiyi kimi guya Oret, bu istehzalı sözlərdən sarsılaraq onu təhqir edən adamdan intiqam almaqdan daha çox, belə bir istehzanı eşitməsinə bais, olmuş Polikratı tamamilə məhv etmək fikrinə düşür.

121. Daha az yayılmış əfsanəyə görə, əksinə, Oret Samosa müəyyən bir xahiş üçün qasid göndəribmiş (onun nə xahiş etdiyi haqqında məlumat yoxdur). Bu vaxt Polikrat kişilərə məxsus otağında oturubmuş, Teoslu Anakreon da onun yanındaymış. Qasid

downloaded from KitabYurdu.org

otağa girib tapşırığı ünvana çatdıranda Polikrat Oretə saymazlığını göstərmək üçün qəsdənmi, yoxsa təsadüfən üzü divara doğru oturubmuş və qasidə tərəf dönməyib və ona heç bir cavab verməyibmiş.

122. Beləliklə, Polikratın məhv edilməsinin səbəbləri haqqında iki hekayət danışılır. Kim bunun hansına istəsə, inana bilər. Hər halda, Oret Meandrdakı Maqiesiyada olanda oradan indiyalı Qiges öz oğlu Mirsi Samosa, niyyətini yaxşı bildiyi Polikrata xəbər çatdırmağa göndəribmiş. Bizim bildiyimizə görə, Knos hökmdarı Minos və ona qədər əvvəllərdə dənizə hakim kəsilən şəxslər istisna olmaqla, ellinlərdən ilk dəfə məhz Polikrat dəniz üzərində ağalıq iddiasına düşmüşdür. Qəhrəmanlıq epoxasından bu yana, hər halda Polikrata qədər heç kəs İoniyanı və adaları istila etməyə cəhd göstərməmişdir. Beləliklə, Polikratın bu niyyəti Oretə məlum idi, elə ona görə də satrap onun yanına bax belə bir xəbərlə elçi göndərmişdi: "Oret Polikrata belə deyir. Mən sənin niyyətindən xəbər tutmuşam, amma, bu niyyətə çatmaq üçün sənin imkanın yoxdur. Sən mənim təklifimi eşitsən, həm özün xoşbəxt olarsan, həm də məni xilas edərsən. Axı, şah Kambis mənim həyatımın qəsdinə durub, mən bunu dəqiq bilirəm. Ona görə də, mənim xəzinəmi də xilas et, onun bir hissəsini özünə götür, qalanını mənə saxla. Bu pullarla sən bütün Elladanın sahibi olarsan. Sən mənim bu qədər çox pulum olduğuna inanmasan, onda ən etibarlı adamını göndər və mən pullarımı ona göstərim".

123. Polikrat bunu eşidib sevinclə cavab verir. Axı, mənim fikrimcə, tiran bu xəzinəni ehtirasla əldə etmək istəyirdi və hər şeydən əvvəl, samosluların özünün yanında mirzəlik edən Meandri oğlu Meandrini bu xəzinəyə baxmağa göndərmişdi. Həmin bu adam bir qədər keçəndən sonra Polikrat sarayının kişilər otağının diqqətəlayiq zinətlərini Hera məbədinə köçürür. Oret də casusun gəlib çıxmasını gözləməyin vacib olduğunu bildiyinə görə belə bir iş görür. O, səkkiz sandığı ağzına qədər daş-qaşla doldurub üstünə qızıl yığır və sandıqları sarıtdırıb hazır vəziyyətdə qoyur. Meandri gəlib (sandıqlara) baxır və geri qayıdıb gördüklərini Polikrata çatdırır.

downloaded from KitabYurdu.org

124. Bundan sonra Polikrat kahinlərin və dostlarının xəbərdarlığına baxmayıb, özü Maqnesiyaya yola düşür. Bundan başqa, onun qızı da belə bir yuxu görür ki, atası göylərdə qanad açıb uçur, Zevs onu yuyur, Helios da onun bədəninə ətirli yağ sürtür. Bu yuxudan sonra Polikratın qızı onu Oretin yanına getməkdən çəkindirmək üçün əlindən gələni edir və Polikrat 50 kürəkli gəminin göyərtəsinə qalxanda da atasını bədbəxtlikdən xəbərdar edərək qışqırırmış. O isə qızını hədələyib ki, sağ-salamat qayıtsa, o, uzun müddət evdə qalıb qarıyacaqdır. Qız da atasının hədələrinin doğru çıxması üçün allahlara yalvarır, çünki atasını itirməndənsə, uzun müddət evdə qarıyıb qalmasını daha üstün tutardı.

125. Beləliklə, Polikrat, bütün bu saqındırmalara baxmayıb, özünün çoxlu yaxın məiyyəti ilə Oretin yanına üzüb gedir. Bu məiyyət arasında krotonlu həkim, sənətkarlığı ilə özünün bütün müasirlərini ötüb keçən Kallifont oğlu Demoked də varmış. Polikrat Maqnesiyaya çatan kimi nə öz əməllərinə, nə (böyük) niyyətlərinə layiq olmayan rüsvayçı ölümlə məhv olur. Axı Sirakuza tiranlarından başqa, heç bir ellin hökmdarı əzəmət və ehtişamına görə Polikratla müqayisə oluna bilməzdi. Oretin Polikratı bu cür öldürməsindən sonra bu haqda heç danışmaq da istəmirəm; o, (bədbəxtin) cəsədini çarmıxa çəkməyi əmr etmişdir. Bu satrap Polikratın məiyyətindən samosluları buraxmış və azad olunduqlarına görə hələ minnətdarlıq etmələrini də onlara məsləhət görmüşdür; yadelliləri və qulları əsir kimi kölə əsarətində saxlamışdır. Polikratın qızının yuxusu da Polikrat çarmıxa çəkiləndə çin olmuşdur: doğrudan da, məhz yağış yağmağa başlayanda Zevs onu yumuş, bədəni istidən nəmişlənəndə Helios ona ətirli yağ sürtmüşdür. Böyük xoşbəxt Polikratın aqibəti "belə olmuşdur. (Qəmgin aqibətinə görə) onun sələfi isə Misir hökmdarı Amasisdir.

126. Çox keçmir ki, Polikrata görə Oret də öz cəzasını alır. Kambisin ölümündən və mağların hakimiyyətindən sonra Oret hakimiyyət iddiasına düşən midiyalılarla farsların mübarizəsinə qoşulmayıb Sardada qalmışdır. Əksinə, bu qarışıqlıq dövründə satrap bir vaxt Polikrata münasibətinə görə ona tənə etmiş Daskiley hakimi Mitrobatı, eləcə də Mitrobatın oğlu Kranaspı öldürməyi əmr etmişdir. Onların ikisi

downloaded from KitabYurdu.org

də Parsada hörmətli adam olmuşlar. Oret daha başqa yaramazlıqlar törətmişdir. Belə ki, bu satrap Daranın göndərdiyi çaparın gətirdiyi xəbərdən dilxor olduğuna görə geri qayıdanda onun öldürülməsinə əmr vermişdir. Oret öz adamlarını çaparın yolu üstündə pusquya göndərmiş, çaparı öldürməyi, meyitini da atı ilə birlikdə gizlətməyi əmr etmişdir.

127. Taxta çıxan Dara Oreti törətdiyi bütün cinayətlərə, xüsusən, Mitrobatla onun oğlunun öldürülməsinə görə cəzalandırmaq fikrinə düşür. Amma satrapın əleyhinə dərhal ordu göndərmək şaha əlverişli görünmür, belə ki, ölkədə (xalq) qaynaşması hələ yatmamışdı, şahın özü də taxta təzəcə oturmuşdu. Bundan başqa, Dara Oretin böyük hərbi qüvvəsi olduğunu bilirdi; satrapın "min" şəxsi fars mühafizəçisi vardı; onun satraplığına Frigiya, Lidiya və İoniya bölgələri daxil idi. Belə bir vəziyyətdə Dara bu cür tədbir görür. Şah ən adlı-sanlı farsları çağırıb deyir: "Farslar! Sizlərdən kim zor işlətmədən və hay-küy salmadan ancaq bicliklə mənim tapşırığımı boynuna çəkə bilər? Axı, bütün iş hiylə işlətməkdədir, güc işlətməksə lazım deyil. Deyin görüm, sizlərdən kim Oretin dirisini, ya ölüsünü mənə gətirə bilər? Oret Parsaya çoxlu pislik etmiş, yaxşılıqsa gətirməmişdir. O, bizim aramızdan iki nəfəri - Mitrobatla oğlunu məhv etmiş, onu hüzuruma çağırmağa gedən carçılarımı öldürərək, bununla özünün dözülməz həyasızlığını göstərmişdir. İndi biz onu daha böyük cinayətlər törətməmiş cilovlayıb ölümlə cəzalandırmalıyıq".

128. Dara yığılanlardan beləcə soruşur və otuz farsın hamısı bu işə qoşulmaq qərarına gəlir, həm də, hər kəs özü şahın tapşırığını yerinə yetirmək istəyir. Dara onların mübahisəsini kəsib püşk atmağı məsləhət görür. Onda onlar püşk atırlar və püşk Artontun oğlu Bageyə düşür. Bagey də işə belə başlayır. O, bir neçə fərman yazıb, üstünə Daranın möhrünü vurur, sonra da Sardaya gedir. Bagey oraya gəlib çatanda Oretin hüzuruna gedir və fərmanları növbə ilə açıb onları oxumaq üçün şah mirzəsinə verir (bütün satrapların yanında belə mirzələr var). Bagey fərmanları oxumaq əmri verməklə, satrap gözətçilərinin Oretə xəyanət etməyə hazır olub-olmadıqlarını sınamaq istəyir. Bagey, satrap qoruyucularının mirzənin oxuduğu fərmanlara, xüsusilə onların məzmununa böyük ehtiramla yanaşdıqlarını sezəndə

downloaded from KitabYurdu.org

mirzəyə bir fərman da verir. Bu fərmanda belə sözlər yazılmışdı: "Ey farslar! Şah Dara sizə Oretin qoruyucusu olmağı qadağan edir". Qoruyucular (əmri) eşidəndə öz süngülərini Bageyin qarşısında endirirlər. Bagey də şəxsi qoruyucuların (şah) əmrinə tabe olduqlarını görüb ruhlanır və axırıncı fərmanı mirzəyə verir. Bu fərmanda belə deyilir: "Şah Dara Sardadakı farslara Oreti öldürməyi əmr edir". Şəxsi qoruyucular bu əmri eşidən kimi gödək qəmələrini sıyırıb qından çıxarır və satrapı yerindəcə öldürürlər. Samoslu Polikratı öldürtdüyünə görə fars Oret də beləcə öz cəzasını alır. Satrapın qulları və zəngin xəzinələri Susa daşınır.

129. Bundan bir qədər sonra vəhşi heyvan ovunda Dara atdan sıçrayanda necə olursa, təsadüfən ayağı burxulur. Görünür, burxulma o qədər güclü olur ki, topuq buğumdan çıxır. Şahın yanında əvvəllər də həmişə məşhur Misir həkimləri olurmuş, onlar indi şahı müalicə etməli olurlar. Onlar şahın çıxığını zorla yerinə salmağa çalışırlar, amma daha çox ziyan yetirirlər. Dara ağrıdan yeddi gün, yeddi gecə yuxusuz qalır. Səkkizinci gün Daranın halı heç də yaxşılaşmadıqda onun yaxın adamlarından kimsə əvvəllər Sardada olarkən krotonlu Demokedin məharəti haqqında eşitdiklərini Daraya bildirir. Dara da Demokedin dərhal yanına gətirilməsini əmr edir. Demokedi hardasa Oretin qulları arasında tamam unudulmuş halda, ayağı qandallı, əyni cır-cındır içində tapıb şahın hüzuruna gətirirlər.

130. Demoked Daranın hüzurunda duranda şah ovdan soruşur ki, həkimlik sənətində əli varmı? O da məharətini boynuna alarsa, onu heç vaxt Elladaya buraxmayacaqlarından ehtiyat edib bunu etiraf etmir. Dara isə Demokedin həkimlik sənətini bilib, amma özünü bilməməzliyə qoyduğunu başa düşdüyü üçün xidmətçilərə qamçılar və əqrəblər gətirmək əmri verir. Onda Demoked sirri açır, amma həkimlik sənətinə heç də dərindən yiyələnməyib, onu qismən, həm də bir həkimlə tanışlığı sayəsində öyrəndiyini deyir. Bundan sonra Dara inanıb müalicəni ona tapşırdığı üçün Demoked (misirlilərin) qaba dərmanları əvəzinə, ellin müalicə dərmanlarının və sakitləşdirici vasitələrin köməyi ilə şahın yuxusunu qaytarır, şah artıq ayağının sağalmasına ümidini itirsə də, az vaxtda onun səhhətini tam bərpa edir. Buna görə Dara Demokedə iki cüt qızıl buxov bağışlayır. O da şahdan soruşur ki,

downloaded from KitabYurdu.org

Dara müalicənin müqabilində mükafat əvəzinə onu ikiqat bədbəxt etməkmi istəyir? Bu cavab şahın xoşuna gəlir və Demokedi öz arvadlarının yanına göndərir. Xacələr onu əndəruna gətirib şah arvadlarına deyirlər ki, bu, şahın həyatını xilas edən adamdır. Onda arvadların hərəsi sandıqdakı qızıldan bir cam doldurub Demokedə bağışlayır. Bu, o qədər səxavətli hədiyyə olur ki, hətta həkimin Skiton adlı xidmətçisi camdan səpələnən qızıl pulları yerdən yığmaqla özünə çoxluca qızıl toplayır.

131. Bu Demoked isə Krotondan Polikratın sarayına bu yolla gəlib çıxmışdı. O, tündməcaz atası ilə (daim) dava-dalaşla Krotonda yaşayırdı. Axırda belə bir həyata dözməyib (ata evini) tərk edərək Eginaya gedir. O, buraya köçdüyü ilk ildəcə həkimlik üçün zəruri alətləri olmamasına baxmayaraq, məharətdə bütün başqa həkimləri üstələyir. İkinci ildə eginalılar onu bir talant gümüşə, üçüncü ildə afinalılar 100 minaya, dördüncü ildə isə Polikrat 2 talanta qulluğa götürür. O, Samosa bu cür gəlib çıxır. Kroton həkimləri öz şöhrətləri üçün hər kəsdən daha çox bu adama borcludurlar. O vaxtlar Elladada Kroton həkimləri birinci, Kirena həkimləri isə ikinci sayılırmışlar. Arğoslular isə o vaxt musiqi sənəti ustadları kimi tanınırdılar.

132. Demoked, bax beləcə Daranı sağaldır, Susda böyük bir yaşayış evi alır, hətta şahın nədimliyinə qəbul olunur. Di gəl ki, ona hər şey üçün icazə verilsə də, bircə şey-Elladaya qayıtmağa icazə verilməmişdir. O, əvvəllər şaha xidmət göstərən Misir həkimlərini də öz himayədarlığı ilə cəzadan belə qurtarmışdır (onları ellin həkimindən bacarıqsız olduqları üçün çarmıxa çəkmək istəyirdilər). Sonralar o, əvvəllər Polikratın məiyyətində olan, indi (Oretin) keçmiş qulları arasında tamamilə sayğısızcasına yaşayan Elida kahinini də xilas etmişdir. Sözün qısası, Demoked şah yanında ən mötəbər şəxsiyyət olmuşdur.

133. Bir müddət bundan sonra bax, belə bir olay baş verir. Kuruşun qızı, Daranın arvadı Atossanın döşündən bir çiban çıxır, sonra irinləyib deşilərək başqa yerdə yayılmağa başlayır. Çiban hələ balaca ikən Atossa utandığından onu gizlədib heç kimə göstərmirmiş. Çiban təhlükəli hal alanda o, Demokedin ardınca adam göndərib yaranı ona göstərir. O da yaranı sağaldacağına söz verib Atossaya and içdirir ki,

downloaded from KitabYurdu.org

həkim onun yanına xahişə gələndə qarşılıqlı olaraq Atossa da ona xidmət göstərsin (əlbəttə, Atossadan heç bir eyibli xahiş etməmək şərti ilə).

134. Demoked onu müalicə edib sağaldandan sonra Atossa (Demokedin təhriki ilə) Daranın yatağında ikən ona bax belə deyibmiş: "Şah! Sən özünün bütün ulu möhtəşəmliyinlə yanaşı süstlük göstərirsən. Hələlik heç bir xalqı farslara tabe etməmisən və fars dövlətinə heç nə artırmamısan. Sənin kimi cavan adam, böyük xəzinələr sahibi özünü böyük rəşadətlərlə şöhrətləndirməlidir ki, farslar da anların üstündə bir ərin hakimiyyət sürdüyünü bilsinlər. Bu, sənə iki qat xeyir gətirər: farslar bilərlər ki, onların üstündə bir ər durur və başları müharibəyə qarışanda sənə qarşı üsyan üçün onların asudə vaxtı qalmaz. İndi, nə qədər gəncsən, böyük rəşadət göstərə bilərsən. Axı, insanın boyunun uzanması ilə yanaşı, onun mənəvi qüvvələri də artır; elə ki, bədən qocalmağa başlayır, onda onunla birlikdə ruh da zəifləyir və böyük işləri başa çatdırmağa gücü qalmır". Atossa Demokedin təkidi ilə belə deyir, şah da ona cavab verir: "Arvad! Sənin dediyin işlər haqqında özüm də düşünürəm. Axı, mən bizim materikdən başqa materikə körpü salıb iskitlərin üstünə getməyə hazırlaşıram. Bu tədbir tezliklə başa yetməlidir". Atossa buna belə cavab qaytarır: "Yox! Əvvəlcə iskitlər üstünə getməyin lazım deyil. Axı sən nə vaxt istəsən, onlar sənin hakimiyyətin altında olarlar. Sən mənim xatirimə Elladaya yürüş etməlisən. Mənə Lakon, Ağros və Korinf qadınları haqqında danışıblar, mən arzu edirəm ki, onlar mənim qulluqçularım olsunlar. Sənin elə adamın var ki, o, Ellada haqqında hər kəsdən daha ətraflı məlumat verə bilər, özü də bələdçin olar. Bu, sənin ayağını sağaldan həkimdir". Dara da deyir: "Arvad! Sən dediyin kimi, biz hər şeydən əvvəl Elladanı gözaltı eləsək, onda, mənim fikrimcə, əvvəlcə oraya farslardan casuslar və onlarla birlikdə sənin dediyin ellini göndərməliyik. Onlar hər şeyi yerli-yataqlı öyrənib Elladadakı vəziyyət haqqında bizə məlumat verərlər. O vaxt mən də hər şeyi yaxşıca öyrənib ellinlərlə müharibəyə başlayaram".

135. O, belə deyir və belə də eləyir. Ertəsi gün səhərdən on beş adlı-sanlı fars çağırıb onlara əmr edir ki, Demokedlə birlikdə Elladanın bütün dəniz sahillərini dolaşsınlar və gözləsinlər ki, Demoked qaçmasın, necə olursa-olsun onu da qaytarıb

downloaded from KitabYurdu.org

gətirsinlər. Onlara belə əmr verən Dara Demokedi yenə yanına çağırır, bütün Elladanı bu farslara göstərib sonra qayıtmasını xahiş edir. Bununla birlikdə ona buyurur ki, özünün bütün sərvətini götürüb atasına və qardaşlarına ərmağan aparsın. Qayıdanda bunun əvəzini qat-qat artıqlığı ilə ödəyəcəyinə də söz verir. Bundan əlavə, Dara bildirir ki, o, Demokedin yolu üçün ona bütün lazımlı şeyləri olan yük gəmisi də verir. Mənə elə gəlir ki, şah bütün bunları Demokedə heç bir gizli niyyət güdmədən deyirmiş. Demokedsə Daranın onu sınamaq istədiyindən çəkinərək, onun verdiyi hədiyyələrdən acgözlüklə yapışmayıb, amma bildirib ki, o, geri qayıdanda əliaşağı olmamaq üçün özünün bütün malını burada qoyur, qardaşlarına çatdırmaq üçün bağışlanmış yük gəmisini isə qəbul edir. Dara Demokedə bu cür tapşırıqlar verib onları dəniz səfərinə göndərir.

136. Sahil boyu Finikiyaya yola düşən elçilər Finikiya şəhəri Sidona gəlib çatırlar. Orada farslar dərhal iki triyer, üstəlik müxtəlif malları olan Finikiya yük gəmisi sahmanladırlar. Hər şey hazır olandan sonra onlar üzüb Elladaya gedirlər, ellin sahillərinə yaxın yol tutub oraları bələdləyir və təsvir edirlər. Sahildə ən tanınmış yerlərin çoxunu gözdən keçirəndən sonra farslar İtaliyanın Tarant şəhərinə gəlirlər. Burada Demokedin xahişi ilə tarantlıların hökmdarı Aristofilid Midiya gəmilərinin sükanlarını çıxarmağı, farsların özlərini isə casus kimi məhbəsə salmağı buyurur. Farsların başına bu bəla gələndə Demoked Krotona qaçmağa macal tapır. O, özünün doğma şəhərinə çatanda Aristofilid farsları azad edib sükanları onlara qaytarır.

137. Farslar oradan (Tarantdan) Demokedin arxasınca düşüb Krotona gəlirlər. Onlar Demokedi oranın bazarında tapıb tuturlar. Krotonluların bir qismi farsların əzəmətindən qorxub Demokedi onlara verməyə hazır idilər, bir qismi isə Demokedi saxlayıb farsları dəyənəklərlə vurmağa başlayırlar. Farslar da onları bu sözlərlə töhmətləndirirlər: "Krotonlular, nə elədiyinizi fikirləşin! Axı, siz şahın qaçqın qulunu onun əlindən almaq istəyirsiniz. Şah Dara məgər belə təhqirə dözər? Bu qulu bizdən oğurlasanız sizin hərəkətiniz məgər yaxşılıqla qurtara bilər? Fars şahı hər şeydən öncə sizin şəhərinizə müharibəyə gələr və əvvəlcə şəhəri qul etməyə çalışar". Amma farslar bu sözlərlə krotonluları qorxuda bilməyirlər. Onda onlar Demokedi və özləri

downloaded from KitabYurdu.org

ilə apardıqları yük gəmisini orada qoyub Asiyaya dönməli olurlar. Bələdçilərini itirdiklərinə görə onlar daha Ellada sahillərinə göz gəzdirməyə cəhd etmirlər. Farslar geri dönəndə Demoked hər halda onlara belə tapşırıq vermişdi: o, buyurmuşdu ki, Demokedin Milonun qızına evləndiyini Daraya çatdırsınlar. Axı, məşhur pəhləvan Milon haqqında şah yanında tez-tez söz düşürdü. Ona görə də, mənim düşündüyümə görə Demoked ölkəsində də məşhur adam olduğunu Daraya göstərmək üçün çoxlu pul xərcləyib bu izdivacı sürətləndirmişdi.

138. Farslar Krotondan çıxandan sonra (küləklər) onları İapigiyaya qovub aparmışdı. Orada onları qul edirlər, tarantlı sürgün olan Hill isə onları satın alıb şah Daraya aparır. Dara da bu (xidmətinə) görə ona istəyəcəyi hər şeyi vəd edir. Hill özünün Taranta qaytarılmasını xahiş edir və sürgün olunmasının tarixini danışır. Amma Elladanı hiddətləndirməmək üçün Hill şahı inandırır ki, (onun üstündə İtaliyaya güclü donanma hücum edərsə), təkcə knidlilərin onu sürgündən qaytarmağa gücləri çatar. Hillin fikrincə, onu sürgündən doğma şəhərinə qaytarmaq tarantlıların dostu kimi, knidlilərə daha asan olar. Dara buna razılıq verir və Hillin Taranta qaytarılması haqqında əmri knidlilərə çatdırmaq üçün oraya carçı göndərir. Knidlilər şaha itaət edirlər amma, (sürgünü qəbul etməyin zəruriliyini) tarantlılara inandıra bilmirlər, güc işlətməyə gəldikdə isə onlar çox zəif idilər. Bu iş beləcə qurtarmış, həmin farslar da xatırlatdığımız səbəbdən Asiyadan Elladaya gələn ilk casuslar olmuşlar.

139. Sonra şah Dara ellin və barbar şəhərlərindən birinci olaraq Samosu işğal edir. Müharibənin səbəbi belə idi: Kuruş oğlu Kambis Misir yürüşünə çıxanda Misirə çoxlu ellin də gəlibmiş. Onların bəziləri, yəqin ticarət üçün, başqaları yürüşün iştirakçısı kimi, bir qismi də sadəcə ölkəni görmək üçün gəlmişlər. Bu sonuncular arasında samoslu Polikratın sürgün qardaşı Eak oğlu Silosont da varmış. Bu Silosonta böyük xoşbəxtlik üz verir. Bir dəfə o, qırmızı plaş geyinib Memfis bazarını dolaşırmış. Keçmişdə Kambisin keşikçisi olub, o vaxt xüsusi nüfuza çatmamış Dara plaşa elə valeh olur ki, Silosonta yanaşıb, onun plaşını satın almaq istəyir. Silosont isə Daranın plaşı almağa böyük həvəsini görüb (sanki bir allah vəhyinə görə) deyib

downloaded from KitabYurdu.org

ki, "mən onu heç nəyə satmaram, amma sən onu mütləq istəyirsənsə, sənə bağışlamağa razıyam". Dara bundan çox razı qalır və plaşı götürür.

140. Silosont o vaxt ürəyinin təmizliyinə görə plaşdan məhrum olduğunu düşünür. Amma bir qədər keçmiş, Kambisin ölümündən sonra yeddi fars mağı devirəndə, bu yeddilərin də arasından Dara şah seçiləndə Silosont fars taxtının bir vaxt öz plaşını bağışladığı adama çatdığını öyrənir. Silosont Susa yola düşür, şah sarayının darvazası qabağında oturub, özünü şah Daranın "xeyirxahı" adlandırır. Bunu eşidən darvaza gözətçisi sözü Daraya çatdırır. Dara da təəccüblə ona deyir: "Mənim minnətdar olduğum bu ellin kimdir? Axı, mən taxta bu yaxınlarda çıxmışam və bu vaxt ərzində hansısa bir ellin çətin ki, bizə baş çəkmiş olsun. Mən, necə deyərlər, heç bir ellinə heç nə borclu deyiləm. Hər halda, onu hüzuruma gətirin, görüm, o öz sözləri ilə nə əldə etmək istəyir". Qapı gözətçisi Silosontu (şah otağına) gətirir. O, şah hüzurunda dayananda tərcüməçilər onun kimliyini və özünü niyə şahın xeyirxahı adlandırmasını soruşurlar. Onda Silosont plaş əhvalatını tamam danışıb, sözünə bunu da artırır kı, plaşı şaha bağışlayan adam o özüdür. Dara buna belə cavab verir: "Ey nəcib adam! Demək, əlimdə hakimiyyət olmadığı vaxt mənə hədiyyə verən adam sənsənmi? Doğrudur bu hədiyyə o qədər də əhəmiyyətli deyil, amma indi mən hər hansı bir yerdən böyük ərməğan almış adamın göstərdiyi nəcibliyi göstərməliyəm. Mən sənə hədiyyə olaraq hesabı olmayan o qədər qızıl, gümüş verəcəyəm ki, Güştəsp oğlu Daraya yaxşılıq etdiyin üçün heç vaxt peşman olmayasan". Silosont da buna belə cavab verir: "Mənə nə qızıl ver, nə gümüş, amma, lütfən, doğma şəhərim Samosu azad elə ki, Oret mənim qardaşım Polikratı öldürəndən sonra orada indi bizim qulumuz ağalıq edir. Bu şəhəri qan tökmədən və əhalisini kölə etmədən mənə ver".

141. Bu sözləri eşidən Dara yeddi farsdan biri olan Otanın başçılığı altında qoşun göndərir və ona buyurur ki, Silosontun bütün istəklərini yerinə yetirsin. Otan da dəniz qırağına gəlib ordunu keçid üçün hazırlayır.

142. O vaxt Samosda Polikratın hakimiyyət ixtiyarı verdiyi Meandri oğlu Meandri hakimiyyət sürürdü. Bu Meandri ən ədalətli hökmdar olmaq istəsə də, bu cür ola

downloaded from KitabYurdu.org

bilməmişdi. Polikratın hakimiyyəti sona yetəndə Meandri belə bir iş görmüşdü: əvvəlcə Xilaskar Zevs mehrabı ucaltmaq əmri verib ətrafında müqəddəs sahə yaratmışdı. (O, indi də Samosun şəhər darvazası qarşısında mövcuddur). Sonra o, bərabər hüquqlu vətəndaşların yığıncağını çağırıb onlara belə demişdi: "Bildiyiniz kimi, Polikrat hökmdarlıq əsasını və bütün hakimiyyəti mənə tapşırmışdır. Ona görə də mən indi sizin hökmdarınız ola bilərdim. Amma özümün yaxın adamlarımda sezib pislədiyim işləri özüm heç vaxt görmərəm. Axı, mən Polikratın özünə bərabər adamlar üzərindəki hökmranlığını təqdir etməmişdim və belə iş görənlərin hamısını pisləyirəm. Polikrata Taleyin müəyyən etdiyi qismət gəlib çatdı, mən də indi bütün hakimiyyəti xalqa verib azadlıq və bərabərlik elan edirəm. Bununla belə, mən özümə xüsusi üstünlüklər verilməsini xahiş etməyə haqlıyam: birincisi, Polikratın xəzinəsindən mənə xüsusi mükafat olaraq altı talant verilsin, sonra, bundan əlavə Xilaskar Zevs kahinliyi əbədi olaraq mənə və mənim nəslimə bağışlansın. Axı, mən özüm ona mehrab ucaldıb, sizə də azadlıq vermişəm". O, samoslulara öz sözünü belə elan edir. Bir vətəndaş da ayağa qalxıb ona etirazını bildirir: "Sən bizim ağamız olmağa heç layiq də deyilsən, çünki qanına görə sən alçaq və köpək oğlusan. İndi yaxşı olar ki, ələ keçirdiyin pullar haqqında necə hesabat verəcəyini fikirləşəsən".

143. Samosun hörmətli vətəndaşlarından Telesarx adlı birisi belə deyir. Meandri isə başa düşür ki, o, hakimiyyəti əlindən versə, onda hər hansı başqa bir adam onun yerində tiran olacaqdır. Buna görə də, hakimiyyətdən əl çəkmək haqqında bir daha fikirləşmir. O, akropola qayıdıb vətəndaşlara əmr edir ki, onlara pul hesabatı vermək üçün təkbətək onun hüzuruna gəlsinlər, sonra da onların tutulub buxovlanmasını buyurur. Onlar həbsxanada ikən Meandri bir xəstəliyə düçar olur. Likaret adlı qardaşı isə Meandrinin ölümünü gözləyərək, Samosda hakimiyyəti əlinə keçirməyi asanlaşdırmaq üçün bütün məhbusların edam edilməsinə əmr verir. Görünür, samoslular azad olmaq istəmirlərmiş!

144. Beləliklə, farslar (indi) Silosontu qaytarmaq üçün Samosa gələndə (vətəndaşlardan) heç kəs onlara əl qaldırmadı. Meandrinin tərəfdarları və o özü hətta müqavilə əsasında adanı tərk etməyə razı olduqlarını bildirdilər. Otan bununla

downloaded from KitabYurdu.org

razılaşdı və müqavilə bağladı. Ən adlı-sanlı farslar akropol qarşısında hündür oturacaqlar qoyulmasını əmr edib bu oturacaqlarda əyləşdilər.

145. Tiran Meandrinin Xarilay adında kəmağıl bir qardaşı vardı. Bu adam hansı bir hərəkətinə görəsə zindana salınmışdı. O, nələr baş verdiyini eşidib zindanın pəncərəsindən baxanda rahatca oturmuş farsları görür və Meandrini səsləyir, ona bir şey demək istədiyini bildirir. Meandri onun buxovlarını açmağı və yanına gətirməyi əmr edir. Xarilay gətirilən kimi qardaşını söyür və abırsız sözlərlə onu farslara qarşı çıxmağa təhrik edir. O deyir: "Yaramazın biri! Sən məni, heç bir pis iş görməyən öz qardaşını zindana atırsan, səni qovan və sığınacağından məhrum edən farsları asanlıqla məğlub etmək mümkün olduğu halda, onları cəzalandırmağa cəsarət göstərmirsən. Sən onlardan qorxursansa, onda bu muzdlu qoşunu mənə ver, Samosa soxulduqlarına görə mən onlara cavab verərəm. Sənin özünə gələndə, mən səni bizim adadan qovmağa hazıram!"

146. Xarilay belə deyir, Meandri də onun təklifini qəbul edir. Mənim fikrimcə, hər halda o, öz ordusunun şah ordusuna qalib gələ biləcəyinə inanacaq qədər axmaq deyildi, amma daha çox, şəhəri ziyan çəkmədən, çox ucuz qiymətə əldə edəcək. Silosonta paxıllıqdan belə hərəkət edir. Buna görə də o, yalnız farsları hirsləndirmək, Samosun gücünü daha çox zəiflətmək, yalnız bundan sonra şəhəri farslara vermək istəyir. Meandri tam əmin olur ki, farslar verdikləri itkilərə görə samoslulara daha artıq hiddətlənəcəklər və bunu da bilir ki, istədiyi vaxt adadan çıxıb getməsi tam təmin olunmuşdur (axı o, qaladan dənizə gizli yeraltı çıxış qazılmasını əmr etmişdi). Beləliklə, Meandri özü Samosdan üzüb çıxır, Xarilay isə bütün muzdlu qoşunu silahlandırıb qala darvazalarını açdırır və gözlənilmədən müqavilənin bağlandığını, hər şeyin düzəldiyini düşünərək heç nədən şübhələnməyən farsların üstünə atılır. Muzdla tutulmuşlar zadəgan farsların üstünə tökülüb onları qırmağa başlayırlar. Gör muzdlu qoşun nələr edir! Qalan fars qoşunu köməyə tələsir və farsların sıxışdırdığı muzdlular qalaya oturdulur.

downloaded from KitabYurdu.org

147. Fars sərkərdəsi Otan farsların bu qədər dəhşətli itkiyə məruz qaldığını görəndə nə bircə nəfər samoslunun öldürülməməsi, nə də satılmaması, adanın qarət edilmədən Silosonta verilməsi haqqında buraya yola düşərkən Daranın onlara verdiyi buyruğu unudur. Ona görə də buyruq haqqında düşünməmək üçün Otan qarşıya çıxanların hamısını, böyükləri də, uşaqları da öldürmək əmri verir. Farsların bir qismi qalanı mühasirəyə almağa başlayır, o biri qismi məbəddə və ondan kənarda sığınacaq axtaran hər kəsi öldürür.

148. Samosdan qaçmağa nail olmuş Meandri isə Lakedemona üzüb gedir. O, buraya gəlib çatanda özündə olan malı şəhərə keçirir və belə bir işə əl atır. O, qızıl və gümüş qədəhləri çıxarıb təmizləməyi xidmətçilərə buyurur, özü də bu vaxt Sparta hökmdarı Anaksandrid oğlu Kleomenlə söhbət edib onu evə ötürür. Qiymətli qədəhləri görüb təəccüblənən Kleomen heyran qalır. Meandri də hökmdara bu qədəhlərdən nə qədər istəsə götürə biləcəyini deyir və təklifini bir neçə dəfə təkrar edir. Amma Kleomen ən nəcib bir adam kimi təklif olunmuş hədiyyə götürməyə razılıq vermir. Meandrinin başqa vətəndaşları satın alıb onlardan (hərbi) kömək əldə edəcəyindən şübhələnən hökmdar eforların yanına gedir və onlara deyir ki, onun özünü və ya başqa spartalıları pis işə şirnikdirməmişkən samoslu yadellini Pelopennesdən sürmək Sparta üçün xeyirli olardı. Eforlar da hökmdara tabe olub Meandrinin çıxıb getməsini əmr edirlər.

149. Farslar da Samosu viran qoyaraq, əhalinin tərk etdiyi adanı Silosonta verirlər. Lakin sonralar sərkərdə Otan adanı yenidən məskunlaşdırır. Buna səbəb yuxu görməsi və onun tənasül orqanının hansısa xəstəliyə tutulması olmuşdur.

150. Fars donanmasının Samosa yürüşü zamanı babillilər məharətlə hazırlanmış üsyan qaldırırlar. Mağın hakimiyyəti və yeddilərin qəsdi zamanı, bütün bu qarışıqlıq dövrü ərzində babillilər mühasirəyə hazırlaşmışlar və mənim təxminimə görə bunu gizli etmişlər. Açıq üsyan başlananda babillilər bax belə etdilər. Hər kəs özünə (anasından başqa) istədiyi bir qadın seçdi. Qalan qadınları isə bir yerə yığıb hamısını boğdular. Özünə seçdiyi bir qadını isə hər babilli ona xörək hazırlaması üçün salamat

downloaded from KitabYurdu.org

saxlamışdı. Arvadlarını isə babillilər məhz onlara yemək sərf etməmək üçün boğmuşdular

151. Üsyan xəbəri Daraya çatanda o, bütün ordusu ilə babillilərin üstünə hərəkət edir. Babilə yaxınlaşan şah şəhəri mühasirəyə salmağa başlayır. Mühasirə babilliləri qətiyyən narahat etmir: onlar divar dişlərinə qalxıb ədəbazlıq edir (və təhqiramiz sözlər qışqıraraq) Daranı və ordusunu ələ salırlar. Onlardan biri deyir: "Farslar, siz burada niyə durmusunuz və niyə avaralanırsınız? Yaxşı olar ki, rədd olub öz evlərinizə gedəsiniz! Dişi qatır qulunlayanda siz də bizim şəhəri tutarsınız!" Həmin babilli ona görə belə deyibmiş ki, dişi qatırın heç vaxt qulunlamayacağına əmin imiş.

152. Bundan bir il yeddi ay keçmişdi; Dara da, bütün qoşunu da hər cür fənd və hiylə işlətmələrinə baxmayaraq Babili ala bilmədiklərinə görə olduqca pərt idilər. Hərçənd, şah bir vaxt Kuruşun Babili alarkən işlətdiyi hiyləyə də əl atdı, lakin babillilər yuxu bilmədən keşik çəkirdilər və farslar onları aldada bilmədilər.

153. Axırda, mühasirənin iyirminci ayında Zopirə-mağı devirən yeddi ərdən biri olan Mehabizin oğlu Zopirə əcaib bir əlamət əyan olur. Onun yük qatırları içərisində bir madyan dayçalayıbmış. Bunu Zopirə bildirəndə, o, əvvəlcə inanmaq istəməmiş, sonra özü dayçanı görəndə bunun şahidi olmuş bütün adamlara bu haqda danışmağı qadağan edib (əcaib əlaməti) götür-qoy etməyə başlayır. O, bir babillinin hələ mühasirənin əvvəlində qeybdən xəbər verdiyi əlamət, yəni şəhərin yalnız qatır madyan dayçalayanda alına biləcəyi haqqında düşünür. Zopir fikirləşir ki, qeybdən gələn bu xəbərə görə Babil məğlub olmalıdır: axı babilliyə qeybdən xəbər verməyi allah təlqin eləmişdi, indi isə budur, Zopirin qatır madyanı (allah əməli ilə) dayçalamışdı.

154. Beləliklə, Zopir belə qərara gəlir ki, Babil artıq məhvə məhkum edilmişdir. O, Daranın hüzuruna gəlib Babilin istilasının çoxmu zəruri olduğunu ondan soruşur. Dara (bunun vacibliyini) təsdiq edəndə Zopir necə igidlik göstərəcəyi və şəhəri Daranın əlinə verəcəyi haqqında fikirləşir. Axı, farslar belə rəşadətli igidliyi hər

downloaded from KitabYurdu.org

şeydən uca tuturlar. Zopirə elə gəlir ki, yalnız bircə yolla məqsədə yetə bilər: yəni, məhz özünü şikəst etmək, sonra düşmən tərəfə qaçmaqla. Onda tərəddüd keçirmədən özünə sağalmaz şikəstlik yetirir: burnunu və qulaqlarını kəsir, saçını eybəcərcəsinə kəsib tökür, vurduğu qamçıların izi bədənində qalmış halda Daranın hüzuruna gəlir.

155. Dara bu qədər hörmətli adamın belə şikəst hala düşdüyünü görüb dəhşətə gəlir. Şah qışqıraraq öz taxtından ayağa durur və onu kimin və nə üçün belə şikəst etdiyini soruşur. Zopir də cavab verir: "Mənimlə bu cür rəftar etməyə yer üzündə səndən başqa bir adamın da ixtiyarı yoxdur. Mənim ağam, hər hansı başqa bir adam deyil, məhz mən özüm özümü şikəst etmişəm, çünki assuriyalıların farsları ələ salmasına dözmək mənim üçün çox ağır idi". Cavabında şah ona deyir: "Bədbəxt! Sən mühasirədə qalmışların xatirinə özünü rəhmsizcəsinə şikəst etməyini təsdiq etməklə bu dəhşətli hərəkətini şişirtməyə çalışırsan. Səfeh, sən özünü şikəst etdiyinə görə məgər düşmənlər tezliklə təslim olacaqlar? Özünü bu şəkilə salmaqla sən dəlilik eləməmisənmi?" Zopir də şaha belə cavab verir: "Mən öz fikrimi sənə açmış olsaydım, sən bu işi görməyimə icazə verməzdin. Ona görə də mən özbaşına belə hərəkət eləmişəm, beləliklə, sən köməyini əsirgəməsən, biz Babili alarıq. Mən dərhal şəhərə qaçıb bildirəcəyəm ki, mənə bu xəsarəti sən yetirmisən. Onların mənə inanıb məni qoşun başçısı qoyacaqlarını düşünürəm. Mən şəhərə gedəndən on gün keçəndə sən də Semiramida adlanan darvazanın qabağına itkisi sənin üçün əhəmiyyətsiz olan ordu hissəsindən 1000 nəfər adam qoy. Bundan yeddi gün keçəndə 2000 nəfər də Nin adlanan darvazanın qarşısına qoy. Sonra iyirmi gün gözləyib Xaldey adlanan darvazanın qarşısına 4000 adam göndər. Nə əvvəlkilər, nə də bu əsgərlər müdafiə üçün xəncərdən başqa heç bir silah daşımamalıdırlar. Onlarda xəncərin qalmasının ziyanı yoxdur. Nəhayət, iyirmi gündən sonra bütün başqa əsgərlərinin şəhər divarlarına hər tərəfdən hücuma keçməsinə əmr ver. Farsları isə Bel və Kissiya adlanan darvazaların qarşısında qoy. O vaxt mən elə böyük igidlik göstərəcəyəm ki, babillilərin mənə nəinki bütün şəhərin müdafiəsini etibar edəcəklərinə, hətta darvazaların açarlarını da mənə verəcəklərinə şübhə etmirəm. O vaxt bu işi necə başa yetirmək qayğısı mənim və farsların üstünə düşəcəkdir!".

downloaded from KitabYurdu.org

156. Bundan sonra Zopir guya həqiqi qaçqın kimi aramsız olaraq dönüb arxaya baxa-baxa darvazalara doğru qaçıb. Qüllələrdən onu görən darvaza gözətçiləri aşağı enib, darvaza cəftələrini azacıq aralamış, onun kim olduğunu və nə üçün gəldiyini soruşmuşlar. O da cavab verib ki, adı Zopirdir, özü də onların tərəfinə keçmək istəyir. Belə bir cavab eşidən darvaza gözətçiləri onu başçılarının yanına aparmışlar. Zopir başçının hüzuruna gələndə şikayətlənərək bildirib ki, guya şahın şəhəri tutmaq imkansızlığını görəndə mühasirəni götürməyi və ordunu geri çəkməyi ona məsləhət gördüyü üçün şah Daha ona belə xəsarətlər yetirmişdir. O deyib: "İndi mən sizin xoşbəxtliyiniz, Dara ordusununsa məhvi üçün gəlmişəm. Bu xəsarətlər şaha baha oturacaqdır. Mən onun gizli niyyətlərini və hiylələrini bilirəm!".

157. Zopir belə danışır, babillilər də adlı-sanlı farsı burnu və qulaqları kəsilmiş, bədəni qamçı zərbələrindən yarıq-yarıq olmuş vəziyyətdə görüb, onun tamamilə doğru danışdığına və onlara bir dost, bir müttəfiq kimi gəldiyinə inanırlar. Onlar Zopirin bütün istədiklərinə əməl etməyə hazır olurlar. O isə özünə qoşun dəstəsi verilməsini istəyir. Onu alanda Dara ilə şərtləşdiyi kimi hərəkət etməyə başlayır. Zopir onuncu gündə Babil hərbi dəstəsini qaladan kənara çıxarıb birinci dəfə göndərilməsini Daraya dediyi 1000 nəfəri mühasirəyə alıb qırmışdır. Babillilər farsın sözü ilə əməlinin tərs gəlmədiyinə inanıb, son dərəcə sevinmişlər və hər şeydə ona qulaq asmağa hazır olmuşlar. Onda Zopir şərtləşdiyi günlərin sayını gözləyərək yenə babillilərin seçmə dəstəsini şəhərdən çıxarmış və Daranın 2000 döyüşçüsünü qırmışdır. Bu yeni igidliyə görə babillilər Zopirə tərif yağdırmışlar, onun adı bunların hamısının dilindən düşməmişdir. Zopir yenə müəyyənləşdirilmiş günlərin sayını güdüb dəstəni şərtləşdirilmiş yerə çıxarmış və farsları mühasirəyə alıb 4000 adamı qırmışdır. Belə bir igidlikdən sonra Zopir bütün istəyinə nail olmuşdur: onu baş sərkərdə və qalabəyi qoymuşlar.

158 Dara şərtə görə şəhər divarına hər tərəfdən hücuma keçmək əmri verəndə Zopirin məkrli fikirlərinin üstü açılmışdır. Babillilər divar üstündə Dara ordusunun hücumlarını dəf ediblər, Zopir isə Kissiya və Bel deyilən darvazaları açıb farsları

downloaded from KitabYurdu.org

qalaya buraxıbdır. Babillilərin bir hissəsi nə verdiyini görüb Bel Zevsinin məbədinə qaçmış, başqaları isə bunu görməyib, xəyanəti bilənə qədər öz yerlərində qalmışlar.

159. Babil ikinci dəfə beləcə alınmışdır. Dara Babili alan kimi hər şeydən əvvəl qala hasarını uçurub bütün darvazaları dağıtmağı əmr etmişdir. Halbuki, Kuruş Babili birinci dəfə alarkən bunu eləməmişdi. Sonra şah 3000-ə qədər adlı-sanlı vətəndaşı çarmıxa çəkməyi əmr etmişdir. Qalan əhalininsə şəhərdə yaşamasına icazə vermişdir. (Əvvəlcə dediyim kimi, babillilər ərzaq ehtiyatını qorumaq üçün öz arvadlarını boğduqlarına görə) Dara onların arvadı olması və bu arvadlardan nəsil törəməsi üçün belə eləmişdir: o, qonşu qəbilələrə öz qadınlarını Babilə göndərməyi əmr etmişdir. Hər qəbiləyə müəyyən sayda qadın verilməsi tapşırılmışdır. Beləliklə, oraya, ümumən, 50.000 qadın toplanmışdır. Bu qadınlardan da indiki babillilər törəmişlər.

160. Daranın fikrincə, təkcə Kuruşdan başqa (axı, heç bir farsın özünü onunla müqayisə etməyə cəsarəti çatmaz) nə əvvəllər, nə sonralar igidlikdə Zopiri heç kəs ötüb keçməmişdir. Deyilənlərə görə, Dara söyləyərmiş ki, o, Zopiri xəsarətsiz görməyi daha iyirmi Babilə sahib olmaqdan üstün sayarmış. Şah Zopirə son dərəcə böyük sayğı ilə yanaşarmış. Hər il ona hədiyyələr göndərərmiş və bunlar Parsada ən ehtiramlı hədiyyələr sayılarmış. Dara (xərc qoymadan) Babili ömürlük onun idarəsinə veribmiş. Bu Zopirin Misirdə afinalılara və onların müttəfiqlərinə qarşı vuruşan farsların başında duran Mehabiz adlı oğlu olmuşdur. Bu Mehabizin də Parsadan Afinaya fərarilik edən Zopir adlı oğlu varmış.

İzahlar

1 Fanesin qaçması e. ə. 525-ci ilə deyil, 547-ci ilə düşür.

downloaded from KitabYurdu.org

2 Herodot burada "suriyalılar" adı altında filistimliləri nəzərdə tutur. Fars qoşunu onların Askolon, Aşdod, Hat və Ekron şəhərlərindən keçib Misirə getmişdir.

3 Bu, Nəbatilər adlanan müstəqil ərəblərin hökmdarı olmuşdur.

4 Köçəri ərəblərin bu cür saç vurdurması Bibliyada xatırlanır.

5 Herodot burada Qırmızı dənizi Ölü dənizlə qarışdırmışdır.

6 Saisdəki Neyt ilahəsinin məbədi.

7 Məğlub olanlar Behistun üstündəki yazıda elə bu cür təsvir edilmişdir. "Behistun" adı "Bisutun şəklində də yazılır, əsli "Baqastan" olmalıdır. "Baqa"-boqa, buğa sözündəndir, totemdir.

8 Perihan Kuturman tərcüməsində "heybə" sözü "torba" sözü ilə, "çörək" sözü isə "un" sözü ilə əvəz olunmuşdur, səh. 135.

9 "Herodot tarixi". İstanbul, 1973, səh. 138.

10 Bu yeddi fars, yeddi əsilzadə soyundan çıxmışdır (Qobri və Aspafin də onların arasında olmuşdur).

11 Perihan Kuturman bu adı "izonomi" şəklində yazır və belə izah verir: "yəni, yasalar önündə eşitmək (qanunlara əməl etmək). P. X "Herodot tarixi", İstanbul, 1973, səh. 145.

12 Mehabazın xalqa qarşı kinli hücumunda fars zadəganlarının İranda xalqdan yığılmış "qara qonşuna" kəskin nifrəti öz əksini tapmışdır.

13 Daranın bu nitqinin Nəqşi-Rüstəm qayaüstü yazılarına tam uyğunluğu təsdiq olunur. P. X.

downloaded from KitabYurdu.org

14 Herodot Daranın hakimiyyət başına gəlməsindən sonra uzun sürən müharibələrinin təsvirinin üstündən keçir. Behistun yazısına görə qabaqca qədim mərkəzi Susla birlikdə Elam, sonra axırıncı hökmdarın oğlu Nidintu Belin başçıları ilə Babil və Midiya (yəni, bütün əyalətlər) üsyan etmişlər. 521-ci ilin axırında Dara Misirdən və Kiçik Asiyadan başqa bütün üsyançıların itaətə gətirmişdir. Misir e. ə. 519-518-ci illərdə tabe edilmişdir.

15 Mətnin bu paraqrafındakı birinci cümlə F. Q. Mişşenko tərcüməsində belədir. Q. A. Stratanovski isə onu bu cür tərcümə etmişdir: "Asiyada hər tərəfdən dağla əhatə olunmuş bir dərə var, bu dağdan beş dar keçid keçir". Mişşenkonun tərcüməsi bizə daha düzgün göründü. - P. X.

* * *

downloaded from KitabYurdu.org

DÖRDÜNCÜ KİTAB

MELPOMENA

1. Babilin istilasından sonra Dara özü iskitlər üzərinə yürüşə çıxır.1 O vaxtlar Asiyada döyüşçü bol olduğundan və ölkəyə böyük var-dövlət axıb töküldüyündən şah bu dəfə iskitləri cəzalandırmaq istəyir, axı, iskitlər özləri sülhü pozub, Midiyaya soxulmuş və rəqibləri olan midiyalılara qalib gəlmişdilər. Əvvəl dediyim kimi, iskitlər Yuxarı Asiyada 28 il hakimiyyət sürmüşdülər. Onlar kimmerilərin2 ardınca Asiyaya girmiş və midiyalıların dövlətini dağıtmışdılar (iskitlər gələnə qədər Asiya midiyalıların əlində idi).3 28 illik ayrılıqdan sonra öz ölkələrinə qayıdan iskitləri midiyalılarla müharibədəkindən də betər bəla gözləyirmiş: onlar orada güclü yağı qoşunu ilə qarşılaşırlar. Axı, uzun müddət ərlərindən ayrı qalan iskit arvadları öz qulları ilə əlaqəyə girmişdilər.

2. İskitlər bütün qullarının gözlərini çıxarırlar. Bunu da içdikləri at südünün ucundan edirlər. Südü də iskitlər belə sağdırırlar: tütək sayağı içi oyuq lülə sümüyünün bir ucunu madyanların ətənəsinə salır, o biri ucundan üfürürlər. Qulun biri üfürdükcə o biri madyanı sağır. İskitlərin özlərinin dediyinə görə, madyanın içərisi hava ilə dolduqca damarları sıxılır və yelini boşalıb sallanır. Sağımdan sonra südü içi boş taxta çənlərə tökürlər. Sonra da iskitlər kor qulları çənlərin ətrafına düzüb südü çalxamağı əmr edirlər. Südün daha qiymətli hesab olunan üzünü alırlar, üzü yığılan südün ayranını onlar o qədər də dəyərli saymırlar. İskitlər əsir götürdükləri bütün adamları bax buna görə kor edirlər. Axı, iskitlər əkinçi deyillər, köçəridirlər.

downloaded from KitabYurdu.org

3. Bu qullardan və iskit arvadlarından gənc nəsil böyümüşdü. Öz nəsəbini bilən gənclər Midiyadan geri dönən iskitlərə qarşı çıxmışlar. Onlar öz torpaqlarını qorumaq üçün, hər şeydən əvvəl, Tavr dağlarından Meotida gölünün ən enli yerinə qədər geniş xəndək qazmışlar. İskitlər göldən keçməyə cəhd göstərəndə gənc qullar qabağa çıxıb onlarla vuruşmağa başlamışlar. Çoxlu döyüş aparılmasına baxmayaraq, iskitlər onları məğlub edə bilməmişlər. Onda iskitlərdən biri belə demişdir: "İskit döyüşçüləri, biz nə edirik? Biz öz qullarımızla vuruşuruq! Onlar bizi öldürdükcə biz zəifləyəcəyik, biz onları qırsaq onda qullarımız azalacaqlar. Buna görə də, mənim fikrimcə, süngü və yaylardan əl çəkib, hər kəs öz qamçısı ilə onların üstünə getsin. Onlar bizi silahlı görəndə özlərini bizimlə həmtay, yəni azad doğulmuşlar hesab eləyirlər. Onlar bizi silah əvəzinə əli qamçılı görsələr, onda qulumuz olduqlarını başa düşəcəklər, bunu boyunlarına alanda bizə asi olmağa cəsarət etməyəcəklər".

4. Bu sözləri eşidən iskitlər dərhal məsləhətə qoşulurlar. Bundan qorxuya düşən qullar da döyüşdən əl çəkib qaçırlar. Beləliklə, iskitlər Asiyanın ağası olmuşlar; sonra midiyalıların qovduqları iskitlər öz doğma yurdlarına beləcə qayıtmışlar. Dara da da bax buna görə iskitləri cəzalandırmaq istəmiş və onlara qarşı ordu toplamışdır.

5. İskitlərin hekayətlərinə görə onların xalqı bütün xalqlardan gəncdir. Həmin xalq isə belə törəmişdir. Bir vaxtlar hələ məskunlaşmamış bu ölkənin ilk sakini Tarqıtay adlı bir adam olmuşdur. İskitlərin dediyinə görə, bu Tarqıtayın atası Zevs, anası Borisfen çayının qızıdır (iskitlər iqrar etsələr də, mən buna inanmıram). Belə bir əsil-nəsəbi olan Tarqıtayın da üç oğlu varmış: Lipoksais, Arpoksais və sonbeşiyi-Kolaksais. Onların hakimiyyəti dövründə göydən İskit Elinə qızıl şeylər düşür: kotan, boyunduruq, döyüş baltası və cam. Böyük qardaş bu şeyləri hamıdan qabaq görür. Şeyləri götürmək üçün onlara yaxınlaşar-yaxınlaşmaz qızıllar alovlanır. Bunu görəndə o, geri çəkilir. İkinci qardaş da o yerə çatan kimi qızıllar yenə alova bürünür. Qızılların alovunun istiliyi iki qardaşı beləcə geri qovur. Amma kiçik qardaş yaxınlaşanda alov sönür və o, qızılları götürüb evinə aparır. Ona görə də, böyük qardaşlar hökmdarlığı kiçik qardaşa verməyə razı olurlar.

downloaded from KitabYurdu.org

6. Deyilənə görə, Lipoksaisdən iskitlərin avxatlar, ortancıl qardaşdan katıərlər və traspilər, hökmdar olan kiçik qardaşdan isə paralatlar adlı qəbilələr törəmişdir. Bütün qəbilələr birlikdə skolotlar,4 yəni, hökmdar qəbiləsi adlandırılırlar. Ellinlər isə bunların hamısına iskit (skif) deyirlər.

7. İskitlər öz xalqının mənşəyi haqqında belə danışırlar. İlk hökmdar Tarqıtay dövründən Daranın onların ölkəsinə hücumuna qədər 1000 il keçmişdir.5 İskit hökmdarları göydən düşən həmin müqəddəs qızıl şeyləri qayğı ilə qorumuş, hər il bol qurbanlar verərək onlara səcdə etmişlər. Bayram günü kim bu müqəddəs qızılla açıq göy altında yatarsa, iskitlərin təsəvvürünə görə o, heç bir il də yaşamaz. Buna görə iskitlər belə adama bir gün ərzində at üstündə gedə biləcəyi qədər torpaq verirlər.6 Onların torpaqları belə çox olduğundan, iskitlərin dediyinə görə, Kolaksais onu üç oğlu arasında üç hökmdarlığa bölmüşdür. O, qızılların saxlandığı yeri ən böyük hökmdarlıq etmişdir. Deyilənə görə, İskit Elindən şimala doğru yerləşən torpaqlarda uçan lələklər ucundan heç nə görünmür və oralara girmək mümkün deyil. Doğrudan, orada torpaq da, hava da lələklə dolu olduğundan ətrafı görmək mümkün olmur.7

8. İskitlər özləri və şimal qonşuları haqqında belə danışırlar. Pontda yaşayan ellinlər isə başqa cür bilgi verirlər. Onların dediyinə görə, Herakl Herionun öküzlərini (indi iskitlərin tutduqları), keçmişdə isə məskunlaşmamış olan bu ölkəyə qovub gətirmişdi. Herion isə Pontdan uzaqlarda, Herakl Sütunlarının arxasındakı Okeanın Qadir adasında yaşayırmış (ellinlər bu adanı Erifiya adlandırırlar). Ellinlər Okeanın gündoğandan başlayıb bütün yer ətrafında axdığını söyləyir, amma bunu sübut edə bilmirlər. Herakl bax buradan indi İskit Eli adlanan ölkəyə gəlib çıxır. Orada yağmurlu və soyuq havaya düşür. Donuz dərisinə bürünüb yuxuya gedir və bu vaxt onun (otlamaq üçün açıb buraxdığı) qoşqu atları qəribə bir şəkildə yoxa çıxır.

9. Herakl oyanıb atları axtararaq bütün ölkəni dolaşır, axırda Hileya adlanan bir yerə gəlib çatır. O, burada yarı qız, yarı ilan şəklində təbiətin ecazkar peyvəndi olan bir varlığa rast gəlir. Onun bədəninin sağrıdan yuxarısı qadın, aşağısı ilanmış. Bunu görən Herakl onun haradasa azmış atlar görüb-görmədiyini heyrətlə soruşur. İlan-

downloaded from KitabYurdu.org

qadın atların onda olduğunu deyir, amma onunla aşiqanə əlaqəyə girməyincə atları verməyəcəyini bildirir. Onda Herakl belə bir mükafat üçün bu qadınla əlaqəyə girir. Qadın Heraklı öz yanında daha çox saxlamaq üçün atları ona qaytarmağı ləngidir, o isə sevinclə buradan çıxıb gedərdi. Axırda qadın atları qaytarıb, ona belə sözlərlə üz tutur: "Mənim yanıma gəlib çıxmış bu atları səndən ötəri saxlamışdım; indi sən onları qaytarmaq haqqını vermisən. Axı, sənin məndə üç oğlun var. De görüm, böyüyəndə onlarla nə eləyim? Onları burada, (təkcə mənimki olan bu ölkədə) saxlayım, yoxsa sənin yanına göndərim?" Qadın ondan belə soruşur. Herakl da ona belə cavab verir: "Oğullarımın yetkinləşdiyini görəndə belə eləsən daha yaxşı olar: gör, onların hansı mənim bu yayımı sənə göstərdiyim kimi, bax belə çəkərsə, bu kəmərimi qurşana bilərsə, onu yaşamaq üçün burada saxla. Mənim şərtimi yerinə yetirə bilməyənləri isə qürbətə göndər. Sən belə eləsən, özün də razı qalarsan, mənim də istəyimi yerinə yetirərsən".

10. Herakl bu sözləri deyib yaylarından birini çəkir (o vaxta qədər Herakl iki yay daşıyırdı). Sonra o, kəməri necə qurşamağı göstərir, yayı, kəməri qadına verib gedir (kəmərin ilgəkinin ucundan qızıl cam asılmışdı). Uşaqlar böyüyəndə ana onlara ad qoyur. Birini Ağafirs, o birini Helon, kiçiyini də İskit (Skif) adlandırır. Sonra da Heraklın məsləhətini anıb onun dediyi kimi eləyir. Ana iki oğlunu-Ağafirsi və Helonu şərti yerinə yetirə bilmədiyi üçün ölkədən qovur. Kiçik oğlu İskit isə şərti yerinə yetirə bilir və yurdda qalır. Bütün iskit hökmdarları Heraklın oğlu olan bu İskitdən törəmişlər. Həmin qızıl cama hörmətlə iskitlər indi də kəmərlərindən cam asırlar (ana bunu yalnız İskitin xoşbəxtliyi üçün etmişdi).

11. Üçüncü rəvayət də var. (Mən ona daha çox inanıram). Bu rəvayətdə də belə deyilir. Köçəri iskit qəbilələri Asiyada yaşayırdılar. Massagetlər onları hərbi qüvvə ilə sıxışdıranda iskitlər Arası8 keçib kimmerilərin ölkəsinə gəlirlər. (Deyilənə görə, indi iskitlərin məskunlaşdıqları ölkə qədimlərdə kimmerilərin olmuşdur). İskitlər yaxınlaşanda kimmerilər bu çoxsaylı düşmən qoşunu qarşısında nə etmək haqqında məsləhətləşməyə başlayırlar. Məsləhət zamanı fikirlər haçalaşır. Hər iki tərəf öz fikrinin üstündə möhkəm dayansa da, hökmdarların9 təklifi üstün gəlir. Xalq bu

downloaded from KitabYurdu.org

qədər düşmənlə vuruşmayıb, geri çəkilməyə tərəfdar olur. Hökmdarlarsa, tərsinə, doğma torpağı işğalçılardan inadla qorumağı zəruri saymışlar. Beləliklə, xalq hökmdarların məsləhətinə qulaq asmamış, hökmdarlar da xalqa tabe olmaq istəməmişlər. Xalq yurdu atıb, onu döyüşsüz düşmənə vermək qərarına gəlmişdir; hökmdarlar isə əksinə, xalqla birlikdə qaçıb xilas olmaqdansa öz sümüklərini doğma torpaqlarda qoymağı üstün tutmuşlar. Axı, hökmdarlar doğma torpaqda hansı böyük xoşbəxtliyə qovuşduqlarını və vətəndən məhrum olub qaçqın düşsələr, onları nə kimi bəlaların gözlədiyini başa düşürdülər. Kimmerilər bu cür qərar çıxarıb iki bərabər hissəyə bölünmüş və öz aralarında çarpışmağa başlamışlar. Kimmeri xalqı bu qardaş qırğınında bütün həlak olanları Tiras çayının qırağında basdırmışlar. (Hökmdarların qəbrini orada indi də görmək olar). Bundan sonra kimmerilər öz torpaqlarını buraxıb getmiş, buraya gələn iskitlər isə əhalisiz ölkəyə sahib olmuşlar.

12. İskit Elində kimmerilərin möhkəmləndirilmiş qalaları və kimmeri keçidləri indi də qalmaqdadır; eləcə də, Kimmeriya adlı bölgə və Kimmeriya Bosporu deyilən boğaz vardır. İskitlərdən xilas olmaq üçün Asiyaya qaçan kimmerilər, bildiyimiz kimi, indiki ellin şəhəri Sinopanın10 yerləşdiyi yarımadanı tutmuşlar. Kimmeriləri qovan iskitlərin yolu azıb Midiya torpağına soxulduqları da bəllidir. Axı, kimmerilər daima Pont sahilləri boyu getdikləri halda, onları təqib edən iskitlər Qafqazın sol səmtini tutub midiyalıların torpağına girənə qədər getmişlər. Beləliklə, onlar ölkənin içərilərinə burulmuşlar. Bu axırıncı rəvayəti həm ellinlər, həm də barbarlar eyni şəkildə söyləyirlər.

13. Bununla belə, prokonnesli Kaistrobi oğlu Aristey epik poemasında Febin təsiri ilə əqli çaşqınlığa tutularaq issedonların yanına necə gedib çıxdığını nəql edir. Onun hekayətinə görə issedonlardan sonra taygöz adamlar - arimasplar, arimasplardan da o yana qızıl qoruyan qriflər, onlardan da yuxarıda dəniz hüdudunda hiperboreylər olurlar. Hiperboreylərdən başqa bütün bu xalqlar qonşuları ilə daim vuruşurlar (həm də müharibəni ilk dəfə arimasplar başlayıblar). Arimasplar issedonları öz yurdlarından qovmuşlar, sonra issedonlar iskitləri sıxışdırmışlar. Cənub dənizi11 qıraqlarında yaşayan kimmerilər də iskitlərin təzyiqi altında öz ellərini buraxıb

downloaded from KitabYurdu.org

getmişlər. Beləliklə, Aristeyin hekayəti iskitlərin bu ölkələr haqqında rəvayətlərinə bənzəmir.

14. Bu poemanı yazan Aristeyin haradan çıxdığını artıq demişəm. İndi də onun haqqında Prokonnesdə və Kizikdə eşitdiklərimdən xəbər verəcəyəm. Deyilənlərə görə, Aristey Prokonnesin ən adlı-sanlı vətəndaşlarındandır. Bir dəfə mahud karxanasına gəlib orada ölmüşdür. Mahudbasan karxanasını bağlayıb mərhumun qohumlarına xəbərə gedibdir. Bu vaxt şəhərdə Aristeyin ölümü haqqında söz-söhbət gəzir, Artaka şəhərindən olan bir kizikli də bu xəbəri təkzib edirmiş. Onun dediyinə görə o, Aristeyi Kizik yolunda görüb özü ilə söhbət də edibmiş. Kizikli doğru danışdığını təkidlə təsdiq edirmiş. Mərhumun qohumları bu vaxt dəfn üçün lazım olan şeylərlə mahud karxanasına gedirlər. Onlar qapını açanda Aristeyin nə ölüsünü, nə dirisini görürlər. Aristey yeddi ildən sonra yenə Prokonnesə gəlir və ellinlərin "Arimasplar haqqında epos" adlandırdıqları epik poemasını yazır, O, poemanı yazıb ikinci dəfə yoxa çıxır.

15. Bu şəhərlərdə belə danışırlar. Mən də bilirəm ki, Aristeyin ikinci dəfə yoxa çıxmasından 240 il sonra İtaliyadakı Metapontidə bir belə olay baş vermişdir (bunu mən Prokonnes və Metaponti olaylarını müqayisə yolu ilə müəyyənləşdirmişəm). Metapontililərin dediklərinə görə Aristey onların ölkəsinə gəlib Apollona mehrab ucaltmaq, onun yanında da prokonnesli Aristey adına heykəl qoymaq haqqında buyuruq vermişdir. O deyib ki, axı, Apollon bütün italiyalılar içərisində təkcə onların yanına (onların Metaponti şəhərinə) gəlmiş, allahın məiyyəti içərisində isə o özü-indiki Aristey də buraya gəlmişdir. Əvvəllər isə o, quzğun12 şəklində Apollona yol yoldaşı olmuşdur. Bu sözlərdən sonra Aristey yoxa çıxmışdır. Metapontililərsə bu adamın teyfinin görünməsi olayının mənasını öyrənmək məqsədi ilə allaha sorğu vermək üçün Delfə elçi göndərmişlər. Pifiya da teyfə itaət etməyi buyurmuşdur, çünki itaətkarlıq onlara xeyir gətirə bilər. Metapontililər Pifiyanın məsləhətinə əməl etmişlər. Doğrudan da, orada Apollon tapınacağının lap yanında Aristey adına heykəl indi də durur və ətrafında ağaclar ucalır. Allah tapınacağı isə bazar meydançasında ucaldılmışdır. Aristey haqqında bu qədər bəsdir.

downloaded from KitabYurdu.org

16. Ölkənin danışmağa başladığım şimal bölgələri haqqında heç kəs müəyyən bir şey bilmir. Bu yerləri gözü ilə gördüyünü söyləyən bir adama da rast gəlməmişəm. Axı, indicə xatırlatdığım Aristeyin issedonların ölkəsindən uzaqlara ayaq basmadığını epik poemasında özü deyir; o, issedonlardan şimal torpaqları haqqında issedonların danışıqlarından eşitdikləri əsasında bilgi verir. Bununla belə, mən bu şimal ölkələri haqqında eşitdiklərim əsasında olsa da, öyrənə bildiklərimi dəqiq və mümkün qədər ətraflı danışacağam.

17. Borisfenlilərin Pont yanı iskit torpaqlarının təxminən ortasında yerləşən ticarət limanı yaxınlığında ellin iskitləri-kallipidlər yaşayırlar; onlardan sonra alizon adlanan başqa qəbilə gəlir. Onlar kallipidlərlə birlikdə qalan iskitlərlə eyni həyat tərzi keçirirlər, amma buğda, soğan, sarımsaq, mərci, darı əkir və bunlarla dolanırlar. Alizonlardan şimala doğru əkinçi iskitlər yaşayırlar. Onlar özləri yemək üçün deyil, satlıq taxıl əkirlər. Nəhayət, onlardan daha yuxarıda nevrlər yaşayırlar, onlardan da şimala doğru, mənim bildiyimə görə, insan ayağı dəyməyən çöllər gəlir. Borisfendən qərbdə olan Hipanis çayı boyunca bu qəbilələr yaşayır.

18. Dəniz tərəfdən Borisfenin arxasınca öncə Hileya uzanıb gedir, ondan şimalda əkinçi iskitlər yaşayırlar. Hipanis çayı qırağında yaşayan ellinlər onları borisfenlilər, özlərini isə olviopolitlər adlandırırlar. Bu əkinçi iskitlər şərqə doğru Pantikap çayına qədər üç günlük, şimala doğru Borisfenlə yuxarıya isə on bir günlük su yolu olan bölgəni tuturlar. Onlardan yuxarıda uzanıb gedən çöl gəlir. Çölün arxasında androfaqlar - əlahiddə, amma iskit olmayan bir tayfa yaşayır. Buradan şimala doğru əsl səhra uzanır və mənim bildiyimə görə orada heç bir insan yaşamır.

19. Bu əkinçi iskitlərdən şərqə doğru, Pantikap çayının o biri tərəfində köçəri iskitlər yaşayırlar; onlar heç nə əkib, heç nə də biçmirlər. Hileyadan başqa, bütün İskit Elində rast gəlməzsən. Bu köçərilər isə şərqə doğru Herr çayına qədər on günlük yolu olan bir bölgəni tuturlar.

downloaded from KitabYurdu.org

20. Herr çayının arxasınca hökmdar torpaqları deyilən bölgə gəlir. Orada ən rəşadətli və çoxsaylı iskit qəbiləsi yaşayır. Bunlar başqa iskitləri öz hakimiyyəti altında olan qəbilələr sayırlar. Onların bölgəsi cənuba doğru Tavrikaya13 qədər, şərqə doğru-kor qullardan törəmələrin qazdığı xəndəyə və Meotida gölünün Kremna adlanan limanına qədər olan yerləri, əhatə edir. Onların bölgələrinin başqa hissələri isə hətta Tanaislə sınırlanır. Bu hökmdar iskitlərdən şimala doğru melanxlenlər-iskit olmayan qəbilə yaşayır. Melanxlenlərdən şimala doğru, mənim bildiyimə görə, bataqlıq və insan yaşamayan bir ölkə uzanır.

21. Tanais çayının o biri tərəfi artıq iskit ölkəsi deyil, amma oradakı ilk torpaqlar savromatlarındır. Savromatlar Meotida gölünün çalasından başlayaraq şimala doğru on beş günlük yol məsafəsində nə yabanı, nə də əkilmiş ağacları olan bir zolağı tuturlar. Onlardan yuxarı, ikinci torpaq sahəsinə sahib olan budinlər yaşayırlar. Torpaq burada müxtəlif cinsli sıx meşə ilə örtülüdür.

22. Budinlərdən sonra şimala tərəf yeddi günlük çöl uzanır, daha sonra şərqə doğru fissagetlər - çoxsaylı və özünəməxsusluğu ilə seçilən bir qəbilə yaşayır. Onlar ovla dolanırlar. Həmin tərəflərdə onlarla qonşuluqda iirki14 adlanan adamlar yaşayır. Onlar da ovçuluq edir və heyvanı bu yolla tuturlar: ovçular ağaca çıxıb ov güdürlər (axı, bütün ölkə sıx meşəlikdir). Hər ovçunun görünməmək üçün qarnı üstə çökməyə öyrədilmiş atı və iti vardır. Ovçu gördüyü ovu ağacdaca oxla vurur, sonra atın üstünə atılıb, ovu qovmağa başlayır, it də onun ardınca qaçır. İirkilərdən üstə, şərqə doğru başqa iskit qəbilələri yaşayırlar. Onlar hökmdar iskitlərin zülmündən qurtarıb bu torpaqları tutmuşdular.

23. Bu iskitlərin bölgəsinə qədər xatırlatdığımız bütün ölkə qalın torpaq qatı ilə örtülmüş düzənlikdir. Oradan o yana torpaq daş kimi bərk və kələ-kötürdür. Bu daşlıq sahədəki uzun sürən keçiddən sonra uca dağların ətəyində məskun bir ölkəyə gəlib çıxırsan. Deyilənə görə, kişili və qadınlı onların hamısı anadangəlmə dazbaş,15 yastıburun və buxaqlıdırlar. Onlar əlahiddə bir dildə danışır, iskit sayağı geyinir, ağac meyvələri ilə qidalanırlar. Meyvəsini yedikləri ağacın adı pontikdir. Bu ağacın

downloaded from KitabYurdu.org

hündürlüyü əncir ağacı boydadır, onun meyvəsi paxlaya oxşayır, amma çəyirdəyi olmur. Dəymiş meyvəni parçaya töküb sıxırlar, ondan "asxi"16 adlanan qara şirə axır. Onlar bu şirəni yalayır və südə qatıb içirlər. Asxi cecəsindən yeməli kökələr hazırlayırlar. Yaxşı otlaqlar olmadığından onların mal-qarası azdır. Hər kəs ağac altında17 yaşayır. Qışda hər dəfə ağacı qalın ağ keçə ilə örtür, yayda isə açırlar. Müqəddəs sayıldıqlarına görə heç kəs onları incitmir, onların döyüş silahı belə yoxdur. Onlar qonşularının çəkişmələrini kəsirlər. Hər hansı bir sürgün onlarda sığınacaq taparsa, heç kəs onu incitməyə cəsarət etməz. Bu xalq argippeylər adlanır.

24. Bu dazbaş adamlara qədər olan ölkələr və o tərəflərdə yaşayan xalqlar yaxşı məlumdurlar, çünki iskitlər hərdən bir buralara gəlirlər. Axı, bunların haqqında təkcə iskitlərdən deyil, Borisfen ticarət limanı və başqa Pont ticarət şəhərlərinin ellinlərindən asanlıqla bilgi almaq olur. İskitlər isə argippeylərin yanına gələndə onlarla yeddi dilmanc vasitəsilə yeddi dildə danışıq aparırlar.

25. Beləliklə, bu dazbaş adamlara qədər olan bölgələr bizə bəllidir, onlardan yuxarıdakı xalqlar haqqındasa heç kəs dəqiqliklə danışa bilməz. Bu ölkələri hələ heç kəsin keçmədiyi uca, keçilməz dağlar ayırır. Dazbaşların dediklərinə görə dağlarda keçiayaqlı adamlar yaşayırlar (hərçənd mən buna inanmıram), bu dağların arxasında ilin altı ayını yatan başqa adamlar yaşayırlar. Buna mən heç inanmıram. Dazbaşlardan şərq tərəfdəki bölgələr dürüst bəllidir: orada issedonlar yaşayırlar. Amma issedonlardan və dazbaşlardan şimala doğru onların özlərinin danışdıqlarından başqa heç nə bilmirik.

26. İssedonların adətləri haqqında bunları danışırlar. Birinin atası öləndə bütün qohumları heyvan gətirir, onu kəsir, ətini tikə-tikə doğrayırlar. Sonra evinə gəldikləri adamın mərhum atasının cəsədini də tikə-tikə doğrayıb heyvan ətinə qatırlar və qonaqlıq düzəldirlər (xeyrat verirlər). Mərhumun kəlləsindən dərini soyub kəllə sümüyünün içini təmizləyir, sonra onu qızıla tutur və müqəddəs səcdəgah kimi saxlayırlar. Bu səcdəgaha hər il bol qurban verirlər. Ata şərəfinə qurbanı oğul verir

downloaded from KitabYurdu.org

(bu da ellinlərdəki ehsan bayramı sayağı olur). Belə adamlar da mömin sayılırlar. Arvadlar isə onlarda kişilərlə tam bərabər hüquqludurlar.

27. İssedonlar haqqında bizdə beləcə bilgi var. İssedonların özlərinin söylədiklərinə görə, onlardan yuxarılarda taygöz adamlar və qızıl güdən qriflər yaşayırlar. İskitlər bu haqda bilgini issedonların dilindən verirlər, biz də bunları və başqa bilgiləri iskitlərdən öyrənib, onları iskitcə arimasp adlandırırıq: iskitlərdə "arima"-tək, "spu"-göz mənasında işlənir.

28. Adları çəkilən bütün ölkələrdə qış çox sərt keçdiyindən orada səkkiz ay dözülməz soyuqlar olur. Bu vaxtlar yerə nə qədər su töksən də palçıq olmur, palçıq yalnız tonqal çatanda olur. Burada dəniz və Kimmeriya Bosporu tamam donur, ona görə də xəndəyin bu tərəfində yaşayan iskitlər öz arabaları ilə buz üstündə yürüşə çıxıb o biri sahildəki sindlərin torpağına qədər keçib gedirlər. Belə soyuqlar həmin ölkələrdə səkkiz ay çəkir, qalan dörd ay isə heç də isti olmur. Ümumən, oranın havası başqa ölkələrin havasından tamamilə fərqlənir: başqa ölkələrdə yağış mövsümü olanda orada yağış heç yağmır; yayda isə əksinə, bərk yağışlar yağır. Başqa yerlərdə tufan qopanda burada olmur, yayda isə burada tez-tez tufan qopur. Qışda tufan qopması, möcüzə kimi təəccüb doğurur. Eləcə də, qışda və yayda yer tərpənməsi İskit Elində qəribə görünür. Belə sərt qışa atlar asanlıqla dözürlər, qatırlar və eşşəklər isə dözmürlər. Başqa ölkələrdə isə, tərsinə, soyuqda atların sümüyü donur, eşşəklərə və qatırlara isə soyuq təsir etmir.

29. Bu soyuğun ucbatından oradakı buynuzsuz buğa cinsi heç buynuz çıxarmır. Homerin "Odisseya"sındakı bir misra mənim bu fikrimi təsdiq edir:

Liviyada quzu gördüm öz buynuzuyla;18

Bu da tamamilə doğrudur, çünki isti ölkələrdə buynuz tez çıxır. Tərsinə, bərk soyuq olanda heyvanların buynuzu ya heç çıxmır, ya da balaca olur.

downloaded from KitabYurdu.org

30. İskit Ellində bu, soyuğun nəticəsidir. Bununla belə, bütün Eleyada qatır doğulmur (Mənim bu hekayətim lap əvvəldən bu cür ricətlər üçün mənə imkan verir). Halbuki, bu ölkə heç də soyuq deyil və orada qatırın doğulmamasının başqa bir səbəbi görünmür. Eleyalıların özlərinin iqrarına görə, onlarda qatırın doğulmaması hansısa bir qarğışın ucbatındandır. Döl vaxtı çatanda madyanları qonşu bölgəyə qovub aparırlar və orada madyanlar boğaz olana qədər anları eşşəklərlə cütləşdirirlər. Sonra madyanları qovub geri qaytarırlar.

31. Xatırlatdığım lələklər və iskitlərin dediklərinə görə, havanın lələklə dolu olması üzündən nə uzağı görməyin, nə də keçib getməyin mümkün olmaması haqqında mən bu fikirdəyəm. İskit torpağından şimala doğru həmişə (əlbəttə, yayda qışdakına nisbətən az) qar yağır. Beləliklə, dediyim qar lopalarını kim görübsə, o, məni başa düşər; axı, qar lopaları quş tükünə oxşayır və dünyanın bu (hissəsinin şimal bölgələri qışın son dərəcə sərt keçməsi üzündən məskunlaşmamışdır. Beləliklə, mənim təsəvvürümə görə, iskitlər və onların qonşuları, obrazlı desək, qar lopalarını lələk adlandırırlar. Ən ucqar ölkələr haqqında bizim bilgimiz bax, bu qədərdir.

32. Hiperboreylər haqqında issedonlardan başqa nə iskitlər bir şey bilirlər, nə də yer üzünün bu bölgələrindəki başqa xalqlar. Bununla yanaşı, mənim düşündüyümə görə hiperboreylər haqqında issedonlar da bir şey bilmirlər: əks halda, taygöz adamlar haqqında issedonların danışdıqlarını elə iskitlər də danışa bilərdilər. Amma hər halda Hesiodda hiperboreylər haqqında bilgi var. Homer də "Epiqonlar"da (bu poema doğrudan da Homerindirsə) onları xatırlayır.

33. Hiperboreylər haqqında deloslular daha çox şeylər danışırlar. Onların danışığına görə hiperboreylər iskitlərə taxıl kövşəninə bükülmüş qurbanlıq nəzirləri göndərirlər. Nəzirləri iskitlərdən onların yaxın qonşuları qəbul edir və hər xalq onları öz qonşusuna ötürə-ötürə nəzirlər qərbin lap ucqarında Adriatik dənizinə qədər gedib çatır.19 Nəzirləri oradan cənuba göndərirlər: bu hədiyyələr öncə Dodona ellinlərinə çatır, sonra onları Mali körfəzinə aparır və Yevbeyaya keçirirlər. Burada nəzirləri şəhərbəşəhər Karistə qədər daşıyırlar. Amma Androsun yanından ötürlər, çünki

downloaded from KitabYurdu.org

karistlilər müqəddəs nəziri düz Tenosa, tenoslular da Delosa aparırlar, Deloslulların dediklərinə görə, müqəddəs nəzirlər bu yolla axırda Delosa gəlib çatır. Deloslular deyirlər ki, hiperboreylər birinci dəfə nəzirlərlə birlikdə Hiperoxa və Laodika adlı iki qız da göndəriblərmiş. Bu qızların təhlükəsizliyi üçün onları ötürən beş hiperborey şəhərlisi də yollayıblarmış. Bunlar indi perfereylər adlandırılan və Delosda çox böyük ehtiram sahibi olan adamlardır. Amma vaxt ötüb, elçilər isə vətənlərinə qayıtmayanda hiperboreylər hər dəfə yola salınan elçilərə bədbəxtlik üz verə biləcəyindən və evə dönməyəcəklərindən qorxuya düşmüşlər. Buna görə də, onlar taxıl samanına bükülmüş müqəddəs nəzirləri öz torpaqlarının sınırına qədər gətirməyə və qonşulara verərək, onların da başqa xalqlara ötürmələrini xahiş etməyə başlamışlar. Deyilənə görə, bəzirlər bu şəkildə yola salınmış və axırda Delosa çatdırılmışdır. Mənə bəllidir ki, müqəddəs nəzirlərin göndərilməsi başqa yerlərdə də belə olur. Məsələ, Frakiya və Peoniya qadınları hökmdar Artemidaya qurban gətirəndə həmişə müqəddəs nəzirləri taxıl samanına bükürlər.

34. Onların bu cür etdiklərini mən dəqiq bilirəm. Delosda ölmüş hiperborey qızlarının şərəfinə Delos qızları və yeniyetmə oğlanları saçlarını kəsdirirlər. Belə ki, qızlar toy qabağı hörüklərini kəsdirib milə dolayır, sonra hiperborey qızlarının qəbrinin üstünə qoyurlar (qəbir Artemida ibadətgahının sol tərəfindəki girəcəkdədir; qəbrin yanında zeytun ağacı var). Gənc oğlanlar isə saçlarını kiçik yaşıl budağa dolayıb, eyni ilə qəbrin üstünə qoyurlar. Delos əhalisi hiperborey qızlarına belə hörmət etməyi özlərinə borc bilirlər.

35. Deloslulların danışdığına görə, hələ Laodikadan və hiperokadan öncə hiperboreylər ölkəsindən eyni xalqların yanından keçərək Delosa Arqa və Opis deyilən iki gənc qadın gəlibmiş. Onlar tez və asan doğum üçün İlifiyaya vəd etdikləri müqəddəs nəzirləri gətirmişlər. Deyilənə görə, Arqa və Opis hiperborey ölkəsindən öz tanrıları (Apollon və Artemida) ilə birlikdə gəlmişlər. Deloslular bunlara da ehtiram göstərirlər. Delos qadınları onların şərəfinə nəzir yığırlar. Likiyalı Olenin yazdığı himndə qadınlar bu şərəfli qadınları adbaad anırlar. Bu adəti deloslulardan başqa adaların əhalisi və ionlar götürmüşlər. Onlar da Opis və Arqanın adı çəkilən

downloaded from KitabYurdu.org

himnlər oxuyurlar, həm də onlara müqəddəs nəzir toplayırlar. Həmin bu Olen Likiyadan Delosa gəlib Delosda oxunan daha başqa qədim himnlər yazmışdır. Deloslular mehrabda yandırılmış qurbanlıq heyvan budunun külünü Opis və Arqanın qəbri üstünə səpirlər. Bunların qəbri Artemida məbədinin şərq tərəfində keosluların ziyafət otağının lap yaxınlığındadır.

36. Beləliklə, hiperboreylər haqqında lazımi qədər danışıldı. Mən, deyilənə görə, Hiperborey olan Abaris20 haqqında rəvayəti xatırlatmaq istəmirəm: o, heç nə yemədən, əlində yay, bütün yerüzünü dolaşmışdır (mən, ümumən, hiperboreylərin olmasına inanmıram). Axı, ən ucqar şimalda olduğu kimi, ən ucqar cənubda da adamlar var. Yerin ümumi şəklinin düzgün izahını verə bilməyən bir çox adamların yer üzünün xəritəsini çəkmələrini görmək gülüncdür. Onlar, guya pərgarla çəkilmiş kimi dəyirmi olan yer ətrafını dövrələyən Okeanı təsvir edirlər. Asiyanı isə onlar həcm etibarı ilə Avropaya bərabər tuturlar. Ona görə də mən yer üzünün hər iki hissəsinin həcmi və hər birinin nə şəkillə olması haqqında qısaca danışacam.

37. Farslar Asiyada Qırmızı dəniz adlanan Cənub dənizinə qədər olan bölgədə yaşayırlar. Onlardan şimala midiyalılar, midiyalılardan yuxarıda saspirlər,21 saspirlərdən də yuxarıda Fasis çayının töküldüyü Şimal dənizi sınırında kolxlar yaşayırlar. Bu dörd xalq dənizdən dənizə olan bölgələri tuturlar.

38. Buradan qərbdə Asiyanın dənizdə iki yarımadası var; mən indi onları təsvir edəcəyəm. Bunun biri Şimal yarımadasıdır. O, Fasis çayından başlayıb Pont və Hellespont boğazı boyu Troyanın Sigey şəhərinədək uzanır. Cənubda bu yarımada Miriandin körfəzindən Finikiyada Triopi burnunadək dənizə uzanır. Bu yarımadada otuz ulus yaşayır.

39. Dediyim yarımadanın biri budur. İkincisi fars torpaqlarından başlayıb Qırmızı dənizə qədər uzanır. Bu yarımada Parsanı, ona bitişik Assuriyanı, sonra isə Ərəbistanı öz içinə alır. O, Daranın Nildən kanal çəkdirdiyi Ərəbistan körfəzində qurtarır (əlbəttə, bu adi bölgüdür). Beləliklə, geniş düzənlik Parsadan Finikiyayadək

downloaded from KitabYurdu.org

uzanıb gedir. Bu yarımada Finikiyadan sonra Bizim dəniz boyunca Fələstin Suriyasından Misirə keçir və oradaca da qurtarır. Bu yarımadada yalnız üç ulus yaşayır.

40. Asiyanın bu bölgəsi Parsadan qərbdə yerləşir. Qərbdən şərqə doğru isə farslardan yuxarılarda olan midiyalılar, saspirlər və kolxlar ölkəsindən sonra Hind okeanı, daha doğrusu (qədim) adı ilə desək Qırmızı dəniz, şimala doğru Kaspi dənizi və şərqə axan Aras çayı gəlir.22 Asiya Hindistana qədər məskunlaşmışdır. Bundan sonra şərq istiqamətində səhra uzanıb gedir və onun haqqında heç kəs heç nə deyə bilməz.

41. Asiyanın hüdudları və həcmi belədir. Liviya isə həmin bu ikinci yarımadada yerləşir, axı o, bilavasitə Misirə bitişir. Bu yarımada Misirdə çox dardır, belə ki, Bizim dənizin qıraqlarından Qırmızı dənizə qədər cəmi 100.000 orgiya, yəni 1000 stadiyadır. Liviya adlanan bu dar yerdən sonra yarımada yenə genişlənir.

42. Buna görə yer üzünün üç hissəsini-Liviya, Asiya və Avropanı şəkil və sahə baxımından fərqləndirmək mənə qəribə gəlir. Hərçənd, onlar, sahəcə doğrudan da, xeyli fərqlənirlər. Belə ki, Avropa uzununa görə də, eninə görə də, mən bilən, Asiya və Liviya ilə müqayisə oluna bilməz. Liviya da, mənə elə gəlir ki, Asiyaya birləşdiyi yerdən başqa dənizlə çevrələnmişdir. Mənim bildiyimə görə, bunu ilk dəfə Misir hökmdarı Neko sübut etmişdir. Nildən Ərəbistan körfəzinə çəkilən kanalın tikintisi dayandırılandan sonra hökmdar finikiyalıları gəmilərlə göndərərək onlara Herakl Sütunlarından keçib Şimal dənizinə çıxmağı və oradan Misirə qayıtmağı əmr etmişdir. Finikiyalılar Qırmızı dənizdən çıxıb Cənub dənizi ilə üzmüşlər. Payızda sahilə çatıb Liviyanın hansı yerlərinə çıxmışlarsa, oraların hamısında torpaq becərməyə başlamış, biçin vaxtını gözləmiş, məhsul toplanışından sonra yenə üzüb getmişlər. Üçüncü ilə keçəndə finikiyalılar Herakl Sütunlarını adlayaraq Misirə qayıtmışlar. Onların danışdıqlarına görə, Liviya ətrafında üzdükləri vaxt Günəş həmişə sağ tərəflərində olmuşdur23 (buna kim inanırsa inansın, mən inanmıram).

downloaded from KitabYurdu.org

43. Beləliklə, Liviyanın dənizlə əhatə olunduğu ilk dəfə sübuta yetirilmişdir. Sonralar karfagenlilər də Liviyanın ətrafına dolanmağa nail olduqlarını iddia edirlərmiş.24 Amma Liviyanın ətrafına dolanmaq üçün göndərilmiş Teaspi oğlu Stasp bunu edə bilməmişdir. Stasp açıq dənizdə uzunmüddətli üzgüdən qorxub geri dönmüşdür. Beləliklə də o, anasının təhlükəli tapşırığını yerinə yetirməmişdir. Bu Stasp Mehabazın oğlu Zopirin qızını zorlayıb təhqir edibmiş. Şah Kserks bunun üstündə onu çarmıxa çəkdirmək istəmiş, amma caninin anası, Daranın bacısı, Kserksdən oğluna rəhm göstərməyi xahiş etmişdir. Ananın dediyinə görə o, oğlunu hökmdarın istədiyindən də ağır cəzalandıra bilər. Ana təklif edib ki, qoy Stasp Liviya ətrafında üzüb yenidən Ərəbistan körfəzinə gəlsin. Kserks bu təkliflə razılaşmışdır. Stasp da Misirə gedib, orada Misir gəmiçiləri ilə bir gəmi hazırlamış və gəmini Herakl Sütunlarına doğru sürdürmüşdür. O, Soloent adlanan Liviya burnunu keçib cənuba sarı istiqamət götürmüşdür. Stasp geniş dənizdə aylarla üzsə də, yol ona sonsuz görünmüşdür. Ona görə də geri dönüb Misirə qayıtmışdır. Oradan şah Kserksin hüzuruna gələrək belə şeylər danışmışdır: Liviyanın uzaq yollarında onlar kiçik boylu, şümşad yarpaqlarından paltar geyinmiş adamlar yaşayan torpaqların yanından keçmişlər. Dənizçilər hər dəfə sahilə çıxanda, əhali kəndlərini buraxıb dağlara qaçırmış. Farslar onların kəndinə gəlir, heç kimə heç bir ziyan vurmadan yalnız mal-qaranı aparırlarmış. Liviya ətrafında üzməyin uğursuzluğunu isə Stasp belə izah etmişdir: onların gəmiləri saya üstünə çıxıbmış. Amma Kserks bunun doğruluğuna inanmamışdır. O, Staspı əvvəlki cəzaya məhkum etmişdir: əmri yerinə yetirməyən bu adamı şah çarmıxa çəkməyi hökm etmişdir. Staspın bir xacəsi öz ağasının edam olunduğunu eşidən kimi onun zəngin xəzinəsini götürüb Samosa qaçmışdır. Samosda bir şəhərli bu xəzinəni ələ keçirmişdir. Onun adını bilsəm də, bunu unutmağa çalışıram.

44. Asiyanın böyük hissəsi Daranın vaxtından bəlli olmuşdur. Şah hind çayının harada dənizə töküldüyünü bilmək istəyir (axı, bu, Nildən sonra timsah yaşayan yeganə çaydır). Dara bu məqsədlə doğruçuluğuna şəxsən inandığı bir neçə adamı gəmilərlə göndərir. Onların arasında kariandalı Skilak da varmış. Onlar Paktidəki

downloaded from KitabYurdu.org

Kaspatir şəhərindən yola düşmüşlər və şərqə doğru dənizə çatana qədər çayla aşağıya üzmüşlər. Sonra dənizlə qərbə tərəf gedərək otuzuncu ayda Misir hökmdarının finikiyalıları Liviya ətrafında üzmək üçün göndərdiyi yerə gəlib çatmışlar (o yer haqqında yuxarıda danışmışam). Bu adamların səfərindən sonra Dara hindliləri itaəti altına almış və o vaxtdan bu dənizdə də ağalıq etmişdir. Beləliklə, Asiyanın da Liviya kimi (şərq tərəfindən başqa) dənizlə əhatə olunduğu sübuta yetirilmişdir.

45. Avropanın da şərqdən və şimaldan dəniz ləpələri ilə döyüldüyü heç kəsə dəqiq bəlli deyil. Biz onun yalnız eninə görə dünyanın qalan iki hissəsinə bərabər olduğunu bilirik. Mən, hətta vahid torpaq olan dünyanın üç hissəsinə niyə qadın adı verildiyini də başa düşə bilmirəm Nilin və Kolxidada Fasis çayının (başqa məlumata görə Meotida gölünə tökülən Tanais çayının və Kimmeriya şəhəri Portmeyin) bu hissələr arasında sərhəd əmələ gətirməsini də başa düşmürəm. Bu üç hissəyə sərhəd müəyyənləşdirənlərin adlarını ortalığa çıxarmaq, həmin hissələrin kimlərin adından götürüldüyünü izah etmək də mümkün deyil. Axı, adətən Elladada düşünüldüyü kimi, Liviyanın adı Liviya adlı yerli qadının, Asiyanınkı isə Prometeyin arvadının adından götürülmüşdür. Bununla belə, lidiyalılar da Asiya adını özlərinə çıxmaq istəyirlər. Onların dediyinə görə Asiya adı Prometeyin arvadından deyil, Manesin nəvəsi, Kotisin oğlu Asiyin adındandır. Ona görə də Sardanın bir məhəlləsi Asiada adlanır. Avropaya gəldikdə, onun torpaqlarını dənizin döyüb döymədiyini, adının haradan götürüldüyünü, kimin onu belə adlandırdığını heç kəs bilmir. Ya da gərək bu ölkənin öz adını Tir Avropasından aldığını təsəvvür edəsən (axı, keçmişlərdə yer üzünün başqa hissələri kimi, bu hissə də adsız olmuşdur). Amma, hər halda Avropa adlanan bu qadın Asiyadan törəmədir və o, indi ellinlərdə Avropa adlanan ölkəyə heç vaxt gəlməmişdir. O, yalnız Finikiyadan Kritə, oradan da Likiyaya getmişmişdir. Amma bu haqda daha bəsdir. Mən ümumən qəbul olunmuş fikrə tərəfdar çıxıram.

46. Daranın yürüş etdiyi Evksin Pontundakı ölkələr içində iskit ulusu ilə yanaşı, ən cahil qəbilələr yaşayırlar. Axı, Pontun bu tərəfində bircə mədəni qəbilənin də adını çəkmək olmaz və biz onların arasında iskit Anaxarsisdən başqa tanınmış bir adama da rast gəlmirik. Bildiyimiz bütün tanınmış xalqlar içərisində yalnız iskitlər bircə

downloaded from KitabYurdu.org

sənətə, amma insan həyatı üçün ən vacib sənətə yiyələniblər. Bu da odur ki, iskitlər onların yurduna hücum etmiş bircə düşmənə də xilas olmaq imkanı vermirlər; həm də iskitlər özləri yol verməsələr, heç kəs onları yaxalaya bilməz. Axı, iskitlərin nə şəhərləri, nə də möhkəmləndirilmiş qalaları var; onlar evlərini də özləri ilə aparırlar. Onların hamısı süvari oxatanlar olub, əkinçiliklə deyil, heyvandarlıqla məşğul olurlar. Onlar alaçıqlarda yaşayırlar. Belə bir xalq necə də yenilməz və basılmaz olmasın?

47. İskitlərin bu xüsusiyyətinə, əlbəttə, onların torpaqları və çayları da kömək edir. İskit Eli bol otlaqlıqlar, suvarılan düzənliklər yurdudur. Bu düzənliklərdən, demək olar ki, Misirdəki kanallar qədər çaylar axır. Mən yalnız məşhur olan və gəmiləri dənizdən ölkənin dərinliklərinədək aparan gəmiçilik əhəmiyyətli çayların adını çəkəcəyəm. Bunların hamısından öncə beş qollu İstr, sonra Tiras, Hipanis, Borisfen, Pantikap, Hipakiris, Herr və Tanais25 çaylarıdır. Bu çayların axarı haqqında aşağıdakıları demək lazımdır.

48. İstr bizə bəlli olan çayların ən böyüyüdür; Qışı da, yayı da o eyni həcmdə olur. Bu, qərbdə İskit Elinin birinci çayıdır. O, bax aşağıdakı səbəblərə görə ən böyük çay olur: İstrə başqa çaylar da töküldüyünə görə o, bol suludur. Bunların beşi İskit torpaqlarından axır: iskitlərin Porata dedikləri çayı ellinlər Piret adlandırırlar. Bundan sonra Tiarant, Arar, Naparis və Ordess çayları gəlir. Adları çəkilənlərin birincisi böyükdür, şərqə doğru axır və İstrə tökülür. Tiarant adlanan ikinci çay daha çox qərb istiqamətində axır, özü də birincidən kiçikdir. Arar, Naparis və Ordess isə ilk iki çayın arası ilə axıb İstrə tökülür.

49. İstrin bu qolları öz başlanğıcını İskit Elinin özündən alır. Maris çayı isə Ağafirslər ölkəsindən axıb İstrə tökülür, Şimalda Hem dağının zirvələrindən üç böyük çay axıb gəlir: Atlant, Avras və Tibisis. Sonra İstrə Frakyadan və Frakiya krobizləri ölkəsindən axan Afris, Noes və Artanes çayları tökülür. Daha sonra peonların bölgəsindən və Rodop dağlarından axıb Hemi ortadan kəsən və İstrə tökülən Kios çayı gəlir. İlliriyadan şərqə, Triball düzənliyinə axan Anqr çayı gəlib

downloaded from KitabYurdu.org

Bronq çayına qovuşur, Bronq da İstrə tökülür. Beləliklə, İstr bu iki böyük çayı da öz sularına qatır. Ombriklərin şimal ölkəsindən Karpis və Alpis çayları şimala doğru axıb İstrə tökülür. Axı, İstr kinetlərdən sonra Avropanın ən qərb ulusu olan keltlər ölkəsindən başlayıb bütün Avropadan axıb gedir. Beləliklə, İstr bütün Avropanı keçib İskit Elinin ucqarında dənizə tökülür.

50. Beləliklə, adları çəkilən və çəkilməyən çoxlu çaylar İstrə töküldüyünə görə o, ən böyük çaylardan biri olur. (Nil ilə İstri müqayisə edəsi olsaq), əlbəttə, Nil öz-özlüyündə daha bol suludur. Doğrudan da, Nilə heç bir çay və başqa mənbələr tökülmür ki, bunlar onu daha sulu edə bilsinlər. İstr sularının qışı da, yayı da eyni səviyyədə qalması, görünür, belə izah edilə bilər: qışda bu çayın suları özünün təbii səviyyəsinə gəlib çatır və ya təbii səviyyədən bir qədər qalxır, çünki həmin ölkələrdə bu vaxt yağış təkəmseyrək olur, amma daim qar yağır. Yay vaxtlarında isə qışdan qalma qar əriyib hər tərəfdən İstrə tökülür. Bax, bu əriyən qar və bol yağışlar axıb çayı doldurur (axı, yağışlar orada yayda olur). Günəş yayda suyu qışa nisbətən nə qədər çox özünə cəzb edirsə, İstr də qışa nisbətən yayda bir o qədər bol sulu olur. Buxarlanma ilə yağma bir-birini əvəz edəndə tarazlaşma əmələ gəlir.

51. Beləliklə, İstr İskit Elinin birinci çayıdır. Ondan sonra Tiras gəlir. Bu, şimaldan axıb başlanğıcını İskit Eli ilə nevrlər ölkəsinin sınırındakı bir göldən alır. Bu çayın; mənsəbində tritamlar adlanan ellinlər yaşayır.

52. Üçüncü çay-Hipanis başlanğıcını İskit Elindən alır. Bu da ətrafında vəhşi ağ atlar otlayan böyük bir göldən axıb gəlir. Bu göl haqlı olaraq "Hipanis anası" adlanır. Çay göldən çıxandan sonra yalnız azacıq bir müddət (beş günlük yol) içməli olur, sonrakı dörd günlük gəmi yolu zamanı lap dənizin özünə qədər acılaşır, duzlaşır. Axı onun axarına, o qədər böyük olmasa da, Hipanisin sularını tamamilə acılaşdıran çox duzlu su qarışır. (Hipanis də, axı, çox çaylardan böyükdür). Həmin suyun mənbəyi iskitlərlə alizonların sınırındadır. Mənbənin özünün və axdığı yerin adı iskitcə Eksampey, ellin dilində Müqəddəs yollar adlanır. Tirasla Hipanis alizonlar

downloaded from KitabYurdu.org

torpağında bir-birinə çox yaxınlaşsa da, sonra hər iki çay müxtəlif istiqamətə burulur və aralarındakı məsafə genişlənir.

53. Dördüncü çay-Borisfen İstrdən sonra buradakı bütün çayların ən irisidir. Mənim fikrimcə, o, təkcə iskit çayları içərisində yox, Misir Nilindən başqa (çünki Nili heç bir çayla müqayisə etmək olmaz) bütün digər çaylardan daha bol nemətlidir. Buna görə də Borisfen başqa çaylardan daha gəlirlidir; onun qıraqlarında heyvan üçün şirəli otlaqlıqlar uzanıb gedir; orada çoxlu və ən yaxşı balıq olur; çayın içmək üçün xoş təmli, (İskit Elindəki başqa bulanıq çaylara nisbətən) duru suyu var. Borisfen boyu əkinlər çox yaxşıdır, əkin olmayan yerlərdə isə. Hündür ot uzanıb gedir. Borisfenin mənsəbində öz-özünə olduqca çox duz yığılır. Çayda "antakeya" adlanan çox böyük, sümüksüz balıq və daha başqa qəribə məxluqat olur. Şimaldan Borisfenin axarı dənizdən Herr torpağına qədər gəmi ilə qırx günlük məsafəyədək bəllidir. Amma bu çayın şimala doğru hansı qəbilələrin bölgəsindən axdığını heç kəs deyə bilməz. O, görünür, əkinçi iskitlərə qədər çöllük yerlərdən keçib gedir. Axı, bu İskitlər çay qıraqları boyu on günlük su yolu məsafəsində yaşayırlar. Bu və bir də Nil yeganə çaylardır ki, adamlar onların mənbələrini göstərə bilmirlər. (Mənim düşündüyümə görə, ellinlərdən də heç kəs bunu bilmir). Borisfen dənizin yaxınlığında artıq qüdrətli çaydır. Burada eyni limana tökülən Hipanis də onunla birləşir. Bu çaylar arasındakı pazşəkilli yerə Hippolay burnu deyilir. Orada Demetra məbədgahı ucaltmışlar. Hipanisdə məbədgahla üzbəüz borisfenlilər yaşayırlar.

54. Bu çaylar haqqında mənim bilgim bu qədərdir. Bunların ardınca Pantikap adlı beşinci çay gəlir. O da şimaldakı bir göldən axıb gəlir. Onunla Borisfen arasında əkinçi iskitlər məskunlaşmışdır. Pantikap Hileya bölgəsindən axaraq, sonra onu ötüb Borisfenə tökülür. 55. Altıncı çay-Hipakiris öz başlanğıcını göldən alıb köçəri iskitlərin bölgəsini yarı bölür, sonra Axilles cıdırı deyilən yeri sağda qoyub, Karkinitida şəhəri yaxınlığında dənizə tökülür.

downloaded from KitabYurdu.org

56. Yeddinci çay-Herr Borisfenin axarının bilinmədiyi yerindən axır. O, eyni adlı Herr deyilən yerdə qollara ayrılır. Bu çay köçəri və hökmdar iskitlərin torpaqları arasında sınır yaradıb, sonra Hipanisə tökülür.

57. Axırıncı-səkkizinci çay Tanaisdir. O, yuxarıdan axıb başlanğıcını böyük bir göldən alır və daha böyük göl olan Meotidaya tökülür. (Bu çay hökmdar iskitləri sarmatlardan ayırır). Tanaisə Sirgis adlı başqa bir çay da tökülür.

58. İskit Elini suvaran, bax, bu əhəmiyyətli çaylardır. İskit Elində bitən ot bizim bildiyimiz otlara nisbətən heyvanlarda daha çox öd ifrazı yaradır. Heyvan cəmdəyinin yarılması bizi buna inandırır.

59. Beləliklə, yaşayış üçün vacib olan hər şeyi əldə etmək iskitlərə asandır. İskit adətlərinə gələndə, onlar belədir. İskitlər yalnız aşağıdakı tanrılara səcdə edirlər. Öncə Hestiyaya, sonra Zevsə və Heyaya (Heya onlarda Zevsin arvadı sayılır); bunlardan sonra Apollona və Göy Afroditasına, Herakla və Aresə. Bu tanrıları iskitlərin hamısı qəbul edir, eləcə də hökmdar iskitlər adlananlar bir də Poseydona qurban verirlər. İskit dilində Hestiya-Təbiti, Zevs-məncə, tamamilə doğru olaraq-Papey,26 Heya-Api, Apollon-Qoytosir,27 Göy Afroditası-Argimasa, Poseydon-Fakimasad adlanır. İskitlərdə Aresdən başqa tanrılara səcdəgah və məbəd tikmək dəb deyil. Aresə isə belə tikililər ucaldırlar.

60. Onlarda tanrılara qurban vermək və bütün bayram adətləri eynidir və belə icra olunur: qurbanlıq heyvanın qabaq ayaqlarını bağlı saxlayırlar. Qurban gətirən adam heyvanın arxasında dayanıb bağın ucundan çəkir, sonra heyvanı yerə yıxırlar. Heyvan yıxılanda kahin qurbanlıq əhd olunmuş tanrının adını çəkir. Sonra o ilgəki heyvanın boynuna keçirib ilgəkə salınmış çubuğu buraraq heyvanı boğur. Bu vaxt ocaq qalanmır, tanrıya ithaf olmur və şərab içilmir. Daha sonra heyvanın dərisini soyur və ətini bişirməyə başlayırlar.

downloaded from KitabYurdu.org

61. İskit Elində meşə son dərəcə az olduğundan iskitlər ət bişirmək üçün belə bir şey fikirləşiblər; qurbanlıq heyvanın dərisini soyandan sonra onlar əti sümükdən ayırır və (yanlarında qazan varsa), əti özlərinin qayırdıqları qazanlara tökürlər. Bu qazanlar çaxırın su ilə qatışdırıldığı Lesbos qablarına çox oxşayır, amma onlardan xeyli iri olur. Əti qazanlara doldurub qurbanlıq heyvanın sümüyünü yandırır, əti onun üstündə bişirirlər. Onların belə qazanları olmayanda əti heyvanın qarnına doldurub üstünə su tökürlər, altında da sümük yandırırlar. Sümüklər yaxşıca yanır, sümükdən təmizlənmiş ət də qarına tamam sığışır. Beləliklə, buğa, eləcə də başqa qurbanlıq heyvanlar özləri özlərini bişirirlər. Ət bişiriləndə qurban verən adam ətin bir hissəsini və içalatı tanrının adına çıxıb öz qarşısında yerə atır. Başqa ev heyvanlarını, xüsusən atları da qurban kəsirlər.

62. Onlar müxtəlif tanrılara belə heyvanlardan qurban gətirir və bu yolla qurban verirlər. Ares qurbanını isə belə icra edirlər. Hər bir iskit bölgəsində Aresə belə məbədlər ucaldılmışdır: eni və uzunu təqribən üç stadiya olan bir sahədə ondan az hündürlükdə çır-çırpını üst-üstə qalaqlayaraq dağ kimi qaldırırlar. Onun üstündə dördbucaqlı meydança düzəldilir. Onun üç tərəfi şaquli olur, dördüncü tərəfdən üstünə çıxmaq üçün yol qoyulur. Bu qurğu yağış-yağmurdan tədricən çökür, ona görə də ildə buraya yüz əlli araba çırpı tökmək lazım gəlir. Belə çırpı təpələrinin hər birinin üstünə qədimi dəmir qılınc sancılır. Bu, Ares səcdəgahıdır. Bu qılınca, hətta başqa allahlara veriləndən də çox at və buynuzlu heyvan qurbanı gətirirlər. Hər yüz əsirdən birini qurbanlıq ayırırlar; amma onu heyvanı kəsdikləri üsulla yoxu başqa qaydada qurban verirlər. Öncə əsirlərin başına çaxır səpirlər və qurbanları qabın üstünə tutub kəsirlər. Sonra qanı çırpı yığınının üstünə çıxarıb onu qılıncın üstünə çiləyirlər. Səcdəgahın aşağısında isə belə mərasim düzəldilir: kəsilmiş qurbanların sağ çiynini qolu ilə birlikdə çapır və havaya tullayırlar; qurbanlıq əsirin qolu düşdüyü yerdə, cəsədi isə başqa yerdə qalır. Bunun ardınca başqa heyvanları kəsirlər və bununla da mərasimi bitirib dağılışırlar.

63. İskitlərdə qurban mərasimi bu cür olur. Onlar donuzları qurban kəsmirlər və ümumən bu heyvanları öz ölkələrində yetişdirmək istəmirlər.

downloaded from KitabYurdu.org

64. İskitlərin hərbi adətləri belədir: iskit ilk düşməni öldürəndə onun qanını içir.28 İskit döyüşçüsü vuruşmada öldürdüyü bütün düşmənlərin başını hökmdara gətirir. Axı, ancaq düşmən başı gətirən döyüşçü özünə qənimət payı alır, baş gətirməyənə qənimət verilmir. Başın dərisini bu üsulla soyurlar: qulaqların yanından başın dərisini dəyirmi kəsirlər, sonra tüklərdən tutur, başı silkələyib dəridən ayırırlar.29 Bundan sonra dərini ətdən buğa qabırğası ilə sıyırıb əlləri ilə övkələyirlər. Hazırlanmış belə dəridən iskit döyüşçüsü əl dəsmalı kimi istifadə edir, onu öz atının yüyəninə bağlayıb onunla məğrurcasına öyünür. Kimin belə dəri dəsmalı olursa o, ən cəsur ər sayılır. Bəzi döyüşçülər soyulmuş belə dərilərdən hətta keçi dərisi kimi büründəcək tikirlər. Bəziləri isə düşmən meyitinin sağ qolunun dırnaqla birlikdə soyulmuş dərisindən özlərinin sadaxları üçün örtük hazırlayırlar. Doğrudan da, insan dərisi qalın və parıltılı olur və bütün başqa dərilərdən daha çox parıldayır. İskitlərin çoxu düşmən meyitinin bütün dərisini soyurlar, onu taxtaya çəkir, sonra at üstündə özləri ilə aparırlar.

65. İskitlərin hərbi adətləri belədir. (Ən qəddar düşmən) başı ilə belə rəftar edirlər: öncə kəllə sümüyünü qaşlardan yuxarı mişarlayıb içini təmizləyirlər. Kasıb bu kəlləni bayırdan yalnız öküzün xam gönünə tutur və ondan elə bu şəkildə istifadə edir. Varlı adamlar isə kəlləyə öncə bayırdan xam gön çəkir, sona da içini qızıla tutdurub cam əvəzinə istifadə edirlər. İskitlər öz qohumlarının kəlləsi ilə də belə rəftar edirlər. (Qohum iskitlər dalaşıb hökmdar məhkəməsi qarşısında duranda qalib gələn məğlubun başından cam düzəldir). Hörmətli qonaqları gələn ev yiyəsi bu cür kəllələri ortaya çıxarıb qonaqlara deyir ki, bu qohumları ona düşmən olmuşlar və o, bunlara qalib gəlmişdir. İskitin bu cür hərəkəti onun rəşadətli əməli sayılır.

66. Hər hökmdar ildə bir dəfə öz nahiyəsində çaxırı su ilə qatışdırmaq üçün qab düzəltdirir. Bu qabdan yalnız düşmən öldürmüş adam çaxır içir. Hələ düşmən öldürməyə macal tapmayanlar bu qabdan çaxır içə bilməzlər, onlar rüsvay olmuşlar kimi gərək çəkilib kənarda otursunlar. Bu da iskitlər üçün ən eyibli şeydir. Bunun tərsinə, çox düşmən öldürmüş adamlara iki cam çaxır gətirirlər, o da bunları bir dəfəyə içir.

downloaded from KitabYurdu.org

67. İskitlərdə çoxlu gələcəkdən xəbər verənlər var. Onlar çoxlu söyüd çubuqları vasitəsilə bu tərzdə fala baxırlar: böyük çubuq bağlamalarını gətirib yerə qoyurlar. Sonra bağları açıb çubuqları bir-birinin yanınca cərgəyə düzür və qeybdən xəbər verməyə başlayırlar. Bu vaxt falçılar çubuqları bir-bir yığıb yenə bağlayırlar. Onlarda bu fal üsulu sələflərdən nəslən keçmədir. Enareyalar-kişi sayağı qadınlar onlara falçılıq sənətini Afroditanın bəxş etdiyini deyirlər. Bunlar cökə yarpağından düzəldilmiş hamam lifi vasitəsi ilə fala baxırlar. Həmin lifi üç hissəyə bölür, onları barmaqlarına dolayır, sonra yenə açır və bunu edə-edə gələcəkdən xəbər verirlər.

68. İskit xaqanı xəstələnəndə o, üç nəfər ən hörmətli falçı gətirməyi buyurur. Onlar yuxarıda xatırladılan üsulla fala baxırlar. Adətən, gələcəkdən xəbər verənlər təxminən bu cür deyirlər: filan yerdə yaşayan filankəs (həmin adamın adını çəkirlər) xalqam ocağının tanrısına saxta and içibmiş, (iskitlər xüsusilə müqəddəs and içmək istəyirlərsə, onda adətən xaqan, ocağına təntənəli and içirlər). Yalan and üstündə təqsirləndiriləni dərhal tutub xaqanın yanına gətirirlər. Gələcəkdən xəbər verənlər ittiham olunan şəxsi, tanrıya sorğudan sonra aydınlaşdığı kimi, xaqan ocağı tanrısına yalandan and içdiyinə və guya bu səbəbdən xaqana xəstəlik üz verdiyinə görə ifşa edirlər. Müttəhim bunu hiddətlə rədd edir. O, ittihamı boynuna almırsa, onda xaqan iki qat sayda təzə falçılar çağırılmasını əmr edir. Bunlar da fala baxandan sonra müqəssirin günahını; təsdiq edirlərsə, onda həmin adamın dərhal başı vurulur, əmlakı isə çöp atmaq yolu ilə ilk dəfə çağırılan falçılara çatır. Tərsinə, ikinci falçı dəstəsi müttəhimə bəraət qazandırarsa, onda yenidən dönə-dönə falçılar çağırılır. Onların çoxu bəraət hökmü çıxararsa, onda ilk falçıların özlərinə ölüm hökmü kəsilir.

69. Falçılar belə edam edilirlər: öküzlər qoşulmuş arabanı dolana qədər çırpı ilə yükləyirlər. Ayaqları bağlı qolları kürəsinə burulmuş falçıları çırpının arasına dürtürlər. Çırpıya od vurub, sonra öküzləri hürküdərək qovurlar. Bəzən falçılarla birlikdə öküzlər də məhv olurlar. Amma, hər halda, araba dişləsi od tutub yananda öküzlər yanğına məruz qalsalar da, bəzən xilas olurlar.

downloaded from KitabYurdu.org

Falçıları saxta peyğəmbər adlandırıb, başqa qəbahətlərinə görə də xatırladılan üsulla yandırırlar. Xaqan edam olunanların hətta uşaqlarını da bağışlamır, onların bütün oğullarını edam etdirir, qızlarını isə incitmir.

70. Andla müqəddəsləşən dostluq müqavilələri iskitlərdə belə həyata keçirilir: müqavilə iştirakçılarının qanı qatılmış şərabı böyük gil qaba tökürlər (qan çıxarmaqdan ötəri dəriyə biz batırırlar, ya da dərini bıçaqla yüngülcə çərtirlər). Sonra qılıncı, oxları, döyüş baltasını və süngünü qabın içinə salırlar. Bu mərasimdən sonra uzun-uzadı ovsunlar oxuyur, daha sonra həm müqavilə iştirakçılarının özləri, həm də burada olan daha hörmətli adamlar qabdan çaxır içirlər.

71. Xaqan qəbirləri Herrdədir. (Bu yerə qədər Borisfen çayı su yolu kimi əlverişlidir). İskit xaqanı öləndə orada böyük dördkünc xəndək qazırlar. Xəndəyi hazırlayıb, cəsədi arabaya qaldırır və mumlayırlar, sonra mərhumun qarnını yarıb onu təmizləyirlər və döyülmüş (kiperlə), ətirlərlə, (selereya) toxumları və cirə ilə doldururlar.30 Bundan sonra qarnı tikirlər və mərhumu arabada başqa qəbiləyə aparırlar. Xaqanın cəsədi aparılan bölgələrin əhalisi də hökmdar iskitlər kimi hərəkət edirlər. Onlar qulaqlarından bir parça kəsir, saçlarını dəyirmi qırxdırır, qollarını bir çox yerdən çərtir, alın və burunlarını cırmaqlayır, sol qollarını oxlarla deşirlər. Sonra mərhumu buradan arabada öz hökmdarlığının başqa bölgəsinə aparırlar. Cəsədi öncə hansı qəbiləyə gətirmişdilərsə, o qəbilə də onu müşayiət edir. Bütün bölgələri dolaşandan sonra onlar yenidən Herrə, ölkənin ən ucqar hüdudlarında yaşayan qəbilələrə və xaqan qəbirlərinə gəlirlər. Orada meyiti saman döşəkdə qəbrə sallayırlar, hər iki tərəfində yerə nizə sancırlar, qəbrin üstünə taxtalar döşəyir, onları da qamış həsirlərlə örtürlər. Qəbrin qalan geniş sahəsində xaqanın əvvəlcədən boğulmuş kənizlərindən birini, eləcə də saqisini, aşpazını, mehtərini, gözətçisini, carçısını, atlarını, hər cür ev heyvanının ilkinini dəfn edirlər; buraya, eyni zamanda, qızıl camlar qoyurlar (iskitlər bu iş üçün gümüş və mis qablardan heç istifadə etmirlər). Bütün bunlardan sonra hamılıqla qəbrin üstünə torpaq töküb böyük təpə (kurqan) düzəldirlər. Həm də bir-birini əvəz edərək bu təpəni daha hündür etməyə çalışırlar.31

downloaded from KitabYurdu.org

72. Bir ildən sonra onlar yenidən belə dəfn mərasimi keçirirlər, mərhum xaqanın qalan xidmətçilərindən ən çox canfəşanlıq göstərənləri seçirlər (onların hamısı yerli iskitlər olurlar; axı, xaqanın əmr etdiyi hər kəs ona xidmət göstərməyə borcludur, xaqanın pulla satın alınmış qulları olmur). Beləliklə, onlar xidmətçilərdən 50 adamı boğub öldürürlər (50 dənə də ən gözəl atı boğurlar), meyitlərin içalatını çıxarır, qarınlarını təmizləyir və içərisini kəpəklə doldurub sonra kəsik yeri tikirlər. Sonra da təkər çənbərini iki yerə bölüb hərəsini müxtəlif yerə basdırılmış iki ağac dirəyə elə bərkidirlər ki, çənbər əyrisi aşağıya baxsın. Sonra dirəklərin və oraya bərkidilmiş təkər çənbərlərinin sayını artırırlar: bundan sonra atlara arxasından boynuna qədər bütün bədəni uzunluğunda yoğun payalar soxub onları çənbərə qaldırırlar. Qabaq tərəfdəki çənbərlər atların çiyinlərini, arxadakı çənbərlər isə budları tərəfdən qarınlarını saxlayır. Atların qabaq və dal ayaqları yerə çatmadan sallana qalır. Bundan sonra atlara yüyənlər və dəhnələr taxır, yüyənləri çəkərək payalara bağlayırlar. Boğulmuş 50 gəncin hamısını atlara bu cür mindirirlər: onların da bədənlərinə fəqərə sütunu boyu ta boynuna qədər paya soxurlar. Payanın bayırda qalan aşağı ucunu atın bədəninə soxulmuş payada açılan deşiyə taxırlar. Bu cür atlıları qəbrin ətrafına düzən iskitlər dağılışıb gedirlər.32

73. İskitlər öz xaqanlarını belə dəfn edirlər. Başqa iskitlər öləndə onların ən yaxın qohumları ölünün cəsədini arabaya qoyub bütün bölgə boyu dostlarının yanına aparır. Bütün dostları da mərhumu qəbul edib onu gətirənlərə qonaqlıq verirlər, eyni zamanda, qonaqlıqdakı bütün yeməklərdən ölüyə də gətirirlər ki, o da dadsın. Adi adamların meyitini bölgədə qırx gün bu cür gəzdirəndən sonra dəfn edirlər. Dəfndən sonra iskitlər özlərini belə paklayırlar: əvvəlcə başlarına ətirli yağ çəkib yuyurlar, bədənlərini isə (hamamda buğla pak edirlər). Hamamı da belə hazırlayırlar: yuxarı ucu bir-birinə doğru çatılan üç paya atıb, onların ətrafını yun keçə ilə örtərək, keçəni mümkün qədər bərk dartır və alaçığın ortasında, qoyulmuş çənə köz kimi qızarmış daşlar atırlar.

74. İskit Elində kətana çox oxşayan, amma ondan xeyli yoğun və iri olan çətənə bitir. Bu bitki kətandan xeyli üstündür. Burada onu becərirlər, amma yabanı bitəni də

downloaded from KitabYurdu.org

var. Frakiyalılar çətənədən hətta kətana oxşayan elə paltarlar hazırlayırlar ki, naşı adamlar onları kətan paltarlardan seçə bilməzlər. Çətənə parçasını heç görməyənlərsə onu kətan hesab edəcəkdir.

75. İskitlər bu çətənə toxumunu götürüb keçə alaçıqlara girirlər və onu qızmar daşların üstünə atırlar. Bundan elə güclü tüstü və buxar qalxır ki, heç bir ellin buğ hamamı belə hamamla müqayisəyə gəlməz. Bundan həzz alan iskitlər bərkdən qışqırışırlar. Bu cür buğlanma onlarda hamamı əvəz edir, belə ki, onlar heç su ilə yuyunmurlar. İskit qadınları sidr, sərv və buxur ağacının parçalarını kələ-kötür daşa sürtüb üstünə su tökürlər. Sonra sürtünmədən alınan horranı bədənlərinin hər yerinə və üzlərinə yaxırlar. Bundan bədəndə xoş qoxu əmələ gəlir, ertəsi gün yaxılmış horra qatını yuyanda bədən tərtəmiz olur, hətta parıldayır.

76. İskitlər də başqa xalqlar kimi əcnəbi adətlərindən inadla çəkinirlər, özü də yalnız başqa xalqların deyil, məhz ellinlərin adətlərindən qaçırlar. Bunu Anaxarsisin, sonra isə Skilin taleyi aydın göstərir. Anaxarsis çoxlu ölkə görmüş, oralarda öz müdrikliyini göstərmişdir. Geri dönəndə o, iskit sınırlarında Hellespontdan üzərək Kizikdə dayanmalı olmuşdur. Kiziklilər elə bu vaxt Allahlar Anası bayramını təntənə ilə keçirirmişlər.33 Anaxarsis ilahəyə belə bir əhd eləyib: o, evə sağ və xətərsiz dönərsə, kiziklilərdə gördüyü mərasim üzrə qurban verəcək və ilahənin şərəfinə bütün gecəni davam edən bayram təsis edəcəkdir. İskit Elinə dönən Anaxarsis gizlincə Hileya adlanan yerə getmişdir. Bu yer Axilles cıdırında yerləşir və başdan-başa müxtəlif növ ağaclarla örtülüdür. Beləliklə, Anaxarsis buraya yola düşüb Kizikdə gördüyü bayram mərasimini tam yerinə yetirmişdir. Anaxarsis həm də ilahənin kiçicik şəklini üstünə taxıb təbil döymüşdür. Bir nəfər iskit Anaxarsisin bu mərasimi yerinə yetirdiyini görüb bunu xaqani Savliyə çatdırmışdır. Xaqan özü hadisə yerinə gəlib Anaxarsisin bu bayramı keçirdiyini görən kimi yayı çəkib oxla onu öldürmüşdür. Hələ indinin özündə də Anaxarsis haqqında suala cavab verəndə deyirlər ki, onu tanımırlar, çünki o, Elladada olub, yadellilərin adətini götürmüşdür. Mən Ariapifin qəyyumu Timndən öyrəndim ki, Anaxarsis iskit xaqanı İdənfirsin əmisi, Qnurun (Qonurun) oğlu, Likin nəvəsi, Sparqapifin nəticəsi olmuşdur.

downloaded from KitabYurdu.org

Anaxarsis doğrudan da bu xaqan evindən çıxmışsa, onda məlum olur ki, onu doğma qardaşı öldürmüşdür. Axı, İdənfirs Savlinin oğludur, Savli isə Anaxarsisin qatili olmuşdur.34

77. Bununla yanaşı, mən peloponneslilərdən başqa hekayət də eşitmişəm. Anaxarsisi iskit, xaqanı ellinlərin yanına təhsil almağa göndərmişdi Anaxarsis vətənə dönəndə lakedemonlulardan başqa bütün ellinlərin hər şeyi öyrənib müdrik olmağa çalışdıqlarını xaqana deyibmiş. Bununla belə, yalnız lakedemonlularla ağıllı söhbət etmək olarmış. Bu hekayət ellinlərin özlərinin boş uydurmasıdır, hər halda, Anaxarsis yuxarıda danışdığım kimi həlak olmuşdur.

78. Bu adam yadellilərin adətini götürdüyünə və ellinlərlə ünsiyyətinə görə öz həyatını bədbəxtcəsinə başa vurmuşdur. İllər keçəndən sonra belə bir aqibət Ariapif oğlu Skilin də qismətinə düşmüşdür. İskit xaqanı Ariapifin digər övladlarından başqa Skil adlı oğlu da varmış. O, iskit olmayan; istriyalı bir qadından doğulmuşdur. Anası ona ellincə danışmaq və yazmağı öyrətmişdir. Bir müddət keçəndən sonra ağafirslər hökmdarı Sparqapif Ariapifi xaincəsinə öldürmüş və taxt, eləcə də mərhum atasının arvadlarından Opiya adlı biri varisliyə görə Skilə keçmişdir. Opiya iskit qadını olmuşdur, onun Ariapifdən Orik adlı oğlu varmış. İskitlərə xaqanlıq edən Skil bu xalqın həyat tərzini heç sevmirmiş. Aldığı tərbiyənin təsiri ilə xaqan ellin adət-ənənələrinə daha çox meyl göstərirmiş və məsələn, belə edirmiş: xaqan ordu ilə borisfenlilərin şəhərinə getməli olanda (bu borisfenlilər özlərini miletlilər adlandırırlar) məiyyətini şəhər darvazaları qabağında qoyub, özü təkcə şəhərə girir və şəhər darvazalarını bağlamağı əmr edirmiş. Sonra Skil özünün iskit libasını çıxarıb ellin paltarı geyirmiş, Xaqan bu paltarda bazar meydançasını gözətçisiz və daha başqa ötürənlər olmadan gəzib-dolaşırmış. (Xaqanı bu geyimdə heç kimin görə bilməməsi üçün şəhər darvazaları qorunurmuş). Xaqan isə təkcə ellin adətlərinə riayət etməklə kifayətlənməyib, hətta ellin mərasimi üzrə qurban da kəsdirirmiş. O, bir, bəlkə də iki ay şəhərdə qalandan sonra iskit paltarını geyərək oranı tərk edirmiş. Belə gəlişlər dönə-dönə olmuşdur və Skil, hətta, Borisfendə özünə saray tikdirib yerli qadın olan arvadını oraya köçürmüşdür.

downloaded from KitabYurdu.org

79. Amma Skili kədərli qismət gözləyirmiş. O da, bax, bu səbəbdən baş vermişdir: xaqan Dionis Vakxa sitayiş mərasimi keçirmək istəmişdir. Məhz mərasim başlayanda böyük əlamət zahir olmuşdur. Xaqanın borisfenlilər şəhərində ətrafı hasarlı böyük və zəngin sarayı varmış (bu haqda mən elə indicə xatırlatdım). Sarayın hər tərəfində ağ mərmərdən sfinkslər və qrifonlar qoyulubmuş. Allah öz perununu35 bu sarayın üstünə tökmüş, saray alov içərisində məhv olmuşdur. Bununla belə, Skil sitayiş mərasimini keçirmişdir.

İskitlər ellinləri vakxik cuşa gəlmədə ittiham edirlər. Axı, onların dediyinə görə, insanları ağılsızlaşdıran allah ola bilməz. Xaqan, axırda Vakxa sitayiş mərasimi keçirəndə bir nəfər borisfenli, iskitlərə üz tutub istehza ilə demişdir: "Siz ey iskitlər, siz bizi Vakxa xidmət etdiyimizə görə bu vaxt bizi ilahi divanəlik bürüdüyü üçün lağa qoyub gülürsünüz. Amma indi sizin xaqanınız tanrının sehrinə düşmüşdür, o, Vakxa sitayiş mərasimi keçirməklə kifayətlənməyib, ilahi cuşa mübtəla olub dəlilik edir. Buna inanmırsınızsa, dalımca gəlin, onu sizə göstərim!" İskit başçıları borisfenlinin dalınca gedirlər. O, iskitləri gizlincə şəhər divarının yanına aparıb qülləyə çıxarır. İskitlər Skili yanlarından ötən kütlə ilə birlikdə vakxik vəcd vəziyyətində görüb son dərəcə qeyzlənirlər. Onlar qüllədən düşüb gördüklərini bütün orduya danışırlar.

80. Bundan sonra Skil evə dönəndə iskitlər onun əleyhinə üsyan qaldırıb, Terey qızının oğlu Oktamasadı xaqan elan eləmişlər. Skil üsyandan və onun səbəbindən xəbər tutanda Frakiyaya qaçmışdır. Oktamasad isə bunu eşidib frakiyalıların üstünə yürüşə çıxmışdır. Frakiyalılar İstrdə onu qarşılamışlar. Ordular artıq döyüşə başlamağa hazırlaşanda Sitalk Oktamasada bunları demək üçün adam göndərmişdir: "Nə üçün biz bir-birimizə hücuma keçməliyik: axı, sən mənim bacım oğlusan, mənim qardaşım sənin əlindədir. Sən onu mənə ver, mən də Skili sənə verim, bununla da öz ordularımızı təhlükədə qoymayaq!" Sitalk bu təklifi çatdırmağı carçıya tapşırmışdır. Doğrudan da, Sitalkın qardaşı Oktamasadın yanında sığınacaq tapdığına görə Oktamasad təklifi qəbul edir və öz dayısını Sitalka verir, əvəzində qardaşı Skili alır. Sitalk qardaşını alıb ordusu ilə birlikdə geri çəkilir. Oktamasad isə Skilin başını

downloaded from KitabYurdu.org

buradaca vurmağı əmr edir. İskitlər öz adətlərini belə möhkəm qoruyurlar və yad adətləri götürənləri də beləcə sərt cəzaya məhkum edirlər.

81. İskit əhalisinin sayını mən dəqiq müəyyənləşdirə bilmərəm, çünki bu haqda olduqca müxtəlif bilgi almışam. Doğrudan da, bəzi xəbərlərə görə iskitlər olduqca çoxsaylıdırlar, başqa xəbərlərə görə, əsl iskitlər çox azdırlar. Amma yerli əhali mənə bax belə şeylər göstərmişdir: Borisfen ilə Hipanis çayları arasında Eksampey adlanan bir yer var. Mən bir qədər bundan əvvəl burada acı sulu çay, olduğunu xatırladanda bu yer haqqında danışmışdım. Eksampeyin suyu Hipanisə axıb, bu çayın suyunu korlayaraq içilməz vəziyyətə salır. Bu yerdə çaxıra su qatmaq üçün işlədilən qabdan altı dəfə böyük olan mis qab durur; Kleombrot oğlu Pavsani onu allahlar üçün, özü də Pontun girişində qoymağı əmr etmişdir. Bu qabı görməyənlər üçün onu bir də təsvir edirəm: o, 600 amforanı lap sərbəst tutur; bu iskit qabının qalınlığı isə altı barmaqdır. Yerli camaatın dediyinə görə, bu qab ox ucluğundan düzəldilmişdir. Ariant adlı bir iskit xaqanı iskitlərin sayını bilmək istəmişdir. O, bundan ötəri bütün iskitlərə hər kəsin bir ox ucunu gətirməsini əmr etmiş, əmrə tabe olmayan hər adamı da ölümlə hədələmişdir. Onda iskitlər o qədər çoxlu ox ucluğu gətirmişlər ki, xaqan ondan özünə abidə ucaltmaq qərarına gəlmişdir: o, həmin ox ucluqlarından təsvir etdiyimiz həmin mis qabı hazırlamağı və Eksampeyə qoymağı əmr etmişdir. İskitlərin sayı haqqında aldığım bilgi bunlardır.

82. Bu ölkədə böyük çaylardan başqa diqqətəlayiq heç nə yoxdur. Bununla belə, bu böyük çaylar və zəngin düzənliklərlə yanaşı, mən bir qəribə şeyi xatırlatmalıyam. Yerli əhali Tiras çayının bir qayasında Herakl pəncəsinin izini göstərirlər. O, 2 dirsək uzunluğunda olub, insan ayağının izinə oxşayır. Bu iz belədir. İndi mən əvvəl başladığım hekayətə qayıdıram.

83. Dara iskitlərin üzərinə yürüşə hazırlaşır və özünə tabe olan xalqlara carçılar göndərir. Şah bu xalqlardan bəzilərinə qoşun, başqalarına gəmi verməyi, nəhayət, bir qisminə də Frakiya Bosporu üstündə körpü salmağı əmr edir. Şahın qardaşı, Güştəsp oğlu Artaban İskit Elinin alınmazlığını göstərərək şahı yürüşdən çəkindirmək üçün

downloaded from KitabYurdu.org

onu təkidlə dilə tutur. Amma Artaban ağıllı məsləhətləri ilə şahı inandırmağa nail ola bilməyib öz təklifindən əl çəkir. Dara isə yürüşə lazım olan bütün hazırlığı gördürüb Susdan yürüşə çıxır.

84. Orada farslardan üç oğlu olan və üçü də yürüşə çıxmalı olan Eobaz adlı birisi heç olmasa bir oğlunu saxlamağı şahdan xahiş edir. Şah da bir dost və təvazökar iltimasçı kimi tanıdığı bu adamın oğullarının hamısını saxlayacağını deyir. Eobaz oğullarının hamısının yürüşdən azad ediləcəyi ümidi ilə son dərəcə sevinir. Dara isə onun oğullarının hamısını öldürməyi nökərlərinə əmr edir. Onlar edam olunaraq, doğrudan da, oradaca qalırlar.

85. Dara artıq Susdan çıxaraq Kalxedoniya bölgəsindəki körpü salınan Bospora gəlib çatır. Sonra şah gəmiyə minib Kianey qayaları deyilən yerə gedir. (Ellinlərin rəvayətinə görə, bu qayalar öncə "azdırıcı"36 olmuşlar). Dara oradakı burunda əyləşib Pontu seyr edir. Doğrudan da, bu dənizlə əylənməyə dəyərmiş, belə ki, Pont bütün dənizlərdən gözəldir. Onun uzunu 11.100 stadiya, eni isə ən geniş yerdə 3300 stadiyadır.37 Bu dəniz boğazının eninə görə 4 stadiya, (Bospor38 adlanan) və Daranın əmri ilə üstündən körpü salınan boğazın və ya keçidin uzunu isə təxminən 120 stadiyadır. Bospor Propondidaya qədər uzanır. Eni 500, uzunu isə 1400 stadiya olan Propondida da Hellesponta tökülür; Hellespontun eni ən dar yerdə 7, uzunu isə 400 stadiyadır. Hellespont da Egey adlı açıq dənizə tökülür.

86. Mən bu dənizləri bu yolla ölçmüşəm: yayda gündüzlər gəmi adətən 70.000, gecə isə 60.000 orgiya yol gedir. Halbuki Pontun Fasisə qədər hər iki mənsəbi (bura Pontun ən geniş yeridir) 9 günlük, 8 gecəlik dəniz yoludur. Bu da 1.110.000 orgiya və ya 11.100 stadiya edir. Pontun ən geniş yeri olan sindlər ölkəsindən Fermodont çayındakı Femiskiraya qədər 3 gündüz, 2 gecəlik yoldur; bu da 300.000 orgiya, ya da 3300 stadiya edir. Mən bu Pontu, Bosporu və Hellespontu beləcə ölçdüm və onların həcmi yuxarıda göstərdiyim kimi oldu. Bu Ponta həcmcə ondan bir qədər kiçik olan bir göl də tökülür. O, Meotida və Pontun Anası adlanır.

downloaded from KitabYurdu.org

87. Dara Pontu seyr edəndən sonra samoslu Mandroklun tikdiyi körpüyə qayıdır. Sonra da Bosporu seyr edib sahildə ağ mərmərdən iki sütun ucaldaraq birində assur yazısı,39 o birində isə ellin yazısı ilə yanınca gətirdiyi bütün xalqların adının həkk olunmasını buyurur. Şahın özünün başçılıq etdiyi: qoşunda isə ona tabe olan bütün xalqlar var idi. Minikdən başqa bütün piyada və atlı döyüşçülərin sayı 700.000 nəfər gəmilərin sayı isə 600 imiş. Sonralar bizanslılar sütunları, öz şəhərlərinə gətirib onları Orfosiya Artemidası səcdəgahının tikintisində işlətmişlər. Təkcə Bizansda Dionis məbədində assur yazısı olan bir qaya parçası qalmışdır. Bosporda Daranın körpü tikilməsini əmr etdiyi yer, mənim təsəvvürümə görə, Bizansla Bosporun girəcəyindəki məbəd arasındadır.

88: Dara körpünün tikintisindən çox razı qalıb, onu tikən samoslu Mandroklun başına hədiyyələr yağdırmışdır. Mandrokl bu varidatın bir hissəsinə Bospor üzərində bütün körpü tikintisinin şəklini çəkməyi buyurmuşdur; şəkildə Dara sahildə qoyulmuş taxt üstündə, qoşunu isə Bospor körpüsünü keçən vəziyyətdə təsvir edilmişdir. Mandrokl şəkili Samosdakı Hera məbədinə nəzir verib üstündə belə yazdırmışdır:

Ey ilahə, balıqla dolu Bospor üzərində

Körpü quran Mandroklun hədiyyəsini qəbul et

Şah Dara tərəfindən bəyənilən əsəri

Samosa şərəf, özünə tac qazandırdı.40

89. Körpünü tikən belə bir abidə qoymuşdur. Dara isə Mandroklu mükafatlandırıb Avropaya keçməyə başlamışdır. O, ionlara Pontdan üzüb İstr çayının mənsəbinə getməyi, oraya çatandan sonra çayın üstündən körpü salıb orada onu gözləməyi əmr etmişdir (çünki gəmiləri ionlar, eolilər və Hellespontlular idarə edirdilər). Beləliklə, donanma Kianeydən keçərək, birbaşa İstrə doğru səmt alır. Sonra gəmiçilər çay boyu dənizdən iki günlük yolu qalxaraq İstrin qollara ayrılan yerdə-çayın "boğazında"

downloaded from KitabYurdu.org

körpü tikintisi ilə məşğul olmuşlar. Dara da Bospor üstündəki körpüdən adlayıb Frakiyadan keçərək Tear çayının mənbəyinə gəlmiş və burada saldırdığı düşərgə üç gün qalmışdır.

90. Ətraf əhalinin dediyinə görə, Tear gözəl çaylardan biridir: onun suyu başqa müalicə xassələri ilə yanaşı, insanlardakı və atlardakı qaşınmanın qarşısını alır. Bu çayın 38 çeşməsi var-bəziləri isti, bəziləri isə soyuqdur, amma hamısı eyni qayadan çıxır. Bu çeşmələr Perinfdəki Gerey şəhərindən və Evksin Pontundakı Apolloniyadan eyni məsafədə- iki günlük yoldadırlar. Bu Tear Kontadesd çayına, Kontadesd isə-Əqriana, Əqrian da-Hebr çayına, o da axırda Epos şəhəri yaxınlığında dənizə tökülür.

91. Dara bu çaya gələrək onun qırağında dayanıb düşərgə salmışdır. Çayı görüb sevinən şah orada da belə bir kitabəli sütun ucaldılmasını əmr etmişdir: "Tearın çeşmələrinin suyu bütün çayların suyundan daha yaxşı və gözəldir. Bu çeşmələrə iskitlərin üstünə yürüşə çıxan bütün insanların ən yaxşısı və rəşadətlisi, farsların və bütün Asiya materikinin şahı Güştəsp oğlu Dara gəlmişdir". Şah bu kitabənin sütunun üstünə həkk olunmasını əmr etmişdir.

92. Dara buradan hərəkət edib, odrislər torpağından axan və Artesk adlanan başqa bir çaya gəlib çatmışdır. Şah bu çaya çatanda belə bir iş görmüşdür: ordusuna yer göstərib hər döyüşçünün bu yerin yanından keçərək oraya bir daş qoymasını buyurmuşdur. Əsgərlər şah buyruğunu yerinə yetirəndə şah burada böyük daş qalaqları qoyub irəli getmişdir.

93. Dara İstrə çatmamış öncə özlərini ölməzlər sayan getləri tabe etmişdir. Apolloniyadan və Mesambriya şəhərindən şimalda yaşayıb skirmiadlar və nipseylər adlanan salmidessli frakiyalılar Daraya döyüşsüz təslim olmuşlar. Amma frakiyalılar içərisində ən cəsur və qeyrətli olan getlər silahlı müqavimət göstərmiş, dərhal da ram edilmişlər.

downloaded from KitabYurdu.org

94. Getlərin özlərinin ölməzliyi haqqında inamına gələndə bunun əsli belədir: getlərin təsəvvürünə görə onlar ölürlər, amma mərhum allah Salmoksisin ixtiyarına keçir (indi bu allahı həm də Hebeleyzis adlandırırlar). Getlər hər beş ildən bir püşk atmaq yolu ilə Salmoksisə seçilmiş carçı göndərərək, hal-hazırda nəyə ehtiyacları olduğunu tanrıya çatdır mağı tapşırırlar. Carçını da onlar belə göndərirlər: cərgəyə düzülmüş adamların bir qismi üç süngünü hazır tutur, başqaları isə Salmoksisə göndərilən carçının əllərindən və ayaqlarından tutub havaya elə atırlar ki, o, süngülərin üstünə düşsün. Süngü onu deşib öldürərsə, bu allah mərhəmətinin əlaməti sayılır, əksinə, carçı ölməzsə, onda onun özünü müqəssir sayırlar. Onu cani elan edib, allahın yanına başqa adam göndərirlər. Hər halda, ona sağ ikən tapşırıq verirlər. Bu Frakiya qəbilələri tufan zamanı şimşək çaxanda göyə ox atıb, şimşək allahını hədələyirlər, çünki onlar öz allahlarından başqa allahı qəbul etmirlər.

95. Buna baxmayaraq, mən Hellospontda və Pontda yaşayan ellinlərdən eşitdiyimə görə, bu Salmoksis Samosda bir insan, qul, məhz Minesarx oğlu Pifaqorun köləsi olmuşdur. Sonra azad olub böyük sərvət qazanmış və bu sərvətlə vətəninə qayıtmışdır. Frakiyalılar o vaxtlar miskin həyat sürürmüşlər və bir qədər də səfeh imişlər. Salmoksis zərifliyi ilə frakiyalılarınkından seçilən İoniya həyat tərzi və adətləri ilə tanış olmuşdur, çünki o, ən böyük ellin müdriklərindən olan Pifaqorla ünsiyyət saxlamışdır. Salmoksis kişilər üçün yemək otağı düzəltdirib, adlı-sanlı şəhərliləri oraya qonaqlığa çağırmışdır. Bu qonaqlıqda o nə özünün, nə qonaqlarının, hətta onların uzaq nəsillərinin heç vaxt ölməyəcəklərini, amma onları gözləyən əbədi həyat və xoşbəxtlik məkanına köçəcəklərini dostlarına sübut edirmiş. Salmoksis bu cür nitqlər söylədiyi qonaqlıqlar düzəltməklə yanaşı, özünə yeraltı mənzil tikməyi buyurur. Bu mənzil hazır olanda Salmoksis frakiyalılar arasından yoxa çıxıb yeraltı mənzilinə enir və üç il orada yaşayır. Frakiyalılarsa onun bərk həsrətini çəkib, ölmüş adam kimi ona yas da tutmuşlar. Dördüncü ildə Salmoksis yenidən frakiyalılar arasında zühur edir və onlar, beləliklə, onun təliminə inanmağa başlayırlar.

96. Frakiyalıların dediklərinə görə, Salmoksis bax, belə iş tutmuşdur. Mənə qalsa, mən yeraltı mənzil haqqında hekayəti inkar etmirəm, amma ona çox da inanmıram.

downloaded from KitabYurdu.org

Hər halda mən bu fikirdəyəm ki, həmin Salmoksis Pifaqordan xeyli əvvəl yaşamışdır. Qərəz, Salmoksis bir insanmı və ya getlərin hansısa bir yerli allahımı olub, bunu bir yana qoyaq, onun haqqında daha danışmayaq.

97. Farslar getləri tabe edəndə onların inancları belə olmuşdur və getlər də yürüşdə iştirak edən qoşunlara qoşulmalı idilər. Bu vaxt Dara piyada qoşunu ilə İstrə çatmışdır. Bütün döyüşçülər o biri sahilə keçəndən sonra Dara ionlara gəmilərin heyəti ilə birlikdə körpünü uçurub quru yolla onun arxasınca getməyi əmr etmişdir. İonlar şahın əmrini yerinə yetirmək üçün körpünü uçurmağa hazırlaşanda, mitilenalıların strateqi (məşhur sərkərdəsi-P. X.) Erksandr oğlu Koy, əvvəlcə məsləhət vermək istəyən bir adamın məsləhətini dinləmək istəyib-istəmədiyini şahdan soruşub, sonra belə deyir: "Şah! Axı, sən nə şumlanmış zəmisi, nə də məskunlaşmış şəhəri olan bir ölkəyə yürüşə hazırlaşırsan. Əmr elə bu körpünü saxlasınlar və onun qorunmasını da körpü tikənlərin özlərinə tapşır. Hər şey yaxşı olsa və biz iskitləri tapsaq, onda bizim geri çəkilməyə imkanımız qalır. Yox, biz onları tapmasaq, onda heç olmasa, geri qayıtmaq yolumuz təmin olunar. Məni heç də iskitlərin döyüşdə bizə üstün gələcəkləri qorxutmur, mən iskitləri tapa bilməyərək yolda azmaqdan qorxuram. Mənim bu sözləri özümdən ötəri, burada qalmağım üçün söylədiyimi deyə bilərlər. Amma əksinə, mən, əlbəttə, sənlə gedəcəyəm və qalmaq istəmirəm". Dara bu məsləhəti çox lütfkarlıqla qəbul edib Koya belə cavab vermişdir: "Mənim lesboslu dostum, mən uğurla vətənə dönəndə, buyur, yanıma gəl, mən də xeyirxah məsləhətin üçün səni səxavətlə mükafatlandırım".

98. Bu sözlərdən sonra Dara qayışa 60 düyün vurur. Sonra İoniya tiranlarını yığıncağa çağırıb onlara belə deyir: "İonlar, körpü haqqında əvvəlki əmrimi ləğv edirəm. Bu qayışı alın və belə edin: mənim iskitlərə qarşı getdiyimi görən kimi həmin vaxtdan başlayaraq bu qayışdan gündə bir düyün açın. Mən vaxtında qayıtmasam və qayışdakı düyünlərin göstərdiyi günlər ötüb keçsə, onda üzüb vətəninizə gedin. İndi ki, mən öz qərarımı dəyişmişəm körpünü gözətləyin, onu qoruyub saxlamağa çalışın. Bununla mənə böyük xidmət göstərərsiniz". Dara belə deyir və ordunu tələsik çəkib irəli aparır.

downloaded from KitabYurdu.org

99. Frakiya İskit Elindən daha artıq dənizə sarı çıxır. İskit Eli isə Frakiyadan sonra dənizin körfəz əmələ gətirdiyi, və İstrin dənizə töküldüyü yerdən başlanır (İstrin mənsəbi cənub-şərqə baxır). Mən indi İstrdən başlayaraq İskit Elinin uzunluğunu müəyyənləşdirmək üçün onun sahil zolağını təsvir edəcəyəm. Bu, əsil İskit Elidir, o, İstr mənsəbindən başlanır, cənuba baxır və Karkinitida adlanan şəhərə qədər uzanır. Buradan həmin dəniz boyu uzanan dağlıq ölkə gəlir. O, Ponta çıxır və Qayalıq Xersones41 adlanan şəhərə qədər tavrlar qəbiləsi ilə məskundur. Bu Xersones şərqdə dənizə girir. Attika kimi, iskit torpağının da sınırının dörddə ikisi (cənubda və şərqdə) dənizlə əhatə olunmuşdur. Attikada dənizin içərisinə girən Suni burnunu, yəni, Forikdən Anaflist kəndinə qədər bölgəni afinalılar deyil, başqa bir qəbilə tutduğu kimi, tavrlar da İskit Elinin Attika torpaqlarına oxşayan hissəsində yaşayırlar. Mən bu müqayisəni kiçiyi böyüklə müqayisə imkanı daxilində aparıram. Tavriya da bu vəziyyətdədir. Kim Attikadakı burnun yanından gəmi ilə üzüb keçməyibsə mən bunu ona başqa bir misal əsasında izah edərəm. Tavrlar İskit Elinin bir hissəsində elə yerləşiblər ki, sanki İapigiyada iapigilər deyil, başqa bir qəbilə özünə Brentesiya limanından Taranta qədər torpaq kəsmiş və yarımadada məskunlaşmışdır. Bu iki ölkədən başqa Tavriyaya oxşayan çoxlu ölkələri də misal göstərə bilərəm.

100. Tavrlardan sonra qismən şərqə doğru dəniz qırağında, qismən də Kimmeriya Bosporunun qərbində və Meotida gölündən başlamış bu gölün lap uzaq küncündə ona tökülən Tanais çayına qədər yenə iskitlər yaşayırlar. İskit Elinin İstrin yuxarı axarında materikin içərisinə uzanan şimal hissəsi öncə ağafirslərlə, sonra nevrlərlə, daha sonra androfaqlarla və nəhayət, melanxlenlərlə sınırlanır.

101. İskit Elini dördkünclü hesab etsək, onun dənizə uzanan iki tərəfində ölkənin içərilərinə gedən xətt uzununa və eninə görə dəniz kənarı xətlə tamamilə eyni olar. Çünki İstrin mənsəbindən Borisfenə qədər 10 günlük yol, Borisfendən də Meotida gölünə qədər daha 10 gün və sonra dənizdən ölkənin içərilərinə-melanxlenlərdən yuxarıda yaşayan iskitlərə qədər 20 günlük yoldur. Gündüz yolu məsafəsini 200 stadiya götürürəm. Beləliklə, İskit Elində (dördkünclünün) köndələn tərəfləri 40.000

downloaded from KitabYurdu.org

stadiya təşkil edir, materikin içərisinə gedən uzunluq tərəfləri də bir o qədərdir. Bu sahənin həcmi belədir.

102. İskitlər məsləhətləşəndən sonra təkcə özlərinin açıq döyüşdə Dara qoşunlarını dəf edə bilməyəcəklərinə inanıb qonşu qəbilələrə elçilər göndərirlər. Qonşuların hökmdarları belə böyük bir qoşunun basqını zamanı necə hərəkət etmək lazım olduğunu düşünmək üçün artıq məsləhətə yığışmışlarmış. Yığıncaqda tavrların, ağafirslərin, nevrlərin, androfaqların, melanxlenlərin, gelonların, budinlərin və savromatların hökmdarları iştirak edirmişlər.

103. Tavrlarda belə adət var: onlar qəzaya uğramış dənizçiləri və açıq dənizdə tuta bildikləri ellinlərin hamısını Bakirə (Qıza) qurban gətirirlər. Qurbanvermə üsulu da belədir: onlar öncə qəzaya uğramışların başından zopa ilə vururlar. Sonra, bəzilərinin dediyinə görə, qurbanlığın bədənini uca qayadan dənizə tullayırlar, çünki məbəd sərt qaya üstündədir, qurbanlığın başını da sütuna mıxlayırlar. Bəzi adamlar isə başın sütuna mıxlanması haqqında deyilənlə razılaşsalar da, tavrların bədəni qayadan atmayıb, torpağa basdırdıqlarını təsdiq edirlər. Qurban verdikləri (ilahə) isə, onların öz sözlərinə görə, Ağamemnonun qızı İfigeniyadır.42 Tavrlar əsir alınmış düşmənlərlə belə rəftar edirlər: əsirlərin kəsilmiş başlarını evə aparırlar, sonra da onu şüvülə taxıb evdən hündür yerdən, adətən bacanın üstündən asırlar. Evin üstündən asılmış bu başlar, onların dediyinə görə, bütün evin keşikçisi olurlar. Tavrlar qarət və müharibə ilə dolanırlar.

104. Ağafirslər-ən ərköyün qəbilədir. Onlar adətən qızıl bəzəklər gəzdirirlər və hamının qardaş sayılması, doğmalar kimi öz aralarında paxıllıq və düşmənçilik etməməsi üçün arvadlarla hamılıqla yaşayırlar. Onların başqa adətləri Frakiya adətlərinə oxşardır.

105. Nevrlərin adətləri iskitlərinki kimidir. Onlar Daranın yürüşündən bir nəsil əvvəl ilan əlindən öz ölkələrini bütövlükdə tərk etməli olmuşlar. Çünki həm öz torpaqlarında "çoxlu ilan törəyib, həm də ölkənin içərilərindəki səhradan onlara daha

downloaded from KitabYurdu.org

çox ilan hücum etmişdir. Buna görə nevrlər öz torpaqlarını buraxıb budinlərin arasına köçməyə məcbur olmuşlar. Bu adamlar, görünür, gözbağlayıcı (ya da ovsunçudurlar). İskitlər və onların içərisində yaşayan ellinlər ən azı bunu təsdiq edirlər ki, hər nevr ildə bir neçə günlüyə qurda dönür, sonra yenə insan licimə düşür.43 Bu nağıl-mağıl, əlbəttə, məni inandıra bilməz, bununla belə bu cür danışırlar və hətta bunun üçün and da içirlər.

106. Bütün qəbilələr içərisində ən vəhşi xasiyyətlisi androfaqlardır. Onlar nə məhkəmə tanıyır, nə də qanun bilirlər, özləri də köçəridirlər. Geyimləri iskitlərinki kimidir, amma özünəməxsus dilləri var. Bu. həmin ölkədə yeganə adamyeyən qəbilədir.

107. Bütün melanxlenlər qara paltar44 geyirlər, onların adı da buradan doğur. Onların xasiyyətləri iskit xasiyyətləridir.

108. Budinlər böyük və çoxsaylı qəbilədirlər: onların hamısı açıq mavi gözlü, kürən saçlıdırlar. Onların torpağında ağacdan tikilmiş Helon adlı şəhər var. Şəhər hasarının hər tərəfi 30 stadiya uzunluğundadır. Şəhərin hasarı hündürdür və başqa-başqa ağacdandır. Evlər və məbədlər də ağacdan tikilmişdir. Orada ellin allahlarının heykəlləri, qurbangahı və səcdəgahı, ağacdan olan məbədi ellinsayağı tikilmişdir. Budinlər hər üç ildən bir Dionis şərəfinə bayram keçirirlər və vakxik coşqunluq halına gəlib çatırlar. Helonun əhalisi qədimdən ellinlər olmuşdur. Onlar ticarət məntəqələrindən qovulandan sonra budinlərin arasına köçmüşlər, qismən iskit, qismən də ellin dilində danışırlar. Amma helonlulardan fərqli olaraq budinlərin başqa dili var, həyat tərzləri də başqadır.

109. Budinlər ölkənin yerli əhalisi olub köçərilik edirlər. Bu ölkədə onlar şam qozaları45 ilə qidalanan yeganə ulusdur. Helonlular isə əksinə, torpaq becərirlər, bağbançılıq edirlər və çörək yeyirlər. Zahiri görüşünə və dərisinin rənginə görə onlar budinlərə heç oxşamırlar. Ümumən, ellinlər, səhv də olsa belə, budinləri də helonlular adlandırırlar. Onların torpağı başdan-başa sıx və müxtəlif növlü meşə ilə

downloaded from KitabYurdu.org

örtülüdür. Meşə cəngəllikləri arasında bataqlıqlarla və qamış pöhrəliyi ilə əhatələnmiş böyük göl var. Bu göldə su samuru, qunduz və dördkünc burunlu46 başqa heyvanlar tutulur. Budinlər həmin heyvanların dərilərindən öz kürklərinə köbə (haşiyə) vururlar, qunduz yumurtasından isə bətn xəstəliyinə qarşı müalicə vasitəsi kimi istifadə edirlər.

110. Savromatlar (sarmatlar) haqqında belə danışırlar:47 ellinlər amazonlarla müharibə aparmışlar. İskitlər amazonları "eorpata"48 adlandırırlar. Bu söz ellincə əröldürən mənası verir. "Eor"-ər (kişi), "pata" isə-öldürmək deməkdir. Rəvayətdə deyilənə görə, ellinlər Fermodontda müzəffər döyüşdən sonra üç gəmidə evə qayıdanda özləri ilə sağ tuta bildikləri qədər amazon aparırmışlar. Açıq dənizdə amazonlar ellinlərin üstünə atılıb (bütün) kişiləri qırmışlar. Amma amazonlar gəmi sürməyi, sükanı, yelkənləri və kürəkləri işlətməyi bacarmamışlar. Kişiləri öldürəndən sonra onların gəmilərini dalğalar, küləklər qovub aparır, axırda gəlib Meotida gölündə Kremnaya çatırlar. Kremna da azad iskitlərin torpağında yerləşir. Burada amazonlar gəmilərdən sahilə çıxıb ətraflarda dolaşmağa başlayırlar. Sonra onlar at ilxısına rast gəlib onu tuturlar. Bu atlarda çaparaq İskit Elini qarət eləməyə başlayırlar.

111. İskitlər nə baş verdiyini anlaya bilmirlər, çünki amazon qəbiləsi, onların dili və geyimləri iskitlərə bəlli deyildi. İskitlər amazonların buraya haradan gəlib çıxdıqlarını da başa düşməyib, onları gənc kişilər sayaraq vuruşmağa başlayırlar. Vuruşmadan sonra bir neçə amazon meyiti iskitlərin əlinə keçəndə onların qadın olduqlarını başa düşmüşlər. Onda iskitlər məsləhətləşib qadınları öldürməməyi qərara almış və amazonların yanına təxminən onlar sayda gənc oğlan göndərməyi məsləhət bilmişlər. Gənclər amazonların yaxınlığında düşərgə salmalı, amazonlar hər nə etsələr, onu təkrar etməli, amazonlar onları izləyəndə bu qadınlarla vuruşmayıb qaçmalı, təqib qurtaranda yenə amazonlara yaxınlaşmalı və yenidən düşərgə salmalı imişlər. İskitlər amazonlardan uşaqları olmasını istədikləri üçün belə qərara gəlmişlər.

downloaded from KitabYurdu.org

112. İskitlərin göndərdikləri gənclər bu göstərişi yerinə yetirməyə başlamışlar. Qadınlar gənclərin heç bir düşmənçilik qəsdi ilə gəlmədiklərini görəndə onları rahat buraxmışlar. Gündən-günə hər iki düşərgə bir-birinə yaxınlaşmışdır. Gənclərin də, amazonların da silah və atdan başqa heç nəyi yox imiş və onlar eyni həyat tərzi keçirərək ovla və qarətlə məşğul olurlarmış.

113. Günorta zamanı amazonlar öz təbii ehtiyaclarını rəf etmək üçün təkbətək, iki-iki aralanırmışlar. Bunu görən iskitlər də o cür eləmişlər. Bu gənclərdən biri amazonu tək tapanda amazon onu qovmayıb, onunla əlaqəyə girməyə icazə vermişdir. Onlar bir-birinin dilini bilmədikləri üçün, əlbəttə, danışa bilməmişlər. Amazon əl işarəsi ilə gəncin sabah: həmin yerə gəlməsini və özü ilə yoldaşını da gətirməsini, özünün də tək olmayıb rəfiqəsi ilə gələcəyini başa salmışdır. Gənc geri dönüb bunu başqa gənclərə danışmışdır. O biri gün bu gənc həmin yerə öz yoldaşını da aparmış və iki amazonun onları gözlədiyini görmüşdür. Bunu başqa gənclər də biləndə onlar da başqa amazonları ram etmişlər.

114. Bundan sonra hər iki düşərgə birləşərək bir yerdə yaşamış, həm də, hər gənc ilk dəfə görüşdüyü qadınla evlənmişdir. Kişilər arvadlarının dilini öyrənə bilməsələr də arvadlar ərlərinin dilini öyrənmişlər. Onlar bir-birini başa düşəndə kişilər amazonlara demişlər: "Bizim valideynlərimiz var, əmlakımız var. Biz belə həyat sürə bilmərik, ona görə də özümüzünkülərin arasına qayıdıb yenə öz xalqımızla birlikdə yaşamaq istəyirik. Siz bizim yeganə arvadımız olacaqsınız, başqa arvadımız olmayacaqdır". Amazonlar buna belə cavab vermişlər. "Biz sizin qadınlarla dolana bilmərik. Axı, bizim adətlərimiz onlarınkı kimi deyil, biz yay çəkib ox atırıq, balta tolazlayırıq, at minib çapırıq, bunun əksinə, biz qadın işinə alışmamışıq. Sizin qadınlar isə bizim işimizin bircəciyini görmürlər, onlar öz dəyələrində qalıb qadın işləri görürlər, ov ovlamırlar və heç yana çıxmırlar. Ona görə də biz onlarla yola gedə bilmərik. Siz bizi özünüzə arvad etmək və özünüzü namuslu göstərmək istəyirsinizsə, onda ata-analarınızın yanına gedib özünüzün vərəsə payınızı alın. Siz qayıdanda gəlin öz bildiyimiz kimi yaşayaq".

downloaded from KitabYurdu.org

115. Gənclər arvadlarının sözünə baxıb deyilən kimi da etmişlər; onlar özlərinin vərəsə payını alıb amazonların yanına dönmüşlər. Onda arvadları onlara demişlər: "Biz bu ölkədə yaşamaq fikrindən dəhşətə gəlirik. Axı, siz bizdən ötəri öz atalarınızdan məhrum olmusunuz, biz də sizin ölkənizə böyük ziyan vurmuşuq. İndi ki, bizi özünüzə arvad eləmək istəyirsiniz, onda gəlin birlikdə belə bir iş tutaq; bu ölkədən köçək və Tanaisin o biri tayında yaşayaq".

116. Gənclər buna da razı olmuşlar. Onlar Tanaisi keçib, sonra Tanaisdən üç gün şərqə və üç gün də Meotida gölündən şimala getmişlər. Onlar köçüb, indi də yaşadıqları yerdə məskunlaşmışlar. O vaxtdan sarmat qadınları özlərinin qədim adətlərini saxlayırlar: öz ərləri ilə, hətta təklikdə ova çıxır, hərbi yürüşə gedir və kişilərlə eyni paltar geyinirlər.

117. Sarmatlar iskitcə danışırlar, amma lap köhnədən sözləri düzgün tələffüz edə bilmirlər, çünki amazonlar bu dili yaxşı mənimsəməmişdilər. Evlənmə adətlərinə gələndə bunlar bax, belədir: qız düşmən öldürməyincə ərə getmir. Bəziləri hətta adətə əməl edə bilmədikləri üçün ərə getmədən qarıyıb ölürlər.

118. Beləliklə, iskit elçiləri xatırlanan qəbilə hökmdarlarının yığıncağına gəlmişlər. Onlar bildirmişlər ki, fars şahı dünyanın başqa hissəsindəki bütün qəbilələri tabe edib, Bospor boğazında körpü saldıraraq bu materikə keçmişlər. Sonra şah frakiyalıları tabe edib İstr üstündə körpü qurdurmuşdur. İndi isə şah onların bütün torpaqlarını istila etmək istəyir. Elçilər deyirdilər: "Siz heç vəchlə kənarda durub bizim həlak olmağımıza əsla imkan verməməlisiniz. Gəlin əl bir olub düşmənə qarşı çıxaq. Siz belə etməsəniz, onda biz ya vətənimizi buraxıb getməli, ya da burada qalıb düşmənə könüllü təslim olmalıyıq. Siz bizə kömək etməli olmasanız, biz bundan başqa nə etməliyik. Bundan sizin özünüzün də işiniz asan olmayacaqdır. Axı, fars şahı bizim əleyhimizə yürüşə çıxdığı kimi sizin də üstünüzə gəlir. O, bizi tabe etməklə sakitləşməyəcək və sizə də rəhm etməyəcək. Biz dediyimiz sözlər üçün sizə vacib sübutlar verə bilərik. Əgər fars şahı bizim əvvəlki istilalarımıza görə qisas almaq üçün təkcə bizə qarşı çıxsaydı, onda o, başqa xalqları rahat buraxıb düz bizim

downloaded from KitabYurdu.org

ölkəmizin üstünə gəlməli idi. Onda onun başqa xalqların deyil, yalnız iskitlərin üstünə gəlməsi hamıya aydın olardı. Axı, şah bizim materikimizə keçən kimi öz yolundakı bütün ulusları tabe etmişdir. Frakiyanın bütün qalan qəbilələri, eləcə də onlarla qonşu olan getlər artıq onun əlindədir.

119. İskitlərin bu məlumatından sonra buraya gələn qəbilələrin hökmdarları məsləhətləşməyə başlamışlar. İştirakçıların fikirləri haçalanmışdır: helonluların, budinlərin və sarmatların hökmdarları razılığa gəlmişlər və iskitlərə kömək göstərməyə söz vermişlər. Ağafirslərin, nevrlərin, androfaqların, eləcə də melanxlenlərin və tavrların hökmdarları iskitlərə belə cavab vermişlər: "Siz əvvəllər farsları incidib onlarla müharibəyə başlamasaydınız, onda sizin xahişinizi haqlı sayardıq və sizə razılıqla kömək göstərərdik. Amma siz bizim köməyimiz olmadan farsların torpağına girib, allahın izni ilə onun sahibi olmusunuz. İndi həmin allah onların tərəfini saxlayır, farslar da eyni yolla əvəz çıxırlar. Biz isə o vaxtlar onları heç bir şeylə incitməmişdik, indi də onların birinci düşməni olmayacayıq. Farslar ölkəmizə ayaq basarlarsa və bizə hücuma keçərlərsə, onda biz buna yol vermərik. Amma indi biz bunu görmürüksə, onda öz ölkəmizdə qalacayıq. Bizim gümanımızca, farslar bizə qarşı deyil, onları incidənlərə qarşı gəlmişlər".

120. İskitlər belə cavab alıb, farslarla açıq döyüşə girməmək qərarına gəlmişlər (çünki bu qonşular onlara kömək etmək istəməmişlər). İskitlər mal-qaranı sürüb apararaq, quyuların və çeşmələrin gözünü doldurараq, yerdə otu əzib-tökərək yavaş-yavaş geri çəkilməyə başlamışlar. Onlar ordularını iki dəstəyə bölmüşlər. Birinci dəstəyə hökmdar Skopasisin başçılığı ilə sarmatlar qoşulmuşlar. Farslar bu bölgəyə hücum edərsə, onda həmin hərbi hissə Meotida gölü boyu Tanais çayına çəkilməli, farslar geri dönsələr, onda onları təqib etməli imiş. Bu qoşun İskit xaqanlığının üç hissəsindən birincisinə məxsusdu və göstərilən yolla getmək əmri almışdı. O biri iki xaqanlıq-İdənfirin ixtiyarında olan böyük xaqanlıq və Taksakisin hökmdar olduğu üçüncü xaqanlıq da helonlar və budinlərlə birlikdə qoşunun o biri hissəsinə birləşərək farslardan bir günlük aralı məsafə tutmaqla yavaşca geri çəkilməli, beləliklə, hərbi planı yerinə yetirməliymiş. Hər şeydən əvvəl, farsları iskitlərlə ittifaqdan boyun

downloaded from KitabYurdu.org

qaçırmış qəbilələrin torpağına çəkib gətirməklə onları da farslara qarşı müharibəyə cəlb etmək lazım idi. Qonşular könüllü surətdə farslara qarşı çıxmaq istəməmişdilərsə, onda onlar iradələrinin əksinə olaraq vuruşmağa məcbur edilməli idilər. Bundan "sonra iskitlər öz torpaqlarına qayıtmalı olar, lazım gəlsə, farslara hücum da edərlər.

121. İskitlər belə qərara gəlib, ən yaxşı süvarilərin baş dəstəsini qabağa göndərərək Dara qoşununa qarşı hərəkət etmişlər. Üstü dəyəli arabalarda qadın və uşaqlar, habelə yemək üçün lazım olan miqdarda heyvan saxlanılmaqla, qalan bütün heyvanlar daim şimala doğru hərəkət etmək əmri ilə qabaqcadan göndərilmişdi.

122. Bundan sonra araba karvanı irəli hərəkət etmişdir. İskitlərin baş hərbi hissəsi farslara İstrdən üç günlük yol məsafəsində rast gəlmişdir. İskitlər düşməni bir günlük keçid qədər qabaqlayaraq, bütün bitkiləri məhv edib düşərgə salmışlar. Farslar iskit atlılarının peyda olduğunu görən kimi daim geri çəkilən düşmənin izi ilə getməyə başlamışlar. Sonra farslar iskit qoşununun bir hissəsinə basqın edib onları şərq səmtində Tanais çayına doğru təqib etməyə başlamışlar. İskitlər Tanais çayını keçmişlər, farslar da birbaşa onların ardınca çayı keçib, sarmatların torpağından adlayaraq budinlərin bölgəsinə gələnə qədər iskitləri izləmişlər.

123. Yolu İskit Elindən və Sarmatiyadan düşən farslar buraları viran edə bilməmişlər, çünki oralar barsız torpaqlar olmuşdur. Farslar budinlər torpağına girib orada ağacla hasarlanmış şəhər görmüşlər. Budinlər qaçmış, şəhər boşalmış, farslar onu oda yaxmışlar. Bundan sonra farslar o ölkədən keçərək səhraya gəlib çatana qədər geri çəkilən iskitləri izləmişlər. Tamamilə əhalisiz olan bu səhra budinlərin ölkəsindən şimala doğru yerləşib, yeddi günlük yol boyu uzanır. Bu səhradan şimala doğru fissagetlər yaşayırlar. Onların torpağından dörd böyük çay axır və onlar meotların bölgəsindən keçərək Meotida adlanan gölə tökülür. Bu çayların adları belədir: Lik, Oar, Tanais və Sirqis.

downloaded from KitabYurdu.org

124. Dara bu səhraya çataraq, Oar çayında düşərgə salıb ordu ilə birlikdə dayanmışdır. Sonra şah bir-birindən bərabər məsafələrdə-60 stadiya aralı olan səkkiz böyük istehkam tikməyi əmr etmişdir. Bu istehkamların qalıqları zəmanəmizə qədər qalmaqdadır. Şahın başı bu tikintilərə qarışanda onun izlədiyi iskitlər şimaldan şahın arxasına keçib İskit Elinə qayıtmışlar. İskitlərin qəflətən yoxa çıxması ilə Daranın başa çatmaqda olan tikintiləri yarımçıq qoymaq əmri verməsi bir olmuşdur; o, iskitlərin bir daha üzə çıxmadıqlarını görüb qərbə dönmüşdür. Şah bütün iskit ordusunun onun qarşısında durduğunu və iskitlərin qərbə qaçdıqlarını güman etmişdir.

125. Dara ordusu ilə sürətlə gedib İskit Elinə çataraq orada iskit qoşununun hər iki dəstəsi ilə qarşılaşmışdır. Düşmənlərlə toqquşan şah onları təqib etməyə başlamış, iskitlər isə bir günlük yol qədər ondan qabaqda olmuşlar. Beləliklə Dara təqibi dayandırmır, iskitlər də özlərinin hərbi planlarına görə onlara kömək etməkdən boyun qaçırmış qəbilələrin mülklərinə, öncə melanxlenlərin ölkəsinə çəkilməyə başlamışlar. İskitlərin və farsların basqını melanxlenləri qorxutmuşdur. Bundan sonra iskitlər düşməni androfaqların bölgələrinə çəkməyə başlamışlar. İskitlər androfaqları da qorxudaraq oradan nevrlərin torpağına çəkilmişlər. Nevrləri də qorxuya salan iskitlər sonra ağafirslərə doğru çəkilmişlər. Qonşularının iskitlər qarşısında necə qorxuya düşərək qaçdıqlarını görən ağafirslər iskitlər onların torpağına girənə qədər carçı göndərib hüdudları keçməyi yasaq etmişlər. Ağafirslər iskitləri xəbərdar etmişlər ki, onlar ağafirslərin "ölkəsinə soxulmağa cəsarət göstərsələr, onda əvvəlcə onların özləri ilə ölüm-dirim döyüşünə girməli olacaqlar. Bu xəbərdarlıqdan sonra ağafirslər hücumu dəf etmək üçün qoşunla sınırlara çıxmışlar. Melanxlenlər, androfaqlar və nevrlər isə farslara və iskitlərə müqavimət göstərməyə cəsarət etməmişlər. Onlar təhdidlərini unudaraq özləri şimala doğru səhraya qaçmışlar. İskitlər isə ağafirslərin onları öz ölkələrinə buraxmaq istəmədiklərini görüb oraya getməyərək, farsları nevrlərin ölkəsindən öz torpaqlarına çəkməyə başlamışlar.

126. Müharibə uzandığına və onun sonu görünmədiyinə görə Dara iskit xaqanı İdənfirsə bir atlı göndərib xaqana bunları çatdırmağı ona əmr etmişdir: "Ey qəribə

downloaded from KitabYurdu.org

adam! Sənə iki şeydən birini seçmək imkanı verildiyi halda niyə hey qaçırsan? Sən özünü mənim qüvvəmə qarşı duracaq vəziyyətdə görürsənsə, onda qaçmaqdan usanıb dayan və mənimlə vuruş. Özünü çox zəif bilirsənsə, onda da qaçmağa son qoyub, öz ağana torpaq, su haqqı gətirib onunla danışığa girməlisən".

127. İskit xaqanı bu sözlərə belə cavab vermişdir: "Şax! Mənim vəziyyətim belədir. Mən elə əvvəllər də heç kəsin qarşısından qorxub qaçmamışam, indi səndən də qaçmıram. Mən indi dərhal vuruşa kirişməməyimin səbəbini izah edəcəyəm. Axı, bizim nə şəhərlərimiz, nə də becərilən torpaqlarımız var. Biz onların qarət olunması və dağıdılmasından qorxmuruq, ona görə də sizinlə dərhal vuruşa girməmişik. Siz bizimlə necə olursa-olsun döyüşmək istəyirsinizsə, onda bilin, bizim atalarımızın qəbirləri var. Onları tapın və uçurmağa çalışın, onda bu qəbirlər üstündə sizinlə döyüşüb döyüşməyəcəyimizi bilərsiniz. Amma ağlımıza batmayınca sizinlə döyüşə girmərik. Mən bunu döyüş haqqında dedim. Mən yalnız Zevsi və iskitlər hökmdarı Hestiyanı özümün ağam sayıram. Sənə isə torpaq və su haqqı hədiyyələri əvəzinə sənin layiq olduğun başqa hədiyyələr göndərərəm. Sənin özünü mənim ağam adlandırmağına gəlincə, bu sənə hələ çox baha başa oturacaqdır!" İskitlərin cavabı belə olmuşdur.

128. Carçı bu xəbərlə Daranın hüzuruna yola düşür. İskit xaqanları isə "qul" sözünü eşidib hiddətlənirlər. Onlar Skopasisin başçılıq etdiyi sarmatlardan ibarət qoşun hissəsini İstr üstündəki körpünü qoruyan ionlarla danışığa göndərirlər. Qoşunun qalanı daha farsları arxalarınca çəkməyib, farslar özlərinə azuqə axtarmağa çıxanda onlara hücuma keçmək qərarına gəlirlər. İskitlər bu qərarı yerinə yetirərək, Daranın əsgərləri özlərinə yemək axtaranda onları qızışdırıb döyüşə təhrik etmişlər. İskitlərin atlıları düşmən atlılarını həmişə qaçırtmışlar. Qaçan fars atlıları onlara köməyə gələn öz piyadalarının üstünə düşmüşlər. Düşmən atlılarının hücumunu dəf edən iskitlər qarşılarındakı piyadalardan qorxaraq geri dönmüşlər. İskitlər gecələr də belə basqın etmişlər.

downloaded from KitabYurdu.org

129. İndi də mən farslara əlverişli olub, iskitlərin Dara düşərgəsinə basqınında onlara maneçilik törədən çox qəribə bir olaydan, məhz eşşəklərin və qatırların anqırtısından danışacağam. Axı, artıq əvvəldə qeyd etdiyim kimi, bütün İskit Eli torpağında ümumən soyuqların ucundan eşşək və qatır saxlanmır. Ona görə də, eşşək anqırtısı iskit atlılarını çaxnaşmaya salırmış. Farsların üstünə hücum zamanı iskit atları çox vaxt eşşək anqırtısı eşidib qorxudan geri dönürlərmiş: onlar heyrətdən qulaqlarını şəkləyirmişlər, çünki əvvəllər heç vaxt belə səs eşitməyib, bu növ heyvan görməmişdilər. Ümumən, bu vəziyyət az bir müddətdə farslara kömək etmişdir.

130. İskitlər isə farsların arasındakı çaşqınlığı görüb farsları öz ölkələrində daha çox saxlamağa, onları bütün lazım olan şeylərə möhtac və məhrumiyyət içərisində qoymağa çalışaraq belə bir vasitəyə əl atmışlar. İskitlər sürülərinin bir hissəsini çobanların yanında saxlayıb özləri başqa yerə gedirmişlər. Farslar isə gəlib heyvanı ələ keçirir və hər dəfə də bu uğurla öyünürlərmiş.

131. Dara, nəhayət, çətin vəziyyətə düşənə qədər bu, təkrar edilmişdir. İskit xaqanları bundan xəbər tutub Daraya carçı yollayaraq onunla şaha quş, siçan, qurbağa və beş ox göndərmişlər. Farslar bu hədiyyələrin nə məna daşıdığını elçidən soruşmuşlar, amma elçi cavabında ona yalnız hədiyyələri təqdim etmək və mümkün qədər tez qayıtmaq əmri verildiyini bildirmişdir. Onun sözlərindən belə anlaşılıb ki, farslar lazım olan qədər ağıllıdırlarsa, onda bu hədiyyələrin mənasını özləri başa düşməlidirlər.

132. Farslar bu sözü eşidib məsləhətə toplaşmışlar. Dara iskitlərin onun hakimiyyəti altına keçdiklərini və (itaət əlaməti olaraq) ona torpaq və su haqqı gətirdiklərini demişdir; guya siçan torpaqda olur, insan kimi o da torpağın neməti ilə dolanır; qurbağa suda yaşayır, quş da (sürətdə) daha çox atı xatırladır, oxun isə iskitlərin müqavimət göstərməkdən imtina etmək əlaməti olduğunu bildirir. Dara özünün bu yozumunu söyləmişdir. Qobri bunun əksinə danışmışdır (Qobri mağı devirən yeddi fars ərindən biridir). O, hədiyyələrin mənasını belə yozmuşdur: "Farslar, siz quş olub göyə uçmasanız da, ya siçan kimi yeri oyub oraya girməsəniz

downloaded from KitabYurdu.org

də, ya da qurbağa kimi bataqlığa tullanmasanız, bu oxlarla vurulub, geri qayıda bilməyəcəksiniz".

133. Farslar hədiyyələrin mənasını belə yozmağa çalışmışlar, Bu vaxt əvvəllər Meotida gölündə keşikdə dayanmış iskit əsgəri hissələrindən biri ionlarla danışıq üçün İstrə yola düşmüşdür. O, (İstrdəki) körpüyə gəlib ionlara belə sözlərlə üz tutmuşdur: "İonlar! Siz bizə qulaq asmaq istəsəniz, bizim sizə azadlıq gətirəcəyimizi anlayarsınız. Biz, Daranın sizə əmrini-körpünü yalnız 60 gün qoruyub, həmin vaxta qədər gəlməsə, vətəninizə dönməyinizə icazə verildiyini eşitmişik. Bax, indi siz elə beləcə də etsəniz, nə şahın, nə də bizim qarşımızda təqsirkar olmazsınız. Sizə tapşırılmış günləri gözləyin, ondan sonra gəmilərlə üzüb vətəninizə gedin". İonlar iskitlərin xahişini yerinə yetirməyə söz vermişlər, onlar da dərhal geri qayıtmağa tələsmişlər.

134. Daraya hədiyyələr gətiriləndən sonra öz torpaqlarında qalmış iskit qoşun hissələri-piyadalar və atlılar döyüş nizamı ilə farslarla vuruşa çıxmışlar. İskitlər artıq döyüş; cərgələrinə düzüləndə onların cərgələri arasından dovşan qaçır. İskitlər dovşanı görüb dərhal onun ardınca düşürlər. İskitlərin cərgələri pozulub, özləri də qışqırmağa başlayanda Dara düşmən tərəfdəki bu hay-küyün səbəbini soruşur. İskitlərin dovşan dalınca qaçdıqlarını öyrənəndə adətən söhbət etdiyi yaxın adamlarına deyir: "Bu adamlar ürəklərinin dərinliklərində bizə nifrət edirlər. Qobrinin iskit hədiyyələri haqqında düzgün söz dediyi mənə indi aydın oldu. İşlərimizin nə vəziyyətdə olduğunu özüm görürəm. Təhlükəsizcəsinə evimizə dönməyimiz üçün yaxşıca məsləhət lazımdır". Qobri buna belə cavab verir: "Şah! Mən xəbər-ətər əsnasında bu qəbilənin əlçatmazlığı haqqında çoxdan eşitmişəm. Burada isə mən onların bizi necə ələ saldıqlarını görüb buna daha çox inandım. Ona görə də sənə məsləhətim belədir: adətən, həmişə etdiyimiz kimi, gecə düşən kimi ocaq qalayaq, bütün zəif əsgərləri taleyin ümidinə qoyub, bütün eşşəkləri də mıxa bağlayıb iskitlər körpünü uçurmaq üçün İstrə çatana və ya ionlar bizim üçün ölümcül qərar qəbul edənə qədər geri çəkiləkk".

downloaded from KitabYurdu.org

135. Qobri belə məsləhət vermişdir. Qaranlıq düşəndə Dara: bu məsləhəti yerinə yetirməyə başlamışdır. Zəif əsgərlərdən itkisi qismən az əhəmiyyətli olanlarını, eləcə də bütün bağlı eşşəkləri düşərgədəki yerlərindəcə qoymuşlar. Şah eşşəkləri anqırmaq, adamları da zəif olduqları üçün orada qoymuşdur. Şah özünü elə aparmışdır ki, guya o, seçmə qoşunla iskitlərin üstünə hücuma getmək niyyətindədir; zəif döyüşçülər isə guya bu vaxt düşərgəni qorumalıdırlar. Dara düşərgədə qalanlara belə əmrlər verib, ocaq qalamalarını buyurmuş və tələsik İstrə yola düşmüşdür. Qoşun çəkiləndən sonra tərk edilmiş eşşəklər daha bərkdən anqırışmağa başlamışlar. İskitlərsə eşşək anqırtısı eşidib farsların düşərgədə olduqlarına tam inanmışlar.

136. Səhərisi gün düşərgədə saxlanmış əsgərlər Daranın onlara xəyanət etdiyini başa düşmüşlər. Onlar əllərini iskitlərə uzadaraq bağışlanmalarını xahiş edib, başlarına gələni danışmışlar. İskitlər bunu eşidib, tələsik öz qüvvələrini, məhz iki iskit hərbi dəstəsini (biri sarmatlar, o biri budinlər və helonlular olmaqla) birləşdirmiş və farsları düz İstrə qədər izləməyə başlamışlar. Fars qoşununun çoxu piyadalardan ibarətmiş və yola bələd deyilmişlər, (hərçənd orada heç gediş-gəliş yolu da yoxmuş), iskitlər isə atlanıbmışlar və ən kəsə yolu bilirmişlər. Ona görə də hər iki qoşun ayrı-ayrı yerlə getmiş, iskitlər körpüyə farslardan xeyli əvvəl çatmışlar. İskitlər farsların hələ gəlib çıxmadıqlarını görüb öz gəmilərində olan ionlara belə sözlərlə üz tutmuşlar: "İonlar! Sizə (gözətləmək üçün) təyin olunmuş günlərin sayı qurtarmışdır, siz burada qalmaqla düzgün iş görmürsünüz. Axı, siz yalnız qorxudan burada qalmısınız. İndi keçidi tezliklə uçurub azad adamlar kimi xoşluqla, allahlara və iskitlərə minnətdarlıq edərək sağ-salamat çıxın gedin. Sizin əvvəlki ağanızı isə biz elə günə salmışıq ki, bir də hər hansı xalqın üstünə yürüşə çıxmaz".

137. İonlar bu münasibətlə məsləhətləşməyə başlayırlar: Hellespontdakı xersoneslilərin sərkərdəsi və tiranı afinalı Miltiad iskitlərə qulaq asıb İoniyanı azad etməyi məsləhət görür. Miletli Histiey isə, əksinə, başqa fikirdə olur. Onun sözlərinə görə, bu ionların hər biri indi Daranın mərhəməti sayəsində şəhərdə tiran olmuşdur. Daranın möhtəşəmliyi sarsılarsa nə onun (Histieyin) özü, nə də başqaları şəhər üzərin də öz hakimiyyətini saxlaya bilməz: axı, hər şəhər xalq hakimiyyətini tiran

downloaded from KitabYurdu.org

ağalığından üstün tutur. Məsləhət iştirakçılarının hamısı əvvəl Miltiadın fikri ilə razılaşsalar da, indi dərhal Histieyin bu rəyinə şərik olurlar.

138. Şah mərhəmətinə sığınan ionlardan bu məsləhətdə iştirak edənlər adbaad bunlardır: Hellespontun tiranları-abidoslu Dafnis, lampsaklı Hippokl, pariyalı Herofant, prokonnesli Metrodor, kizikli Aristoqor, bizanslı Ariston. Bunlar Hellespontdakı şəhərlərin tiranları olmuşlar. İoniyadan isə bunlar iştirak etmişlər: xioslu Stratis, samoslu Eak, fokeyalı Laodam, Miltiadın rəyinin əleyhinə çıxan miletli Histiey. Eoli tiranlarından yalnız bircə əhəmiyyətli adam - kimalı Aristaqor iştirak etmişdir.

139. İonlar Histieyin məsləhətini qəbul edib, bu məsləhətdən başqa aşağıdakı təklif və hərəkətləri ona əlavə etməyi qərara almışlar: ionların işsiz dayanmasından iskitlərin şübhələnməməsi və onların İstr üzərindəki körpüdən zorla keçməyə cəhd göstərməməsi üçün körpünü İskit Eli tərəfindən, həm də yalnız bir ox uçuşu məsafəsində uçurmaq, bununla da bir iş görüldüyünə iskitləri xatircəm etmək. İonlar körpünü iskitlər tərəfindən sökməklə iskitlərin istəyini yerinə yetirdiklərini onlara göstərmək istəmişlər. Histieyin məsləhətinə belə bir əlavəni ion tiranları etmişlər. Bundan sonra Histiey hamının adından iskitlərə belə cavab vermişdir: "Ey iskitlər, siz xeyirli məsləhət üçün, özü də lap vaxtında gəldiniz. Siz bizə doğru yol göstərdiniz, buna görə sizə can-başla qulluq göstərməyə hazırıq. Axı, gördüyünüz kimi, keçidi artıq uçurmağa başlamışıq və necə olur-olsun azadlığa çıxmağa çalışacağıq. Biz körpünü sökənə qədər sizin də farsları axtarmağınızın vaxtıdır; siz onları tapanda bizim də, özünüzün də intiqamını alın, "onlar buna layiqdirlər".

140. İskitlər ionların doğruluğuna bir də inanıb farsları axtarmaq üçün geri dönmüşlər. Amma onlar (farsların) getdiyi yolu heç cür tapa bilməmişlər. Burada günah iskitlərin özündə olmuşdur, çünki onlar bu ölkədə ilxı üçün otlaqları məhv edib quyulara torpaq tökmüşdülər. Bunu etməsəydilər, farsları asanlıqla tapa bilərdilər. Onların ən ağıllı saydıqları planları məhz indi boşa çıxırdı. İskitlər düşməni axtaranda öz ölkələrinin at üçün yem və su olan yerlərindən keçib gedir və

downloaded from KitabYurdu.org

düşmənin də bu yolla geri çəkildiyini güman edirmişlər. Amma farslar əvvəl saldıqları cığırları tutub getmişlər və yalnız bunun sayəsində (çətin də olsa) keçidi tapa bilmişlər. Onlar bu yerə gecə gəlib çatmışlar və körpünün söküldüyünü görmüşlər. İonların onları qoyub getdiklərini düşünən farsları qorxu sarmışdır.

141. Daranın məiyyətində çox gur səsli bir misirli varmış. Dara bu adama İstr qırağında durub miletli Histieyi çağırmağı buyurmuşdur. Misirli də belə etmişdir. Histiey isə onun ilk çağırışı ilə ordunun keçməsi üçün bütün gəmiləri gətirmiş və körpünü yenidən çəkmişdir.

142. Farslar belə xilas olmuşlar. İskitlər isə farsların axtarışında uğursuzluğa uğramışlar. O vaxtdan iskitlər azad insanlar olan ionları insanlar içərisində ən aciz qorxaqlar, bir qul kimi isə öz ağasına çox sədaqətli və qaçmağa ən az meylli hesab etmişlər. İskitlər ionları beləcə ələ salmışlar.

143. Dara Frakiyadan keçib Xersonesdəki Sestə gəlmişdir. Şahın özü buradan gəmilərdə Asiyaya üzüb getmiş, sərkərdə Mehabazı isə Avropada qoymuşdur. Dara bir vaxt farslar içərisində Mehabazı yüksək şərəfləndirib, onun haqqında belə bir rəy söyləmişdir: Bir dəfə Dara nar yeməyə hazırlaşanda, birinci narı kəsərkən şahın qardaşı Artaban ondan soruşur: "Şah, narın içindəki dənələr sayında nə əldə etmək istərdin?" Dara buna cavabında Elladanın sahibi olmaqdansa, Mehabaz kimi adamlarının çox olmasını üstün tutduğunu deyibmiş. Dara bir vaxtlar farslar içərisində belə bir rəylə şərəfləndirdiyi Mehabazı indi 80 minlik qoşun sərkərdəsi qoyub getmişdir.

144. Həmin bu Mehabaz hellespontlular arasında belə bir mülahizəsi ilə özü haqqında həmişəlik xatirə qoymuşdur. Mehabaz Bizansda necə olubsa, kalxedonluların bu ölkəyə bizanslılardan on yeddi il qabaq köçdüklərini öyrənmişdir. O, bu haqda deyilənləri eşidib deyibmiş: onda kalxedonlular kor olmuşlar. Onlar kor olmasaydılar öz şəhərləri üçün ən pis yeri seçməzdilər, halbuki onların gözü

downloaded from KitabYurdu.org

qarşısında daha yaxşı yer varmış. Beləliklə, Dara bu Mehabazı Hellespontda sərkərdə qoymuş, o da hələ farslara tabe olmayan bütün şəhərləri ram etmişdir.

145. Mehabaz belə işlər görmüşdür. Elə bu vaxt başqa bir böyük qoşun Liviyaya yürüş etmişdir. Bunun səbəbini sonra xatırladacağam. Öncə mən bunları danışmalıyam. Pelasqlar Afina qadınlarını Bavrondan qaçırdan arqonavtların nəsillərini Lemnosdan qovmuşlar. Arqonavtların xələfləri oradan dəniz yolu ilə Lakedemona gələrək Tayget dağında düşərgə salıb ocaq qalamışlar. Lakedemonlular işığı görüb onların kimliyini və haralı olduqlarını soruşmaq üçün xəbərçi göndərmişlər. Gəlmələr xəbərçinin sualına cavab vermişlər ki, onlar Lemnosa çıxaraq, lakedemonluların ulu babaları olmuş qəhrəman arqonavtların xələfləri minililərdir. Minililərin soykökü haqqında bu hekayəti eşidən lakedemonlular onların ölkəsinə nə üçün gəldiklərini və ocaq qaladıqlarını soruşmaq üçün yenə xəbərçi göndərmişlər. Onda minililər pelasqların onları qovduğunu, indi geri qayıdıb özlərinin ata torpaqlarına gəldiklərini, buna onların tam haqları çatdığını demişlər. Bunu da bildirmişlər ki, onlar lakedemonlular içərisində yaşamaq üçün icazə istəyirlər. Lakedemonlular minililərin təklif etdikləri şərtlə onları qəbul etmək qərarına gəlmişlər. Bu qərara onları sövq edən səbəb də əsasən Tindarın oğullarının arqonavtların yürüşündə iştirak etmələri olmuşdur. Beləliklə, lakedemonlular bu minililəri öz ölkələrinə qəbul edib onlara torpaq payı vermiş və filalar üzrə bölüşdürmüşlər. Bundan sonra minililər dərhal (Sparta qadınlarına) evlənmiş və Lemnosdan özləri ilə gətirdikləri qızlarını və bacılarını da lakedemonlulara ərə vermişlər.

146. Bir qədər keçəndən sonra minililər özlərini lovğa aparmağa başlamış, hökmdar hakimiyyətindən özlərinə pay istəmiş və daha başqa nalayiq hərəkətlər etmişlər. Onda lakedemonlular minililəri qırmaq qərarına gəlmişlər: onları tutub zindanlara salmışlar. Lakedemonlular ölüm cəzasına məhkum olunmuşları həmişə gecə qətlə yetirər, gündüz isə heç kəsi edam etməzmişlər. Beləliklə, minililəri öldürmək üçün toplaşanda onların əsil lakedemonlu və ən adlı-sanlı spartalı qızları olan arvadları öz ərləri ilə danışıq üçün icazə istəmişlər. Lakedemonlular heç bir

downloaded from KitabYurdu.org

məkr gözləmədən onları görüşə buraxmışlar. Arvadlarsa zindana girib bütün paltarlarını ərlərinə vermiş, özləri isə kişi paltarı geymişlər. Minililər də arvadlarının geyimində zindandan çıxmışlar. Bu yolla şəhərdən yayınıb, yenə Taygetdə düşərgə salmışlar.

147. Elə bu vaxt Polinikin kötükcəsi, Fersandrın nəticəsi, Tisamenin nəvəsi, Avtesionun oğlu Fera koloniyanı49 Lakedemondan çıxarmağa hazırlaşırmış. Kadmın nəslindən törəmiş bu Fera da Aristodemin oğulları Yevrisfen və Proklun dayısı olmuşdur. Bu bacı uşaqları yetkinlik yaşına çatana qədər Fera (onların qəyyumu kimi) Spartanın hökmdarı olmuşdur. Bacı oğulları tədricən böyüyərək özləri taxta çıxırlar. Fera da (hakimiyyətin dadını görmüş adam kimi) başqalarına tabe olmaq zərurəti qarşısında qaldığı üçün incik düşərək Lakedemonda qalıb, dənizlə öz qohumlarının yanına gedəcəyini bildirir. Öncə Kallista adlanan indiki Fera adasında finikiyalı Poykil oğlu Membliarın xələfləri yaşayırmışlar. Axı, Aqenor oğlu Kadm Avropanı axtaranda indi Fera adlanan adaya gəlib çıxmışdı. Buranı sevdiyinə görəmi, yoxsa başqa səbəblərdən məhz bu cür hərəkət etmək istədiyi üçünmü, hər halda o, bir neçə finikiyalını, o cümlədən öz qohumu Poykil oğlu Membliarı bu adada qoymuşdur. Səkkiz insan nəsli müddətində-Fera Lakedemondan oraya gedənə qədər finikiyalılar Kallista adasında yaşamışlar.

148. Fera müxtəlif Sparta filalarına mənsub bir neçə adamla həmin bu finikiyalıların yanına yola düşmüşdür. O, bunları heç də qovmaq deyil, onlarla bir yerdə yaşamaq istəmişdir. Bu vaxt minililər zindandan qaçıb Taygetdə düşərgə salmışdılar. Lakedemonlular onları ölümlə hədələmişlər, ancaq Fera qan tökməmək üçün həmvətənlərini dilə tutub minililəri ölkədən çıxarmağa söz vermişdir. Lakedemonlular onun xahişini nəzərə alıb güzəştə getmişlər. Onda Fera 30 avarlı üç gəmidə Membliarın xələflərinin yanına getmişdir. Amma o, minililərin hamısını yox, yalnız azacıq hissəsini özü ilə aparmışdır. Minililərin böyük hissəsi isə paroreatlara50 və kavkonlara51 qarşı çıxıb onları ölkədən qovmuşlar. Özləri də altı hissəyə bölünüb sonralar Leprey, Makist, Friksa, Pirq, Epi və Nudi şəhərlərinin

downloaded from KitabYurdu.org

əsasını qoymuşlar. Bu şəhərlərin çoxunu artıq mənim vaxtımda eleylilər uçurmuşlar. Adaya koloniyanın əsasını qoyan Feranın adı verilmişdir.

149. Amma Feranın oğlu atası ilə birlikdə üzüb getmək istəməmişdir. Ona görə də atası deyibmiş ki, onu canavarlar arasında bir qoyun kimi qoyub gedir. Atanın bu sözündən də gəncin ayaması Eolik törəmiş və bu ayama onun adına çevrilmişdir. Eolikin oğlu Egey olmuşdur. Spartadakı əhalisi çox olan fila onun adıyla Egeida adlanır. Bu filanın kişilərinin uşaqları sağ qalmırmış. Ona görə də onlar kahinin buyruğu ilə erinilərdən Laiy və Edipə məbəd ucaltmışlar. O vaxtdan egeylərin (həm Spartada, həm də) Fera adasında uşaqları sağ qalmışdır.

150. İndiyə qədər lakedemonlular və feralıların hekayəti uyğun gəlir. Bu tarixçənin davamını isə yalnız feralılar danışırlar. Feralılara görə bu tarixçə belə olmuşdur: bu Feranın xələfi Fera adasının hökmdarı olan Esani oğlu Hrinp öz şəhərinin adından hekatomba52 vermək üçün Delfə gəlmişdir. Onu bir neçə Fera vətəndaşı müşayiət etmişdir. Yevfem nəslindən olan minili Polimnest oğlu Batt da onların arasındaymış. Feralıların hökmdarı Hrinn müxtəlif işlər haqqında kahinə sorğular verəndə Pifiya Liviyada şəhər salmağı buyurmuşdur. Hökmdar ona belə cavab vermişdir: "Mənim ağam! Artıq qocalmışam, yola çıxmaq mənə çox ağırdır. Bu işi buradakı daha cavan adamlardan birinə buyur". Hökmdar bu sözlərlə Batta işarə etmişdir. Sonra heç nə baş verməmişdir, amma vətənə dönən hökmdar və onun yol yoldaşları kahinin qeybdən verdiyi xəbərə məhəl qoymamışlar: onlar Liviyanın harada olduğunu bilmirlərmiş və oraya uğurla əhali göndərməyə cəsarət etmirlərmiş.

151. Bundan sonra allah Feraya yeddi il yağış yağdırmamış və adadakı bircə ağacdan başqa qalan hamısı qurumuşdur. Onda feralılar bu haqda kahinə sorğu vermişlər və Pifiya Liviyaya koloniya göndərməyi bir də buyurmuşdur. Feralılar bəladan qurtarmağın çarəsini bilmədiklərinə görə hər hansı bir kritlinin, ya da Kritdə yaşamış yadellinin Liviyada olub-olmadığını öyrənmək üçün Kritə xəbərçi göndərmişlər. Xəbərçilər adanın bu başından o başına veyllənib axırda İtan şəhərinə gəlmişlər. Orada onlara Korobi adlı baqrian53 ovçusu rast gəlib, o da bunlara danışıb

downloaded from KitabYurdu.org

ki, bir dəfə tufan onu Liviya sahilindəki məhz Plateya adasına aparmışdır. Feralılar Korobini muzdlu işçi kimi Fera adasına aparmışlar. Sonra Feradan əvvəlcə bir neçə adam kəşfiyyata getmişdir. Korobi onları həmin Plateya adasına gətirəndə, feralılar ona bir neçə aylıq ərzaq ehtiyatı verib onu orada qoymuşlar. Özləri isə bu haqda həmyerlilərinə danışmaq üçün tələsik geri dönmüşlər.

152. Amma feralılar şərtləşdikləri vaxtda gəlib çıxmadıqlarından Korobinin ərzaq ehtiyatı tükənmişdir. Bundan azca sonra Misirə gedən Samos gəmisini (gəmi sahibi Koley (olmuşdur) küləklər bu adaya qovub aparmışdır. Korobidən bütün əhvalatı öyrənən samoslular ona tam bir illik ərzaq qoymuşlar, özləri isə adadan yenə açıq dənizə çıxıb Misirə yola düşmüşlər. Amma şərq külәkləri onları geriyə aparmış və tufan yatmadığına görə onlar Herakl Sütunlarını keçib, allah köməyi ilə Tartessə gəlmişlər. Bu ticarət limanı o vaxt ellinlərə bəlli deyilmiş. Ona görə də vətənə dönəndə, (mənim əlimdəki məlumat nə qədər etibarlıdırsa), gətirilmiş mallardan gəlirin çoxunu, əlbəttə, eginalı Laodamant oğlu Sostrat istisna olmaqla (bu işdə onunla heç kəs yarışa bilməzdi), bütün ellinlərə nisbətən samoslular götürmüşlər. Samoslular gəlirlərinin onda bir hissəsini-6 talantını allahlara nəzir deyərək, Arqoli kraterinə oxşayan bir mis qab hazırlamağı buyurmuşlar. Qabın yuxarı qıraqlarında qrif başlarından bir növ tac düzəldilmişdir. Bu qabı onlar Hera məbədinə nəzir gətirib, onu 7 dirsək hündürlüyündə dizləri qatlanmış üç nəhəng tunc heykəl üzərində quraşdırmışlar. Samosluların bu xeyirxah hərəkəti onların kirenalılar və feralılarla möhkəm dostluğunun təməli olmuşdur.

153. Feralılar Korobini Plateya adasında qoyub, sonra Liviya sahillərindəki adanı tutmaları haqqında xəbərlə Feraya qayıtmışlar. Feralılar çöp atmaq yolu ilə adadakı icmaların bütün ailələrindəki iki qardaşdan birini oraya göndərmək qərarına gəlmişlər və Battı da onlara hökmdar seçmişlər. Sonra onlar Plateyaya 50 avarlı iki gəmi göndərmişlər.

154. Feralıların danışdığı əhvalat belədir və sonrakı olaylar haqqında kirenalılar onu tamam başqa cür, məhz belə danışırlar: Kritdə Oaks şəhəri var. Orada Etearx

downloaded from KitabYurdu.org

hökmdarmış; onun Fronima adında qızı varmış. Arvadı öləndən sonra hökmdar anadan yetim qalmış qızının xatirinə yenidən evlənmişdir. Bu qadın hökmdar evinə ayaq basıb Fronimaya analıq olmaq istəmiş və doğrudan da analıq olmuşdur. O, ögey qızı ilə pis rəftar etmiş, ona hər cür fitnə-fəsad qurmuş, axırda əxlaqsızlıqda təqsirləndirmiş, hətta, ərini də buna inandırmışdır. Arvadının qulaq doldurmasına görə hökmdar qızına dəhşətli pislik etmək fikrinə düşmüşdür. O vaxtlar Oaksda Femison adında feralı bir tacir yaşayırmış. Etearx bu Femisonu saraya qonaq çağırıb, ondan xahiş edilən hər hansı bir qulluğu göstərəcəyinə zorla and içdirmişdir. Tacir and içəndən sonra hökmdar qızını gətirməyi buyurmuş, qızı ona vermiş və geri dönəndə qızı dənizə atmağı əmr etmişdir. Femison aldadılaraq zorla and içdirilməsindən bərk hiddətlənmişdir. O, hökmdarla dostluğu pozmuş və belə bir iş tutmuşdur: Kritdən çıxıb gedərək, hökmdar qızını özü ilə aparmışdır. Açıq dənizdə guya andını yerinə yetirmək üçün qızın əl-ayağını kəndirlə bağlayıb dənizə atmış, sonra da çəkib dənizdən gəminin göyərtəsinə çıxararaq onunla birlikdə Feraya gəlmişdir.

155. Orada əsilzadə feralı Polimnest Fronimanı evinə aparıb onu özünə kəniz etmişdir. Vədə yetişəndə Fronima oğlan uşağı doğmuşdur. Sonra onun pəltəkliyi və fışıltılı səslə danışdığı aşkar olmuşdur. Feralılar və kirenalılar uşağa Batt adı qoyulduğunu söyləyirlər. Amma mən onun əvvəlcə başqa adı olduğunu, yalnız Liviyaya gələndən sonra Batt adlandırılmağa başladığını düşünürəm: ona bu adı məhz Delf kahininin qeybdən verdiyi buyruğa və malik olduğu hökmdar nəsəbinə görə

qoymuşlar. Doğrudan da, axı liviyalılar hökmdarı "battos" adlandırırlar. Mənim fikrimcə, buna görə də Pifiya peyğəmbərlik edərək onu Liviya dilində hökmdar adlandırmışdır, çünki onun Liviyada hökmdar olacağını bilmişdir. Batt böyüyüb özünün pəltəkliyinə görə Delfə məsləhətə gələndə Pifiya ona belə cavab vermişdir:

- Ey Batt, bir səs üçün gəldik, amma tanrı Apollon səni sürülərimə baxsın, şəhər qursun deyə Liviyaya yollayır.54 Pifiya ellin dilində belə demişdir: "Ey hökmdar!

downloaded from KitabYurdu.org

Sən öz nitqin üçün gəlmisən". Batt da ona belə sözlərlə cavab vermişdir: "Ey tanrım! Mən öz nitqim üçün sənə sorğu verməyə gəlmişəm, sən isə Liviyada məskən salmağı əmr edib mənim boynuma mümkün olmayan başqa vəzifə qoyursan. Amma hansı qoşunla, hansı adamlarla?" Amma bu cavabla o, Pifiyanı ona başqa bir buyuruq verməyə inandıra bilməmişdir, Pifiya özünün qeybdən gələn əvvəlki bəyanını təkrar etmiş, Batt da hələ ilahə buyruğu söyləyərkən Feraya qayıdıbmış.

156. Bundan sonra Batta da, feralılara da cürbəcür bədbəxtliklər üz vermişdir. Feralılar bunun səbəbini bilmədən qeybdən xəbər verən kahindən sorğu üçün Delfə adam göndərmişlər. Pifiya belə cavab vermişdir: onlar, başda Batt olmaqla, Liviyada Kirenanın əsasını qoysalar, vəziyyət yüngülləşməyə başlayar. Onda feralılar Battı 50 avarlı iki gəmi ilə yola salmışlar. Gəmilər Liviyaya üzmüş, amma Batt və yol yoldaşları orada nə edəcəklərini bilmədiklərindən yenə Feraya dönmüşlər. Feralılarsa onları oxa tutub, sahilə çıxmağa qoymamışlar və geri qayıtmalarını əmr etmişlər. Onda köçkünlər təzədən dənizə çıxmağa məcbur olub, Liviya sahilində adını çəkdiyimiz Plateya adasına düşmüşlər. Deyilənə görə, bu ada indiki Kirena şəhəri böyüklükdədir.

157. Onlar adada iki il yaşamışlar. Amma burada yaxşı bir şey görməyib adada bircə adam qoyaraq oradan Delfə üzüb getmişlər. Oraya gələndə kahinə sorğu verərək Liviyaya köçmələrinə baxmayaraq, işlərinin heç də yaxşı olmadığını bildirmişlər. Pifiya cavabında onlara belə buyurmuşdur: Liviyada olmadan da quzuları doyduran bu diyarı məndən yaxşı tanıyırsan. Mən isə orada olduğuma görə sənin müdrikliyin məni hədsiz dərəcədə təəccübləndirir. Kahinin belə cavabını eşidən Batt yol yoldaşları ilə geriyə qayıtmışdır. Axı, onlar hələ Liviyaya çatmağa nail olmasalar da, görünür, allah onları yaşayış məskəninin əsasını qoymaq vəzifəsindən azad etməmişdir. Onlar adaya gəlmiş, sonra orada qoyulmuş adamı da özləri ilə götürüb Liviyanın özündə, adanın qarşısında yaşayış məskəninin əsasını qoymuşlar. Bu yerin adı Azirida olmuşdur. Ora iki tərəfdən gözəl meşəli dərə ilə çevrələnmişdir, üçüncü dərə boyu isə çay axır.

downloaded from KitabYurdu.org

158. Köçkünlər bu yerlərdə altı il yaşamışlar. Yeddinci ildə liviyalılar onları daha yaxşı yerə gətirməyi boyunlarına çəkmiş və bu bölgəni buraxmağın zəruriliyinə inandırmışlar. Liviyalılar köçkünləri oradan aparanda onları qərbə getməyə həvəsləndirmişlər. Ellinlərin ən gözəl yeri görməməsi üçün liviyalılar sutkanın vaxtını müvafiq surətdə dəqiq hesablayaraq onları həmin yerdən gecə aparmışlar. Bu yer İrəsə adlanır. Sonra liviyalılar köçkünləri guya Apollona nəzir edilmiş bir çeşməyə gətirmiş və demişlər: "Ellinlər! Siz gərək burada məskən salasınız, çünki göy burada deşikdir".

159. Yaşayış məskəninin əsasını qoyan Battın qırx illik hakimiyyəti, oğlu Arkesilayın da 16 illik hökmranlığı zamanı kirenalıların sayı köçün əvvəllərindəki kimi az olmuşdur. Xoşbəxt Batt adlandırılmış üçüncü hökmdarın dövründə Pifiya qeybdən bəyan verərək bütün ellinləri Liviyaya gedib kirenalılarla birlikdə oraya köçməyə sövq etmişdir. Çünki kirenalılar köçkünləri çağırıb torpaqlarını onlarla bölüşməyə söz vermişdilər. Kahin bəyanında belə deyilmişdir: Kim arzu olunan Liviya torpağına çox gec gələrsə, o, torpaqlar bölünəndən sonra acı peşmançılıq çəkəcəkdir.

Beləliklə, Kirenaya olduqca çoxlu adam yığışıb, qonşu liviyalıların böyük torpaq sahələrini əllərindən almağa başlamışlar. Onda talanmış və rüsvaycasına təhqir olunmuş liviyalılar, onların Adikran adlı hökmdarı Misirə elçilər göndərib Misir hökmdarı Aprinin himayəsinə keçmişlər.55 O da böyük Mioir qoşunu toplayıb onu Kirenanın üstünə göndərmişdir. Kirenalılar isə İrəsə deyilən yerə və Festa çeşməsinə yürüşə çıxıb misirlilərə hücuma keçmiş və bu döyüşdə qalib gəlmişlər. Axı, misirlilər əvvəllər heç vaxt ellinlərlə tutaşmamışdılar. Onlar ellinlərə saymazyanalıq göstərmiş*. indi isə onlara dəhşətli şəkildə məğlub olaraq yalnız bəziləri Misirə qaçıb xilas olmuşdur. Misirlilər özlərinin məğlubiyyətində Aprini təqsirləndirmiş və intiqam qəsdi ilə ona qarşı üsyan qaldırmışlar.

160. Bu Battın oğlu Arkesilay olmuşdur. Hökmdarlığa keçəndə əvvəlcə qardaşları Kirenanı buraxıb gedənədək onlarla küsüşüb dalaşmışdır. Onlar Liviyanın başqa

downloaded from KitabYurdu.org

yerinə çəkilərək, təkbaşına Barka adı daşıyan bir şəhərin təməlini qoymuşlar. (Bu şəhər indi də belə adlanır). Şəhər salınan vaxt qardaşlar liviyalıları Kirenaya qarşı üsyana təhrik etmişlər. Bundan sonra Arkesilay onun qardaşlarını qəbul edən liviyalılara və qiyamçıların özlərinə qarşı yürüşə çıxmışdır. Bu liviyalılar qorxuya düşüb şərq bölgəsindəki Liviya qəbilələrinə sarı qaçmışlar. Arkesilay qaçqınları Levkon deyilən yerə qədər qovmuşdur. Orada liviyalılar ona hücuma keçmək qərarına gəlmişlər. Vuruşmada kirenalılar darmadağın edilmişlər, onların 7000 qopliti döyüş meydanında qalmışdır. Bu uğursuzluqdan sonra Arkesilay xəstələnmişdir. Hökmdar dava-dərman içəndə qardaşı Learx onu boğmuşdur. Learxı da Arkesilayın Erikso adlı arvadı mərklə öldürmüşdür.

161. Arkesilayın oğlu Batt onun səltənətinə varis çıxmışdır. O, topal olmuş və ayağı üstə zorla dayana bilmişdir. Kirenalılar isə onları basmış bədbəxtliyə görə Delfə adam göndərib, hansı dövlət quruluşunda daha yaxşı yaşaya biləcəkləri haqqında kahinə sorğu vermişlər. Pifiya Arkadiyadakı Mantineyadan vasitəçi çağırmağı buyurmuşdur. Bu xahişə görə mantineyalılar öz vətəndaşlarından Demonakt adlı ən hörmətli adamı göndərmişlər. Vasitəçi Kirenaya gəlib şəhərin vəziyyəti ilə tanış olaraq əhalini bu şəkildə üç filaya bölmüşdür: birinci hissəyə feralılar və onların qonşuları, ikinciyə peloponneslilər və kritlilər, üçüncü hissəyə isə bütün ada əhalisi daxil idi. Sonra o hökmdar Battın özünə hökmdar (torpaq) mülkləri və kahinlik gəliri ayırmış, əvvəlki hökmdara məxsus olan hər nə varsa, onları da xalq malı etmişdir.56

162. Bu Battın dövründə belə qaydalar hökm sürmüşdür. Amma onun oğlu Arkesiyalın hakimiyyət illərində hökmdar (hüquqları) və imtiyazları üstündə güclü qarışıqlıqlar başlamışdır. Çünki topal Battın və Feretimanın oğlu Arkesilay mantineyalı Demonaktın qoyduğu qaydalara dözmədiyini bildirib öz sələflərinin imtiyazlarını və mülklərini ona qaytarmağı tələb etmişdir. Sonra baş vermiş çəkişmələrdə Arkesilay məğlub olub Samosa, anası isə Kiprdəki Salaminə qaçmışdır. O vaxt Salamində Yevelfont hakimiyyət sürmüşdür. O, korinflilərin xəzinəsində olan gözəl buxurdanı Delfə nəzir vermişdir. Feretima Yevelfontun hüzuruna gəlib oğlu ilə

downloaded from KitabYurdu.org

birlikdə Kirenaya qayıtmaq üçün qoşun verməsini ondan xahiş etmişdir. Yevelfontsa ona qoşundan başqa lazım olan bütün şeyləri vermişdir. Feretima bu hədiyyələri qəbul edib onların gözəlliyini tərifləyərək, hər halda hökmdar onun xahişinə əməl edib qoşun versə, bunun daha yaxşı kömək olacağını söyləmişdir. Hər hədiyyə təqdim olunduqca bu sözlər təkrar edildiyinə görə Yevelfont axırdan-axıra Feretimaya qızıldan cəhrə, mil və əyrilmək üçün yun göndərmişdir. Feretima bu dəfə də eyni sözləri təkrar etmişdir. Onda Yevelfont qadınlara, məhz bu cür hədiyyələr göndərmək lazım olduğunu söyləmişdir.

163. Bu vaxt (Samosda olan) Arkesilay torpağı yenidən bölüşdürmək üçün hər cür adamlar toplamağa başlamışdır. O, böyük qoşun yığıb, özünün geri dönməsi haqqında kahinə sorğu vermək üçün adam göndərmişdir. Pifiya hökmdara belə cavab vermişdir: "Dörd Batt və dörd Arkesilay vaxtında Loksi sizə Kirenada hakimiyyət sürməyə icazə verir. Bundan sonra o, hakimiyyətə can atmağı sizə məsləhət görmür. Sən özün rahatca evə qayıda bilərsən. Amfora dolu soba tapsan, amforanı yandırma, onu necə varsa eləcə də göndər getsin. Yox, yandırası olsan, ətrafında su olan yerə ayaq basma, yoxsa özün ölərsən və sənin naxırındakı ən gözəl buğa da məhv olar".

164. Pifiya Arkesilaya belə buyurmuşdur. O da Samosdan seçib gətirdiyi adamlarla Kirenaya qayıtmışdır. Arkesilay hakimiyyəti ələ keçirəndən sonra kahinin dediklərini unudub, məhkəmə vasitəsi ilə onun qovulmasına bais olanları təqib etməyə başlamışdır. Onların bir qismi ölkədən həmişəlik çıxıb getməyə məcbur olmuş, bəziləri isə Arkesilayın əlinə keçmişlər, o da bunları edam etdirmək üçün Kiprə göndərmişdir. Amma (yolda) külək onları Knidə aparmış, knidlilər də bu əsirləri azad edib Feraya göndərmişlər. Bəzi kirenalılar Aqlomaxa məxsus böyük qüllədə sığınacaq tapa bilmişlər. Arkesilay da qüllənin ətrafına odun qalayıb yandırmağı əmr etmişdir. Hər şey qurtaranda kahinin bu cür cinayətkarlığa necə münasibət bəslədiyi Arkesilayın ağlına gəlmişdir: Axı, Pifiya ona tapacağı amforanı yandırmağı yasaq etmişdi. Bu halda öləcəyinin əvvəlcədən xəbər verilməsindən qorxuya düşən Arkesilay kirenalıların şəhərini könüllü buraxıb getmək fikrinə düşmüşdür. O, Kirenanı "su ilə əhatələnmiş yer" hesab etmişdir. Arkesilay öz

downloaded from KitabYurdu.org

qohumu, Barka hökmdarı Alazirin qızına evlənmişdi. O, qayınatasının yanına getmiş və orada barkalılar və Kirenadan bəzi sürgün olunmuşlar onu öldürmüşlər. Onlar Arkesilayı qayınatası Alazirlə birlikdə öldürmüşlər. Arkesilay bilərəkdənmi, bilməyərəkdənmi kahinin bəyanına etinasızlıq göstərdiyinə görə öz qismətindən qaça bilməmişdir.

165. Arkesilay öz başına bəla açdığı Barkada yaşayarkən onun anası Feretima Kirenada öz oğluna layiq fəxri yer tuturmuş, hətta məsləhət məclisinin yığıncaqlarında iştirak edirmiş. Oğlunun Barkada ölümünü eşidəndə qaçıb Misirdə gizlənir. Arkesilay Kuruş oğlu Kambisə qulluq göstərib Kirenanı ona vermiş və üstəlik xərac da ödəmişdi. Feretima Misirə gələrək bir iltimasçı kimi Ariandın ayaqlarına döşənib ondan kömək istəmişdir. Özü də oğlunun farslarla dostluq üstündə öldürüldüyünü inandırmağa çalışmışdır.

166. Həmin bu Ariandı Kambis Misirə satrap qoymuşdu. Sonralar o özünü Dara ilə bərabər tutmaq xəyalına düşdüyünə görə öldürülmüşdür. Məhz Daranın özünə hələ heç bir hökmdarın ucalda bilmədiyi bir abidə qoymaq istədiyini eşidən satrap, nə qədər ki, buna görə cəzalandırılmayıb, Daranı yamsılamaq istəmişdir. Axı, Dara sikkə kəsdirmək üçün mümkün qədər saf qızıl əritmək əmri vermişdi. Ariand da Misirin satrapı olduğu zaman gümüş sikkə kəsdirmək üçün eyni şeyi etmişdir. Belə ki, Ariand gümüşü indi də ən saf gümüş sayılır. Dara bundan xəbər tutub, satrapı öldürmək əmri vermiş və bu əmr üçün başqa ittiham - üsyan fikrinə düşmək ittihamı irəli sürülmüşdür.

167. Amma bu vaxt Feretimaya yazığı gələn Ariand Misirin həm quru, həm də hərbi dəniz qüvvələrini bütünlüklə ona vermişdir. O, marafilərdən olan Amasisi qoşuna, pasarqad nəslindən Bədri isə donanmaya başçı təyin etmişdir. Ariand hələ yürüşdən əvvəl Arkesilayı kimin öldürdüyünü öyrənmək üçün Barkaya xəbərçi göndərmişdi. Barkalılar Arkesilaydan çox pisliklər gördüklərinə görə (qətlin) günahını öz boyunlarına götürmüşlər. Ariand bunu eşidib onlara qarşı Feretima ilə birlikdə qoşun göndərmişdir. Amma bu, yürüş üçün yalnız sözgəlişi səbəb olmuşdur,

downloaded from KitabYurdu.org

yürüşün əsl səbəbi isə, mənim düşündüyümə görə, Liviyanın istilası ola bilərdi. Axı, Liviyada çoxluca müxtəlif qəbilələr yaşayır və onların az bir qismi şaha tabe olmuş, çoxu isə Daraya məhəl qoymamışdır.

168. Liviyalılar (öz ölkələrində) belə bir qayda ilə yaşayırlar: Misirdən başlayanda birinci qəbilə adirmaxlardır. Onların çox adətləri Misir adətləridir, geyimləri də başqa liviyalılarınkı kimidir. Onların qadınları ayaqlarının hərəsinə bir mis halqa taxır və uzun saç saxlayırlar. Başlarında bit tapanda onlar da öz növbəsində onu dişləyib sonra tullayırlar. Bütün liviyalılardan yalnız onlar belə edirlər və yalnız onlarda öz qızlarını hökmdara ərliyə təklif etmək adəti var. Hökmdar isə daha çox xoşladığı qızların bərəkətini alır. Bu adirmaxlar Misirdən Plin adlı limana qədər olan yerdə yaşayırlar.

169. Onlardan sonra qərbə doğru Afrodisiada adasına qədər olan yerlərdə qiliqamlar yaşayırlar. (Bu bölgənin arasında) isə kirenalıların məskunlaşdığı Plateya adası Materikdə isə Menelay limanı və kirenalıların öz şəhərlərinin əsasını qoyduqları Azirida deyilən yer gəlir. Buradan silfi57 bitən sahə başlayır. Silfi isə Plateya adasından tutmuş Sirt körfəzinədək bitir. Qiliqamların adətləri başqa qəbilələrin adətləri kimidir.

170. Qərbdə qiliqamlara asbistlər qonşudurlar. Onlar kirenalılardan cənubda yaşayırlar. Amma onların bölgəsi dənizə çatmır, belə ki, sahilə kirenalılar yiyəlik edirlər. Liviyılalar içərisində onlar dörd at qoşulmuş araba sürməyi xoşlayırlar və ümumən kirenalıların adətini yamsılamağa çalışırlar.

171. Asbitlərlə qərbdə avsxislər həmsərhəddir. Onlar Barka arxasındakı bölgədə yaşayır və Yevesperida yaxınlığında dənizə çıxırlar. Avsxislər ölkəsinin mərkəzində bakallar adlı kiçik bir qəbilə yaşayır; onların torpaqları Barkeya bölgəsindəki Tavxir şəhəri yaxınlığında dənizədək uzanır. Avsxislərin adətləri də Kirena arxasında yaşayan liviyalılarınkı kimidir.

downloaded from KitabYurdu.org

172. Bu avsxislərdən sonra qərbdə çoxsaylı nasamonlar qəbiləsi gəlir. Onlar yayda heyvanlarını dəniz qırağında qoyub ölkənin dərinliklərində Avgil deyilən yerə xurma dərməyə gedirlər. Orada hamısı bar verən çoxlu iri xurma ağacı (palma) bitir. Nasamonlar çəyirtkələri da tutub, gün altında qurudaraq üyüdür və sonra südə töküb (bu halda) içirlər. Hər nasamonun ümumi sayılan çoxlu arvadı olur. Onlar arvadlara təxminən massagetlər kimi əlaqəyə girirlər: qapının ağzına dəyənək qoyub sonra qadınla cütləşirlər. Nasamon ilk dəfə evlənirsə, adətə görə, gəlin birinci gecə toya gəlmiş bütün qonaqlarla növbə ilə əlaqəyə girməlidir. Əlaqəyə girdiyi hər qonaq ona evdən gətirdiyi hədiyyəni verir. Onların andiçmə və ya falaçma adətləri isə belədir: onlar and içəndə qədimlərin ən ədalətli və rəşadətli ərlərini xatırlayırlar onların qəbirlərinə əl basırlar. Fal açmaq üçün də onların ulu babalarının qəbrinin üstünə gəlib, dua edərək gecəni qəbrin üstündə yatırlar. Falabaxan hər yuxuya inanır. Onlar dostluq sazişlərini də belə bağlayırlar: biri öz ovcunda başqasına su içirdib, özü də onun ovcundan su içir. Yanlarında su olmayanda, yerdən bir çimdik, toz götürüb onu yalayırlar.

173. Nasamonların qonşuları psillərdir. Bu qəbilə bax belə məhv olmuşdur: cənub küləyi o qədər güclü əsmişdir ki, onların sututarları qurumuş və (Sirtin) içərisində yerləşən bütün ölkə tamamilə susuz qalmışdır. Onda psillər bir nəfər kimi cənub küləyinə qarşı müharibəyə getmişlər (mən liviyalılardan nə eşitmişəmsə, yalnız onu çatdırıram). Onlar qum səhrasına gəlib çıxanda cənub küləyi qalxıb onları quma qərq etmişdir.

174. Nasamonlardan daha cənuba doğru yerləşən vəhşi heyvanlar ölkəsində insanlardan çəkilən, insanla hər cür ünsiyyətdən qaçan qaramantlar yaşayırlar. Onların nə hücum, nə də müdafiə üçün heç bir silahı yoxdur.

175. Bu qəbilə nasamonlardan cənubda yaşayır. Qərbdə dəniz; qırağı boyunca maklar yaşayırlar. Onlar saçlarını qırxdırıb yalnız kəkil saxlayırlar: təpələrində saçı uzadıb onun ətrafını təmiz qırxdırırlar. Müharibə vaxtı qorunmaq üçün dəvəquşu dərisi geyirlər. Kinip çayı onların torpağından axır. O, öz başlanğıcını Xarit deyilən

downloaded from KitabYurdu.org

təpədən alıb dənizə tökülür. Bu təpə sıx meşəliklə örtülü olduğu halda, Liviyanın yuxarıda təsvir edilmiş (hissəsi) tamamilə bitkisizdir. Təpə dənizdən 200 stadiya aralıdır.

176. Bu maklardan sonra hindanlar gəlir. Onlarda bütün qadınlar topuqlarında çoxlu dəri halqalar gəzdirirlər və deyilənə görə onlar hər dəfə kişilərlə əlaqədən sonra belə halqalar taxırlar. Ona görə ki, halqaları çox olan qadın ən yaxşı qadın sayılır, çünki onun daha çox aşnası olmuşdur.

177. Bu hindanların qarşısındakı sahildə lotofaqlar58 yaşayırlar. Onlar yalnız şanaküllə (lotos) meyvəsi ilə qidalanırlar. Şanagüllə (meyvəsinin) böyüklüyü təxminən sakkız ağacının meyvəsi böyüklüyündə olub, şirinliyinə görə xurmaya oxşayır. Lotofaqlar bundan çaxır da hazırlayırlar.

178. Daha sonra, dəniz qıraqlarında maxlılar yaşayırlar; (onlar da) şamagüllə yeyirlər, amma indicə xatırladılan lotofaqlar qədər yemirlər. Onların torpaqları isə Triton adlı böyük bir çaya qədər uzanır. Bu çay da böyük Tritonida gölünə tökülür. Göldə Fla adlı ada var. Deyilənə görə kahin bu göldə lakedemonlulara yaşayış məskəni salmağı buyurmuşdur.

179. Bununla belə başqa rəvayətlər də vardır. Yazon (İason) Pelionun ətəklərində özünün "Arqo" gəmisinin quraşdırılmasını başa vuranda ona hekatombadan başqa, mis üçayaq da yükləmişdir. Sonra qəhrəman Delfə gəlmək üçün Peloponnes ətraflarında üzməyə başlamışdır. Maleya yolunda şimal küləyi gəmini götürüb Liviyaya aparmışdır. Yazon heç torpağı görməyə macal tapmamış Tritonida gölündə saya oturmuşdur. Rəvayətdə bu haqda söz belə davam etdirilir: qəhrəman çıxış yolu tapmayaraq çaşıb qalanda Triton gəlib üçayağı ondan istəmişdir. Allah bunun əvəzində arqonavtlara yol göstərib, onları sağ-salamat buraxacağını deyibdir. Yazon onun sözünə əməl edib, Triton da sayadan çıxmaq yolunu Yazona göstərmiş, üçayağı da aparıb öz məbədinə qoymuşdur. Triton bu üçayaqda əyləşib Yazonun və yol yoldaşlarının gələcəyi haqqında belə xəbər söyləyib. Yazonla birlikdə "Arqo"da üzən

downloaded from KitabYurdu.org

qəhrəmanların nəslindən biri bu üçayağı evə aparsa, Tritonida gölünün ətrafında mütləq yüz ellin şəhəri əmələ gələcək. Bu bəyanı eşidən yerli lidiyalılar üçayağı gizlədiblər.

180. Bu maxlılardan sonra avseylər gəlirlər. Bunlar da maxlılar kimi Tritonida gölü ətrafında yaşayırlar. Triton çayı da onların arasında sınır əmələ gətirir. Maxlılar başlarının dalında, avseylərsə başlarının qabağında saç uzadırlar. Hər il Afina bayramında onların qızları iki qismə bölünüb bir-birinə daş atır və qırbaclarla döyüşürlər. Onların sözlərinə görə bu qızlar mərasimi bizim Afina59 adlandırdığımız qədim yerli ilahə şərəfinə icra edirlər. Yaradan ölən qızları onlar yalançı qızlar adlandırırlar. Döyüş sona yetənə qədər xalq belə edir. Hamıdan cəsur vuruşan qızın başına Korinf dəbilqəsi qoyub, ona ellin yaraq-əsləhəsi verirlər və gərdunəyə mindirib gölün ətrafına aparırlar. Onlarda ellin yaşayış məskənlərinin binası qoyulana qədər avseylərin öz cəsur qızlarını nə ilə bəzədiklərini deyə bilmərəm, amma hər halda, görünür, onların belinə Misir silahı qurşayırmışlar. Axı, mənim fikrimcə, ellinlər hətta qalxan və dəbilqəni də misirlilərdən götürmüşlər.60 Onlar Afinanı Poseydonun və Tritonida gölü ilahəsinin qızı sayırlar. Afina atası ilə dalaşıb Zevsə tapınmış, o da Afinanı qızlığa götürmüşdür. Onlar bu haqda belə danışırlar. Onlar qadınlarla kəbin kəsdirmədən birlikdə, özü də heyvan kimi açıq əlaqəyə girirlər. Arvad tamam sağlam uşaq doğursa, üç aydan sonra kişilər yığışır, uşaq kimə oxşayırsa onu da uşağın atası sayırlar.

181. Liviyanın sahilboyu qəbilələri mənim sadaladıqlarımdır.61 Bunlardan sonra ölkənin içərilərində çoxlu vəhşi heyvanlar olan bölgələr başlanır, onun ardınca da (sahil boyu) Misir Fivasından Herakl Sütunlarına qədər qum təpəciklərindən ibarət səhra uzanır. Bu səhrada bir-birindən təxminən on günlük yol məsafəsindəki təpələrdə qaya kimi iri duz parçaları görünür. Hər təpənin duz parçasının içindən soyuq və içməli bulaq suyu vurub çıxır. Səhra tərəfdən bu duzlu təpələrin həndəvərində və vəhşi heyvanlar bölgəsindən cənubda ən ucqar Liviya tayfaları hələ də yaşayırlar. Öncə Fivadan Fiva Zevsi məbədinə qədər olan on günlük yol boyu yaşayan ammonlar gəlir. Axı, artıq dediyim kimi, Fivadakı Zevs heykəli də qoyun

downloaded from KitabYurdu.org

başlıdır. Ammonlarda başqa bir su mənbəyi də vardır. Bu su səhər ilıq olur, bazar adamlarla dolan vaxt soyumağa başlayır, günorta isə tamam soyuyur. Bu vaxt adamlar bağlarını sulayırlar. Qüruba yaxın su o qədər də soyuq olmur, gün batandan sonra ilıqlaşır. Gecə yarıya qədər su getdikcə daha da qızır, bu vaxt o pıqqıltı ilə qaynayır. Gecə yarıdan keçəndən sübhə qədər su yavaş-yavaş soyuyur. Bu, Günəş çeşməsi adlanır.

182. Ammonlar bölgəsindən sonra təpəli səhra boyu daha on günlük yol getdikdə ammonlardakı kimi, yenə duzlu və çeşməli təpəliyə gəlib çıxırsan. Bu çeşmələrin ətrafında da adamlar yaşayır. Bu yer Avgil adlanır. Nasamonlar buraya xurma yığmağa gəlirlər.

183. Sonra Avgildən on günlük yolda, başqa bölgələrdə olduğu kimi, yenə su çeşmələri olan duzlu təpələr və bar verən çoxlu xurma ağacları gəlir. Orada (son dərəcə çoxsaylı) qaramantlar qəbiləsi yaşayır. Onlar duzun üstünə torpaq töküb sonra səpin aparırlar. Buradan loltofaqlara yol məhz otuz gündür Qaramantlarda otladıqca dalı-dalı gedən öküzlər var. Bunun də səbəbi belədir: onların buynuzları qabağa burulduğuna görə dalı-dalı çəkilərək otlayırlar, çünki qabağa getmək istəyəndə buynuzları yerə toxunur. Onlar başqa öküzlərdən özgə heç nə ilə fərqlənmirlər, təkcə dəriləri qalındır və əl vuranda adama yumşaq gəlir. Bax, bu qaramantlar dörd at qoşulmuş gərdunələrdə62 mağara efioplarını ovlamağa çıxırlar. Axı, bizim eşitdiyimiz sürətlə qaçan bütün adamlar içərisində mağara efiopları ən bərk qaçan adamlardırlar. Bu mağara sakinləri ilan, kərtənkələ və bunlara bənzər başqa sürünənləri yeyirlər. Dilləri heç bir dilə oxşamır: onlar yarasa ciyiltisinə bənzər səs çıxarırlar.

184. Qaramantlardan sonra daha on günlük yolda çeşməsi olan başqa bir duzlu təpə var. Bunun da yanında atarant adlı bir qəbilə yaşayır. Mən bilən, bunlar yeganə adsız adamlardır. Onların hamısına birlikdə atarantlar deyilir,63 ayrı-ayrı adamlar isə adsızdırlar. Günəş xəfəsi özlərini və torpaqlarını yandırdığına görə onlar yandırıb-yaxan günəşi lənətləyib, ona söyüş yağdırırlar. Bundan da on günlük yoldan sonra

downloaded from KitabYurdu.org

yenidən çeşməsi olan təpəyə gəlib çıxırıq; burada da insanlar yaşayır. Atlas adlanan dağ həmin bu duzlu təpəyə birləşir. Bu dağ ensiz və dəyirmi olub, deyildiyi kimi, son dərəcə hündür olduğuna görə başı görünmür. Qışı da, yayı da buludla örtülü olur. Yerli sakinlər onu göyün sütunu adlandırırlar, elə bu dağın adına görə yerli sakinlərə eyni ad verilmişdir. Doğrudan da, onlara atlantlar deyirlər. Danışılanlara görə onlar canlı heç nə yemirlər və yuxu da görmürlər.

185. Atlantlara qədər bu qum təpəli səhrada yaşayan qəbilələrin adlarını sadalaya bilərəm, oradan o yana yaşayanların isə yox, hər necə olsa da, bu qum təpəli səhra da Herakl Sütunlarına qədər uzanır, hətta ondan da uzağa gedir. Hər on günlük yolda qarşıya yeni duz mədənləri və ətrafında insan məskənləri çıxır. Bütün bu adamların evi daş duz parçalarından tikilir. Liviyanın bu hissəsinə qətiyyən yağış yağmır və oranı sulamır, axı, daxmaların divarları yağışa tab gətirməzdi. Orada (yerdən) yığılan duz ağ və al-qırmızı rəngdə olur. Bu təpəli səhradan cənuba sarı, yəni Liviyanın dərinliklərində insan, su, vəhşi heyvan, meşə yoxdur, torpaq yağışla sulanmır, oraya hətta şeh də düşmür.

186. Beləliklə, Misirdən Tritonida gölünə qədər Liviya qəbilələri köçəridirlər. Onlar ət yeyib, süd içirlər. Yeri gəlmişkən, onlar da inək əti yemirlər ki, bunun da səbəbi misirlilərdə olduğu kimidir. Onlar da donuz saxlamırlar. Hətta Kirena qadınları da Misir İsidası qarşısında böyük ehtiram qorxusu ilə inək əti yeməyi günah sayırlar. Onlarda İsida şərəfinə orucluq və bayramlar keçirilir. Barkeya qadınları isə inək ətindən başqa donuz əti yeməkdən də çəkinirlər.

187. Orada vəziyyət belədir. Tritonida gölündən qərbə sarı isə liviyalılar artıq köçəri deyillər, onların adəti də başqadır, uşaqlarla da köçərilərdə qəbul olunmuş qaydada rəftar etmirlər. Həmin bu Liviya köçəriləri - onların hamısımı (bunu dəqiq deyə bilmərəm), amma hər halda çoxu uşaqlarla bax belə davranırlar: onlar çirkli qoyun yununu yandırıb dörd yaşlı uşağın əmgəyinə, hətta bəziləri gicgahındakı damara dağ basırlar. Bunu başdan bədənə axan fleqmanın uşağın bütük sonrakı həyatına ziyan vurmaması üçün edirlər. Buna görə də, onlar, öz dediklərinə görə, çox

downloaded from KitabYurdu.org

sağlam olurlar. Doğrudan da, mənim bildiyimə görə liviyalılar bütün insanlar içərisində ən möhkəm sağlamlıqları ilə fərqlənirlər (amma mən onların yalnız bu səbəbə görə sağlam olduqlarını deyə bilmərəm). Hər halda, onlar ən sağlam adamlardır. Dağbasma vaxtında qıc olan uşağı müalicə vasitələri vardır: onlar uşağa keçi sidiyi çiləyirlər və qıc keçib gedir. Hər halda, mən liviyalıların öz danışdıqlarını sizə çatdırıram.

188. Bu köçərilərin qurban kəsmə mərasimləri isə belədir: öncə qurban gətirənlər qurbanlığın qulağından bir parça kəsərək başlanğıc kimi onu öz evinin üstündən atırlar, sonra heyvanın boynunu bururlar. Onlar yalnız Günəşə və Aya qurban verirlər. Bu tanrılara bütün liviyalılar qurban kəsmə mərasimi keçirirlər. Tritonida gölü ətrafı bölgələrin sakinləri isə əsasən Afinaya, sonra isə Tritona və Poseydona qurban gətirirlər.

189. Ellinlər Afinanın təsvirlərindəki geyimini və egidasını bu Liviya qadınlarından götürmüşlər. Amma Liviya qadınlarının geyimi meşindəndir, egidaya taxma bəzəklər isə ilan deyil, qayışlardır. Geyimlər əsasən bir biçimdədir. Hətta adın özü də Palladanın təsvirlərindəki geyimin Liviya mənşəli olduğunu göstərir. Axı, Liviya qadınları paltarın üstündən saçaqla haşiyələnmiş və qızılboya ilə boyanmış tüksüz keçi dərisi geyinirlər. Ellinlər Egida (adını) da məhz bu "ayges"64 sözündən götürmüşlər. Mənim fikrimcə, dini mərasimlər zamanı allahın adını çəkib bərkdən fəryad qoparmaq ilk dəfə burada meydana gəlmişdir. Axı, Liviya qadınları bu cür fəryad qoparmağın (ağı deməyin) mahir ustalarıdır. Ellinlər dörd atlı gərdunə sürməyi də liviyalılardan öyrənmişlər.

190. Köçərilərdə (nasamonlardan başqa) dəfn mərasimləri ellinlərdəki kimidir. Amma onlar ölünü oturmuş vəziyyətdə dəfn edirlər. Can üstündə olan adam can verəndə liviyalılar gözləyirlər ki, o arxası üstə uzanmayıb, oturmuş vəziyyətdə ölsün. Onların daxmaları asfedol budaqları ilə qamış həsirinin hörülməsindən tikilir. Onları götürüb özgə yerə də aparmaq olur. Bu qəbilələrin adətləri belədir.

downloaded from KitabYurdu.org

191. Triton çayından qərbə doğru avseylərlə sınır bölgələrində daimi evləri olan Liviya əkinçiləri yaşayırlar. Bu liviyalılar maksilər adlanır. Onlar başlarının sol tərəfini qırxdırıb, sağ tərəfdə saç uzadırlar, bədənlərini də sülügənlə rəngləyirlər. Guya Troyadan çıxdıqlarını söyləyirlər. Onların torpağında, eləcə də Liviyanın qərbindəki qalan hissələrində vəhşi heyvanlar və meşələr köçərilərin bölgələrinə nisbətən daha çoxdur. Axı, Liviyanın köçərilər yaşayan şərq tərəfi Triton çayına çatana qədər ovalıq və qumlu yerlərdir. Bunun əksinə, bu çaydan qərbə doğru əkinçilərin tutduqları bölgə çox dağlıq, çoxlu yırtıcı heyvanı olan meşəlik yerlərdir.65 Orada nəhəng ilanlar, şirlər, fillər, ayılar, zəhərli gürzələr, buynuzlu eşşəklər,66 itbaşlı, hətta tamam başsız adamlar, gözləri döşündə olan vəhşilər, (hər halda liviyalılar belə deyir), vəhşi kişilər və qadınlar67 bir də əfsanəvi olmayan başqa heyvanlar yaşayırlar.

192. Köçərilərin torpağındasa belə vəhşilər yoxdur, amma piqargilər, zorkadlar, bubalidlər, buynuzsuz yox, su içməyən eşşəklər (onlar doğrudan da su içmirlər), sonra (ağ) orilər (onların buynuzlarından lira qolu hazırlanır; bu heyvan buğa boydadır, sonra tülkülər, kaftarlar, oxlu kirpilər, vəhşi qoyunlar, zürafələr, çaqqallar, vəhşi pişiklər, borlar,68 uzunluğu 3 dirsəyədək olan quru timsahları (kərtənkələyə çox oxşayan zirehli timsahlar), dəvəquşu və balaca təkbuynuzlu ilanlar yayılmışdır. Bunlardan başqa qərbi Liviyada (maral və qabandan başqa) digər yerlərdə də yaşayan heyvanlara rast gəlmək olur. Liviyada maral və qaban heç olmur. Oradakı siçanların üç növü vardır: birinə ikiayaqlı deyirlər,69 o biri "zegeri"lərdir (bu Liviya sözü ellincə təpə mənası verir),70 üçüncü növ də kirpilərdir. Silfi fısıllıqlarında laski adlanan dələ fəsiləsindən kiçik yırtıcılar yaşayırlar, bunlar Tartessdəki laskilərə oxşayırlar. Geniş sorğu nəticəsində müəyyənləşdirildiyinə görə Liviya köçərilərinin torpaqlarında bax bu qədər vəhşi heyvan yaşamaqdadır.

193. Maksilərin sınırlarında müharibə vaxtı qadınları gərdunə sürən zaveklər qəbiləsi yaşayır.

downloaded from KitabYurdu.org

194. Bu zaveklərdən sonra hizantlar gəlir. Onların torpaqlarında arılar çoxlu bal verir, amma deyilənə görə sənətkar ustaların hazırladığı süni bal daha çoxdur. Bütün bu qəbilələr bədənlərinə sülügən rəngi çəkirlər və meymun yeyirlər. Meymun isə dağlarda saysız-hesabsızdır.

195. Hizantların torpaqlarının qarşısında, karfagenlilərin dediyinə görə, 120 stadiya uzunluğunda, amma çox ensiz olan Karavis adası yerləşir. Materik tərəfdən oraya çox asan gedilir. Ora zeytun və üzüm tənəkləri ilə doludur. Bu adada bir göl var, qızlar quş lələklərinə qatran yaxaraq bununla gölün lehməsindən qızıl qum yığırlar. Bunun doğru olub-olmadığını bilmirəm, amma hər nə danışırlarsa, onu yazıram. Öz aramızdır, hər şey ola bilər! Axı Zakinfdəki göldən və onun mənbəyindən qatran əldə edildiyini özüm görmüşəm. Orada (Zakinfdə) çoxlu göllər də var. Onların ən böyüklərinin uzunluğu və eni 70 fut, dərinliyi 2 orgiyadır. Bu gölə ucuna mirra71 çubuğu bağlanmış şüvül sallayıb çubuğa bulaşmış qatran çıxarırlar. Bu qatran qır iyi verir, Piyeriya qatranından yaxşı olur. Sonra qatranı gölün yaxınlığında qazılmış xəndəyə tökürlər. Xəndək dolanda qatranı oradan amforalarla72 götürürlər. Dəniz də göldən 4 stadiya aralıdır. Beləliklə, Liviya sahillərindəki ada haqqında danışılanlar da yəqin ki, doğrudur.

196. Karfagenlilər də əlavə olaraq bax, belə danışırlar: Liviyanın yaşayış üçün yararlı olan hissəsi hətta Herakl Sütunlarından da o yana uzanır. Karfagenlilər hər dəfə oradakı adamların yanına gələndə öz mallarını sahilə boşaltıb cərgə ilə düzürlər. Sonra yenə gəmiyə minib xəbərdarlıq tüstüsü buraxırlar. Yerli əhali isə tüstünü görüb dəniz qırağına gəlir, malların əvəzinə qızıl qoyaraq gedirlər. Bu vaxt karfagenlilər yoxlanış üçün yenidən sahilə çıxırlar: qızılın miqdarının mallara uyğun gəldiyini kəsdirəndə qızılı götürüb gedirlər. Əgər onların fikrincə, qızıl azdırsa, onda tacirlər yenə də gəmiyə oturub gözləyirlər. Yerlilər bir də sahilə gəlib tacirləri razı salana qədər qızılı artırırlar. Bununla belə, onlar bir-birini aldatmırlar; gəlmə tacirlər qızıl malın dəyərinə uyğun olmayınca ona əl vurmadıqları kimi, yerlilər də tacirlər qızılı götürməyincə malı aparmırlar.

downloaded from KitabYurdu.org

197. Bunlar adlarını bildiyim Liviya qəbilələridir. Onların çoxu fars şahının hakimiyyətini nə əvvəllər, nə də (yürüş) zamanı tanımışlar. Dünyanın bu hissəsi haqqında bir də onu qeyd etmək istəyirəm ki, burada, mənim bildiyimə görə, dörd qəbilədən artıq yaşamır. Bu qəbilələrdən ikisi yerlidir, ikisi gəlmə. Liviyalılar və efioplar ölkənin yerli əhalisidirlər. Birincilər şimalda, ikincilər cənubda yaşayırlar. Finikiyalılar və ellinlər isə gəlmədirlər.

198. Mənim fikrimcə, Liviya elə də məhsuldar deyil; onu nə Asiya, nə də Avropa ilə müqayisə etmək olar. Yalnız Kinip çayı qırağındakı eyniadlı yer istisnadır. Bu yer Demetra meyvələri məhsuluna görə (dünyanın başqa hissələrinin) məhsuldarlığından geri qalmır. O, Liviyanın heç bir yerinə oxşamır, oranın qara torpağı var, onu çeşmələrdən suvarırlar; nə quraqlıqdan ziyan çəkir, nə də qaratorpaq nəmişliyindən. Axı Liviyanın bu bölgəsinə yağış yağır. Burada taxıl məhsulu Babildəki qədər çoxdur. Yevesperitlərin bölgələri də məhsuldardır. Axı, o, faraş illərdə yüz sam, Kinip torpağı isə üç yüz sam məhsul verir.

199. Çox qəribədir, Liviyanın köçərilər yaşayan ən yüksək yerlərindəki Kirena bölgəsində biçinin üç müxtəlif dövrü olur. Əvvəlcə dəniz kənarındakı məhsul yetişir. Burada məhsul yığımı qurtaranda ölkənin içərilərində dənizdən hündürdə, təpəlik adlanan yerdə taxıl yetişir. Bu məhsul da yığılıb qurtarandan sonra ölkənin içərisindəki ən hündür yerlərin taxılı dəyir. Beləliklə, kirenalılarda biçin səkkiz ay sürür. Amma bu haqda daha bəsdir.

200. Ariandın Feretimaya köməyə göndərdiyi fars qoşunu Barkaya gəlib çatanda, farslar şəhəri mühasirəyə almağa başlayıb, Arkesilayın ölümünə bais olan adamları istəmişlər. Qətldə bütün Barka əhalisinin əli olduğundan şəhərlilər bu tələbi rədd etmişlər. Bundan sonra Barkanın mühasirəsi doqquz ay çəkmişdir. Farslar şəhər divarlarına qədər lağımlar ataraq şəhəri şiddətli hücumlarla almağa çalışmışlar. Amma bir dəmirçi bu lağımların yerini üstünə mis çəkilmiş qalxanın köməyi ilə bax belə tapmışdır: dəmirçi qolunda qalxan divarın iç tərəfində dolaşarkən qalxanı torpağa qoymuşdur; lağım olmayan yerdə qalxandan heç bir səs çıxmamışdır, lağım

downloaded from KitabYurdu.org

olan yerdə mis səslənməyə başlamışdır. Onda barkalılar düşmən lağımları qarşısında lağım atıb yerin altı ilə gələn farsları qırmışlar. Beləliklə, fars lağımlarının yeri öyrənilmiş və barkalılar hücumları dəf etmişlər.

201. Uzun müddət belə sürmüş və hər iki tərəfdən xeyli, farslardan isə daha çox döyüşçü həlak olmuşdur. Onda quru qoşunlarının başçısı Amasis barkalılara güclə deyil, yalnız hiylə ilə qalib gələ biləcəklərini düşünərək bax belə kələyə əl atmışdır. O, geniş xəndək qazıb, eninə nazik taxtalar qoyaraq üstünə torpaq tökməyi və yerlə bərabərləşdirməyi əmr etmişdir. Amasis səhər o başdan barkalılara danışıqlara başlamağı təklif edir. Barkalılar sülh istədiklərinə görə bu təklifi sevinclə qarşılayırlar. Təxminən belə bir razılaşma bağlanır. Bu razılaşmaya görə farslar gizli xəndəyin üstündə durub and içirlər: bu yer dağılmayınca onların andı da pozulmayacaqdır. Barkalılar şaha bac verməyə, farslar da bundan sonra onlara zərər vurmayacaqlarına boyun olurlar. Bu anddan sonra barkalılar müqaviləyə inanıb, yalnız özləri şəhərdən çıxmaqla kifayətlənməyib, farsların da istədikləri vaxt şəhərə girmələrinə icazə verirlər və darvazaları açırlar. Farslar xəndəyi gizlədən taxta körpünü uçuraraq şəhərə soxulurlar. Onlar andlarını pozmamaq üçün bu körpünü uçurmalı olmuşlar: axı, onlar barkalılara torpaq necə varsa, o cür qalana qədər öz andlarını pozmayamaqlarına and içmişdilər. Taxta körpü uçurulandan sonra and qüvvədən düşmüşdür.

202. Bundan sonra farslar (qətlin əsas günahkarlarını) barkalılardan alıb Feretimaya vermişlər, o da onları şəhər divarı boyundakı pazlara keçirməyi, arvadlarının isə döşlərini kəsib, qanını şəhər divarına yaxmağı əmr etmişdir. Battın nəslindən və Arkesilayın ölümündə günahı olmayan adamlardan başqa bütün şəhərliləri qul kimi satmaq üçün farslara vermişlər. Feretima şəhəri idarə etmək ixtiyarını da onlara vermişdir.

203. Farslar bax beləcə, qalan barkalıları qul edib Misirə qayıtmışlar. Farslar kirenalıların şəhərinə çatanda əhali hansı kahininsə buyruğuna boyun əyərək qoşunun keçib getməsi üçün onları şəhərə buraxmışdır. Qoşun da keçib gedənə qədər, fars

downloaded from KitabYurdu.org

donanmasının başçısı Bədr şəhəri tutmaq əmri vermişdir. Amma quru qoşunları sərkərdəsi Amasis yalnız bircə ellin şəhəri Barkaya qarşı yürüşə göndərildiyini söyləyərək Kirena şəhərinin tutulmasına icazə verməmişdir. Şəhəri keçəndən sonra Likeya Zevsi təpəsində düşərgə salan farslar Kirenanı tutmadıqlarına peşman olub yenidən şəhərə girməyə cəhd göstərmişlər. Amma kirenalılar onları şəhərə buraxmamışlar. Bu vaxt farslar bərk qorxuya düşüb qaçmağa üz qoymuş və yalnız (şəhərdən) 60 stadiya məsafədə dayanmışlar. Qoşun burada düşərgə salanda Ariandın xəbərçisi geri qayıtmaq əmri gətirmişdir. Onda farslar kirenalılardan yol üçün ərzaq xahiş edib, onu almış və Misirə dönmüşlər. Amma yolda liviyalılar onların üstünə düşüb qoşun Misirə çatana qədər geri qalan paltarlarına və yüklərinə görə yavaş gedən döyüşçüləri öldürmüşlər.

204. Bu fars qoşunu Liviyanın Yevesperida bölgəsindən o yana girməmişdir. Qul edilmiş barkalılara gələndə farslar onları Misirdən şah Daraya aparmışlar, şah da onların köçürülməsi üçün Baktriyada kənd ayırmışdır. Onlar bu kəndə Barka adı vermişlər, zəmanəmizə qədər də Baktriyada yaşayırlar.

205. Amma Feretima da ömrünü uğurla başa vurmamışdır. O, barkalılardan intiqam alıb Misirə dönəndə əzablı bir ölümə düçar olmuşdur. Belə ki, onun bədəni cıvıldaşan qurddan hələ diri ikən çürümüşdür.73 Doğrudan da, həddindən artıq qəddarlıqla alınan qisas allahlarda insana qarşı nifrət doğurur. Battın qadını Feretimanın barkalılardan aldığı intiqam da belə dəhşətli olmuşdur.

downloaded from KitabYurdu.org

İzahlar

1 Daranın bu yürüşü e. ə. 514-cü ildə olmuşdur.

2 Kimmerilər haqqında Herodot "Tarix"ində xeyli məlumat vardır (I-6, 15, 16, 103; IV-1, 11-13; VII -20). Qara dənizdə indiki Kerç boğazı onların adını daşımışdır. Qədim yunan şairi Homer də kimmeriləri zəhmli qəbilələr kimi xatırlamışdır.

3 Kiçik Asiyanın bir hissəsi nəzərdə tutulur. Halis (və ya Talis) çayı Midiyanın Asiyadakı sınırı olmuşdur. "Tarix"in rusca 1972-ci il nəşrində Herodot haqqında oçerk yazmış V. Q. Boruxoviç də "Tarix"in dördüncü kitabında Şimal dənizindən (Qara dəniz) Erifreya dənizinə (Hind okeanı) qədər, yəni kolxidalıların torpağından fars ölkəsinin qurtaracağına qədər olan meridiandan qərbə doğru-Mirianda gölündən Triop burnuna qədər uzanan ərazini Herodot anlayışına görə Kiçik Asiya sayır (səh. 491). Mirianda gölü Finikiyada, Triop burnu Kind yarımadada yerləşmişdir.

4 "Skolotlar" adını İ. M. Dyakonov "Midiya tarixi" (1956) əsərində Ukrayna dilinə məxsus olan söz kimi izah edir. Mirzəbala Məmmədzadə onu yunan sözü sayır və "cam" mənasında izah edir. İskitlərin mənşəyi haqqında Herodotun verdiyi əfsanədə doğrudan da göydən (tanrıdan) iskitlərə düşən qızıl hədiyyə içərisində cam da varmış ("Tarix", IV, 5). Hökmran iskitlər kəmərlərindən cam asarlarmış.

5 1000 il qədimliyi göstərən rəqəmdir; keçmişdə minliklərlə hesablama dəb olmuşdur.

6 L. N. Tolstoy Herodotun bu məlumatı əsasında hekayə yazmışdır; "İnsana çoxmu torpaq lazımdır?" ("Skolğko çeloveku zemli nujno?)".

7 Qar lopaları burada quş lələyinə oxşadılmışdır.

downloaded from KitabYurdu.org

8 "Tarix"in iskitlərin Araz çayını keçib kimmeri torpaqlarına soxulması barədə məlumatı "Araz" çayının hansı ölkə ərazisindən axdığını, iskitlərin bundan qabaq harada məskunlaşdığını müəyyənləşdirməyə imkan vermir. "Tomiris" əfsanəsində də Herodot Arazı gah Matien dağlarından başlanıb şərqə doğru axan və Kaspiyə tökülən çay kimi təsvir etmiş, gah da onu Orta Asiyadakı çaylardan biri kimi təsəvvür etmişdir. Q. A. Stratanovski akkad mənbələrinə əsaslanıb iskitlərin kimmerilər torpağına girmələri tarixini e. ə 700-cü ilə yaxın hesab edərək massagetlərin və iskitlərin Orta Asiyada yerləşdiklərini düşünür. Onun fikrincə, massagetlərin sıxışdırdıqları iskitlər Kaspi dənizinin cənub sahillərinə gəlib "Arazı keçmiş və cənubi rus çöllərinə soxulmuşlar" ("Tarix", 1972, səh. 519). Bu məlumata görə "Araz" çayını indiki Azərbaycan ərazisindən axan çay hesab etsək, onda iskitlər hansı yolla cənubi rus çöllərinə getməli olardılar? Bunları nəzərə alanda "Araz" adlı çay Herodot "Tarix"ində öz coğrafiyasına görə müəyyən deyil. Dördüncü kitabın 40-cı bəndində də Arazın şərqə doğru axdığı göstərilir. Amma "Tarix"dəki Arazı həm də Volqa çayı hesab etmək daha ağla-batandır. Fars şahı, yəqin, bu çaydan keçib massaget torpağına ayaq basmış massagetlərin sıxışdırdıqları iskitlər də ancaq Volqadan keçib, daha sonra, Kimmeriya (Kerç) boğazından kimmerilər ölkəsinə soxula bilərdilər. İskitlər kimmeriləri "təqib" edəndə yenə Kimmeriya boğazından keçib Qafqaz dağlarına qədər gəlmişlər və Herodotun yazdığına görə kolxların ölkəsindən birbaşa saspirlər ölkəsinə, oradan da Midiyaya enmək əvəzinə Qafqazı sağ tərəfdə qoyub indiki Dərbənd keçidinə düşmüş, buradan Midiyaya getmişlər.

9 "Hökmdarlar sözü mətnin bu yerində hakim təbəqə mənası daşıyır.-P. X.

10 Burada verəcəyimiz izahat 8-ci şərhi gücləndirməlidir. Herodotun bu məlumatına görə kimmerilər "Evksin Pontu" (Qara dəniz) sahilləri ilə gedib-ellin şəhəri Sinopa (Miletli Hekateyə görə "Sinapa"ya) giriblərsə, onlar Qara dənizin şərq sahillərindən cənub sahillərinə burula bilərdilər; cənub ölkələrinə - indiki Cənubi Azərbaycana və Midiyaya isə getməmişlər. Tabiidir ki, Midiyaya gedib çıxan iskitlər orada kimmerilərə rast gəlməmişlər.

downloaded from KitabYurdu.org

11 Cənub dənizi - burada Qara dəniz.

12 Apollonun müqəddəs quşu.

13 Tavrika - indiki Krım.

14 İirklər - Q. A. Stratanovski V. V. Latışevə əsaslanıb Uralın şimalındakı iirkləri macarların əcdadı hesab edir.

15 Q. A. Stratanovski S. Y. Luryeyə əsaslanıb bu adamları indiki başqırdların əcdadı sayır.

16 "Asxi"-Q. A. Stratanovski bunu türk sözü sayır. Qədim türk dilində "açuq" (indiki dildə "acı") sözündən olduğunu güman edir və başqırdlarda; "axşa" adlı xörək olduğunu söyləyir.

17 Burada "ağac altında yaşamaq"" ifadəsini açıq havada, dəyələrdən bayırda gün keçirmək, daha çox üstü örtülməmiş dəyə çubuqları altında yaşamaq mənasında başa düşmək lazımdır. Qışda "ağacı" qalın keçə ilə örtmək olmaz. Demək, qışda həmin dəyə çubuqlarını keçə ilə örtürlərmiş.

18 Homer. Odisseya (tərcümə edəni Ələkbər Ziyatay), Bakı, Azərnəşr, 1977. IV, 85.

19 Burada Yuxarı İtaliya qəbilələri etruskların və venetlərin Alpdan şimaldakı qəbilələrlə Herodotun xatırladığı əlaqələrini əsasən dini ayinlərin yaxınlığı kimi qəbul etmək lazımdır. Yuxarı İtaliyanın tunc qabları üstündəki bayram mərasimləri təsviri ilə Herodotun təsviri arasında uyğunluq görürük.

20 Abaris adı aparanların (sonralar avar adlanan köçəri Altay qəbiləsinin) adı ilə bağlanır. Abaris guya Krezin vaxtında yaşayıb, Apollonun, rəmzi kimi guya əlində ox bütün yer üzünü dolaşmışdır.

downloaded from KitabYurdu.org

21 Herodot "Tarix"inin rusca 1972-ci nəşrinə Berlində (1964) çəkilmiş dünya xəritəsi əlavə olunmuşdur. Bu xəritədə saspirlər Kür çayından çox-çox yuxarılarda Qara dənizə tökülən bir çay qırağında göstərilmişdir. Bunun Çorox çayı olduğunu təsdiq edən mənbələr var.

22 Burada P. Kuturmanın da tərcüməsindən istifadə olunmuşdur. (səh. 174). P. X.

23 Nekonun hakimiyyət ili e. ə. 609-593-cü illərə düşür.

24 Nekonun əmri ilə finikiyalılar Xoş ümidlər adasına keçəndə günəş onların sağ tərəfində olmuşdur. Ovlar üçüncü ildə Cəbəlüttariqə çatıb yenidən Aralıq dənizinə girmişlər.

25 İstr - indiki Dunay; Tiras-Dnestr; Hipanis - Cənubi Buq; Borisfen - Dnepr; Tanais - Don.

26 F. Q. Mişşenkonun tərcüməsində "Papay" kimi getmişdir. "Tarix"in Azərbaycan dilinə tərcüməçisi onu "Babay" kimi oxuyur - P. X.

27 Biz belə hesab edirik ki, bu ad "Köytaşır" (türkcə "yanıb işığını kənara saçan" mənasındadır) kimi də oxuna bilər - P. X.

28 Öldürülmüş düşmən qanını ona görə içirlər ki, qanla bərabər onun gücünü da sorsunlar. Bu məlumat C. Frezerin "Qızıl budaq" ("Zolotaə vetvğ" əsərinin 1928-ci il nəşrindən götürülmüşdür.

29 Herodotun verdiyi bu hekayəti Altay kurqanlarından əldə edilmiş tapıntılar təsdiq edir.

30 Bu cür mumyalama üsulu altaylılarda da olmuşdur.

31 İskit kurqanları çox böyükmüş. Cəsəd qoyulan hissədə qiymətli qızıl bəzəklər qoyulmuşdur, onun yanında öldürülmüş atların qalıqları vardır.

downloaded from KitabYurdu.org

32 Qəbrin ətrafına qoyulmuş keşikçilər sonralar daş heykəllərlə əvəz olunmuşlar (altaylılar bunlara "balbal" demişlər).

33 Bu mərasim iskitlərə kiziklilərdən keçmişdir.

34 İskit allahlarının və hökmdarlarının adları türk lüğəti əsasında izah oluna bilir. "Savli" adının əsli savlı - sözlü-söhbətli adam mənası verir. "Savlı" sözü peyğəmbər mənasında da yozulur. "Qonur" adı "qanır"maq sözündən olub ağacı kökündən çıxaran güclü adam mənası daşıyır. İdənfir - idən sözündəndir; ölkənin sahibi, ağası deməkdir.

35 Perun-burada ildırım.

36 Herodotun burada sadaladığı hökmdar nəslinin taleyi Parfiyada Arsaklar sülaləsinin son nümayəndələrinin taleyini xatırladır. Partlarla romalılar arasında sülh bağlananda part hökmdarları Romaya girov göndərərmişlər. Bu girovlar hökmdarın oğulları və nəvələri olmuşlar. Yad ölkədə yaşayıb, onların adətlərini, bəzən inanclarını qəbul edən bu nəsildən hakimiyyət başına qayıdanları yadlaşdıqlarına görə Parfiya zadəganları gözdən salırmış, hətta öldürürmüşlər. Bu baxımdan iskitlər-sakalar-partlar arasındakı yaxınlıq aşkar görünür.

Herodot Elladaya gedib yadlaşan qardaşla ölkədə qalan qardaşın düşməniliyini gözəl əks etdirmişsə, eyni baxışı Korneli Tassit Romaya gedən Ar ak nəsli ilə Parfiya zadəganları arasındakı münasibətlər fonunda açmışdır.

37 Herodot burada məşhur arqonavtlar haqqında asatirə görə Bosforun çıxacağında yerləşən qayalı adacıqları nəzərdə tutur; azıb qayalar arasına düşən gəmilər onlara toxunub əzilirmişlər.

38 Qara dənizin sahəsi haqqında Herodotun verdiyi məlumat qədim coğrafiyanın verdiyi məlum xəbərlə qətiyyən uyğun gəlmir.

downloaded from KitabYurdu.org

39 Bosforun şimal girişinin eni 4,7 km-dir. Daranın körpü salmağı hökm etdiyi ən dar yer indiki Rumeli Hissarda yerləşir (buranın eni 660 metrdir), Bosforun uzunluğu 31,7 km-dir. Hellespontun uzunluğu təxminən 60 km, dar yerdə eni 1350 metrdir.

40 "Herodot tarixi, İstanbul, 1973, səh. 184.

41 Şahın yazıları üçün Elam, akkad və qədim fars mixi yazılarından istifadə edilirmiş.

42 Qayalıq Xersones - indiki Kerç keçidinə qədər uzanan Krım sahili.

43 Bakirə - İlahə, adətən, Artemida ilə eyniləşdirilir.

44 "Mele" sözü türkmən dilində "saya" rəng mənası verir. Melenxlenlərin (melanxlenlərin) də qara rəngli saya paltarı varmış.

45 Nevrlər özlərinin mənşəyini qurdla bağladıqlarına görə qurd onların totemi olmuşdur. Nevrlərin qurda çevrilməsi haqqında məlumat qurda səcdə mərasiminə aiddir. Bu mərasimin iştirakçıları qurd dərisi geyib, başlarına qurd maskası keçirirmişlər.

46 Q. A. Stratanovskiyə görə, Herodot burada səhv edir. Onun fikrincə, Herodotun bu səhvi də ondan irəli gəlir ki, qəbilənin adı "dələ" olmuşdur və bu "dələ" anlayışı onların dilində "şam qozaları yeyən" sözbirləşməsindən əmələ gəlir. "Dələ" sözünə qəbilə adı kimi Altay uluslarında rast gəlmək olur. Stratanovski müqayisə üçün bir köçəri qəbilənin çinlilərdə "tinq-linq" adlandığını, bunun da "dələ" mənası verdiyini misal gətirmişdir.

47 Q. A. Stratanovski yazır ki, Herodotun verdiyi əfsanəyə görə sonrakı sarmatların (bu qəbilə adı ("Tarix"in) rus dilinə tərcümələrində "sarmat" və "savromat" şəklində yazılmışdır. Biz "sarmat" yazılışını düzgün sayırıq. Amazonlarla

downloaded from KitabYurdu.org

iskit oğlanlarının evlənərək qaynayıb-qarışması nəticəsində törəyən nəslə "sarmat"-bir-birinə sarmaşmaqdan törəyənlər adı verilmişdir. "Qədim türk lüğəti"nə (DTS) görə "sarma" sözü biri o birindən ayrılma, "sarmal" sözü sarmaşma mənası verir (səh. 489). Hər iki məna çaları "sarmat" sözü üçün uyğun gəlir: iskit gənclərinin öz qəbiləsindən, amazonların da öz elindən ayrılması, ya da hər iki qəbilə gəncinin bir-birinə sarmal olması) bir hissəsi indiki Türkiyə limanı Samsundan çıxıb dəniz yolu ilə şimali Kuban bölgəsinə gələrək orada iskit qəbilələri ilə qarışmışlar.

48 Herodotun "eoropat" sözünü "eor" və "pat" (pata) tərkibinə bölüb mənalarını ellincə izah etməsinə və bu etimoloji izahın rus tərcüməsində "mujçina" və "ubivatğ" şəklində anlaşılmasına əsaslanıb onların türk dili əsasında etimologiyasını vermək olar. Bizə elə gəlir ki, "eor" türkcə "ər" sözünə daha yaxındır, "pat" sözü isə p-b səsdəyişməsinə uğramış "bat"-maq felindən qalmadır. Türk dilində "batmaq" sözünü "ölüm" sözünün bir-başa sinonimi saymaq qəribə görünə bilər. Amma "Kitabi-Dədə Qorqud" dastanında "ölmüsənmi?", "batmısanmı?" sinoniminə rast gəlirik. Belə qarğış da var: "başın batsın" (yəni, "öləsən"); "başı batmış" (yəni "ölmüş"). Bu qarğış "başını yerə soxum" şəklində də işlənir.

49 Koloniya-başqa bir ölkə və ya şəhərdə yaşayan həmyerlilər.

50 Paroreatlar - dağ əhalisi, Arkadiyadan Elladaya qədər olan dağ silsiləsində yaşayanlar.

51 Kavkonlar - Messeniyada Pilos qəbiləsi.

52 Hekatomba - 100 buğadan ibarət qurban.

53 Baqrian - al-qırmızı (fır-fır) rəng verən molyuskalar.

54 "Herodot tarixi", səh. 197.

downloaded from KitabYurdu.org

55 Misir hökmdarı Apri (Apries, Bibliyada Xofra), Liviyadan çıxmışdır. Qəti döyüş e. ə. 570-ci ilə yaxın baş vermişdir.

56 Hökmdar, eyni zamanda, icmanın baş kahini olmuşdur.

57 Silfi-kol bitkisidir. Onun kökündən balığa və ətə vurulan şirə hazırlanır.

58 Lotofaq adı lotos bitkisinin adındandır-Lotos yeyənlər mənası verir. Liviyanın bu "lotos yeyənlər"i hələ Homerə də məlum imiş.

59 Karfagenlilərdə bu ilahənin adı Tanitdir.

60 Qədim şəkillərə əsaslanan mütəxəssislər bunu təsdiq etmirlər.

61 Buraya qədər Herodot Misir sınırından indiki Habes körfəzinədək sahil qəbilələrini təsvir etmişdir. Onun sonrakı təsvirləri yuxarı Misirdəki Fivadan başlayıb müxtəlif bölgələrdən keçərək Habes körfəzinə qədər gələn karvan yoluna aiddir. Herodot burada, ehtimal ki, Misir məxəzindən istifadə etmişdir.

62 Qaramantların döyüş gərdunələri qaya şəkillərində təsvir olunmuşdur.

63 Atlantların bölgəsi Saxara ilə sınırlanmışdır.

64 "Ayges" - keçi dərisi deməkdir. "Egida - Afinanın "keçi" dərisindən qalxanıdır.-P. X.

65 Q. A. Stratanovskiyə görə, bu məlumat indiki Tunis və Əlcəzairə aiddir. - P. X.

66 Q. A. Stratanovski bunun antilopa (qəzal) ola biləcəyini güman edir.-P. X.

67 A. Stratanovski itbaşlı adam təsvirinin qayalarda qaldığını göstərir; yəqin, mərasimlərdə başlarına maska taxmış adamlardır.

downloaded from KitabYurdu.org

68 "Borlar" cinsinin adını lüğətimizdə tapa bilmədik. - P. X.

69 Q. A. Stratanovskiyə görə, dovşan növüdür - P. X.

70 Q. A. Stratanovski bu növü bərbəri siçanı hesab edir. - P. X.

71 Mirra - ətirli qatran verən ağac.

72 İki qulplu, boğazı dar qab.

73 Q. D. Stratanovski bunun o vaxt Şərqdə yayılmış şəkər xəstəliyinin nəticəsi ola biləcəyini güman edir. - P. X.

* * *

downloaded from KitabYurdu.org

BEŞİNCİ KİTAB

TERPSİXORA

1. Daranın Avropada qoyduğu Mehabaz başda olmaqla Parsa ordusu Hellespontun şəhərlərindən ilk dəfə Perinfi tabe etmişdir (perinflilər Daranın ağalığını tanımaq istəməmişdilər). Bundan əvvəl Perinf peonlar tərəfindən ağır məğlubiyyətə uğramışdı. Allah kahini Strimonda yaşayan bu peonlara perinflilərlə müharibəyə girməyi bəyan etmişdi. (Kahinin buyuruğunda deyilmişdi): "perinflilərin qarşıdakı düşərgəsindən onlar öz adlarıyla çağırılsalar, onda peonlar hücuma keçməlidirlər; çağırılmasalar, yerlərindən tərpənməməlidirlər. Peonlar belə də etmişlər. Perinflilər isə öz şəhərlərinin darvazası qarşısında düşərgə salmış və burada onların çağırışı ilə üç qat təkbətək vuruşma olmuşdur. İki döyüşçü, iki at və iki köpək döyüşə girmişdir. Perinflilər ilk iki təkbətək döyüşdə qalib gələrək sevincdən peon1 oxumuşlar. Peonlar isə bu peon sözünü kahin bəyanı saymışlar. Onlar öz aralarında belə götür-qoy etmişlər: "Kahinin bəyanı yerinə yetdi. İndi iş bizdən asılıdır!" Perinflilər peon oxumağa başlayanda peonlar hücuma keçib onları tar-mar etmişlər, onlardan az adam sağ qalmışdır.

2. Perinflilər əvvəllər peonlardan bax belə bəla çəkməli olmuşlar. İndisə azadlıq uğrunda rəşadətlə vuruşmalarına baxmayaraq, hər halda, sayca üstün olan farslar və Mehabaz onlara qalib gəlmişlər. Mehabaz Perinfi alıb, ordunu Frakiyadan keçirərək sahil boyu bütün şəhərlərin və xalqların hökmdarlarını tabe etmişdir.

3. Frakiya xalqı hindililərdən sonra yer üzündə ən çoxsaylı xalqdır. Frakiyalılar əlbir olub bircə hökmdara boyun əysəydilər, mənim fikrimcə, məğlubedilməz və bütün xalqlardan daha güclü ola bilərdilər. Amma onlar heç vaxt birləşə bilmədikləri üçün bütün zəifliklәri də buradan doğmuşdur. Onların hər qəbiləsinin müxtəlif yerdə

downloaded from KitabYurdu.org

əlahiddə adı vardır. Hetlər, travslar və krestoniyalılardan şimala doğru yaşayan qəbilələrdən savayı bütün qəbilələrin adətləri eynidir.

4. Hetlərin əməlləri və ölməzliyə inamları haqqında əvvəldə danışmışam. Travsların həyat tərzi başqa Frakiya qəbilələrinki səviyyəsindədir. Yalnız doğum və ölüm adətləri ayrıdır. Bunlar da məhz belədir: yeni doğulmuş uşağın doğmaları onun ətrafında oturub, uşağa bütün ömrü boyu çox bəlalar çəkəcəyini deyirlər. Bunu deyə-deyə bütün insan kədəri və qayğılarını sadalayırlar. Bunun tərsinə, ölülərin dəfni onlarda zarafat və şadlıqla keçir. (Hetlərin fikrincə), axı, ölülər həyatın bütün pisliklərindən və qəm-qüssəsindən xilas olub xoşbəxt və şad həyat sürürlər.

5. Krestoniyalılardan şimala doğru yaşayan qəbilələrin bax belə adətləri var: bir qəbilədən hər hansı bir kişi ölürsə, onun arvadları (onların hamısı çoxarvadlıdırlar) qızğın mübahisəyə başlayırlar (onların dostları da bu mübahisədə təəssübkeşliklə iştirak edirlər). Onlar mərhumun hansı arvadını çox istədiyi üstündə mübahisə açırlar. Mübahisəni həll edəndən sonra kişilər və qadınlar kişinin ən sevimlisi olmuş arvada tərif yağdırırlar və yaxın qohumları bu arvadı onun qəbri üstündə öldürərək əri ilə birlikdə basdırırlar. Qalan arvadlar isə (öldürülmək üçün onları seçmədiklərindən) kədərlənirlər: axı bu onlardan ötrü böyük rüsvayçılıqdır.

6. Qalan frakiyalıların adətləri belədir: onlar öz uşaqlarını qürbət ölkəyə satırlar. Qızlarına istədikləri kişi ilə əlaqəyə girməyə icazə verib, onların (bakirəliyini) qorumurlar. Bunun əksinə, ərli arvadların (sədaqətli olmasını) sərt güdürlər və evlənəndə arvadlarını onların ata-anasından böyük məbləğə satın alırlar. (Bədənə) şəkil döydürmək onlarda alicənablıq (əlaməti) sayılır. Hər kəsin bədənində döymə yoxdursa, o nəcabətli sayılmır. Gününü kef-damaqla keçirən adamlar onlarda hörmətli sayılır, əksinə, onlar əkinçilərə böyük nifrət bəsləyirlər. Döyüşçünü və qulduru ən hörmətli adam hesab edirlər. Onların ən diqqətəlayiq adətləri bunlardır.

7. Frakiyalılar ancaq üç allaha: Aresə, Dionisə və Artemidaya səcdə edirlər. Onların hökmdarları isə, (bütün xalqdan fərqli olaraq), bütün allahlardan daha çox

downloaded from KitabYurdu.org

Hermesə pərəstiş edib ona and içirlər. Dediklərinə görə, onların özləri də Hermesdən törəmişlər.

8. Varlı frakiyalıların dəfn mərasimi belədir: mərhumun cənazəsini üç gün saxlayırlar. Eyni zamanda, hər cür heyvan kəsib ağlaşmadan sonra xeyrat verirlər. Bundan sonra meyiti yandırır, ya da başqa üsulla torpağa basdırırlar və üstündə kurqan ucaltıb, müxtəlif yarışlar təşkil edirlər. Yüksək mükafatlar yarışların əhəmiyyətindən asılı olaraq təkbətək güləşlərə ayrılır. Bu, frakiyalıların dəfn adətləridir.

9. Frakiyalılardan şimala doğru hansı qəbilələrin yaşadıqlarını heç kəs dəqiq deyə bilməz. İstrin o tayındakı bölgələr, yəqin, məskunlaşmamışdır və ucsuz-bucaqsızdır. Bununla belə, İstrin o tayındakı bircə ulus haqqında məlumat ala bilmişəm: bu ulus - sığınlardır. Onlar Midiya paltarı geyinirlər. Sığınların atlarının, deyilənə görə, bütün bədəni beş barmaq uzunluğunda pırtlaşıq tüklə örtülüdür. (Bu atlar) kiçikdirlər, balaca boyludurlar, üstündə adam gəzdirə bilməyəcək dərəcədə zəifdirlər. Arabaya qoşulanda isə bərk qaçırlar. Ona görə də bu ölkədəki adamlar arabalarda gedirlər. Sığınların sınırları Adriatik dənizində enetlərin bölgəsinə qədər uzanır. Onlar özlərini Midiya köçkünlərinin nəsli sayırlar. Onların Midiyadan buraya necə gəldiklərini izah edə bilmərəm. Hər halda, bu qədər böyük müddət ərzində çox şey baş verə bilər. Massaliyadan şimala doğru yaşayan ligilər xırda alverçiləri "sığınlar", adlandırırlar. Kipr sakinləri isə nizəyə sığın deyirlər.

10. Frakiyalıların söylədiklərinə görə, İstr arxası bölgələrdə arılar olur və məhz onların ucbatından daha uzaqlara getmək mümkün deyil. Bu danışıqlar mənə hər halda ağlabatan görünmür: axı, bu böcəklər, görünür, soyuğa dözümlü deyillər. Əksinə, mənim fikrimcə, bu şimal ölkələri məhz soyuğa görə məskun deyillər. Sahillərini Mehabazın farslara tabe etdiyi bu ölkə haqqında belə şeylər danışırlar.

11. Dara Hellespontu keçən kimi miletli Histieyin ona Hellespontda göstərdiyi xidməti və miletli Koyun məsləhətini xatırlamışdır. Şah onların Sardaya gəlmələrini

downloaded from KitabYurdu.org

buyurub, onun mərhəmətinə sığınmağı, nə istəyirlərsə, onu xahiş etməyi təklif etmişdir. Histiey artıq Miletin tiranı olduğundan heç bir tiranlıq arzulamayaraq, edonlar torpağında şəhər salmaq niyyətilə Mirkin adlı yerin onun mülkiyyətinə verilməsini xahiş etmişdir. Histiey bax, bu yeri seçmişdir. Tiran deyil, adicə vətəndaş olan Koy isə onun Mitilenaya tiran qoyulmasını şahdan xahiş etmişdir.

12. Şah onların ikisinin də xahişini yerinə yetirmiş və onlar seçdikləri yerə yola düşmüşlər. Amma, Dara gördüyü bir hadisədən sonra peonları tabe edib, Avropadan Asiyaya sürməyi Mehabaza əmr etməli olur. Dara Asiyaya qayıdanda iki peon, məhz Piqret və Manties, gözəl və boylu-buxunlu qız olan bacıları ilə Sardaya gəliblərmiş (qardaşlar peonların ağası olmaq istəyirmiş). Günlərin bir günü Dara şəhər darvazaları qarşısında taxtında əyləşərək məhkəmə quranda fürsətdən istifadə edən qardaşlar bax belə etmişlər: onlar bacılarını mümkün qədər gözəl geyindirib, başında qab su dalınca göndərmişlər. Qız cilovunu qoluna keçirdiyi bir atı çəkib arxasınca aparır, həm də kətan toxuyurmuş. O, Daranın yanından keçəndə şah ona diqqət yetirmişdir, çünki qızın hərəkəti həm farslar, həm lidiyalılar, həm də Asiyanın başqa xalqları üçün qeyri-adi imiş. Qızın atla nə edəcəyinə baxmaq üçün Dara bir neçə gözətçisinə əmr verir. Gözətçilər qızın arxasınca düşürlər. Qız çaya çatanda əvvəlcə atı sulamış, sonra qabı su ilə doldurmuş və gəldiyi yolla geri dönüb başında qab, arxasınca qoluna bağlı at olmaqla iyi fırladaraq Daranın yanından keçmişdir.

13. Dara (gözətçilərin) danışığına və özünün gördüyünə heyrətlənərək, qızı onun hüzuruna gətirməyi buyurmuşdur. Qızı gətirəndə bir qədər kənarda "keşikdə dayanmış"2 qardaşlar də gəlirlər. Qızın haralı olması haqda Daranın sualına gənclər özlərinin peon, qızın da onların bacısı olduğunu deyirlər. Şah peonların kim olduğunu, harada yaşadıqlarını, onların Sardaya nə üçün gəldiklərini soruşur. Onlar da şahın himayəsi altına keçməyə gəldiklərini, Peoniyanın Strimon çayı qırağında yerləşdiyini, Strimonun Hellespont yaxınlığından axdığını, özlərinin də troyalı Tevkrlər nəslindən olduqlarını söyləyirlər. Gənclər bütün bunları danışır, şah da soruşur: oradakı qızların hamısı belə zəhmətsevərdilər? Gənclər bunu da həvəslə təsdiq edirlər, çünki öz bacılarını elə bundan ötəri şahın yanına gətirmişdilər.

downloaded from KitabYurdu.org

14. Onda Dara Frakiyada sərkərdə qoyduğu Mehabaza peonları vətənlərindən sürgün edib, arvadları və uşaqları ilə birlikdə onun yanına gətirmək haqqında məktub yazdırmışdır. Atlı dərhal Hellesponta tələsərək, gəmi ilə boğazı keçib məktubu Mehbaza vermişdir. Mehabaz da məktubu oxuyub frakiyalı yol bələdçiləri ilə peonlara qarşı yürüşə çıxmışdır.

15. Peonlar farsların onlarla müharibəyə gəldiklərini eşidib, qoşun toplayaraq dəniz kənarına doğru hərəkət etmişlər: onlar farsların buradan gələcəklərini düşünmüşlər. Farslar da peonların yığılaraq dəniz qırağındakı keçidi tutduqlarını öyrənib bələdçilərinin köməyi ilə (dağlardakı) yuxarı yolu seçmişlər. Sonra farslar peonlardan gizli olaraq onların müdafiəsiz qalmış şəhərlərinə hücum etmişlər. Farslar bu yolla şəhərləri asancasına ələ keçirmişlər. Şəhərlərinin farsların əlinə keçdiyi xəbərini alan peon qoşunu dərhal dağılmış və hər bir döyüşçü şəhərə dönüb farslara təslim olmuşdur. Beləliklə, Prasiada gölünə qədər məskunlaşan peon qəbilələri: siropeonlar, peopllar və bütün peonlar doğma torpaqlardan sürgün edilib Asiyaya aparılmışlar.

16. Pangey dağındakı qəbilələr isə - doberlər, aqrianlar, odomantlar və Prasiada gölünün özündəki qəbilələr, ümumən, Mehabaz tərəfindən tabe edilməmişlər. Doğrudur, o, gölün özündə yaşayan qəbilələri də sürgün etmək istəmişdir. Bu qəbilələr də belə yaşayırmışlar: gölün ortasında yüksək özül dirəkləri üstündə bağlanmış (taxta) səki varmış: buraya qurudan bir körpü vasitəsilə dar keçid salınmışdı. Taxta səkini saxlayan özül dirəklərini isə qədimlərdə bütün qəbilə gölün dibinə çalmışdı. Axırıncı vaxtlar belə bir adət dəbə düşübmüş: evlənmək istəyən hər kəs Orbel adlanan dağdan bir arvad: üçün üç özül dirəyi gətirib gölə çalmalıymış. Amma hər peonun da çoxlu arvadı var. Peonlar orada belə yaşayırlar: səkidə hər kəsin yaşadığı daxması var. Onlar səkidən gölə bir deşik açmışlar. Körpələri gölə düşməkdən qorumaq üçün onların ayağına kəndir bağlayırlar. Atlarını və yük heyvanlarını balıqla yemləyirlər. Deşiyin qapağını açıb gölə boş səbət sallayanda balığın çoxluğundan bir neçə dəqiqədən sonra onu balıqla siləbəsilə çıxarırlar. Göldə iki növ balıq olur: paprak və tilon.

downloaded from KitabYurdu.org

17. Beləliklə, tabe edilmiş peon qəbilələrini farslar Asiyaya aparmışlar. Mehabaz peonları yola salandan sonra onun özündən başqa orduda ən sayılan adamlardan yeddi farsı Makedoniyaya elçi göndərmişdir. Bu adamlar Amintanın yanına Daranın torpaq və su tələbi ilə elçi göndərilmişdilər. Prasiada gölündən Makedoniyaya ən kəsə yol gedir. Gölə bir mədən birləşir. O, sonralar Aleksandra ildə bir talant gümüş, gəliri vermişdir. Bu mədənin arxasında Diseron deyilən dağ ucalır, ondan sonra da Makedoniya yerləşir.

18. Beləliklə, bu fars elçiləri Makedoniyaya gəlib, Amintanın hüzurunda dayanaraq şah Daraya torpaq və su tələb edirlər. Aminta isə tələb olunanları verəcəyinə boyun olub elçiləri qonaq çağırır. Hökmdar zəngin süfrə açıb farsları mehribanlıqla qonaq edir. Farslar qonaqlıqdan sonra ara vermədən əyyaşlıq edərək belə deyirlər: "Makedoniyalı dost! Farslar qonaqlıq verəndə, adətimizə görə, arvadlarını və kənizlərini də süfrəyə dəvət edirlər. Sən bizi çox ürəkdən qəbul etdin və çox gözəl qonaq elədin, hətta şahımıza torpaq və su da vermək istəyirsən, indi (bizdən ötrü) bizim adətimizcə hərəkət elə". Aminta cavabında deyir: "Bizdə belə adət yoxdur, bizdə arvadlar və kişilər ayrılıqda qonaqlıq keçirirlər. Amma sizin arzunuz belədirsə, özünüz də bizim ağamızsınız, onda qoy siz istəyən kimi olsun". Bu sözlərdən sonra Aminta arvadları gətirmək üçün adam göndərməyi buyurur. Arvadlar dəvətə gəlib farslarla üzbəüz cərgə ilə əyləşirlər. Farslar gözəl qadınları görüb Amintaya ağılsız iş tutduğunu (və onları razı salmadığını) deyirlər. Farsların sözünə görə, qadınların üzbəüz oturub onların gözlərini kor etmələrindənsə, heç gəlməmələri yaxşı olardı. Onda Aminta qadınlara farslarla yanbayan oturmağı buyurmaq məcburiyyətində qalır. Arvadlar yerlərini dəyişər-dəyişməz farslar onların döşündən tutmağa başlayır və çox içdiklərindən hətta bəziləri onları öpməyə çalışır.

19. Bunu görən Aminta çox qəzəblənsə də, farslardan bərk qorxduğundan, hər halda, təmkinini pozmamağa çalışır. Amintanın bu qonaqlıqda olan və bütün bunları görən oğlu Aleksandr isə cavan və hələ həyatın kəşməkəşlərini dadmamış bir adam kimi susa bilməyib Amintaya belə deyir: "Ata! Bu yaşında sənin üçün istirahət etmək və daha içməmək yaxşı olar. Mən isə qonaqlarla qalıb onlara lazım gələn hər şeyi

downloaded from KitabYurdu.org

düzəldərəm". Aminta Aleksandrın heç də yaxşı şey fikirləşmədiyini duyub ona deyir: "Oğlum! Məni kənarlaşdırıb heç də xeyirxah iş görmək istəmədiyini sənin qəzəbli sözlərindən başa düşürəm. Ona görə də bizi məhv etməmək üçün bunları rahat buraxmağını xahiş edirəm. Özünü ələ al və bu işlərə fikir vermə. Mənim getməyim haqda təklifinə gələndə, buna razıyam".

20. Bundan sonra, Aminta gedəndə Aleksandr farslara deyir: "Dostlar, bu qadınlar tamam sizin ixtiyarınızdadır. İstəsəniz onların hamısı və ya bəziləri ilə yata bilərsiniz. Arzunuzu işarə ilə bildirməyiniz bəsdir. İndi artıq yatmaq vaxtıdır və mənim gördüyüm kimi, biz bərk keflənmişik. Bu arvadları da yuyunmaq üçün buraxmağınızı xahiş edirəm. Sonra da onların qayıdıb gəlməsini gözləyərsiniz". Farslar Aleksandrla razılaşırlar, o da qadınları arvad otaqlarına göndərir. Özü də farsların sayı qədər saqqalsız cavanların arvad paltarı geyinmələrini əmr edərək, onlara xəncər verib yataq otağına aparır. Farslara isə belə deyir: "Farslar! Deyəsən, çox gözəl qonaqlıq keçirdiniz! Nəyimiz varsa və nə əldə etmişiksə, hamısı qarşınızdadır. Sizə necə hörmət göstərib, qulluğunuzda layiqincə dayandığımızı başa düşməyiniz üçün hətta bizə ən əziz olan analarımızı və bacılarımızı ixtiyarınıza vermişik. Sizi göndərən şaha da bir ellinin, Makedoniya hökmdarının sizi necə ürəkdən qəbul etdiyini, sizə yataq da verdiyini bildirərsiniz!." Bundan sonra Aleksandr hər gəncin farsla bir qadın sayağı yanaşı oturmasını əmr edir. Farslar da onlardan yapışanda hamısını qırırlar.

21. Elçilərin və onların məiyyətlərinin də başına belə iş gəlmişdir (axı, onlar özləri ilə məiyyət və arabalarda, adətən, farslara xas olan hər cür müxəlləfat gətirmişlər). Bunların hamısı elçilərin özləri ilə birlikdə yoxa çıxmışdır. Farslar, əlbəttə, tezliklə bu adamları axtarmağa başlamışlar. Amma Aleksandr bu işi cəldliklə ört-basdır edə bilmişdir. O, məhz itkin düşmüş elçiləri axtarmaq üçün göndərilmiş vəzifəli farsların başçısı Bubəri satın alıb, çoxlu pul və öz bacısı Hikeyi ona vermişdir. Bu farsların (işi) belə yoluna qoyulmuşdur.

downloaded from KitabYurdu.org

22. Perdikka nəslindən olan bu Makedoniya hökmdarlarının, doğrudan da, ellinliyini təkcə özlərinin təsdiq etməsindən başqa, mən özüm də buna inanıram. Olimp yarışlarının hakimləri də bunu etiraf etmişlər. Aleksandr yarışlarda iştirak etmək arzusu ilə Olimpə gələndə, yarışın ellin iştirakçıları onun yarışlardan çıxarılmasını tələb etmişlər. Onlar demişlər: bu yarışlar ellinlər üçündür, barbarlardan ötəri deyil. Aleksandr isə özünün Arğoslu olduğunu sübuta yetirmiş və hakimlər onun ellin mənşəyini etiraf etmişlər. O, qaçma yarışında iştirak edib mənzilə qaliblə bir vaxtda gəlib çatmışdır. Məsələ, ümumən, bu yerdə olmuşdur.

23. Mehabaz da peonlarla Hellesponta gəlmiş, onları boğazdan keçirib Sardaya aparmışdır. Miletli Histiey isə körpünü qoruyub saxladığına görə Daranın ona bağışladığı yerdə şəhər salmağa başlamışdır. (Mirkin adlı bu yer Strimon çayının qırağındadır). Mehabaz Histieyin nə etdiyini eşidərək peonlarla birlikdə Sardaya gələn kimi Daraya bunları demişdir: "Şah, bu zirək və hiyləgər ellinə Frakiyada şəhər tikmək icazəsi verməklə sən nə etmisən? Orada gəmiçilik üçün böyük meşələr, avarlar üçün çoxlu (şam), eləcə də gümüş mədənləri vardır. Ətraflarda çoxlu ellinlər, barbarlar yaşayır, onlar Histieyin simasında özlərinə rəhbər tapıb, gecə-gündüz onun əmrini yerinə yetirəcəklər. Belə bir iş görməyə icazə vermə, yoxsa sənin öz torpağında sənə qarşı müharibə təhlükəsi yaranar. Əmr ver, qoy yanına gəlsin, sən onu işi dayandırmağa məcbur elə. Onu ələ keçirəndən sonra bir də ellinlərin arasına qayıtmaması üçün tədbir gör".

24. Mehabaz bu sözlərlə Daranı asanlıqla inandırır, Dara şəhər tikintisinin nə kimi nəticələr verəcəyini görür. Bundan sonra Dara Mirkinə xəbərçi göndərib (tirana) bu sözləri çatdırmağı əmr edir: "Histiey! Şah Dara belə deyir: (Mən səltənətimin xeyrini və taleyini) düşünərək, özümə də, vətənimə də şəxsən səndən sədaqətli adam tapmıram. Məni buna sənin sözlərin deyil, işin inandırmışdır. Mən indi böyük işlər görmək istəyirəm. Bunu sənə bildirməyim üçün təcili yanıma gəl". Histiey bu sözlərə inanaraq (həm də şah məsləhətçisi olmaqla fəxr edərək) Sardaya gəlmişdir. Buraya gələn kimi də Dara ona belə demişdir: "Histiey! Sənin ardınca bax, buna görə adam göndərmişdim. İskit Elindən qayıdandan və sən gözlərimdən iraq olandan sonra

downloaded from KitabYurdu.org

yanımda olmamağına və sənlə söhbət edə bilmədiyimə çox heyfsilənmişəm. Mən müdrik və sədaqətli dostun yer üzündə ən yüksək səadət olduğuna inanmışam. Bunların ikisini) də səndə tapmışam, taleyim də bunu təsdiq edir. Nə yaxşı elədin, gəldin, mən də sənə belə bir təklif edirəm: "Mileti və Frakiyada tikdirdiyin təzə şəhəri buraxıb mənimlə Susa gedək, orada nəyim varsa, onları nədimim və məsləhətçim kimi mənimlə bölüş".

25. Dara belə demişdir. Sonra şah özünün ögey qardaşı Artafreni Sardaya satrap qoyub özü Histieylə birlikdə Susa getmişdir. Otanı isə Dənizkənarı bölgəyə qoşun başçısı təyin etmişdir. Bu Otanın atası Sisamn şahın məhkəmə hakimlərindən olmuşdur. Həmin Sisamn pula satılıb, ədalətsiz hökm çıxardığına görə şah Kambis onun edam olunmasına əmr verib, dərisini soydurmuşdu. Sonra isə dərisini aşılayıb ondan qayışlar kəsməyi və bu qayışlardan özünün məhkəmədə əyləşdiyi qoltuqlu kürsüyə çəkməyi əmr etmişdir. Kambis qoltuqlu kürsüyə (belə qayışlar) çəkdirib, edam etdirdiyi, sonra da dərisini soydurduğu Sisamnın yerinə onun oğlunu qoymuş və ona hansı kürsüdə oturduğunu unutmamağı tapşırmışdır.

26. Həmin bu qoltuqlu kürsüdə əyləşib mühakimə aparan Otan indi baş sərkərdə rütbəsində Mehabazın varisi olmuşdur. O, Bizansı və Kalxedoniyanı istila etmiş, Troyada Antandrı və Lamponiyanı almışdır. Sonra da Lesbos gəmilərində Lemnosu və İmbrosu işğal etmişdir (bu iki adada hələ o vaxt pelasqlar məskunlaşmışdılar).

27. Doğrudur, lemnoslular ər kimi döyüşsələr də, uzun sürən müqavimətdən sonra hər halda məğlub edilmişlər. Farslar sağ qalan lemnoslulara Samos hökmdarının qardaşı Meandri oğlu Likareti hakim qoymuşlar. Bu Likaret sonra Lemnosun hökmdarı vəzifəsində ölmüşdür. Bunun səbəbi də belə olmuşdur. Otan onların bəzilərini iskitlərə qarşı yürüşdə iştirak etməkdən boyun qaçırmaqda, digərlərini Dara geri qayıdanda onun qoşununa xaincəsinə hücum etməkdə təqsirləndirib hamısını qul etmişdir.

downloaded from KitabYurdu.org

28. Otan bir sərkərdə kimi belə işlər etmişdir. Sonra, (uzun sürməsə də), ellin şəhərlərinə yaxşı günlər nəsib olmuşdur. Amma Naksosdan, Miletdən gələn bəlalar tezliklə yenidən İoniyanın üstünə tökülməyə başlamışdır. Axı, o vaxt Naksos başqa adalardan daha varlı olmuş. Milet isə nə əvvəllər, nə də sonra, məhz elə bu vaxt özünün çiçəklənmə dövrünü keçirmişdir. O, İoniyanın incisi olmuşdur. İki nəsil bundan qabaq paroslular (düşmənçilik edən partiyaları) barışdırana qədər vətəndaş çəkişmələri Mileti didirdi. Miletlilər bütün ellinlər içərisindən məhz parosluları vasitəçi seçmişdilər.

29. Paroslular da onları belə barışdırmışlar: ən adlı-sanlı (əsilzadə) paroslular Miletə gələndə əhalinin son çöpə qədər var-yoxdan çıxdığını görüb onların tarlalarını dolaşmaq istədiklərini bildirmişlər. Paroslular belə də etmişlər: onlar bütün Milet bölgəsinin bu başından girib o başından çıxmışlar. Onlar bomboş qalmış ölkədə yaxşı becərilmiş sahə görəndə o yerin sahibinin adını yazıb götürmüşlər. Bütün ölkəni gəzərkən onlar azacıq belə yaxşı sahələr tapa bilmişlər. Paroslular şəhərə dönəndə xalq yığıncağı çağırıb şəhərin idarəsini sahələri yaxşı becərilmiş (belə azacıq) torpaq sahiblərinə vermişlər. Onların öz sözləri ilə desək, məhz öz sahəsinə yaxşı qayğı göstərən adamın ümumi xeyir üçün də yaxşı qayğı göstərə biləcəyinə inandıqları üçün belə hərəkət etməli olmuşlar. Paroslular, bundan əvvəl şuluqluq salan miletlilərin (onların təyin etdikləri) adamlara tabe olmalarını əmr etmişlər.

30. Paroslular miletliləri belə barışdırmışlar. İsniyanın başına indi yenidən gələn bəla isə məhz bu iki şəhərdən, özü də beləcə başlamışdır: xalq Naksosdan bir neçə varlı vətəndaşı sürgün etmişdir. Sürgünlər Miletə gəlmişlər. Miletin hökmdarı o vaxt Daranın Susda öz yanında saxladığı Lisaqor oğlu Histieyin yeznəsi və ögey qardaşı Molpaqor oğlu Aristaqor olmuşdur. Axı, Histiey Miletin tiranıymış və onun əvvəlki qonaqçıları Miletə gələndə o, Susda olmuşdur. Onlar Aristoqordan hər hansı bir qoşun hissəsi xahiş edib (onun köməyi ilə) vətənə qayıtmaq istəmişlər. Aristaqor isə sürgünləri geri qaytarmaqla adanın ağası ola biləcəyini başa düşərək öz niyyətini Histieylə dost olması ilə pərdələyərək) onlara belə demişdir: "Şəhərdə hakim olan dəstənin iradəsinə qarşı çıxaraq, özüm sizi sürgündən Naksosa qaytara biləcək elə

downloaded from KitabYurdu.org

böyük ordu çıxarmağa, əlbəttə, söz verə bilmərəm. Axı, eşitdiyim kimi naksosluların 8000 qopliti və çoxlu gəmisi var. Bununla belə, əlimdən gələni əsirgəmək istəmirəm və bu cür hərəkət etməyi düşünmürəm. Artafren mənim dostumdur. Artafren də, bildiyiniz kimi, Güştəspin oğlu, şah Daranın qardaşıdır. Onun Asiya sahillərindəki bütün xalqlara və şəhərlərə hökmü çatır. Artafrenin əli altında böyük qoşun və çoxlu gəmi var. Mənim fikrimcə, bu adamdan nə xahiş etsək, əlbəttə, onu yerinə yetirər". Bu sözləri eşidən naksoslular bu işi ən yaxşı tərzdə yoluna qoymağı Aristaqora tapşırmışlar. Onlar Artafrenə hədiyyələr verəcəklərini, qoşunun xərcini və təchizatını öz öhdələrinə götürəcəklərini Aristaqora demişlər. Onlar farsların adada görünməsi ilə bütün başqa adalılar kimi naksosluların da onların əmrlərini dərhal yerinə yetirəcəklərinə əmin olduqlarını bildirmişlər. Axı, o vaxt Kiklad adalarından biri də hələ Daranın hakimiyyəti altına keçməmişdi.

31. Beləliklə, Aristaqor Sardaya gəlib Naksos adası haqqında Artafrenə danışır: (bu ada), doğrudur, böyük deyil, amma: gözəl və məhsuldar olub İoniyanın yaxınlığındadır, buranın böyük var-dövləti və çoxlu balığı var. Ona görə də sən gəl bu torpağa qoşun çək və sürgünləri adaya qaytar. Təki sən bu işə başlayasan, qoşunu saxlamağa ayrılmış (məbləğdən) başqa mənim də çoxlu pulum var. (Axı, qoşunu təmin etmək vəzifəsi, ədalətə görə, biz başçıların üstünə düşür.) Bundan sonra sən şah üçün təkcə Naksosu deyil, ondan asılı olan Paros, Andros və Kiklad deyilən başqa adaları da tuta bilərsən. Buradan sən Kiprdən kiçik olmayan Yevbeya kimi böyük, zəngin adaya hücuma keçə bilərsən. Bütün bu adaları tutmaq üçün yüzcə gəmi bəsdir". Artafren isə ona belə cavab verir: "Sən şah evinə xoş xəbərlərlə gəlmisən. Hər nə məsləhət görürsənsə, hamısı yaxşıdır. Amma yazda yüz əvəzinə, iki yüz gəmin hazır olmalıdır. Bununla yanaşı, bu iş üçün şahın özündən icazə almaq lazımdır".

32. Aristaqor isə bu cavabı eşidib, son dərəcə sevinərək Miletə dönmüşdür. Artafren də Aristaqorun təklifini şaha çatdırmaq üçün Susa (xəbərçi) göndərmişdir. Dara razılıq vermiş, Artafren də 200 gəmi, farslardan və müttəfiqlərdən ibarət böyük qoşun təchiz etmişdir. Şah farsların Ağamənlər nəslindən, Artafrenin və Daranın

downloaded from KitabYurdu.org

ögey qardaşı Mehabatı3 qoşuna başçı təyin etmişdir. Lakedemoniyalı Kleombrot oğlu Pavsani axırda həmin bu ordu başçısının qızına nişanlanmışdır. Şayiələr doğrudursa) Pavsani Elladanın hökmdarı olmaq istəyirmiş. Beləliklə, Artafren Mehabatı sərkərdə qoyub Aristaqora ordu göndərmişdir.

33. Mehabat da Aristaqorla birlikdə İoniya donanması və Naksos sürgünləri ilə Miletdən çıxıb guya Hellesponta getmək uçun istiqamət götürmüşdür. O, Xiosa çatıb oradan şimal küləyi vasitəsilə Naksosa getmək üçün Kavkasada lövbər salmışdır. Amma bu yürüşdə Naksosun qismətində məhv olmaq yoxmuş, onu xilas edən hadisə də belə olmuşdur: Mehabat bir dəfə gəmilərdəki gözətçi məntəqələrini yoxlayanda bir Mind gəmisində heç bir gözətçi görməmişdir. Bərk qəzəblənən Mehabat şəxsi keşikçilərinə bu gəminin Skilak adlı kapitanını tutub qollarını sarıyaraq başı bayırda, bədəni içəridə qalmaqla göyərtə deşiyinə soxmağı əmr etmişdir. Skilak tutulub sarınanda kimsə Aristaqora onu qonaq saxlamış mindli Skilakı Mehabatın rüsvayçısına cəzalandırmağı əmr etdiyini xəbər vermişdir. Aristaqor Mehabatın yanına gəlib Skilakı bağışlamasını xahiş etməyə başlamışdır. Lakin fars fikrindən dönməmişdir. Onda Aristaqor özü gedib Skilakı azad etmişdir. Bunu bilən Mehabat hiddətlənərək (bu dəfə) öz qəzəbini Aristaqorun üstünə tökmüşdür. O da demişdir: "Mənim işlərimə niyə qarışırsan? Artafren səni mənə tabe olub, hara desəm oraya üzüb getmək üçün göndərməyibmi? Sən niyə vurnuxursan və burnunu niyə özgə işinə soxursan?" Aristaqor belə demişdir. Mehabat isə azğınlaşaraq gecə düşəndə Naksosa gəmi göndərib onların əleyhinə görülən tədbiri naksoslulara xəbər verdirmişdir.

34. Naksoslular bu donanmanın onlara hücuma keçəcəyini heç gözləməmişlər. İndi belə bir xəbər alıb zəmilərdən bütün taxıl ehtiyatını dərhal şəhərə aparmış, mühasirə şəraiti üçün ərzaq və su hazırlamış, şəhər divarlarını bərpa etmişlər. Onlar qarşıdakı müharibəyə beləcə hazırlaşmışlar. Düşmənlər Xiosdan gəmilərlə Naksosa üzüb gələndə orada hamının müdafiəyə hazır olduğunu görüb şəhəri dörd ay mühasirədə saxlamışlar. Gətirdikləri bütün pulları xərcləmiş, (Aristoqorun özü də böyük vəsait itirməli olmuş, mühasirə isə bir yandan getdikcə daha çox pul udmuş)

downloaded from KitabYurdu.org

və belə vəziyyətdə farslar Naksos sürgünlərinə qala tikərək böyük itki ilə Asiyaya qayıtmışlar.

35. Beləliklə, Aristaqor Artafrena verdiyi vədi yerinə yetirə bilməmişdir. Bununla yanaşı, qoşunun saxlanmasına çəkilən xərci ödəmək də onu sıxmışdır; bundan başqa onu qoşunun ağır vəziyyəti, Mehabatla dalaşmasının özünün Milet hakimliyindən məhrum olmasına başa gələcəyi qorxusu da narahat edir. Bütün bu təhlükələr Arastaqoru farsların əleyhinə üsyan qaldırmaq fikrinə salmışdır. Elə bu vaxt Aristaqori Susdan Histieyin xəbərçisi gəlib çıxmışdır. (Bu xəbərçinin başına yazılmış: məktubda) şahdan ayrılmaq məsləhət görülürdü. Axı, Histiey Aristaqoru üsyana sövq etmək istəyirdi, amma (öz məsləhətini bildirmək üçün) başqa bir münasib vasitə tapa bilməmişdi, çünki (Susdan çıxan) bütün yollar qorunurmuş. Onda Histiey özünün sadiq nökərinə başını qırxdırmağı əmr etmiş, başına döymə işarələri ilə yazı yazdırmış, tükün uzanmasını gözləyib, sonra Miletə göndərmişdir. Histiey nökərinə yalnız bircə tapşırıq vermişdir: Miletə çatanda Aristaqordan saçını qırxdırıb başına baxmağı xahiş etmək. Dediyim kimi, nökərin başına döyülmüş işarələr isə üsyana çağırırmış. Histieyin Susa məcburi gəlişi ondan ötəri böyük bədbəxtlik olduğundan o, belə hərəkət etməkdən başqa çarə tapmamışdı. Üsyan olarsa, dənizə buraxılacağına qəti inanırmış. Milet üsyan fikrinə düşməyincə Histiey hər hansı bir anda oraya bir də gedəcəyinə ümid bəsləyə bilməzdi.

36. Bax, beləliklə, bu mülahizələr Histieyi xatırlatdığım xəbərçini göndərməyə, özü də bütün bu vəziyyətlərlə bağlı olaraq Aristaqorun üsyan etmək qərarına gəldiyi bir vaxtda göndərməyə məcbur etmişdir. Aristaqor tərəfdarlarını məsləhətə yığıb öz fikrini söyləmiş və Histieyin üsyan qaldırmaq təklifi haqqında danışmışdır. (İştirak edənlərin) hamısı bununla razılaşmış və üsyana başlamağı məsləhət görmüşlər. Təkcə loqoqraf Hekatey ümumən, fars şahı ilə müharibənin əleyhinə olmuşdur. Bununla belə, Hekatey öncə Daranın hakimiyyəti altında olan bütün ulusları sadalamış və diqqəti fars hərbi qüvvəsinə cəlb etmişdir. Məsləhətə yığışanları inandıra bilməyəndə o, heç olmasa, dənizdə hökmranlığa nail olmağı təklif etmişdir. Hekateyin dediklərinə görə o, miletlilərin hərbi qüvvə sarıdan zəifliyini yaxşı

downloaded from KitabYurdu.org

bildiyindən uğur qazanmaq üçün Lidiya hökmdarı Krezin nəzirlərini-Branxida məbədindəki xəzinələri ələ keçirməkdən başqa özgə bir imkan görmürmüş. O tam əminmiş ki, onda Milet dənizə hakim kəsilər və beləliklə, həm xəzinələr öz əllərində qalar, həm də düşmən onları qarət edə bilməz. Mən əsərimin birinci hissəsində bu xəzinələrin nə qədər böyük olduğu haqda danışmışam. Miletlilər Hekateyin bu məsləhətini də qəbul etməyib, hər halda üsyana başlamaq qərarına gəlmişlər. Miletlilərdən biri Miunta, Naksosdan qayıtmış donanmaya getməli və qoşun başçılarını gəmidə tutmağa cəhd göstərməli idi.

37. İatraqoru bu tapşırıqla yola salmışlar. O da qoşun başçılarının çoxunu hiylə ilə tutmağa nail olmuşdur. Bunların arasında Milasdan İbanolli oğlu Oliat, Termerdən Timn oğlu Histiey, Daranın Mitilenaya hakim təyin etdiyi Erksandr oğlu Koy, Kimadan Heraklid oğlu Aristaqor və bir çox başqaları varmış. Aristaqor bax, beləcə üsyan qaldırıb bütün vasitələri Daranın əleyhinə işə salmışdır. O, hər şeydən öncə miletlilərin könüllü surətdə üsyana qoşulmaları üçün Miletdə tiranlığı zahirən məhv edib demokratiya qurmuşdur. Bundan sonra Aristaqor İoniyanın başqa yerlərində də belə hərəkət etmişdir: bəzi tiranları sürgünə göndərmiş, bəzilərini isə Naksosa qarşı yürüşü zamanı gəmilərdə tutmağa macal tapıb, doğulduqları şəhərlərə təslim etmiş və bununla həmin şəhərliləri öz tərəfinə çəkməyə çalışmışdır.

38. Mitilenalılar Koyu tutan kimi onu şəhərdən çıxarıb daşqalaq etmişlər. Kimalilar isə, əksinə, özlərinin tiranını buraxmışlar. Qalan şəhərlərin çoxu da belə etmişdir. Miletli Aristaqor isə tiranlığı ləğv edib, hər şəhərə, (hərbi başçı) seçmək ixtiyarı vermiş, özü də sonra triyerdə Lakedemona elçi getmişdir. Axı, ona ən güclü müttəfiq tapmaq lazım idi.

39. Bu vaxt Spartada Leont oğlu Anaksandrid artıq hökmdar deyildi. O, ölmüş, yerində oğlu Kleomen hökmdar olmuşdu, amma oturduğu taxtı rəşadətinə görə yox, mənşəyinə görə almışdı. Aleksandridin arvadı qardaşı qızı olmuşdur. Hökmdar onu sevsə də, övladları olmamışdır. Belə bir vəziyyətdə eforlar onu öz yanlarına çağırıb demişlər: "Sən öz nəslinin qayğısına qalmasan da, biz Yevrisfen nəslinin sönməsinə

downloaded from KitabYurdu.org

imkan verməmərik. Arvadın doğmadığına görə onu boşa, özgəsinə evlən. Belə etsən, spartalılar sənə minnətdar olarlar". Aleksandrid də bunların heç birini etməyəcəyini bildirib demişdir: günahsız arvadını rədd etməyi məsləhət görüb, evə özgə arvad gətirmək üçün onu dilə tutmaq layiqli iş deyil. Onun eforlara tabe olmaq fikri yoxdur.

40. Bundan sonra eforlar və herontlar məsləhətləşib Aleksandridə belə demişlər: "Biz sənin indiki arvadına olan mehrini başa düşürük. Sən də bizim xeyrimizə, heç olmasa, belə bir iş gör (yoxsa, spartalılar sənin əleyhinə başqa tədbirlər görərlər). Biz indiki arvadını buraxmağı səndən tələb etmirik. Sən onu əvvəlki kimi sevib bütün arvadlıq hüququnu saxlaya bilərsən, amma sənə uşaq doğacaq başqa bir arvad almalısan. Aleksandrid bu təkliflə razılaşmışdır. Bundan sonra onun iki arvadı olmuş və o, Sparta adətinin tam əksinə iki təsərrüfat saxlamışdır.

41. Müəyyən vaxt keçəndən sonra Aleksandridin ikinci arvadı hökmdara bu Kleomeni doğmuş və spartalılara taxt varisi bəxş etmişdir. İş belə gətirib ki, əvvəllər sonsuz olan birinci arvad da elə həmin vaxtlarda hamilə qalmışdır (bu hadisələr heyrətli dərəcədə üst-üstə düşmüşdür). Birinci arvadın, doğrudan da, uşaq gözlədiyi aydınlaşanda, ikinci arvadın qohumları bundan xəbər tutub hay-küy salmış və bu qadının sadəcə öyündüyünü və (özgə) uşağını ortaya çıxarmaq istədiyini narazılıqla danışmışlar. Doğum başlayanda qadına inanmayan eforlar onun yanında oturub baxmağa başlamışlar. O isə ilkin uşağı Dorieyi, sonra tezliklə Leonidi doğmuş, onun ardınca da Kleombrota boylu olmuşdur. Bəziləri, hətta, Leonidlə Kleombrotun əkiz olduqlarını söyləyirlər. Bunun əksinə, onun ikinci arvadı-Kleomenin anası, hökmdar Demarmen oğlu Prinetadın qızı bir də doğmamışdır.

42. Kleomen isə, deyilənlərə görə, ağıldan kəm, hətta bir qədər havalı imiş. Doriey, bunun əksinə, öz yaşıdları içərisində həmişə birinci olmuş və rəşadətə görə taxtın ona keçəcəyini çox gözəl başa düşmüşdür. Onun qənaəti belə olmuşdur. Ona görə də Aleksandridin ölümündən sonra lakedemonlular qanun əsasında böyük oğlu Kleomeni taxta çıxaranda Doriey qəzəblənib, Kleomenin hökmdarlığını tanımaq

downloaded from KitabYurdu.org

istəməmişdir. O, spartalılardan özünə yol yoldaşları istəyib, hətta hansı torpağa köçmək lazım gəldiyi haqqında Delf kahininə sorğu vermədən və belə hallar üçün müəyyənləşdirilmiş heç bir adətə boyun əymədən qürbətə köçmüşdür. O qəzəbli halda Liviyaya üzüb getmiş, yolu da ona Fera adasının sakinləri göstərmişlər. Doriey Liviyaya gəlib gözəl bir yerdə, Kiniq çayı qırağında məskən salmışdır. Amma, iki ildən sonra onu maklar, liviyalılar və karfagenlilər buradan qovmuşlar və o, Peloponnesə qayıtmalı olmuşdur.

43. Burada Eleondan olan Antixor adlı birinci kahin Laiyin buyruğuna görə ona Sikeliyadakı Herakl torpağında məskən salmağı məsləhət görmüşdür. Antixor bütün Erik bölgəsinin Heraklidlərə məxsusluğunu, Heraklın özünün bu yerlərin sahibi olduğunu Dorieyə demişdir. Bunu eşidən Doriey Delfə gedərək köçüb getmək istədiyi bu torpağı ala biləcəyi, ya ala bilməyəcəyi haqqında kahinə sorğu vermişdir. Pifiya da cavabında ala biləcəyini demişdir. Onda Doriey Liviyaya gedəndə özü ilə apardığı köçkünləri götürüb İtaliya sahilləri boyunca (Sikeliyaya) getmişdir.

44. (Sibarislilərin danışdıqlarına görə), o vaxtlar Sibaris şəhəri və hökmdar Telis Krotonun üstünə müharibəyə getməyə hazırlaşırmış. Krotonlular qorxuya düşüb Dorieyə üz tutmuş; və ondan kömək almışlar. Doriey Sibaris üzərinə yürüşdə iştirak edib, şəhəri almağa kömək göstərmişdir. Sibarislilərin dediklərinə görə, bu işi Doriey və onun yol yoldaşları başa yetirmişlər Bunun əksinə, krotonlular isə sibarislilərlə müharibədə İamidlər nəslindən olan eleyalı Kallidən başqa heç bir yadellinin iştirak etmədiyini təsdiq edirlər; bu Kallinin də müharibədə iştirakı belə olmuşdur. O, sibarislilərin tiranı Telisdən qaçıb krotonluların yanına gəlibmiş, çünki qurban verib Krotonla müharibə haqqında fal açanda xoşagələn əlamət görübmüş. Bunu krotonlular söyləyirlər.

45. Hər iki tərəf öz sözünü təsdiq üçün belə bir dəlil gətirir. Sibarislilər Krafi adlı quru çay məcrasındakı müqəddəs bölgəni və məbədi sübut göstərirlər. Onların sözünə görə, şəhər alınandan sonra Doriey bu məbədi Krafi adı ilə Afinaya ucaltmışdır. Daha sonra, sibarislilərin düşündüklərinə görə, Dorieyin özünün ölümü

downloaded from KitabYurdu.org

onun kahin buyruğunun əleyhinə getdiyinə ən mühüm sübutdur. Doriey öz yürüşünün əsas məqsədindən yayınmayıb kahin buyruğunu yerinə yetirsəydi, onda öz qoşunu ilə birlikdə məhv olmayıb, Erik torpağını alardı və saxlaya bilərdi: (o məhz elə buna görə də göndərilmişdi). Bunun əksinə, krotonlular isə Kroton bölgəsində eleyalı Kalliyə bağışlanmış geniş və gözəl malikanəyə əsaslanırlar; mənim dövrümdə də bu malikanə onun nəslinin əlində olmuşdur. Krotonlular Dorieyə və onun xələflərinə heç nə bağışlamamışlar. Doriey, doğrudan, da, sibarislilərlə müharibədə iştirak etmiş olsaydı, onda əlbəttə, krotonlular da ona Kalliyə bağışlandığından daha geniş torpaqlar bağışlayardılar. Hər iki şəhərin öz sözlərini təsdiq etmək üçün gətirdiyi sübutlar bax, bunlardır. Hər kəs nəyə daha çox inanırsa, onu qəbul edə bilər.

46. Dorieylə birlikdə başqa spartalı köçkünlər: Fessal, Parebat, Keley və Yevrileont da üzüb getmişdir. Amma onlar bütün donanma ilə birgə Sikeliyaya gəlib çıxanda finikiyalılarla və egeidalılarla döyüşdə məğlub edilib həlak olmuşlar. Köçkünlərin rəhbərlərindən təkcə Yevrileont sağ qalmışdır. O, qoşunun qalan hissəsini toplayıb, selinuntluların məskəni olan Minoyanı tutmuş və selinuntluların öz tiranları Pifaqordan azad olmalarına kömək etmişdir. Tiranın devrilməsindən sonra Yevrileont özü Selinuntun tiranı olmaq istəmiş və şəhərdə hakimiyyəti qısa müddət ələ keçirmişdir. Amma selinuntlular üsyan qaldırıb onu sığınacaq tapdığı Aqorey Zevsi ibadətgahında öldürmüşlər.

47. Dorieyin onunla birlikdə həlak olan yol yoldaşları arasında krotonlu Butakid oğlu Filipp adlı birisi də varmış; o, sibarislilərin hökmdarı Telisin qızına nişanlanıbmış (elə buna görə də Krotondan sürgün edilmişdi). Bu izdivaca olan ümidini itirəndə, o, Kirenaya getmişdir. Buradan da öz vəsaiti hesabına tutduğu muzdlularla birlikdə köçkünlərə qoşulmuşdur. O, Olimp oyunları qaliblərindən biri və ellinlər arasında dövrünün ən gözəl adamı olmuşdur. Egeidalılar bu gözəlliyə görə ona heç kəsə göstərmədikləri müstəsna ehtiram bəsləmişlər. Qəbri üstündə məbəd ucaltıb (bir qəhrəman kimi) ona qurban gətirmişlər.

downloaded from KitabYurdu.org

48. Doriey ömrünü beləcə başa vurmuşdur. O, hökmdar Kleomenlə barışıb Spartada qalsaydı, özü Lakedemonun hökmdarı ola bilərmiş. Axı, Kleomen çox az hökmdarlıq etmişdir; özündən sonra oğul qoyub getməmiş, yalnız Qorqo adlı bir qızı qalmışdır.

49. Beləliklə, Miletin tiranı Aristaqor hələ Kleomen hökmdar olan vaxt Spartaya gəlmişdir. Lakedemonluların dediklərinə görə, Aristaqor hökmdarla danışıqlara başlayaraq özü ilə üstündə bütün torpaqların xəritəsi, eləcə də, "bütün dənizlər və çaylar" döyülmüş mis lövhə gətirmişdir. O, hökmdarın hüzuruna gedərək ona belə demişdir: "Kleomen! Mənim buraya tələm-tələsik gəlişimdən təəccüblənmə. Bizim vəziyyətimiz dəhşətlidir. Biz, ion övladlarının azad adamlardan dönüb qul olması təkcə özümüz üçün deyil, eləcə də bütün qalan ellinlər, xüsusən sizin üçün böyük rüsvayçılıq və müsibətdir, çünki siz Elladanın başında dursunuz. Ona görə də sizi ellin allahlarına and verirəm, qanı qanınızdan olan ionları kölə vəziyyətindən xilas edin! Siz buna asanlıqla nail ola bilərsiniz. Axı, barbarlar hünərləri ilə fərqlənmirlər. Siz isə yüksək hərbi rəşadət qazanmısınız. Vuruşmağa gələndə isə barbarlar bax, belə döyüşürlər: onların oxu və ködək süngüləri var, şalvar geyib başlarına şiş papaq qoyaraq döyüşə gedirlər. Ona görə də siz onları asanlıqla məğlub edə bilərsiniz. Bundan başqa, bu materikdə yaşayan xalqlar başqa xalqlardan daha varlıdırlar: onlar hər şeydən öncə, qızıla, gümüşə, misə əlvan geyimə, yük heyvanlarına və qullarına görə çox zəngindirlər. İstəsəniz bütün bunların hamısı sizin olar. Bu xalqlar bir-birinin yanında, indi sizə göstərəcəyim kimi yaşayırlar. Bax, burada ionların qonşuları-lidiyalılar yaşayırlar, onların torpağı məhsuldardır və gümüşdən boldur". Aristaqor bu sözləri deyib, gətirdiyi mis xəritədə döyülmüş yerləri göstərir. Bax, burada - şərqdə lidiyalılarla frigiyalılar həmsərhəddirlər - deyən Aristaqor sözünü davam etdirir: onların ölkələri heyvandan çox bol olub mənim tanıdığım ölkələrdən ən məhsuldarıdır. Frigiyadan sonra bizim suriyalı adlandırdığımız kappadokiyalılar gəlirlər. Onların qonşuları kilkiyalılardır, torpaqları da, gördüyün kimi, burada Kipr adasının yerləşdiyi (Aralıq) dənizinə gedib çatır. Onlar şaha ildə 500 talant vergi ödəyirlər. Kilikiya ilə bax, burada ərmənlərin sınırı gəlir (heyvan sarıdan onlar da

downloaded from KitabYurdu.org

varlıdırlar), ərmənlərlə də bax bu ölkədə yaşayan matienalılar qonşudurlar. Sonra bax, kissilərin torpağı gəlir, burada həmin Xoasp çayı qırağında şahənşahın iqamətgahı olan və xəzinəsi saxlanılan Sus şəhəri yerləşir. Siz bu şəhəri alsanız var-dövlətdə Zevsin özü ilə bəhsə girməyə cürət edə bilərsiniz. Qüvvəsi sizinkinə bərabər bir düşmən olan messeniyalılarla əhəmiyyətsiz, hətta bəhrəsiz torpaqlar üstündə müharibə aparmaq nəyinizə gərəkdir? Nə qızılı, nə gümüşü olmayan arkadiyalılarla və arğoslularla da siz nəyin ucundan ölüm-dirim vuruşmasına hazırsınız? Bütün Asiyanı asanlıqla ələ keçirmək imkanınız ola-ola başqa torpaqlar zəbt etmək nəyinizə lazımdır?" Aristaqor belə demiş, Klermen də belə cavab vermişdir: "Miletli dost! Üç gün gözlə, mən sənə cavab verərəm!".

50. Söhbət bununla qurtarmışdır. Cavab üçün təyin olunmuş gün gəlib çatanda onlar şərtləşdirilmiş yerdə görüşərkən Kleomen Aristaqordan soruşmuşdur: "İoniya dənizindən fars şahının baş şəhərinə qədər neçə günlük yoldur?" Hökmdarı asanlıqla aldada biləcək qədər hiyləgər adam olan Aristaqor burada yanılmışdır. O, spartalıları Asiyaya çəkib aparmaq istəyirdisə, onda həqiqəti gizlətməli idi; o isə hər halda həqiqəti deməli olmuş, məhz şahın mərkəz şəhərinə getmək üçün üç ay vaxt lazım gəldiyini bildirmişdir. Onda Kleomen yol haqqında Aristaqorun sözünü kəsib demişdir: "Miletli dost! Gün batana qədər Spartadan çıx! Sən lakedemonluları dənizdən üç aylıq yol qədər məsafəyə çəkib aparmaq istəyirsən: bu, onlardan ötəri tamamilə əlverişsiz şərtdir!"

51. Kleomen belə deyib evə yollanmışdır. Aristaqor da zeytun budağı götürüb hökmdarın arxasınca düşmüşdür. O, Kleomenin evinə girərək müdafiə olunması üçün yalvaran bir iltimasçı kimi onu dinləməsini, amma əvvəlcə yanındakı uşağı buradan başqa yerə göndərməyi xahiş etmişdir (səkkiz-doqquz yaşında Qorqo adlı yeganə qızı Kleomenin yanında durubmuş). Kleomen elə qızının yanındaca öz xahişini cəsarətlə söyləyə biləcəyini Aristaqora buyurmuşdur. Onda Aristaqor xahişinin yerinə yetirilməsi üçün öncə hökmdara 10 talant təklif etmişdir. Kleomen bu təklifi rədd edəndə Aristaqor təklifini getdikcə artıraraq axırda 50 talant vəd etmişdir. Onda qız bərkdən demişdir: "Ata, çıxıb getməsən, yadelli səni satın

downloaded from KitabYurdu.org

alacaqdır!" Kleomen qızının məsləhətindən sevinib o biri otağa keçmiş, heç nə əldə edə bilməyən Aristaqor da Spartadan çıxıb getməyə məcbur olmuşdur. O, şah paytaxtına gedən yol haqqında heç əməlli-başlı danışa da bilməmişdir.

52. Susa aparan bu yolun vəziyyəti belədir: bütün yol boyu gözəl şah dayanacaqları və karvansaralar var; yol bütünlükdə məskunlaşmış və təhlükəsiz yerlərdən keçir. Lidiya və Frikiya ərazisində 941/2 fərsəng məsafədə iyirmi belə dayanacaq yerləşir. Yol Frigiyadan Qalis çayına aparır; burada (dağ) keçidi var, çayı da almaq üçün mütləq onun ağzından keçmək lazımdır. Keçidin ağzında güclü mühafizə dəstəsi olan keşikçi istehkamı var. Çayın o tərəfində Kappadokiya gəlir, oradan da Kilikiya sınırlarına qədər 104 fərsəng uzunluğunda 28 dayanacaq var. Bu sınırda iki keçidi aşıb iki gözətçi məntəqəsini keçmək lazımdır; Kilikiyadan ötən yolda 151/2 fərsəng məsafədə üç dayanacaq var. Fərat (Yevfrat) adlı çay Kilikiya ilə Ərmənin sınırıdır. Ərməndəki 561/2 fərsəng məsafədə karvansaraları və gözətçi məntəqələri olan 15 dayanacaq yerləşir. Bu yol Ərməndən Matienaya aparır: (burada) 136 fərsəng məsafədə 34 dayanacaq var. Bu ölkədən gəmi işləyən dörd çay axır. Bu çayların hamısından gəmi ilə keçmək lazımdır. Birinci çay Dəclə (Tiqr), sonra hər ikisi Zabat adlanan ikinci və üçüncü çaylar gəlir. Amma bunlar ayrı-ayrı çaylar olub başlanğıcını müxtəlif yerdən alırlar; birinci çay Ərməndən, ikinci çay isə Matienadan axır. Dördüncü çay isə Gind adlanır. Kuruş onu vaxtı ilə 360 kanala böldürmüşdür. Sonra yol bu (keçidlərdən) Kissiya ölkəsinə gedir; buranın 421/2 fərsəng məsafəsində gəmiçilik üçün əlverişli olan Xoasp çayına qədər 11 dayanacağı var. Sus şəhəri oradadır. Sardadan Susa qədər 111 dayanacaq, bir o qədər də karvansara var.

53. Bu şah yolu fərsənglərə görə düzgün hesablanıbsa və 1 fərsəng 30 stadiyaya bərabərdirsə, (əslində də elə belədir), onda Sardadan Susdakı (Memnoniya adlı) şah sarayına qədər 13500 stadiya və ya 450 fərsəng olur. Hər günə 150 stadiya hesabı ilə götürsək, onda bütün yolu getmək üçün düz 90 gün lazım gələr.

54. Beləliklə, miletli Aristaqor lakedemonlu Kleomenə şahın paytaxt şəhərinə qədər üç ay yol getmək lazım gəldiyini söyləyəndə tamamilə doğru demişdir. Kim bu

downloaded from KitabYurdu.org

yolun uzunluğunu, daha dəqiq bilmək istəyirsə, mən bu haqda da məlumat verə bilərəm: bu yola Efesdən Sardaya qədər olan yolu da artırmaq lazımdır. Doğrudan da, ellin dənizi sahillərindən həm də Memnon şəhəri adlanan Susa qədər yol 14040 stadiyadır. Axı, Efesdən Sardaya qədər 540 stadiyadır; ona görə də üç aylıq yol, daha üç gün də uzanır.

55. Bu arada Spartanı tərk edən Aristaqor tiranlardan təzəcə azad olmuş Afinaya gəlmişdir. Afina da məhz bu şəkildə azad olmuşdur: Pisistratın oğlu və tiran Hippinin qardaşı Hipparxı mənşəcə Hefireylərdən olan Aristogiton və Harmodi öldürmüşdülər (yuxuda Hipparxa onun qisməti açıq-aşkar göstərilmişdi). Onun ölümündən sonra Afinada tiranlıq daha dörd il sürmüş və əvvəlkindən xeyli amansız olmuşdur.

56. Hipparxın yuxu görməsi də belə olmuşdur. Panafineya bayramı qabağı Hipparxın hüzuruna qamətli və gözəl bir kişi gəlib ona belə mübhəm sözlərlə müraciət etmişdir.

Ey şir, dözümlü ürəklə dözülməz əzaba döz,

Tale bütün mürtədləri ədalətli cəza ilə cəzalandırır.

Hipparx ertəsi gün səhər bu haqda (olduğu kimi) yuxuyozanlara bildirmişdir. Sonra da yuxuya məhəl qoymayaraq təntənəli nümayiş təşkil etmiş və orada da əcəli yetmişdir.

57. Hipparxın qatillərinin mənsub olduqları Hefireylər isə, özlərinin sözlərinə görə, öncə Eretriyadan gəlmişlər. Mən də sorğu-sual vasitəsi ilə onların (mənşəcə) finikiyalı olub, Kadmla birlikdə indi Beotiya adlanan torpağa gəldiklərini öyrənmişəm. Onlar burada məskunlaşaraq, Tanaqr bölgəsini püşk yolu ilə almışlar.

downloaded from KitabYurdu.org

Buradan Kadmın nəslini öncə arğoslular qovmuşlar, sonra da beotiyalılar Hefireyləri qovmuş və onlar da Afinaya gəlmişlər. Afinalılarsa onlara indi heç xatırlamağa dəyməyən çoxlu məhdudluqlar qoyaraq, müəyyən şərtlərlə öz vətəndaşları cərgəsinə götürmüşlər.

58. Kadmla Elladaya gəlmiş bu finikiyalılar isə (onların içərisində xatırlanılan Hefireylər də varmış) bu torpaqda məskunlaşaraq, mənim fikrimcə, əvvəllər ellinlərə bəlli olmayan çoxlu elm və incəsənət, hətta yazı gətirmişlər. Öncə kadmeylərin yazıları başqa finikiyalıların yazısı kimi olmuşdur. Sonralar dilin dəyişməsi nəticəsində hərflərin şəkli də tədricən dəyişmişdir. O vaxtlar onların ellin qəbilələrindən qonşuları çox bölgələrdə ionlar olmuşlar. Onlar finikiyalılardan yazını götürüb, hərflərin şəklini özlərinə uyğun olaraq azca dəyişmiş və bunu Finikiya yazısı adlandırmışlar (bu, tamamilə ədalətlidir, çünki yazını Elladaya finikiyalılar gətirmişlər). İonlar da qədimlərdən kitaba dəri demişlər, çünki papirus olmadığına görə onlar keçi və qoyun dərisi üstündə yazmışlar. Hələ indinin özündə belə bəzi barbar xalqlar bu cür dərilərdə yazırlar.

59. Mən özüm Beotiya Fivasında İsmeniya Apollonu məbədində bir neçə üçayağa döyülmüş və əksər hissəsi ion yazısına oxşayan kadmey yazıları görmüşəm. Üçayağın birindəki yazıda deyilir:

Amfitrion telebləri məğlub edərək məni nəzir verdi...

Bu yazı bəlkə də Kadmın nəticəsi, Polidorun nəvəsi, Labdak oğlu Lai dövrünə aiddir.

60. Başqa bir üçayaqlıda altı bölgülü ölçü ilə belə bir kitabə həkk olunmuşdur:

downloaded from KitabYurdu.org

Ey yumruq döyüşçüsü Skey, uzaqvuran Apollon

Qalib gəlib məni sənə əvəzsiz nəzir hədiyyə vermişdir.

Bu Skey bəlkə də, Hippokoontun oğlu olmuşdur. Əgər bu Skey Hippokoontun nəzir verilən oğlunun adaşı deyil, onun özüdürsə, onda üçayaqlı Lai oğlu Edipin dövrünə aiddir.

61. Üçüncü üçayaqlıda da yenə altı bölgülü ölçü ilə yazılmış parçada deyilir:

Laodamant, bu üçayağı sənə itibaxışlı Apollon,

Hökmdar öz ailəsi ilə əvəzsiz hədiyyə kimi bəxş etmişdir.

Bu Eteokl oğlu Laodomant hökmdarın dövründə arğosluların qovduqları kadmeylər enxeleylər torpağına getmişlər. Hefireylər isə ölkədə qalmışlar, amma sonralar beotiyalılar onları sıxışdırdığına görə Afinaya getməli olmuşlar. Onlar Afinada bir məbəd ucaltmışlar; amma başqa afinalıların buna heç bir dəxli olmamışdır. Bu məbəd başqalarından, xüsusən Axeya Demetrası məbədindən və gizli adətlərindən kəskin fərqlənir.

62. Bax, beləliklə, mən Hipparxın yuxusundan və onun qatillərinin mənsub olduğu Hefireylərin mənşəyindən danışdım. İndi mən afinalıların tiranlardan necə azad olmaları əhvalatına yenidən qayıtmalıyam. Beləliklə, Hippi tiran kimi hakimiyyət sürmüş və Hipparxın öldürülməsinə görə afinalılarla son dərəcə sərt davranmışdır.

downloaded from KitabYurdu.org

Bu vaxt Afina nəslindən olub Pisistratidlərin sürgün etdikləri və başqa sürgünlərlə birlikdə hərbi qüvvələrin köməyi ilə qayıtmağa cəhd göstərmiş Alkmeonidlər, (Afinanı azad etmək üçün göstərdikləri bu cəhd zamanı ağır məğlubiyyətə uğrasalar da), Peoniya (demindən) şimala doğru Lepsidri deyilən bir yeri möhkəmləndirmişlər. Alkmeonidlər buradan Pisistratidlərə qarşı hər cür fitnə düzəltmişlər. Belə ki, onlar o vaxt olmayan indiki Delf məbədini tikməyi amfiktionlardan icarəyə götürmüşlər. Onlar həm varlı, həm də qədimlərdən hörmətli nəsil olduqlarına görə, hətta, düşündüklərindən də möhtəşəm məbəd ucaltmışlar. Müqaviləyə görə onlar məbədi əhəng tufundan tikməli olsalar da, onun baş divarını (fasadını) Paros mərmərindən tikmişlər.

63. Beləliklə, afinalıların danışdıqlarına görə, Alkmeonidlər Delfdə olanda Pifiyanı pulla ələ gətirib, onunla belə razılığa gəlmişlər: spartalılar istər şəxsən, istərsə dövlət adından kahinə sorğu verəndə Pifiya onlara (allah iradəsi ilə) Afinanı azad etməyi bəyan etməlidir. Lakedemonlular hər dəfə eyni bəyanat alaraq axırda başda şəhərin çox nüfuzlu adamı sayılan Aster oğlu Anximoli olmaqla Pisistratidləri Afinadan qovmaq üçün qoşun göndərmişlər. (Halbuki, spartalılar Pisistratidlərlə ən yaxın dost olmuşdular.) Axı, onlar allah buyruğunu ölümlülərə borcdan da vacib sayırmışlar. Qoşunu isə spartalılar dəniz yolu ilə gəmilərdə göndərmişlər. Faler sahilinə yan alan Anximoli öz qoşununu sahilə çıxarmışdır. Yürüş haqqında qabaqcadan xəbər tutan Pisistratidlər isə Fessaliyadan kömək istəmişlər, çünki onlar hələ əvvəldən fessaliyalılarla ittifaq bağlamışdılar. Fessaliyalılar Pisistratidlərin xahişi ilə konili hökmdar Kiney başda olmaqla min atlı göndərmək üçün bir səslə qərar qəbul etmişlər. Pisistratidlər bu cür müttəfiqlə birlikdə bir müharibə üsulu fikirləşmişlər: onlar Fessaliya atlılarının hərəkətini asanlaşdırmaq üçün Faler düzənliyindəki ağacları kəsməyi əmr etmişlər. Bundan sonra həmin atlıları Sparta qoşununun üstünə göndərmişlər.

64. Bundan sonra lakedemonlular başda hökmdar Anaksandrid oğlu Kleomen olmaqla Afinaya yürüş üçün daha çoxsaylı qoşun yığmışlar. Lakin onlar bu dəfə dənizlə deyil, quru yolla getmişdir. Attikaya girəndə spartalıları hamıdan qabaq

downloaded from KitabYurdu.org

(Fessaliya) atlıları qarşılamışlar, amma tutuşandan sonra onlar döyüş meydanında 40 nəfərdən artıq meyit qoyub qaçmağa başlamışlar. Sağ qalanlar dərhal kəsə yolla Fessaliyaya qayıtmışlar. Kleomen də azadlıq istəyən afinalılarla birlikdə aşağı şəhəri tutub Pelarqi qalasına sığınmış tiranları mühasirəyə salmağa başlamışdır.

65. Bununla belə, lakedemonlular, əlbəttə, (qalanı və Pisistratidləri heç vaxt ələ keçirə bilməzdilər), axı onlar mühasirəni davam etdirmək fikrində olmamışlar, Pisistratidlər isə özlərini ərzaq və içməli su ilə yaxşı təmin edə bilmişdilər. Bir neçə günlük uğursuz mühasirədən sonra birdən mühasirədəkilər üçün faciəli, mühasirəyə alanlardan ötəri isə xoşbəxt hadisə baş verməsəydi, spartalılar Spartaya qayıdacaqdılar. Faciəli hadisə də bundan ibarət olmuşdur: Pisistratidlərin oğulları onları gizlicə Attikadan təhlükəsiz yerə aparmağa cəhd göstərilərkən əsir düşmüşlər. Bu vəziyyət Pisistratidlərin bütün hesablarını pozmuş və onlar övladlarının qaytarılması əvəzində afinalıların qoyduqları beş gün ərzində Attikanı tərk etmək şərti ilə təslim olmaq məcburiyyətində qalmışlar. Pisistratidlər afinalılar üzərində 36 illik hakimiyyətdən sonra Skamandrdakı Sigeyə çəkilmişlər. Pisistratidlər də keçmişdə Kodr və Melanf nəslindən çıxmış Afina hökmdarları kimi ilk öncə Pilosdan gəlmə və Neley nəslindən olmuşlar. Buna görə də Hippokrat Nestor oğlu Pisistratın xatirəsinə öz oğlunun da adını Pisistrat qoymuşdur. Afinalılar tiranlardan beləcə azad olmuşlar. Bəs (tiranlardan) azad olandan sonra və ionların Daraya qarşı üsyanına qədər, məhz miletli Aristaqorun kömək xahiş etmək üçün Afinaya gəlişinə qədər "onlar xatırlamağa layiq nə işlər görmüşlər, hansı bəlalara düçar olmuşlar" sualına cavab olaraq mən hər şeydən qabaq elə bu haqda danışmaq istəyirəm.

66. Doğrudur, Afina keçmişdə ən böyük şəhər olmuşdur, amma indi, tiranlardan azad ediləndən sonra onun qüdrəti daha da artmışdır. O vaxt şəhərin başında iki adam dayanmışdır. Bunun biri, deyilənə görə, Pifiyanı ələ almış Alkmeonid Klisfen, o biri isə Tisandr oğlu İsaqordur (amma onun sələflərinin adını çəkə bilmirəm). Ancaq burası da var ki, onun qohumları, Kariya Zevsinə qurban gətirirlər. Elə bu adamlar şəhərdə hakimiyyət uğrunda mübarizə aparmışlar. Klisfen məğlub olub, qara camaata yaltaqlanmağa başlamışdır. O, bundan sonra Afina vətəndaşlarının keçmişdə

downloaded from KitabYurdu.org

bölündükləri dörd filanı on təzə fila ilə əvəz etmişdir. O, filaların İonun dörd oğlunun-Heleontun, Egikorun, Arqadın və Hopletin adını daşıyan keçmiş adlarını4 ləğv edib, onların əvəzinə başqa, eləcə də, yad qəbilə qəhrəmanlarının (Eant) adlarını götürmüşdür. Eant adını da (o, afinalı olmasa da), ona görə götürmüşdür ki, bu adam şəhərin qonşusu və müttəfiqi olmuşdur.

67. Mənim fikrimcə, Klisfen bu yeniləşdirməni ana babası olan Sikion tiranını yamsılayaraq aparmışdır. Bu böyük Klisfen Arğosla müharibə zamanı rapsodlara Sikionda yarış keçirməyi yasaq etmişdi, çünki Homerin epik nəğmələrində arğoslular və Arğos, demək olar ki, həmişə tərənnüm olunur. Sonra bu tiran məbədi indi də Sikionun ticarət meydanının özündə ucalan Qalayın oğlu (qəhrəman) Adrastı da məhz arğoslu olduğu üçün ölkədən sürgün etmək istəyirmiş. Klisfen Delfə gəlib Adrastı sürgün etmək haqqında kahinə sorğu vermişdir. Pifiya da cavabında ona buyurmuşdur: Adrast Sikion hökmdarıdır, (Klisfen) isə yalnız qəddar tirandır. Allah tirana Adrastın hörmətini yerə vurmağa imkan vermədiyindən o, evə qayıdanda Adrastın Sikiondan könüllü çıxıb getməsindən ötəri başqa vasitələr düşünmüşdür. O, bəhanə tapıldığını qərarlaşdırandan sonra Beotiya Fivasına adam göndərib Astakın oğlu qəhrəman Melanippi Sikiona çağırmaq istədiyini bildirməyi əmr etmişdir. Fivalılar razılaşmışlar. Klisfen də Melanippi Sikiona çağırıb Pritaney yaxınlığındakı müqəddəs sahəni ona nəzir vermiş və şəhərin ən əlçatmaz yerində məbəd ucaltmışdır. (Bunu da əlavə etmək lazımdır ki,) Klisfenin Melanippi çağırması onun Adrastın qəddar düşməni olması ilə bağlıymış; Adrast onun qardaşı Mekisteyi və qayınatası Tideyi öldürmüşdü. Məbədin nəzir edilməsindən sonra Klisfen qurban gətirilməni və bayramları Adrastdan alıb Menalippə vermişdir. Sikionlular Adrasta həmişə dərin ehtiram göstərmişlər. O, Polibin qız nəvəsi idi, Sidonda hökmdarlığı da oğlu olmayan Polibin ölümündən sonra almışdı. Sikionluların Adrasta göstərdikləri başqa hörmətlərdən biri də onun "ehtirasının" (tamaşaya qoyulan) faciə xorunda vəsf edilməsi olmuşdur. Beləliklə, onlar Dionisin əvəzinə Adrasta sitayiş etmişlər. Klisfen isə indi (faciə) tamaşalarını Dionisə, qalan ayinləri Melanippə vermişdi.

downloaded from KitabYurdu.org

68. Klisfen Adrastla belə rəftar etmişdir. Dori filalarının adının isə Arğos adları ilə eyni olmaması üçün onları başqa adlarla dəyişmişdir. Bununla yanaşı, o, sikionluları da ələ salmağı özünə rəva görmüşdür. Belə ki, o, filalara yeni adlar seçəndə donuz və eşşək adlarını götürüb onlara yalnız şəkilçi artırmışdır. Təkcə öz filasına məhz arxelay, yəni "hakimiyyət orqanları" sözünü ad kimi götürmüş, qalanlarını isə giatlar, oneatlar, xereatlar5 adlandırmışdır. Filalar bu adları təkcə Klisfenin dövründə deyil, onun ölümündən 60 il keçəndən sonra da saxlamışlar. Sonralar (sikionlular) qarşı razılığa gəlib filaların keçmiş Hilley, Pamfila və Dimanta6 adlarını bərpa etmişlər. Onlar bu adlara dördüncü filanı da qatıb onun üzvlərini Adrastın oğlu Egialın adı ilə egialeylər adlandırmışlar.

69. Bunu sikionlu Klisfen etmişdir. (Babasının adı verilmiş) afinalı Klisfen, yəni, sikionlu Klisfenin qız nəvəsi isə adaşını yamsılayaraq, məncə, elə o dorilinin özü kimi ionlara nifrət etmiş və eyni ilə bu da afinalıların fila adlarının ion adları ilə bir cür olmasını istəməmişdir. Axı, Klisfen keçmişdə hüquqsuz olan Afina xalqını öz tərəfinə çəkən kimi fila adlarını dəyişib onların sayını artırmışdı. Məhz dörd fila başçısı əvəzinə on başçı qoymuş, eləcə də, hər filanı on demə bölmüşdür. İndi, xalq Klisfenin tərəfini saxladıqda o öz düşmənlərindən qat-qat güclü idi.

70. İsaqor isə bu dəfə məğlubiyyətə uğramışdır və öz növbəsində o da düşünüb Pisistratidlər mühasirəyə düşdüyü vaxtlar ona qonaqpərvərlik göstərmiş lakedemonlu Kleomeni köməyə çağırmışdır. Yeri gəlmişkən deyim ki, İsaqorun arvadı ilə Kleomenin əlaqəsi haqqında söz-söhbət də yayılıbdır. Kleomen də qabaqca Afinaya carçı göndərib Klisfeni və onunla birlikdə üstündə "yamanlıq ləkəsi" olduğu hesab edilən bir çox başqa afinalını sürgünə göndərməyi tələb etmişdir. O, bütün bu tədbirlərə İsaqoru çuğulçuluğu əsasında əl atmışdır. Doğrudan da, alkmeonlar və onların tərəfdarları qan tökülməsində günahkar idilər, amma nə Klisfenin, nə də dostlarının bu işdə əlləri olmamışdır.

71. Afinalıların "yamanlıqla ləkələnənlər" adlandırılması səbəbi də belədir: Kilon adlı bir Olimp oyunları qalibi Afinada olubmuş. O, çox qürrələnib tiranlığı ələ

downloaded from KitabYurdu.org

keçirməyə çalışırmış. Bir dəstə yaşıdları ilə birlikdə akropolu tutmağa cəhd göstəribmiş. Buna nail ola bilməyən Kilon "mərhəmət diləyən" adam kimi ilahənin bütxanəsində oturubmuş. O vaxtlar Afinanı idarə edən navkrari7 ağsaqqalları Kilonun və dostlarının həyatını qoruyacaqlarını vəd edib onları bütxanədən çıxıb getməyə razı salmışlar. Kilonun və dostlarının öldürülməsinin günahı isə alkmeonların üzərinə düşür. Bu hadisə hələ Pisistrat dövrünə qədər baş vermişdir.

72. Kleomen carçının vasitəsilə Klisfenin və yamanlıqda ləkəli olanların sürgün olunmasını tələb edəndə Klisfenin özü gizlincə şəhərdən qaçmışdır. Buna baxmayaraq, Kleomen kiçik bir dəstə ilə Afinaya gəlib, İsaqorun göstərişi ilə yamanlıqla ləkələnmiş 700 ailəni sürgün etmişdir. Bundan sonra hökmdar yenidən məşvərəti buraxmağa və bütün hakimiyyət İsaqorun 300 tərəfdarına verməyə cəhd göstərmişdir. Məşvərət buna qarşı çıxıb tabe olmaq istəməyəndə Kleomen, İsaqor və tərəfdarları akropolu tutmuşlar. Qalan afinalılar da birləşərək (akropolu) iki gün mühasirədə saxlamışlar. Üçüncü gün onlar mühasirədəkilərlə bütün lakedemonluların ölkəni tərk etməsi haqqında razılaşma bağlamışlar. Bu vaxt Kleomenə verilmiş bəyan doğru çıxmışdır. Axı, Kleomen akropolu tutmaq üçün oraya qalxanda, həm də, guya ilahəyə dua etmək niyyəti ilə onun müqəddəs otağına girmək istəmişdir. Hökmdar ayağını qapıdan içəri qoymağa macal tapmamış kahin oturduğu yerdən durub demişdir: "Lakedemonlu yadelli, geri dön! Məbədə ayaq basma! Axı, dorilərin buraya girməsinə icazə verilmir!" Kleomen buna etiraz etmişdir: "Ey qadın! Mən dorili deyil, axeyliyəm. Beləliklə, Kleomen kahinin bəyanına məhəl qoymayıb, hər-halda, güclə (məbədə) girmiş və buna görə də öz lakedemonluları ilə birlikdə yenidən ölkəni tərk etməyə məcbur olmuşdur. Afinalılar İsaqorun qalan tərəfdarlarını buxovlayıb edam etmişlər. Edam edilənlər içərisində gücü və rəşadətli əməlləri haqqında son dərəcə çox danışa biləcəyim delfli Timesifey də olmuşdur.

73. İsaqorun tərəfdarları belə buxovlanmış və edam edilmişlər. Bundan sonra afinalılar Klisfeni və Kleomenin sürgünə göndərdiyi 700 ailəni geri qaytarmış və farslarla ittifaq bağlamaq üçün Sardaya səfirlik göndərmişlər: axı, onlar Kleomenlə və lakedemonlularla müharibə olacağına inanmışlar. Səfirlik Sardaya gəlib tapşırığı

downloaded from KitabYurdu.org

ünvana çatdıranda Sardanın satrapı, Güştəsp oğlu Artafren soruşmuşdur: "Bu hansı xalqdır, harada yaşayır və nə üçün farslarla ittifaq axtarır?" Səfirlikdən izahat alan satrap onlara belə qısa cavab vermişdir: "Afinalılar şaha torpaq və su versələr o, ittifaq bağlayar, verməsələr, onda çıxıb getsinlər". Nümayəndələr isə ittifaq bağlamaq arzusunda olub razılaşmışlar və bunun məsuliyyətini öz üzərlərinə götürmüşlər. Amma vətənə dönəndə onlar bu müstəqil hərəkətlərinə görə kəskin tənbehə məruz qalmışlar.

74. Bu vaxt Kleomen afinalıların onu sözdə və işdə təhqir etdiklərini düşünüb bütün Peloponnesdən qoşun yığmağa başlamışdır. Hökmdar yürüşün məqsədi haqqında sussa da, Afina xalqından intiqam alıb İsaqoru tiran qoymaq istəmişdir. (Axı, İsaqor onunla birlikdə akropolu tərk etmişdir.) Beləliklə, Kleomen böyük qoşunla Elevsinə gəlmiş, dilə tutulmuş beotiyalılar da Attikanın sınır kəndləri olan Enoyanı və Hissiyanı ələ keçirmişlər. O biri tərəfdən xalkidalılar hücuma keçərək Attika zəmilərini məhv etməyə başlamışlar. Afinalılar iki od arasında qalsalar da, beotiyalılar və xalkidalılarla sonra danışmaq qərarına gəlib, Elevsində peloponneslilərə qarşı çıxmışlar.

75. Hər iki qoşunun döyüşə girəcəyi anda korinflilər ədalətsiz iş tutduqlarını başa düşüb daşınmış və evlərinə qayıtmışlar. Kleomenlə birlikdə lakedemonlular ordusunun başında duran Spartanın ikinci hökmdarı Ariston oğlu Demarat da korinflilərin ardınca getmişdir. Bu vaxta qədər o, Kleomenlə razı imiş. Bu çəkişməyə görə Spartada hər iki hökmdarın birlikdə yürüşə çıxmasını qadağan edən qanun verilmişdir (axı, əvvəllər hər iki hökmdar yürüşə çıxarmış). İndi hökmdarın biri qoşuna başçılıqdan uzaqlaşdırıldığı üçün Tindarilərdən biri evdə qalmağa məcbur idi; axı, bu vaxta qədər hər iki Tindari (Sparta qoşununda) köməkçi və müdafiəçi kimi yürüşə çıxarmışlar.

76. O biri müttəfiqlər də Elevsində Lakedemon hökmdarlarının çəkişməsini, korinflilərin döyüş sıralarını tərk etmələrini görüb evlərinə qayıtmışlar. Beləliklə, dorilər dördüncü dəfə Attikaya soxulmuşlar. Onlar buraya iki dəfə düşmən kimi, iki

downloaded from KitabYurdu.org

dəfə Afina demokratiyasını müdafiə üçün gəlmişlər. Birinci dəfə Meqaridanın əsasını qoyanda gəlmişlər (bu yürüşü Afina hökmdarı Kodrun vaxtına aid etmək doğru olardı). İkinci və üçüncü dəfə Sparta qoşunu Pisistratidləri sürgün etmək üçün Spartadan çıxmışdılar. İndiki - dördüncü hücum peloponneslilərə başçılıq edən Kleomenin Elevsinə yürüşüdür. Beləliklə, dorilər dördüncü dəfə Attika torpağına girmişlər.

77. Bu düşmən qoşunu belə şərəfsizcəsinə dağılmışdır. Həmin vaxt afinalılar intiqam fikrinə düşərək qabaqca Xalkidaya müharibəyə getmişlər, beotiyalılar da xalkidalılara kömək üçün Yevripaya girmişlər. Köməyə gələn beotiyalıları görən afinalılar xalkidalıların üstünə getməkdənsə, qabaqca beotiyalılara hücuma keçmək qərarına gəlmişlər. Afinalılar beotiyalılarla döyüşə girib tam qələbə çalmışlar: çoxlu düşmən qırıb 700 adamı əsir almışlar. Elə həmin gün afinalılar üzüb Yevbeyaya keçərək xalkidalılara hücum etmiş, onlara da qalib gəlmişlər. Onlar qələbədən sonra hippobotların8 torpaqlarında 4000 köçkün klerux9 qoymuşlar. Afinalılar xalkidalı və beotiyalı əsirləri buxovlayıb zindana salmışlar. Doğrudur, bir müddətdən sonra əsirləri 2 minaya azad etmişlər. Onlara vurulan buxovları afinalılar akropoldan asmışlar. Midiyalılarla müharibədə yanğın zamanı yanıb qarsımış bu buxovlar mənim vaxtıma qədər orada qalırdı və qərb tərəfdə məbədlə üzbəüz divardan asılmışdılar. Afinalılar əsirlərin alınıb azad edilmə haqqının onda birini ilahəyə misdən dörd atlı gərdunə üçün nəzir etmişlər. Bu nəzir akropola çıxan kimi soldakı mişar yerində durur. Üstündəki kitabədə deyilir:

Afinalılar xalkidalılarla və beotiyalılarla savaşdılar

Onları zəncirə vurub qürurlarını yox etdilər.

Əsirlik iztirabdı, fidyə isə bahalıydı,

Fidyənin onda biri ilə buradakı araba yaradıldı.10

downloaded from KitabYurdu.org

78. Beləliklə, Afinanın qüdrəti artmışdır. Aydındır ki xalq üçün hüquq bərabərliyi müəyyən münasibətlə deyil, ümumən, qiymətli sərvətdir. Axı, Afina tiranların hakimiyyəti altında olanda onlar müharibədə qonşularının birin də məğlub edə bilməmişdilər. Amma indi onlar tiranlıqdan azad olub vəziyyətlərinə görə, şəksiz, birincilik qazanmışdılar. Ona görə də, görünür, afinalılar tiranların zülmü altında olanda öz ağasına işləyən qul kimi döyüşmək istəməmişlər; indi isə hər kəs azad olub, öz xoşbəxtliyi üçün çalışmışdır.

79. Afinalıların işləri bu vəziyyətdə olmuşdur. Fivalılar isə bundan sonra afinalılardan intiqam almaq məqsədi ilə Delfdə kahinə sorğu vermək üçün nümayəndələr göndərmişlər. Pifiya da cavab vermişdir: onlar təklikdə afinalılardan intiqam ala bilməzlər. Pifiya fivalılara "tam hay-küylü yığıncaq"11 çağırmağı və ən yaxşı qonşulardan kömək istəməyi buyurmuşdur. Nümayəndələr geri qayıdanda xalq yığıncağı çağırıb kahinin bəyanını onlara xəbər vermişlər. Kömək üçün yaxın qonşulara müraciət etmək haqqında nümayəndələrdən eşidən fivalılar demişlər: "Məgər tanaqralılar, koroneylər və fespiyalılar ən yaxın qonşularımız deyillərmi? Onlar həmişə bizim tərəfdə həvəslə vuruşub, bizə kömək edirlər; Biz nə üçün bunu onlardan yenə də xahiş etməliyik? Yox, kahin bəyanının mənasını düzgün yozmaq lazımdır!"

80. Yığıncaqdakı müzakirə zamanı dinləyənlərdən biri demişdir: "Mənə elə gəlir ki, kahinin bizə verdiyi bəyanın mənasını mən başa düşürəm. Rəvayətdə deyildiyi kimi, Asopun iki qızı varmış - Fiva və Egina. Onlar bacı olmuşlar, ona görə də, mənim gümanımca, ilahə eginalılardan kömək istəməyi bizə məsləhət görür". Görünür, heç kəs bundan yaxşı məsləhət verə bilmədiyi üçün, fivalılar kahinin bəyanı əsasında ən yaxşı (qohumlar) kimi eginalılardan kömək xahiş etmək üçün dərhal Eginaya nümayəndələr göndərmişlər. Eginalılar fivalıların xahişinə cavab olaraq Eakidləri onlara köməyə göndərəcəklərini vəd etmişlər.

downloaded from KitabYurdu.org

81. Fivalılar Eakidlərlə ittifaqda afinalılara hücuma keçməyə cəhd göstərib, amma ağır məğlubiyyətə uğrayanda yenidən Ekinaya elçilər göndərmişlər: onlar Eakidlərin köməyindən imtina edib adi adamların köməyini xahiş edirlər. Onda eginalılar özlərinin böyük sərvəti ilə öyünərək afinalılarla qədim düşmənçiliklərini yada salmış və fivalıların xahişi ilə afinalılara elan olunmamış müharibəyə başlamışlar. Axı, afinalılar beotiyalıları sıxışdırdıqları bir vaxtda eginalılar hərbi gəmilərdə Attikaya keçərək Faleri və sahildəki çoxlu yerləri talan etmişlər. Onlar bununla afinalılara böyük ziyan vurmuşlar.

82. Eginalılarla afinalıların lap köhnə davası da buna görə başlayıbmış: Epidavrda torpaq bar vermirmiş (epidavrlılar bu haqda Delfdə kahinə sorğu veriblərmiş. Pifiya da onlara buyurubmuş ki, Damiyaya və Avksesiyaya büt ucaltsalar, onların bədbəxtliyi sona yetər. Sonra epidavrlılar ilahədən soruşmuşlar: onlar bütü misdən düzəltsinlər, yoxsa mərmərdən? Pifaya da onlara nə ondan, nə bundan büt düzəltməyə icazə verməyib, yalnız insan əli ilə becərilmiş zeytun gövdəsindən düzəltməyi buyurmuşdur. Onda epidavrlılar afinalılardan zeytun ağacı kəsməyə icazə verməyi xahiş etmişlər, çünki onlar Afina zeytununu ən müqəddəs saymışlar. Bununla belə, deyilənə görə, o vaxt Afinadan başqa heç yerdə zeytun ağacı yoxmuş. Afinalılar epidavrlıların Palladaya və Erexveyə hər il nəzir gətirməsi şərti ilə buna razılıq vermişlər. Epidavrlılar bu şərti qəbul edərək, istədiklərini alıb həmin zeytunlardan bütlər ucaltmışlar. Bu vaxt onların torpağı yenidən məhsul verməyə başlamış və epidavrlılar öz vədlərini yerinə yetirmişlər.

83. O vaxtlar, bundan əvvəllər də, eginalılar Epidavrdan asılı olmuşlar. Məhkəmə işlərini, vətəndaşlar arasındakı mübahisələri yoluna qoymaqdan ötrü eginalılar Epidavra getməli olmuşlar. Amma həmin vaxtdan etibarən eginalılar hərbi gəmilər qayırmağa başlamışlar və düşünmədən Epidavrdan ayrılmışlar. Düşmənçilik toqquşmalarında eginalılar epidavrlılara (böyük) ziyan vurmuşlar, çünki onlar dənizdə ağalıq edirlərmiş, hətta onların xatırladılan Damiya və Avksesiya bütlərini oğurlayıblarmış. Eginalılar bu bütləri özləri ilə aparıb ölkənin dərinliklərində Eya adlı yerdə (şəhərdən təxminən 20 stadiya aralıda) ucaltmışlar. Onlar bütləri orada

downloaded from KitabYurdu.org

qoyub ilahələrə qurbanlar vermişlər və onları rəqslərlə, məsxərəli qadın xoru nəğmələri ilə rəhmə gətirmişlər. Hər ilahəyə 10 xoreq həsr etmişlər. Bu xor nəğmələrində heç vaxt kişilərə rişxənd edilməz, yalnız yerli qadınlar masqaraya qoyularmış. Belə müqəddəs mərasimlər, habelə digər gizli ibadətlər epidavrlılarda da var.

84. Bu bütlərin oğurlanmasından sonra epidavrlılar afinalılara olan öhdəliklərini yerinə yetirməmişlər. Onda afinalılar elçilərin vasitəsi ilə öz narazılıqlarını epidavrlılara bildirmişlər. Epidavrlılar isə dəlillər gətirib heç nədə günahları olmadığını bildirmişlər. Onlar demişlər ki, bu bütlər onların ölkəsində olarkən epidavrlılar öz öhdəliklərini yerinə yetirmişlər. Afinalılar da nəzirlərini eginalılardan tələb etməlidirlər, çünki bütlər indi onlardadır. Onda afinalılar bütlərin qaytarılması tələbi ilə eginalılara elçilər göndərmişlər. Eginalılar da afinalılarla heç bir alış-verişləri olmadığını demişlər.

85. Eginalılar rədd cavabından sonra, Afina rəvayətinə görə bütün icmanın adından Eginaya Afina vətəndaşlarından ibarət bir triyer göndərilmişdir. Onlar buraya gələndə Afina ağacından düzəldilmiş bütləri oturacağından qoparıb özləri ilə aparmağa cəhd etmişlər. Heykəlləri bu yolla yerindən tərpətmək mümkün olmadığı üçün afinalılar onlara buraz atıb dartmışlar. Onlar burazı çəkən vaxt qəflətən ildırım çaxmış, eyni zamanda, yer tərpənmişdir. Triyerdən burazı çəkən adamlar bu qəfil hadisədən ağıllarını itirib dəlicəsinə bir-birini düşmən kimi qırmağa başlamışlar, axırda bircə nəfər sağ qalmış, o da Falerə qayıtmışdır.

86. Afinalıların danışdıqlarına görə, əhvalat belə olmuşdur. Eginalılar isə afinalıların ancaq bir gəmidə gəlmədiklərini iqrar edirlər, axı, bir deyil, daha artıq gəmi ilə gəlmiş olsaydılar da eginalılar bu gəmilərin qarşısına çıxa bilərdilər, hətta özlərinin gəmiləri olmasaydı belə düşmən gəmilərinin öhdəsindən gələrdilər. Əslində, afinalılar onların torpağına çoxlu gəmi ilə hücuma keçmişlər, eginalılar isə, sadəcə, dəniz döyüşündən çəkinmişlər. Qərəz ki, eginalılar dəniz döyüşündən çəkinəndə zəifliklərinə görəmi belə etdiklərini, yoxsa, doğrudanmı dəniz döyüşünə

downloaded from KitabYurdu.org

girmək istəmədiklərini dəqiq izah edə bilmirlər. Demək, eginalılar döyüşə çıxmadıqlarına görə afinalılar gəmidən düşüb heykəllərin yanına getmişlər. Amma heykəlləri özüllərindən ayıra bilmədiklərindən buraz atıb dartmışlar, axırda yerindən çıxaranda heykəllərin ikisi də eyni vəziyyətdə - dizi üstə afinalıların qabağına düşmüşlər (doğrusu, mən bu rəvayətə inanmıram, amma inanan adamlar da ola bilər). Heykəllər o vaxtdan indiyə qədər həmin vəziyyətdə qalmışlar. Rəvayətə görə, afinalılar belə hərəkət etmişlər. Eginalılar isə öz rəvayətlərini belə davam etdirirlər: afinalıların gözlənilən yürüşdən xəbər tutan eginalılar, arğosluların köməyə gələcəklərinə əvvəlcədən razılıq almış afinalılar Egina torpağına girəndə arğoslular da gizlincə Epidavrdan eginalıların adasına keçib köməyə gəlmişlər. Arğoslular heç nədən şübhələnməyən afinalılara hücuma keçib onları gəmilərdən ayırmışlar. Elə bu vaxt ildırım çaxmış və yer yırğalanmışdır.

87. Arğos və Egina əfsanələrində belə deyilir. O da Afina rəvayəti ilə ancaq finalına - yəni yalnız bircə afinalının Attikaya sağ-salamat qayıtmasına görə uyğun gəlir. Arğoslular isə, bundan əlavə, bu yeganə adamın, onlar afina qoşununu qırdıqdan sonra sağ qaldığını iqrar edirlər, halbuki afinalılar qoşunlarının məhv olmasını ilahə ilə bağlayırlar. Afina rəvayətinə görə, heç bu bir nəfər də sağ qurtarmayıb, məhz belə "bir şəraitdə həlak olmuşdur: O, guya bədbəxt hadisə xəbəri ilə Afinaya gəlmişdir. Eginaya yürüşdə iştirak edən döyüşçülərin arvadları isə döyüş iştirakçılarından yalnız bu adamın xilas olduğunu bilib çox həyəcanlanaraq həmin adamı hər tərəfdən aralığa almış, (hər kəs öz ərinin yerini soruşub) onu donlarına taxdıqları sancaqla dəlmə-deşik etmişlər. Həmin adam belə həlak olmuşdur. Qadınların bu cinayəti də, görünür, afinalıları məğlubiyyətdən daha çox kədərləndirmişdir. Onlar qadınlara daha başqa bir ağır cəza tapmayaraq onları öz geyimlərini ion geyimi ilə dəyişməyə məcbur etmişlər. Axı, o vaxta qədər Afina qadınları tamamilə Korinf paltarının eyni olan dori paltarı geymişlər. İndi onlar sancaq işlətməmək üçün kətan xitonlar12 geyinməyə məcbur edilmişdir.

88. Əslində, bu geyim qabaqca ion geyimi deyil, kari geyimi olmuşdur. Axı, qədimlərdə bütün ellin qadınları indi dori geyimi adlanan paltar geyinmişlər. Buna

downloaded from KitabYurdu.org

görə də arğoslular və eginalılar isə, əksinə, qadın sancağının əvvəlkindən bir dəfə yarım uzun olmasını dəb salmaq qərarına gəlmişlər ki, qadınlar həmin ilahələrin məbədlərinə hər şeydən qabaq bu sancaqları nəzir eləsinlər. Ümumən, Attikada qayrılmış bütün şeylərin və gil qabların məbədə nəzir gətirilməsi qadağan olunmuş və məbəddə ancaq yerli gil qablarda su içmək qərara alınmışdır. Hələ mənim dövrümdə də Arğos və Egina qadınları afinalılara nifrət əlaməti olaraq əvvəlkindən uzun sancaqlar taxırdılar.

89. Afinalıların eginalılara nifrətinin ilkin səbəbi danışdığım kimi olmuşdur. İndi fivalılar eginalıları köməyə çağıranda eginalılar bütlərin xatirəsi ilə bağlı hadisələrə həvəslə cavab vermişlər. Beləliklə, eginalılar Attika sahillərini viranə qoymağa başlamışlar. Afinalılar Eginaya hücuma keçmək istəyəndə Delfdən bu məzmunda kahin bəyanı gəlmişdir: afinalılar eginalıların hücumundan 30 il keçənə qədər gözləyib 31-ci ildə Eak məbədinə nəzir verib hücuma; keçsələr, onların arzusu yerinə yetər. Onlar elə indi eginalıların əleyhinə yürüşə çıxsalar, onda göstərilən vaxt ərzində onları çoxlu məğlubiyyət və uğursuzluq gözləyir, yalnız vədə başa çatanda onlar, nəhayət tam qələbə qazanacaqlar. Bu bəyanı eşidən afinalılar, doğrudur, Eak məbədinə nəzir vermişlər (bu nəzir indi də bazar Meydanında durur), amma eginalıların təhqirlərinə 30 il sakitcə dözmək istəməmişlər.

90. Afinalılar (eginalılardan) intiqam almaq üçün yürüşə hazırlaşanda lakedemonlular bir əngəl törətmişlər. Alkmeonidlərin Pifiyanı fitnələdiklərini və Pifiyanın özlərinə və Pisistratidlərə qarşı nələr etdiyini öyrənən lakedemonlular dostlarını onların öz ölkələrindən sürgün etməli olduqlarına peşmançılıq çəkib, afinalıların nanəcibliyinə nifrətlə yanıb yaxılmışlar. Bundan başqa, afinalılardan gözlənən çoxlu bəla haqqında kahin bəyanları da onları (afinalılara qarşı çıxmağa) qızışdırmışdır. Kahinlərin bu bəyanları əvvəllər spartalılara məlum deyilmiş, yalnız indi Kleomen onları Spartaya gətirəndə həmin bəyanlarla tanış olmuşlar. Kleomen də bu bəyanları Afina akropolundan tapmışdır. Qabaqca Pisistratidlərin əlində olan bəyanları onlar sürgün ediləndə məbəddə qoyub getmişlər. Kleomen də bunları oradan götürmüşdür

downloaded from KitabYurdu.org

91. Lakedemonlular kahinlərin bu bəyanlarını ələ keçirib afinalıların qüdrətinin artdığını, artıq spartalılara tabe olmaq istəmədiklərini başa düşəndə spartalılar gələcəkdə azadlığa çıxacaq Attika xalqının qüdrətdə özləri ilə bərabərləşəcəyini görmüşlər. Onlar afinalıların tiran hakimiyyəti altında qalıb zəifləyəcəklərini və spartalılara tabe olacaqlarını düşünürmüşlər. Spartalılar bütün bunları özləri üçün aydınca izah edib Pisistratın oğlu Hippini Pisistratidlərin sürgün edilmiş olduqları Hellespontdakı Sigeydən çağırmışlar. Hippi çağırışı eşidib gələndə spartalılar başqa müttəfiqlərə də xəbərçilər göndərib onlara belə demişlər: "Müttəfiqlər! Düzgün hərəkət etmədiyimizi boynumuza alırıq. Kahinin yalan bəyanına aldanıb Afinanı itaət altında saxlayacaqlarına söz vermiş ən yaxşı dostlarımızı özlərinin doğma şəhərindən sürgün etmişik. Sonra da həmən şəhəri bizim köməyimizlə azadlığa çıxıb, indi dikbaşlıq edən nanəcib bir xalqa vermişik. Bu xalq bizi şəhərdən rüsvayçıcasına sürgün edib, indi lovğa-lovğa qürrələnir. Bunu xüsusən onların qonşuları olan beotiyalılar, xalkidalılar yaxşı hiss etməlidirlər və yəqin bunlardan hansısa yanıldığını duyacaqdır. İndi ki, biz bu səhvi buraxmışıq, gəlin bir yerdə onlardan intiqam almağa çalışaq. Buna görə də biz bu Hippini və şəhərlərdən göndərilən siz elçiləri çağırmışıq ki, bu məsələni birlikdə düşünək, ümumi qüvvəmizlə hippini Afinaya qaytarıb, əlindən aldığımız şeyləri onun özünə verək".

92. Lakedemonlular belə demişlər. Lakin müttəfiqlərin çoxu bu sözləri təqdir etməmişlər. Qalan müttəfiqlər də doğrusu, susmağı üstün tutmuşlar. Korinfli Sokn isə belə demişdir: "Lakedemonlular, doğrudan da siz şəhərlərdə tiranlığı bərpa edib, azadlığı məhv edənə qədər göylər uçub yerin altına gedər, yer havalanıb göyün üstünə çıxar, insanlar dənizdə, balıqlar isə insanların əvvəllər yaşadıqları yerdə yaşayarlar. Axı, dünyada tiranlıqdan da ədalətsiz, qanlı cinayətlərlə ləkələnmiş bir hakimiyyət yoxdur. Siz, doğrudan da, tiranların xalq üzərində hakimiyyətini gözəl və ədalətli bir iş sayırsınızsa, onda öncə üz üzərinizdə tiran qoyun, sonra da başqalarının üzərində qoyarsınız, İndi siz özünüz heç vaxt tiranlığı dadmadığınız və Spartaya belə bir hakimiyyətin gəlməməsi üçün var qüvvənizlə çalışdığınız halda öz müttəfiqlərinizlə belə ədalətsizcəsinə rəftar etmək istəyirsiniz. Siz də bunun acısını

downloaded from KitabYurdu.org

bizimlə bərabər çəkmiş olsaydınız bu haqda düzgün düşünərdiniz. Axı, Korinfdə dövlət quruluşu bax, belə olmuşdur. Korinf keçmişlərdə heç də çox olmayan (əsilzadə nəsillərin) hakimiyyəti altında qalmışdır və Bakxiadlar13 adlanan bu nəsillər şəhəri idarə etmişlər. (Onlar öz içərilərindən qız verib almışlar.14 Bu Bakxiadlardan birinin - Amfionun Labda adlı topal qızı olmuşdur. Bakxiadlara mənsub adamlardan heç kəs bu qızla evlənmək istəmədiyindən onu Petra kəndindən, əslən lapif mənşəli, Keney nəslindən olan Exekrat oğlu Eetion deyilən birisi almışdır. Onun nə bu, nə də başqa arvadından uşağı olmamışdır. İş belə düşdüyündən o, Delfə gedib nəsil barədə kahinə sorğu vermişdir. Eetion məbədə girməyə macal tapmamış Pifiya ona bax bu sözlərlə müraciət etmişdir:

Kimsənin sayğı göstərmədiyi dünyanın bütün sayğısına layiq Eetion.

Labda hamilə, cocuğu kralların başına dəyirman daşı kimi düşəcək.15

Kahinin bu bəyanı, necə olmuşsa, Bakxiadalara da çatmışdır. İndi Eetiona verilən bəyanı onlar hələ əvvəllər Korinfdə dumanlı şəkildə kahindən eşitmişdilər. Həmin dumanlı bəyan belə olmuşdur:

Qayalardan hamilə olan bir qartal.

Çoxlarının dizini titrədən güclü, həris bir aslan doğacaq.

Gözəl Priena ətrafında yaşayan və qayalar içində

Qurulmuş Korinfdə oturan korinflilər, bunlara qulaq verin.16

downloaded from KitabYurdu.org

Öncə Bakxiadlara verilmiş bu bəyanı onlar o vaxt başa düşməmişlər. İndi Eetiona verilən, bəyanı bilincə onlar dərhal başa düşmüşlər ki, əvvəlki bəyan indikinin eynidir. Onlar bəyanın mənasını başa düşüb öz rahatlıqlarını pozmamışlar, çünki Eetiondan doğulacaq körpəni məhv etmək istəyirmişlər. Eetionun arvadı doğan kimi Bakxiadlar körpəni öldürmək üçün Eetionun yaşadığı həmin kəndə adam göndərmişlər. Bax, bu adamlar Petraya gəlib, Eetionun evinə soxularaq körpəni tələb etmişlər. Labda onların nə məqsədlə gəldiklərindən qətiyyən şübhəyə düşmür. O, uşağı atasına dostluq münasibəti ilə istədiklərini fikirləşərək körpəni gətirib onlardan birinin qucağına qoyur. Yolda onlar öz aralarında şərtləşiblərmiş ki, uşağı qucağına ilk dəfə kim götürsə, o da öz əli ilə körpəni yerə atmalıdır. Labda uşağı gətirib verəndə körpə allah hikməti sayəsində gülümsəyir. Onu qucağına götürən adam təbəssümü görüb, könlünə gələn rəhmə görə uşağı öldürmək fikrindən daşınır. O, körpəni başqasına, o da bir başqasına ötürür. Beləliklə, uşaq əldən-ələ keçir və bu on adamın heç biri onu öldürməyə qıymır. Onda bunlar uşağı anasına qaytarıb evdən çıxırlar. Amma qapının ağzında dayanıb uşağı öldürməmək üstündə günahı bir-birinin üstünə ataraq köntöy sözlər deməyə başlayırlar. Xüsusən şərti yerinə yetirməyən birinci adamı-uşağı ilk dəfə qucağına alanı daha çox töhmətləndirirlər. Bir qədər keçəndən sonra onlar təzədən evə qayıdıb,. körpəni hamılıqla birlikdə öldürmək qərarına gəlirlər. Amma, sən demə, Korinf Eetion nəslindən bəla çəkməyə məhkum edilməyibmiş. Labda qapının dalındaca durduğuna görə danışıqların hamısını eşidirmiş. Adamların uşağı yenidən alıb öldürə biləcəklərindən qorxan Labda körpəni götürüb ən gizli hesab etdiyi bir yerdə-sandıqda gizlədir. O, fikirləşir ki, həmin adamlar evə qayıdıb axtarış apararlar. Onda hər yeri axtaracaqlar. Elə belə də olur. Adamlar yenidən qayıdıb hər yeri axtarır, amma uşağı tapa bilmirlər. Onda həmin adamlar evlərinə qayıdıb, onlara bu tapşırığı verənə hər şeyin əmr edildiyi kimi yerbəyer edildiyini xəbər vermək qərarına gəlirlər. Onlar evə dönürlər və şərtləşdikləri kimi də danışırlar. Eetionun oğlu da bundan sonra yavaş-yavaş boy atır. Sandıqda gizlətdiyinə görə sağ qaldığı üçün onun adını Kipsel17 qoyurlar. Gənclik

downloaded from KitabYurdu.org

yaşına çatan Kipsel Delfdə kahinə sorğu verib, ikibaşlı bəyan alır: o, bəyana arxalanıb şəhərə sahib olmağa cəhd göstərir və Korinfdə hakimiyyəti ələ keçirir. Kahin bəyanı da bax, beləymiş:

Evimə girən bu insanın bəxti var.

Korinfin şöhrətli yiyəsi Ention oğlu Kipsel.

Onun özü də, uşaqları da bəxtli olacaqlar, amma nəvələri yox.

Bu bəyan belə olmuşdur. Korinfdə hakimiyyətə keçmiş Kipsel isə çox qəddar hökmdar olmuşdur. O, korinflilərin çoxunu sürgün etmiş, qalanlarının əmlakını əlindən alıb, çoxunu da edam etmişdir. 35 illik hakimiyyətdən sonra o, öz dövranını uğurla başa vurmuşdur. Onun hökmdarlığı irsən oğlu Periandra keçmişdir. Əvvəllər atasına nisbətən mərhəmətli olsa da, elçilər vasitəsilə Miletin tiranı Frasibul ilə əlaqəyə girəndən sonra ondan daha qaniçən olmuşdur. Periandr hansı dövlət quruluşu yaratsa şəhəri yaxşı idarə edə biləcəyini soruşmaq üçün Frasibula carçı göndərmişdir. Frasibul isə həmin carçı ilə şəhərdən çıxıb onu zəmilərə gətirmişdir. Carçı ilə birlikdə zəmilərdən keçdikcə Frasibul onun Korinfdən nə məqsədlə gəldiyini dönə-dönə soruşmuşdur. Tiran, eyni zamanda başqa sünbüllərdən hündürə qalxmış sünbülləri bir ucdan qırmışdır. Qırdığı sünbülləri tullaya-tullaya axırda zəminin ən sıx və gözəl hissəsini məhv etmişdir. Carçını zəmi ilə aparan tiran heç bir cavab vermədən onu buraxmışdır. Carçı Korinfə dönəndə Periandr Frasibulun cavabı ilə maraqlanmışdır. Carçı isə heç bir cavab gətirmədiyini deyib öz zəmisini məhv edən belə ağılsız adama inanan Periandrın onun yanına carçı göndərdiyinə təəccübləndiyini bildirmişdir. Sonra o, Frasibulun yanında gördüyünü danışmışdır. Periandr isə Frasibulun bu hərəkəti ilə ona ən görkəmli vətəndaşları öldürməyi məsləhət gördüyünü başa düşmüşdür. Tiran elə o vaxt öz vətəndaşlarına böyük qəddarlıq göstərmişdir.

downloaded from KitabYurdu.org

Kipselin edamlarından və sürgünündən yaxa qurtarmış adamları indi Periandr öldürməyə başlamışdır. Sonra o, öz arvadı Melissanın ucbatından bir gün ərzində Korinfin bütün qadınlarını lüt soyundurmaq əmri vermişdir. Axı o, Fesprotiyada Axeront çayındakı ölülər kahininə elçilər göndərib bir qonaqçısının (ona saxlanca qoyulmuş) əmlakını girov qoymaq haqqında sorğu verməyi tapşırmışdır. Onda Melissanın (teyfi) gəlib nə him-cimlə, nə də sözlə əmlakın harada olduğunu bildirməyəcəyini demişdir. Axı o, tamamilə lütmüş və üşüyürmüş, belə ki, dəfn paltarı onunla birlikdə yandırılmayıbmış, ona görə də Melissa ondan istifadə edə bilmirmiş. Öz sözlərinin doğruluğuna sübut üçün o, Periandrın çörəyi soyuq sobaya qoyduğunu onun yadına salmışdır. Elçilər bu haqda Periandra bildirəndə (ondan ötəri Melissanın cavabı inandırıcı dəlil imiş, çünki o, Melissanın nəfəsi kəsiləndən sonra onunla cinsi əlaqəyə girmişdi). Bu xəbərdən sonra Periandr carçı vasitəsilə bütün Korinf arvadlarının Heya məbədinə yığışmasını əmr etmişdir. Onlar bayramlarda olduğu kimi özlərinin ən gözəl paltarlarını geyinib gəlmişlər, tiran da öz gözətçilərini pusquda qoyub bütün qadınları-istər azad qadın olsun, istər qulluqçu fərq qoymadan lüt soyundurmağı əmr etmişdir. Periandr bütün paltarları xəndəyə atıb Melissaya dua oxuyaraq yandırmağı əmr etmişdir. Bundan sonra Periandr elçiləri yenidən Fesprotiyaya göndərmişdir. Bu dəfə Melissanın teyfi qonaqçının Periandra (saxlanca verdiyi) xəzinəni gizlətdiyi yeri göstərmişdir. Lakedemonlular, baxın, tiranlıq belə olan şeydir! Baxın, tiranlar belə işlər görürlər! Biz korinflilər isə sizin hələ Hippinin dalınca adam göndərdiyinizi eşidəndə çox təəccüblənmişdik, indisə sizin danışıqlarınıza daha artıq heyrət edirik. Şəhərlərə tiranlıq gətirməmək üçün sizi ellin allahlarına and veririk! Amma siz, hər halda, ədalətin əleyhinə gedib Hippini qaytarmaqda təkid edir və bunu istəyirsinizsə, onda bilin, korinflilər sizin hərəkətinizi təqdir etməyəcəklər".

93. Korinf elçisi Sokl belə demişdir. Hippi də həmin ellin allahlarını mərhəmətə çağırıb ona belə cavab vermişdir: Pisistratidlərin qayıtmasını korinflilər hamıdan çox arzu etməlidirlər. Afinalılardan dad çəkmək günü sizə də gəlib çatar. Kahinlərin bəyanını dəqiqliyi ilə dünyada Hippi qədər heç kəs bilmədiyindən o, belə danışırdı.

downloaded from KitabYurdu.org

Qalan müttəfiqlər əvvəlcə dinməz qulaq asmışlar. Onlar Soklun açıq danışığını eşidəndən sonra bir-birinin ardınca sükutu pozub korinflilərin fikrinə qoşulmağa başlamışdır. Onlar ellin şəhərində bədxah iş görməmək üçün lakedemonluları allaha and vermişdir.

94. Bu niyyətlər, bax beləcə pozulmuşdur. Hippi də oradan getmişdir. Makedoniya hökmdarı Aminta ona Anfemunt, fessaliyalılar isə İolk şəhərini hədiyyə kimi təklif etmişlər. Hippi bu təkliflərin ikisini də rədd edib, vaxtı ilə Pisistratın mitilenalılardan qılıncla aldığı Sigeyə qayıtmışdır. Pisistrat o vaxt şəhəri alıb özünün (arğoslu qadından doğulmuş) qeyri-qanuni oğlu Hegesistratı oraya tiran qoymuşdu; o da Pisistrat vərəsəsini mübarizə ilə əldə saxlamışlar. Axı, Axilleydə və Sigeydə olan mitilenalılar və afinalılar bir-birilə daim müharibə edirdilər. Mitilenalılar Sigey bölgəsini geri istəyir, afinalılarsa onların buna hüququnu inkar edərək, qədim İlion torpaqlarında eolilərin hüquqlarının Yelenanın qaçırılması üstündə Menelayın intiqam almasına kömək etmiş afinalıların və başqalarının hüququndan heç də artıq olmadığını göstərmişlər.

95. Bu müharibələr zamanı vuruşmalarda diqqətəlayiq çox hadisələr baş vermişdir. Məsələn, bir toqquşmadan sonra afinalılar qələbə çalanda şair Alkey qaçıb canını qurtarsa da, onun silahı afinalıların əlinə keçmiş və onlar silahları Sigeydəki Afina məbədindən asmışlar. Alkey isə bu hadisəni tərənnüm edib, baş vermiş bədbəxtliyi dostu Melanippə bildirmək üçün nəğməni Mitilenaya göndərmişdir. Mitilenalıları da afinalılarla özlərinin vasitəçi seçdikləri Kipsel oğlu Periandr barışdırmışdır. O, bunları bax belə şərtlərlə barışdırmışdır: hər bir tərəf əlində nə varsa, ona da sahib olur. Beləliklə, Sigey afinalıların tərəfində qalmışdır.

96. Hippi Lakedemondan dönəndən sonra Asiyaya gəlib bütün vasitələri afinalıların əleyhinə çevirmişdir: o, afinalıları Artafrenə çuğullamış, Afinanı özünə və Daraya tabe etmək üçün əlindən gələni əsirgəməmişdir. Afinalılar Hippinin fitnələrini biləndə farsları Afina sürgünlərinə etibar etməməyə inandırmaq məqsədi ilə Sardaya elçilər göndərmişlər. Artafren isə bu sözləri elçilərə çatdırmağı

downloaded from KitabYurdu.org

buyurmuşdur: afinalılar həyatlarının qədrini bilirlərsə, onda Hippini yenə qəbul etsinlər. Afinalılarsa elçilərin xəbər verdikləri bu təklifi yerli-dibli rədd etmişlər. Təkliflə razılaşmadıqları üçün onlar farslarla açıq-aşkar müharibəyə qəti qərar vermişlər.

97. Farslarla belə bir düşmənçilik şəraitində Kleomenin Spartadan sürgün etdiyi miletli Aristaqor Afinaya gəlib çıxmışdır. Axı, Spartadan sonra bu şəhər bütün ellin şəhərləri içərisində ən güclüsü olmuşdur. Aristaqor xalq yığıncağına gəlib artıq Spartada dediklərini təkrar etmişdir. O, Asiyanın zənginliyindən, fars hərbi taktikasından, döyüşdə nə qalxan, nə də süngü işlətmədiklərindən, onları asanlıqla məğlub etməyin mümkünlüyündən danışmışdır. Miletin Afina koloniyası olduğunu və möhtəşəm bir dövlət kimi Afinanın bu şəhəri xilas etməyə borclu olduğunu da əlavə etmişdir. Aristaqor hər cür vəd verərək o qədər təkidlə xahiş etmişdir ki, axırda afinalıları inandıra bilmişdir. Görünür, çox adamı aldatmaq bir adamı aldatmaqdan asan olur. O, təkcə lakedemonlu Kleomeni yoldan çıxara bilməmiş, 30000 afinalını isə aldatmışdır. Ona görə də afinalılar ən hörmətli Afina vətəndaşlarından biri olan Melanfiyanın başçılığı altında ionlara 20 gəmi köməyə göndərməyi qərara almışlar. Bu gəmilər ellinlərin də, barbarların da bütün bəlalarının başlanğıcı olmuşdur.

98. Bundan sonra Aristaqor üzüb Miletə gələndə onun qəbul etdiyi qərarda ionlara xeyri dəyəcək heç nə gözlənirmirmiş. Aristaqorun heç bir niyyəti də olmamışdır. (O, sadəcə olaraq, şah Daranı hirsləndirmək istəmişdir.) Tiran, Mehbazın əsir kimi Strimon çayından (Asiyaya) köçürdüyü peonlar üçün Frigiyaya xəbərçi göndərmişdir. (Peonlar Frigiyada yalnız onlar üçün müəyyənləşdirilmiş yerlərdə və kənddə yaşamışlar.) Xəbərçi peonların yanına gələndə onlara belə demişdir: "Peonlar! Məni buraya Miletin tiranı Aristaqor göndərmişdir. Siz onun məsləhətinə qulaq asmaq istəsəniz sizə azadlıq təklif edəcəyini bildirməyi mənə tapşırmışdır. Bütün İaniya şahın əleyhinə üsyana qalxmışdır. İndi siz rahatca öz vətəninizə qayıda bilərsiniz. Dənizə qədər özünüz getməlisiniz, oradan o yana sizin qayğınıza qalmaq bizim boynumuza düşür". Peonlar bu sözləri eşidib sevinclə razılıq vermişlər və arvad-uşaqları ilə birlikdə tələsik dənizə tərəf getmişlər. Onların bəziləri getməyə

downloaded from KitabYurdu.org

qorxub Frigiyada qalmışdır. Peonlar sahilə gəlib oradan Xiosa getmişlər. Xiosa gəlib çatanda sahildə onları daban-dabana izləyən böyük fars atlı dəstəsi peyda olmuşdur. Farslar peonları yerlərində tapmayanda geri qayıtmaları üçün Xiosa əmr göndərmişlər. Peonlar isə tabe olmamışlar. Onda xioslular onları buradan Lesbosa göndərmişlər, lesboslular onları Doriskə aparmışlar. Peonlar oradan quru yolla Peoniyaya getmişlər.

99. Afinalılar 5 triyerin müşaiyətilə 20 gəmidə Eretriyadan gəlib çıxanda Aristaqor Sardaya yürüşə cəhd etmişdir. Eretriyalılar isə yürüşə afinalıların deyil, miletlilərin öz xatirəsi üçün, onların (köhnə) xidmətlərinin əvəzini çıxmaq istədiklərinə görə qoşulmuşdular. Axı, miletlilər eretriyalıların xalkidalılara qarşı müharibəsinə köməyə gələndə samoslular xalkidalılara kömək edib eretriyalılara və miletlilərə qarşı çıxmışdılar. Beləliklə, afinalılar və başqa müttəfiqlər gələndə Aristaqor Sardaya qarşı yürüşə başlamışdır. Amma qoşunla birlikdə getməyib, baş sərkərdəliyi iki miletliyə-qardaşı Xaropinə və Hermofant adlı şəhərliyə tapşırıb özü Miletdə qalmışdır.

100. İonlar bu donanma ilə Efesə gəlib çıxmışlar: sonra gəmiləri Efes bölgəsindəki Koresdə qoyub özləri böyük qoşunla ölkənin dərinliklərinə girmiş və efeslilərdən özlərinə bələdçilər götürmüşlər. Onlar Kaistra çayı boyunca gedərək sonra Tmolu keçib Sardaya çatmış və şəhəri maneəsiz almışlar. Onlar akropoldan savayı bütün şəhəri tutmuşlar. Akropolu isə Artofren özü böyük hərbi qüvvə ilə müdafiə etmişdir.

101. Ellinlər şəhəri alandan sonra onu bax, bu səbəbə görə yağmalamamışlar. Sardada evlərin çoxu qamışdan tikilmişdir, hətta kərpic evlərin də damı qamışdandır. Döyüşçülərdən biri evlərdən birini yandıranda alov dərhal evdən-evə keçərək bütün şəhəri sarmışdır. Şəhər yananda hər şeyi alov bürüdüyünə görə yerli əhali-lidiyalılar və şəhərdə qalan farslar çıxış yeri tapa bilməyib bazar meydanına və Paktol çayına qaçmağa başlamışlar (özü ilə qızıl qum gətirən Paktol Tmoldan axıb gələrək bazar meydanından keçib sonra Herm çayına, o da dənizə tökülür). Özünü müdafiə etməyə məcbur olmuş lidiyalılar və farslar bu Paktol qırağındakı bazar meydanına

downloaded from KitabYurdu.org

toplaşmışlar. İonlar düşmənin özünü müdafiə etdiyini, hətta bəzi hissələrin böyük dəstələrlə onlara hücuma keçdiklərini görəndə qorxu içində Tmol adlanan dağa doğru çəkilib, oradan da gecənin qara pərdəsi altında öz gəmilərinə qayıtmışlar.

102. Sarda alova qərq olmuş və şəhərlə birlikdə yerli ilahə Kibelanın məbədi də məhv olmuşdur. Bu məbədin yandırılmasını bəhanə gətirən farslar sonra intiqam üçün Elladadakı məbədləri oda yaxmışlar. O vaxt Qalisin bu tərəfindəki fars satrapları ionların hücumundan xəbər tutaraq öz qüvvələrini toplayıb lidiyalılara köməyə gəlmişlər. Sardada ionlara rast gəlməyən farslar onları dabanbasma izləyərək Efesdə haqlamışlar. İonlar döyüş qaydasınca düzülsələr də, vuruşmada darmadağın edilmişlər. Farslar çoxlu ion əyanı öldürmüşlər, onların arasında eretriyalıların sərkərdəsi, yarışlarda bir neçə qələbə qazanmış və keoslu Simonidin tərənnüm edib şöhrətləndirdiyi Yevalkid də varmış. Sağ qalan ionlar döyüşdən sonra öz evlərinə dağılmışlar.

103. Onlar o vaxtlar belə döyüşmüşlər. Bundan sonra afinalılar ionları taleyin ümidinə qoymuşlar. Aristaqor isə elçilər vasitəsi ilə onlardan təkidlə kömək istəyəndə, afinalılar cavablarında onlara daha kömək etməyəcəklərini demişlər. Beləliklə, ionlar afinalıların köməyindən məhrum olsalar da, şaha qarşı müharibəni davam etdirmişlər. Axı, Dara qarşısında onların günahı son dərəcə böyük olmuşdur. Onlar Hellesponta üzüb gedərək Bizansı və bu bölgədəki bütün şəhərləri tabe etmişlər. Sonra da Hellespontu tərk edib Kariyanın böyük hissəsini öz tərəflərinə çəkmişlər. Hətta, əvvəllər onlara qoşulmaq istəməyən Kavn da Sarda yandırılandan sonra onlarla ittifaqa girmişdir.

104. Amafuntlulardan başqa Kiprin bütün əhalisi könüllü sürətdə ionlarla birləşmişlər. Axı, kiprlilər midiyalılardan bax bu yolla qopub ayrılmışlar: onlarda Yevelfontun nəticəsi, Siromun nəvəsi, Xersisin oğlu, Salamin hökmdarı Qorqun kiçik qardaşı olan Onesil adlı birisi varmış. Bu adam hökmdar Qorqu şahdan qopmaq üçün əvvəllər də tez-tez dilə tuturmuş, indi ionların üsyanını eşidib öz fikrində daha bərk təkid etmişdir. Onesil Qorqu inandıra bilməyəndə öz tərəfdarları ilə birlikdə

downloaded from KitabYurdu.org

Qorqun salaminlilər şəhərindən çıxmasını güdüb onun arxasınca şəhər darvazalarını bağlatdırmışdır. Beləliklə, şəhərdə hakimiyyətdən məhrum olan Qorq midiyalıların yanına qaçmağa məcbur qalmışdır. Onesil isə indi Salaminə hakim olub bütün kiprliləri üsyana qaldırmağa çalışmışdır. O şəhərin qalan bütün əhalisini buna inandırmağa nail olmuşdur. Yalnız amafuntlular tabe olmaq istəmədiklərindən Onesil onların şəhərini mühasirəyə almışdır.

105. Onesil Amafunt şəhərini beləcə mühasirəyə alır. Şah Dara da bu arada afinalıların və ionların Sardanı alması və yandırması xəbərini eşidir, bu basqının baisi və günahkarının da məhz bu işi qarışdıran miletli Aristaqor olduğunu öyrənir. Bu xəbəri eşidən şah, deyilənə görə, əvvəlcə ionlara heç məhəl qoymayaraq yalnız afinalıların kim olduğunu soruşmuşdur (o, bu üsyanın ionlara, hər halda, baha oturacağını yaxşıca bilirmiş). Bu da şaha bildiriləndən sonra şah öz yayını istəmiş, oxu yaya qoyaraq çəkib göyə atmışdır. Ox havada uçanda demişdir: "Zevs!18 Afinalılardan intiqam almağıma icazə ver!" Deyilənə görə, bu sözlərdən sonra o, xidmətçilərindən birinə hər nahardan sonra bu sözləri onun qarşısında təkrar etməyi əmr etmişdir: "Ağam! Afinalıları yadına sal!".

106. Bundan sonra, Dara çoxdan öz yanında saxladığı miletli Histieyi hüzuruna gətirməyi buyurub ona demişdir: "Histiey, Mileti tapşırdığın varisinin mənim əleyhimə üsyan qaldırdığını eşidirəm. O, dünyanın o biri başından adamları, onlarla birlikdə ionları da gətirmişdir (əlbəttə, onlar bu iş üçün muzdlarını alacaqlar), onları dilə tutub yürüşə göndərərək Sardanı dağıtmışdır. Sən bilən, bu yaxşı işdirmi? Sənin məsləhətin olmadan belə şeylər necə baş verə bilərdi? Bax, sonra öz bəxtindən küsməyəsən! Histiey buna cavab vermişdir: "Şah! Bu nə sözdür, deyirsən? Yəni, mən kimisə hər hansı bir işə təhrik edə bilərəm ki, sonra da səndən böyük və ya kiçik bəlalar törəsin? Məgər səndə olan hər şey məndə yoxdur, məgər mən sənin bütün niyyətlərinin iştirakçısı olmaq şərəfinə layiq görülməmişəm. Mənim canişinim, doğrudan da, sən dediyin hər hansı bir iş törədibsə, bunu bil, onu öz təşəbbüsü ilə etmişdir. Doğrusu, miletlilərin və canişinimin sənin dövlətinə qarşı üsyan etməsinə inana bilmirəm. O, hər halda bir iş tutubsa, sənin eşitdiyin də doğrudursa, onda şah,

downloaded from KitabYurdu.org

başa düş ki, məni dənizdən ölkənin içərisinə göndərməklə necə səhv eləmisən. Mən onların gözündən iraq olan kimi ionların çoxdan cəhd göstərdikləri bir işə əl atmaları aydın məsələdir. Mən İoniyada olsaydım, onda bircə şəhər də üsyan qaldırmağa cəsarət etməzdi. Ona görə də məni tezliklə İoniyaya göndər, gedib orada əvvəlki vəziyyəti bərpa edim və hər şeyə günahkar olan Miletdəki sərdarımı sənə təslim edim. Sənin iradənlə bu işin öhdəsindən gələ bilsəm, onda ən böyük adamlardan olan Sardonu sənə bac verməyə məcbur etməyincə əynimdəki xitonu çıxarmayacağıma sənin şah allahların qarşısında and içirəm".

107. Histiey belə sözlərlə şahı aldatmağa çalışırdı, Dara isə doğrudan da inanıb onu buraxmış və öz vədini yerinə yetirəndən sonra Susa qayıtmasını əmr etmişdir.

108. Sardanın alınması xəbərinin şaha çatması, Daranın yaydan ox atması, Histieylə söhbəti, Dara Histieyi buraxandan sonra onun dənizə gəlməsi-bütün bu vaxt müddətində belə hadisələr olmuşdur: salaminli Onesil amafuntluları mühasirəyə alanda başda fars Artibi olmaqla böyük fars ordusunun gəmilərlə Kiprə yaxınlaşdığını ona xəbər vermişlər. Bunu eşidən Onesil İoniya şəhərlərinə xəbərçilər göndərib kömək xahiş etmişdir. İonlar isə çox da götür-qoy etmədən böyük qoşunla dərhal köməyə gəlmişlər. Beləliklə, ionlar Kiprə gəldikləri halda, farslar Kilikiyadan keçərək, quru yolla Salaminə gedib çatmışlar. Finikiyalılarsa gəmilərdə "Kiprin açarları" adlanan burunu ötüb keçmişlər.

109. Hadisələr belə dönüşə düşəndə Kipr tiranları İoniya sərkərdələrini çağırıb onlara demişlər: "İonlar! Biz kiprlilər iki şeydən birini seçməyinizə imkan veririk: Siz kimlərə hücuma keçmək istəyirsiniz-farslara, yoxsa finikiyalılara? Siz quru qoşununa hücuma keçməyi üstün tutursunuzsa, onda gərək gəmiləri buraxıb quruda döyüşə hazırlaşasınız. Biz isə finikiyalılarla vuruşmaq üçün gərək sizin gəmilərinizə doluşaq. Bunun əksinə, siz finikiyalılarla qüvvənizi sınamaq istəyirsinizsə, onda qoy siz deyən kimi olsun! Bunların hansını seçəsi olsanız, İoniyanın və Kiprin azadlıq əldə etməsi üçün əlinizdən gələni edin. İonlar buna belə cavab vermişlər: ionların ittifaqı bizi dənizi qorumağa göndərib, gəmilərimizi sizə verib farslarla quruda

downloaded from KitabYurdu.org

vuruşmağa yox. Beləliklə, bizə harada döyüşməyi tapşırıblarsa, öz borcumuzu orada qeyrətlə yerinə yetirəcəyik. Siz isə özünüzün fars zülmü altında çəkdiyiniz əzabı yada salıb farslarla cəsurcasına vuruşmalısınız".

110. İonların cavabı belə olmuşdur. Farslar Salamin düzənliyinə çıxanda kiprlilərin hökmdarları Kiprin başqa şəhərlərinin döyüşçülərini hərbi qaydada düzərək onları fars qoşunu içərisindəki başqa qəbilələrin döyüşçülərinə qarşı, Salamin qoşunlarının qaymağını və Sola şəhəri döyüşçülərini isə farsların özlərinə qarşı qoymuşlar. Onesil özü isə könüllü olaraq farsların sərkərdəsi Artibiyə qarşı dayanmışdır.

111. Artibi isə qoplit qarşısında şahə qalxmağa öyrədilmiş at belində gəlmişdir. Onesil bunu bilib özünün silahdaşıyanı, əslən kariyalı olan, sınanılmış və igid döyüşçüyə demişdir: "Artibinin atının şahə qalxıb düşməni dırnaqları ilə vurduğunu, dişi ilə gəmirdiyini eşitmişəm. İndi fikirləş və mənə tez cavab ver, görüm kimi nişan almaq və vurmaq istəyirsən: atı, yoxsa Artibinin özünü?" Silahdaşıyan buna cavab vermişdir: "Hökmdar! Mən bunu da, onu da, yaxud ikisindən birini, ümumən, sənin hər hansı əmrini yerinə yetirməyə hazıram. Amma onu deməliyəm ki, mənim fikrimcə, bu iş sənin şəninə yaraşır: deyirəm, hökmdar və sərkərdə hökmdar və sərkərdə ilə vuruşmalıdır. Sən sərkərdəyə qalib gəlsən, şöhrətin ucalar, hətta, əgər ləyaqətdə özünə tay rəqibin əli ilə aşırılsan da (belə ola bilməz) elə böyük bir bədbəxtlik olmaz. Biz nökərlərə isə başqa nökərlərlə və atlarla vuruşmaq yaraşır. Atın ədasından isə qorxma! Mən sənə söz verirəm, o, bundan sonra bir də şahə qalxmayacaq".

112. O, belə demiş və elə həmin anda quruda və dənizdə döyüş başlamışdır. Həmin gün gəmilərdə ionlar cəsurcasına vuruşmuş və finikiyalılara qələbə çalmışlar, onların arasında isə samoslular xüsusi fərqlənmişlər. Quruda isə hər iki ordu üz-üzə gələn kimi əlbəyaxa olmuşlar. Hər iki sərkərdəyə gəldikdə isə əhvalat belə olmuşdur. Yalnız Artibi at belində Onesilin üstünə çapmışdır. Onesil də silahdaşıyanı ilə

downloaded from KitabYurdu.org

şərtləşdiyi kimi, Artibinin özünə zərbə endirmişdir. Artibinin atı Onesilin qalxanını dırnağı ilə vuranda kariyalı oraqla vuraraq onun ayaqlarını kəsmişdir.

113. Fars sərkərdəsi Artibi öz atı ilə birlikdə burada həlak olmuşdur. Bu arada, o biri kiprlilər də (cəsurcasına) döyüşdükləri halda Kuri tiranı Steosnor kifayət qədər böyük dəstə ilə xaincasinə döyüş meydanını tərk etmişdir (deyilənə görə, bu kurililər Arğos köçkünləri olmuşlar). Kurililərin xəyanətindən sonra salaminlilərin döyüş gərdunələri də dərhal onların ardınca getmişlər. Onda farslar kiprlilərə üstün gəlmişlər. Qaçarkən çoxlu kiprli, yeri gəlmişkən deyim ki, kiprlilər üsyanının səbəbkarı Xresi oğlu Onesil, habelə solalıların hökmdarı, afinalı Solonun Kiprə gələrkən şerlərində bütün hökmdarlardan üstün tutaraq mədh etdiyi Filokipr oğlu Aristokipr də həlak olmuşdur.

114. Amafuntlular öz şəhərlərini mühasirəyə almış Onesilin meyitinin başını kəsib onu Amafunta gətirmiş və orada şəhər darvazalarının üstündən asmışlar. Boş kəllədə arı beçəsi pətək qurmuş və onu bal şanı ilə doldurmuşdur. Amafuntlular bu haqda kahinə sorğu verəndə kahin başı götürüb dəfn etməyi, Onesilə isə bir qəhrəman kimi hər il qurban gətirməyi və bunun onlara xeyirli olacağını buyurmuşdur.

115. Amafuntlular belə də etmişlər və bu günə qədər ona qurban gətirirlər. Kiprdə dəniz döyüşündə vuruşan ionlar Onesilin işinin bitdiyini və Salamindən başqa (Salamin əvvəlki hökmdarı Qorqa verilmişdi) kiprlilərin qalan şəhərlərinin mühasirədə qaldığını biləndə İoniyaya üzüb getmişlər. Kiprin şəhərləri içərisində mühasirəyə düşmüş Sola hamısından artıq müqavimət göstərmişdir. Yalnız mühasirənin beşinci ayında farslar hər tərəfdən divara lağım atmaqla şəhəri ala bilmişlər.

116. Beləliklə, kiprlilər bir illik azadlıqdan sonra yenidən fars boyunduruğu altına düşmüşlər. Daranın qızına evlənmiş Davris, eləcə də Daranın kürəkənləri olan fars sərkərdələri- Himey və Oton Sardaya hücum etmiş ionları təqib etmişlər. Farslar

downloaded from KitabYurdu.org

döyüşdə onları üstələyib gəmilərə doğru sıxışdırmış, sonra da qoşunu bölərək şəhərləri istila etməyə başlamışlar.

117. Davris isə Hellespont şəhərlərinin üstünə gedərək Dardanı almışdır; sonra o Abidosu, Perkotanı, Lampsakı və Pesi də almışdır; hər şəhər məhz bir gün ərzində alınmışdır. Pesdən Pari şəhərinə qədər olan yolda farslar kariyalıların ionlarla birləşib üsyan etmələri xəbərini almışlar. Onda Darvis Hellespontdan çıxıb kariyalıların üstünə getmişdir.

118. Kariyalılar isə bu haqda, yəqin, Davris gələnə qədər xəbər tutmuşlar. Bunu bilən kariyalılar İdriada bölgəsindən axıb gələn və Meandra tökülən Marsi çayındakı "Ağ sütunlar adlanan yerə toplaşmışlar. Kariyalıların yığıncağında çox məsləhətlər təklif edilmişdir. Mənim fikrimcə, onların ən yaxşısı kindiyalı Mavsolun oğlu, Kilikiya hökmdarı Siennesinin kürəkəni Piksodarın təklifi olmuşdur. O, kariyalıların Meandrı keçib, çayı arxada qoyaraq vuruşmalarını təklif etmişdir. Onda kariyalılar geri qaçmaq imkanını itirib, öz yerlərində qalmağa və rəşadət möcüzəsi göstərməyə məcbur olacaqlarmış. Amma bu məsləhət bəyənilməmişdir. Kariyalılar Meandrın farsların arxasında qalmasını üstün tutmuşlar: axı, farslar döyüşü uduzub qaçmağa başlasalar, onda, yəqin çaya atılmalı olarlar və oradan sağ çıxa bilməzdilər.

119. Bundan sonra farslar Meandra yaxınlaşıb onu keçmişlər. Farsların kariyalılarla amansız döyüşü Marsi çayında başlayıb çox uzun sürmüşdür, axırda farslar özlərinin say çoxluğuna görə üstün gəlmişlər: farslardan 2000, kariyalılardan 10.000 döyüşçü həlak olmuşdur. Döyüş meydanından qaçanlar Labraindadakı Strati Zevsi məbədində məhz böyük müqəddəs çinar ormanında gizlənmişlər. (Məlum olduğu kimi kariyalılar Strati Zevsinə qurban gətirən yeganə xalqdır.) Beləliklə, orada gizlənmiş qaçqınlar özlərinin necə xilas ola biləcəyi barədə məsləhətləşməyə başlamışlar: farslara təslim olmaq, yoxsa daha yaxşısı, Asiyanı tamamilə tərk etmək.

120. Bu arada, elə məsləhətləşmə gedərkən, miletlilər və başqa müttəfiqlər köməyə gəlmişlər. Onda kariyalılar elə indicə müzakirə etdikləri planları kənara

downloaded from KitabYurdu.org

qoyub döyüşə hazırlaşmağa başlamışlar. Farslar onlara hücuma keçəndə kariyalılar döyüşə girmiş və əvvəlkindən daha amansızcasına vuruşmuş, amma yenə məğlub olmuşlar. Hər iki tərəf böyük itki vermişdir. Həm də miletlilər xüsusilə zərər çəkmişlər.

121. Bununla belə, bu müsibətdən sonra kariyalılar özlərinə gələ bilmiş, hətta, öz məğlubiyyətlərinin izini də silməyə başlamışlar. Onlar farsların Kariya şəhərlərinə doğru yeridiklərini eşidib Pedas yolunda pusquda durmuşlar: gecə farslar pusquya düşüb məhv edilmişlər. Onların, hətta, sərkərdələri-Davris, Amorq və Sisimak, habelə onlarla birlikdə Qikes oğlu Mirs də həlak olmuşdur. Bu pusqunun başçısı isə milaslı İbanollinin oğlu Heraklid olmuşdur.

122. Bu fars qoşunu belə məhv edilmişdir. Sardaya yürüşün iştirakçıları olan ionları izləyən ikinci fars sərkərdəsi Himey də Propontida istiqamətində gedib Misiyanın Kios şəhərini almışdır. Sonra Davrisin Hellespontu buraxıb Kariyaya yürüş etdiyini eşidən Himey Propontidanı buraxıb, qoşununu Hellesponta çəkərək İlion bölgəsindəki bütün Eoliya şəhərlərini tutmuşdur; o, qədim tevkrlərin qalıqları olan herqifləri də tabe etmişdir. Amma Himeyin özü bu şəhərləri və qəbilələri tabe edərkən xəstələnmiş və Troadada ölmüşdür.

123. Himey ömrünü belə başa vurmuşdur. Sardanın satrapı Artafren və üçüncü sərkərdə Otan isə İoniyaya və qonşu Eoliyaya qarşı yürüşə çıxmaq əmri almışdır. Onlar İoniyada Klazomenanı, Eoliyada isə Kimanı almışlar.

124. Bu şəhərlər düşmən əlinə keçəndə miletli Aristaqorun igidliyi ilə fərqlənmədiyi üzə çıxmışdır. İoniyanı həyəcana salıb böyük qarışıqlıq törədən həmin adam bunu görərək qaçmaq fikrinə düşmüşdür. Həm də, Daraya üstün gəlməyin mümkün olmadığı ona aydın olmuşdur. Məhz buna görə də o, öz tərəfdarlarını çağıraraq gələcəkdə Miletdən qovularlarsa, onda indidən təhlükəsiz sığınacaq düzəltməyi məsləhət görmüşdür. Bu məqsədlə o, öz tərəfdarlarından soruşmuşdur: onları Miletdən çıxarıb Sardonda, yaxud Histieyin Daradan hədiyyə alıb

downloaded from KitabYurdu.org

möhkəmləndirdiyi Edoniya19 ölkəsindəki Mirkində məskunlaşdırmasını istəyirlərmi?

125. Aristaqor onlara belə sual vermişdir. Loqoqraf Hekesandr oğlu Hekatey isə nə Sardonda, nə Mirkində məskən salmaq deyil, Leros adasında qala tikmək və Miletdən qovularlarsa, orada rahat oturmaq lazım olduğunu məsləhət görmüşdür.

126. Bu məsləhət Hekateyindir. Aristaqor isə Mirkində məskən salmağı daha əlverişli saymışdır. O, Mileti idarə işində nüfuzlu vətəndaş olan Pifaqora tapşırıb, özü arzu edənlərin hamısını götürərək Frakiyaya üzüb getmiş və orada gözaltı etdiyi yeri tutmuşdur. Aristaqorun özü və dəstəsi frakiyalılara qarşı yürüşlərin birində mühasirəyə aldığı bir Frakiya şəhərinin əhalisinə müqavilə əsasında sərbəst şəkildə oradan çıxmağa icazə verdiyi vaxt düşmən əli ilə xaincəsinə həlak edilmişdir.

downloaded from KitabYurdu.org

ANTİK ÖLÇÜLƏR

Uzunluq və sahə ölçüləri

Barmaq - 18,5 mm

Dirsək - 440,0 mm

Şah dirsəyi - 532,3 mm

(Piqon) dirsəyi-20 barmaq - 385,3 mm

Orgiya - 1.776 m

Fərsəng - 5549 m

Plefr -29.6 m

Attika stadiyası - 177.6 m

Olimp stadiyası - 192.27 m

Misir sxeni - 445.20 m

Attika arurası - 0.024 qa2

Misir arurası - 0,2 qa2

Çəki və həcm ölçüləri

downloaded from KitabYurdu.org

Qızıl dareyk - 8,4 q

Draxma (ovuc) - 4.336 q

Mina - 341.20 q

Fars minası - 420.00 q

Gümüş talant - 33.655 kq

Attika talantı - 26.196 q

Kaif - 0,045 l

Kotila - 0,275 l

Fars arbatası - 55,08 l

Attika medimi - 52.5 l

Metret - 38.88 l

Amfora - 40 l

Xalk - 0.09 q

Xenik - 1.08 l

Xus - 3.24 l

downloaded from KitabYurdu.org

İzahlar

1 Peon qələbə şərəfinə oxunan nəğmədir; nəqəratı "Ey Peon" çağırışıdır. Peon müxtəlif allahların, xüsusən Apollonun təxəllüsü olmuşdur (Q. A. Stratanovski).

2 Homerin "Odisseyası"ndan bir ifadədir.

3 Bu Mehabat Mehabazın atasıdır.

4 Yunanıstan və yunan adının kökü mifik şəxs olan Ksuf oğlu İondandır. (İon-yunan) xalqın eponimidir. Filaların yeni ərazi birləşmələri zadəganlığın dayağı olan qədimdən qalma nəsli filaları dəyişmişdir.

5 Giatlar - donuz otaranlar, oneatlar - qoduğa baxanlar, xereatlar - çoşqa saxlayanlar.

6 Hilley - Heraklın oğlunun adı. Pamfila - Kiçik Asiyada yer adı. Dimanta - Peloponnesdə şəhər adı.

7 Navkrari - hər Attika filası 12 navkrariliyə-ərazi bölgələrin bölünmüşdür. O vaxt bu navkrarilərin rəisləri həm də hakimiyyət başında durmuşlar.

8 Hippobotlar - atlılar deməkdir. İri torpaq sahibləri olan Xalkida varlıları belə adlanırdı.

9 Klerux - xırda kəndlilər. Bu köçkün kleruxlar "yekə qarınlara", yəni, varlılara qarşı qoyulmuşlar.

10 "Herodot tarixi", İstanbul, 1973, səh. 228.

downloaded from KitabYurdu.org

11 Homerin "Odisseya"sından gələn ifadədir.

12 "X i t o n" sözü kariyalılardan alınmadır.

13 Bakxiadlar - e. ə. 657-ci ilə qədər Korinfdə hakimiyyət sürmüş qədim nəsil. Onlar öz mənşəyini dorilərin hökmdarı Bakxiada aparıb çıxarırmışlar.

14 Bakxiadaların öz qəbiləsi içərisindən qız verib, qız alması (qohum olması) Midiyada mağların, Misirdə donuzabaxan təbəqələrin dəbini xatırladır.

15 "Herodot tarixi", İstanbul, 1973, səh. 232.

16 Yenə orada.

17 Yunan sözü Kifelos yeşik, sandıq mənası verir (Q. A. Stratanovskinin şərhindən götürülmüşdür).

18 Yəni, Ahuramazda!

19 Edoniya Makedoniyadadır. Edoniyalılar Strimondan şərqdə yaşayan "Frakiya xalqlarından olmuşdur. (Q. A. Stratanovskinin izahları).

End of the Text

downloaded from KitabYurdu.org